# MASONLAR

**Toplu**

**I Kitab**

**Qanun – 2010**

Az2

*Tərtibçilər:* **Mirzə Ənsərli (Ləmbəli),**
**Saleh Dostəliyev,**
**Gülsən Qurbanova**
*Azərbaycan MEA Z.M.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun əməkdaşları*

**Masonlar.** *Materiallar toplusu. I.*
Bakı, Qanun, 2010, 356 səh.

Topluda Avropa ölkələrində, Amerikada, Rusiyada, Türkiyədə, İranda və Azərbaycanda (xüsusilə Naxçıvanda) fəaliyyət göstərmiş masonlar haqqında məlumatlar verilir. Toplu tədqiqatçılar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$Q\frac{0700070110}{AB\ 022051}$

Az2

© QANUN, 2010

# ÖN SÖZ

Masonluq adlanan beynəlxalq miqyaslı bir gizli təşkilatın yaranması və fəaliyyəti haqqında Azərbaycan mətbuatında da SSRİ dağıldıqdan, yəni 90-cı illərdən sonra məqalələr görünməyə başladı. Halbuki, bu haqda hələ 70-80-ci illərdə Rusiyanın mətbuat orqanlarında və nəşriyyatlarında nəşr olunmuş müəyyən materiallara rast gəlmək olurdu. Biz burada Lev Nikolayeviç Tolstoyun azərbaycan dilinə tərcümə olunmuş «Hərb və Sülh» əsərinin (ikinci və üçüncü cildlərdə) bəzi yerlərində masonlar və onların fəaliyyətləri haqqında epizodları oxumuşduq. 70-ci illərdə **P.A.Orlovun** «Rus sentimentalizmi» (Moskva, 1977), **N.N.Yakovlevin** «1 avqust 1914-cü il» (Moskva, 1974) əsərləri oxuculara tanış idi. Bu mövzuya maraq getdikcə artdığından 80-90-cı illərdə, tarix elmləri doktoru **V.Startsevin** «Görünən hakimiyyətin pərdəarxası» (Moskva, 1984) əsəri, «Voprosı istoriya» jurnalının səhifələrində **O.F. Solovyevin** və **M.F.Zubovun** məqalələri, **A.Ya.Avrexin** «Masonlar və inqilab» (Moskva, 1990, 350 s.) və **A.Klizovskinin** «Masonluq haqqında həqiqət» (Riqa, 1990, 31 s.) əsərləri nəşr olundu. 2000-ci ildən sonra Rusiya bu mövzuya aid daha sanballı və arxiv sənədlərinə əsaslanan əsərlər ortaya qoyuldu. Biz nümunə olaraq «Masonlar, tarix, ideologiya, gizli kult» [**S.P.Melqunovun** və **N.P. Sidorovun** redaktorluğu ilə (Moskva, 2005, 496 s.). Bu əsər «Masonluq keçmişdə və indi» başlığı ilə hələ 1914-1915-ci illərdə nəşr olunmuşdu]. **Y.Bequnovun** «Masonluğun gizli tarixi» (Moskva, 2007, 704 s.), **T.O. Sokolovskayanın, D.D.Lotarevanın** «Rus masonlarının gizli arxivi» (M., 2007, 480 s.), **S.P.Karpaçevin** «Gizli mason ordenləri» (M., 2007, 352 s.) və **O.F.Solovyevin** «Rus masonları» (M., 2007, 544 s.) əsərlərini göstərə bilərik.

Bu mövzu Avropa ölkələrində də tədqiqatçıların həmişə maraq dairəsində olmuşdur. Polşada **Ayudvix Hass** üççildlik əsər yazaraq Orta-Şərqi Avropa ölkələrində XVIII əsrdən İkinci Dünya müharibəsinin başlanmasına qədər masonların fəaliyyətləri haqqında geniş məlumat vermişdir [(«Orta-Şərqi Avropada mason-luq» (XVIII-XIX əsr), I cild, Varşava, 1982; II cild (1905-1928), Varşava, 1984; III cild (1929-1941), Varşava, 1987)]. Masonlar haqqında XIX-XX əsrlərdə ingilis dilində Amerika və İngiltərədə də maraqlı nəşrlər olmuşdur. Onlardan **H.Boksun** («Azad masonluğun təbiəti», 1952), **E.Kahılın** («Azad masonluq və anti-xristianlıq hərəkatı», «Dublin, 1952)», **Riçard Karlaylın** («Azad masonluğun əl kitabı», London, 1845), **R.F.Qouldun** («Azad masonluğun tarixi», Kakston, 1951), **Revyon Lorensin**

(«Azad masonluq – xilas yolu?», 1982), **E.Lanhottun** («Azad masonlar», London, 1934), **Uilyam Morqanın** («İfşa edilmiş azad masonluq», Qlazqou, 1836), **Dr.L.Ramslın** («Katoliklər və azad masonluq»), **H.Turstonun** («Azad masonlar»), **J.Vilyamın** («Xristianlıq və Amerika azad masonluğu», 1958), **Stefan Naytın** («Masonların Gizli Dünyası» London, 1983. Bu əsər sonralar 1990-cı ildə İstanbulda türk dilinə tərcümə olunaraq çap edilmişdir) və başqalarının adlarını çəkə bilərik.

Avropada və Amerikada masonlar aşağıda adları çəkilən jurnalları da nəşr etmişdilər:

- «Azad masonların jurnalı və mason güzgüsü»;
- «Azad masonların aylıq yaddaş kitabçası»;
- «Azad masonların rüblük bülleteni»;
- «Mason meydanı».

Türkiyədə masonluq və masonlar haqqında araşdırmalar XX əsrin 50-ci illərindən sonra genişlənməyə başladı.

Bu tədqiqatçılardan **M.Sakarya** («Masonluq haqqında mücməl fikirlər», «İzmir, 1952»), **C.R.Atilxan** («Tarixdə və günümüzdə masonluq», İstanbul, 1964; «Öz vəsiqələrinə görə masonluq nədir?», İstanbul, 1964; «Farmasonluğun yırtılan maskası», Ankara, 1956; «Farmasonluq: insanlığın kanseri», İstanbul, 1970; «Dünya nəzərində yəhudilik və masonluq», İstanbul, 1962), **K.Apak**. («Ana cizgiləri ilə Türkiyədə masonluq tarixi», İstanbul, 1958»), **F.Ülki** («Dünyada və Türkiyədə masonluq», İstanbul, 1965), **P.Navdon** («Tarixdə və günümüzdə masonluq», İstanbul, 1968), **L.N.Yılanlığoğlu**» («Üç böyük təhlükə: sionizm, kommunizm və masonluq», İstanbul, 1968), **J.N.Gün, Y.Çeliker** («Masonluq və masonlar», İstanbul, 1968), **M.V.Onat**, («Yaxın tariximizdə masonluğa aid bir araşdırma», İstanbul, 1971), **N.Sevinc** (Ordular, masonlar və kommunistlər», İstanbul, 1971), **İ.Soysal** («Türkiyə və dünyada masonluq və masonlar», İstanbul, 1978), **Prof. Dr.Mim Kamal Öke** («Müqəddəs torpaqlarda sionistlər və masonlar», İstanbul, 1971)» və **Harun Yəhyanın** [«Masonluq və Kapitalizm», İstanbul, 1992; «Masonluq və yəhudilik», İstanbul, 1992; «Yeni mason nizamı (Dünyanın 500 illik gerçək tarixi və dünyanı gizli idarə edənlər»), VI nəşr, İstanbul, 2004, 770 s.] adlarını xüsusi olaraq çəkə bilərik.

**Prof. Hikmət Tanyunun** («Tarix boyunca yəhudilər və türklər», cilt I, İstanbul, 1976, cilt II, İstanbul 1977), **M. Şükrü Hanioğlunun** («Bir siyasi təşkilat olaraq İttihat və Tərəqqi Cəmiyyəti və Gənc Türklük, 1889-1902», İstanbul, 1985) və **Camal Kutayın** («Bilinməyən tariximiz», cilt, VII, İstanbul, 1968) əsərlərində də masonluq və masonlar haqqında müəyyən məlumatlar verilmişdir. Türkiyədə masonlar «Böyük Şərq» (1931-1935),

«Türk mason dərgisi» (1951-1953), «Memar Sinan (1972) jurnalları da nəşr etdirmişdilər.

Bu mövzu iranlı tədqiqatçıların nəzərindən də kənarda qalmamışdır. Biz onlardan **Mahmud Mahmud, Rəhim Rəisniya** («İran və Osmanlı XIX əsrin astanasında, Tehran, 1374), **İsmayıl Rainzadə, Kərim İmami** (1971-1993-cü illərdə İngiltərənin İranda səfiri olmuş Denis Raytın «Farmasonluq – ingilislərin gizli silahıdır» əsərini fars dilinə tərcümə etmişdir), **Tağı Şahin, Hamid İlqar, Mehdi Məlikzadə, İ.İlyin, K.Çaykin, M.Bahar, Nazimüs-səlam Kirmani, Firudin Adəmiyyət** və **Mahmud Kətirani** kimi şəxslərin adlarını çəkə bilərik.

Onlar XIX-XX əsrlərdə İranda fəaliyyət göstərmiş qeyri-müsəlmanların və masonların haqqında araşdırmalar apararaq müəyyən nəticələrə gəlmişdilər.

Yuxarıda da qeyd etdiyimiz kimi masonlar haqqında 90-cı illərdə Azərbaycanda da əsərlər və məqalələr çap olunmağa başladı.

Biz bunlardan **Bəxtiyar Tuncayın** «Masonluq və Azərbaycan» («Müsavat» qəzeti), **Oqtay Eldəgəzin** «Masonçuluq burjuaziyanın gizli fəaliyyəti ilə bağlı olan bir əməldir» («Əlillər» qəzeti, 19-39.03.2000), **Mirzə Ənsərlinin** «Türkiyə masonları tarixindən» (Qanun, 1999) və «Türkiyədə masonların və sionistlərin fəaliyyəti» (Ocaq, 2007), **Sultan Məmmədovun** «Masonluq: dünyanı idarə edən qüvvə» (Qanun, 2007), **Ədalət Əliyevin** «İnsan və hakimiyyət, planetin dağılması (Bakı, 2005, rus dilində»), **Əsiz Mustafanın** «Çağdaş Türkiyədə masonlar» («Geopolitika» qəzeti. 26.08.2006), **Hüseyn Həşimlinin** «Naxçıvanda farmasonluq: tarixdə və ədəbiyyatda»(Naxçıvan tarixinin səhifələri, Bakı, 1996), **K.N. Smirnovun** «Naxçıvan» ölkəsinin tarix və etnoqrafiyasına dair materiallar» [Bakı, 1999 (rus dilində)] və başqalarının əsərlərinin adlarını çəkə bilərik.

Ümumiyyətlə istər Azərbaycanda, istərsə də xarici ölkələrdə masonluğa və masonlara marağın artması bu mövzuya aid çap materiallarının çoxalmasına səbəb olmuşdur. Araşdırmalar zamanı belə qənaətə gəlmək olar ki, bu çap məhsullarının bir hissəsi sırf masonluq və masonlar əleyhinə, bir hissəsi isə lehinə yazılanlardır. Millətçiər və dinçilər deyilən cərəyanların nümayəndələri masonların fəaliyyətlərini həmişə tənqid etmiş və onların yəhudiliyə xidmət etdiyini göstərmişlər. Eynilə masonlar da imkan daxilində onların əleyhinə yazılanlara cavab olaraq millətçilərə və dinçilərə qarşı mübarizələrini davam etdirərək müxtəlif məzmunlu əsərlər yazır və yazdırırlar. Bu mübarizə həmişə olub və olacaqdır.

Hər iki tərəfin mövqeyini müdafiə edən əsərlər arasında həddindən artıq ifrat dərəcədə olan münasibətlərin də şahidi oluruq. Bəzi əsərlərin müəlliflərinin ortaq mövqe tutduğunu da görürük.

İnsanlar qədim dövrlərdən bu günə qədər daimi gizli fəaliyyətlər göstərən təşkilatlar və cəmiyyətlər yaratmağa maraqlı olmuşlar. Bunun da bir çox obyektiv və subyektiv səbəbləri vardır. Biz bu toplunu hazırlayanda qarşımıza belə bir məqsəd qoyduq ki, oxucular özləri masonluq və masonlar haqqında yazılan əsərləri oxuyaraq onlara müəyyən qiymətlər verməyə çalışsınlar, yəni masonluğun müsbət və mənfi tərəfləri hansılardır?

Biz bu formada toplunun gələcəkdə də hazırlanmasını davam etdirməyi planlaşdırmışıq. Bu topluda heç bir millətin və irqin, dinin və dini məzhəbin imicinə toxunan materialların çap olunmasına imkan verməmişik.

**Tərtibçilər**

# Lodliy Petroviç Zamoyski
# «MASON MƏBƏDİ ARXASINDA»

Moskva, Politizdat, 1990. –288 səh.

**Qəhrəmanlıq dövrü**

s.114-175

**Sexlərin müdafiəsi altında gizli cəmiyyətlər. İnkubasiya (gizli dövr) nə zaman bitdi - Vatikan təhlükəni görür - «Məbədgah» tikilib qurtarır - Məftunedici qızıl saat vurdu və falanqa* hərəkətə gəldi - Daha çox bank, daha az azadlıq - Rusiyada masonluq - Dekabristlər lojalardan çıxırlar - Lev Tolstoy «qardaşlıq»da - Qaribaldinin istefası.**

Avropada orta əsr qaranlığı üzərində yavaş-yavaş və ehtiyatla şəfəq saçılırdı. Romada, papa vilayətində ehtiyatsız deyilmiş sözə görə edam edirdilər. Təfəkkür dahiləri, misilsiz incəsənət nümunələri yaradan İntibahın gur alovunu söndürməyə çalışırdılar. Qorxurdular ki, ürəyində insan adına görə qürur duyanlar, onun ağlına və ürəyinə inananlara təsir etsin. Kainata cəsarətli nəzərlərlə baxan **Cordano Brunonu** yandırdılar. Qalileyi danmağa məcbur etdilər. Yalnız dahi polyak **Kopernik** keçmiş sistemi təkzib edərək günəş sisteminin quruluşu haqqında fikirlərini nəşr etdirib yaya bildi.

İki mütəfəkkiri - ideal, harmonik bəşəriyyət quruluşunu arzu edən **Moru** (1478-1535) və **Kampanellanı** təqib edirdilər. **«Utopiya»nın** müəllifi edam edildi. «**Günəş şəhəri**»nin müəllifi 27 il ərzində dustaqxanada inkivizisiyaya məruz qaldı. Monarxiya və inkivizisiya cəhalət üzərində qurulub. Onlar hakimiyyətlərinə və dövlətlərinə xələl gətirə biləcək hər şeyi boğub məhv edirdilər. Lakin Yer **Qalileyin** fərz etdiyi kimi fırlanır, tarix irəli gedirdi. Təzə-tər qüvvələr feodalizmin mamır basmış divarlarını sındıraraq üzə çıxır və manufakturalar yaranırdı. Sənətlər istehsala çevrilir, ticarət, pul münasibətləri qüvvətlənir, zadəganların nüfuzu zəifləyir və şəhər əhalisinin müstəqilliyi artırdı.

Avropanın yarısı Vatikandan ayrılmış, Romaya qarşı olan **Lüter** üsyanı sərbəst düşüncəyə təkan verirdi. Artıq hər kəs Allahın yerə göndərdiyi elçiləri vasitəsilə deyil, hər kəs şəxsən Yaradan ilə «**münasibət yaratmaq**» hüququ almışdır. Protestantlıq düşüncə, şəxsiyyət və yaradıcılıq hüququnu genişləndirirdi. Bu dalğalarda parlaq və özünəməxsus düşüncəyə malik mütəfəkkir **Yakob Byome** (1575-1624) meydana gəldi. Qerlits şəhəri-

---

* 1. Qədim yunanlarda bir neçə sıradan ibarət piyada düzümü. 2. Utopist - sosialist Ş.Furyenin nəzəriyyəsində: böyük, içma, kommuna, 3. Ispaniyada faşist parpesiyası (Tərtibçilər).

nin başmaqçılar sexinin rəhbəri insanları dünyanı öz şəxsi «**ekspermental bilikləri**» ilə dərk etməyə çağırırdı. İnsan azad iradə ilə yaradılmışdır. O özü-özünü xilas etməyə qadirdir. Bunun üçün təbiət qanunları haqqında biliklərə yiyələnmək lazımdır.

**Byomenin** və isveçrəli əlkimyagər və həkim **Paratselsin** mistisizmə baxmayaraq onlar gələcək ictimai hərəkatlar hazırlayan Reformasiya əhval-ruhiyyəsinə böyük təsir göstərmişlər.

**Yan Amos Komenskinin** də (**Komeniusu**, 1592-1670) bu işdə az rolu olmamışdı. Görkəmli mütəfəkkir və humanist «Çex qardaşlığı» icmasının yetirmələrindən olmuşdur. Bu icma prostestant meylli olmasına baxmayaraq nəinki Çexiya və hətta digər dövlətlərin ərazisində böyük təsir qüvvəsinə malik idi. Təhsil sisteminin böyük reformatoru olan **Komenski** Çexiya Habsburq imperiyasının əyalətinə çevrildikdən sonra Polşada, İsveçdə, İngiltərədə sürgündə olmuş və ömrünün qalan hissəsini Hollandiyada keçirmişdir.

**Komenskinin** dünyaya baxışı **Qızılgül xaçı** (rozenkreyser) hərəkatının təşəbbüskarı sayılan **İohanı Valentin Andreanın** ictimai və islahi baxışlarına yaxın idi.

Protestant baxışlı keçmiş vürtemberqli ilahiyyatçı **Andrea Komenski** kimi Avropanı çoxlu gəzmiş, burada ona himayədarlıq edən zadəganların ailəsində müəllim və tərbiyəçi kimi işləmişdir. **Andrea** əvvəlcə Avstriyaya, sonra Fransa və İtaliyaya gedir, **Amos Komenski** ilə yazışmalar aparır və həmfikirlərini doktrin əsasında bir yerə toplayır. Bunlar Köhnə İşığın müxtəlif yerlərində olan «rozenkreyser qardaşları»nın birləşməsi idi.

O bu fəaliyyətini ehtiyatla reallaşdırır, anonim olaraq Qardaşlığın mövcudluğu və onun tarixi haqqında məlumat verən traktatlarını nəşr etdirirdi. Bunlara misal olaraq **Andrea** tərəfindən qələmə alınmış **«Qardaşlıq haqqında xəbər və ya tərəfli rozenkreyser Ordeni cəmiyyətinin nəşrləri»** (1614), **«Qardaşlığın tövbəsi»ni** (1615) göstərmək olar. Vatikan ehkamlarını lağa qoyan, Avropa hakimlərini Qardaşlığa daxil olmağa çağıran müəllif, görünür, müqəddəs taxt-tacı və yezuitləri (mürtəce katolik ruhaniləri cəmiyyətinin üzvü, katolik monaxı) silib süpürməyə qorxurdu. Bunların «dönüklərə, kafirlərə» tutduqları qəddar divanları dini təqiblərə və mübahisələrə çevrilirdi. Bunlara misal olaraq «çex qardaşlığı»nın təqibini və 1620-ci ildə bunun nəticəsində milli üsyanın başlanmasını göstərmək olar.

Görünür, buna görə **Andrea** ilk görünüşdən adı qəribə görünən «**Kristian Rozenkreyserin kimyəvi nikahı**» adlı əsərində guya ki, artıq özünün əlaqələr nəslin olduğu «rozenkreyserlər» tərəfdarlarının fəlsəfi mühakimələrini və ayinlərini lağa qoyaraq anlatmağa çalışmışdı. İnkivizisiya tarixində

belə üz çevirmələr çoxdur. Buna görə **Andreanın** əvvəllər Qardaşlıq ilə əlaqədə olmasını etiraf etməsi çox vacib faktdır.

Qarşıya belə bir sual çıxır. Bu sirli orden həqiqətdə nə idi. Orden tərəfindən çox qısa müddətdə, yəni 1614-1620-ci illər ərzində 200-dən çox əsər nəşr etdirilmişdir.

Masonluğun geneologiyasında (nəsil tarixini öyrənən elm) olduğu kimi ordenlərin də tarixində həqiqiliyi şübhəli görünən mistik anlar, mifologiyalar az deyil. Hərəkatı tədqiq edən bəzi tarixçilər təsdiq edirlər ki, orden bizim eradan 1000 il əvvəl Qədim Misirdə yaranmışdır. Vaxtına görə yaxın olsa da, həqiqiliyi o qədər də inandırıcı olmayan başqa bir tezisə görə rozenkreyser cəmiyyəti «Dəyirmi stol» cəngavərlərindən olan kral **Artur** tərəfindən yaradılmışdır. Daha sonra xaç yürüşləri möcüzəsi qüvvəyə malik olan «Qraal fincanı» ilə bağlı olan «məbədgahları» ordeni və əfsanələr və onların «mühafizəçilərinə» istinadlar var.

Həqiqi olan bircə odur ki, «rozenkreyser» sözünün əmələ gəldiyi qızılgül və xaç qədim dövr və orta əsrlərin simvolunda tez-tez rast gəlinirdi. Onun rəngarəng yozumları var. **Andreanın** özünün gerbində qızılgüllər Andreyev xaçının hər dörd tərəfində yerləşdirilib (X formasında). Qızılgül sirrin və incəliyin, xaç isə birliyin rəmzidir.

İntibah dövründə orta əsr alimləri arasında da bu rəsm çox dəbdə idi. Onlar çox vaxt adlarının qarşısına **R.K**. **abbreviaturunu** əlavə edirdilər. Biz artıq qeyd etdik ki, o dövrün alim və filosoflarını düşüncələri elm və mistikanın uzlaşmasından ibarət idi. Bunlar həqiqi kəşflər və onların mistik təsəvvürlər və «termenik» (hava girməmək üçün kip bağlanmış, bərkidilmiş) şərhləri idi. Məlumdur ki, katolik kilsə belələrinə qarşı qatı düşmən mövqedə durmuşdur. Böyük hazırlıqla «kafirlər», «ifritələr» üçün tonqallar qalanırdı. Buradan asanlıqla təqib edilənlərin vəzifələrinin və doktrinalarının gizli qaldığını başa düşmək olar. Məhz buna görə rozenkreyserlərin yaranması həqiqi faktlarla liflərin qarışığı kimi görünür.

Bunlardan ən davamlısı **Kristian Rozenkreyserə** aid olan tarixi göstərilmiş hekayələrdir. Guya o, əsilzadə alman ailəsinə məxsus idi və gəncliyindən Şərqin sirlərinə maraq göstərmiş, onlara qoşulmuşdur. O sərkərdanlığından qayıdandan sonra Şərqə meyli olan rahib qardaşlığının üzvlərinə qoşulmuş və sonra oraya üzv olmuşdur. Elə bil onun mühitində «qızılgül xaç yaratmaq» təşəbbüskarları meydana gəlmişdir. Güman edilir ki, böyük kahin 106 yaşında - 1494-cü ildə vəfat etmişdir.

Onlar «fəlsəfi daş» axtarışına çıxaraq ruhların və kabusların müşayiətilə zirzəmilərdə və gizli laboratoriyalarda eksperimentlər aparırdılar. Bu «fəlsəfi daş» əbədi gənclik bəxş etməklə yanaşı, adi metalın

qızıla və gümüşə çevirmək qabiliyyətinə malik idi (Təsdiq edirlər ki, **Andreanın** əsəri **Hoteyə** «Faustun» süjetini yaratmağa kömək etmişdir).

Bir çox «kahinlər» ərəb təbirincə özlərini «əlkimyagər» adlandırırdılar. Sözün mistik şərhinə görə qədim dövrdə Nil sahillərində «Qara şahlığı» bildirirdi. Bu söz o vaxtdan qaranlığın və sirliliyin rəmzi kimi qalmışdır. «Əlkimyagər» ittifaqlarından birinə Paratsels də aid edilirdi (əsl adı **Hohen-xeymli Teofrast Bombast** idi).

Alman tədqiqatçısı **Georq Şusterin** sözlərinə görə bəzi alman knyazlıqlarında, həmçinin İngiltərədə, Avstriyada, Hollandiyada və İtaliyada o dövrün bir çox məşhur alim və maarifçilərini birləşdirən əlkimyagər ittifaqları var idi. «Əlkimyagər»lər cəmiyyətinin Rostovda əsasını qoyan görkəmli təbiətşünas və riyaziyyatçı alim **İoahim Yungius Amos Komenski** ilə dostluq edirdi. Artıq fırıldaqçı və avanturistlər» qızıla hərisi olan kobud feodallar sırasına aid edilən «əlkimyagər» anlayışı müsbət (və ya mənfi) mənalarda işlənirdi. Ancaq burada da kifayət qədər mistik görüşlər vardır. **Şusterin** qeyd etdiyi kimi bu «əlkimyagər ittifaqları» əslində riyaziyyatçıları və təbiətşünasıları özündə toplayan həqiqi akademiyalar idi». Lakin anlaşılmaz, cəfəng görünən dilləri isə «özlərinin dini və elmi əqidələrini maskalamaq üçün lazım idi. Bu əqidələr kilsənin hakim nəzəriyyələrinin tam əksinə idi». [1]

«Kimya» onlar üçün yalnız fəlsəfi məzmun forması idi.[2] Bu ştampların əsasında dururdu ki, «ilahi ruh əbədi həyatın toxumu kimi hər bir insana verilib» və bəşəriyyəti «Abidəsi süqutdan sonra, Musanın və Süleymanın[3] dərk etdiyi həqiqi fəlsəfəyə» gətirmək lazımdır. Burada Adəmin Həvva ilə birgə iblis-ilana uyub dərk etmə ağacının barından yedikdən sonra süquta uğraması və daha sonra «həqiqət fəlsəfəsi»nə istinadı çox maraqlıdır. «Əlkimyagərlər» - rozenkreyserlər «günaha batmaya müsbət şərh verirdilər. Bu isə ənənəvi Bibliya ayələrinə zidd idi.

XVI əsrin axırlarında, yaxud XVII əsrin lap əvvəllərində müxtəlif ölkələrin «əlkimyagərləri ittifaqları», «akademiyaları», «rozenkreyser qardaşları» tamamilə birləşdilər. **G.Şusterin** sözlərinə görə rozenkreyserlər Ordeninin təsis edilməsi tarixi təxminən 1604-cü ilə düşür. Onlar yezuitlərə qarşı duraraq, öz tərəfdarlarını təqiblərdən müdafiə edir, öz doktrinalarını məşhurlaşdıran manifestlər nəşr etdirib yayırdılar.

---

[1] **Шустер Г.** Тайные общества, союзы и ордена. СПб., 1905, с.284.

[2] Eyni əsər, s.285.

[3] Eyni əsər, s.289.

Yeni daxil olanlardan da sadiqlik və susmaq, sözdə və hərəkətdə «qardaşını» dəstəkləmək, ierarxiyaya riayət etmək andı tələb edirdilər. Ordendəki «kiçiklər» «şagirdlər sinfi»ni təşkil edirdilər. Onlara da üzərində «**Ata**» və ya «**Başçı**» adlı təbəqə duran «böyüklər» rəhbərlik edirdilər.

Katolik kilsə rozenkreyserləri iblislə ittifaqda günahlandırır və onları təqib edirdilər. Bu adamlar qızılgül ilə xaç şəklini öz dövrlərinə əsasən iztirab və əzablar rəmzi olaraq götürürdülər (Onların içərisində özlərini həm də «Allah qardaşları» adlandıran Amsterdam şəhərində yerləşən əlkimyagər – Rozenkreyserlərin Akademiyasının üzvləri də vardır). Daha qüvvətli ittifaq forması tərkibi 200 nəfərdən ibarət olan «Çex qardaşları» idi. Onlar **qusitlər*** **hərəkatı** ilə əlaqə saxlayır, dözümlülük haqqında təbliğat aparır, öz cəmiyyətlərinə bir çox sənətkar korporasiya və sexlərini, ədəbi cəmiyyətləri, akademik dairələri cəlb edir və beynəlxalq əlaqələr yaradırdılar. Onların çiçəklənməsi rozenkreyserlər Ordenin informalaşdığı bir dövrə təsadüf edirdi və Ağ Dağ yanında 1620-ci ildə «**Çex qardaşları**»nın hərbi məğlubiyyətə uğradığı dövrə qədər davam etmişdir. **Amos Komenski** onların nişanələri, ideoloqu və dini rəhbəri-sonuncu yepiskopu idi. O vətənini tərk etdikdən sonra german torpaqları olan Hollandiyada, İngiltərədə (sonralar Kral cəmiyyətinə çevrilən London Akademiyası) həmfikirlərinin köməyi ilə onun ideyalarına yaxın insanları bir yerə toplayır, maarifləndirmə fəaliyyətini davam etdirirdi. Daha sonra bu barədə ətraflı danışacağıq, hələlik isə qeyd edək ki, məhz İngiltərədə frankmason - «azad bənnalar» sexinin müdafiəsi və köməyi ilə **rozenkreyser hərəkatı** tamamilə formalaşdı. Rozenkreyser qardaşlığı tədricən frankmasonların qardaşlığı ittifaqına çevrilirdi.

Bu otuzillik müharibə dövründə özlərini qoruya bilmiş alman (və başqa) rozenkreyserlərinin İngiltərədə gücləndiyi vaxt baş vermişdir. Ancaq hələlik **Amos Komenski** haqqında söhbətimizi davam etdirək.

1644-cü ildə **Komenski** «**Bəşəriyyət işlərinin qaydaya salınması haqqında ümumxalq məsləhəti**» adlı əsərini yazmağa başladı.O burada ümumxalq oyanışı («**Panegersiya**») və nurlandırılması («Panavgiya») haqqında ideyalarını açmağa başlayır. Əsərin bu hissəsi 1662-ci ildə Amsterdamda işıq üzü gördü. **Komenski** eyni vaxtda «**İttifaq kollegiyası**»nın yaradılması üçün layihə üzərində işləyir və bu «müdrikliyin yayılması» ilə birgə cəmiyyətin yenidən qurulması üçün insanları birləşdirməklə məşğul olurdu. O kainatı üç aləmin - ilahi ideya, görünən

---

* XV əsrdə çexlərin alman feodallarına və Roma katolik kilsəsinə qarşı hərəkatına başçılıq edən Yan Qusun tərəfdarları

təbiət və insan fəaliyyəti nəticəsində yaranan aləmlərin birliyi kimi görürdü. Komenskinin İngiltərədə yaşayan dostu **Samuil Qartlib** ona milli tədbir və universitetin təsis edilməsi üçün 1641-ci ildə parlamentə daxil olmasına kömək etdi. 1641-ci ildə **Komenski** parlamentə özünün reforma haqqında lahiyəsini təqdim etmişdir. Bu gün **SCHOLA - Capienter Sogitare Honestre Operare Logui Argite (müdrikcəsinə düşünmək, xeyirxah hərəkət etmək, məharətlə danışmaq)** abbreviaturası çex maarifpərvərinin zəhməti nəticəsində meydana gəlmişdir. Bunları o məktəb anlayışına aid edirdi.

**Andreanın** dostu və tərəfdarı və **Byome** ilə bir çox fikir durmaları olan **Komenski** maarifçilik fəlsəfəsini yaradanlar sırasında olmaqla bərabər masonluğun doktrinalarını da müəyyənləşdirmişdir.

«**Üçüncü təbəqə**» olan burjuaziya, icmaların və mərhələlərin işgüzar hissəsi elə bir ideologiya və din forması axtarırdılar ki, onların təcrübi ehtiyaclarına daha uyğun gəlsin, onların can atdığı məqsədləri daha da işıqlandırsın.

Onlara tərəf gələcək dəyişikliklərin zəruriliyini başa düşən köhnə cəmiyyətin nümayəndələri də meyl edirdilər. Ya da onlar bu yeniliklərlə doğmalaşmağa çalışırdılar ki, gələcəkdə onların nüfuzunu azalda biləcək kəskin çevrilişlərin qarşısını alsınlar.

Sənətkar ilə yuxarıda duran sifarişçi orta təbəqə arasında daha münasib, tarixi-cəhətdən formalaşmış ünsiyyəti artıq adları çəkilən sexlər yaratmışlar. Özlərinə qapanmış, birləşmiş sexlər «kənardan» gələnlərə qarşı hermetik, müdafiə xarakterli vəziyyət almışlar. Onların tərkibinə alimlər, vəkillər, həkimlər və zadəganlar da daxil olurdular.

«**Azad bənnalar**» sexi dini görüşlərin təcrübi məqsədlərlə birləşdiyi cəmiyyətə axın yaratmaqda, yüksək təbəqəni qarşıdan gələn dəyişikliklərə hazırlamaqda çox əlverişli idi.

Sex milli dövlətçilik çərçivəsi ilə məhdudlaşmırdı. Bənnalar ona görə **«azad»** adlanırdılar ki, onlar sifarişlərlə əlaqədar olaraq istədikləri yerə gedə bilirdilər. Onlar sitayiş binalarının - kilsələr, məbədlər, monastırların tikilməsi üzrə ixtisaslaşmışdılar. Hər bir ölkədə onların əlaqələri genişlənirdi. Onların təcrübə və ixtisasları nüfuzlarını artırırdı. Onların ənənələri, şərtləri, folkloru zadəgan ənənələrinin geneoloji əvəzedicisi rolunu oynayırdı və həm də ali təbəqə nümayəndələri üçün də cəlbedici idi.

Tarixən qəbul edilmişdir ki, İngiltərədə «**azad bənnalar**» sexindən olan lojalar gələcək müasir **frankmasonların** xələfləri hesab edilirlər. Bəziləri isə onların xələfləri olaraq Avropada böyük məbədlərin yaradılması ustalığının ən yüksək nöqtələrini əks etmiş İtaliya «**komaçin**» bənnalarını

hesab edirdilər. Yeri gəlmişkən bu faktı prof. **Uord** da göstərir. **Uord** yazırdı ki, orta əsrlərdə 2 qrup masonlar mövcud idi:

1) **komaçin** bənnalarından çıxan, müasir «**alverçi**» **frankmasonlar**.

2) nisbətən kasıb vəziyyətli insanları birləşdirən **gildiya*** **masonları**. Frankmasonlara ölkənin ixtisası kilsə binaları tikildən ibarət olduğu halda, gildələrə yalnız monsallarının yerləşdiyi yerdə işləmək hüququ verilirdi».[4]

Güman edilir ki, bu yollarla Avropanın bir çox ölkəsində masonlar üçün əlverişli özəklər yaradılırdı. Ola bilsin ki, zərgərlik, tacirlik və digər xüsusi xarici əlaqələri inkişaf etmiş digər nüfuzlu gildirlər və sexlər də istifadə olunurdu. Ancaq biz burada hipogezlərə (fərziyyələrə) əsaslanırıq. Çünki masonluğun İngiltərə və Şotlandiyada bənna sexlərinin bazası əsasında yaranmasını təsdiq edən sənədlər kifayət qədər deyil.

Nayt ilk **«alverçi»** masonların Şotlandiyada meydana gəlməsini güman edir və qeyri-bənnalardan lojaya qoşulan ilkin masonun oçinleçli mülkədar **Con Bosvellinin** olduğunu göstərir. O, 1600-cı ildə Edinburqda lojaya üzv oldu. İngiltərədə ilkin mason Oksfordda Aşmoul Oksford antikvar muzeyinin əsasını qoyan **Elias Aşmoul** lojaya 1646-cı ildə daxil oldu. **Aşmoul** XVII əsrin birinci onilliyində alman ilahiyyatçısı **İohanı Valentin Andrea** tərəfindən qoyulmuş rozenkreyserliklə dərindən maraqlanırdı. İngilis müəllifinin **«Müqəddəs qan və Sv. Qraal»** adlı kitabındakı məlumatlara görə **Andrea** 1637-ci ildən 1654-cü ilə kimi Sionsk ordenin «naviqatoru» və ya «sükançısı», başqa sözlə Böyük magistri olmuşdur (Sonralar onu bu vəzifədə alimlər **Robert Boyl** və **İsaak Nyuton** əvəz etmişlər).

Lojalarda peşəkar digər peşənin nüfuzlu nümayəndəsilə əvəz olunması prosesi sürətlə gedirdi. 1670-ci ildə Eberdin lojasında «kənardan» gələnlərin «bənnalara» nisbəti artıq 39:10 idi.

Daha sonralar bənnalar və inşaatçılar lojalardan tamamilə yoxa çıxdılar. Mənsəbli adamlar özlərinin cənablar lojalarını yaratmağa başladılar.

Belə transformasiya (şəklini dəyişməklə, bir haldan başqa hala girmə) «Sənaye zadəganlığına» aid edilən inşaat peşəsinin səviyysinin düşməsinə səbəb oldu. Bənnalara şöhrət gətirən qotik stilində sonuncu nəhəng tikililər Kembricdə Kral kapellanın tikilib qurtardığı XV əsrə təsadüf edir.

Lojalar yalnız adlarına görə mason olaraq qalmışdır. Qeyd edək ki, müasir lojalar 1717-ci ildə dörd London lojası yaranandan çox-çox sonralar meydana gəlmişdir. Bu yüz il təkcə Böyük Britaniyada deyil, Avropa

---

* Gildiya – Orta əsrlərdə Avropada tacirlər və ya sənətkarların ittifaqı

4 **Ward J.S.** Op. cit. P.61

qitəsinin ərazisində də yaranmışdır. Rəsmi şəkildə formalaşdığı və 1723-cü ildə İsveç masonu **Ceyms Anderson** tərəfindən mason manifesti «Konstitusiya» yarandığı gündən Avropanı mason hərəkatı saman tayasının alovu kimi yayıldı.

Soy kökü etibarilə fransız olan, hüquq doktoru, kral cəmiyyətinin üzvü, Uels şahzadəsinin **kapellanı***, **Andersonun** dostu **Con Teofillis Dezaqyulye** (1683-1744) cəmiyyətin təsirini yaymaqda xüsusi məharətə malik idi. O, 1731-ci ildə Haaqada avstriyalı Mariya-Tereza ilə evlənən və tezliklə alman imperatoru və Avstriya hakimi olacaq hersoq **Lotarinqisi** masonluğa qəbul edir.

1737-ci ildə **Dezaqyulye** öz evində Uels şahzadəsi kral **II Georq - Fridrix Lüdviqi** qardaşlığa qəbul etmişdir. Əvvəllər tərkibi əsasən orta təbəqədən olan lojaya zadəganlar axınla daxil olmağa başladılar. Artıq1730-cu ildə Avropa ölkələrindən olan daha 9 magistrdən 6-sı zadəgan mənsəbli idilər.

Mason lojalarının yaranması dalğalı şəkildə gedirdi. Onlar gah Londondan Avropa qitəsinə gedir, gah da Albiona qayıdırdılar. Əgər müasir masonluğun beşiyinin başında İngiltərədə fransız Dezaqyulye durur və ilk mason nizamnamələrinin formalaşmasına nəzarət edirdisə, 30-cu illərdə (1730-cu ildə onların sayı 5 idi) Paris mason lojaları ingilis kuratorlarına malik idilər. Bunlar 1688-ci ildə Böyük Britaniyadan sürgün edilmiş və Parisdə məskunlaşmış **Yakob II Stüartın** tərəfdarları olan yakobinlər idilər.

Parisdə birinci «dindar» loja 1732-ci ildə ingilislər tərəfindən tanınmış və rozenkreyserlərə yaxınlığı ilə tanınan Derventuoters qrafı **Çarlz Redkliff** tərəfindən xeyir-dua almışdı. Bu ingilis fransız masonluğunun ilk qrossmeysteri hesab olunurdu. Tezliklə ingilis maneralı (şablonlu) lojalar Bordoda, Ruzandada və Fransanın başqa şəhərlərində də yaranmağa başladı.

1728-ci ildə ingilis nümunəli lojalar Madriddə, növbəti ildə Çəbəlüttariqdə meydana gəldilər. Onların xaç ataları hersoq **Filip Uorton** olmuşdur. O, Londonda Böyük lojanın ilk qrossmeysterlərindən biri olmuşdurr. Onun razılığı ilə **Andersonun «Konstitusiyası»** dərc edilmişdi və orada deyilirdi ki, masonluğa «ağılsız ateistlər» və «başlı-başına buraxılmış azadsevərlər» qəbul edilə bilməzdilər. Bununla yanaşı, **«Konstitusiya»da** giriş istisna olmaqla xristianlığa heç bir istinad verilməmişdir. Söhbət sadəcə unutqanlıqdan getmir. Hersoq Uortonun özü Londondakı «iblisanə» «Cəhənnəm odu» lojasına daxil idi. **Yakobinlərlə** əlaqəsi olan **Uorton** qalmaqalı nəticəsində loja 1721-ci ildə bağlandı. Bütün

---

* Kapellan – 1. Katoliklərdə: keşiş köməkçisi, 2. Ingiltərədə: ev keşişi

bunlara baxmayaraq, o, «İspan-Cəbəlüttariq» lojasını yarada bildi, özü katolikliyi qəbul etdi və ömrünü ispan monastırında rahib kimi bitirdi.

Fransız masonluğunun qrossmeysteri **Redkliffin** aqibəti daha faciəli oldu. O, qeyri-leqal şəkildə İngiltərəyə gəldiyi zaman həbs olundu və **yakobinlərlə** əlaqədə günahlandırılaraq edam edildi.

Masonluğun yarandığı ilk illərində təlatümlü, dramatik hadisələr göstərir ki, lojalarda «siyasətlə məşğul olunmadığını» və ya «dini məsələlərin müzakirə olunmadığını» israr edən **«Konstitusiya»** və ya masonluğun «**nizamnamələri»** etibara layiq idilər (amma bu şirin nağıl 250 il ən qara sui-qəsdçi və siyasətçi olan **Liço Cellinin** dostu, **«P-2»** lojasının üzvü **Pyer Karti** təkrarlamışdır).

İlk «qrossmeysterlərin» qaçması və edamı Avropada masonluğun yayılmasına mane ola bilmədi.

Qədim İtaliya torpaqlarında İntibah dövründə və ondan əvvəl (əgər **Danteni** yadımıza salsaq), mədəni-ideoloji proseslər qızğın şəkildə gedir, orta sinif formalaşır, masonluq daha çox inkişaf etmiş ticarət və peşə mərkəzlərinin ətrafında qruplaşırdı. Onların içərisində özünün sex təşkilatları potensialına görə Florensiya ucalırdı. Müasir münasibətlərin erkən sosial yetişməsi nəticəsində burada yun darayanların «çompi»lərin üsyanı oldu (1378). Şəhəri idarə edən **Mediçi sülaləsindən** olan tacir mənşəli bu dəstələr xristian dininə qarşı çox sərbəst görüşlərə malik idilər. Onlar daha çox yunan fəlsəfəsi mədəniyyətinə meyl edir, öz ətraflarında ən böyük rəssam və heykəltəraşları toplayırdılar (**Bottiçelli** və **Mikelancelonun** adlarını çəkmək kifayətdir).

1733-cü ildə Mediçi hakimiyyətinin zəiflədiyi dövrdə Florensiyada birinci rəsmi mason lojası meydana gəldi. Onun ardınca Roma və Neapolda yarandı. Romada papanın az qala lap yaxınlığında təqribən 1700-cü illərdə «**Solomon məbədinin böyük Memarı**» nişanı altında «yakobin gecələri» keçirilirdi.Silvano Spinettinin qeyd etdiyi kimi hələ ilk qeyri-rəsmi masonluqlar yaransa da, ilk addım İtaliyada atılmışdır. Bu 1700-cü ilin əvvəlində Tirren dənizində «Britaniyanın ənənəvi ticarət bazası» və böyük yəhudi cəmiyyətinin daimi yeri olan Livornoda yaranmışdır.[5] Siciliyanın paytaxtı olan Palermoda hələ «lojalar» yaranmamışdan əvvəl gizli **messalara*** «Mizranmanın cəngavərləri» toplaşırdılar.

---

[5] **Spinetti S.** Op. cit. P.45.

* **Messa** – katolik ibadətlərindən birinin Adı və bu idabət zamanı çalınan musiqi

Venesiya və Friulidə isə zadəganlar və böyük tacirlər kart oyunları adı ilə məxfi iclaslara toplaşırdılar. Gizli biliklərin yayıldığı mərkəzlərdən biri Venesiyada yəhudi cəmiyyəti idi. Buranın adı sonralar beynəlxalq terminə çevrilən ən yaxın metallurgiya fabrikinin adı ilə «qetto» çağrılırdı. Mason cəmiyyətləri Milan və Veronla bərabər hər iki Siciliyanın paytaxtı» olan Neapolda daha da inkişaf edirdi. Burada onu xüsusi taclı adamlar dəstəkləyirlər. Spinettinin qeyd etdiyi kimi, Florensiya, Roma, Neapol lojaları «ilk növbədə iqtisadçıların ali təbəqəsini və işgüzar aləmi özlərinə cəlb etməyə çalışırdılar». Mason Frankoççinin fikrinə görə, onların meydana gəlməsinə səbəb «nəhayət yeni iqtisadi və sosial əsaslar üzərində dünyanı yaratmağı dərk etmələri olmuşdur».[6]

Lakin masonluq bununla yanaşı monarxiyaya, zadəganlara da maraq göstərir və onları öz cərgələrinə cəlb etməyə çalışırdı.

1733-cü ildə Hamburqda ilk ingilis lojası meydana gəldi. Burada əsas rolu 20-ci illərdə Londonda masonluğa qəbul edilmiş qraf **Albrext Volfqanq Şaumburq-Lippe** oynamışdır. O, Mindendən oraya atası **Fridrix II Vilhelmlə** gəlmiş Prussiya taxt-tacının varisini valeh edə bilmişdi. 1737-ci il avqustun 4-də haqqında söhbət gedən gələcək kral **II Fridrix** Prussiyada fəaliyyət göstərən **«Avessalom»** lojasına daxil oldu və sonra Berlindəki **«Üç qlobus»** lojasının qrossmeysteri və Prussiya masonluğunun rəhbərinə çevrilir.

Artıq masonluq Rusiyada da fəaliyyətə başlayır. 1731-ci ildə **«Böyük London»** lojasının Böyük magistri lord **Lovell kapitan Con Filipsi** «Bütün Rusiya üçün» əyalət Baş magistri təyin edir. Amma bu loja əcnəbiləri və xüsusən də Peterburqda yaşayan ingilisləri birləşdirirdi. Yalnız 1740-cı ildə, yəni **Ceyms Keyt** lojaya baş magistr təyin olunduqdan sonra bura ruslar da daxil olmağa başlayırlar.

Həmin vaxtlarda lojalar başda Saksoniya olmaqla Polşaya cığır açırlar. **«Üç ağ qartal»** lojasının Drezden şöbəsi yaranır. Buraya əsasən **Mnişekilər, Potoskilər, Oqinskilər, Virelqorskilər** kimi zadəgan ailələrinin nümayəndələri cəlb olunurdular.

Təəccüblü olsa da «bənnalar» hərəkatı böyük sürətlə Amerikaya keçir. Əgər 1730-cu ildə Pensilvaniyada mason lojasına İngiltərədə yaşayan Daniel Koks rəhbərlik edirdisə, 1733-cü ildə onu bostonlu Henri Prays əvəz edir. Bir müddət sonra bütün Amerikanın qrosmeysterinə çevrilir. Filadelfiyada artıq Böyük London Lojasından asılı olmayan yeni loja yaranır. Bu lojada Benyamin Franklinin fəaliyyəti diqqətə layiqdir.

---

6 **Prancocci G.** Op. cit. P.138.

O, hələ masonçuluqla maraqlanaraq 1725-1726-cı illərdə Londona səfər edir. Ancaq onun yaşı (19 yaş) «bənnalar» cərgəsinə daxil olmağa imkan vermir (burada yaş həddi 25 idi). Amerikaya qayıtdıqdan sonra Franklin Filadelfiyada gizli **«Dəri önlüklər klubu»** yaradır. Sonralar bu klub gizli **«Kitab nəşriyyatı»** və **«Fəlsəfi»** gizli təşkilatlarına çevrilir. Gənc yaşlarına baxmayaraq 1734-cü ildə Franklin qrossmeyster olur. Fransız lojaları vasitəsilə masonluq Kanadaya, Mərkəzi Amerika koloniyalarına da yayılır. Masonluq öz cərgələrinə bir neçə monarxı (İngiltərə, Avstriya, Prussiya) və Franklenin kimi qismətinə tarixi hadisələrdə aparıcı rol oynamaq durmuş şəxsiyyətləri cəlb edə bilmişdir.

Katolik kilsəsi gələcəkdə mason hərəkatının genişləndiyini hər kəsdən tez başa düşmüşdür. Vatikan onların taxt-taclı şəxslərə, cəmiyyətin ruhi həyatına ənənəvi təsirlərinin qarşısını almağa çalışanlara qarşı mübarizə edirdi. 1738-ci ildə papa **XII Klimentinin «İn eminenti»** adlı bullası (Roma papasının fərmanı) yayılmağa başlayır. Bullada deyilir:

**«Biz xəbər tutmuşuq ki, günbəgün «frankmason» adlı mərkəzlər, birliklər, qruplar, konventlər yaranır və güclənirlər. Buraya heç bir fərq qoyulmadan istənilən dindən, istənilən icmalardan olan adamlar qəbul olmuşlar. Onlar bir neçə qanun, nümünələr müəyyən etmişlər. Bunları masonluq birləşdirir və üzvləri ən dəhşətli cəzalarla hədələyərək yazıya alınmış qanunlara tabe edirlər. Onlar hər kəs və iclaslarda baş verən hər bir hadisə ilə bağlı əbədi susma andını içirlər».**

**«Ancaq bütün cinayətlər kimi bu da əvvəl-axır aşkara çıxdı. Onlar gizlənmək üçün ehtiyat tədbirləri görsələr də, azacıq məlumatların yayılması nəticəsində bu iclaslar öz etiqadlarına sadiq qalanlar üçün çox şübhəli görünür. Hər bir vicdanlı, ədəbli insan üçün bu bir mənalı şəkildə hər cür mümkün olan pozuntudur».**

**«Bax elə buna görə də biz Allaha inananları xəbərdar edirik ki, heç bir bahənə ilə belə mərkəzlərə, biliklərə, qruplara daxil olmasınlar. Biz bu assosiasiyalara daxil olmanı və iclaslarda iştirak etməyi qəti qadağan edirik, əks halda həmin şəxs kilsədən xaric ediləcək».**

1740-cı ildən İngiltərənin «üç təbəqəli» mason sistemindən razı qalmayan əsilzadələr **Kral Tağ Kapitulu** yaradaraq daha yüksək binalar tikirdilər. Bir neçə on ildən sonra ingilis masonluğunun ən yuksək təbəqəsinə kral ailəsi başçılıq edirdi. Əvvəlcə **II Georqun** nəvəsi hersoq **Kumberlendski** (1745-1790), sonra isə **IV Georq** və **IV Vilhelm** böyük usta oldular.

Lojaların «köhnəlmiş» və «modern» (müasir) mərasimləri ilə bağlı ziddiyyətlərinin arasında həm silki bölgü, həm də daxili qarşıdurmalar

mövcud idi. Fransa kralı **XIV Lüdovikin** hakimiyyəti zamanında (1688-ci ildə) «şanlı inqilabdan» sonra Parisə qaçan **II Yakobun** tərəfdarları olan «yakobinlər» guya masonluq vasitəsilə fəaliyyətlərini davam etdirməyə çalışırdılar.

**«Şotland mərasimlərinin»** yaranmasını və onların fəaliyyətini ser **Endrü Ramzeyin** adı ilə bağlayırlar. Bu mərasimin əsas məqsədi əvvəlcə **Stüartlar sülaləsini** bərpa etmək üçün Şotlandiyanın dəstəyini qazanmaq idi. Lakin masonlar ingilis taxt-tacına sahib olan Hannover sülaləsindən istifadə etməyə çalışırdılar. «Şotlandiyalıların» doktrinası ilə sonralar öz aralarında rəqabət aparan qrupların birləşməsinə şərait yaratdı. Onlar «məbədgahçı» cəngavərlərlə qohumluqla bağlı iradlardan başqa dəqiqliyi və qədim iudey masonluğunu yaradanların Malta cəngavərləri alması əfsanələrini də qəbul edirdilər. Belə deyirdilər ki, guya yalnız onlara Avropanın hər yerində yaranan «yalançı» lojalarla «həqiqi» lojaları fərqləndirmək üçün müstəsna hüquq verilmişdir.

**«Şotlapd masonluğu»** Fransadan Skandinaviyaya, alman torpaqlarına, İtaliya ərazisinə yayılırdı.

Almaniyada **Ramzeyin** işinin davamçısı «Ciddi tabeçilik» mərasimlərini aparan baron **Karl Qotlib Xund** (1722-1776) idi. Buraya yalnız əsilzadələrdən olan şəxslər qəbul edilirdilər. **Xund** qeyd edirdi ki, «məbədgahçılar» ordenindən salamat qalmış «naməlum şəxslərlə» birbaşa əlaqədə olmuşdur. Onun ordeni üçün hərbi ənənələrə riayət, tevton nizam-intizamı* xarakterik idi: Xüsusi beynəlxalq statusu qazanmaq iddiası olan «Skandinaviya mərasimlərində» mistik ruh hökm sürürdü. Buna kral **XVII Karlın** məsləhətçisi, İsveç alimi **Emanuel Svedenborq** (1688-1772) səbəb olmuşdur.

Əgər **Byeme** bəşəriyyət qarşısında «mələk» statusunu qazanmaq məqsədilə bütün ömrü boyu mistisizmin dərinliklərinə baş vurmuşdusa, **Svedenborq** şüuru, düşüncəni təkzib edərək ruhlarla, gözəgörünməz dünya

---

* **Tevton ordeni** 1198-ci ildə Müqəddəs Iohanna ordenindən törəmişdi. Bu orden alman mənşəli xaç yürüşçüləri üçün nəzərdə tutulmuşdur. Səlibçilər Yerusəlimdən qovulduqdan sonra Tevton ordeni 1226-cı ildə Xelmlin torpaqlarında bərpa edildi. Tevtonlar buradan prussların slavyan tayfalarına, Pribaltika və rus torpaqlarına hücuma başladılar. Onun daimi məqsədi Şərq torpaqlarını - «Drang nach Osten» - zəbt etmək idi. 1242-ci ildə tevtonların Aleksandr Nevski tərəfindən Çud gölündə məğlub edilməsi onların Şərqə doğru irəliləmələrinin qarşısını aldı. Onların fəaliyyəti 1410-cu ildə Qrünvald yaxınlığındakı döyüşdə tamamilə dayandırıldı.

ilə ünsiyyəti əsas tuturdu. Kim ki, bu iş üçün nəzərdə tutulubsa, o ilahiləşərək «gözəgörünməz dünyaya», «Yeni Yerusəlimə» gedib çatar.

Onun postulatları indi də masonluğun yüksək səviyyəsində çiçəklənən kütləvi təlimlərin əsasını təşkil edir. **Svedenborq** «Sistemi» xüsusilə ABŞ-da məşhurdur. Bu sistemlə İsveçdə bir çox loja da fəaliyyət göstərir.

Lakin XVII əsrin 2-ci yarısından etibarən Avropa kökündən böyük dəyişikliklərə yaxınlaşırdı. Şübhəsiz ki, masonluğun «yüksək mərtəbələri»nin ictimai proseslərdə iştirak etməli və bu və ya digər seçkilərə meylli olmalı idilər. Bu zaman bir neçə əsrdə tarixçiləri narahat edən və hətta onları barışmaz düşərgələrə ayıran bir sual meydana çıxır.

**Abbat Barruelin** ardınca onlardan çoxu hər inqilabi hərəkatda tezisi təkrarlayırdı. «Sola» dönəndə masonları, son əsrin əsas hadisələrini qabaqcadan müəyyən edən mason «sui-qəsd»lərini görmək olar. Əvvəlcə klerikal, mürtəce, daha sonra sağ cinahda faşist mətbuatı müntəzəm olaraq masonluğun «qəddar» rolunu, nasistlər isə öz antisemitizmi ilə «iudey-mason» adı verilən beynəlxalq qəsd haqqında tezislər irəli sürürdülər.

Başqa bir hissə masonluğun tarixi hadisələrə hər bir təsirini təkzib edirlər. Qısa müddətli mövqelər də var idi.

İstənilən ictimai hərəkat hətta eyni yerdə və ya eyni qrupda yarandıqda əgər qorunub saxlanmaq istəyirsə, mütləq onun qabiliyyətlərini artıran amillərlə hesablaşmalıdır. Onda qarşıya bir neçə sual çıxır: **Masonlar həddindən artıq birtərəfli seçkilərlə bağlı olan saxtalıqlardan qaçırmı? O, daima ən müxtəlif cərəyanların, düşüncələrin, elmlərin, dinlərin dövründə durmağa çalışırmı? O öz yerini cəmiyyətin özü ilə dəyişmirmi?**

Bütün bu suallar özündə müəyyən dərəcədə cavab da əks etdirir. Lakin yenə də bu konkret tarixi şəraitə yaxın olan analiz aparmaqdan bizi azad etmir. Yenə də qarşıya bir neçə sual çıxır: **Biz artıq keçmişdə qalan özündə bir çox ideoloji xarakter daşıyan masonçuluğun strukturlarını nəzərdən keçirsək, onların real qüvvələrdə və ictimai hadisələrdə rolu olduğuna cavab taparıqmı?**

Əgər əsrlər boyu masonluq daxilində onun hərəkatını istiqamətləndirən və təshih edən qüvvələr haqqında danışsaq onları daha çox yüksək pillələrin yaxınlığında axtarmaq lazımdır. Çünki aşağı pillələr onu cəlb edən, onun maraqlarını və ya qüvvətli yol-yolçusu olduğunu göstərən qüvvələri əks etdirirdi. Burada optik yalanlar, idealizə etmək, müvəqqəti məqsədlərin həlledici kimi qəbul etmək halları da baş verə bilərdi. Tədqiqatda çətinliklər meydana çıxır; aşağı təbəqələr daha «şəffaf» və «anlaşılan» olduğu halda,

yuxarı təbəqələr mason ifadələri ilə qeyd etsək, ya «gözəgörünməz işıq» şüalandırır, ya da «gözə görünən qaranlığı» əks etdirir.

Ancaq gəlin özümüzü imkan verməyən mistik önlüklər və digər mason rəmzlərinin rekvizitləri içərisində çaşıb qalmayaq. Axı şərti ifadələr, karnaval maskaları arxasında tamamilə dünyəvi və bəzən də cansıxıcı, quru şəxsiyyətlər durur. Onların oyandırıcı motivləri qərq olduqları təmtəraqlı geyimlərdən sadədir.

**Frankoççi** yazanda ki, Müqəddəs Andreyanın «isveç», «Böyük Qlobus», «Klermontski», «seçilmiş Kenonlər», «illyuminatlar», «filametlər», «martinistlər», «ciddi» və «geniş» silklərin, «misir» ritualları mərasimlərinin alabəzəklik və təmtəraqlığına baxmayaraq «hər yerdə eyni bir işıq saçır» sözlərinin mənası nə idi? Masonluğun belə təmtəraqlı mərasimlərini birləşdirən nə idi?

Onların şərhlərinin görünən plüralizmini poza bilməyən bir üsuli doktrina.

Onların hər bir «şəxsiyyət» üçün (əslində heç də hər kəs şəxsiyyət deyil) «həqiqətə çatmaq», «əgər Allahla olmasa onda iblislə bərabərləşmək» (Faust), azadlıq və ədalət şahlığına daxil olmaq imkanlarını yayan masonluq onun mübarizliyin əsasını təşkil edən emonsipasiya (azadlıq) və yeni burjua hüquqları vəd edirdi. Gənc, qabiliyyətli və işgüzar masonluq özünün fabrik və zavodlarını artırır, fəlsəfəni nəzərdən keçirərək istehsal qüvvələrini inkişaf etdirirdi. Onun fəlsəfəsi təbiət, elm, texnika haqqında məmulatları «təmiz biliklər» nöqteyi-nəzərindən deyil, onları cəld və bacarıqla həyata keçirmək nöqteyi-nəzərindən ibarət idi. Onlara kapital qoymaq üçün maksimal mühiti yaradan bir cəmiyyət quruluşu lazım idi. Ona elə bir dini sistem lazım idi ki, onun təşəbbüslərini məhv etməsin, əksinə, işgüzarlığı işıqlandırsın və onda «ilahi qüvvə» görsün.

Xristanlığın, xüsusən də protestantizmin təkindən axan masonluğun deizm* təsəvvürləri burjuaziya üçün belə işıq saçan dini görüşlər sistemi idi. Onlar «şəxsiyyətin hüquqlarını», pul əldə etməklə bağlı fəaliyyəti, gəliri ən şüurlu bəşəriyyət quruluşu kimi şəkildə elan etdikləri halda cəmiyyətin maarifçi «qabiliyyətli», «seçilmişləri» bunu insanlara «qaranlıq», «pozulmuş», «inersiyası», «süst» ən acınacaqlı mövcudiyyət kimi hesab edirdilər. Burjua üçün kapital, xüsusən də qızıl insan fəaliyyətinin ən ali rəmzi, mərhəmət göstərmək vasitəsi, «qabiliyyətlərin» təsdiq olunması demək idi. Məsələn:

* **Deizm** – Allahı dünyanın yaradıcısı hesab edən, lakin onun təbiətə və vəziyyətə təsirini inkar edən dini və fəlsəfi cərəyan (Tərtibçilər).

masonlar lazımlıları ilahiləşdirərkən «misir» adətlərinə istinad edirdilər. Bu adətlərə görə Günəş qızıl ilə bağlı bir məhfum idi.

Günəş, ümumiyyətlə, ən qədim rəmzlərdən olduğu üçün, insanın ilkin dini təsəvvürlərinin yaranmasına da güclü təsir etmişdir. Günəş isindirdiyi, məhsul yetişdirdiyi, həyatı işıqlandırdığı kimi yandırıb, lənətləyə də bilərdi. Onun rəngi qədimdən var-dövlət nişanəsi olan qiymətli metalların, qızılın rənginə uyğun gəldiyi üçün də müqəddəs hesab edilir və ilahiləşdirilirdi.

Kütləvi şəkildə heyvanları ilahiləşdirən qədim misirlilər öküz Apisi və qızılı Günəşin səcdəgahı etmişdir. Digər xalqlarda da «qızıl buzov»a sitayiş edilirdi. Öz xalqını Misirdən çıxaran və onlara yeganə Allah Yaxvaya sitayiş etməyi əmr edən Musa dəfələrlə vəhşilikdən çıxan öz «sevimlilərini» («benjaminləri») gizli olaraq «qızıl buzov»a sitayiş etdikləri üçün şallaqla cəzələndırmalı olmuşdur.

Orta əsrlərdə sosial hərəkatlar çox zaman bidət və sektalar formasını alırdı. «Bənnalar» sektası daha uğurlu tapınış idi. Onlar bir çox inanclar, miflər içərisindən meyarlar seçirdilər ki, ən yaxşı formada feodalizm köklərindən burjua sinfi yarada bilsinlər. Onlar burjuaziyaya təkcə öz gözlərində deyil, bütün cəmiyyət qarşısında haqq qazandıriağa çalışırdılar və onlar özləri, işgüzar adamlar, «məbəd inşaatçıları» üçün olan azadlığı bütün cəmiyyət üçün olan azadlıq kimi təqdim edirdilər. Pul münasibətləri əsasında qurulmuş ayıq və abırsız, utanmaz dünya onlar tərəfindən «zəka padşahlığı», hətta «əbədi şüur» adlandırılırdı. Onlar özlərinin yüksək təbəqələrlə bərabərləşdirmək arzularını isə «ümumi bərabərlik» kimi təqdim edirdilər.

«Ədəbi zəka, - Fridrix Engels «Anti Dürinqdə» yazırdı, həqiqətdə burjuaziyanın inkişaf etdiyi dövrdə orta burgerin (şəhərlinin) ideallaşdırılmış düşüncəsi idi, «Xeyirxah gəlir» möcüzəsindən ibarət olan mason doktrinası yüksəklərə qalxmaqda olan burjuaziyanın xeyrinə xristianlıq» ehkamlarının silinməsinə kömək edirdi. Günəş-Apis- «qızıl buzov» ayini alqı-satqı prinsipini **fetişizmə** çevirirdi. **Karl Mark** qeyd edirdi: **«müasir cəmiyyət qızılı özünün ali həyat prinsiplərini reallaşdırmaq üçün alqışlayırdı».**

Siniflərin fırtınalı qüvvəsinə qalxan təbiət ikili idi. Avropanın feodal Bastiliyasını süpürərək o, dünyaya pul kisəsinin hakimiyyəti üçün perspektivlər hazırlayırdı. Lakin hələ də möhkəm orta əsr ənənələrinə sadiq qalmış adamları öz arxasınca aparmaq üçün o özünün şəxsi maraqlarını ümumxalq marağı kimi təqdim edirdi. O, şübhəsiz ki, inqilabi qüvvə kimi çıxış edirdi.

Tədqiqatlar zamanı müəyyən etmək lazımdır ki, inqilabi burjuaziyanın ikili xarakter daşıyan proqramı bizi maraqlandıran **«bənnalar cəmiyyəti»**nə hansı formada təsir edə bilmişdi.

Fransa nümunəsi daha münasibdir. Burada inqilab həlledici deyildir. Burjuaziya özünün qeyri-adi inadkarlığı və tarixi korluğu, mütləq monarxiyasının və aristokratiyanın müştəbehliyi, «üçüncü təbəqənin» ilahiləşdirilməsi qüvvəsindən hətta özünün rəhbərlərinin fərz etdiyindən uzağa, çox irəli getməyə məcbur oldu.

Onlardan çoxu inqilaba qədər **monarxist, markizlərin, vikontların***
və ölkənin yüksək qurumlarının qohumları olan «qardaşlarla» lojalarda bərabərləşdilər. Onlar köhnə hakim sinfi «maarifləndirməklə» öz nifrət hissələrini hər bir ictimai reformalara ciddi şəkildə müqavimət göstərən katolik kilsəsinə qarşı istiqamətləndirməyə çalışırdılar. Burjua inqilabının demək olar ki, hər bir addımı o dövrün sənədlərində, şəhadətnamələrində, memuarlarında həkk olunub. Əvvəllər lojalara daxil olub, sonralar inqilabın başında duranların fəaliyyətləri barədə bizə nisbətən az material toplanmışdır. Bəzi tarixçilər mason fəaliyyəti ilə inqilabi hərəkatları bir-birindən ayırırlar. Onlar israr edirdilər ki, inqilabçılar öz mason doktrinalarından asılı olmayaraq, özlərinin spesifik siyasi görüşlərinə uyğun rəngarəng siyasi sahələrdə fəaliyyət göstərirlər. Əlbəttə, bunu ancaq ayrı-ayrı inqilabi xadimlərə aid etmək lazımdır.

Lakin lojalara toplaşanlar nəhayət çölə çıxdı. Masonların dahi saatı gəlib çatdı. İtalyan tədqiqatçısı **Frankoççi** tarixi baxımdan masonluğun funksiyalarının dəyişməsinin aydın rəsmini verirdi. Əgər o özünün dediyi kimi hazırlıq mərhələsində doktrinalar hazırlamaqla, öz kadrlarına savad verməklə «pedaqoji» funksiyasını yerinə yetirirdilərsə, siyasi hərəkatlara keçid dövründə o, gizli «təşkilat» kimi bir mərhələni bitirərək şüurlarda yetişib inkişaf edənləri reallaşdıran assosiasiyaların yaradılmasına başlayırdı.

Fransız masonluğu **«pedaqoji funksiyasını»** sıralarında olan **Volter, Russo, D'Alamber, Didro və eləcə də Demulen, Mirabo, Lafayet, Sieyes, Marat, Danton, Robespyer, Sen-Jüst** kimi **«zəka hakimləri»** vasitəsilə aparmışdır.

**«Zəka hakimləri»**nin baş lojaları **«Ensiklopedistlər»** və **«Elmlər lojası»** idi. 1769-cu ildə Lalond tərəfindən əsası qoyulmuş **«Doqquz bacı lojası»** da məlumdur. Buraya **Volter** və **Kondorse,** rəssam **Qryoz** və heykəltəraş **Qudon,** səmada üzmə erasını yaradan **Monqolfe qardaşları, Danton, Demulen, Sieyeq** və **Yeni Dünyanın elçisi olan Bencamin Franklin** də daxil idi.

Əlbəttə ki, həlledici hadisələr baş verməmişdən əvvəl onlar lojalarda oturmuşdular. Artıq hər şey deyilmiş və «falanqanın» hərəkət vaxtı gəlib

---

* **Виконтлар** – Fransa və Ingiltərədə zadəgan rütbəsi (Tərtibçilər).

çatmışdı. O «dəşhətli qorxu hissini» aşılayaraq hərəkət edirdi. Həmçinin onlardan bir neçəsi, əvvəlcə sadəcə doktrina, fəlsəfi düşüncə kimi görünsələr də, sonra meydan və küçələrdə dəşhətli vuruşlara, qanlı mübarizəyə qoşulurdu. Fəlsəfənin dili öz yerini məşhur mason doktoru **Gilyoteninin** adı ilə adlanan maşınlarda bıcağın qəddar tıqqıltısı ilə əvəz olundu.

**Russo** özünün «ictimai razılaşma» və ümumi bərabər meyl nəzəriyyəsi ilə yakobinçilərin ilhamçısına çevrildi. Onlar hesab edirdilər ki, mülki və sosial qeyri-bərabərliyə bir neçə zərbə endirmək lazımdır ki, ümumi hüquq bərabərliyi hökm sürən cəmiyyət reallığa çevrilsin.

Kral üzərində qələbə və respublikanın təsis edilməsi üçün bu qədər işlər görən, şüarı «Azadlıq, Bərabərlik, Qardaşlıq» olan bu insanlar təəccüblü dərəcədə böyük sürətlə gilyotençilərin təsiri altına düşürdülər. Ensiklopedik mübahisələrə nisbətən siniflərin toqquşması daha təlatümlü idi. İnqilab oğullarının parlaması yalnız xarici paradoks (təzad) kimi görünürdü. «Mavr öz işini gördü». Yeni cəmiyyətin yaradılması üçün əsarət buxovlarını məhv etməkdə zəruri görünən dahi və istedadlı xadimlərə artıq ehtiyac yox idi.

Dəyanətli və sadiq **Robespyerin** də digər inqilabi xadimlərin ardınca qəddarcasına boynu vurulmuşdur. **Robespyer** Parisdə Ali hakimiyyət – Mason ilahiliyi uğrunda hücumu hazırlamışdır. Bu hakimiyyətin mahiyyəti kənar edilmişləri ilahi istefaya göndərməkdir. Burjuaziyaya indi daha çox küçələrdə toplar gərəkli idi. Çünki onu hakimiyyətə gətirən xalq kütlələri üsyan qaldıra bilərdi. «Əbədi şüur» əvəzinə hakimiyyətə keçən orta burjuaziyanın beyni indi onların sakitliklərini pozanları sevmirdi.

Xeyr, burjua, tacir, bankirlər böyük həvəslə qəbul etdikləri «hüquq deklorasiyasını» aradan götürməyə tələsmirdilər. Lakin onlar nə **Bonapart** diktaturasına, nə də daha sonralar yeni «imperiyaya» da etiraz etmirdilər. «Marselyeza» digər xalqlar üçün azadlıq himni kimi deyil, istilaçının marşı kimi səslənirdi. Belə transformasiya (şəklini dəyişmə) fransızların özünü də təəccübləndirirdi.

**«Hansı şəkildə və nəyə görə bu ram edilməz xalq özü köləliyə can atırdı?** – Fransanın ən dərin zəkalarından olan tarixçi **Aleksis de Tokvil** soruşurdu. – **Xalqın mənəvi əhval-ruhiyyəsində yaranan bu nəhəng fasilələr və belə eqoizm, ehtiraslığının ardınca gələn belə laqeydlik, ehtirasla arzulanan və çox qiymətli olan predmetə belə nifrət haradandır?».**[7]

---

[7] **Tocqueville A. De.** L’Ancien regime et la revolution. Paris, 1953. Vol.2.P.301, 281.

**«Termidor»** və **bonapartizmin** kökləri inqilab «ideyasının» alovu yaranan sobadan gəlirdi. Onun rəhbərləri kütləyə «seçilmişlər» kimi təyin olunanlardan istifadəyə icazə vermək istəmirdilər. Məsələn, əgər **Russo** öz baxışlarında azadlıq və bərabərlik ideyalarında ardıcıl və məntiqi idisə, bunu heç də azadlıq ideyalarının ataları - maarifçilər **Volter** və **Didro** - haqqında demək olmaz.

**«Ferney tərkidünyası» II Fridrix** və rus kraliçası imperatriça **II Yekaterina** ilə dostluğunu yüksək qiymətləndirirdi. **Volterin** Peterburqdakı dostları ilə yazışmalarda elə yerlər tapmaq olar ki, onun düşüncələrində silki zehniyyətin dərin kök saldığını görmək olar. O, imperatriçaya məsləhət görürdü ki, köhnə Rusiya üçün rüsvayçı yara olan rədd edilmiş təhkimçiliyin ləğv edilməsinə tələsməsin. O, **II Yekaterinaya** yazırdı, - heç zaman qara camaatda idarəetmə təfəkkürü ola bilməz və ona «ayı kimi təlim vermək lazımdır». **Didroya**: «Mən Sizə mövhumatçı olmağı məsləhət görürəm. Onu mərhəmətli adamlarda məhv etmək və fırıldaqçılara qoymaq lazımdır. (Bu onun «əgər Allah olmasaydı belə, onu uydurmaq lazım gələrdi» ifadəsi ilə səsləşir). **D.Alamberə** məktubunda: «Heç vaxt heç kəsin ağlına gəlməz ki, çəkməçi ilə qulluqçunu maarifləndirsin. Təfəkkür mərhəmətli adamlarda qalib gəlir. Lakin fırıldaqçılar bunun üçün yaranmayıblar». Başqa vaxt **Volter** son dərəcə ikrahedici səmimiyyətlə yazırdı: «Xalq daim zövqsüz və kobud olub: Bunlar öküzdürlər və onlara çarvadar, boyunduruq, yem lazımdır»[8].

**Volter** tərəfindən deyilən bu sözlər onun dahiliyinə xələl gətirmir. Onun humanist ideyaları tarixdə dərin mənəvi və intellektual çevrilişlərin baş verməsinə imkan yaratmışdır.

1982-ci ilin oktyabrında fransız jurnalı «**İstuar**» öz buraxılışını inqilabdan əvvəl onların ölkəsində masonların hansı ideyaya xidmət etmək məsələsi ilə bağlı alimlər üçün diskussiyaya həsr etmişdi. Tarixçi **Jerar Qayo** inqilab ərəfəsində yayılmış bir neçə mason mətnlərini misal göstərir. Bu mətnlərdən «qardaşların» tarazlaşdırılmış, hətta konservativ olan siması əks olunur. «Bərabərhüquqluluğun heç bir mənası yoxdur. O, ancaq sözdə mümkündür, - mason lojası Savoyinin sənədində yazılıb, - Eyni zamanda mason lojalarının siyahılarında titullar (fərqli adlar) salınmırdı, bütün lojalarda, «markiz qardaş» və ya «qraf filankəs» deyilirdi.[9]

---

[8] **Незеленов А.** Литературныек направления в екатерининскую эпоху. Спб., 1889, с. 20-21

[9] L`Histoire, October 1982, № 49,P.23.

**«Baxmayaraq ki, masonluq bütün vəziyyətləri bərabərləşdirir, yenə də plebeylərə (burjua-zadəgan jarqonunda əsilzadə olmayanlar; rəiyyət) deyil sivil cəmiyyətdə** yüksək mövqe tutan şəxslərə qulaq asmaq lazımdır» **(Tuluza).**[10]

Bu da «yuxarı» lojaların aşağıya birbaşa göstərişi: lojaları qəbul edənlər «azad təbəqələrə aid edilməli, öz şəxsiyyətlərinin sahibi olmalıdırlar». Əgər ev qulluqçusu qəbul edilmək istəyirsə, onda o «qulluqçu-qardaş» olacaq (məbəddə xidmət etmək üçün). Aşağı və mənfur mövqelərə malik olanları qəbul etmək olmaz. Nadir hallarda hətta adı olan sənətkarları qəbul etmək olar, xüsusilə harada ki sex və kooperativlər mövcud deyildir». Hətta sənətdə və incəsənətdə usta adı almış heç bir fəhləni qəbul etmək olmaz».[11]

Ümumiyyətlə, «seçilmişlərin» içərisinə «aşağı təbəqənin» nümayəndələrinin düşməməsi üçün ən yaxşı vasitə pul vergisi idi.

**Qayonun** sözlərinə görə 1781-ci ildə birinci üç mason pilləsinə çatmaq üçün Şarlevil şəhərliləri elə həmin şəhərdəki silah manufakturasında qazandıqları 4 aylıq məvacib həcmində vergi verməli idilər.

**Qayo** yazırdı ki, - frankmasonluq danılmaz şəkildə burjua və zadəgan xarakteri alırdı və ordenə yaxınlaşma isə fərqlənmə nişanı idi. Hətta masonluğa qəbul edildikdən sonra qardaşlar sosial ayrı-seçkiliyə riayət edirdilər. Əsilzadə və tacirlər eyni bir məbəddə görüşməyə də bilərdilər. Həkim, böyük tacir, kitab satıcısı, balıq satıcısı – hər kəs öz lojasında qalırdı.

Əgər «Böyük Şərq» (masonlara nəzarət edən Ali Şura nəzərdə tutulur - L.P.Zamoyski) hesab etsə idi ki, hansısa loja düz yerləşdirilməyib, o bağlanırdı!

Yüksək ranqın zadəganları tərəfindən nəzarət edilən lojalara **XVI Lüdovikin** dövründə zəmanət verilirdi. Ordenin mərkəzləşdirilmiş strukturu (1740-cı ildən kiçik qardaşlara münasibətdə ierarxiya müəyyənləşdirilmişdir) ifrat dərəcədə ənənəvi absolyutlaşdırma ilə üst-üstə düşmüşdür ki, bir çox qardaşlar **«Böyük Fransa Şərqi»ni** «despotluqda» günahlandırmağa başlayaraq, orada demokratiya tapmadıqları üçün lojaları tərk edirdilər.[12]

Daha bir bəlağətli sənəd direktiv 1790-cı il noyabrın 20-də Parisdə **«İctimai razılaşma»** lojası tərəfindən yayılmışdır. Bu zaman inqilabı onu bəhrəsindən məhrum etməyə çalışan royalistlərin (kralpərəst, monarxist) fitnə-

---

[10] Eyni yerdə

[11] L`Histoire, October 1982, № 49,P.23, 25

[12] Eyni yerdə

fəsadları ümumi əhval-ruhiyyəyə bir közərmə gətirdi. Direktivdə deyilir: **«Biz bəşəriyyətin dostuyuq, lakin bizim dostluğumuz fanatizmə keçmir. Ehtirasların pozğunluğu və cahiliyyətin kobudluğu tərəfindən pozulmuş təbiətin uşaqları, olan bizlər torpağı bərpa etmək istəyirik, lakin bunu qanlı döyüşlərlə etmək istəmirik. Biz yeni fransız konstitusiyasını despotizmin dəhşətləri içərisində başləməməliyik»[13].**

İnqilabın gedişində masonluq özünü o qədər də zahirən gözə çarpacaq dərəcədə göstərmirdi. Təkcə o məlumdur ki, əsas Fransa milli iclasları onların adlarını daşıyan mason klubları tərəfindən təşkil olunurdu. İnqilab ərəfəsində nəzərdə tutulmuş 600 loja və onun 30 min ardıcılı təşkilat üçün kifayətedici görünmürdü.[14] Lakin gəlin bu barədə **Frankoççinin** yazdıqlarını yadımıza salaq.

Sözsüz ki, yuxarı təbəqə günəş altında yer qəsb edərək, tarixin virajına «daxil edilməyən» «qardaşları» sıxışdıraraq təcrübi əsasda fəaliyyət göstərirdi. Demək olar ki, tamamilə unudulmuş aşağı lojalara gəldikdə, onlar letargiya vəziyyətində idilər. İnqilabdan sonra aparılan sorğulardan məlum olur ki, 80% masonlar öz siyasi mövqelərini bildirmək istəmirdilər. Yerdə qalan 20%-nin hər üç nəfərindən 1-i royalistlər, «dağlar» və «jirondanın» tərəfdarları idilər (Royalistlərin masonluqda olmasının səbəbi 1789-cu ilə kimi gələcək **XVIII Lüdovikin** masonluğa üzv olması idi).[15]

Əvvəlcə İngiltərədə, sonra Fransada qalib gəlmiş burjuaziya Avropanın digər ölkələrində də hakimiyyəti ələ keçirməyə çalışırdı. Lakin o bunu qətiyyətlə etmirdi. Avropanın xəritəsini praktiki olaraq **Napoleon** yenidən biçmişdi. Masonlara gəldikdə isə alman torpaqlarında kral və knyaz ailələrinə məxsus olan zadəganların burjua üzərində dominantlığı o dərəcədə böyük idi ki, onlar xüsusi fəallıq göstərməyə çalışmırdılar. Fransa və İngiltərədə rəmzi və mistik zahiri görünüşə baxmayaraq, orada «volteryanlıq» ağalıq edib onları ağıla və şüura səsləyirdisə, alman lojalarından olan «qardaşlar» çox cüzi hissəsi istisna olmaqla bu çağırışa qarşı düşmən mövqedə idilər.

Onlarda «nurlanmaya», «panaseyaya» (yalançı kimyagərlikdə bütün xəstəlikləri sağaldan dərman) axirət dünyası ilə ünsiyyətə kütləvi inam hökm sürürdü. Rus tarixçisinin yazdığı kimi, «XVIII əsrin balaca faustlarına çox şey lazım idi ki, həqiqi **Fausta** çata bilsinlər və bu hər şeydən əvvəl müstəqil dirilmə qabiliyyəti və enerjisidir». Onlar özlərinə tampliyerlərə məxsus

---

[13] Eyni yerdə

[14] L'Histoire. Octobre 1982. № 49. P.27.

[15] Eyni əsər, s.30.

olmaları fikri ilə təsəlli verir və tefton cəngavərliyini arzulayırdılar. Bu arzular mürtəce mahiyyəti ilə təkamüldən çox uzaq idi. Sonralar biz görəcəyik ki, bu yarı boğulmuş və təhrif edilmiş ictimai rəy alçaq vəziyyətindən milli təkəbbürlüyə və irqçiliyə necə böyük sıçrayış etdi.

Görünür, yalnız Bavariyada **Adam Veysqauptun** (1748-1830) gizli «illyuminatlar» cəmiyyətində monarxiya və tiranlıqdan azad olmaq ideyaları püxtələşirdi. Lakin cəmiyyətin özü **Veysqaupt** üçün mənfur sayılan yezuitlər cəmiyyətinin prinsipcə dəqiq surəti idi. Bu cəmiyyət faktiki olaraq Bavariyada hökm sürmüşdü. Veysqauptun tiranlığı devirmək işinə Avropa hökmdarları özlərini və Roma papasını səsləməsi **«illyuminatların»** daxili zəifliyindən xəbər verir. Veysqauptun instruksiyalarının özü yezuit texnikasının tam əksi idi: «Bizim insanlar təşəbbüskar, zirək, hiyləgər olmalıdırlar… hər şeydən əvvəl məmurları, varlıları, qüdrətliləri axtarın. Hərdən hətta o adamı ələ keçirmək üçün alçaltmaq da olar». Lakin 1781-ci ildə İnqolşdatda belə şifrələnmiş dillə ehtiyatlanmalarına baxmayaraq 1785-ci ildə loja bağlandı. «**Spartak**» – **Veysqaupt** isə Regensburqda zadəgan himayədarlarının köməyilə qaçmalı oldu.[16]

Baxmayaraq ki, çox vaxt **«illyuminatları»** beynəlxalq təsirə malik təşkilata aid edirlər. Bu fikir daha çox onların tiranlara qarşı olan ideyası ilə bağlıdır.

Öz istiqamətlərindən, mənşələrindən asılı olmayaraq Avropa masonluqları öz aralarında rəqabət aparırdılar və onlar başqa ölkələrdə, eləcə də Rusiyada öz təsirlərini yaymağa can atırdılar. Alman «tampliyerçiliyi» Xunda İngiltərənin «ana» lojasının müstəsna hüquqlarına iddia edərək Moskva və Peterburqda **İohann Vilhelm Tsinendorf** (1731-1782) alman-isveç sisteminə qarşı mübarizə aparırdı. Rus masonluğunun inkişafının bəzi özəllikləri xüsusi diqqətə layiqdir.

Təsir uğrunda mübarizə apararaq isveçlilər və almanlar rəqabət aparırdılar. Onlardan çoxu sarayda özünəməxsus icmalar yaradaraq artıq çoxdan rus çarlarına xidmət edirdilər. Mason lojaları o klublara xidmət edirdilər ki, onların vasitəsilə Moskvanın və Peterburqun daxili vəziyyətinə nəzarət edə bilsinlər və təkcə milli maraqlardan deyil, daha böyük maraqlardan çıxış edərək öz istədikləri şəxsləri hakimiyyətə gətirsinlər.

Məsələn: İsveç bir neçə əsr Rusiya ilə Baltik və Barens çıxışlarına mane olaraq mübarizə aparmışdı. **I Pyotr** İsveç blokadasını yara bildi və Neva üzərində öz paytaxtını təsdiq etdi. **XII Karl** İsveçi Rusiyadan qərb

[16] Масонства в его прошлом и настоящем. Т.1. С.114, 115, 121 - 122.

torpaqlarını qoparmağa çalışırdı. Lakin Poltava altındakı döyüşdən sonra geri çəkilməyə məcbur oldu.

Masonluğa daxil olmuş İsveç monarxları (onlar bu gün də ona himayədarlıq edirlər) Tsinendorf tərəfindən işlənmiş «ciddi rütbənin» tərəfdarları idilər. Ona əsasən «qardaşlar» ali təbəqədən olanlara sözsüz tabe olmalı, bu sistemlə yaradılmış lojalar başında İsveç monarxı duran «ana» lojalar hesab edilməlidirlər. Bu sistem Rusiyada Tsinendorf sistemi ilə işləyən lojalara da qəbul etdirilmişdir.

Yenə XVIII əsrin 40-cı illərində alman sisteminin yayılmasında xüsusi fəallığı başında orden qrossmeysteri olan **II Fridrixin** rəhbərlik etdiyi pruss masonları daha çox fəallıq göstərirdilər. O, hətta öz ordeninə rus zadəganlarının nümayəndələrini də toplamağa müvəffəq olmuşdur. Onlardan xəfiyyəlikdən az fərqlənən funksiyaları həyata keçirmək tələb olunurdu.

Berlində yerləşən və **II Fridrixin** başçılıq etdiyi **«Üç qlobus»** lojası rus masonlarının fəaliyyətinin böyük hissəsini nəzarəti altında saxlayır və hətta onların arxivini mühafizə edirdi.

Sonralar almanlar Moskva və Peterburqda özündə «tampliyer» dərəcələrini saxlayan «ciddi rütbə» mərasimlərini yaymağa başladılar. O, baron **Xundanın** adını daşıyırdı.

Alman ordeninin fəaliyyəti təmənnasız deyildi. Rus sarayındakı dəyişikliklər II **Fridrixi** müharibədə darmadağın edilməkdən xilas etdi.

Rusiyada hakimiyyətə Prusiya mərasimlərinə məftun olan **III Pyotrun** gəlməsi nəticəsində Prusiyaya ərazilərini qaytarmaqla sülh bağladı. **III Pyotr** masonluqla maraqlanırdı və özü Rusiyada mason lojalarının işinə rəhbərlik etməyə başladı. Onlar iclaslarını Peterburq altında Oranienbaumda keçirirdilər.

Sui-qəsd nəticəsində **III Pyotr** öldürüldükdən sonra taxta **II Yekaterina** adı ilə məşhur olan alman şahzadəsi **Sofya-Avqusta Anqalt-Serbetskaya** sahib oldu. İmperatriça öz hakimiyyətinə liberal rəng verməyə çalışaraq özünü maariflənmiş monarx kimi qələmə verirdi. O, **Volterlə** yazışır, **Didronu** saraya dəvət edərək, özünün şəxsi kitabxanaçısı təyin edir. Mistikanı sevməyən imperatriça masonluğa xüsusi iltifat göstərməsə də, əyanların mason təlimlərinə maraq göstərməsinə mane olmurdu.

Lojaya zadəgan nəsilləri olan **Trubetskilər, Qolitsinlər, Vorontsovlar** cəlb edilirdilər**. Roman Vorontsov II Yekaterinanı** hakimiyyətə gətirən sui-qəsddə iştirak edən knyaginya **Daşkovanın** atası idi. İmperatriça **Daşkovaya** Rusiya akademiyasına rəhbərliyi həvalə etmişdi. **II Yekaterinanın** rus zadəganlarının rəğbətini qazanmaq arzusu nəzərə çarpacaq dərəcədə idi.

Eyni zamanda Rusiya masonluğunda öz milli məqsədlərini dərketmədə irəliləyiş hiss olunur. Bunu adətən **Yelagin** və **Novikovun** adı ilə bağlayırlar.

Qeyri-zadəgan olan **İvan Perfelyeviç Yelagin** 1750-ci ildə masonluğa qəbul edilmişdir. Özünün qeydlərindəki etiraflarına görə onu masonluğa gətirən «şöhrətpərəstlik» olmuşdur. O yazırdı: «Mən heç olmasa bir dəqiqəyə məşhur zadəganlarla bərabər olmaq istəyirdim. Arzum qardaşlığın vasitəsilə kübar zadəganlara çatmaq idi». Masonluqdan onun ilk təəssüratları xoşagəlməz idi. Mərasimlər ona «qəribə», «ağılsız» görünürdü. Lojada «zadəganlarla bərabərləşmək» arzusuna gəldikdə isə o deyirdi: «Arzum tezliklə yox oldu, yüksək səviyyəli adamlar yalnız təsəvvürdə qardaşdırlar, həqiqətdə elə kübardılar».

Buna baxmayaraq o, mason incəliklərindən tez baş çıxardı, ən başlıcası isə özünün şəxsi məqsədindən başqa qarşıya daha ali məqsəd – Rusiyanın maariflənməsi məqsədini qoydu. Buna əsasən Rusiya jurnalistikasının banisi o qədər də məşhur olmayan mülkədar **Nikolay İvanoviç Novikovla** yaxınlaşdı. **N.İ.Novikov** 25 yaşında ordudan istefaya çıxaraq, 1769-cu ildə öz jurnalı «**Truqen»in** («Tüfeyli») birinci buraxılışını dərc etdirdi.

Onun arxasınca satirik istiqamətli **«Pustomelya»** («Boşboğaz»), **«Jivopisets**» («Rəssam»), **«Koşelek**» («Pul kisəsi») jurnallarını dərc etdirir. **Novikov** «üçüncü təbəqə» nümayəndələrinə olan rəğbətini göstərirdi, soy kökü olan zadəganların kobudluğu və təkəbbürlüyünü qamçılayırdı. O **«Vsyakaya vsyaçina»** («Hər şeydən») adlı jurnalı nəşr etdirərək imperatriça ilə fikir mübadiləsinə cəsarət edirdi**.** **Novikov** kitab nəşri ilə də məşğul olur və rus ədəbiyyatı üzrə soraq kitabçaları, lüğətlər dərc etdirir. **Novikov** 1775-ci ildə **Yelaginin** qurduğu **«Astreya»** lojasına daxil olur. 1772-ci il fevralın 26-da rus masonluğuna rəhbərlik edən **Yelagin** İngiltərədən birinci rus böyük lojasının rəhbəri təyin edilməsinə nail olur və onun «əyalət üzrə baş magistri»nə çevrilir. O, «**tampliyer»** sistemli Xunda ilə qətiyyətli mübarizə aparmalı olur və onun yaradıcısının familiyasını hərfi tərcümə edərək onları kobudcasına «köpək» adlandırırdı. Lakin **Yelagini** qıcıqlandıran «cəngavər» mərasimləri zadəganların xoşuna gəlirdi. 1765-ci ildə Peterburqda cəngavər «ciddi rütbə kapitulu» fəaliyyətə başladı. Bu kapitulun qanadı altında «**Qora»**, «**Laton**», «**Nemedid**», Moskvada – «**Harpaklata**», Reveldə – «**İzid»**, Riqada – **«Apollon**» lojaları yarandı. 1776-cı ildə Moskvada yalnız knyaz mənşəli şəxslər üçün «**Ozirisa»** lojası yaradıldı.

**Yelaginin** müqavimətlərinə baxmayaraq Rusiyada tamamilə zadəgan xarakterli masonluq bərqərar olur. **Yelagin** və onunla yaxınlaşmış

**Novikovun** özü tərəddüddədirlər. Onlara «yuxarı pillələrin» mistik axtarışı, «rozenkreyserlərin sirri» çox yaxşı təsir edirdi. Onlar keçmiş mürəbbi, alman müəllimi **Magilyev və Şvartsla** birgə Moskvada sakitlikdə məşq etmək üçün çox az üzvü olan gizli «**Harmoniya»** lojasını yaratdılar». Buraya knyaz **Trubetskoy**, Moskva Universitetinin gələcək rektoru **İvan Petroviç Turgenev,** şair **Xeraskov**, tarixçi **Tatişev** daxil oldular.

İngilis sistemindən uzaqlaşan **Yelagin** və **Novikovu** əvvəllər boyun qaçırdıqları **«İt» Xunda** sisteminə qəbul edirlər. **Şvarts «Köhnə** rütbə» ordenin qrossmeysteri şahzadə **Ferdinand Proundşevskinin** yanına göndərilir. O, rus masonlarını himayəsi altına götürür.

1782-ci ildə Vilhelmsbad masonluq konventində qrosmeyster Ferdinand tərəfindən təqdim olunan Rusiya «ciddi müşahidənin (rütbənin) 8-ci əyaləti» elan edilir.

Əcnəbi başçıların tabeliyində olan lojalar özlərinin xoşagəlməz mistikası ilə imperatriçanı narahat edirdi. **Novikovun** ifşaedici fəaliyyəti ictimai fikri oyatdı. Rusiyada yazıçı materialı kifayət qədər var idi. **Puqaçovun üsyanı** (1773-1775) ölkəni titrətdi. Kəndli rəhbəri sürətlə Volqayanı torpaqlardan keçərək döyüşlərdə **Yekaterinanın** bir çox qubernator və sərkərdələrini məğlub etdi. Təhkimçilik hüququ təhlükə altında qalaraq, mülkədarlara məxsus malikanələr od içində yandırılırdı.

Üsyan yatırılsa da, onun ictimai əhval-ruhiyyəyə təsiri böyük oldu. **Yekaterinanın** əlinə **Radişevin** «**Peterburqdan Moskvaya səyahət»** kitabı keçir. Burada kəndlilərin alınıb satılması sistemi, mülkədarların onlarla qeyri-insani rəftarı, çar məmurlarının satqınlığı ifşa olunurdu. Kitab Berlinə masonluğun «ali sirrinin» axtarışına göndərilən nüfuzlu masonlardan biri olan **Aleksandr Kutuzova** həsr edilmişdir. Ona məlumat verirdilər ki, **Novikovun** mətbəəsində «təhlükəli» cərəyanlı kitablar nəşr olunur. Müsadirə edilmiş 18 min kitab yandırılmışdır ki, onların da ümumi tirajı 100 minə yaxın idi.

Yekaterina mason fəallığının güclənməsini Fransada yenicə baş vermiş inqilabın yaratdığı radikal əhval-ruhiyyənin yüksəlməsi ilə əlaqələndirirdi.

Sui-qəsd nəticəsində taxta gələn çariçanı xüsusilə narahat edən işin başqa tərəfi də var idi**. III Pyotrun** oğlu **Pavelin** ətrafında şübhəli fitnə-fəsadlar, intriqalar gəzirdi. Yezuitlər, eləcə də onun şəxsi polisi məlumat verirdi ki, masonlar Paveli yola gətirirlər. **Pavelə** Berlindən hansısa kitablar və məktublar gətirilirdi. Bu işdə **Novikov** və memar **Bajenovun** əli olduğu müəyyənləşdirilmişdir. Varisin masonluğa qəbul edilməsinə dair şayiələr (bəzi məlumatlara görə o, 1778-ci ildə **Yelaginin** evində masonluğa qəbul edilmişdir). Hətta 1784-cü ildə nəşr etdirilmiş **«Azad bənnalıq toplusu**»nda

**Pavelin** ünvanına olan mahnının mətni dərc etdirilmişdir. Orada təkrar olunurdu: «Çələnglə bəzənərsən, bizə ata olarsan!». Çariçanı yaltaqcasına deyilmiş ilahənin «rus oğlu» sözləri də aldatmadı.

Parisdə baş verən inqilab haqqındakı xəbərlər çariçanı konkret iş görməyə vadar etdi. **II Yekaterina** Radişevi sürgünə göndərmək və Novikovu həbs etmək göstərişini verdi.

1792-ci il avqustun 1-də **II Yekaterina** öz göstərişində **Novikova** şamil edilən ittihamları sadaladı.

1) Onlar gizli iclaslar keçirirlər. Onların məbədləri, taxt-tacları, qurbanları var: Burada xaçı və Yevangeliyanı öpərək dəhşətli and mərasimləri keçirilirdi. Bu andlara görə aldadanlar və aldananlar əbədi olaraq **Qızıl qızılgül** xaçına tabe və sadiq olmalı idilər. Heç zaman ordenin sirlərini heç kəsə açmamalı idilər. Əgər dövlət tərəfindən bu sirləri açmaq tələb olunurdusa, hər bir işgəncəyə və edama dözməli idilər.

2) Allah tərəfindən göndərilmiş müəssisələrin hakimiyyətinin əksinə olaraq onlar hersoq **Braunşveyqskini** özlərinə tabe etməyə və onun himayəsinə keçməyə cəsarət etmişlər…

3) Onlar Berlin sarayı bizə qarşı xoşagəlməz münasibətdə olanda Prussiya naziri **Vyolner** tərəfindən ixtira edilmiş şifrlərlə **Vyolnerin** özü və şahzadə **Hessenkasselski** ilə gizli yazışmalar aparırdılar.

4) Onlar öz sektalarına onların siyahılarına əsasən nüfuzlu şəxsləri cəlb etmək üçün müxtəlif vasitələrdən istifadə edirdilər. Bunda **Novikov** özünü şəxsən günahkar hesab edirdi.

5) Onlar pravoslav kitabının əleyhinə olaraq pozğun, qanuna zidd, qadağan edilmiş vərəqlər çap edirlər.[17]

İmperatriça **Novikova** mərhəmət göstərərək ölüm cəzasını Şlisselburqda 15 illik həbs cəzası ilə əvəz etdi.

Masonluğun yerdə qalan rəhbərləri qorxaraq, öz malikanələrinə köçməli oldular. İmperatriça masonlar tərəfindən Moskva altında tikilmiş Tsarino iqamətgahını tənqid etdiyindən bura uzun müddətə unuduldu.

1796-cı ildə **Yekaterina** vəfat etdi və Novikov taxta çıxan **Pavel** tərəfindən azad edildi. **Novikov** saraya dəvət alsa da nəsillərinə məxsus olan malikanəyə getmək qərarına gəldi. İnamsızlığın səbəblərindən biri də **Pavelin** gələcəkdə necə hərəkət etməsi ilə bağlı idi. Yeni imperator üçün xarakterik olan psixi qeyri-stabillik, səbəbsiz yerə qəzəblənməsini nəzərə alaraq masonlar hesab edirdilər ki, **Pavel** masonlarla əlaqəsinə görə alçaldıldığı üçün bütün qisasını «qardaşlardan» alacaq.

---

[17] **Nezelenov A.** Eyni əsər, s.360.

Bəzi tarixçilərin fikrincə, **Pavel** masonlara münasibətdə mənfi mövqedə durmuşdu. **Həqiqətən bu belə idimi?** Yeni imperatorun ətrafında yenə də ona yaxın olan masonlar var idi. Onun Astreya ilahəsinin heykəlinin yanındakı portreti saxlanılır. O, gələcəkdə rəhbəri olan Malta ordeninin qrossmeysterinin təkidi ilə bu fonda portretini çəkdirmişdi. Pravoslav imperatorunun bu ordenin katoliklərə məxsus olması faktı narahat etmirdi. O, ciddi şəkildə Maltaya hücum edən **Napoleona** qarşı mübarizə apararaq ordeni müdafiə edirdi.

**Paveli** cəlb edən mason «tampliyerliyi»nin kökünü Malta ordeni ilə bağlayırdılar. **Pavel** öz «qrossmeysterliyinin» mahiyyətini masonluqda görürdü. Belə təsəvvürlər onun qorunub saxlanan portretlərində də əks olunur. Görünür, Şərq «bənnalarının» qüdrəti və müdrikliyi ilə bağlı olan mason təsəvvürləri onu Hindistana səfər haqqında dəlisov əmrin verilməsinə sövq etmişdi.

Bu avantüraya onun ölümü ilə son qoyuldu. 1801-ci ildə sui-qəsdçilər **Paveli** öldürdülər və **I Aleksandrı** taxta gətirdilər.

Yeni imperator masonlara iltifat göstərirdi. Masonluq isə öz növbəsində daha konservativ xarakter alırdı**. I Pavelin** qətlinin hazırlanmasında iştirak edən saray əyanı **Jerebtsov** 1802-ci ildə Peterburqda **«Birləşmiş dostlar»** lojasını açdı. O, fransız dilində fəaliyyət göstərirdi (Jerebtsov özü Parisdə səfir olarkən masonluğa qəbul edilmişdir). Lojada imperatorun qardaşı **Konstantin Pavloviç**, hersoq **Vyürtemberlskiy,** qraf **Kostka-Potapski**, qraf **Osterman-Tolstoy,** sarayın tacqoyma mərasiminin rəhbəri qraf **Karışkin**, **I Aleksandrın** gələcək polis naziri qraf **Balaşov** və qraf **Bekkendorf** (o, **I Nikolayın** dövründə jandarmeriya rəisi olmuşdur) iştirak edirdilər. Belə tərkib «təbəqə, irq, inam, etiqad, dünyagörüşündən asılı olaraq insanlar arasında ayrı-seçkiliyi aradan qaldırmaq, bütün bəşəriyyəti məhəbbət və bilik ilə birləşdirmək» məqsədlərinə uyğun gəlmirdi. Daha sonra Macarıstan sakini **İqnas Aurelius Fessler** (1756-1839) də lojaya daxil oldu. Fessler beynəlxalq mason və onun adını daşıyan mərasimlə məşhur idi. O, **L.N.Tolstoy** tərəfindən təsvir olunmuş mason dövlət xadimi **M.M.Speranski** tərəfindən Peterburq ilahiyyat akademiyasında yəhudi dilini tədris etmək üçün Rusiyaya dəvət olunmuşdur.

1803-cü ildə Peterburqda senator **Qolenişev** – **Kutuzovun** rəhbərliyi altında **«Neptun»** kübar lojası açıldı. Hesab edirlər ki, elə bu ildəcə imperatorun özü masonluğa qəbul edilmişdir (daha sonralar o, Polşa masonluğuna qəbul edilmişdir). 1805-ci ildə artıq onun adını daşıyan **«Tac qoyulmuş Polikana Aleksandr xeyriyyəçiliyi»** adını daşıyan İsveç mərasimli **«Xeyirxah Polikan»** lojanın açılmasına izn vermişdir. O, əsasən almanlardan ibarət idi.

1809-cu ildə isə onun arvadının şərəfinə «**Xeyriyxah Yelizaveta**» adlı loja açıldı.

Lojalar formalaşaraq bir-birinin ardınca yaranırdı. Bu prosesdə Moskvada **Pozdneyevin** evində «nəzəri» şəkildə, başqa sözlə, yüksək dərəcəli **«Ölü baş»** lojasına toplanan **(Pozdneyevin** adı **Tolstoyun «Hərb və sülh**» əsərində **Bazdeyev** kimi verilib) «novikovçular» da var idi. «Novikovçular»dan biri olan Labzin «Sioken xəbərləri», «Gəncliyin dostu» adlı jurnallar buraxmağa başladı. Qraf **Vielqorski** (Tolstoy tərəfindən qraf **Villarskiy** kimi təsvir edilən) «**Fələstinlər»** lojasına rəhbərlik edirdi.

Bu nüfuzlu lojalar şəbəkəsinə başçılığı 1810-cu ildə imperatorun icazəsi ilə yaradılmış «**Vladimir qaydasına böyük direktorial loja»** həyata keçirirdi.

Bütün bunlar **Napoleonun** Rusiyaya hücumu ərəfəsində baş vermişdir. Rusiyanın milli özünüdərk şüurunun, ictimai fikrin inkişafı üçün dərin tarixi əhəmiyyətə malik olan müharibələr başlayır. Şübhəsiz ki, rus xalqı tərəfindən ölkənin müdafiəsi üçün çəkilən əziyyətlər burada demokratik, antifeodal ideyaların inkişafını sürətləndirirdi. Bunlar mason lojalarından yan ötmədi. Onlar geriyə çəkilməkdə olan **Napoleon** ordusunun arxasınca Avropaya yürüş edərək fransız inqilabından keçən və onların ideyalarına şərik olan masonlarla əlaqə yaradırdılar.

Bir çox zadəgan-zabitlər masonluğa Paris lojalarında qəbul edilmişlər.

Müharibədən sonra Rusiya zadəganlıq sırasında azadfikirlilik hərəkatı ocaqları yaranmağa başlamışdır. Bunlar 1825-ci il dekabrın 14-də monarxiyaya qarşı hücumdan sonra Peterburqda Senat meydanında dekabrist adını aldılar.

Dekabrist fikirləri inkişaf etdikcə onların masonluğa daxil olan rəhbərləri lojaları tərk etməyə başladılar. Lakin **«Azadlıq. Bərabərlik. Qardaşlıq»** ideyalarını onlar masonlarla birgə qəbul edirdilər, bu da instinktiv olaraq onların mövqelərini **Marata, Robespyerə** və yakobinçilərə yaxınlaşdırırdı.

Əsas rəhbərlərdən biri olan **Pavel Pestel Napoleon** hücumları başlanan zaman, yəni 1812-ci ildə Peterburqda fəaliyyət göstərən nüfuzlu **«Birləşmiş dostlar»** lojasına qəbul edildi. O, 1816-cı ildə «şotland» masonluğunun beşinci dərəcəsini alaraq **«Üç xeyirxah»** lojasına keçdi. Onun gələcək silahdaşları **Trubetskoy, Volkonski, Muravyov-Apostol** da burada idilər. Bir sıra dekabristlər rusları və polyakları özündə birləşdirən Kiyevdəki **«Birləşmiş slavyanlar»** lojasına daxil idilər**. Lunin, Yakuşkin, Qlinka, Bestujev, Kyuxelberker, Dolqoruki** kimi dekabristlər də mason idilər. Onlara **Novikovun**

silahdaşı Moskva Universitetinin rektoru **İvan Turgenevin** uşaqları **Aleksandr** və **Nikolay Turgenevlər** də qoşuldular.

**Pestel** 1817-ci ildə masonlarla əlaqəsini kəssə də, bütün mason sənədlərini qoruyub saxlamışdır. Bu sənədlər isə o, həbs olunarkən tapılmışdır. Digər dekabristlər isə lojaları 1820-ci ildə tərk etməyə başladılar. Onlar bilirdilər ki, lojada çar polisinin satqınları var. 1822-ci ildə **I Aleksandr** masonların bəzi yerlərdə geniş hərəkata başlamasından ehtiyat edərək qayğıkeş liberal maskasını atdı və mason təşkilatlarının fəaliyyətinin dayandırılması haqqında əmr verdi. Elə həmin vaxtdan da masonlar özlərinin xüsusi gizli təşkilatlarını yaratdılar. Ancaq onlar – bəzi simvolları, işarələri və s. oraya keçirtdilər. Bəzi mason qaydaları isə onların nizamnamə və layihələrində əks olunurdu.

Lakin qeyd etmək lazımdır ki, Rusiyanı təhkimçilikdən xilas edərək respublika və azadlıq uğrunda mübarizə aparan, Peterburqda çar toplarının atəşlərinin altında çıxış edən dəstələr «şotland» və digər nizamnamələrdən olanlardan daha radikal və demokratik idilər.

Dekabristlərin lojalar ilə əlaqə kəsmələrinin əsas səbəbi onların gizli xarakter alması deyil, xalqı oyatmaq və qarşıya qoyduqları məqsədlərini həyata keçirmək yolunda masonluğun həddindən artıq dar çərçivə alması idi.

Dekabristlərin üsyanı Rusiyada demokratiyanın inkişafı, inqilabi hərəkat tarixində ən şərəfli günlərdir. Çətin ki, mason qanunları azadlıq atəşini yandırmağa imkan verərdi. Açıq çıxışlarla despotizm arasında qarşıdurma çox böyük idi.

Biz Yekaterina kimi prussiyalı **II Fridrixin** özünün despotizmini gizləyərək **Volterlə** dostluğunu nümayiş etdirməsi haqqında danışmışdıq**. I Aleksandrın** dövründə **Napoleondan** azad edilmiş alman əyalətlərində səlahiyyətli rus monarxı təyin edilmiş yüksək dərəcəli alman masonu **Şteynin** xüsusi rolu vardır. O çox zaman dekabristlərdə bir sırada hesab olunan rus rozenkreyserlərinə rəhbərlik edirdi. Onların sırasında 1814-cü ildə Avropaya mühacirət edən **Nikolay Turgenev** də var idi. O, Senat meydanındakı güllə-barandan sonra əvvəlcə Fransa, sonra İngiltərədə yaşayaraq sübut etdi ki, «hay-küyçülərlə» heç bir əlaqəsi olmamışdır.[18]

**N.Turgenev** rus, fransız və alman masonluqlarına qəbul edilmişdir. **N.Turgenevin** ailə arxivi əsasında **A.N.Vinoqradov** tərəfindən qələmə alınmış **«Turgenev qardaşları haqqında povest»** əsərində **Hötenin** rəhbərlik etdiyi «cəngavər» mərasimi təsvir olunmuşdur. Onun əsas vəzifəsi

---

[18] **Тургенев Н.И.** Записка изгнанника. СПб, 1907.

**I Aleksandr** üçün Rusiyada sahibkarlığı asanlaşdırmaq üçün qanunverici əlavələri hazırlamaqdan ibarət idi.

**Vinoqradov** hesab edirdi ki, rus masonluğu Qərbi Avropa mason birliyi – **«Böyük Avropa Karbonadı»** ilə əlaqəli idi. Karbonadlara Rusiyada azadlıq hərəkatı öz təsirini orada yaymaq üçün lazım idi. Onun fikrincə, **Nikolay** və **Puşkinin** dostu **Aleksandr Turgenev** qardaşları «yüksək dərəcəli» «keçmiş rus» masonları olaraq qalırdılar.[19] **A.Vinoqradov** deyirdi «N.Turgenev tarixi mənada dekabrist deyildi, onun «ideya və təcrübələri, Turgenev məxfiliyinin mahiyyəti və mərasimləri «əcnəbi an» olaraq qalırdı».

**A.Vinoqradovun** dediklərinə görə, **«N.Turgenev görürdü ki, boş və yüngülfikirli axınla yanaşı, Rusiyadan kənarda yerləşərək onu idarə edən dərin yeraltı çay da var».**[20]

Rus masonluğunun bəzi elementləri, xarici təşkilatlar ilə əlaqəsinə görə masonlar həyatın mənası üçün «həqiqətləri» axtararaq sadəlövhcəsinə «qardaşlığa» qoşulan ziyalıları kənar edirdilər. Rus «qardaşlarına» təlqin edilmişdir ki, onların ölkələri qabadır, onun şəxsi tarixi ola bilməz, onu ancaq istifadə etmək olar. Rusiya yalnız Qərbdən asılı olarsa, sivilləşə bilər.

Əcnəbi mənşəli saray zadəganları belə kosmopolit ideyaları təbliğ edərək, saray əyanlarının bəzilərində öz ölkələrinə qarşı ehtiram hissi yarada bilmişlər. Dramaturq **Qriboyedov** özünün **«Ağıldan bəla»** komediyasında bu əhval-ruhiyyəni əks etdirmişdir. İki knyaz daima təkrar edirdilər: «Ah, Fransadan gözəl ölkə dünyada yoxdur».

«İnsanların gələcək qardaşlığı» ideyalarına aludə olan, **Russo** və **Lessinqin** pərəstişkarı və tərcüməçisi, **Novikovun «Uşaq mütaliəsi»** jurnalının redaktoru **Nikolay Mixayloviç Karamzin** (1766-1824) nəhəng rus masonlarından biri idi. «Sentimental səyahət» əsərinin müəllifi **Lourens Sternin** arxasınca o, rus ədəbiyyatına əvvəlki klassizm üzərində hökmran olan sentimentalizm mövzusunu, şəxsiyyət ideyasını gətirmişdi.

«Hər bir güc işlətmə sarsıntısını öldürücü olmasına», təhkimçilik hüququ və monarxiyanın saxlanılmasına tərəfdar olan **Karamzin** masonluğun nümunələrinə riayət edirdi. Ona **«Ramzey»** təxəllüsü verilmişdi. Bu, masonluqda üstün «şotland» mərtəbələrinin əsasını qoyan bir ingilisin adı idi. **Yekaterina** təqiblərindən narahat olan rus masonlarının göstərişi ilə **Karamzin** 1790-cı ildə Avropaya səyahətə yollanır.

---

[19] **Виноградов А.** Избранные произведения. В 3 т. М., 1960, т.2, с.9.

[20] Eyni əsər, s.114.

Onun «Rus səyyahının məktubları»nda rusları əcnəbi masonları öyrətdiyi kimi milli nemətlərin inkarı əks olunurdu (bəşəriyyət qarşısında milli olan hər şeydir. Əsas məsələ slavyan deyil, insan olmaqdır). Lakin həqiqətdə onun xalqının mədəniyyətinə yuxarıdan baxan və ona qarşı tamamilə laqeyd olan şəxslərlə söhbətlər öz izlərini qoymuşdur. «Məktublar» belə notla bitir: «Sahil! Vətən! Sizə səcdə edirəm! Mən Rusiyada… İnsanları ona görə yoldan saxlayıb, danışıram ki, rusca danışım, rus insanlarını eşidim».[21]

Əvvəlcədən təlqin edilmiş Rusiyanın müstəqil tarixi ola bilməz fikrinə baxmayaraq, **Karamzin** 1804-cü ildə «Rusiya dövlətinin tarixi»ni yazmağa başlayır. Böyük həvəslə **Karamzini** oxuyan Puşkin qeyd edirdi: **«Elə bil böyük Rusiya Amerika Kolumb tərəfindən tapıldığı kimi Karamzin tərəfindən tapılıb».**

**Puşkinin** taleyində də oxşar cizgilər var. Şair sürgündə olarkən 1821-ci ildə mayın 4-də **«Ovidiy-2»** lojasına daxil oldu. Lojanın rəhbəri gələcək dekabristlərdən biri **M.F.Orlov** idi. **Puşkin** dekabristlərlə o dərəcədə yaxınlaşdı ki, bəzi məlumatlara görə onların çıxışlarına qoşulmaq istəmişdi. Üsyanın rəhbərlərinin edamından sonra əlyazmalarının səhifələrində **Puşkin** dar ağacından asılmış cəsədlərin şəkillərini çəkmiş və şifrlərlə şer yazmışdır. Buradan məlum olur ki, o da edam olunanların içərisində ola bilərdi.

Sonralar o, **V.A.Jukovskiyə** yazırdı (20 yanvar 1826-cı il): **«Tutaq ki, dövlət mənim sürgünümü dayandırmaq istədi, onunla mən danışığa gedə bilmirəm. Lakin kəskinliklə sizə deyirəm ki, danışmayın və mənə görə zamin olmayın.**

**Mən Kişinyovda mayor Rayevski, general Puşin və Orlov ilə dost olmuşdum.**

**Mən Kişinyov lojasının masonu idim. Ona görə Rusiyada bütün lojalar məhv edilmişdir.**

**Mən nəhayət ki, keçmiş sui-qəsdçilərlə əlaqə yaratdım.**

**Bu məktub çox düşündürücü deyil, əlbəttə. Lakin hərdən xoşbəxtliyə də inanmaq lazımdır.**

**Bu məktubu yandırmamışdan əvvəl onu Karamzinə göstər və onunla məsləhətləş…»**[22]

Dekabristlərin azadlıq və qardaşlıq haqqında ideyaları **Puşkini** cəlb edirdi. O, artıq Kişinyovda ruslara nifrətlə baxan əcnəbi «qardaşlarla» (fransızlarla) qarşılaşır. **Puşkin** onlardan birini duelə çağırır. O, imtina etdikdə Puşkin kəskin bir məktub yazır.

---

[21] **Карамзин Н.М.** Письма русского путешественника. М., 1980, с.528.

[22] **Пушкин А.С.** Полн. собр. соч. Л., 1979. Т.10, с.154.

Əgər **Karamzin** masonluqdan çıxaraq öz zəhmətini Boris Qodunova həsr etdiyi «Rusiya dövlətinin tarixi» cildləri ilə yekunlaşdırmışdırsa, dostlarının sözlərinə görə ingilis klubunu tərk edən **Puşkin** isə Peterburq masonları ilə görüşmək əvəzinə dövlətin tarixində hadisələrlə zəngin olan bir dram qoymuşdur. **Puşkin** Rusiyada böyük hadisələrlə bağlı olan **I Pyotrla** bağlı dərin əsərlər də qoymuşdur.

Yəqin ki, **Lev Tolstoy** rus ziyalılarının masonlardan ikili təəssüratını daha parlaq əks etdirmişdi. Yazıçı «qardaşların» doktrinaları ilə əsaslı şəkildə maraqlanırdı. Onu xüsusilə masonların şəxsiyyəti təkmilləşdirmə nəzəriyyəsi, dini doğmalarla mübahisəsi cəlb edirdi. **«Hərb və sülh»** romanında **Napoleon** hücumları ərəfəsində rus masonları problemi tarixi baxımdan əks olunmuşdur. Başda əsərin qəhrəmanı sadəlövh və xeyirxah, daim çırpınan həyatın mənasını axtaran, mason sıralarına daxil olan **Pyer Bezuxov** verilməmişdir. Məsələn: Pyer dili ilə «bizim sirli lojamızda sakitliyin tam hökm sürməsi ilə bağlı» xarici səfərindən sonra aldığı instruksiya, «bütün bəşəriyyətin hökmran olduğu qurum yaratmaq, onu bütün dünyaya yaymaq», «bir məqsədlə bağlı olan və böyük qüvvəsi olan» insanları birləşdirmək, siyasi xarakter daşıyan nizamlamalar aparmaq ideyaları izah olunurdu. Pyerin düşüncəsinə bunlar da xarakterikdir: «İnqilaba yardım etməkmi, qüvvəni qüvvə ilə rədd etməkmi?.. Xeyr, biz bundan çox uzağıq. Hər bir zor işlədən reforma məhvə layiqdir…»[23]

**Tolstoy** masonluğa daxil olanların çoxuna aid olan mənəvi boşluğu və riyakarlığı qeyd edirdi: «Buraya daxil olanların çoxusu zahiri forma və mərasimlərdən başqa heç nə görməmişlər». Onların sıralarında çoxlu «qardaşlar» var. «Onlar buraya heç nəyə inanmayan, heç nə arzulamayan, sadəcə masonluqdakı öz əlaqə və rütbələrinə görə gənc, dövlətli və qüvvətli «qardaşlarla» yaxınlaşmaq məqsədilə daxil olan adamlardırlar».[24]

Masonlarla əlaqədən sonra yaranan fikirlər aşağıdakı parçada verilmişdir: **«Pyer illər keçdikcə hiss edirdi ki, onun üzərində durduğu mason özəyi ayaqlarının altından daha çox sürünürdü. İlk dəfə o buraya daxil olduqda özünü bataqlıq üstündə möhkəm, inamla duran bir insan kimi hiss edirdi. Ayağını qoyan kimi o yıxılır. O, özəyinin daha da möhkəmliyini yoxlamaq üçün ikinci ayağını qoyur və yenə yıxılır və məcburiyyət qarşısında dizə qədər bataqlıqda gəzməli olur».**[25]

---

[23] **Тольстой Л.** Собр. соч. В 12 т. М., 1974. Т.5. С.178.

[24] Eyni əsər, s.177.

[25] **Тольстой Л.** Собр. соч. В 12 т., т.5, с.176.

Digər böyük rus yazıçısı **F.M.Dostoyevski** də dəfələrlə mason mövzusuna, xüsusilə dini-etik məsələlərə toxunurdu. **«Karamazov qardaşları»nda** İvan Karamazovun qardaşına danışdığı böyük inkivizator haqqında əfsanə xüsusi yer tutur. Mahiyyətcə burada xristian Yerusəlim Məbədini tikən Böyük Arxitektor haqqında mason mifindən bəzi elementlər var. Səcdə edənləri özlərindən kənarlaşdırmamaq və onları masonluğa cəlb etmək üçün masonluğun ilk pillələrində onlar İsanın adından və xaçdan istifadə edirdilər.

**İ.Y.Findelin «Frankmasonluğun yarandığı gündən bu günə qədər tarixi»** adlı əsərinin «İngilis masonluq sorğusu» adlı fraqmentində belə bir sual-cavab var:

-Sizə başçılığı kim həyata keçirir?

-Sizdən yüksəkdə olan.

-Yer üzündə azad bənnadan yüksək kim var?

-O, hansı ki, Yerusəlim məbədinin ən yüksək üç dişinin üstünə qoyulmuşdur.[26]

**V.E.Vetlovskaya** özünün **«Dostoyevski yaradıcılığı ədəbiyyat və folklor paraleli işığında»** «İvanın poeması»nın maraqlı təhlili verilmişdir. Masonlar İsa adından birini digəri ilə dəyişmək üçün istifadə edirdilər. Həqiqətdə böyük inkivizator İsaya deyir: «Biz deyəcəyik ki, sənə inanırıq və sənin naminə hökmranlıq edirik. Biz onları (adamları) yenə də aldadacağıq, səni isə özümüzə yaxın buraxmayacağıq».

«İvanın poeması»nda – **V.Vetlovski** yazır, - böyük inkivizator İsaya deyir: «Mən səndən öz sirrimizi gizlədirəmmi? Ola bilsin sən bunu ancaq mənim dilimdən eşitmək istəyirsən, onda eşit: biz səninlə yox, onunlayıq, budur bizim sirrimiz!» «Sirrli sədr, - Vetlovski davam edir, - təyin edilən deyil» (başqa sözlə İsa). Odur ki, hansı İsanı cəlb edərək, onu qoyub».[27]

«İsanı inkar edərək və iblisə öz yol göstərəni kimi işarə edən, - müəllif qeyd edir, - Böyük inkivizator özlərinin bir neçə sirlərindən uzağa getməmişdir.[28] **Naytın** tədqiqatlarına qədər bəziləri Adoniram və Solomon əfsanəsi iblisanə aspektdən olduğunu qeyd etmişlər. Məsələn, **A.N.Veselovski** qeyd edirdi ki, Solomon məbədi pisliklər və qəzəb şeytanı Asmodeyin köməyilə tikilmişdir.[29]

---

[26] Миф - фольклор - литература. М., 1978, с.98.

[27] Миф – фольклор – литература. М., 1978, с.95 - 98.

[28] Eyni əsər, s.98.

[29] Eyni əsər, s.98.

**F.M.Dostoyevskinin** İvan Karamazovun nəzəriyyəsinə olan münasibəti onun qardaşı Alyoşanın dili ilə deyilmiş sözlərdə əks olunurdu. Alyoşa poemanı eşitdikdən sonra İvanı mason adlandırdı.

**Lev Tolstoyda** masonların qiymətləndirilməsində bir məsələyə diqqət yetirək. Masonluğun xarakteri və intibahı dekabristlərə baxışda Tolstoyun yanılmasına səbəb olmamışdır. Bir zamanlar o, Peterburqa öz romanı üçün dekabristlər haqqında material toplamaq məqsədi ilə gedirdi, lakin sonralar öz fikrinə qarşı soyuyur. S.A.Bers (arvadının qardaşı) qeyd edirdi ki, **«Lev Nikolayeviç bu epoxaya inamını itirmişdi. O deyirdi ki, dekabrist üsyanın səbəbi fransız inqilabından sonra Rusiyaya miqrasiya etmiş fransız zadəganların təsiri olmuşdur. Lev Nikolayeviç rus özəyi üzərində qurulmamış hər bir şeyə rəğbət göstərə bilmirdi».**[30]

Belə məlum olur ki, **Tolstoyun** Peterburq səfərindən sonra (harada ki, o, dekabristlərin fransız lojaları ilə əlaqəsini aşkar edir) mövzuya qarşı soyuması ilə **Napoleonla** mübarizə dövründə rus cəmiyyətinin təsvir edilməsi prosesində onda formalaşan nəticələr arasında nə isə ümumilik var.

Bunu **A.Vinoqradovun** əks etdirdiyi bizim rozenkreyserlər də hiss edirdilər. «Sena departamentinin meri Odilon Barronun giriş nitqi ilə burjua «Ateneum» klubu açılanda Parisdə iyul inqilabından sonra, – **Vinoqradov** «Turgenev qardaşları» povestinin ön sözündə yazırdı, – Aleksandr Turgenev gündəliyində natiq nitqini böyük kinayə ilə verirdi. Natiq fransız tacir və bankirlərinin – «torpağın duzunun» hakimiyyətə gəlməsindən həddən artıq şad idi.[31]

Məlum olduğu kimi, **N.Turgenev** Puşkinin cənazəsini dəfn olunduğu Svyatoqorska yola salmışdı. Peterburqdan gizli çıxmalı oldular. Rusiya şairi **Mixail Lermontovun** «siz azadlıq, dahilik və şöhrət taxtı qarşısında duran cəlladlar» adlandırdığı şəxslər **Puşkinin** ölümündən sonra da qorxurdular. Əfsanəyə görə **Solyerin** tərəfindən zəhərlənmiş **Motsartın** taleyi **Puşkini** narahat edirdi. Zənn edilir ki, **Motsartı** «qardaşlar» onları «Sehrli fleytada» bəzi sirləri satiraya tutduğu üçün öldürmüşlər. **Motsart Puşkində** olan Bomarşe kimisə zəhərləyə bilər şayiəsini inkar edirdi. O deyirdi: «Dahilik və qəddarlıq bir arada ola bilməz». Əfsuslar ki, «qardaşlıq» və qəddarlıq və ya sadəcə alçaqlıq hətta öz «qardaşlarına» münasibətdə bir arada ola bilər. Sərfəli olduqda onların ən yaxşı keyfiyyətləri istifadə olunur, sonra isə onlardan «azad olmağa» çalışırlar.

---

[30] Л.Н.Толстой в воспоминаниях современников. М., 1978. Т.1. с.191.

[31] **Vinoqradov A.** Eyni əsər, s.11.

Qəhrəmanlıq səviyyəsinə qalxan masonluğun ən yaxşı nümayəndəsinin də aqibəti belə oldu. Yada salaq: XIX əsrin 60-cı illərdə **Qaribaldi** ilə qardaşlığın digər üzvü **Madzini** respublika ideyası ilə əcnəbilərin və papanın çoxəsrli müqavimətini qıra bilmiş, İtaliyanı birləşdirmiş, onun milli birliyini yaratmışlar. Masonlar **Madzinin** «Gənc İtaliyasını» maliyyələşdirməyə kömək etmişlər. Lakin 1820-ci ildə Turində Savoy sülaləsinin daxil olduğu **«Üçbucaqlı loja»** yaradıldı. Gənc yaşlarından hər yerdə qəddarlığa, xarici zülmə qarşı mübarizə aparan **Qaribaldi** İtaliyada monarxiyanın saxlanılması ilə barışmağa məcbur oldu. İtaliyada inkişaf zadəgan və torpaq mülkədarlarının xeyrinə dayandırıldı.

**Qaribaldiyə** çox qısa müddətliyə masonluğa rəhbərlik etməyi təklif etdilər. Bundan sonra fəxri istefaya göndərdilər. Zadəganlarla bərabər qalib gələn burjuaziyaya dahilər lazım deyildi. Qaribaldinin arxasınca səhnəyə indiyə qədər pərdə arxasından səmimi qəlbdən «bənnalar» inanaraq qan tökən, ölümə gedənləri seyr edənlər çıxırlar. **«Böyük İtaliya Şərqi»nin** böyük magistri Livarnodan olan bankir **Adriano Lemmi** təyin edilir. Lemmi bir əsr əvvələ qədər İtaliyada **«Təbliğat-2»** gizli lojasını yaradır. Bu zaman «qızıl iyirmiillik» yaradılır. Burada mason burjua, bankir və monarxları saysız-hesabsız maliyyə iğtişaşlarının müşayiəti ilə heç bir müqavimət olmadan öz təsir dairələrini genişləndirə bilirdilər.

Qəhrəmanlıq gündəliklə əvəz olundu. «Əbədi şüur» idealları kapitalist düşüncəsi tərzi kimi inkişaf edirdi. İnqilabi devizdə söylənilən «qardaşlıq», - **F.Engelsin** izah etdiyi kimi, - öz əksini rəqabət mübarizəsində yaranan bir savaş və paxıllıqda tapdı.[32]

Bir şeyi əlavə etmək olar. Bizim fikrimizcə, masonluğu və masonları bərabərləşdirmək olmaz. Bu şəxslərdən çoxu dahi epoxada meydana gəlmişlər. Onların özünü fəda etmələrini, qəhrəmanlıq, istedad və dahiliklərini masonluğun hesabına aid etmək olmaz. **Robespyer və Bolivar, Madzini** və **Qaribaldi, Motsart** və **Bethoven, Bayron** və **Puşkin**, dekabristlər özlərinin mason təşkilatlarındakı iştiraklarına borcludurlar. Onları «bənnalar» sırasında canlanan azadlıq ideyaları cəlb edirdi. Lakin onları mason rəhbərliyi ilə bir sıraya qoymaq olmaz. Bu bəşəriyyət üçün qeyri-təbii və alçaldıcı olardı.

Onların yaratdıqları bəşəriyyətə verilmiş, insanlar üçün müəyyən olunmuşdur. Onlar «Kapitullara», «lojalara», «Kral arkalarına», mason miflərinin standartlaşdırılmış folkloruna sığmırdılar. Ona görə də onların

---

[32] **Маркс К. Энгельс Ф.** Собр. соч. т.20. с.268.

adları xalqın qəlbində yaşayır. Onların yaratdıqları hər bir insana müraciət edirdi. Onlar inamla, demokratiya ilə zəngin idilər.

Onlar xalqın qızıl nöqtəsində yaşayırdılar. Öz sinif və dövrünün ən yaxşı övladları idilər. Onlar öz dahiliyinə görə masonluğa borclu deyillər. Əksinə, masonlar riyakarlıq, ikili ölçü, paxıllıq bilməyən bu dahilərin parıltısı altında yaşamağa can atırdılar.

## POSTSKRİPTİUM*

Masonların dəfələrlə tarix dalğasının yüksək nöqtəsinə qalxaraq bərpa, monarx-klerikal köpüyü dəfələrlə ətrafa yaymışdırlar. Onlar heç zaman tamam itmirdilər, təkrar-təkrar əlverişli mövqelərə qalxırdılar. Tez-tez siyasi fırtınalar başlanan Fransada «bənnalar» dəfələrlə gah bir, gah da digər düşərgəyə meyllənmişlər.

Hadisələrin bir-birini əvəz etməsi onları tez-tez doktrina və cinahların dəyişməsinə alışdırırdı. Masonlar tərəfindən monarxiya devrilənə qədər **XVIII Lüdovik** və **X Karlın** kral ailələrinin özləri də onların nümayəndələri olmuşlar. Termidor inqilab alovunu söndürdükdə masonlar yakobinçilərdən bonapartizmə yan alırdılar. Taxta qayıdan Burbonlar masonlarla bir araya gəldilər. Tərkibində çoxlu «bənnalar» olan respublikaçıları təqib edən İyul monarxiyasının (1830-1848) naziri **Tyer** öz prefektlərinə göstəiş verdi ki, lojaları öz təqib obyektlərindən istisna etsinlər. 1851-ci il 2 dekabr çevrilişindən sonra isə «**Böyük Şərq**» özünün Baş Magistr postunu yeni təyin edilmiş imperatorun qohumu **Lüsyen Bonaparta** təklif etmişdir. Artıq 1862-ci ildə **III Napoleon** öz dəsti-xətti ilə Baş Magistr rütbəsini marşal **Manyana** həvalə edir.

Əgər masonluğun sol qanadı **Paris kommunasını** (1871) dəstəkləyirdisə, yerdə qalan «qardaşlar» təkidlə fəhlə Kommunasını boğmağa və güllələməyə kömək edirdi. Yüksək postları tutan fransız rəhbərlərinin çoxu «qardaşların» üzvü idilər – baş nazirlər **Qambetta, Ferri, Kom**b, prezidentlər **Qaston Dumerğ, Pol Dumer.**

Fransada masonların ümumi sayı artırdı. 1889-cu ilə qədər 20 minə, 1908-ci ildə isə 32 min və 1936-cı ildə 60 minə çatmışdır. Respublikaçılar partiyasında çoxlu mason vardı. Radikal-Sosialistlər Partiyasının yaradılması ilə masonlar Brisson və **Burjua** məşğul olmuşlar. Onların sədri isə mason

---

* **Postskriptum** – yazılıb qurtarmış və imzalanmış məktubun axırında edilən qeyd, əlavə, haşiyə; adətən P.S. hərflərilə işarə edilir (Tərtibçilər).

**Mezyürer** idi. Partiyanın 40%-dən çoxu «qardaşlığa» daxil idi. 1905-ci ildə sosialis partiyasının yaradılmasında da onlar böyük rol oynamışlar.

Masonlar özlərini rəsmi vətənləri olan Böyük Britaniyada daha qızğın fəaliyyət göstərirdilər. Qeyd etdiyimiz kimi, burada o, monarxiyanın qanadı altında çiçəklənirdi. Hökmdarlıq edənlər mason təşkilatlarına mütəmadi olaraq himayədarlıq edirdilər. İngilis burjuaziyası onlardan biznesdə müvəffəqiyyətlərinin mənbəyi kimi öz təsirlərini gücləndirmək üçün istifadə edirdilər. **Stiven Naytın** qeyd etdiyi kimi, masonların əsas qidalandırıcı mühiti birbaşa istehsalatla məşğul olmayan ixtisasların nümayəndələri idilər. Onların əsas diqqəti Britaniya cəmiyyətinin baş postlarına cəlb edilmişdilər – hüquqşünaslar, hüquq işçiləri, inzibatçılar, menecer və bankirlər.[33]

Masonların inkişafı böyük çətinliklərlə qarşılanan Fransadan fərqli olaraq, İngiltərədə «qardaşların» sırası heç bir müqavimət olmadan genişlənirdi. Burada minlərlə masonların deyil, lojaların sayı hesablanırdı. Əgər 1864-cü ildə min loja olduğu halda, 1883-cü ildə iki min, 1903-cü ildə isə 3 min loja vardı (yeri gəlmişkən bu ildə «bənnalar» sırasına ölkənin imperiya siyasətində böyük rol oynayan Oldema parlamentinin üzvü **Uinston Leonard Spenser Çörçill** qəbul edilmişdir). Birinci Dünya müharibəsindən sonra lojaların sayı 4 minə çatmışdır, 1926-cı ildə – 5 min, 1944-cü ildə – 6 min, 1950-ci ildə – 7 min olmuşdur. 1981-ci ildə Böyük Britaniyada 9003 saylı loja yaradıldı.[34]

1984-cü ildə onların sayı 10 mindən çox idi.[35]

İtaliyada masonluğa maraq Risorcimento dövründə, xüsusilə 1870-ci ildə Roma və Papa əyaləti hər tərəfdən birləşdikdən sonra daha da artmışdı. **II Viktor – Emmanuil** və **III Viktor – Emmanuil** 30 dərəcəli «fəxri azad bənnalar» idilər. Baş nazirlər **Kavur** və **Krispidən** başqa bir çox dövlət xadimləri, hərbçilər və bankirlər də mason idilər.

Hər yerdə Avropanın tarixində masonların «qəhrəmanlıq» epizodlarının ardınca masonların şanlı əməliyyatları – rüşvətxorluq, korrupsiya gəlməyə başladı. Onlar Köhnə Dünyanın, demək olar ki, bütün ölkələrini əhatə etmişdilər. Lakin onlar Yeni Dünya ölkələrindən də yan ötməmişlər. Burada onlar rəmz kimi Bibliya və dollardan istifadə edirdilər.

İtalyan tarixçisi **Spinetti** qeyd edirdi ki, onların təşkilatlarını birləşdirən qarşılıqlı yardım paktı «bir çox hallarda ictimai inzibatçılıqda böyük karvanlar yaratmış, nəhəng ixtişaşların qarşısını almağa kömək etmiş, sürgünlərə layiq olan

---

[33] **Kniht S.** Eyni əsər, P.35 - 36.

[34] Eyni əsər, P.36.

[35] Masonic World Guide, P.115 - 148.

«centlemenlərin» cəzasını təmin etmiş, bir çox generalları qaçılmaz istefalardan xilas etmişdir.[36]

Artıq öz yerini tutan burjuaziya və onunla birgə **«bənnaçılıq»** təşkilatları özlərinin əsas həyati prinsiplərini reallaşdırmaq üçün hakimiyyətə gəlmələrini heç vaxt gizlətmirdi. **Deizmə** görə ilk həyatı Allah yaratmışdır, lakin cəmiyyətin gələcək inkişafında isə onun heç bir rolu yoxdur. Mason «dini» bu Allah rolunu öz üzərinə götürmüşdür.

Əlbəttə ki, masonluğa böyük ideallar haqqında illüziya və gəlmələr lazımdır. Burjuaziyaya da cəmiyyət qarşısında ən yaxşı vəziyyətdə durmaq üçün gərəkdir. Həm də ona görə lazımdır ki, Böyük Arxitektorun magiyası ilə işıqlandırılmış spesifik burjua məqsədləri cəmiyyətin şəxsi məqsədi kimi qələmə verilsin.

Böyük Kuba yazıçısı **Alexo Karpentyer** xüsusilə özünün «Maariflənmə əsri» romanında Karib koloniyasındakı fransız mason rəhbərlərinin dünyagörüşlərindəki dəyişiklikləri daha yaxşı təsvir etmişdir: **«Onlar böyük sözlərdən və şüarlardan çəkinmədən varlanmaya, bazarları, yad torpaq və varidatları ələ keçirməyə keçmişlər. Onların qəhrəmanları – masonlar hüquq bərabərliyi ideyalarından heç bir vicdan əzabı hiss etmədən irqi diskriminasiyaya (ayrı-seçkiliyə), «bərabər imkanlar» nəzəriyyəsindən flibüstyerliyə keçmişlər. Bunlar daha geniş miqyasda baş verirdi».**

Qalib gəlmiş burjuaziyaya bütün dünya qoruq kimi görünürdü. Onlar yeni-yeni koloniyalar zəbt etməyə can atırdılar və buraya öz mason önlük və çəkiclərini gətirməyi unutmurdular. Yeni lojaların köməyilə koloniyaları metropoliyalara bağlamağa, koloniyaların asılılıq bağlantılarını isə mənəvi bağlılıq kimi qələmə verməyə can atırdılar. Əgər ABŞ, Kanada, bəzi Latın Amerikası ölkələrindəki kimi bu niyyətlər sona qədər reallaşmışdısa (çünki ovçu üçün onlar çox böyük «qurbanlar» idilər), «Böyük Lojalar» və «Böyük Şərq» afroasiya, okeanik əraziləri ələ keçirməkdə uğur qazanmışlar. **Naytın** qeyd etdiyi kimi, günəş qalxmayan yerlərdəki Britaniya müstəmləkələrinə masonluq imperiya bayrağı ilə birgə daxil olurdu.[37]

Ağ lojalar tərəfindən əldə edilmiş nəticələri möhkəmlətmək üçün əvvəlcə «rəngli», sonra «qarışıq» lojalar əlavə edildi. «Ağ rəhbərlərlə xüsusi sirlər və mənfəət əsasında yerli yüksək və orta siniflərlə birləşmişlər**. Nayt**

---

36 **Spinetti S.** Op. cit. P.46 - 47.

37 **R.Kiplinq** – «imperializmin tərənnümçüsü», masonluğun məşhur ideoloqu. O, «qardaşlar» üçün bir sıra xüsusi mərasimlər üçün poetik mətnlər yaratmışdır. Məsələn: «Vindzoradan dul qadın».

yazırdı, - masonluq imperiyanın xoşagəlməz hökmranlığını möhkəmlətmək üçün çox şeylər etmişdir. Dərisinin rənginə baxmayaraq, mason olan hər bir sakin özünü az da olsa xüsusi şəxs hesab edirdi[38] (Hətta təkcə Yamaykada 12-yə qədər loja yaranmışdır)

Metropoliyalarda[*] mason təşkilatları görünüşündə qabaqcıl siyasi partiyaların simasında burjua hakimiyyətinin ştabları yaradılırdı. Buna misal olaraq Fransanı göstərmək olar. Fransız «Puen» jurnalının (1985-ci il 9-15 dekabr) verdiyi xəbərə görə 1879-1931-ci illərdə 5 Fransa prezidenti, 1875-1967-ci illərdə 22 baş nazir mason olmuşlar. 1985-ci ildə Milli toplantının hər iki palatasında 120 mason var idi ki, onların da 10-u sosialist hakimiyyətinə daxil idi. **Bu bir təsadüf idimi?**

Daha bir xarakterik epizod 1887-ci ilin əvvəllərində Yelisey sarayına **«Böyük Fransa Şərqi»nin** böyük magistri **Roja Lereya**[39] olmaqla 5 mason ciddi bir problemi – qarşıdan gələn ümumxalq seçkilərini müzakirə etmək üçün toplaşmışlar. Qüvvələrin qarşılaşması konservativ blokun xeyrinə idi. Sosialist masonlar əgər müxalifət qalib gələrsə, kimin baş nazirliyə namizədliyini verməsilə bağlı öz fikirlərini söyləmək qərarına gəlmişdilər. Bu toplantı haqqında kifayət qədər yaxşı məlumatlanmış **«Nuvel observatyor»** (1987-ci il 30 yanvar-5 fevral) jurnalının **«Frankmasonların hakimiyyəti»** şərhində xəbər verilirdi. Jurnal masonların siyasətlə məşğul olmamaq vədlərini yada salaraq deyirdi: məşğul olurlar, özü də necə!

**«Nuvel observatyor»** belə nəticələrə gəlmişdir:

**«Uyğunlaşma (təbii ki, siyasi mənada) masonlar üçün təbiidir. Onları birbaşa «ideal bəşəriyyət məbədini» qaldırmaq deyil, yalnız siyasət maraqlandırır».**

Jurnal **Lereyanın** sözləri ilə masonların ölkənin siyasətinə təsirinə dair sitat gətirir: «Bu bizim istədiyimiz qədər böyük deyil. Lakin bəzilərinin hesab etdiyindən çoxdur». Jurnalın fikrincə, Böyük Magistr bunları da əlavə edərək demişdir: **«Onun təsiri o qədər vacibdir ki, ondan sui-istifadə etmək olmaz».[40]**

---

[38] **Knight S.** Op. cit. P.34.

[*] **Metropoliya** – kapitalist dövlətlər öz müstəmləkələrinə nisbətən belə adlanırlar.

[39] Sonralar Lereyanı böyük magistr postunda Raqaş, 1988-ci il 10 sentyabrda isə ixtisasca həkim, Əlcəzair yetişdirməsi Potso di Borqo (1975-ci ildən frankmason) əvəz etmişlər. O, «Böyük Şərq» lojalarını 1989-cu ildə «Mason Avropa ürəyi naminə!» şüarı altında qərbi alman və belçika «bənnaları» ilə birgə fransız inqilabının 200 illiyin qeyd etməyə böyük canfəşanlıqla cəlb edirdi. Le Monde 1988 in septembre.

[40] Nouvel Observateur. 1987. 30 janvier - 3 fevrier.

**Roja Lerey** fransız masonluğunun radikal qanadına məxsusdur. Daha çox konservativ olan «qardaşlardan» fərqli olaraq o «bənnaların» siyasi rolunun gizlənilməsini faydasız hesab edir.

- Mənim düşüncəmdə frankmasonluq ən yüksək dərəcəli siyasi institutdur. On illərlə, hətta yüz il ərzində masonluq özünün siyasi xarakteristikasını andığı üçün özünü ən ağılsız tənqidin atəşi altına salmışdır, - **Lerey «Puen»** jurnalına müsahibəsində söyləmişdir.

- Masonluq, - o davam edir, - mikrokainatdır. O, daxilində inkişaf etdiyi cəmiyyəti əks etdirir.

Elə oradaca o özünün etiraflarının cinini ənənəvi frankmason yozumlarının içərisinə salmaq istəyir.

- Masonluğun ümumdünya sui-qəsd qabiliyyəti, dünyanın hökmdarı olması haqqında fantaziya etmək ağılsızlıq olardı. Masonluq – lojadır.

Daha sonra **Lerey** qeyd edir ki, Fransadakı 650 lojada spiritizmin tərəfdarları və «rasionalistlər» mövcuddur və bir-birilərinə dözürlər. O özünü «materialistlərə» aid edir. O qeyd edir ki, lojalarla sollarla yanaşı, həqiqi konservatorlar da var. Keçmiş baş magistr bildirir ki, «sol» və «sağ» termini ona köhnəlmiş kimi görünür. **Lerey** göstərmək istəyirdi ki, masonlar üçün siyasi baxışların heç bir mənası yox idi.

**Lereyin** müsahibəsindən masonlarla siyasi tərəflərin birləşməsini göstərməyə çalışdığı bu hissəyə baxaq.

- Masonluq amerikalıların ingilis imperializminə qarşı üsyana qalxmasının səbəbi deyildi. Lakin masonların onun daha inadlı iştirakçıları idilər. **Vaşinqton** ona görə **Vaşinqton** oldu ki, o, frankmason idi. Eləcə də Franklin, Lafayet. Məhz mason **O' Xingins** Çilini formalaşdırdı. Məhz mason **San-Martin** Argentinanı, **Bolivar** Böyük Kolumbiyanı, **Xuanres** isə müasir Meksikanı yaratmışlar. Onların hamısı frankmasondurlar. Bu adamlar siyasi və hərbi əməliyyatlarda masonluğun ruhunu ifadə edə bilmişlər.

Masonların tarixin daim önündə gedənlər kimi yozulması, nəinki «azad bənnaların» cəmiyyətdə xüsusi siyasi ambisiyalara malik olan təşkilat kimi göstərmiş, hətta bunu sübut etmişdi. Burada nəyin ilkin, nəyin ikinci olduğunu qoy toyuğun, yoxsa yumurtanın birinci yarandığını müdafiə edənlər özləri fikirləşsinlər. Həm bu, həm də o biri bir-birilə qırılmaz əlaqədədir. Bunu həm **Lerey**, həm **«Nuvel observatyor»,** həm də bir sıra

fransız tarixçiləri təsdiq edirlər. Bunu həm də keçən illərin canlı tarixi təsdiq edir.[41]

Misal üçün Böyük Britaniyaya müraciət edək: təsadüfənmi 1935-ci ildən leyboristlərin sədr müavini **Qrinvud**, 1945-1951-ci ildən baş nazir olan **Ettli** mason idilər. «**Qardaşlıq**» burjua təşkilatı hesab olunur. Onlar üçün partiya şüarı nisbi xarakter daşıyır. Əsas məsələ siniflər arasında, cəmiyyətdə narazılığın təhlükəli xarakter almasına imkan verməməkdir. Harada ki, partiyanın yaranması yubanırdı, orada bu funksiyalar masonluğun üzərinə düşürdü.

1935-ci ildə İtaliya Kommunist Partiyasının rəhbəri «Faşizm haqqında mühazirəsində» «bənnalar»ın sementrik rolunu qeyd edirdi.

«İtaliya burjuaziyasının masonluğunun simasında bir siyasi təşkilatı var idi. Lakin o siyasi partiya deyildi. I Dünya müharibəsinə qədər siyasi xarakterli yeganə unitar burjua təşkilatı idi. O, təkcə İtaliya dövlətinin birləşdirilməsi və İtaliyanın milli azadlığı uğrunda böyük rol oynamış, eyni zamanda italyan burjuaziyasının müxtəlif siyasi qurumlarını birləşdirmiş, iri burjuaziyanın xırda və orta burjuaziyaya təsirini artırmışdır».[42]

Bu rol iri burjuaziyanın marağını müdafiə edən masonluq üçün xarakterik idi. O, burjuaziyanın daha iri birliklərindən – milli, transmilli monopoliyalar, trestlər, konsernlərindən istifadə edirdi.

Lakin imperiya işğalları, dünyanın burjuaziya tərəfindən koloniyalara bölüşdürüldüyü, bazarda böyük rəqabətlərin baş verdiyi dövrdə masonluq hələ bir kapitalist dövləti çərçivəsində çıxış edərək milli burjuaziya naminə öz maraqlarını dəyişirdi.

O, əlbəttə ki, öz beynəlxalq əlaqələrini saxlayırdı, hətta genişləndirirdi, lakin bazar və mənfəət uğrunda savaşlar ona gətirib çıxarırdı ki, Qərb ölkələrində əsaslı şəkildə öz yerini tapmış mərasim və ayinlər «Solomon məbədinin inşaatçılarının» ümumdünya hərəkatının çalarları bir növ əcnəbi dilli «qardaşlar»a qarşı çevrilmişdir.

---

[41] Le Point № 832 29 aout 1988. P.75 – 78. Baş magistrin səmimi söhbəti ona bəzi problemlər gətirdi. Bu müsahibədən sonra 1988-ci ilin dekabrında müsahibədən dörd aydan sonra «Puen»də belə bir məlumat dərc olundu:
«Böyük Şərq: susma qanunu
«Puen»də Roje Lereyin müsahibəsindən sonra daxili göstəriş verilmişdir. Bu göstərişə əsasən Böyük magistrlər qəti geniş açıqlamalardan çəkinməlidirlər. - Le Point. № 848. 19 decembre 1988. P.36.

[42] **Тольятти П.** Лекции о фашизме. М., 1974, с.57.

Məsələn: ingilislərin Afrikada Londona tabe edilən lojalar təsis edilirdi. Frankdilli lojaları Parisə yan alır. Almanlar Cənubi Afrikaya can atırdılar, italyanlar – Şimali Afrikanı, hollandiyalılar İndoneziyanı, ABŞ filippinliləri ələ keçirir. Hamı birlikdə Çinə soxulmuşdu. İspanlar və portuqallar Latın Amerikası ölkələrinə təsirə can atırdılar. Hər yerdə masonluq artır, bu və ya digər metropoliyalardan aslı olaraq, yerli təbəqələrdən ibarət kolonial inzibatçılıq simbiozu hökm sürürdü.

Dəhşətli, qanlı ixtişaş olan I Dünya müharibəsi xəsislikdən iblisləşən imperialist burjuaziyanın qruplaşmalarının maraqları əsasında hazırlanmış və sona yetmişdir. On milyonlarla adamları öz ocaqlarından ayıraraq döyüşlərə göndərərək, bir-birini öldürməyə məcbur edirdilər. Məqsəd isə öz ölkələrinin yuxarı təbəqələrini maliyyə cəhətdən gəlirli etmək üçün başqa ölkələri talan etmək idi.

İndiyə qədər çox az adamlar dünya tarixinin bu rüsvayçı səhifəsini iri burjuaziya, gizli ştablar aspektindən təhlil etməyə çalışmışlar. Əgər kimsə işin bu tərəfinin gizli örtüyünü açmağa çalışarsa, məlum olar ki, bu beynəlxalq hadisələrin faciəvi inkişafında bu qüvvələrin də böyük rolu vardır.[43]

Deyilənlər həm Antanta, həm də onun əleyhinə olan Almaniya, İtaliya və Avstriya-Macarıstan üçün doğrudur. Təkcə o fərq vardır ki, Almaniya və İtaliya müstəmləkə bölgüsündə bir qədər gecikmişdilər və ona görə də nisbətən aqressiv idilər. Köhnə müstəmləkəçi imperiyalar özlərinin dinamik potensiallarına güvənərək böyük hərisliklə çalışırdılar ki, onlara dünya bazarında narahatçılıq gətirənlərə dərs versinlər.

Biz ona görə birinci yerdə Almaniya və İtaliyanı qeyd edirik ki, məhz burada ağır ümumdünya böhranı çərçivəsində İtaliyada – faşizm, Almaniyada – nasizm yaranmışdır. Bu hadisələr göstərir ki, Pandoranın qutusundan imperialist burjuaziyasına məxsus necə iblisanə dəhşətlər çıxmışdır. Bu dəhşətlər kütləvi halda xalqların məhvinə, köləliyinə, zorlamalara səbəb olmuşdur.

---

[43] **Avstriya** – macar taxtının varisi hersoq Frans Ferdinantın və onun arvadının Sarayevoda qətli də istisna deyil. Məhz bu qətl müharibəyə bəhanə olmuşdur. Sui-qəsd 1911-ci ildə təşkil edilmiş «Birlik və ya ölüm» qeyri-leqal təşkilatının üzvü serb masonu Yovanoviç-Çupo tərəfindən hazırlanmışdır. Sui-qəsdə hazırlığı işlərini aparan onun dostu mason Tankosiç idi. Sui-qəsdin icraçıları Prinsip və Çabrinoviç idi. Bosniya və Herseqovinada milli azadlıq hərəkatının rəhbərləri masonlar Mitrinoviç və Qaçinoviç isə nəzarət edirdilər.

Biz tarixin qara səhifəsinə yaxınlaşdıq. Bu səhifə tarixdə öz mədəniyyəti, fəlsəfəsi, sivilizasiyası olan kapitalist ölkələrinə aiddir. Görünür, buna görə onların orta əsr yumruq üsuluna, irqçiliyinə, köləliyinə qayıtması ağlasığmaz və vəhşilik kimi görünür.

## T.e.d. V.Startsev
## «GÖRÜNƏN HAKİMİYYƏTİN PƏRDƏARXASI»

Moskva, 1984, 174 səh.

**«Rusiyada masonluq»**

s. 51-140

### 1. XVIII əsr

Rusiyada masonluğun yayılması haqqında ilk məlumat XVIII əsrin dördüncü rübünə təsadüf edilir. Rusiyaya xidmətə gələn xaricilərin çox hissəsi öz vətənlərində masonluğun müxtəlif növlərini qəbul etmişdilər. Bu da əsasən Almaniyadan, xüsusən də Prussiyadan gələnlərə, ingilislərə, isveçlilərə aid idi. Bunların da çoxu ruslara əsir düşərək sonralar daimi yaşamaq üçün Rusiyada qalmışdılar. Beləliklə, dövrün hakim sinfi olan dvoryanlar Peterburqda və Moskvada o dövrün masonluq nəzəriyyəsi və praktikası ilə tanış olmuşdular. Masonluğun yayılmasının ikinci yolu isə gənc dvoryanların xarici ölkələrə oxumağa getmələri idi. 1723-38-ci illərdə çap olunmuş ingilis masonlarının **«Andersonun konstitusiya kitabı»**nda Rusiyada ayrıca mason təşkilatı haqqında məlumat verilir. 1738-ci ilin

yarsında deyilir ki, 1732-ci ildə Böyük Ustadın dövründə deputatlar heyətində ingilis loja sisteminin Böyük Əyalət Ustadı hesab olunan **Lavella** Rusiyaya kapitan **Con Flitin** yanına göndərilmişdir. Ancaq **«Konstitusiya kitabı»nda** yalnız bir lojanın - lord **Ceyms Keytin** rəhbərliyi altında olan lojanın adı çəkilir. Keytin adı XIX əsrin əvvəllərinə aid olan mason mahnılarının ikinci nəşrində, 52-ci mahnıda çəkilmişdir.

**Keyt Rusiyaya qaçıb**
**Və orada dini ocağı yandırıb**.

Bu mahnıda qeyd olunmuşdur ki, «Bu mahnı Rusiyada imperatriça Yelizavetanın çarlığı dövründə oxunmuşdur…» Mahnılar toplusunun birinci nəşrinin 42-ci mahnısı da XVIII əsrin 70-ci illərinin ortalarına aiddir. Burada rus hərflərinin transkripsiyası ilə ingilis mason mahnıları tərcüməsiz verilmişdir.[1] Məlumdur ki, **Keytin** rəhbərlik etdiyi loja Peterburqda Aniçkova körpüsünün yanındakı evdə toplanırdı. 1754-cü ildə «**Üç aslan**» İsveç lojası özünün «Böyük Ustad» **fon Botanın** imzası altında «ciddi nəzarət» konstitusiya sistemini Rusiyaya göndərir. İmperatriça **Yelizaveta**

[1] Масонские песни. Из собрания Н.П.Лихачова. Библиотека Ленинградского отделения Института истории СССР. АН СССР, с.66 (второго издания) и 56 - 58 (первого издания).

**Petrovnanın** çarlığı dövründə (1741-1761) masonluq hərəkatı iki dəfə dövlət tərəfindən yoxlanmışdır. 1747-ci ildə **A.İ.Şuvalovun** rəhbərliyi altında aparılan birinci yoxlama heç bir nəticə vermədi. **M.S.Olsufyeva** tərəfindən aparılan ikinci yoxlama belə nəticəyə gəlir ki, masonların fəaliyyəti o qədər də ciddi bir şey deyil.

**Çar III Pyotr** özü masonluğa 1762-ci ildə qəbul olunub. O, masonlar üçün Peterburqda Sena meydanında ev tikdirdi və Oranpenbaumda olan iqamətgahında masonlar üçün lojalar yaratdı. XVIII əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəlində Rusiyada müxtəlif mason sistemləri çiçəklənirdi. Həmin bu lojada məşhur, nüfuzlu və nisbətən az nüfuzlu mülkədarlar və digər başqa təbəqədən olanlar qeydə alınırdı. 1762-cı ildə **II Yekaterina** hakimiyyətə gəldikdən dərhal sonra **III Pyotrun** himayədarlığı altında olan masonların fəaliyyətinin rəsmi istintaqına başladı. Lakin o, lojaları qadağan etmədi. Sadəcə olaraq onlarla ideya mübarizəsi aparmaqla kifayətləndi. **II Yekaterina** özünün bir çox əsərlərində mason lojalarının onların mistik fəaliyyətlərini, adət-ənənələrini, onların dərəcə və rütbələrini lağa qoyurdu. Onları eybəcər mənasız cəmiyyət adlandırırdı. Masonları ifşa edən kitablar çap edilirdi. Bu kitablara misal olaraq 1784-cü ildə

Sankt-Peterburqda **Xristofor Qenniqin** ingilis dilindən tərcüməçisi naməlum olan «Maskasız masonlar və yaxud da masonların saxta sirləri, müfəssəl və dəqiq faktlardan ibarət nəşr» kitabını göstərmək olar. Əvvəlcə Rusiyada ingilis mason sisteminin üç dərəcəsi («şagird», «usta köməkçisi» və «usta») yayılmışdır. Rusiyada masonluğun inqilaba qədərki fəaliyyətini tədqiq etmiş **Tira Sokolovskaya** hesab edirdi ki, ingilis sistemi üzrə ilk həqiqi loja Rusiyada hələ 1731-ci ildə yaradılmışdır.

Lakin ingilis mason sistemi üzərində nisbətən mürəkkəb şotland və İsveç adət-ənənələrinin (mərasim) düzəlişləri nəticəsində Qərbdə yeni mason sistemləri meydana gəlirdi. Rusiyada da daha mürəkkəb mason sistemlərinin və ordenlərinin məşhurlaşması və çiçəklənməsi başlandı. Bu ən çox qraf **Sen-Martenin** sisteminə və **«Qızıl gül və Xaç»** rozenkreyserlər ordeninə aid edilir. Rusiyada XVIII əsrdə müxtəlif tipli masonluğun çiçəklənməsi 60-cı illərin sonlarında bitdi. 1762-ci ildə **II Yekaterinanın** əmrinə əsasən Rusiyada mason lojaları qadağan edildi. O dövrün bütün rus masonları əcnəbi masonlarla güclü əlaqə qurmuşdular. 1772-ci il fevralın 28-də Londonda 84 ingilis lojasının iclası keçirildi. Bu iclasda ingilis

mərasimlərinə uyğun fəaliyyət göstərən bütün rus mason lojalarının «Böyük Əyalət Ustadı» adı verilməklə **İ.P.Yelagin**[2] müvafiq diplomla təltif edilmişdir. Sonra **Yelagin** Rusiyada 20 loja üçün etimadnamə təyin etdi. Həmin dövrdə Rusiyada yeni yaranmış, ciddi nəzarət altında və yaxud ciddi tabeçilikdə olan mason sistemləri böyük uğur qazanmışlar (onların birinci qurultayı 1764-cü ildə Altenburqda keçirilmişdir). Xüsusilə onların şotland və İsveç mərasimləri ilə qarışıq olan hissəsi daha məşhur idi. Məhz bura rozenkreyser və martinizm cəmiyyətləri də daxil idilər. Əvvəllər bu sistemdə olan rus masonları İsveçin tabeliyində idi. 1777-ci ildə İsveç kralı **III Qustav II Yekaterina** ilə görüşmək üçün Peterburqa gəlir. O, İsveç mason sisteminin rəhbəri olduğu üçün rus masonları tərəfindən rəğbətlə qarşılanırdı. Yalnız 1782-ci ildə Vilhelmbad konventində ciddi tabelikdə olan Rusiya mason sistemi müstəqil əyalət mason sistemi kimi qəbul edildi və onun İsveç mason sisteminə tabeçiliyi aradan qaldırıldı. Lakin o yenə də əvvəlki beynəlxalq mason sistemlərinin tərkibində qalırdı. 1782-ci ildə Moskvada **İ.Q.Şvartsın** (1751-1784)

---

[2] **Yelagin Ivan Perfileviç (1725-1794)** - XVIII əsr rus dvoryan ziyalılarının yüksək təhsil görmüş nümayəndəsi. Senator, Peterburq teatrının rəhbəri, şair, yazıçı, tərcüməçi (fransız dilindən), Rusiya Elmlər Akademiyasının akademiki və 70-ci illərin əvvəllərindən mason.

təşəbbüskarlığı ilə «**Rozenkreyserlər ordeni**» təsis edilir. Buraya müxtəlif mason sistemlərindən ibarət nümayəndələr daxil idi. Onların arasında Rusiya mədəniyyətinin görkəmli nümayəndələrindən olan naşir və jurnalist **N.İ.Novikov,** arxitektor **V.İ.Bajenov** və bir çox başqa alimlər və publisistlər var idi.

Mason lojalarının fəaliyyətlərinin əsas predmetləri aşağıdakılardan ibarət idi: «Qardaşlıq işləri», nəzəri çıxışların dinlənilməsi və müzakirəsi, yeni nümayəndələrin qəbul edilməsi, yüksək dərəcələrin verilməsi, təntənəli bayram ziyafətlərinin keçirilməsi və s. Mason sistemləri tədris aparmaq üçün özlərinin təcrübi fəaliyyətlərini də həyata keçirməli idilər. O dövrdə ümumi mədəniyyətin və savadın səviyyəsi hətta hakimiyyətdə olan təbəqələr arasında da aşağı olduğu üçün mason təhsilinin bir qədər sirli, bir qədər aşkar görünən tərəfləri çox cəlbedici idi. Mason təhsili əsasında daha çox fransız maarifşünaslığı dururdu (bir çox sonuncu fransız maarifçiləri də mason idi). **Bundan əlavə, o dövrdə açıq siyasi fəaliyyətə girməməsi masonları razı salırdımı?** Bu da xüsusilə ən məşhur mason cəmiyyətləri üçün lazım idi. Təbii ki, rus masonları, o cümlədən **N.İ.Novikov** respublikaçı deyil, monarxist idi. Lakin onlar da xalqın maariflənməsi,

mütləq hakimiyyətin yumşaldılması və hətta konstitusiyanı dəstəkləyirdilər. Bu məsələlər iclas-larda müzakirə olunur və mason ədəbiyyatında əks olunurdu. Buna görə də XVIII əsrdə Rusiya masonlarının iki xarakterik cəhəti var idi. I – mistik-konservativ, II – siyasi. Bu bir «demokratik» cə-rəyan idi. Başqa sözlə desək, açıq fəaliyyət göstərən siyasi cərəyanlarla bərabər fəaliyyət göstərmək istəyi idi. Bunun əsas səbəbi **II Yekaterina** hakimiyyətinin masonluğu qadağan etməsi idi. Rus masonları böyük rus knyazı taxt-tacın varisi **Pavel Petroviçə** hüsn-rəğbət bəsləyirdilər. Onlar ümid edirdilər ki, **Pavel Petroviç** də İsveç masonlarına hamilik edən **III Qustav** və ya alman masonlarına rəhbərlik edən Prussiya sarayının nümayəndələri kimi onlara hamilik edəcək. **Pavel** uşaqlıqdan masonlarla əhatə olunmuşdu. Bunların arasında onun əsas tərbiyəçisi qraf **N.İ.Panin**, onun qardaşı **P.İ.Panin** də var idi. Bundan əlavə, **Pavel** və **Paninlər** ailəsinə yaxın olan **T.İ.Ostervald**, diplomat və alay rəisi knyaz **N.V.Repnini** də göstərmək olar. Paninlər etibarlarını itirdikdən sonra masonlar içərisində Pavelə təsir göstərənlərdən biri Paninin nəvəsi gənc knyaz **A.B.Kuragin** olmuşdur. 1772-ci ildə 21 yaşında Kuragin İngiltərə tabeliyində olan Peterburq tampliyer ordeni lojasına qəbul

edilmişdir. Bəzi xarici mənbələrə görə **Pavel** özü 1772-ci ildə xaricə səyahət edərkən Vyanada masonluğa qəbul edilmişdir. Digər mənbələr göstərir ki, o, 1777-1779-cu illər arasında **İ.P.Yelagin** tərəfindən Paninin şahidliyi ilə Peterburqda masonluğa qəbul olunmuşdur. Varisin masonluğa qəbul edilməsi onlarla **II Yekaterina** arasında olan ziddiyyəti daha da kəskinləşirdi. **II Yekaterina** isə masonların bu niyyətlərinə şübhə ilə yanaşırdı. Peterburq və Moskvanın masonların bütün sistemləri və dərəcələri arasındakı sıx əlaqə on il davam etmişdir. **N.İ.Novikovun** göstərişi ilə **V.İ.Bajenov** üç dəfə Moskvadan Pavelin yanına gəlmiş və ona kitablardan ibarət ağır çəkili bağlamalar vermişdir (bu kitabların əksəriyyəti mason ideyalarını təbliğ edirdi). Bu kitabların hamısı Moskvada nəşr olunmuşdur. **Pavel** gələcək imperator və masonların «atası» kimi şöhrət tapmışdı. Bütün bunlar ona gətirib çıxardı ki, təxminən 1785-ci ildə Moskva rozenkreyserləri və naşir **Novikov** hakimiyyət dairələri tərəfindən təqiblərə məruz qaldı. Sözsüz ki, bu görkəmli maarifçini və ilk rus ziyalısı olan **Novikovun** fəaliyyətini dar mason çərçivəsi ilə məhdudlaşdırmaq olmazdı. Onun tərəfindən nəşr olunmuş kitabların həcmini o dövr üçün nəhəng hesab etmək olar. Fərz etmək olar ki, kitabların sayı

100 min nüsxəyə çatırdı. Lakin onların az bir hissəsi xalq kütlələri arasında yayılmışdı. Buna baxmayaraq Novikovun ideyaları bu gün də öz əzəməti ilə heyranedicidir. Onun həbs edilməsindən sonra hələ ilk axtarış zamanı 18000 nüsxə kitab tapılmış və «zərərli» kitablar kimi yandırılmışdır. Sonrakı axtarışlar vaxtı yenə də bir neçə min bu «zərərli» kitablardan tapılıb məhv edilmişdir. Lakin buna baxmayaraq mason mistisizmi və sədaqətliliyi Novikovun ideyalarına çox dərin təsir göstərmişdir. Novikovun masonlarla olan sıx əlaqəsini də nəzərdən qaçırmaq olmaz. Dövlətli, zəngin masonlarla əlaqələri nəticəsində o, öz nəşriyyatçılıq fəaliyyətini davam etdirmək üçün ianələr əldə edirdi.

Böyük Fransa inqilabı başladıqdan sonra bir çox rus masonlarına, eləcə də Novikova və dostlarına qarşı olan təqiblər güclənməyə başladı. **Pavel** hər bir yolla onlardan yaxa qurtarmağa çalışırdı. Belə ki, o, anasının kinindən ehtiyat edirdi. 1792-ci ildə **Novikov** həbs olundu və Şlisselburq qalasında saxlanıldı. Bundan əlavə, bir çox başqa sistemlərə və lojalara aid olan digər masonlar da müxtəlif dərəcəli ağır cəzalara məruz qaldılar (hətta tonqalda yandırıldılar). Elə həmin ildə Rusiyada mason lojalarının fəaliyyəti qadağan olundu.

**II Yekaterina tərəfindən masonların və əsasən də Novikovun təqib olunmasına səbəb nə idi? Oğlunun taxt-taca gətirilməsi ilə əlaqədar qabaqcadan hazırlanmış sui-qəsd təhlükəsi qorxusumu? (Hansı ki, buna Fransa inqilabında baş vermiş hadisələri göstərmək olar). Xalqın maariflənmək qorxusumu və yaxud hakim pravoslav kilsəsinin nüfuzunun aşağı düşməsi qorxusumu?** Oxucuya öz şəxsi rəylərini formalaşdırmaq üçün aşağıdakı nümunəni misal göstərək. Bu, 1792-ci il avqustun 1-də knyaz **A.A.Prozorovskinin** adına göndərilmiş **II Yekaterinanın** əmri ilə günahlandırılma maddələrindən bir parçadır: «1. Onlar gizli iclaslar keçirmişlər. Özlərinin şəxsi məbədləri, taxtları, qurbanları var. Burada yevangeliya və xaçı öpməklə dəhşətli andiçmə mərasimləri keçirirlər. Bu onları asılı edir və aldadır. Və əbədi sədaqət və tabeliklə aldanmışlar ordenin sirrini heç kəsə verməmək və əgər hakimiyyət onlardan tələb edərsə, onların qarşısına öz andlarına sadiq qalaraq hər cür əzablara və işgəncələrə dözmək vəzifəsi qoyulurdu. Bu barədə **Novikovun** dəsti-xətti ilə verilmiş göstəriş onları ifşa edir. 2. Allah tərəfindən qanuniləşdirilmiş hakimiyyətin əleyhinə gedərək özlərini Braunşveyq şeytanına tabe etmişlər. Sonra onun özünə dövlət

tərəfindən təzyiqə və şübhələrə məruz qaldıqları üçün şikayətlərlə müraciət etmişlər. 3. Onlar şahzadə **Hessen-Kassel** və Prussiya naziri **Zyolner** ilə gizli yazışmalar aparmışdılar. Bu yazışmaları onlar özləri tərəfindən ixtira edilmiş şifrlərlə və Berlin sarayının bizə qarşı münaqişəli dövründə aparırdılar. Masonlardan oraya göndərilmiş üç nəfərdən ikisi hazırda oradadır. Onlar cəmiyyətimizi xaricdən idarə olunma təhlükəsi altında qoymuşlar. 4. Onlar öz sektalarına insanları cəlb etmək üçün müxtəlif vasitələrdən istifadə etmişlər. **Novikovun** özünün yazışmalarına əsasən demək olar ki, onların bu hərəkəti qeyri-qanuni idi. Çünki **Novikov** bu yazışmalarda özünü cinayətkar hesab edirdi. 5. Onlar özlərinin qeyri-qanuni, qadağan edilmiş ədəbiyyatlarını nəşr etmək üçün gizli mətbəə yaratmışdılar və mətbəədə nəşr etdirdikləri materialları hətta satmağa da cürət etmişdilər. Burada **Novikov** özünün və tərəfdarlarının cinayətlərini etiraf etmişdir. 6. **Novikovun** öz dəsti-xətti ilə yazılmış nizamnamələrindən məlum olur ki, onların öz məbədləri, eparxiyaları, yepiskopları, məbəd ayinləri, mərasimləri və s. vardır. Onların hamısı isə dövlət tərəfindən qadağan edildiyindən qeyri-qanuni idi. Onların özlərinə təyin etdikləri ordenlər isə zəif düşüncəli və tərəddüddə olanları

cəlb etmək idi. Bu isə onların məkrli, hiyləgər xarakterlərindən irəli gəlirdi. Baxmayaraq ki, **Novikov** özünün ən gizli ideyalarını açmayıb, lakin yuxarıda göstərdiklərimiz onların cinayətkar olduqlarını sübut edir və məhkəmə tərəfindən ən ağır və amansız cəzaya məhkum olunmalarına imkan verir. Biz isə öz növbəmizdə insanpərvərlik xarakterimizdən çıxış edərək onu öz günahları ilə bərabər Şlisselburq qalasında 15 illik həbs cəzasına məhkum edirik». **II Yekaterinanın** vəfatından və imperator **I Pavelin** taxt-taca sahib olmasından sonra **Novikov** dərhal həbsdən azad edildi. Ancaq masonlar sevinməkdə tələsmişdilər. Baxmayaraq ki, masonluq yeni imperatorun qəlbində iz qoymuş, təfəkküründə onun obrazı qalmışdır. O, masonlara münasibətdə özünü hər bir vəzifədən azad edirdi. 1791-1792-ci illərdə öz anasının kinli siması qarşısında masonlardan üz çevirmək andı **Pavelin** ürəyində masonlara qarşı bir ədavət hissi oyandırdı. İmperator Moskvaya tac qoyma mərasiminə gəldikdə **«Üç qılınc»** lojasının rəhbəri **Matteyə** əmr etdi ki, bütün Moskva masonlarını bir yerə toplasın və onlara bildirsin ki, imperatorun əmri olmadan heç bir iclas keçirməsinlər. Arada gəzən şayiələr **I Pavelin** masonlar tərəfindən öldürüləcəyindən xəbər verirdi. Ona görə ki, o, masonların orden qanunlarını

pozmuşdur. Ancaq 1801-ci ildə **I Paveli** qətlə yetirən şəxslər arasında heç bir mason yox idi.

* * *

Əsil əsərlər külliyyatında rus nəzəriyyəçisi və marksist ideyalarının təbliğatçısı olan **Q.V.Plexanovun** «Rus ictimai fikir tarixi» kitabında **N.İ.Novikova** həsr edilmiş hissə verilmişdir. XVIII əsrin ən parlaq düşüncəli mütəfəkkiri, jurnalist və yazıçısı, rus masonluğunun öndə gedən nümayəndəsi olan **Nikolay İvanoviç Novikov** (1744-1818) artıq iki əsrdir ki, Rusiya ədəbiyyatını və ictimai cərəyanları tədqiq edən tarixçilərin diqqət mərkəzindədir. Xatırladaq ki, **N.İ.Novikov** öz soy kökü etibarilə zadəgan olmuşdur və o, Moskva yaxınlığında yerləşən Taxvinski kəndində öz nəslinə məxsus olan mülkdə anadan olmuşdur. O, 1755-1760-cı illərdə Moskva Universitetinin tabeliyində olan gimnaziyada təhsil alır və sonra - 1762-ci ildə İzmayılov qvardiya alayında hərbi xidmətə başlayır. 1767-ci ildə isə o, alayın yeni tərkibini təşkil etmək üçün təsis edilmiş komissiyaya ezam olunur. Komissiyanın işi sona çatandan sonra 1769-cu ildə ehtiyata buraxılır. Hələ İzmayılov alayında xidmət edərkən o, nəşriyyatçılıq işi ilə maraqlanmağa başlayır. 1769-cu il mayın 5-də

Novikov özünün «Truten» adlı məşhur jurnalının ilk sayını buraxır.

**Novikov** sonralar özünün **«Truten», «Pustomeli 2», «Jivopisets», «Koşlyok»** jurnallarını nəşr etdirir. Bu jurnallarında o, zadəganların kobudluğunu və özbaşınalığını ifşa edir, Rusiyada azsaylı olan «üçüncü təbəqəyə» öz rəğbətini göstərirdi. **II Yekaterinanın** özü tərəfindən nəşr olunan **«Vsyakaya vsyaçina»** jurnalına qarşı mübarizə aparırdı. 70-ci illərin ortalarında **N.İ.Novikov** özünün bir çox kitablarını çap etdirir. Bunlara misal olaraq «Rusiya yazıçıları haqqında tarixi lüğət təcrübəsi», **«Qədim Rusiya bibliofikası»** adlı əsərləri və başqalarını göstərmək olar.

Həmin dövrdə **Novikov** mason lojasına üzv olur. 1779-cu ildə o, Moskvaya gəlir və orada nəşriyyatçılıq fəaliyyətini davam etdirir. 1782-ci ildə **İ.Q.Şvarts** tərəfindən əsası qoyulmuş rozenkreyserlər cəmiyyətinə də daxil olur. Mason ideologiyası Novikovun mənəviyyatına dərin təsir etmişdir və bu onun nəşriyyatçılıq, jurnalistika fəaliyyətində aydın hiss olunurdu. **Q.İ.Plexanovun** kitabında verilmiş həmin parça məhz o dövrə həsr olunurdu. Müəllif göstərir ki, mason mistisizmi, mərasimləri və «sirli elmləri» **Novikovda** bir

mənəvi boşluq yaratmışdır. Bu da onun radikal demokratik fəaliyyətdən uzaqlaşdırmış və **Plexanovun** ifadəsi ilə desək, ona «ölü» məzmun vermişdi. **Q.İ.Plexanovun** iti müşahidəsi, marksist yanaşması ilə fərqlənmiş və bu özünü **Novikovun** fəaliyyətini, masonluq fenomeninin tədqiqində göstərmişdir. Müəllif özünün müasirləri olan digər ədəbiyyatşünas və tarixçilərlə fikir mübadilələri aparmış və gəldiyi qənaətlərini bu məqalədə əks etdirmişdir. **Plexanovun** tədqiqatları ilə tanışlıq müasir oxucuya imkan verir ki, masonların materializmə, marksizmə və onların insan simasının mənəviyyatına olan dərin təsirinə qarşı düşmən münasibətləri barəsində nəticələr çıxartsın **(Plexanovun** bu məqaləsi 1915-1916-cı illərdə yazılıb).

Onu da qeyd etmək lazımdır ki, **Novikov** mason lojasına daxil olduqdan sonra Rusiya masonlarının siyasi oyunlarında da iştirak etməyə başladı. O, özünə məxsus olan qəribəlik və işgüzarlıq xarakterinə görə fərqlənirdi. 1792-ci ildə **II Yekaterinanın** hakimiyyəti dövründə təqib edilən masonlar içərisində əsas fiqura çevrildi. Masonlar ondan bir növ istifadə edirdilər. Çünki zadəganlar nəslinə məxsus olan masonlar daha çox diqqət mərkəzində olurdular. 1796-cı ildə **I Pavel Novikovu** həbsdən azad etdikdə

o, artıq mənən sındırılmışdı. **Novikov** 1818-ci ildə Tixvinskidə vəfat etmişdir.

Bu hissədə müəllif, öz mətninin əsas məzmununu bir kənara qoyaraq oxucuya, **Q.V.Plexanovun «Rus ictimai fikir tarixi»** əsərində **Novikova** həsr edilmiş hissə ilə tanış olmaq imkanı verir. Aşağıda mətnin qısa məzmunu verilib. Bu hissə böyük rus maarifçisinin mütərəqqi dünyagörüşünə masonların və mistisizmin öldürücü təsirini göstərməyə imkan verir.

**Plexanovun** əsərinin böyük hissəsini XIX əsrin sonu-XX əsrin əvvəllərində **Novikovun** fəaliyyətini tədqiq edən digər müəlliflərlə fikir mübadiləsi təşkil edir. Həqiqi nəşrdə **Plexanov** tərəfindən bu fikir mübadilələri xüsusi qeyd olunur və həmin müəlliflərin fikirlərinə istinad edilir. Mətni qısaltmaq məqsədi ilə bu fikirlər çıxarılmışdır. Onlarla tanış olmaq arzusunda olanlar **Q.V.Plexanovun** birinci nəşrlərinə müraciət edə bilərlər.

## 2. 1801–1822

Rus masonluğu yalnız imperator **I Aleksandr** taxt-taca gəldikdən sonra bərpa oluna bildi.

Burada məlum oldu ki, dərin kök salmış rus masonları özlərinin mərasimlərini, qanunlarının siyahısını, aktları, «məbədlərdəki» vəziyyəti gizli qoruyub saxlaya bilmişlər. Bunları mühafizə edənlər içərisində **İ.Pozdeyev** və **A.Labzin** də vardı.

**A.Labzin** 1800-cü il yanvarın 15-də hələ **I Pavelin** hakimiyyəti dövründə Peterburqda **«Ölməkdə olan sfinks»** lojasını açmışdı. Onunla bir çox köhnə masonlar: **İ.A.Pozdeyev**, **S.İ.Qamaleya** və **Novikov** əməkdaşlıq etməyə başlamışdılar. Onlar Moskvada yeni loja yaratmaq üçün çoxlu əmək sərf etmişdilər. Həmin loja 1803-cü ildə senator **P.İ.Qolevnişeva-Kutuzovanın** rəhbərliyi altında **«Neptun»** adı ilə fəaliyyətə başlamışdır. 1802-ci ildə Peterburqda kammerner **A.A.Jelebtsov «Birləşmiş dostlar»** lojasını açdı. **Jelebtsov** Parisdə səfir olduğu müddətdə masonluğa qoşulduğu üçün bu loja fransız sisteminə əsasən yaradılmışdı. Lojada işlər yalnız fransız dilində aparılırdı. «**Neptun**» lojasında da fransız dili rus dili ilə bərabər istifadə olunurdu. Beləliklə, fransız dili və Fransa sistemi və onlarla bərabər Fransa inqilabı ideyaları **Aleksandr** dövründən bərpa olunan rus masonluğuna elə ilk illərdən yol tapmışdır**. «Birləşmiş dostlar»** lojasının vəzifələri «insanlar arasında irqi, sosial, dini dünya-görüşü fərqləri qaldırmaq, fanatizmi və

mövhumatçılığı məhv etmək, müharibələri, milli nifrəti aradan qaldırmaq, bəşəriyyəti məhəbbət və biliklə bir-birinə bağlamaqdan ibarət idi».

Həmin bu lojaya **I Pavelin** ortancıl oğlu **Konstantin Pavloviç**, hersoq **A.Vertemberqski**, qraf **Stanislav**, **Kostka-Pototski**, qraf **Osterman-Tolstoy**, general-mayor **N.M.Borozdin**, **A.X.Bek-kendorf** (**I Nikolay** dövründə jandarm rəisi), qraf **İ.A.Narişkin**, **A.D.Balaşov**, gələcək polis naziri və bir çox görkəmli zadəganlar və məmurlar daxil idi. Elə həmin lojaya bir çox mahnılar, şerlər və mədhiyyələr həsr etmiş **Vasili Lvoviç Puşkin** də daxil idi. Adını çəkdiyimiz hər bir loja istər rozenkreyserlərə, istərsə də fransız mərasimlərinə məxsus olanların hər biri imperator **I Aleksandrın** xüsusi icazəsi ilə yaradılmışdır. 1805-ci ildə imperator hələ 1773-cü ildə Pelikan İsveç mərasimləri əsasında yaradılmış mason lojasının yenidən bərpa edilməsinə icazə verdi. Həmin lojanın adı **«Tac qoyulmuş Pelikana Aleksandr xeyirxahlığı**» oldu. 1809-cu ildə həmin lojadan **«Xeyirxah Yelisaveta»** adlı yeni bir loja yaradıldı. Oraya xüsusi olaraq almanlar daxil idilər. Elə həmin vaxt hər üç lojaya rəhbərlik edən **«Qaydalar üçün böyük direktorial Vladimir lojası»** yaradıldı. Beləliklə, 1812-ci ildə Vətən müharibəsi başlanana

qədər olan dövr rus masonluğunun «qızıl dövrü» adlandırılır. Bu dövrdə Peterburq və Moskva zadəganları, imperator nəslindən olanlar, şairlər, yazıçılar, alimlər daxil olan çoxlu yeni mason lojaları yaradılmışdır. Lojaların çoxu mənəvi mistisizmə əsaslanırdı. Ancaq fransız mərasimləri lojaları öz nümayəndələrini vətəndaşlıq cəsarəti göstərməyə, hüquqları və xalqın marağını müdafiə etməyə sövq edirdilər. Belə lojaların da sayı getdikcə artırdı. Beləliklə, 1800-cü ilin martında **«Fələstinlilər»** adlı işlərini fransız dilində aparan yeni loja yarandı. Lojanın rəhbəri **M.Y. Videlqorski** idi. Tezliklə onun üzvlərinin sayı 75-ə çatdı.

Yüksək dərəcəli lojaların yaradılması sonrakı vaxtlarda da davam edirdi. 1810-cu ildə **İ.A.Fessler** tərəfindən rəhbərlik edilən lojaya **M.M.Speranski** qəbul edilmişdir. Mason lojalarının geniş yayılması, onların fəaliyyətləri ətrafında gedən söz-söhbətlər, aşkarlıq hökumət dairələrini mason mərasimlərini yoxlamağa məcbur etdi. Bu təftiş elə mason olan yeni polis naziri **A.D.Balaşov** tərəfindən aparıldı və bütün rus masonlarının xeyrinə nəticələr çıxarıldı. Bütün mason lojalarının fəaliyyəti üçün icazələr verildi. Lakin bəzi fransız mərasimli lojalara qadağalar tətbiq edilirdi. Mason lojalarının rəhbərlərinə lojalar yaradılması layihələri elan olu-

nurdu. Bu layihələrin maddələri göstərir ki, hətta **Aleksandr** dövründə də hakimiyyət dairələri masonların fəaliyyətindən ehtiyat edirdilər. O cəmiyyətlər qadağan edilirdi ki, orada dövlətin idarəçiliyi ilə bağlı bəzi vasitələr barəsində müzakirələr aparılır və üzvlərə sözsüz rəhbərə tabe olmağa məcbur edirdi. Oxucunun artıq masonluq barədə oxuduqları bu qadağalara tamamilə uyğun gəlir. Ümumiyyətlə, bu layihə masonların tamamilə ləğv edilməsinə bərabər idi. Bu layihə olduğu kimi qalır və bəzən ona çox da diqqət verilmirdi. Lakin hakimiyyət dairələrini Fransada olduğu kimi mason lojalarının inqilabi ideyaları və dünyagörüşünü yaya biləcəkləri narahat edirdi. Yuxarıda adını çəkdiyimiz layihə 1811-1812-ci illərdə «**İsveç mərasimi lojası üçün müqəddəs Fenniks kapitulu**»[*] adlı yeni lojanın yaradılmasına heç də maneə olmadı. Ən yüksək tabelilik mərasimi olan bu kapitulun nümayəndələri gizli olaraq sıravi «qardaşlar» kimi qalmalı idilər. Onların hakimiyyəti hüdudsuz idi. Kapitul daxilində şifrələrdən istifadə olunurdu. Məşğələlər yalnız kapitul üzvləri olduqda keçirilə bilərdi. Bu üzvlər 16 nəfər zadəganlardan ibarət idi. Onlardan dördünün müsəlman və yəhudilərlə qarışığı yox idi.

---

[*] Kapitul – Çar Rusiyasında orden verməklə məşğul olan idarə (Tərtibçilər).

XIX əsr rus masonluğu ilə XVIII əsrin 70-90-cı illərinin masonluğunu müqayisə edərək qeyd etməliyik ki, birincilərin xarici masonlarla əlaqəsi çox zəif idi (fransız sistemli lojaları yeni yaranarkən istisna etmək lazımdır). Bu masonlar azadlıqsevər və vətənpərvər olduqları üçün gənc imperator **I Nikolaya** qarşı loyal münasibətdə idilər. Masonlar haqqında şer kitabçasının ilk redaktəsinə çarın şərəfinə mədhiyyə də daxil edilmişdir.

**I Aleksandrın özü mason idimi?** Keçən əsrin tarixçiləri bu barədə müxtəlif rəylərə malikdirlər. Bir versiyaya əsasən o 1803-cü ildə masonluğa qəbul edilmişdir. Onun tərəfindən verilmiş göstərişlər (1802 və 1811-ci illər) yalnız qeyri-leqal fəaliyyət göstərən lojaları qadağan edirdi, lakin ümumilikdə masonluğu ləğv etmirdi. Hər halda Rusiyada 1822-ci ildə masonluğun tamam ləğv edildiyi dövrə qədər **I Aleksandrın** dövründə olduğu kimi cəmiyyətin bütün təbəqələrindən (fəhlə və kəndliləri çıxmaq şərtilə) nümayəndələri olan bu qədər çoxlu mason lojaları olmamışdır. 1817 və yaxud 1818-ci ildə **I Aleksandrın** yerli rəhbəri gələcək dekabrist **A.N.Muravyov** olan **«Üç xeyirxah»** lojasına təşrif gətirdiyi faktı da məlumdur. Onunla söhbətində imperator bəzi açıqlamalar verməsini xahiş etdi. **A.N.Muravyov** cavab verərkən loja qaydası ilə **I**

**Aleksandra** «sən» deyə müraciət etdi. Bu, çarın heç xoşuna gəlmədi və o, lojaya bir daha getmədi. Çarın **Aleksandr Muravyova** olan münasibətində isə narazılıq hiss edilirdi.

**Aleksandrın** dövründə mason lojaları leqal fəaliyyət göstərirdilər və onların faktik vəziyyəti o dövrün Fransa, Prussiya və İsveç lojalarından fərqlənmirdi. Onların çoxunun mülkü və ya icarəyə götürülmüş evləri var idi və orada «qardaşların» iclasları keçirilirdi. **«Tac qoyulmuş Pelikana Aleksandr xeyirxahlığı»** lojası Peterburqda Nevski prospekti yaxınlığında Moyka sahilində muzey binasında yerləşirdi. Bu gün də A.İ.Gertsen adına Pedaqoji İnstitutun darvazasından içəri keçərkən abidə kompleksini görmək olar: sinəsini yararaq ürəyini çıxarıb quşlara yem edən pelikan heykəli.

Hakimiyyət dairələrinin masonlara olan xeyirxah səbri və onların ən yüksək orqanlarında görkəmli şəxslərin və zadəganların olması 1812-ci ildə Vətən müharibəsi ərzində masonların siyasi məsələlərlə çox az maraqlanmalarına səbəb oldu. Özlərinin adi «işlərindən» başqa masonlar xeyriyyəçiliklə, maarifin inkişafı və xalqın savadlanması ilə məşğul olurdular. 1812-ci ildə Vətən müharibəsinin ən qızğın çağlarında masonlar özünü vətənin sadiq oğulları kimi göstərdilər və öz

sıralarına bir çox hərbi rəisləri və ictimai xadimləri qəbul etdilər. Onların içərisində ilk növbədə feld-marşal **M.İ.Kutuzovu** qeyd etmək lazımdır ki, onun doğma qardaşı XIX əsrdə Rusiyada meydana gələn ilk masonlardan olmuşdur. O, Reqensburqda **«Üç açar»** lojasına qəbul edilmişdir. **Kutuzov** İsveç masonluğunun 7-ci dərəcəsini almış və **«Qızıl dəfnə yarpağı»** fəxri orden adı ilə təltif olunmuşdur. Alaylarda hərbi süvari lojalar meydana gəlməyə başlayırdı və onların tərkibinə gələcək dekabristlər - gənc zabitlər daxil olurdular.

**Napoleon** üzərində qələbə rəngarəng lojalarda toplaşan rus lojalarını daha da ruhlandırıldı. Masonların mistik və mənəvi fonunda tanınmış zadəganlardan olan, təhsilli, yürüşlər zamanı Qərbi Avropa həyatı ilə yaxından tanış olan gənc zabitlər də vardı. **Mixaylovski – Danilevski** öz memuarlarında yazırdı ki, Vətən müharibəsinin ilk illərində **«Müqəddəs Georgi»** adlı hərbi-süvari loja Vilndə yaranmışdır. Ancaq onun özü masonluğa xaricə yürüş zamanı - 1813-cü ildə daxil olmuşdu. O, Frankfurt-Maynda olarkən dostu polkovnik **Brozin** ilə birgə «**Müqəddəs Georgi**» lojasının rəisi polkovnik **Soroçinskinin** yanına gəlir və lojaya qəbul olur. Rus hərbi masonları Prussiya ordusunda fəaliyyət göstərən «**Polad xaç**» lojası ilə sıx əlaqələr

yaratmışlar. Rus ordusu Parisə daxil olarkən fransız lojaları böyük məmnuniyyətlə rus mason zabitlərini öz müşavirələrinə qəbul edirdilər. **Mixaylovski-Danilovski** yazırdı ki, özü şəxsən 20 müxtəlif lojada və «**Böyük Fransa Şərqi**»ndə olmuşdur. O da bir çox rus zabitləri kimi bir sıra yüksək fransız mason dərəcələri almışdır. 1815-ci ildə Rusiyaya qayıtdıqdan sonra **Mixaylovski-Danilevski** «**Seçilmiş Mixail**» lojasının üzvlərinin təklifinə əsasən yerli magistr vəzifəsini qəbul etdi. «Əlbəttə, lojanın müşavirələri hakim dairələrə məlum olurdu. Çünki heç bir müşavirəni buraxmayan **Fon** məxfi polis rəisi idi».

Ən cəsur dekabristlərdən biri olan **Pavel İvanoviç Pestel** məhz 1812-ci ildə Peterburqda masonluğa qəbul edilmişdir. Bu loja «**Birləşmiş dostlar**» adlanırdı. 1816-cı ildə o, «**Üç xeyirxah**» lojasına keçdi. 1817-ci ildə **P.İ.Pestel** masonların fəaliyyət istiqamətindən narazı qaldığı üçün onlarla hər bir formal əlaqəni kəsdi. Ancaq buna baxmayaraq o da digər dekabristlər kimi bütün mason diplomlarını və sənədlərini ehtiyatla qoruyub saxlamışdı. **Pestel** həbsə alınarkən ondan 3 cildlənmiş mason əlyazması tapıldı: «İsveç ustasının qanunları, müstəsna hüququ və üstünlükləri», «İsveç ustası», «Dördüncü dərəcə». Bunlar imkan verirdi ki,

onun 5-ci dərəcəli mason («İsveç ustası») olduğu haqqında nəticə çıxarılsın. Dekabrist **S.P.Trubetskoy** 1816-cı il yanvarın 25-də «**Üç xeyirxah**» lojasına qəbul edilmiş və bir neçə ildən sonra 4-cü dərəcə almışdı. Belə məlum olur ki, **S.Q.Volkonski** 1812-ci ildə «**Birləşmiş dostlar**» lojasına üzv olmuşdur. **Volkonskinin** özü qeydlərində göstərir ki, sonralar dekabrist cəmiyyətlərindən birinə qəbul edilmişdir. Bu cəmiyyət həmin dövrdə ruslardan, polyaklardan və Kiyevdə işləyənlərdən ibarət olan «**Birləşmiş slavyanlar**» adlı formal mason lojası idi. O, əvvəlcə «**Xeyirxah Yelizaveta**» lojasının üzvü olmuş, sonralar «**Üç xeyirxah**» lojasında yüksək vəzifələr tutmuşdur. **Matvey İvanoviç Muravyov-Apostol** da 1816-cı ildən 1820-ci ilə qədər «**Üç xeyirxah**» lojasında fəaliyyət göstərmişdi. Ona görə də həm «**Üç xeyirxah**», həm də «**Birləşmiş slavyanlar**» lojasının gələcək dekabristlərin dünyagörüşünün formalaşmasında böyük rol oynadığını hesab etmək olar. **Qlinka, N.Bestujev, M.Küxelbeker, M.Mitkov, M.Fonvizin, A.fon-de-Briqqen** kimi dekabristlər də Peterburq və ya əyalət masonlarından olmuşlar. Viqelin yazdığına görə, **Lunin «Üç seçilməmiş qılınc»** lojasının üzvü olurmuşdur. **N.Turgenev, F.Şaxovski** də mason olmuşlar. Onlar

**Dolqoruki, Trubetskoy** və **Pestel** ilə birlikdə dekabristlərin «Müdafiə ittifaqı» nizamnaməsini yaratmışlar və bu nizamnaməyə mason lojaları statusundan əlavələr etmişlər.

Mason nişanı olan pətək ilə arılar «**Səadət ittifaqı**» möhüründə əks olunmuşdur. Beləliklə, rus masonlarına xas olan demokratik ənənələr özünü daha çox gələcək dekabristlərdə göstərirdi. Onlar siyasi məsələlərin müzakirə edilməsini ilk dəfə mason lojalarından öyrənmişlər. Gizli dekabrist cəmiyyətlərinin ilk nümayəndələri məhz mason olmuşlar. Bu lojaların fəaliyyəti siyasi xarakter almağa başlayırdı və burada dövlət idarəçiliyinin dəyişdirilməsi ilə bağlı məsələlər müzakirə olunmağa başlayırdı. İmperator onların bu fəaliyyətindən xəbərdar olduqdan sonra onların tamamilə bağlanması haqqında əmr verdi. Məlum olduğu kimi, bu qadağa gələcək dekabristləri saxlaya bilmədi. Onlar özlərinin mason örtüyünü ataraq, sırf siyasi gizli təşkilat kimi fəaliyyətə başladılar və ilk çıxışları 1825-ci ilin dekabr ayında oldu. Masonların gizli şəkildə izlənməsi 1822-1825-ci illər ərzində də davam edirdi. **I Aleksandrın** vəfatından sonra onun kabinetindən, Rusiyada qadağanlara baxmayaraq, fəaliyyət göstərən masonlar haqqında polis xəbərləri tapılmışdı.

### 3. 1822-1905-ci illər

1822-ci il martın 1-də I Aleksandr daxili işlər naziri qraf **V.P. Naqupeyaya** Rusiyada bütün gizli təşkilatların bağlanması haqqında **reskript (sərəncam** - qədim Romada imperatora təqdim edilmiş məsələyə onun verdiyi qanun qüvvəsində olan cavabı - **Tərtibçilər**) göndərdi. Onların içərisində ilk növbədə mason lojalarının adı çəkilirdi. Məlumdur ki, bir çox gələcək dekabristlər hakimiyyət ilə bağlı planları məhz mason lojalarında müzakirə edirdilər. 1822-ci il Rusiya mason lojalarının açıq şəkildə qadağan olunduğu il hesab olunur. Lakin müxtəlif tarixi mənbələr göstərir ki, rus masonluğu 1822-ci ildən sonra da qeyri-leqal şəkildə fəaliyyət göstərməkdə davam etmişdi. 1822-1825-ci illərdə gizli dekabrist təşkilatları və dərnəklərinin fəaliyyət göstərməsindən belə nəticəyə gəlmək olar ki, mason lojaları da məxfi şəkildə öz fəaliyyətlərini davam etmişdi. Əks halda 1825-ci ildə dekabrın 14-də üsyanı yatırdıqdan sonra taxt-taca sahib olan imperator **I Nikolay** tez bir zamanda mason lojalarının fəaliyyətini qadağan etməzdi. Hətta **Nikolay** hakimiyyətinin qəddar vaxtlarında belə

mason hərəkatları tamamilə aradan qalxmamışdı. Lakin onların həyatı əvvəlkilər kimi gurlamırdı. Masonlar azsaylı tərkibdə, məhdud dairələrdə toplanırdılar. Onların tərkibi əsasən zadəganlardan ibarət idi. Dekabrist hərəkatının iştirakçılarının masonlara **Aleksandr** dövründə gətirdiyi radikal ruh yüksəkliyi tamam itmişdi.

Bu fikri təsdiq edən mənbələrdən yalnız knyaz **P.V.Dolqorukovun** xatirələrinə müraciət edək. O yazırdı ki, **S.S.Lanskoy** ömrünün sonuna – 1862-ci ilə qədər (1855-1861-ci illərdə sonuncu dəfə daxili işlər naziri olmuşdur) Peterburqda Böyük əyalət lojasının (İsveç mərasimi) canişini olmuşdur. Moskvaya isə lojaya **S.Fonvizin** rəhbərlik edirdi[3]. Masonların fəaliyyəti dövrünə aid əcnəbi mənbələr də şahidlik edir. Bu məxfi lojaların tərkibi azsaylı olmasına baxmayaraq, böyük əksəriyyəti mühafizəkar düşüncəli idilər. Görünür bu cəhətə görə hakim dairələr onlara barmaqarası baxırdı. Bu illərdə rus lojaları əsasən konservativ İsveç masonları, qismən də ingilislərlə əlaqəli idilər. Bununla yanaşı, 60-cı illərdə fransız, alman və italyan masonları Rusiya masonları ilə əlaqə yaratmağa və ya onların lojalarını təşkil etməyə çalışırdılar. Mənbələrə əsasən, belə

---

[3] **Долгоруков П.В.** Петербурские очерки. М., 1994, с. 326-327

cəhdlər tək-tək hallarda baş verdiyi üçün masonluğun geniş miqyasda bərpa olunmasına imkan vermədi.

Rusiyada inqilabi hərəkatlar, millətçilik, liberal-burjua mülkədar zadəganların meydan hərəkatları Rusiyada mason tarixinə və xaricdə masonluq yaratmaq fikrinə olan marağı gücləndirirdi. 60-cı illərdən başlayaraq tarix və ədəbiyyat jurnallarında XVIII əsr və XIX əsrin əvvəllərində masonlara dair memuarlar görünməyə başlayırdı ki, bunlar da Rusiyada masonlara dair ilk tədqiqatlar idi (bununla əlaqədar olaraq **Lonqinov** və **Pıpinin** işlərinə istinad verək). 70-ci illərin sonları üçün geniş auditoriya arasında geniş müvəffəqiyyət qazanan **A.F.Pisemskinin** «Masonlar» (1880-ci ildə nəşr edilən) adlı romanı meydana gəldi. 70-ci illər və 80-ci illərin əvvəlində Rusiya publisistikasında sistematik olaraq oxuculara Qərbdə mason lojaları haqqında yeniliklər, İtaliyanın birləşdirilməsi uğrunda **C.Qaribaldinin** və **C.Madzinin** apardıqları mübarizə, **«Böyük Fransa Şərqi»** lojasında aparılan islahatlar və əsasən, siyasi fəaliyyətlə məşğul olanlar haqqında materiallar dərc olunurdu. Paris Kommunası rəhbərlərinin içərisində müxtəlif masonların olması xəbəri geniş əks-sədaya səbəb olmuşdu. Bütün bunlar zadəganlar, mülkədarlar, liberal ziyalılar və digər inqilabçılarda masonlara marağı daha da gücləndirirdi.

XIX əsrin sonuncu onilliyində Rusiya azadlıq hərəkatına masonlar Fransadan gəlməyə başlayır. Müasir Polşa tədqiqatçısı **Lüdviq Xassa** bu məsələni xüsusi şəkildə öyrənərək israr edirdi ki, ilk rus liberalı fransız masonları ilə fəal əməkdaşlıq edən filosof-pozitivist **Q.Vırubov** (1842-1913) olmuşdur. XIX əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəllərində o «**Myutyüalite**» («**Qarşılıqlı yardım**») lojasına üzv qəbul edilir və sür'ətlə mason ierarxiyası pillələrini qalxır. 1883-cü ildə hətta **Vırubov «Böyük Fransa Şərqi» – «Qanun soveti»** lojasının vitse-sədri vəzifəsində çalışır. **Vırubov** Rusiya ilə əlaqəni kəsmir, tez-tez oraya gedirdi. O, həm Rusiyada, həm də Fransada görkəmli sosioloqlar, yazıçılarla tanış olur və həm onlarla, həm də məktəb yoldaşları ilə tez-tez görüşürdü. Onun dostları arasında **M.M.Kovalevski, Y.V. de Roberti, P.D.Bobrının** və b. da var idi. **Vırubov** fransız və rus liberalları arasında özünəməxsus bir vasitəçiyə çevrildi.

Fransız masonluğuna qəbul edilmiş ruslar içərisində közərmə elektrik lampasını ixtira edən görkəmli alim **P.N.Yabloçkovu** da qeyd etmək lazımdır. 1884-1888-ci illərdə o, hətta **«Əmək və həqiqətin sadiq dostları»** № 137 «Əvvəlki isveç mərasimi və Fransa tərəfindən tanınmış ali sovet»

Paris lojasının fəxri «koloniya rəhbəri» olmuşdur. 1804-cü ildə **«Böyük Şərq»** lojasından ayrılan «Ali Şura» mason birliyi daha mühafizəkar mövqeyi ilə fərqlənirdi. Həmin lojaya 1885-ci ildə gənc moskvalı həkim-psixiatr **N.N. Bajenov**[4] xaricdə olarkən qəbul edilmişdir. Hələ gimnaziyada oxuyarkən o, milli dərnəyə üzv idi. Moskva universitetini bitirdikdən sonra **N.N.Bajenov**, elmi işini davam etdirmək üçün Parisə gedir. O, Parisdə 2 il qalır və elə həmin müddətdə masonluğa qəbul edilir. Mason qanunlarına zidd olaraq ona üç mason dərəcəsi birdən verildi. O, 1885-ci ildə bütün Rusiya mühacirlərinin məktublarını ələ keçirərək usta kimi Moskvaya qayıdır, məşhur rus masonlarından birinə çevrilir.

Görünür, **Bajenov** ilə eyni vaxtda **M.M.Kovalevski** də İsveç mərasimli Fransa lojasına (bu loja da **«Ali Şura»ya** tabe idi) qəbul olunur**. 1870-1872-ci illərdə Kovalevski Parisdə olarkən Vırubov** ilə çox yaxınlaşır. **Marks** və **Engels** ilə tanışlığı və sonrakı yazışmalar **Kovalevskinin** radikal dünyagörüşünün formalaşmasına təsir

---

[4] **Bajenov** (1857-1923) - məşhur Moskva psixiatrı, Ali qadınlar kursunun psixiatriya professoru, Preobrajenski xəstəxanasının baş həkimi. 1917-ci ildə digər köhnə masonlar kimi Kerenski tərəfindən Fransada Rusiya Qırmızı Xaç Cəmiyyətinə tibb üzrə müfəttiş təyin olunmuşdur. Oktyabr inqilabından sonra Fransada qalmışdır. 1919-cu ildə fransız dilində özünün «Rusiya inqilabı. Sosial psixologiya təcrübəsi» adlı kitabını çap etmişdir.

etmişdir. **M.M.Kovalevski** mühazirələrində nəzərə çarpan liberal görüşlər və konstitusiya ideyalaraına görə Moskva Universitetindən xaric edilir.

O, 1887-ci ildən xaricdə yaşayıb, Parisdə, Oksfordda, Stokholmda, Çikaqoda və digər şəhərlərdə mühazirələr oxumuşdu. **Kovalevski** masonların təsirinə məruz qalan Beynəlxalq Sosialist İnstitutunun əsasını qoyanlardan biri olmuşdur.

Artıq 1887-ci ildə xaricə köçdükdən bir neçə ay sonra **M.Kovalevski P.N.Yabloçnikov** ilə birgə Parisdə 288 saylı «**Kosmos**» mason lojasını təşkil edirlər. Bu loja **«Əvvəlki isveç mərasimi və Fransa tərəfindən tanınmış Ali Sovet»** lojasına tabe idi. Belə məlum olur ki, həmin vaxtlar **M.M.Kovalevski** rus mütləqiyyətinə qarşı müxalif mövqedə dayanmışdı və belə hesab edirdi ki, müxalifətin yaradılması üçün konstitusiya ideyalı siyasi xadimlərin bir yerə toplanması üçün masonlar ən yaxşı vasitədir. **«Kosmos»** lojası müvəqqəti olaraq Fransada toplaşmış rusların təşkilatı kimi nəzərdə tutulurdu. Təbii ki, Fransada masonluğa qəbul edilmiş rus liberal burjua xadimlərinin sayının çoxalması gələcəkdə Rusiyanın özündə masonların siyasi fəaliyyətinin bərpa edilməsi məsələsini labüd edirdi. Rus mütləqiyyətinə qarşı əleyhdarların toplanmasında masonların üstün olması fikrini XX

əsrin əvvəllərində məşhur rus anarxisti knyaz **P.A.Kropotkin** də söyləmişdir.

XIX əsrin 70-ci illərinin sonunda və 90-cı illərində «**Kosmos**»un fəaliyyəti geniş şəkildə işıqlandırıldı. Nisbətən dəqiq məlumatlar XX yüzilliyin ilk illərinə təsadüf edir. Məşhur mülkədar xadimlər lojanın fəxri hesab olunurdu. Bunların içərisində **V.A.Maklakov** və yazıçı **A.V.Amfiteatrov** da olmuşlar.

**Maklakov** xaricdə olan rus liberallarını Moskvada liberal-burjuaziya xadimlərinin dərnəyi olan «**Söhbət**» ilə bir yerə toplayırdı. Amfiteatrov çar ailəsini ciddi satira ilə tənqid edən **«Aldanmışlar ailəsi»** felyetonunu 1902-ci ildə çap etdirdikdən sonra liberalların və demokratların geniş rəğbətini qazanmışdı. Hakim dairələr **Amfiteatrovu** Minusinskə sürgün etdilər. O, yalnız 1905-ci ildə Parisə «**Kosmos**»dakı qardaşlarının yanına gedə bildi. 1930-cu ildə onun xarici və sovet mətbuatında mason olması haqda məlumat verildikdən sonra yazıçı elə həmin ildə **Riqanın** «Bu gün» qəzetində rus dilində «Mənim mason lojasında olduğum vaxtlar» adlı yumoristik oçerk dərc etdirir.

Oxucuya bu oçerkdən bəzi hissələrlə tanış olmaq maraqlı olardı. «İki il bundan əvvəl həyat yoldaşım mason «zapon»u – ağ rəngli laykadan lentli önlük tapdı.

Mən dərhal bu ağ önlüklərin mənim, **Kovalevski** və **Tamamanşev** kimi nəhəng adamların qarnından necə asıldığını fikirləşəndə gülməkdən özümü özümü saxlaya bilmədim». Daha sonra **Amfiteatrov «Kosmos**» lojasının daha üç müşavirəsi haqqında danışır. Bu müşavirələr **E.V. de Roberti** və o illərin məşhur şairi **Nemiroviç-Dançenkoya** həsr edilmişdir. Ancaq üçüncü müəllifin adını çəkmədi. Ancaq onun kimliyi başqa mənbələrdən məlum olur. «Belletristi yazan (nəsr əsərləri, romanlar, hekayələr yazan, yəni belletristika ilə məşğul olan) şəxsi» fransız dilində pis danışdığı üçün danlayan Amfiteatrov sonra yazır: «Lakin mason geydirmələri və realiyalarda o çox səmərəli iri və az qala yeganə adam idi ki, müşavirələrdə qılıncını yellədirdi. O öz romantik görünüşü ilə gülünc təsir bağışlamırdı. O, saxtakar kimi deyil, XVII-XVIII əsrin əsl rozenkreyserlərinə bənzəyirdi». **A.V.Amfiteatrov** masonluğu əsas etibarilə qədim mərasimçiliyinə görə məsxərəyə qoysa da, rus-fransız masonlarının siyasətlə məşğul olduğunu etiraf etməli idi. **«Kosmos»** digər mason təşkilatları ilə birgə Fransada kral hakimiyyətini tənqid edirdi. Onlar 1906-cı ildə fransız bankirləri tərəfindən kral hakimiyyətinə borc verilməsinin əleyhinə təbliğat işi aparırdılar.

İlk mənbələrdən məlum olur ki, bu hərəkatın xarakteri xalqa çox yad idi. Bəli, masonlar o dövrdə bir qədər gec olsa da özünəməxsus şəkildə mədəniyyətə və kral hakimiyyətinə qarşı mübarizə aparırdılar. Lakin onlar bunu xalqın azadlığı üçün deyil, siyasi hakimiyyətin ələ keçirilməsi, bizim ölkədə burjua hakimiyyətinin saxlanması və əbədiləşdirilməsi üçün edirdilər. Amfiteatrov **M.M. Kovalevskinin** sözləri ilə bu «bərabərlik və qardaşlıq dostlarının» əsl niyyətlərini xarakterizə edirdi: «Danışırlar ki, inqilabdan əvvəl keçirilən çoxsaylı ziyafətlərdən birində de Roberti kəndlilərə torpaq ayrılması haqqında alovlu nitqlə çıxış edirdi. Onun yanında oturan Kovalevski istehza ilə soruşdu:

- Və ən yaxşı mükafat olaraq qumlu torpaq?

- Əlbəttə ki, təbii! – dərhal tverli **Mirabo**[5] yerindən replika ataraq, öz «guruldamağına» davam etdi. **«Kosmos»u** bütövlükdə görə bildiyim üçün lojanın təntənəli ziyafətləri məni masonluğa qarşı soyutdu və mən hiss etdim ki, yanılmışam».

1800-cü ildə Kovalevski tərəfindən Parisdə yaradılmış İctimai Elmlər üzrə Rusiya Ali Məktəbi də **«Kosmos»** mason lojasının ideya rəhbərliyi və nəzarəti altında idi. Kovalevski tərəfindən müəyyənləşdirilmiş məktəbin məqsədi də tamamilə

---

[5] **Mirabo, Oneri Qabriyeli Riketti** (1749 – 1791) –Böyük Fransa inqilabının görkəmli xadimlərindən biri.

mason ruhunda idi: «Baxışlar arasındakı ciddi qarşıdurmanı aradan qaldırmaq, qarşılıqlı anlaşma olmadığından yad münasibətlərdə olan siyasi dairələri yaxınlaşdırmaq və barışdırmaq olmur»![6] 1901-ci il noyabrın 1-də məktəbin açılışı keçirildi və onun baş katibi **Qambarov** oldu. Məktəbin mühazirəçiləri **M.M.Kovalevski, E.V. de Roberti, İ.İ.Meçnikov, S.A.Muromsev, N.N.Kareyev, M.M.Vinaver** və b. idilər. Onların bir hissəsi, şübhəsiz ki, «Kosmos»un üzvü idi. V.M. Çernov da məktəbdə çıxış edirdi. Rus mühazirəçilərindən tarixçi və tənqidçi **Q.Brandesi**, anarxist-coğrafiyaşünas **E.Reklyunu**, polyaklardan tarixçi **N.Vališevskini** və filosof **V.Kozlovskini**, belçikalı **V.Vanderveldi** göstərmək olar. Məlum olub ki, hər halda **V.Vanderveld, Reklyu** və **Kozlovski** mason idilər. Məktəbin müəllimləri və dinləyiciləri kimi məqsədəuyğun şəkildə **M.M.Kovalevskinin** və məktəbin əsasını qoyan digər şəxslərin evlərində axtarışlar aparılmışdır. «**Böyük Şərq**» və «**Ali Şura**» təşkilatlarının tərkibində olan bir çox fransız lojaları rus liberal-burjua xadimlərinə bu və ya digər şəkildə təsir etmişlər. Bu, əsasən, birinci rus inqilabından əvvəl rus azadlıq və qismən inqilabi hərəkatları illərində keçirilən təşkilati və ictimai aksiyalarda özünü

---

[6] **М.М.Ковалевский.** Ученый, государственный и общественный деятель и гражданин. Пг., 1917, с.56.

göstərirdi.Bu və **P.B.Struvenin** rəhbərliyi ilə yaranmış təşkilatın radikal əcnəbi burjua orqanı olan «**Qurtuluş**» (Struvenin özünün mason hərəkatında iştirak etməsi haqda hələlik tutarlı dəlillər yoxdur. Bu və Şaffxauzendə keçirilən müşavirə, hansı ki, 1903-cü ildə konstitusiyaçı mülkədar birliyinin və «**Qurtuluş birliyi**»nin yaranmasına səbəb oldu. Beləliklə, son müşavirənin iştirakçısı alim və publisist **S.A.Kotlyarevski** (Moskva Universitetinin dosenti) Paris «Sinay dağı» №6 «İsveç mərasimli böyük Fransa lojasının» üzvü oldu. Bəzi keçmiş «gənc» sosial-demokratların «Kredo»nun kədərli məşhur müəllifləri iqtisadçılar **E.M.Kuskova** və **S.N.Prokopoviç** ilə də bağlı bir neçə dolayı məlumatlar var. Ola bilsin ki, onlar da rus inqilabından əvvəl Fransa mason lojalarının üzvləri olmuşlar (Ümumiyyətlə, mason lojalarına qadınları qəbul etmirdilər, lakin «**İnsan həqiqəti**» lojası istisna idi. Belə ki, istisnanı «**Rusiya xalqının ali soveti**»nin təşkilatçıları da 1911-ci ildə etdilər və **Kuskova** bu təşkilatın fəal iştirakçılarından biri oldu. O, 1904-cü ildən mütləqiyyətə qarşı mübarizə aparan Paris müxalif və inqilabi təşkilatların konfransında iştirak etməyə başladı. Orada masonlar daha çox idilər. Burada təkcə ən nüfuzluları deyil, polyak, ukraynalı, finland masonları da iştirak edirdilər.

Yuxarıda deyilənlərdən belə nəticə çıxarmaq olar ki, rus inqilabı ərəfəsində onlarla görkəmli rus liberal və mülkədar-burjua hərəkatı xadimləri, onlardan solda olan radikallar belə Fransada həm xüsusi olaraq ruslar üçün yaradılan, həm də fransızlara məxsus olan lojalarında mason hərəkatına cəlb edilmişlər (Məsələn, «Kosmos»). Bu, 1903 və 1904-cü illərdə bir sıra siyasi təşkilatlar arasında qarşılıqlı anlaşma və əlaqələrin yaradılması işini asanlaşdırırdı. Ancaq bu hərəkatların miqyası, onlar haqqında məlumat verən mənbələr və bu mənbələrin özü hərəkatların genişliyi və nüfuzu haqqında danışmağa imkan vermir. Əlbəttə, XIX əsrin 90-cı illərində həm mülkədar-liberal, həm də inqilabi hərəkatlar bu qanunlar əsasında inkişaf edirdi. Onların əksər rəhbər xadimləri ayrı-ayrı liberalların masonlarla əlaqədə olması haqqında təsəvvürlər yox idi və onlar masonlar tərəfindən heç bir təzyiq hiss etmirdilər.

Baxmayaraq rus sosial-demokratları bu illərdə menşeviklərin təfriqəçilik fəaliyyəti nəticəsində bir çox çətinliklərlə üzləşmişdi. Onlar RSDİP (Rusiya Sosial-Demokrat İnqilabi Partiyası) II qurultayından sonra yenə də inamla öz yollarını davam etdirdilər. **V.İ.Leninin** rəhbərliyi ilə inqilabçı sosial-demokratlar Rusiya fəhlə sinfinə və Avropa

ölkələrinin qabaqcıl proletarlarına arxalanırdı. Onlar 100 il ərzində burjua inqilabında burjuaziya rəhbərliyinin ənənəvi xarakter almasına məhəl qoymayaraq «gənclərin hamarlaşdırılması» və liberal burjuaziya ilə ziddiyyətlərin aradan qaldırılması yollarını rədd edirdilər. **V.İ.Lenin** hesab edirdi ki, burjua-demokratik inqilabının hegemonluğu altında zəhmətkeşlər və istismar olunanlar durmuşdur. Rusiya proletariatı məhdud imkanları olan **«leqal marksist»** birliyi ilə əlaqələri kəsən inqilabçı sosial-demokratlarla birlikdə öz yolları ilə addımlayırdılar. **«Leqal marksist»** birliyinə **Struve** rəhbərlik edirdi. Onlar heç olmasa burjua olsa da inqilabçılar ilə ittifaqa razı idilər. Lakin hətta radikal olan liberallar ilə əlaqənin əleyhinə idilər. Onların rus-fransız masonları ilə yolları bir deyildi. Buna görə də hələ ilk illərdə bolşeviklər masonlarla hər cür əlaqəni qəbul etmirdilər. Onlar Rusiya fəhlə hərəkatının tam sərbəstliyini arzulayırdılar.

Aşağıda **V.İ.Leninin** silahdaşı olan bolşevik **V.D.Bonç-Bruyeviçin** xatirələri verilmişdir. Müəllif 90-cı illərin lap əvvəllərində **P.A.Kropotkin** ilə olan görüşündən danışır və onun mütləqiyyətlə mübarizədə mason lojalarının formaları haqqında fikirlərini açıqlamışdı. Hələ o zaman inqilabçı sosial-demokrat, gələcəkdə bolşevik olacaq

**V.D.Bonç-Bruyeviçin** öz təsəvvürləri də çox qiymətli idi. O, mütləqiyyətə qarşı mübarizədə mason qüvvələrinin istifadəsini məzmunsuz hesab edirdi. Həmin hissəyə müəllifin özünün şahidi olduğu böyük tarixi əhəmiyyətə malik hadisələrin təsviri daxildir. 1905-1917-ci illərdə Peterburq-Petroqradda özünün qızğın ədəbi və jurnalistlik fəaliyyəti ilə məşğul olmuş müəllif bəzi burjua və kiçik burjua siyasətçilərinin rus siyasətçi masonlarına aid olmasından danışır.[7]

**V.Q.Çertkovla** biz İngiltərədə yaşayarkən Londonda **P.A. Kropotkinə** baş çəkmək qərarına gəldik və gözlənilmədən oraya yollandıq. **P.A.Kropotkin** və onun ailəsi bizi çox yaxşı qarşıladılar. Onun balaca evi, kiçik bağçası Londonun sakit guşələrindən birində yerləşirdi.

Görünüşdən məlum olurdu ki, dostları və tanışları ona tez-tez baş çəkirlər. Onun evində biz bir italyan, iki ispan və fransızla qarşılaşdıq. **P.A.Kropotkin** dərhal bizi tanış etdi. Lakin biz onlarla söhbət etmədik. Qonaqlar tezliklə getdilər və biz rus işləri barədə söhbətə başladıq.

- Zəhmət olmasa, deyin – **P.A.Kropotkin** mənə müraciət etdi, - **məgər Struve masondur?** – O sınayıcı nəzərlərlə mənə baxırdı.

---

[7] **Вл.Бонч-Бруевич.** Из воспоминаний о П.А.Куропаткине. «Звезда», 1930, № 4, с.182 - 183.

Ağlıma heç cür gələ bilməyən bu gözlənilməz sual məni tamamilə çaşdırdı. Mən **Struveni** Sosial-demokrat Partiyasının I manifestinin və marksist **«Tənqidi qeydlər»** kitabının müəllifi kimi tanıyırdım. Bilirdim ki, **Struve** «**Şəfəq**» ilə əməkdaşlıq edirdi. O, daha çox sağa meyllənir və müxalifət jurnalı nəşr etdirmək arzusunda idi. Lakin mən heç bir vəchlə təsəvvür edə bilməzdim ki, «mason» ləqəbi ona da aid edilə bilər.

- Mən bu barədə sizə heç nə deyə bilmərəm. Bu sual mənə çox təəccüblü görünür. Lakin fikrimcə, hətta ən tərəddüdlü sosial-demokrat və ya sadəcə radikal, proqressist heç zaman masonlar cəmiyyətinə aid edilə bilməz.

- **Nə üçün?** – **Pyotr Alekseyeviç** məndən soruşdu. – **Siz düşünürsünüz ki, onlara masonları rəngarəng edənlər və mərasimləri mane ola bilər?** Bunlar boş şeylərdir! Masonluq – ilk növbədə hərtərəfli siyasi qüvvə və qədim tarixə malik təşkilatdır. Masonlar günün bu gününə kimi hər yerdə fəaliyyət göstərir. Masonlar dəfələrlə kralları devirmiş, monarxiyaları məhv etmişlər. Mənim fikrimcə, əgər birinci inqilabi hərəkat bu və ya digər şəkildə masonlarla əlaqə yaratmasalar, çox şey itirəcəklər. Masonlar Rusiyada və əlbəttə ki, Peterburqda ən müxtəlif sahələrdə kök salmışlar.

- Mənə məlumdur ki, masonlar dəfələrlə öz reaksiyalarını bildirmişlər. – Mən yenə də bu gözlənilməz söhbətə heç bir əhəmiyyət verməyərək davam etdim.

- Bəli, bu o zaman idi ki, inqilabçılar çox irəli getmişlər. Lakin biz Rusiyada gözlənilən sadəcə burjua inqilabından danışırıq. Biz konstitusiyadan irəli gedə bilməyəcəyik və bu zamanlar bizim üçün lazım və zəruridir.

- Biz daha çox nəticələr nəzərdə tutmuşuq…

O zaman mən bu söhbətə heç bir əhəmiyyət vermədim, çünki o mənə tamamilə yad və anlaşılmaz kimi görünürdü. Ancaq mən indi ictimai xadimlərdən bəzilərini, xüsusən müxalifətə daxil olanların fəaliyyəti haqqında düşünəndə, başa düşürəm ki, **P.A. Kropotkin** burada düzgün fikirlər söyləmişdir. O, ən azı bu məsələdə haqlı idi ki, bir çox müxalifət fəaliyyəti göstərən rus liberalları masonlarla bilavasitə əlaqədə idilər. Məhz onların vasitəsilə liberallar hər yerə, hətta hakimiyyətin ən gizli orqanlarına daxil ola bilirlər. Lakin mütləqiyyəti dağıtmaqla əlaqədar keçirilən fevral hərəkatında masonların rolunu hələ də hərtərəfli tədqiq etmək lazımdır. İndi mənə hərtərəfli məlumdur ki, konstitusiya-demokratik, xalq demokratik və sosial-xalq partiyalarının bir çox görkəmli nümayən-

dələrindən **M.M.Kovalevski, Kotlyarevski, M.A.Staxoviç**, **Herqard** və sonralar məlum olduğu kimi **Struve** həqiqətən də çoxsaylı mason lojalarının, qruplarının, qardaşlarının, ordenlərinin üzvləri olmuşlar. Bu masonlar 1905-ci ildə Peterburqda mütləqiyyətin devrilməsində fəal iştirak etmişlər və hətta fevral hərəkatlarında da fəaliyyət göstərmişlər. Bir faktı da qeyd etmək lazımdır ki, Dövlət Dumasının nümayəndəsi **A.F.Kerenskiyə** masonlar tərəfindən xüsusi qayğı göstərildi. Masonlar onu mütləqiyyəti devirmək üçün hərəkatda, sonralar isə Fəhlə və Əsgər İttifaqına qarşı mübarizədə iştirak edəcək bir siyasi rəhbər kimi tərbiyələndirirdilər.

Bu söhbətdən sonra **P.A.Kropotkin** dərhal Rusiyada müxtəlif siyasi qruplaşmaların xarakteristikası ilə bağlı sorğu-suala keçdi.

## 4. 1906-1909-cu illər

Biz yuxarıda rus liberal-burjua xadimlərinin geniş şəkildə fransız mason lojalarına cəlb edilməsindən danışdıq. Bu faktlar birinci rus inqilabı ərəfəsində daha da artmağa başladı. Lakin bu faktlar

dərəcəsinə görə əhəmiyyətli olmadığından rus polisinin diqqətini cəlb etmirdi. Lakin məlum olduğu kimi, bəzi fransız lojalarına daxil olanlar sonralar polisin fərdi nəzarəti altında idi. Lakin bu nəzarət onların mason deyil, müxalifət hərəkatının nümayəndələri olduqları üçün keçirilirdi. Sonuncuları praktik olaraq ifşa edilə bilmədi. Bundan başqa ali təbəqələrin nümayəndələrinin, böyük knyazların, yüksək çinli məmurların əsrin əvvəlində masonlara münasibəti kütləvi surətdə artmağa başladı. Bu, həm də fikir azadlığı və müxalifət ilə bağlı idi. Sayı o qədər də çox olmayan dərnəklərin kökləri xarici mənbələrdə və ayrı-ayrı memuarlarda XVIII əsr martinizm və rozenkreyserləri ilə də bağlı idi. Belə masonların nümayəndələrini, eləcə də fransız **Filippi** hətta kral ailəsində də qəbul edirlər. Bəzi mühacir tarixçi və ədəbi mənbələrində istinadsız olaraq söylənilir ki, **II Nikolay martinist mərasimli** kütləvi mason lojası olan «**Xaç və Ulduz**»un üzvü idi. Bu loja 1916-cı ilə qədər mövcud olub. Belə «masonluqlardan» rus polisi qorxmurdu. Yüksək cəmiyyətdə nüfuzlu şəxslərin bu və ya digər mason lojalarına daxil olması ən sevimli söhbət mövzularından idi. Hətta **Vittenin** vəzifəsindən azad olunduqdan sonra 1906-cı ildən respublikaçı-masonlardan biri olması

haqqında söhbətlər gəzməyə başladı. **Vitte** rus tarixində ilk birləşmiş dövlət sədri idi. Deyirlər ki, guya o, çarı devirmək və Rusiya respublikasının ilk prezidenti olmaq arzusundadır. Belə söhbətlər **Stolıpin** haqqında da var di. Ömrünün son günlərində və xüsusən ölümündən sonra **P.A.Stolıpinin** mason olması şayiəsi yaranmışdı. Lakin məhz onun dövründə Rusiyada fəaliyyətini yenicə bərpa edən masonlar yenidən nəzarət altına alınmışdılar. Belə söhbətlər həmin şəxslərə çarın və onun dairəsinin münasibətini dəyişirdi. Bu xüsusilə onların dövlət işlərində bacarığı və təcrübəsində özünü göstərirdi. Lakin **S.Y.Vitte** və **P.A.Stolıpinin** bu və ya digər masonluğa aid olması haqqında heç bir fakt yoxdur.

Rus inqilabının əvvəllərində əsas ağırlıq öz silahdaşları olan milyonlarla kəndlilər tərəfindən dəstəklənən, cəmiyyətin aparıcı sinfi olan fəhlə sinfinin çiyinlərinə düşürdü. Lakin rus burjuaziyası da onlarla eyni zamanda hakimiyyətə qarşı mübarizə aparırdı. Baxmayaraq burjuaziya xalq inqilabına qarşı düşmən münasibətdə idi, o da bu mübarizənin nəticələrindən bəhrələnmək istəyirdi. Onun məqsədi çarı, zadəganları və mütləqiyyəti devirmək və ən pis halda hakimiyyəti çar ilə bölüşdürmək idi. Ona görə də inqilabdan əvvəl 1904-cü ildə, inqilabi vəziyyətin

yeni yarandığı vaxtda rus liberal burjuaziyasının fəallaşdığı müşahidə olunur. Eserlər tərəfindən daxili işlər naziri **V.K.Pleve** öldürüldükdən və **P.D.Svyatopolk-Mirski** yeni nazir təyin olunduqdan sonra çarda yaranan tərəddüddən istifadə edərək mülkədar-konstitusiyalılar və «**Qurtuluş ittifaqı**» Rusiyada konstitusiyalı quruluşun yaradılması uğrunda kampaniyalar keçirməyə başladılar. 1904-cü ildə noyabrın 6-8-də Svyatopolk-Mirskinin icazəsi ilə birinci mülkədar qurultayı keçirilir. Burada iştirakçıların əksəriyyəti parlamentin çağırılmasını və ümumxalq seçkilərinin keçirilməsini tələb edir. Daha sonrlar bir çox siyasi ziyafətlər kampaniyası keçirilir və burada konstitusiyanın yaradılması haqqında nitqlər söylənilir. Lakin 1904-cü il dekabrın 12-də **II Nikolay** hər hansı bir qanunvericilik müəssisəsinin yaradılması haqqında maddəni ixtisar etdi və bununla da burjuaziyanın səyləri uğursuzluğa düçar oldu. Yalnız Qanlı bazar günündən sonra qalxan fəhlə hərəkatının qüvvətli dalğası Birinci Rus inqilabının həqiqi hadisələrinin əsasını qoydu. Bundan xeyiri ilk növbədə burjuaziya əldə etdi. O zamanlar inqilabi partiyalar və əsasən bolşeviklər qeyri-leqal fəaliyyət göstərirdilər və buna görə də tez-tez polis tərəfindən təqibə məruz qalırdılar. Burjuaziya isə öz qüvvələrini bir yerə toplayır, leqal fəaliyyət göstərir və bir-birini

əvəz edən açıq mülkədar və şəhər qurultayları keçirilirdi. 1905-ci ilin oktyabr-noyabr aylarında leqal şəkildə özünün siyasi partiyalarını – Konstitusiyalı-Demokratlar Partiyası (qısa şəkildə «K.D» və ya «Kadetlər») və «17 Oktyabr İttifaqı» («azadlıq» haqqında çar manifestinin və Dövlət Dumasına qanunvericilik hüquqlarının verildiyi tarix) və ya «oktyabristlər» yaratdılar. Açıq şəkildə keçirilən inqilabi çıxışlar, mitinqlər, tətillər masonlar üçün əlverişli olmayan şərait yaratmışdı. Əksinə, rus liberal-burjuaziyanın siyasi rəhbərlərinin əsas diqqəti açıq siyasi fəaliyyətə, siyasi partiya və idtifaqların çağırılmasına, çar hakimiyyəti orqanları ilə birbaşa dialoqa toplanmışdır.

Lakin mason küçələrinə də bayram gəldi. Hələ 1904-cü ildə **M.M.Kovalevski** (həmin vaxtda o, artıq ən yüksək mason rütbəsi almışdı) konstitusiya hərəkatının ən görkəmli nümayəndəsi olan **Ç.V. Qesseni** hərəkətə gətirməyə çalışırdı. O, tez-tez Rusiyada masonluğun yaranmasının zəruriliyindən və konstitusiya uğrunda mübarizədə müsbət nəticələrindən danışırdı. Lakin **Qessen Kovalevski** ilə razılaşmırdı (o, bu barədə sonralar dərc olunan memuarlarında danışırdı).

1905-ci ilin yazında **M.M.Kovalevski** həmin məsələ ilə əlaqədar olaraq rus konstitusiyalı

demokratların lideri **P.N.Milyukova** müraciət etdi. Lakin **Milyukov** masonların sirliliyini və mərasimlərini lağa qoyaraq masonları rədd etdi. O bildirdi ki, burjuaziya hakimiyyətə yalnız açıq siyasi mübarizə, siyasi partiya və parlament yolu ilə gələ bilər. Onda **M.M.Kovalevski** qərara gəldi ki, əvvəlcə mason işlərinə qarışmış və orqansız lojaların üzvləri olan rus liberalları ilə əlaqələri bərpa etsin və daha da möhkəmlətsin. 1905-ci ilin birinci yarısında - mayda **A.V.Amfiteatrov, Y.Qambarov, İ.Loris-Melikov**, rus ziyalılarının ən görkəmli nümayəndələri olan **M.Tamamanşev, A.Traçevski**,[8] jurnalist **K.Arkadakski-Dobrenoviç** təntənəli şəkildə «**Kosmos**» lojasına qəbul edildilər. Tezliklə **E.Aniçkov** da oraya qəbul edildi. Eyni zamanda artıq tərkibində **S.Kotlyarevski** olan «**Sinay dağı**» lojasına **V.İ.Nemiroviç-Dançenko** (Amfiteatrovun «balletristi»), **«Yeniləşmə», «Böyük Fransa Şərqi»** lojasına **E.İ.Kedrin**[9] də qəbul edildilər.

---

[8] **A.S.Traçevski** (1938-1906) – görkəmli rus liberal-burjua tarixçisi. 1878-1890-cı illərdə Odessada Novorossiysk Universitetində ümumi tarix üzrə professor işləyib. Polşa, Rusiya, XVIII və XIX əsrin əvvəllərində beynəlxalq əlaqələr üzrə tarix əsərlərinin müəllifidir.

[9] Vəkil **E.I.Kedrin** 1905-ci il yanvarın 8-də paytaxt ictimaiyyətinin nümayəndəsi kimi məşhurlaşıb. A.M.Qorkinin rəhbərliyi ilə fəhlələrin güllələnməsinin qarşısını almağa çalışmışdır. Qorki ilə birgə 2 ay Petropavlovsk qalasında həbsdə olub. Sonralar Rusiyada masonluğun fəal təbliğatçısı olub. Mason kimi ifşa olunduqdan sonra – 1908-1911-ci ildə -mətbuatda qara səhifələrdə adı tez-tez çəkilirdi. Sovet oxucusuna Yeqor Ivanovun «Səssiz atəş» romanında təqdim olunub. Burada «antipatriot» və «alman agenti» kimi 1912-ci ildə fəaliyyət göstərmiş şəxs kimi

«**Kosmos**» lojasına «**Gənc Ermənistan**» adlı kiçik burjua milli təşkilatının bir çox üzvləri qəbul edilmişdir. Bu mövzunu bitirərək qeyd etmək lazımdır ki, 1906-cı ildə Fransa lojasına **V.A.Makla-kov**, daha sonra **E.V.de Roberti** qəbul edilmişlər.

Bu insanlar əsl mason «avanqardını» təşkil edirlər. 1905-1906-cı illərdə Rusiyada vəziyyət gərgin olduğu üçün onların Fransada qalması daha çox tələb olunurdu. Fransız masonları içərisində onlarla rus liberalları olması faktına əsaslanaraq **M.M.Kovalevski** 1906-cı ildə Rusiya daxilində mason hərəkatının formal şəkildə bərpa edilməsinə başladı. 1906-cı ildə yanvarın 12-də Parisdə qısamüddətli səfərdə olarkən və masonlara aid olan «Akasiya» otelində qalarkən, o otelin blankında «Böyük Fransa Şərqi Şurasına» məktub göndərir və xahiş edir ki, Rusiyada Fransa tabeliyində olan loja yaratmağa icazə versinlər.

Lakin Rusiyada birinci lojanın yaranması üçün uzun müddətli vaxt tələb olunurdu. 1906-cı il noyabrın 15-də ilk dəfə lojanın üzvlərinin siyahıya alınması keçirilir. Digər sənədlərin tarixi də çox maraqlıdır. Bu sənədlərə əsasən Rusiyada masonluğun bərpası və mövcud olması 1906-1908-ci illərə təsadüf edir. Tezliklə İkinci Dünya müharibəsindən sonra bir

---

təsvir olunub.

rus mühaciri (o özü də rus lojasına qəbul edilmiş keçmiş masonlardan idi) Parisdə Sena sahillərində bir bukinistdən mason məzmunlu sənədlərdən ibarət 2 qovluq tapmışdır. Bu vərəqlər Rusiyada **«Böyük Fransa Şərqi»** lojası ilə əlaqədar olan mason müəssisələrinin fəaliyyətini əks etdirirdi. Onlar həqiqi idilər və üzərlərində həm lojaların, həm də **«Böyük Fransa Şərqi»** lojasının möhürləri var idi. O bu sənədləri alır və neçə ildən sonra memuarların nəşri ilə məşğul olan digər mühacirə – **Baris Elkinə** satır. Onun memuarları **P.N.Milyukova** aid idi. Burada müvəqqəti olaraq hakim orqanlarda çalışan **A.F.Kerenskinin, M.İ.Tereşenkonun, N.V.Nekrasovun, A.İ.Konovalovun** fəaliyyətindən istinadlar da verilmişdir. **B.Elkin** bu materialları 1966-cı ildə slavyan və Şərqi Avropa xalqlarının tarixinə aid ingilis jurnalında nəşr etdirir. **Elkin** materialları ona verən şəxsin familiyasını göstərmir. Nəşrin fakismil hissəsinin mənbəşünaslıq, mətnşünaslıq və qrafoloji cəhətdən analizi sənədlərin həqiqiliyini sübut edir. Görünür, bu sənədlər **«Böyük Fransa Şərqi»** lojasının gargüzarlıq arxivində saxlanılır və faşist istilası zamanı fransız masonları qəddarcasına hitlerçilər tərəfindən təqib olunarkən itirilmişdir.

1906-cı il noyabrın 15-dən **N.N.Bajenov** tərəfindən yazılmış siyahıda aşağıda adları çəkilən şəxslərin imzaları vardı: **N.Bajenov** (onu da qeyd edək ki, o, Fransada masonlara 1884-1885-cı illərdə qoşulmuşdur), **V.Nemiroviç Dançenko, S.Kotlyarevski, V.Maklakov, E.Aniçkov**[10]**, M.Kovalevski, İ.Loris-Mslikov, E.Kedrin**. Onların hər biri haqqında fransız lojalarına daxil olarkən danışılıb. **M.M.Kovalevski** «**Kosmos**» lojasının ustası adlandırılırdı. Ancaq 1906-cı il yanvarın 17-də yazılmış məktubda **Kovalevski** özünü «**Həqiqi dostlar**» lojasının üzvü hesab edir. Oxucuya məlum olduğu kimi bu loja özündə bu və ya digər vaxtlarda fransız lojalarına qəbul edilmiş keçmiş masonları birləşdirir. Lojanın sədri **N.Bajenov** və üzvlərinin böyük əksəriyyəti Moskvada yaşayırdı.

Qeyd edək ki, bu vaxtlarda **Kovalevski, Kotlyarevski** və **Kedrin** I Dövlət Dumasının üzvləri seçilmişlər. **Maklakov** və **Kotlyarevski K**adet Partiyasının yaradıcıları idilər. **M.M.Kovalevski** isə I Dumada «demokratik islahatlar partiyasının» əsasını qoymuşdu. **M.M.Kovalevski** Kiyev qənd zavodunun sahibi milyonçu **N.Tereşenkodan** aldığı pulla **«Strana»** («Ölkə») qəzetini nəşr etdirməyə başladı

---

[10] **E.Aniçkov** (188601937) – tarixçi və ədəbiyyatşünas, Kiyev və Peterburq universitetlərində işləyib. 1903-cü ildə siyasi işlərinə görə həbsə alınmış və 18 ay məhbəsdə qalıb.

**(Tereşenko** gələcək və qurulacaq Müvəqqəti hökumətdə xarici işlər naziri postunu tutan şəxsin atası idi**).** **«Strana»** qəzetinin redaksiyasında **Kovalevskiyə** yaxın olan masonlar üstünlük təşkil edirdilər. Həmin vaxtdan yeni rus masonluğunun rəhbərinin «Akasiya» mehmanxanasında öz məktubunu yazmasından və birinci rus lojasının siyahısının tutulmasına qədər təxminən bir il keçir və bu dövrdə Rusiyanın siyasi həyatında əhəmiyyətli hadisələr baş verir. I Dövlət Dumasına seçkilər keçirilir və baş nazir **S.Y.Vitte** istefaya çıxır. Tərkibində Kadet Partiyasının böyük rol oynadığı Duma özünün yeni sədri olan **İ.L.Qoremıkin** ilə çəkişməyə başlayır. İyulun 9-u Duma dağıdılır. Onun bir çox deputatları Vıborqa gedərək burada hakimiyyətə qarşı passiv müqavimət göstərməyə çağıran müraciətnamə imzalayırlar. İyulun ortalarında Sveoborda, Kronştatda və Reveldə başlayan üsyanlar məğlubiyyətlə sona çatdı. Eser-maksimalistlərin Nazirlər Şurasının yeni sədrinə **- A.P.Stolıpinə** qarşı sui-qəsd cəhdləri uğursuzluğa düçar oldu. Bundan sonra dövlət hərbi-səhra məhkəmələrinin yaradılması haqqında qanun qəbul edir.

Güllələnmiş və dar ağacından asılmış kəndlilərin səslərinin müşaiyəti altında II Dövlət Dumasına seçkilər keçir və kadetlər dumadakı üstünlüklərindən

məhrum edilirlər. II Dumada sosialistlərin, bolşeviklərin və sağların sayları artmışdı. Tezliklə mətbuatda II Duma «Xalq nifrətinin duması» adlandırılır.

Lakin inqilab məğlub olur. Belə bir vəziyyət inqilabın etibarsız dostları, «liberal-burjuaziya və ziyalılardan olan yol yoldaşları» arasında ruh düşkünlüyü yaradır. Hakimiyyət davam gətirdi. İnqilablardan mason olanlar üçün onun sirli xarakteri yenidən cəlbedici görünməyə başladı. Məhz inqilabın süquta uğraması və **Stolıpin** münasibətinin təntənəsi nəticəsində Rusiyada 1907-1908-ci illərdə ilk iki mason lojası yaradılır. Hələ noyabrdan lojaların formal şəkildə yaradılmasına qədər 1906-cı il aprelin 20-də rus masonluğuna **David Bebutov** qəbul edilmişdir. O, Peterburqda Kadet Partiyasının yaradıcısı olmuşdur. Artıq Fevral inqilabında məlum olur ki, **Bebutov** çar polisinin xəfiyyəsi idi. Klubun yaradılması üçün pulu isə gizli polisdən almışdı. **Bebutov** vasitəsilə polis yeni rus masonlarının fəaliyyətindən xəbərdar olurdu. 1907-ci ilin yanvarında qraf **Orlov-Davıdov** lojaya qəbul edilir. Masonların sayı tədricən artdığı üçün lojanı 2 hissəyə bölmək qərara alınır: biri Moskvada, digəri Peterburqda. Moskva lojası «**Dirçəliş**», Peterburqdakı loja isə «**Dan ulduzu**» adını alır. Qraf

**Orlov-Davıdov** Peterburq lojasına rəhbərlik edir. 1907-ci ilin fevralında lojaya **Manuel Marquliyes**, həkim, vəkil və mühəndis baron **German Maydel**, alim-həkim **S.Jixarev**, professor **A.Borozdin**, sovet dövründə də məşhur olan yazıçı **P.E.Şeqolev** qəbul olurlar. Elə 1907-ci ildə buraya məmur **A.Sveçin**, tarixçi **N.Pavlov-Silvanski**,[11] Finlandiya qvardiya alayının polkovniki **V.Teplov**, memar **P.Makarov**, vəkil **P.Pereverzev**, Kadet Partiyasının üzvü **A.Kolyubakin**, professor **Y.Tiraspolski**, beynəlxalq hakim **Y.Antonovski** də buraya daxil olmuşlar.

**B.Elkinin** çap etdirdiyi siyahıya (əlbəttə ki, adları çəkilən şəxslərin öz şəxsi dəst-xətləri ilə imzaları var) əsasən buraya həmçinin məşhur millətçi, uzun illər Şlisselburq qalasının məhbusu olan **N.A.Morozovun** (onun mason andı altında imzası var), kadet partiyasının tanınmış üzvü **A.İ.Şinqaryevin** (lakin onun imzası yoxdur), **A.Bulatın**, Dövlət Dumasının əməkdaşı görkəmli geoloq və maarifçi **L.İ.Lutuqçinin**, vəkil **S.Kalmanoviçin**, barışdırıcı hakim **A.Bolotinin, N.Okunevin, Xolmun**, keçmiş dövlət məmuru **A.Dmitri-Mamonovun**, kütləvi kitabxananın şöbə

[11] Gənc, istedadlı alim **N.P.Pavlov-Silvanskinin** nümunəsində görürük ki, masonların çoxlu imkanları var idi və onlar irəliləyirdilər. Lojaya daxil olduqdan dərhal sonra o, 1907-ci ilin fevralında Ali qadınlar kursunda kafedra açdı. Onun gələcək karyerasına 1907-ci ildə vaxtsız ölümü son qoydu. Bu kurslara N.Bajenkovun böyük təsiri var idi.

müdiri **A.İ.Braudonun** da buraya qəbul olunduqlarını söyləmək olar.

1907-ci ildə vəkil **S.A.Balavinski**, vəkil **O.Qoldovski**, tanınmış sol kadetçi xadim **Viktor Obnimski**, **İ.Saxarov**, keçmiş Kişinyov qubernatoru və daxili işlər nazirinin müavini, I Dumanın depupatı knyaz **Urusov**, Kiçik teatrın dramaturqu və aktyoru **Sumbatov-Yujin**, Ryazandan **A.Dvorjak** da mason lojalarına qəbul edilmişlər.

Bütün sənədlərin külliyatı imkan verir ki, iki məşhur liberal lojasını rus masonlarına aid edək. Onlar «**Böyük Fransa Şərqi**» lojası ilə əlaqəli idilər. Onun 40 nəfər üzvü var idi və onlardan 30-u məhz Rusiyada həmin hərəkata qoşulmuşlar. Özündən razı aqressiv qaragüruhçuların təkidinin əksinə olaraq bu şəxslərin böyük bir hissəsi ruslardan ibarət idi. Tərkibinin partiyalılığına görə masonlarda nisbətən böyük fraksiya kadetlərə aid idi və bir neçə xalqçı da var idi. Trudoviklər və xalq sosialistləri də üstünlük təşkil edirdilər. Böyük bir hissə kadetlərə nisbətən sağlara meylli olsalar da, onlar demokratik islahatlar partiyasına meylli kimi görünürdülər. Lakin onlar da özlərini liberal müxalifət rejiminin bir hissəsi hesab edirdilər və 1906-1911-ci illərdə oktyabristlər kimi onlarla əməkdaşlıq etmirdilər. Burada mülkədar hərəkatları məktəbini keçmiş və hətta dövlət

vəzifəsində olan zadəganların iştirakı masonları daha nüfuzlu edirdi. Lakin demək olar ki, mason lojalarının yarısını müxtəlif təbəqələrdən və tacir ailələrindən çıxanlar təşkil edirdilər. Siyahıda adları çəkilənlərin hamısı əsasən humanitar sahələrin ziyalıları idilər. Qəbul edilmişlərin yarısı, hətta böyük hissəsi Dumada və siyasi partiyalarda açıq siyasi fəaliyyət göstərirdilər. Təşkilatlanma müddəti ərzində fransızlarla intensiv əlaqə saxlanılmışdır. Buraya dəfələrlə müxtəlif lojaların üzvləri gəlmiş və təntənəli surətdə fransız lojalarını salamlamışlar. 1908-ci ildə iki yüksək çinli mason Rusiyaya məhz həm «**Dirçəliş**», həm də «**Dan ulduzu**» lojalarının təntənəli açılışı üçün gəlmişdir. Hər iki lojanın möhürləri və rəmzi əşyaların komplekti Fransadan gətirilmişdir. Beləliklə, onlar həqiqi müntəzəm mason lojaları oldular. Birinci rus inqilabı illərində fransız, italyan və alman masonları kütləvi şəkildə Rusiyada inqilabi və azadlıq hərəkatlarına həmrəyliklərini nümayiş etdirmişlər. Onlar dəfələrlə çar hakimiyyətinin xalqa qarşı hərəkatlarına, terrora, I və II Dumaların dağılmasına etirazlarını bildirənlərin və manifestləri qəbul edənlərin önündə getmişlər.

Lakin Rusiyada bərpa edilmiş və təşkil olunmuş masonluğun təsir dərəcəsi o qədər də əhəmiyyətli deyildi. Buna baxmayaraq, mason əlaqələri liberal-

azadlıq hərəkatının müxtəlif cərəyanların əhatələnməsini asanlaşdırdı. Onlar əsasən kadetləri və qeyri-inqilabi ruhda olan xalqçıları əhatə edirdilər. Həm masonların, həm də lojaların sayı o qədər də böyük deyildi. Mütləqiyyətə qarşı mübarizənin əsas forması sosial-demokratlar tərəfindən aparılan gizli işlərdən, burjua düşərgəsində isə kadet partiyasının fəaliyyətindən ibarət idi. 1907-1908-ci ildə masonlara daha çox üzvlər cəlb olunurdu. Lakin bu dövrdə mason lojalarının fəaliyyəti üçün şərait o qədər də əlverişli deyildi.

1906-1909-cu illərdə siyasi masonluğun bərpa edilməsi ilə əlaqədar olaraq digər istiqamətli masonlar **martinist** və **rozenkreyser** lojalarının bərpa edilməsi üçün də bəzi uğurlu cəhdlər edilmişdir. Məhz bunun nəticəsində «Frankmason» adlı jurnalın yaranmasına cəhd göstərildi. Cəmiyyətdə bu məsələlərə maraq həm masonlar və mason ədəbiyyatşünasları, həm də mason əleyhdarları arasında artmışdı. Rusiyada və ondan kənarda masonlar haqqında tarixi kitablar nəşr etdirilməyə, mühazirələr oxunmağa və s. başlandı. Bu fəaliyyətdə o dövr ziyalıları üçün xarakterik olan ruhi özünütəkmilləşdirmə, «allahı axtarmaq və allahı yaratmaq» məsələləri mason mərasimləri tərəfindən

xüsusilə təbliğ edilirdi. Lojaların əldə etdikləri siyasi fayda diqqətlə maskalanırdı.

«**Mason məsələlərinin**» canlanması, geniş miqyasda yayılması hakimiyyət düşərgəsi tərəfindən hücumlara səbəb oldu. Qaragüruhçu mətbuatda antimason kampaniya başlandı. Masonların pravoslav kilsəsinə düşmənçilik mövzusunda, onların **iudaizmə** yaxınlığı mövzusunda olan söhbətlər gündəmə daha çox gəlməyə başladı. 1908-ci ildə polis provokasiya məqsədilə «**Astreya**» (Astreya - masonlarda səcdə edilən ədalət ilahəsi) adlı lojanı açmağa cəhd etdi. Fransada rusların fəaliyyət göstərdikləri lojalara gizli polisin agentləri yerləşdirildi. Onlar özlərinin fransız agentlərindən istifadə edərək rus masonlarının adlarını öyrənmək istəyirdilər. Bu 1909-cu ildə lojaların fəaliyyətinin qeyri-mümkün bir vəziyyət alması və üzvlərinin həbs olunması dərəcəsinə gətirdi. 1909-cu ilin dekabr ayını Rusiyada «**Böyük Fransa Şərqi**» lojası ilə bağlı olan lojaların «**özünü yatırtma**», yəni özünü buraxma günü kimi qeyd etmək olar.

## 5. 1910-1917-ci illər

**N.N.Yakovlevin** « 1 avqust 1914-cü il» əsərindən bir parça ilə tanış olan oxucu müəllif tərəfindən istifadə edilmiş faktları artıq **Ernsta Henrinin** oçerklərindən bilir. Lakin buna baxmayaraq bizim müəlliflərin şərh etdiyi materiallar adətən fərqli olur.

**N.N.Yakovlevin** birinci «**Dan ulduzu**» və «**Dirçəliş**» lojaları ilə bağlı istehzası bizdə nisbi rəğbət hissi oyatsa da, şərhlərimizdə onların rolu daha ciddi idi. Onlar burjua partiya, mədəniyyət və elminin çoxsaylı nümayəndələrini bir yerə toplamışlar. Ona görə də 1905-1909-cu illərdə rus masonlarına düzgün qiymət verməliyik. Lakin buna baxmayaraq, masonların kökləri haqqında olan kargüzarlıq mənbələri onlarla bağlı elmi axtarışları davam etdirməyə imkan verir.

1910-1917-ci illər ərzində isə Rusiyada siyasi masonluqda iştirak edən bir çox şəxslərin etirafları və göstərişləri təqdim edilmişdir. Masonların mövcudluğu haqqında tam məlumatı olan keçmiş masonların özlərinin, eləcə də əcnəbi mason mənbələrini bir yerə toplasaq müəyyən etmək olar ki, 1911-1917-ci illərdə siyasi masonluq Rusiyada bir qədər dəyişdirilmiş şəkildə mövcud olsa da, təşkilati və siyasi cəhətdən uğurlar qazanmış, Birinci Dünya müharibəsi ərəfəsinə və onun gedişinə, eləcə də

1917-ci ildəki siyasi mübarizəyə təsir etmişdilər. Hazırda alimlərin əsərlərində Kadet Partiyasının üzvü olmuş knyaz **V.A.Obolenskinin,** sol kadet **N.V.Nekrasovun**, eser **R.F.Kerenskinin**, menşeviklər **N.S.Çxeidzenin** və **A.Y.Qalpernin** yazılı etirafları var. Onların böyük əksəriyyəti yalnız özlərinin mason fəaliyyətindən bəhs edirlər. Mason andına sadiq qalaraq digərlərinin adlarını çəkmirlər. Biz bu andın formulasını bilmirik. Yalnız əvvəlki dövrlərdəki masonların imza atdıqları bu nümunəni göstərə bilərik: **«Öz namusuma və vicdanıma and olsun ki, mən «Böyük Fransa Şərqi», «Fransa və fransız əraziləri üçün Ali Şuranın Ümumxalq reqlamentinin şərtlərinə sadiq qalacağam».** Bu anda **Bajenov**, knyaz **Urusov, Saxarov**, **Balavinski** və **Qoldovski** imza qoymuşlar. Hər halda hər kəsin xatırladığı qayda digər şəxslərin soyadlarını bildirməyi qadağan edirdi. Yalnız **Çxeidze** və **Qalpern** 30-cu illərdə ABŞ-da menşevik **B.N.Nikolayevskiyə** müsahibə verərkən bir neçə nəfərin adlarını çəkmişlər.

Bundan əlavə, bizdə, o illərdə mason təşkilatlarının üzvləri ilə söhbət etmiş bəzi şəxslərin də şahidliyi var. Onlar bu masonlardan lojalara daxil olmaq təkliflərini almışlar. Bunlara **İ.V.Qessenin, P.N. Milyukovun, S.P.Melqunovun** bildirişlərini

əlavə etmək lazımdır. Nəhayət, ikinci dərəcəli mənbələr də var: 1922-ci il iyun ayında antimason qaragüruhçu jurnalı **«İkibaşlı qartal», S.P.Melqunovun «Yeni saray çevriliş yollarında»** (1930) kitabı, fevral inqilabı (antimason) haqqında 1967-ci ildə İngiltərədə **C.Katkovun** nəşr edilmiş monoqrafiyası, müasir ingilis və amerikan burjua tarixçiləri olan **L.Xaymsonun, B.Elkinin, N.Smitin** şərhləri və b.

İlk baxışda mənbələr sanki tamdır. Lakin ümumilikdə götürdükdə, bəzi boşluqların qaldıqlarını görmək olur. Məsələn, «**Rusiya Xalqlarının Ali Şurası**» adını almış yeni mason təşkilatlarının yaranması, onun funksiyaları, ölkənin siyasi həyatına göstərdiyi təsirin kəmiyyət və keyfiyyət göstəriciləri. Birinci naməlum məsələ «**Böyük Fransa Şərqi**» ilə əlaqədar masonluğun fəaliyyətinin dayandırılması və heç bir xarici əlaqəsi olmayan yeni masonluğun yaradılmasıdır. Bizdə mühacirlərin və 30-cu illərin masonlarının az məşhur olan mənbələri də var. Bu mənbələrdən biri də **S.Marquliyesin** yazılı etirafıdır. Bunlar göstərirlər ki, 1909-cu ilin sonları üçün «köhnə» masonların sayı 100-ə qədər artmışdır. Daha bir loja Varşavada açılmışdır. Söylənilənlərə görə daha iki loja Peterburqda, Odessada, Nijni-Novqorodda isə **«Jeleznıy persten»** («**Polad üzük**»),

Kiyevdə **«Narüiss»** («**Nərgiz gülü**») lojaları açılmışdır. Loja rəhbərlərinin 18 dərəcəsi var idi, **«Qızıl gül xaçı kavaleri»** diplomu ilə onları fransız masonluğunun üzvləri təltif edirdilər. Peterburqda **«Polyarnaya zvezda» («Dan ulduzu»)** lojası ilə kapitula (Çar Rusiyasında orden verməklə məşğul olan idarə - tərtibçilər) çevrildi. Buraya yalnız 18 və daha yüksək dərəcələri olan masonlar daxil edilirdilər.

Lojalardan seçilmiş nümayəndələr şuraya daxil idilər və onun vitse-prezidenti **S.Marquliyes** idi. 1909-cu ildə bu lojaya daxil olan çox az adamın familiyasını bilirik. Bunlar əsasən general, hərbi hüquqşünas **Kuzmin-Karavayev**, odessalı vəkil **O.Perqament**, oktyabrist **M.A.Staxoviç** olmuşlar. Burada görünür ki, lojanın daxili təşkilatlanmasına görə onun özünü buraxmağa səbəbi yox idi. Əksinə, təşkilat yavaş-yavaş olsa da, inkişaf edir, özünün simasını alır və rəhbərliyi yaranırdı: kapitul və qanun şurası. Lakin **P.A.Stolıpin** hakimiyyəti tərəfindən güclənən təqiblər onları ehtiyat tədbirləri görməyə məcbur edirdi. Lojanın iclaslarının keçirilməsi məhdudlaşdırılır, ya da heç keçirilmirdi. Bir yerə toplanan masonların sayı 10 nəfərə qədər azaldılmışdı. Lakin onlar öz qanunlarına riayət edir, mason önlüklərini geyinir və digər orden və nişanları taxırdılar.

Görünür, məhz ciddi şəkildə məxfiləşmək ehtiyacı yeni təşkilatın yaradılmasını zəruri etmişdi. Bu təşkilatda müntəzəm olaraq masonların atributları olan kalqa-qılınclar, kəllə sümükləri və s. Aradan qalxır (biz hələ bilmirik bu kimin fikri idi), bütün mistik mərasimlər ləğv edilirdi. Təkcə ciddi nizam-intizama riayət edilirdi. Qeyd etmək lazımdır ki, «**Böyük Fransa Şərqi**»nin emissarları (siyasi təşkilat və ya dövlət təşkilatı tərəfindən məxfi tapşırıqla başqa bir ölkəyə göndərilən şəxs) olan **B.Seşon** və **T.Buley** tərəfindən hələ 1808-ci ildə kapitula Rusiyada «**Böyük Şərq»in** razılığı və məsləhəti olmadan da müstəqil şəkildə lojalar yaratmaq hüququ verilmirdi. Görünür məhz bu hüquq yeni «qeyri-müntəzəm» mason lojası yaradılarkən istifadə edilib. Yeni təşkilat tərkib etibarilə daha gənc və yaradıcı idi. Bu səbəbdən də bir çox «qocamanlar» işdən uzaqlaşırdılar. Lakin oxucuya keçmiş dövrlərdən tanış olan bu şəxslərdən çoxu yenə də təşkilatların nüfuz dairəsində idilər. Buna görə də, faktiki olaraq Rusiyada köhnə lojaların özünü buraxması ilə yaranan fasilə o qədər də gözəçarpan deyildi. Təşkilatın fəaliyyətinin sadəcə forma və metodları dəyişmiş olsa da, gizli işin özü də davam edirdi. Bundan əlavə, o indi müəyyən siyasi xarakter almış, hakimiyyətin ələ keçirilməsini, həmin

dövr üçün Rusiyada çar hakimiyyətini əvəz edə biləcək paralel hakimiyyət strukturunun yaradılmasını məqsəd kimi qarşıya qoymuşdu.

Təşkilatın yaradılma tarixi ilə əlaqədar bizdə **V.A.Obolenskinin** şahidliyi var və orada belə yazılıb: «Rus masonluğunda əsrin $^{3}/_{4}$-ü qədər yaranmış fasilə aradan qaldırıldı. 1910-1911-ci illərin qışında mən yenidən mason oldum». **N.V.Nekrasov** isə 1908-ci ildə Peterburqda **M.M.Kovalevskinin** mənzilində qraf **Orlov-Davıdovun** rəhbərliyi ilə masonluğa qəbul edildiyini bildirmişdir. 1910-cu ildə rus masonluğu «**Böyük Fransa Şərqi**»ndən ayrıldı. **Nekrasovun** sözlərinə görə yeni lojaya 10-12 nəfər qəbul edilmişdir. Masonluğun başında iclasda **Konvent** (gizli səsvermə yolu ilə seçilmiş Ali Şura) dururdu. Onun tərkibi isə üç inanılmış hesablayıcıya etibar edilmişdir. Lojanın sədri kimi yalnız ali şuranın katibi məlum idi. Bu şəxs, 1910-1916-cı illərdə öz sözlərinə görə **N.V.Nekrasov** olmuşdur.

**V.A.Obolenskinin** xatirələrindən daha bir sitatı qeyd etmək lazımdır: «Rus masonluğu tərkibində mən çox nüfuzlu mövqeyə malik idim; Yəni Peterburq lojalarından birinin sədri idim və müntəzəm olaraq vilayət və ümumrusiya konventinin nümayəndəsi seçilirdim. Mən 3 il müddətində Ümumrusiya Konventinin nümayəndəsi olmuşam.

Mənim Ali Şuranın 3 seçicisindən biri olaraq, əsas vəzifəm, sədrə bütün masonların adları haqqında məlumat vermək idi. İki il ərzində mən Peterburq vilayət şurasının nümayəndəsi və sədri olmuşam. Öz vəzifəmlə əlaqədar olaraq mən bütün Peterburq lojaları ilə əlaqə yaratmışdım. Nəhayət, 3 il müddətində mən bütün rus masonluğunu istiqamətləndirən ali şuranın üzvü oldum. Mən bunu ona görə yazıram ki, müəyyən müddət ərzində – 1913-1916-cı illərdə - mənim masonluğun dərinliklərində baş verən hadisələr haqqında hərtərəfli informasiyaya malik olduğum aydınlaşsın».

İndi isə oxucunu Müvəqqəti Rusiya hökumətinin keçmiş rəhbəri **A.F.Kerenskinin** də mənsub olduğu liberallarla tanış edək. O, ömrünün sonlarında - 1965-ci ildə xatirələrində yazırdı: «1912-ci ildə IV Dumada mənim seçkilərdə iştirak etməyimi təklif etdilər. Uzun düşüncələrdən sonra mənə aydın oldu ki, öz şəxsi məqsədlərimlə cəmiyyətin məqsədləri üst-üstə düşür və mən bu təklifi qəbul etmək qərarına gəldim. Bizim cəmiyyət qeyri-müntəzəm mason təşkilatı idi. Onun əsas qeyri-adiliyi onda idi ki, bütün əcnəbi cəmiyyətlərlə əlaqələri kəsmiş və qadınları qəbul etmişdilər. Daha sonra bütün mərasimlər və masonluğun pilləli sistemi aradan qal-

dırıldı və yalnız üzvlərin mənəvi xarakterini müəyyənləşdirən və sirr saxlamaq qabiliyyətinə əsaslanan nizam-intizamı qoruyurdu. Heç bir yazılı sənədlər və ya üzvlərin siyahıları saxlanılmırdı və belə bir sirr saxlama cəmiyyətin strukturu və məqsədi haqqında informasiya qıtlığına səbəb oldu…

Yerli lojalar cəmiyyətin əsas vahidləri idi. Sahəvi lojalara əlavə olaraq Ali Şuranın xüsusi loja yaratmaq hüququ var idi. Beləliklə, Dumada bir loja, jurnalistlər üçün digər loja və s. yaradılırdı. Başlanğıcdan hər bir loja muxtar vahidə çevrildi. Digər orqanların işlərə və ya seçkilərə qarışmaq hüququ yox idi. Lojaların üzvləri illik yığıncaqlarında Ali Şuraya nümayəndələr seçirdilər. Ali Şura baş katib vasitəsilə üzvlərin artması ilə bağlı məsələni təklif edir, siyasi vəziyyəti müzakirə edir və gələcək proqramın layihəsini irəli sürürdülər».

Artıq əldə edilmiş məlumatlar müəyyən nəticə çıxarmağa imkan verir ki, buna tamamilə «yeni» masonluq demək olmaz. İlk vaxtlarda **«Rusiya Xalqlarının Ali Şurası»**, əsas etibarilə, yenə də Peterburq, Moskva və digər şəhərlərdəki lojaların üzvlərindən ibarət idi. Lakin tərkib yenidən yoxlanıldı və etibarsızlar arasında lojanın buraxılması haqqında versiyalar irəli sürüldü. Masonluğun zahiri bər-bəzəyindən ibarət ballastdan azad olan təşkilat yenə də geniş xalq kütləsi, xüsusilə də inqilabi və

demokratik-burjua partiyaları ilə əlaqədə olan gənc ziyalılar üçün çox cəlbedici idi. Köhnə və yeni lojaların üzvləri artır və təşkilatın siyasi istiqamətlənməsinə təsir göstərirdi. Yeni üzvlər rəhbərliyin hər bir səviyyəsində daha nüfuzlu vəzifələr tuturdular. Onlar tədricən XIX əsrin sonlarında Fransada masonluğa qəbul edilmiş veteran masonları əvəz edirdilər.

IV Dövlət Dumasının düzgün şəkildə masonların fəaliyyət dairəsi üçün seçilməsi onlara imkan verdi ki, burjua və xırda burjua partiyaları arasında gizli güzəştlər reallaşdırsın. Bir müddət sonra, 1915-ci ilin yayında Dumada burjua-mülkədarlarla açıq razılaşmaya və **«Proqressiv bloku»nun** yaradılmasına imkan yaradıldı. Beləliklə, **N.S.Çxeidze**, məhz Dumada təşkilata daxil oldu. O, menşevik fraksiyalarından birinin rəhbəri idi. Dumada əməkçi qrupunun rəhbəri Kerenski haqqında artıq biz danışmışıq. **Çxeidze** və **Qalpern** masonlar içərisində Dumanın üzvləri olan menşeviklərdən **M.İ.Skobılevi**, **A.İ.Çxenqelini** göstərirdilər. Kadet, görkəmli hüquqşünas **L.A.Velixov** yazırdı: «IV Dövlət Dumasında mən «mason birliyinə» daxil oldum. Burada sol proqressistlərin **(Yefremov)**, sol kadetlərin (**Nekrasov, Volkov, Stepanov)**, əməkçilərin (**Kerensk**i), sosial-demokrat

menşeviklərin (**Çxeidze, Skobelev**) üzvləri fəaliyyət göstərirdilər. Onlar öz qarşılarına mütləqiyyəti devirmək üçün Dumanın bütün müxalifət partiyalarını bir yerə toplamaq məqsədini qoymuşlar». Onu da qeyd etmək lazımdır ki, məhz Dumanın vasitəsilə **«Rusiya Xalqlarının Ali Şurası»** öz sıralarına «Proqressiv bloku»nun üzvü milyonçu **A.İ.Konovalovu** və sol kadet **A.M. Kalyubakini** cəlb etmişlər.

Lakin Dumadan kənarda da həm jurnalist, həm də Peterburq mason lojalarında görkəmli şəxslər var idi. Bunlara misal olaraq **S.N.Prokopoviçi, E.M.Kuskovanı**, ənənəvi olaraq menşeviklərə meylli menşevik **Qeqeçkorini**, eserlər **Demyanovu** və **Pereverzevi** və b. göstərmək olar. Kiyevdə masonlar arasında baron **Şteyngel, kadet Qriqoryeviç-Barski, Vasilenko, Pisarjevski**, ukraynalı millətçi **Qruşevski** də var idi. **«Yeni masonluq»** təşkilatının tərkibinə o dövrdə radikal ruhlu, heç bir siyasi partiyanın üzvü olmayan, **Tereşenko** kapitalının varisi gənc **M.İ.Tereşenko** və köhnə azad xalqçı **N.L.Morozov** da daxil idi. Masonluğun ən görkəmli fiquru menşevik **A.Y.Qal-peri** idi. O, Ali Şuranın nümayəndələrindən biri idi. Bunu **Obolenski** də təsdiq edir.

**N.V.Nekrasovun** və **E.M.Kuskovanın** sözlərinə görə lojanın üzvlərinin ümumi sayı 350-400 nəfərdən ibarət idi. Peterburqdan və Moskvadan başqa Kiyevdə, Samarada, Saratovda, Tiflisdə və Kutaisidə də lojalar var idi. Polşadakı loja müstəqil idi. Lakin o, hələ də «**Böyük Fransa Şərqi**» ilə əlaqə saxladığı üçün Ali Şura onlardan tamamilə uzaqlaşmışdır. Lakin mason qüvvəsinin böyük hissəsi Peterburqda – Petroqradda toplanmışdı. Burada onların sayı və «toplanma dərəcəsinin» yüksək olduğunu qeyd etmək lazımdır. Dövlət Dumasının kadet, proqressist və menşevik rəhbərliyi franksiyasının böyük hissəsi ümumi məxfi təşkilat çərçivəsində birləşdirilmişdirlər. Duma tərkibində düşmən münasibətində olan bu lojalar həmrəy şəkildə fəaliyyət göstərməyə və danışıqlar aparmağa çalışdılar. Mason lojaları burjua partiyalarının nisbətən uzaqgörən üzvləri tərəfindən mütləqiyyət inqilabi yolla devrilərkən xırda burjua partiyalarının nümayəndələrini ölkədə sülhün və əmin-amanlığın saxlanmasına cəlb etməyə çalışırdılar. Bu hərəkatın şüarı belə idi: «**1905-ci ilin səhvini təkrar etməmək**!». Bu zaman «səhv» dedikdə bolşeviklərin demokratik inqilabda proletariat üzərində hegemonluq tezisi başa düşülür. Menşeviklər və xalqçılar mason lojalarında burjuaziya ilə

razılaşmaya üstünlük verirdilər. Bu isə o deməkdir ki, mütləqiyyət devrildikdən sonra mason liderləri açıq şəkildə siyasi səhnəyə çıxacaqlar. Bu mənada menşevik və əməkçilərin mason hərəkatında iştirakı bütün Rusiya fəhlə və zəhmətkeş sinfinin maraqlarına xəyanət etmək idi. Çünki onlar yeni inqilabda burjuaziyanın siyasi rəhbərliyi məsələsini qabaqcadan qəbul etmişlər. Əldə olan bütün məlumatların cəmi göstərir ki, bolşeviklər prinsipcə bu hərəkata daxil deyildilər.

1910-1917-ci illərdə masonların siyasi və təşkilati uğurlarından danışarkən 1915-1916-cı illəri xüsusi qeyd etmək lazımdır. Əlbəttə ki, burjua və xırda burjua partiyalarının təsirini o qədər də şişirtmək düzgün deyil. Kadetlərin bir çoxu dəfələrlə mason lojasına dəvət olunmalarına baxmayaraq, ona mənfi münasibət bəsləyən **P.N.Milyukovun** ardınca getməyi daha məqsədəuyğun sayırdılar (bu barədə **V.A.Obolenskinin** xüsusi qeydləri mövcuddur). Kadet partiyasının sağ qolu da bu yeni cəmiyyətə daxil deyildi. Oktyabristlər burada praktiki olaraq təmsil olunmurdular. Qaragüruhçu və ağ mühacir mətbuatında **Quskovun** ünvanına mason olduğu üçün kifayət qədər günahlar söylənilirdi. Lakin bununla bağlı heç bir dəlil-sübut yox idi, əldə edilən dolayı şahidlərin göstərişlərini müxtəlif cür yozmaq olar.

Lakin o, hər tərəfdən masonlarla əhatə olunmuşdur. Bunlar **Quskovun** Mərkəzi Hərbi-İstehsalat Komitəsi üzrə müavinləri **A.İ.Konovalov** və **M.İ.Tereşenko** idilər. **M.İ.Tereşenko** və **N.V.Nekrasovla** birgə **Quskov** 1916-cı ildə ölkədə hərbi çevrilişə hazırlaşmışdır. **Q.E.Lvovla** da əlaqədar bəzi şübhələr var. O kor-koranə **Nekrasov-Kerenski-Tereşenko-Konovalov** qrupuna tabe olurdu. Bu da əsas verir ki, onun mason olduğunu düşünək. Göstərilən illərdə Rusiyada inqilabi hərəkatda partiyalararası siyasi mübarizənin əsas hadisələri **«Rusiya Xalqlarının Ali Şurası»**nın təsirindən kənarda baş verirdi. Lakin masonluğa xas olan hakimiyyətə can atma bu cəmiyyətin fəaliyyətində özünü daha qabarıq göstərirdi.

**N.V.Nekrasov, V.L.Obolenski, A.F.Kerenski** qeyd edirdilər ki, onlar masonluğa ictimai hərəkatda və siyasi partiyalarda ən nüfuzlu şəxsləri cəlb etməyə çalışırdılar. Nəticədə hadisələrin hər hansı inkişafında, siyasi böhranların istənilən həllində Ali Şura öz üzvləri vasitəsilə yeni hakimiyyətin yaranmasında fəal iştirak etməyə çalışırdı. «Milli məsələlər idarəetmənin formaları və aqrar islahatlarla bağlı problemlərin həllində eyni partiyanın nümayəndələri arasında müzakirələr zamanı ciddi toqquşmalar müşahidə edilirdi. Ancaq biz bu

toqquşmaların dərinləşməsinə imkan vermirdik… - Kerenski deyirdi. – Biz xalq həyatının nəbzini hiss edirdik, - Daha sonra o yazır, - və biz hər zaman çalışırdıq ki, xalqın qayğılarını öz işimizə çevirək». Ancaq onlar hər şeydən əvvəl mason qayğılarını ən vacib işə çevirməyə çalışırdılar. Beləliklə, 1915-ci ildə çar hakimiyyəti ilə IV Dövlət Duması arasında olan qızğın iğtişaşlar hökm sürdüyü bir vaxtda kadet liderlərindən biri, knyaz **D.İ.Şaxovskinin**, **E.N.Kuskovun** («**Kerenski** onu yüksək dərəcənin frankmasonu» adlandırırdı) təklifi ilə **Milyukov** «ölkənin etibarlı hakimiyyəti» adlı orqanın qurulması ilə bağlı müzakirələr aparmaq üçün öz mənzilində müxtəlif görüşlü partiyaların nümayəndələrini topladı. İştirak edənlərin böyük əksəriyyəti masonlar idilər. Onlar nazirlərin belə bir siyahısını hazırlamışlar: hakimiyyətin sədri knyaz **Lvov**, xarici işlər naziri **Milyukov**, sənaye və ticarət naziri **Konovalov** və ya **Tretyakov,** torpaq işləri üzrə nazir **Şinqaryov,** hərbi nazir – **Quçkov,** xalq maarifi naziri – **Gerasimov** və ya **Manuilov**, ədliyyə naziri – **Maklanov** və ya **Naboxov**, əmək naziri **Lutuqin.** Bu 11 familiyadan beşi dəqiq mason idi. Digər səviyyələrdə hazırlanmış siyahılarda da təklif olunan hakimiyyət orqanlarının tərkibinin yarısını masonlar təşkil edirdilər. Əgər bu siyahını 1917-ci il martın 2-

də yaradılmış **Müvəqqəti Hökumətin** tərkibi ilə tutuşdursaq, bütün yüksək vəzifələrin üst-üstə düşdüyünü görərik. Axırıncıda yalnız 1916-cı il və 1917-ci ilin əvvəllərində mason rəhbərliyində baş verən dəyişikliklər özünü göstərir.

**Bu ali rəhbər orqana kimlər daxil idilər?** Hələlik yalnız **N.V.Nekrasovun**, **A.Y.Qalpernin**, **V.A.Obolenskinin** və **A.F.Kerenskinin** familiyaları məlumdur. Axırıncısı 1916-cı ilin yayından Ali Şuranın Baş katibi kimi fəaliyyət göstərir. Elə bu vaxt **V.A.Obolenski** Ali Şuranın tərkibindən çıxır. **L.Xaymson Nikolayskinin Qalpnern** və **Çxeidze** ilə müsahibəsinə əsaslanaraq deyirdi ki, bir vaxtlar 1914-1915-ci illərdə baş katibin səlahiyyətlərini sol kadet **A.M.Kolyubyakin** yerinə yetirirdi. Belə məlum olur ki, 1916-cı ildə Ali Şuranın tərkibinə **M.İ.Tereşenko** və **A.İ.Konovalov** da daxil olmuşdular.

Mason birliyinin siyasi proqramının maddələri kifayət qədər geniş idi və ciddi şəkildə qeydə alınmamışdı. Keçmiş masonların etiraflarına əsaslansaq görərik ki, bu proqramın əsasında mütləqiyyətin demokratik burjua respublikası ilə əvəz edilməsi, Rusiyanın tərkibində olan bütün xalqların hüquq bərabərliyi, dövlətin federativ quruculuğu dururdu (bu federasiya ya ştatların ittifaqı, ya da milli respublikalar ittifaqı formasında olmalı idi). Müharibə zamanı bu

məsələlərə Almaniya üzərində qələbəyə oriyentasiyalanma (səmtlənmə), müharibəni qələbə ilə bitirmək, müharibə zamanı inqilaba imkan verməmək də əlavə edildi. Bu dövrdə müharibə **Romanovlar** sülaləsinin hakimiyyətdən uzaqlaşdırılması (sui-qəsd daxil olmaqla) və hakimiyyətin burjuaziyaya verilməsi üçün maneə kimi hesab edilmirdi.

Lakin mason və qeyri-mason burjua siyasətçilərinin hesablamalarına xalq da qarışdı. Onlar 1917-ci ildə 300 ilə yaxın hakimiyyətdə olan Romanovlar sülaləsini 7 günə devirdilər. Burada mason cəmiyyəti hakimiyyətə açar olan vəzifələri tutmaq üçün ağlasığmaz fəallıq göstərməyə çalışırdılar. Petroqrad Fəhlə və Əsgər Deputatları Sovetinin sədri menşevik **N.S.Çxeidze** seçildi. O, IV Dövlət Dumasının menşevik fraksiyasının rəhbəri və mason idi. Onun müavinləri içərisində mason **M.İ.Skobelev** və **A.F.Kerenski** də var idi. Kerenski birbaşa deputatlara təzyiq edərək **Müvəqqəti Hökumətə** daxil olmağa nail oldu. Sonralar **P.N.Milyukov** izah etdi ki, liberal-burjuaziya və sözsüz ki, inqilabi hərəkatda heç bir əməyi olmayan **Tereşenkonun** da hökumətdə görünməsi onun masonlarla əlaqəli olması idi. **Müvəqqəti Hökumətin** tərkibində olan 12 nəfərdən 5-i həqiqətən mason idi: **Q.E.Lvov**, **N.V.Nekrasov**,

**A.İ.Konovalov**, **M.İ.Tereşenko** və **A.F.Kerenski**. Gözəgörünməyən hakimiyyət rəsmi hakimiyyət ilə əvəz olundu və öz mövcudluğunu və üstünlüyünü qoruyub saxladı. **Müvəqqəti Hökumətin** digər tərkibində (artıq koalisiyada) masonların sayı daha da artdı. Tezliklə **Konovalov** hakimiyyətdən getdi və onu başqa mason kadet **V.A.Stepanov** əvəz etdi. İkinci koalisiyalı hökumətdə 6 nəfər mason var idi. Artıq adları məlum olanlara **İ.N.Yefremovu** və **S.N.Prokopoviçi** əlavə etmək lazımdır. Yalnız **Kornilov** fırtınası əvvəlki mason həmrəyliyini pozdu. Burada Kerenski hakimiyyətdə qalmaq üçün öz silahdaşlarına da əl qaldırdı. O, **Nekrasovu** istefaya çıxardı və Finlandiyaya general-qubernator vəzifəsinə göndərdi. Başqa sözlə, buna … sürgün də demək olar. Yefremov İsveçrədə, **Maklakov** isə Fransada səfir təyin edildi. Bu adamlar **Kerenskiyə Kornilovla** mübarizə apardığı günlərdə onunla ya barışmağı, ya da hakimiyyətini başqa birinə verməyi məsləhət görürdülər. **A.İ.Tereşenko** ilə də iğtişaşlar başladı. Əvəzində **Konovalov** tərkibində dörd mason – **Tereşenko**, **Kerenski**, **Konovalov** və **A.V.Burışkin** olan hakimiyyətə dəvət edilər.

İnqilabın ikinci mərhələsinə keçməsi ilə əlaqədar hakim bolşevik partiyasında olan fikir qarşıdurmaları masonların həmrəyliyini tamamilə qırdı. Hətta

**N.V.Nekrasova** deyilmişdir ki, lojalar buraxılırlar. Ancaq o, istehza edərək «Belə hiylələrə biz əvvəllər də əl atırdıq», - dedi. Yalnız sözsüz, **Kerenskini** dəstəkləyən mason dəstələri fəaliyyətini davam etdirməkdə idilər. Lakin 1917-cı ilin oktyabrında onlar hamısı tarixin anbarına atıldılar.

İnqilab və vətəndaş müharibəsi masonları ölkənin hər tərəfinə səpələdi. Ordu ilə ağqvardiyalar arasında müharibə vəziyyətinə gətirilmiş sinfi mübarizə masonların birlik, ümumi cəbhə və s. haqqında moizələrini unutmağa məcbur edirdi. Masonların böyük əksəriyyəti antisovet düşərgəyə keçdilər: bəziləri ağ hakimiyyət dairələrinə nazir keçdi, bəziləri **Kolçakın**, **Denikinin** və **Vrangelin** təsirinə düşdülər. Artıq oxucuya məlum olan **N.V.Nekrasov** «Tolqof» adı ilə dövlət müəssisəsinə işləməyə getdi. 1918-ci ildə Petroqradda Petropavlovski qalasından həbsdən çıxmış **M.İ.Tereşenko** və **A.İ.Konovalov** masonların yardımları ilə başqa ad altında Sovet Rusiyasından qaçdılar. **A.F.Kerenski** 1917-ci il noyabrın 1-də bölşeviklərin nəzarətində olan matrosların mühasirəyə aldıqları Qatçinski sarayından masonların köməyi ilə çıxmayağa nail oldu. Onlar **Kerenskinin** gözlərinə sürücü eynəyi taxmış və matros paltarı geyindirərək gözətçisinin yanından keçirmişdilər. O, 1918-ci ilin may ayında serb zabiti kimi Murmanska göndərilənə

qədər bir çox yerlərdə gizlənmiş, sonra ingilis gəmisinə oturdulmuş və İngiltərəyə göndərilmişdir.

Vətəndaş müharibəsi illərində Qərbə rus mühacirlərinin axını gücləndi. Keçmiş burjua siyasətçiləri, mühəndisləri, müəllimləri, professorları və zadəganları içərisində çoxsaylı masonlar da var idi. Artıq 1918-ci ildə onlar yenidən üzərlərindən qorxu tozunu silərək öz təşkilatlarını bərpa etməyə çalışırdılar. Onlar yenə əllərini «**Böyük Fransa Şərqi**», **«Avropa tərəfindən qəbul edilmiş köhnə isveç mərasiminin Ali Şurası»** və «**Böyük Fransa lojası**»na tərəf uzadırdılar. Fransada rus masonlarının sayı sürətlə artırdı. Vətəndaş müharibəsi qurtardıqdan sonra, yəni 2 milyondan çox mühacir Sovet Rusiyasından kənarda olanda həm rus, həm də fransız mason lojaları öz sıralarına yeni nümayəndələr qəbul etməyə başladılar. Burada əsas motiv yad olan mühitdə sağ qalıb yaşamaq və yeni şəraitə uyğunlaşmaq idi. Qardaşlar arasında xeyirxahlıq və qarşılıqlı yardım yenidən ön plana keçdi. Beləliklə, İngiltərədə rus tarixi üzrə professor, rus mühaciri olan **A.İ.Konovalovun** oğlu bu sətirlərin müəllifinə yazdığı məktubda bildirirdi ki, onun atası ömrünün sonuna, 1939-cu ilə qədər yalnız xeyriyyəçiliklə məşğul olmuş və siyasətdən tamamilə uzarqaşmışdı. Lakin çox az adam belə hərəkət etmişdi. Burjua və xırda burjua

nümayəndələri olan ruslar mason lojalarından istifadə edərək fəal şəkildə antisovet işi aparır və antisovet ruhlu minlərlə rus mühacirləri və ağların ailələrini Rusiyada qurulmuş proletariat diktaturasına qarşı istiqamətləndirməyə çalışırdılar.

# P.A.Orlov
# RUS SENTİMENTALİZMİ

Moskva, 1977, –269 s.

**Sentimentalizm və Masonluq.**

s.109-143.

XVIII əsrin 70-ci illərin sonu, 90-cı illərin əvvəllərində masonluq rus cəmiyyətində diqqəti özünə cəlb etmişdir.[1] Bu onunla əlaqədar idi ki, onun tərəfdarları sırasına müxtəlif yazıçı, arxitektor, dövlət xadimləri daxil idi. Masonluğun məşhurlaşması və genişlənməsi ilə bərabər 1792-ci ildə mason lojalarının hökumət tərəfindən dağıdılması ilə əlaqədar narazılıq var idi.

Slavyanofillik, xalqçılıq, tolstoyçuluq kimi masonluğun da obyektiv tarixi qiymətə ehtiyacı var. Belə ki, bir sıra işlərdə biz bunu görmürük. Məsələn, **Q.P.Moqonenko** masonluqda yalnız onun qızışdırıcı tərəfini görür və buna görə onu «antixalq», hətta «anticəmiyyət» hərəkatı adlandırır. Sonuncu ifadə xüsusilə düzgün seçilməyib, belə ki, hər hansı bir geniş hərəkat onun ideoloji xarakterindən asılı olmayaraq cəmiyyətin məhsuludur. Tədqiqatçının sözlərinə görə, masonluq «öz sıralarına sosial-siyasi ziddiyyətlərdən qaçaraq ictimai fəaliyyətdən imtina edən şəxsləri qəbul edir».[2] Lakin elə tədqiqatçının özü masonlar arasında **Volter, Franklin, Danton, Kamilla de Nulen, Qudon, Lessinq, Höte, Herder, Vaşinqtonun** adını çəkir. Onun dediyi «bütün bu adamlar müstəsna haldır»[3] ifadəsi aydınlaşdıra bilmir ki, yuxarıda adları çəkilən şəxsləri masonluq hansı yolla özünə cəlb etmişdir.

**Y.M.Lotmanın**[4] göstərdiyi kimi **N.İ.Novikovu** masonluqdan ayırmaq düzgün deyil. **Q.V.Plexanovun** yazdığına görə, **Novikovun** «rozenkreyser fikrini» qəbul etməsi onu «əsil mason» etmişdir.[5]

Eləcə də masonların ictimai fəaliyyətdən uzaq olması absurddur. Kifayət edər ki, Moskva və Peterburqda masonlar tərəfindən 1787-ci ildə aclıq çəkmiş kəndlilərə kömək məqsədilə yaradılmış Nəşriyyat Kompaniyasının böyük işi yada salınsın.

**N.D.Koçetkova** düzgün olaraq qeyd edir ki, **«masonluq məsələsinə yeni baxışın yaranması masonluqdan tərəqqipərvər adamları ayırmamaq, lakin masonluğa obyektiv qiymət verərək onu tərəqqipərvər qanada qarşı qoymamaq bizim elmdə tam qanunauyğundurmu**? Yalnız onda anlamaq olar ki, bu qədər savadlı, ağıllı, istedadlı insanları masonluq özünə necə cəlb edə bilmişdir».[6]

Tədqiqatçılar masonların Rusiyada sosial və siyasi quruma loyal münasibətdə olduqlarını göstərirlər. Lakin söhbət hökumətin və dvoryanlığın siyasətinin müdafiəsindən və ictimai bəla ilə barışmaqdan deyil, onunla mübarizə üsullarından gedir. Siyasi mübarizə və ya əxlaqi tərbiyə yollarından masonlar ikincisini seçərək mason fikrinin məhdud, qeyri-ardıcıl, zəif olduğunu göstərir. Lakin masonluqda fəaliyyətdə olan quruluşa bəraət və ya onunla ittifaq axtarmaq düzgün deyil. Masonların gizli müxalifətdə olduqlarını hökumət özü də hiss edirdi. Qraf **F.V.Rostopçin** yazırdı: **«Əgər onlar hökumətə qulluq edirdilərsə, onda özlərinə qarşı şübhə və inamsızlıq yaratmaq… pıçıltı ilə danışıb sektaya aid olmadıqlarını təkid etmək nəylərinə lazım idi…»**[7]

İnsana və cəmiyyətə qarşı masonlar mənəvi cəhətdən yanaşırlar. Dvoryanların böyük hissəsinin mənəviyyatı dəhşət və nifrət oyadırdı. Radişevin dostu məşhur rozenkreyser **M.M.Kutuzov** E.Yunqun «Gecə düşüncələri» əsərinin tərcüməsində dvoryanları güclü tənqid atəşinə tutaraq qeydlərini vermişdir. O yazırdı: «Bizlərdən çoxu insan adlandırıla bilərmi? Məgər hamı heyvana bənzəyir? Məgər bizim bütün arzularımız öz yaxınlarımızı məhv etməyəmi yönəlib?».[8] Onun bu narazılığı varlıların kasıblara qarşı etinasızlığından irəli gəlir. O, yenə də qeyd edir: **«Ey bədbəxt ağılsızlar, öz fəaliyyətinizi özünüzə bənzərlərin yaratdıqlarına, kasıblığa, dilənçiliyə yönəldin. Gördüyünüz zaman keçirdiyiniz hisslərinizi öz evlərinizə qaytarın və müqayisə edərək deyin. İnsan adlandırılmağa layiqsinizmi?».**[9] **Kutuzovun** qəzəbli mühakiməsi dvoryanların öz uşaqlarını tərbiyəsinə yönəlib. O yazır: «Gənc yaşlarından bizi müxtəlif bayramlara vərdiş etdirirdilər. Tərbiyəçilərimizin cəhdləri ondan ibarət idi ki, bizi çox gözəl və dəqiq danışmağa öyrətsinlər».[10]

Dvoryan cəmiyyətinin tənqidində **Kutuzov** Novikovun («**Truten**») və **Fonvizinin** («**Nedorosl**») fikirlərinə əsaslanaraq, **məgər həyatımız heyvani həyatdırmı, yaxud məgər maraqlarımız heyvani maraqdırmı?** sualını verir.[11] Sırf dini əsaslarla (Allah qarşısında bütün insanların bərabərliyi) masonlar insanın təbəqələşməsindən kənar qiyməti fikrinə gəlib çıxaraq maarifçilikdən kənarda qalırdılar. **Kutuzov** yazır ki, «var-dövlət, ad-san, hörmət bütövlükdə insanı təşkil etmir. Əsil insani keyfiyyətləri heç kəs onun əlindən ala bilməz».[12] Dvoryanlara qarşı **Kutuzovun** belə münasibəti **Radişevin «Fyodor Vasilyeviç Uşakovun həyatı» və «Peterburqdan Moskvaya səyahət»** əsərlərini nə üçün ona həsr etdiyini başa düşə bilərik. Hər iki şəxs müasir dvoryan cəmiyətinə qarşı nifrət edir, lakin ictimai bəlanın səbəblərinin tapılmasında, və ya onun dəyişdirilməsi yollarının axtarılmasında isə fərqlənirdilər.

Ali hakimiyyətə itaət masonların heç də onun bütün addımları ilə razılaşdığını göstərmirdi. **Yekaterina** sarayının pozğunluğuna qarşı kəskin tənqid «Hökmdarlar haqqında» anonim məqalədə qeyd olunur: «Hökmdar məhəbbət anlarına qərq olan kimi, bütün saray əhli də həmin ehtirası hiss etməyi özünə borc bilir… Hökmdarın, nazirlərin və vəzifə sahiblərinin məşuqələri rütbələr paylayır və bütün işləri özlərinə uyğun həll edirdilər. Əvvəllər belə idarəetmə hakimiyyətin ilk çağlarında böyük ümidlər verən, lakin sonralar öz ölkəsini yaddan çıxaran hökmdarların dövründə olmuşdur…»[13] «**Utrenniy svet**» («Səba işığı») jurnalında daha kəskin fikir söylənirdi: «O gündən ki, üstümüzə ləyaqətsiz hakimləri təyin etməyə başladılar, mənfurluğa çevrilməyən ali hakimiyyət demək olar ki, qalmadı. Xoşbəxtliyin qapıları ləyaqətli insanların üzünə bağlıdır və onlar vəziyyət acınacaqlı olduğu üçün kələkbazlara və rəzalətə qarşı nifrət edirdilər».[14]

Təhkimçilik hüququnun ləğvinə çalışmayan masonlar eyni zamanda kəndlilərə qarşı insanpərvər münasibətə çağırışlar və mülkədar özbaşınalığına qarşı etirazlar edirdilər. **«Onlar qullardırmı?** Lakin insandırlar. **Onlar qullardımı?** Lakin daha çox yoldaşdırlar. **Onlar qullardımı?** Ancaq daha doğrusu müti dostlardı…»[15] – deyə mason yazılarının birində deyilirdi. **«Pokoyaşiysya trudolyubets»** («Tövbə edən əməkçi») jurnalında kəndlinin ağır vəziyyətinə şahid olan müəllifin şeri də verilmişdir. [16]

Dvoryanların qəddarlığını və parazit-həyat tərzini, sarayın əxlaqsızlığını və despotikliyini tənqid edib, özünəməxsus fikirlər irəli sürən masonlar cəmiyyətdəki qüsurların ilkin günahdan irəli gəldiyini söyləyirdilər. Onların fikrincə, bütün insanlar, Adəm və Həvvadan başlayaraq hamısı günahkardırlar, onları bir-birindən fərqləndirən yalnız günahların dərəcəsidir. «Günah»dan qurtulmağın yeganə yolu insan «ruhu»nun dini-əxlaqi tərbiyəsindən keçir ki, hansı ki orada ilkin günah xristianlıq və ilahiyyat tərəfindən sıxışdırılır. Belə tərbiyənin üsullarını ayrıca seçilmiş kitabların oxunması, filantropik fəaliyyət və nəhayət insanın öz fikirləri, hissləri və hərəkətləri üzərindəki nəzarətdə görürdülər. Masonlar öz ideallarının tam həyata keçirilməsini axirət dünyasına saxlayırdılar.

İnkişafın ilkin pilləsində masonluq harada isə maarifçiliyə, daha doğrusu, onun deistik və rusoistik hissəsinə yaxın idi, sonralar isə xüsusilə 1789-cu ildən masonlar və maarifçilər arasında kəskin surətdə qarşıdurma yarandı.[17] **A.M.Kutuzov** knyaz **N.N.Trubetskoya** məktubunda (1792, aprel) maarifçiləri «çar qatillərinin, zəhər qatanların, oğruların və quldurların yuvası»[18] adlandırırdı.

Bütün kütləvi ictimai hərəkatlarda olduğu kimi masonlar arasında yüksək mənəviyyatlı insanlar da var idi. Onlardan ən yaxşılarının masonluğa

çəkib gətirən ətraf mühitə qarşı narazılıq, yüksək əxlaqi ideyalara xidmət edən fəaliyyət axtarışlarının arzusu olmuşdur. Belə bir fəaliyyət masonların bir qismini qane edirdi, digərlərini tam qane etmirdi. Üçüncülərdə isə **Karamzində** olduğu kimi, rozenkreyserlərlə ziddiyyətin səbəbindən biri olmuş narazılıq var idi.

Ədəbiyyatda sentimentalizm məsələsi dəfələrlə qoyulmuşdur. Bu problemin həllində iki əsas baxış qeydə alınır. Bir çox tədqiqatçılar masonların və sentimentalistlərin ideya yaxınlığını və hətta mason ideologiya və ədəbiyyatının sentimentalizmə təsirini, digərləri isə bu təsirin yoxluğunu deyirdilər. Məsələn, **T.N.Sakulin** yazırdı: **«…Tam əminliklə demək olar ki, masonluq rus sentimentalizminin formalaşmasında böyük rol oynayıb».**[19] Tədqiqatçı bu təsirin ilkin şərtlərini masonların insanın daxili aləminə marağından irəli gələn dini fikirlərində, masonların və sentimentalistlərin eyni yazıçıların yaradıcılığına (**Yunq, Russo, X.Hellert, Pesner, Viland**) olan marağında görürdü.

Masonluğun təsirini **Q.P.Moqonenko** daha inamla bildirir: «Masonluğun bazasında Rusiyada sentimentalizm inkişaf etməyə başladı».[20] Bu yaxınlığı o, irticaçılıqda görürdü. Ona elə gəlirdi ki, yalnız mason xarakterində deyil, eləcə də bütün sentimentalizmdə irticaçılıq var**. Sakulin və Makoqonenkonun** fikirlərini **K.A.Nazaretskaya** da təsdiq edir.[21]

**Q.Rotenin** monoqrafiyasında **Karamzin** yaradıcılığına masonların təsiri, xüsusilə mason təlimini yazıçının əsas dünyagörüşü kimi verilməsi sözsüz ki, şişirdilmişdir. Masonların təsirini tədqiqatçı **Karamzinin** «respublikaçılığa» meyli və «qəlbin tərbiyəsinə» marağı ilə aydınlaşdırırdı.[22]

Lakin bu haqda başqa fikirlər də mövcuddur. **V.V.Sinovski** zəngin faktiki materiallara əsaslanaraq, qeyd edir ki, masonluq və sentimentalizm arasındakı yaxınlığın xarici cizgiləri arasında elə fərqlər var idi ki, Rusiyada ən gözə çarpan sentimentalist yazıçılardan birini qəti olaraq masonlarla əlaqəni kəsməyə məcbur etmişdir.[23]

**N.D. Koçetkova «Masonların ədəbi-ideoloji cəhətləri»** adlı maraqlı məqaləsində masonluqda sentimentalizm üçün yalnız «fəlsəfi əsasın» olduğunu deyirdi. Estetikaya gəlincə isə tədqiqatçının müşahidələrinə görə masonların zövqü klassizm ədəbiyyatı ilə sıx əlaqədə idi.[24]

Mason ədəbiyyatının sentimentalist ədəbiyyatı ilə doğma və yaxın olmasını təsdiq edən alimlərin fikrincə, Qərb sentimentalistlərinin erkən tərcümələri ara-sıra mason yazıçılara, xüsusilə **A.M. Kutuzova** aid idi.

Onun bioqrafı yazır ki, «Ədəbi nailiyyətlərindən biri rus dilinə ingilis şairi **Yunqun «Gecə düşüncələri»** əsərini tərcümə etməsidir. Bu da rus ədəbiyyatında sentimentalizmin yayılmasında xüsusi rol oynamışdır».[25] Bu

fikir müəyyən mənada həqiqətə uyğundur. Belə ki, **Yunqun «Gecə düşüncələri»** həqiqətən məşhur mason jurnalı «**Səba işığı**»nda çap olunmuş **Solomon Hesnerin «Avelin ölümü»** poeması və ya **Fridrix Klopştokun «Messiada»sı** kimi sentimental ədəbiyyata aiddir.

Lakin tərcüməçilərin bu əsərləri seçməsi onların sentimental ədəbiyyata aid olması ilə bağlı deyil, onunla əlaqədar idi ki, seçimdə dini mövzunun əsas rol oynamasıdır. **T.Sokolovskaya** Rusiyada mason hərəkatını öyrənən tədqiqatçılardan biri kimi yazır: **«Müxtəlif yazıçıların əsərlərini seçərkən masonlar çox vaxt xarici ədiblərin tərcümələrini qəsdən istədikləri kimi təqdim edirdilər.[26] Həqiqətən Avropa sentimental ədəbiyyatı kifayət qədər hərtərəflidir. Məsələn, Riçardsonun, Qoldsmitin romanları dövrünün sosial problemlərini açıqlayır, Russonu daha kəskin surətdə bunu «Yeni Eloize» də göstərir və Höte «Gənc Verterin əzabları»nda XVIII əsr alman cəmiyyətinin maraqlı cəhətlərini verir. L.Stern «Sentimental macəra» əsərindəki qəhrəmanın təzadlı və qəribə psixikasnın öyrənilməsi ilə məşğuldur və bütün bu əsərlər masonların diqqətindən yayınaraq, hətta Kutuzovun bir neçə dəfə qeyd etdiyi kimi yalnız dini mövzuda yazılmış kitablar cəlb olnur. O yazırdı: «Bir çox yazıçılar arasında… şübhəsiz Yunq və Klopştok birinci yeri tutaraq xristian şerini qabiliyyətsizlikdən xilas edir».[27]**

Beləliklə, masonların yuxarıda adları qeyd olunmuş əsərləri təsadüfi deyil. **S.Hesnerin «Avelin ölümü»** poeması onların diqqətini məlum səbəblər üzündən cəlb edirdi. Öz təlimində masonlar insanın təbiətini və zəkasını açıqlayaraq Bibliyada qeyd olunan ilk insanların günaha batması, bununla da insanın malik olduğu ilkin ilahi aliliyin itirilməsinə əsaslanırdılar. S.**Hesner** poemasında Adəm və Həvvanı cənnətdə olduğu günləri üçün darıxmağa məcbur edir. Bütün bunlar təbii olaraq masonların əsas konturlarına daxil idi.

**Yunqun** poeması masonların digər, irəlidə gedən – bütün dünya nemətlərinin faniliyi ideyası ilə səsləşir. **«Gecə düşüncələri»** dağılan fikirlərin məhsulu deyil, şairin həyatının özünəməxsus nəticəsidir. Özünə ən yaxın üç adamın itirilməsi poemaya yüksək faciəvi pafos vermişdir ki, bu da sözsüz mason dairələrində insanın xüsusi hörmətlə qarşılanması üçün şərait yaratmışdır.

**Klopştokun «Messiada»sı** da eynilə mason hərəkatının dini birlik ideyası ilə sıx bağlıdır. Bütün insanların mənəvi dirçəlməsinin dirçəlməsinin mümkünlüyü və vacibliyi fikri də onun masonlar tərəfindən cəlb olunmasına az təsir etməmişdir.

Lakin bütünlükdə mason ideologiyası sentimental ədəbiyyatın sonrakı inkişafına nəinki şərait yaratmış, eyni zamanda müəyyən dərəcədə onu sıxışdırmışdır. Bu fikri təsdiq edən ən parlaq nümunə **Karamzinin** ədəbi fəaliyyəti olmuşdur.

**Karamzin** 1784-cü ildən mason olmuşdur. XVIII əsrin məşhur masonu **İ.P.Turgenevlə** təsadüfi görüş onda böyük təəssürat oyatmışdır ki, sonuncu əyalət həyatına öyrənmiş gənc **Karamzinə N.İ.Novikovun** başçılıq etdiyi Moskva rozenkreyserlərinin lojasına daxil olmağı təklif etmişdir. **Karamzin** həvəslə razılıq verərək Moskvaya gəlir və öz yaşıdı **A.A.Potyovla** bərabər **Menşikov** qülləsinin yanındakı evdə məskən salır. Dostları kimi **Karamzin** ikinci mason – lord **Ramzey** adını alır. Gənc zahidlərin otağını xaç və mistik **Şvartsın** gipsdən hazırlanmış büstü bəzəyir.

O zaman masonlarla tanışlığı **Karamzin** taleyin hədiyyəsi kimi qəbul edirdi. **Lafaterə** məktublarında məhz vurğularla o, **Turgenevlə** görüşünü təsvir edir və bununla həyatındakı dəyişikliyi belə qeyd edir: **«…bir ləyaqətli insan mənim gözlərimi açdı və mən öz bədbəxtçiliyimi anladım. Vəziyyət dəyişdi. Mən yenidən oxumağa başladım və hiss etdim ki, qəlbimdə həzin bir sakitlik var… Moskvada öz həqiqi dostlarımın yanında yaşayıram».**[28]

İlk əvvəllər Karamzin digər masonlar kimi tərcüməçilik fəaliyyəti ilə məşğul idi. 1786-cı ildə o, mason ideyalarına yaxın olan və buna görə rəhbərləri tərəfindən tərcüməyə təqdim olunan İsveçrə şairi **Qallerin «Şərin mənşəyi»** əsərini tərcümə etmişdir. Qaller insanın ümumi günahlılığı ideyasına sadiq idi. O yazır: **«Biz hamımız günahkarıq – aldanmağımızın ucbatından şər bizə daxil olmuşdur. Zəif ruh həvəslər üzərində hakimiyyətini itirmişdir»**.[29] Onun kitabının müsbət tərəfi mason təəssüratları ilə səslənməsidir. Belə ki, günahlar üzərində qabiliyyət üçün əsas amil insan iradəsidir. Şair bildirir ki, «Azad iradə düşkün insanı bərpa etməyə kömək edir».[30] Müəllifin öz vicdanının səsinə tabe olan «ləyaqətli insanların kilsəsi» haqqındakı fikirlər hər bir mason tərəfindən fərdi qarşılanmışdır**.** **Karamzin** üçün bu əsər yaxın və əziz idi. Bunu onun əsərə emosional yanaşması və öz qardaşı **V.A.Karamzinə** həsr etməsi sübut edir.

Gənc müəllifin mason görüşləri nəinki tərcümələrində, habelə özünəməxsus orijinal əsərlərində də əks olunmuşdur. Karamzinin dostu və həmyerlisi **İ.İ.Dmitriyevə** göndərdiyi məktublarındakı şerləri məhz belədir. Sonralar onlar **«Uşaq mütaliəsi»** adlı jurnalda çap olunmağa başlamışdı. Daimi və həqiqi axirət həyatı naminə insanın «yanaşması» lazım görülmədiyi dünya sevinclərinin və qəmlərinin müvəqqətiliyinə 1787-ci ildə həsr etdiyi «Burada məşəqqətə tez-tez rast gəlinir» şerini yazır. [31]

Elə həmin il bu mövzuya aid «Əsl xoşbəxtlik səmada ulduzlardan yuxarıda yerləşir» adlı şer də yazmışdır.

1788-ci ildə **Dmitriyev** xəstələnir və **Karamzin** öz naməsində ona masonsayağı təsəlli verir. [32]

Müəllifin ali hesab etdiyi insan nəhayət dünya əzablarının mənasını və vacibliyini anlayır.

Lakin **Karamzin** öz mason dostlarından fərqli olaraq, getdikcə daha çox Avropa sentimentalizminin, maarifçiliyin, romantik ədəbiyyatın təsirinə məruz qalır ki, bunu da onun tərəfindən tərcümə olunmuş aşağıdakı əsərlər sübut edir: **Tomsonun «İlin fəsilləri»** («Uşaq mütaliəsi» jurnalında) **S.Pesnerin «Taxta ayaq»** və **Lessinqin «Emiliya Qalotti**». Bu illərdə **Russo** və **Klopştok, Yunq, Viland, Riçardson** və **Stern** ilə tanış olur.

Gənc şairin şüurunda mason dünyagörüşləri tədricən kök salaraq yazıçı-sentimentalistlərin yaradıcılığına marağı artırır. Bax bu səbəbdən də bir çox sentimentalistlərin əsərləri, artıq qeyd olunduğu kimi, dini mövzuda olduğuna görə, hətta Rusiya mason jurnallarında çap olunurdu.

Mason və sentimentalist mövzuların birliyi əsasında **Karamzinin** «**Uşaq mütaliəsi»** jurnalında çap olunmuş mənzum «**Gəzinti»** oçerkini maraqlı nümunə kimi göstərmək olar. Bu oçerkə daxil olan obraz və təsəvvürlərdən çoxu mason simvolikası ilə bağlı idi. Məsələn, qəhrəman axşam gəzintiyə çıxır və evə yalnız səhərə yaxın qayıdır. Gəzintinin əsas məqsədi isə günəşin doğmasını müşahidə etməkdir. Yada salaq ki, **N.İ.Novikov** tərəfindən nəşr olunan ilk jurnal «Səba işığı», sonra çıxan isə **«Axşam üfüqü**» adlanır. **«Səba işığı**»nda Karamzinin **«Gəzinti»si** ruhunda yazılmış «**Günəşin batması»** adlı oçerk nəşr olunmuşdur.

Oçerkin müəllifi: «Oxucu! – deyə müraciət edir – Sən nə zamansa göylərin yaratdığı belə bir gözəlliyin şahidi olmusanmı? Yaxud hər hansı bir şirinlik, röya, … sənin təbiətin sehri haqqında düşüncələrinə mane olmayıb ki?»[33] Onun ardınca günəşin qalxmasını çox aydınlıqla əks edir: «…Səmanın şərq hissəsi qırmızı rəngə boyanır… hava yavaş-yavaş çəhrayı rəng alır… Bütün məxluqlar sevinirlər». Oçerk Allaha şükür duası ilə bitir: «Kimin ki, iradəsi ilə günəş qalxır».

**Karamzinin** «Gəzinti»sində günəş obrazı mason və sentimentalist ideya yükünü daşıyır, belə ki, müəllif üçün bu həm də təbiətin gözəl və «böyük yaradanın böyük məhsuludur».[34] Mövzuya belə bir baxış günəşin qalxmasını həm də təmiz estetik sevinc və təpəyə çıxmağı yazıçının insanı ölməz başlanğıca yaxınlaşmasına oxşatmağa çalışan özünəməxsus tərzdə əvvəlcədən hazırlandığı dini ayinə bənzətməsidir.

Lakin mason mövzusu bu əsərdə yeganə və həlledici məqsəd deyil. Onunla yanaşı və hələ münasibətdə olmayan sentimental ədəbiyyata aid olan obraz və mövzular da mövcuddur ki, bunu da müəllifin şövqlə qeyd etdiyi yazıçıların adlarının çəkilməsi sübut edir. Məsələn, o gəzintiyə sevdiyi **Tomsonun** kitabı ilə çıxır və onun şerlərini ucadan oxuyaraq günəşin batmasını seyr edir, gecənin düşməsilə şüurunda **Yunq, Viland və Osenanın** əsərlərindəki obrazlar görünür. Oçerkdə təbiət nəinki xaliqin böyüklüyünü və xeyirxahlığını göstərir, həm də ilk növbədə mənəvi, hətta fiziki zövqlərin mənbəyi kimi göstərilmişdir. Təsadüfi deyil ki, müəllif bir neçə dəfə «xoşdur» sözünü işlədir. «Heç bir ilin fəsli mənə bahar kimi xoş gəlmir. O zaman bütün varlığımla dəyişiklikləri və ürəyimdə sevincin aşıb-daşdığını hiss edirəm», - deyir.[35]

Əgər bir müddət mason və sentimentalist fikirlər **Karamzinin** şüurunda yer tapmışdılarsa, artıq 1789-cu ildə «Uşaq mütaliəsi»ndə, **«Yevgeniya»** və «**Yuliya**» povestində yazıçı sentimental ədəbiyyata meylliyini əks etdirirdi. Maraqlıdır ki, son zamanlara qədər bu əsər madam **Jailisin** yaradıcılığına böyük təsir etmişdir. Bu fikir **V.V.Sinovski**[36] tərəfindən də davam edilirdi. Baxmayaraq ki, **Karamzin** öz əsərini «əsl rus» povesti adlandırırdı. Əsər daha çox müəllifin yaradıcılığındakı təkamüllə onun mənəvi həyatı arasındakı üzvi tellərin olduğunu göstərir.

**Karamzinin** süjet üçün gəncin gözlənilməz ölümünü və yaxınların qəmini əks edərək, həm masonlar üçün, həm də sentimentalistlər üçün maraqlı mövzu götürür. Povestin epiqrafı elə bil ki, oxucunu mason ahənginə uyğunlaşdırır.[37]

Lakin o, əsərin ümumi ahəngini tam verməyərək, müəllifin qeyd etdiyi kimi insanlara verilən xoşbəxtliyin real əksini tam göstərmir. Povestin əvvəli – **Tomsonun** «İlin fəsilləri» ruhunda yazılmış təbiətin və insanın qardaş birliyinə çağırışının himnidir. «Həyat sadə arzularla və təmiz sevinclərlə dolu təmiz, sakit çay kimi öz axarındadır» – deyə **Karamzin** xanım L. və onun qızlığı **Yuliyanın** sakit kənd həyatı haqqında yazır.

Povestin birinci hissəsi özünəməxsus sentimentallıqla doludur. Xanım L. «təbiətlə bərabər» oyanır və «mehriban nəvazişlə» Yuliyanı «səhərin gözəlliyi»ndən zövq almağa dəvət edir. «Günəşin çıxmasından xoşhallanaraq», onlar öz bağçalarındakı çiçəklərin gözəlliyinə tamaşa edirlər. Axşam «özü ilə bərabər yeni xoşluqlar gətirir», günəşin batması, qonaqlarla görüş və s.

Xanım L.-nin oğlu Yevgeni üç illik xarici səfərdən sonra malikanəyə təşrif buyurur. «Həyat sevincləri» mövzusu gənclərin məhəbbəti ilə davam edir. Xanım L. Yevgeni və Yuliyaya xeyir-dua verir: «Zövq alın, mənim

övladlarım… öz ananızın xoşbəxtliyi naminə xoşbəxt olun…». Müəllif yazır: «Evdəkilər biləndə ki Yevgeni tezliklə Yuliyanın həyat yoldaşı olacaq, sevincdən özlərinə gələ bilmirlər…»[40]. Bütün bunlar tünd mason baxışlarından uzaq idi, belə ki, masonların hətta mərasim və adətləri belə qaçılmaz ölümü yada salmağa çalışırdı.

Povestin ikinci hissəsi kəskin surətdə birincinə qarşı qoyulur. Qəhrəmanların həyatında bədbəxtlik baş verir: qəflətən Yevgeni xəstələnir və vəfat edir. Hətta belə bütöv yüklü mövzu Karamzində mason deyil, sentimental işıq saçır.

Məlumdur ki, masonlar insanın ölümündə Allahda ədalət və müdrikliyi görürlər. Ölüm insana Allahı onu gələcək əzablardan və pisliklərdən qoruyan rəhm kimi göstərilir. Məsələn, **«Səba işığı»** jurnalında çap edilmiş **«Bozaldab**» adlı şərq povestini xatırlayaq. Əsərin qəhrəmanı – Misir xəlifəsi Bozaldab öz sevimli və yeganə oğlu Aboramı itirir. O, Allahı qəddarlıqda və ədalətsizlikdə günahlandırır və özünə ölüm arzulayır. Onda onun qarşısına Kalok adlı mələk gəlir və gələcəyin pərdəsini açaraq ona Aboramın ola biləcək gələcəyini göstərir: onun oğlu qəddar tirana çevrilib ki, bəzi saray adamları tərəfindən kor edilib taxtdan salınır. Xəlifə dəhşətə gəlir, mələk isə ona «nəsihət» verir: Sənin oğlun məgər indi xoşbəxt deyilmi? Ölüm onun həyatını zülmətə çevirə biləcək böyük günahlardan hifz etdi…»[41]. Mələyin etdiyi nəsihət nəinki onu matəmdən çıxartdı, həm də əmin etdi ki, «insanların xoşbəxtliyi yalnız talelərinin Allahın əlilə verilməsilə mümkündür».[42]

Belə bir prinsiplə digər bir Şərq, mason hekayəsi – «Moasim»[43] yazılmışdır. **Moasim** adlı birisi, yaşının ən gözəl çağlarını yaşayarkən yeganə oğlunu itirir. O, ucadan Allahdan şikayətləndiyini bildirir. Həm də onun qarşısına Bozaldabın qarşısına çıxdığı kimi ölüm saatının insan üçün dəyərli və hətta xilasedici olduğunu sübut etməyə çalışan allahın elçisi Oromases gəlir. İnsanların zəif və cahil olduğunu nəzərə alan Oromases ölümün arxasınca ağlamağın və «böyük günah» sayılan qəm kədəri bağışlamağa hazırdır.

Hər iki povest maarifçiliyə nəzərən mübahisəlidir. Maarifçilərdə əvvəlcə dünyanın xəyali harmoniyası verilir (məsələn, **Radişevin «Spass meşəsi», Volterin «Sandid», Krılovun «Kaib»** əsərləri), sonra isə faktlar qarşılaşdırılaraq qəhrəman üzə çıxarılır və xəyallar dağılır. **«Bozaldab»** və **«Moasim»** povestləri isə tamamilə əks prinsiplə qurulmuşdur: qəhrəmanların hissləri onları əhatə edən dünyanın ədalətsiz və qəddarlığı haqqında xəbər verilir, ilahi vəhy isə ali şüurun mərhəməti və dünyanın harmoniyasını təsdiq edir.

«Yevgeni və Yuliya» əsərində iki ideya toqquşmuşdur. Onlardan biri masonluqdan irəli gələn, açıq nəsihətçi xarakter daşıyan «…ilahinin yazdığı

qismət bizim üçün sirdir. Kamilliyinin və mərhəmətinin qanunlarına tabe olaraq O yaradır, biz isə heyrətlənərək iltifat edirik, belə ki, bizim inamla və sözsüz iltifatımız zəruridir» fikri rozenkreyser replikasında özünü göstərir.[44] Digər tərəfdən isə vəhy haqqında «anlaşılmaz» fikir müəllifin qəhrəmanının anası və nişanlısının dərd-qəminə şərik çıxmasının qarşısı alınmır. Əzab və əzaba şərik çıxmaq mövzusu nəinki aradan götürülmür, hətta bəşəri yüksəkliyə qaldırılır. **Karamzin** əzizlərinin ölümündən başlayaraq onun üçün sonsuz qəm-qüssə çəkməsinə qədər xanım L. və Yuliyanın bütün həyəcanlarının qalmasını öz duyğuları izləmişdir.

Doğrudur, povestin sonunda, müəllif sonuncu dəfə mücərrəd formada qəhrəmanın ölümünün məntiqini (masonların sevimli üsulu) tapmağa çalışır. Yevgeninin mərmər başdaşı üzərində «bir gənc» aşağıdakı sözləri yazmışdır: «Onun cənnət işığı bu dünyada bata, sönə, quruya bilməz. O, cənnətə götürülmüşdür». Lakin bu çeynənmiş sitat da, qəhrəmanların kədərini azalda bilməz. «Xanım L. və Yuliya – deyə müəllif yazır: - dünyada bütün sevinclərini itirmiş və daim tənhalığa çəkilərək yaşamağa üstünlük vermişdilər».[45]

**Karamzin** əslində masonların ilahinin tamamilə ədalətli olması ideyasını vermişdir. Dediyimiz kimi masonlar sübutedilməzliyi sübut etməyə cəhd edərək, öz qəhrəmanlarını qəddar insanlar kimi qələmə verərək, onların guya gələcəkdə pis əməllər göstərə biləcəyinin qarşısını alan ölümü oxucuya ilahini ədalətli kimi aşılayırdılar.

**Karamzinin** isə qəhrəmanları ideal olub, onların gələcəkdə nə isə pislik edəcəyindən belə şübhələnmək olmur. Bununla belə qəhrəmanlardan biri ölməli idi. Beləliklə ağıl və mistika, eynilə hiss və inam kimi bir-birinə nəinki qovuşur, hətta açıq-aşkar bir-birinə qarşı durur. Povestin həqiqi «insani» münasibətlərin bütün dolğunluğu və mürəkkəbliyini özünə tabe edə bilməyən məzmunu özünə birləşdirən ənənəvi dualara bənzəyən epiqrafdan başlayaraq məzar üzərindəki yazılara qədər bütün mistik fikirlər qəti olaraq inkar edilir.

1780-ci ildə **Karamzin** və Moskva masonları arasında demək olar ki, rəsmi surətdə parçalanma gedir. Xaricə getməzdən əvvəl Karamzin bütün köhnə dostlarına və həmfikirlərinə bildirir ki, onlara qarşı hörmətdən imtina etməyərək onların təşkilatından çıxmağı qərara alıb və bundan sonra heç bir iclaslarda iştirak etməyəcəyini qərara alır. **Görəsən Karamzini bu addımı atmağa nə vadar etmişdir?** Yazıçının özü bu suala çox xəsisliklə cavab verərək məsələnin yalnız görünən hissəsinə: «axmaq» adətlər və «sirli» mason iclaslarına toxunur.[46] Lakin bu cavab Kaaramzin və Moskva masonları arasındakı fikir ayrılığının səbəblərini yazıçı bilavasitə sənətinə aid olan bədii yaradıcılığa toxunmayıb tam açıqlama vermir. Onun xaricə səfəri də əyləncə

məqsədini deyil, məhz azad yazıçılıq və jurnalistlik fəaliyyəti ilə əlaqədar idi. Lakin özünün jurnalını nəşr etdirmək, eyni zamanda mason olaraq qalmaq mümkün deyil – belə bir fəaliyyəti masonlar qəbul etmirdilər.

Mason rəhbərliyinin qəyyumluğunu öz üzərindən atmaq arzusu **Karamzinin** məktublarında özünü açıq göstərir. Onlardan biri **Kutuzova** ünvanlanmışdır. **Karamzin** yaşca özündən böyük olan dostuna başa salır ki, o artıq uşaq deyil və azad düşünüb hərəkət etmək hüququna malikdir. «Özüm haqda onu deyə bilərəm ki, mənim artıq 25 yaşım olacaq, belə ki, biz sonuncu dəfə ayrılanda mənim heç 22 yaşım da yox idi».[47] **Kutuzov** bu xəbəri xeyli ürəkağrısı ilə qəbul etdi, bunu onun məktubları sübut edir.

Bir qədər vaxt keçdikdən sonra **Karamzin** «**Moskva xəbərləri**»ndə tezliklə özünün «**Moskva jurnalı**»nı dərc etdirəcəyini bildirir: **«Əgər kimsə öz yazı və tərcümələrini göndərsə, mən indidən təşəkkürümü bildirərək planlarımla üst-üstə gələn, dini-mistik, mübahisəli, quru pyeslərdən uzaq olan əsərləri götürməyə çox şad olaram».[48]**

**Karamzinin** bu sözləri açıq-aşkar meydan oxumaq demək idi ki, bunu da masonlar hiss etməyə bilməzdilər. **«Mən indicə Pleşevdən məktub almışam – deyə Kutuzov yazır: – Karamzinin qəzetdəki elanını oxuduqdan sonra belə anladım ki, artıq o bizimlə əvvəlki kimi bağlı deyil».[49] Kutuzovun fikrilə Novikov dərnəyinin fəal sütunlarından biri İ.V.Lopuxin də tam razıdır. Məktuba cavab yazaraq deyir: «Karamzin martinizm adlandırdığımız hər bir şeyə qarşıdır».[50]**

O vaxtdan etibarən «**Moskva jurnalı**» və **Karamzinin** ədəbi yaradıcılığı martinistlərin nəzər diqqətində idi və o onların açıq aşkar nifrətinə çevrilmişdir. **İ.V.Lopuxin** yazır: **«Karamzin istəyir ki, yazıçı olsun, belə ki, knyaz Prozorovski kimi martinistlərin axırına çıxmaq onların ikisinə də nəsib olmayacaq».[51]**

Əvvəllər ona dost olan şəxslər indi öz məktublarında açıq-aşkar şər atmaqdan da utanmırdılar. Knyaz **N.N.Trubetskoy Karamzinin** «ağlasığmaz hərəkətindən» yazaraq deyir: - «Özünü başqalarının qarşısında cəsarətlə elan edərək, sözün düzü axmaq vəziyyətində göstərmişdir».[52] Trubetskoy gənc nəşriyyatçını xudpəsəndlikdə ittiham edib, jurnal nəşr etmək fəaliyyətində müflis olmaq təhlükəsində olacağını qəzəblə bildirir. **Kutuzov** isə masonların satiraya qarşı olduqlarını unudaraq **Karamzinə** qarşı nifrətlə dolu ədalətsiz həcv yazır. Müəllifin özünə layiq olmayan bu əsəri xoşbəxtlikdən yüz ildən artıq arxivdə qalası olur. Bu yazı **Karamzinin** sərbəst surətdə öz jurnalını çıxarması haqqında çap etdiyi elandan sonra masonların ona qarşı etirazını və qıcıqlandığını əyani surətdə əks edir. **Karamzin** onların gözlərində onunla mübarizədə bütün yollardan istifadə etməyi vacib olan xəyanətkar kimi

görünürdü. Ona görə **Kutuzov** öz satirik «portret»ində demək orar ki, hər şeydən: yazıçının bioqrafiyasındakı faktlardan, hətta çoxlu intim xarakterli məktublardan istifadə edir.

«Mənim tezliklə 25 yaşım tamam olacaq – deyə **Kutuzov Karamzinin** məktubundan sitat gətirərək öz satirasını başlayır – Qədimdə bu hədd demək olar ki, uşaq yaşı sayılırdı… Lakin gəlin belə kobud fikirləri kənara ataq».[53] Ardınca **Karamzinin** bioqrafiyası verilir, **Kutuzov** onu Meymunov Tutuquşusu adlandıraraq yazıçının ədəbi yaradıcılığındakı qeyri-sərbəstliyə işarə edərək onu Qərbi Avropa jurnalistikasının ən zəif nümunəsinə bənzədir. Meymunov deyir: «Mənim tərbiyəm bizim dvoryan tərbiyəsindən heç nə ilə fərqlənmirdi: fransızca və almanca danışmağı öyrətmişdilər ki, mənə bu dillərdə çoxlu roman oxumaq xoşbəxtliyi qismət olsun».[54] Müəllif faktların təhrif olunmasından belə çəkinməyərək **Karamzinin** tərbiyəçilərinin qaçqın xarici katorqaçı olduğunu iddia edir. Sonda **Kutuzov** naşirdən tələb edir ki, dini-mistik, mübahisəli əsərlər deyəndə nəyi nəzərdə tutduğunu aydınlaşdırsın.

**Karamzin** masonların ona qarşı olduqlarını bilirdi və **Kutuzovun** ona **«Moskva jurnalı»**nın bir neçə nömrəsini göndərmək xahişinə quru bir cavab göndərdi: «Yanvarda çıxacaq jurnalda mənim və digərlərinin əsərləri nəşr olunacaq, lakin mənə elə gəlir ki, onlar sizə maraqlı olmayacaq».[55] lakin bununla məsələ bitmədi. Masonların ədalətsiz ehkamlarından təngə gələn **Karamzin «Moskva jurnalı»**nda əks zərbələr endirməyə başladı.[56]

Söhbət Rusiyada sərbəst şəkildə bir neçə dəfə nəşr olunan və masonlar tərəfindən çox məşhur olan **İ.M.İohan Masonun «Öz-özünü tanı»** kitabından gedir. Bütün bu məsələnin ən incə tərəfi isə onda idi ki, əsəri 1785-ci ildə **İ.V.Turgenev** tərəfindən Moskva masonlarının dərnəyinə gətirilən **Karamzin** tərcümə etmişdir.

**Turgenev** tərcüməyə müqəddimə yazarkən (1783) Masonun əsəri haqqında müsbət rəy vermişdir. Bu kitabı **N.İ.Novikov** da öz dostu **S.N.Qamaleyə** oxumağı tövsiyə etmişdir.

**«Rus səyyahının məktubları»**nda müəllif **Kutuzovla** gizli mübahisəsindən söhbət açır. **Kutuzovun** adını «Yazılar»da çəkməməsi təbii görünürdü, belə ki, **Karamzinin** səyahətinə 4 il qalmış o, **Lopuxin** tərəfindən Almaniyaya mason sirlərinin öyrənilməsi üçün göndərilmişdir. **Karamzin** onunla görüşmək arzusunda idi, lakin vəziyyət ona mane olmuşdu. Buna baxmayaraq **Karamzin** özünün qaranlıq və qəbiristanlıqsayağı mason fəlsəfəsinə olan nifrətilə bərabər **Kutuzov** və masonluq haqqında dolğun məlumat vermişdir.

1789-cu il 30 iyun tarixli məktubunda o, məşhur Berlin Tirqarterində olduğunu qeyd edir. Burada Tirqarterin – gün işığı demək olar ki, görməyən dar tunelə bənzər qaranlıq və uzun xiyabanında vaxtilə **Kutuzov** da olmuşdur. Bu xiyaban **Kutuzovu** qaranlıq ölüm və axirət dünyası haqqında fikirlərə qərq etmişdir ki, bu haqda **Karamzinə** məktubunda məlumat vermişdir. **«Moskva jurnalı»**nda həmin məktubun geniş bir hissəsi çap olunmuşdur.

Tirqarter xiyabanı **Kutuzovda** «hansısa dəhşətin yaratdığı təlatüm» hisslərini yaradırdı və onun şüuru mistik istiqamətdə inkişaf etməyə başlayırdı. «Bəlkə bu tutqunluq sənin ruhun bədəndən ayrıldıqdan sonra naməlumluğa qərq olduğu an sənin vəziyyətindən xəbər verir? Bu fikir mənə elə hakim olmuşdur ki, artıq özümü dünyanın yükündən azad olan, qarşıdakı işığa doğru addımlayan insan kimi hiss edirəm».[58] Bu vaxtdan etibarən bu xiyaban **Kutuzovun** sevimli yerlərindən birinə çevrilmişdir.

**Karamzin** öz dostunun fikirləri ilə tamamilə razılaşmır, həm də onun ruhi vəziyyətinin xüsusiyyətlərini açıqlayır.[59]

**Kutuzov** üçün Tirqartendə olmaq insan ruhunu əcəl dünyasına hazırlaşdırır, **Karamzin** üçün isə bu xiyaban elə bir yerdir ki, bir zamanlar yaxın bir adamın gəzdiyi bu yerdə mason ölüm haqda, sentimentalist isə xoş xatirələr haqda fikirlərə dalır.

**Karamzinin** mason sirlərinə və ayinlərinə qarşı dəfələrlə etdiyi çıxışlar da adamın diqqətini cəlb edir. Onlardan bir neçəsi **Kutuzovla** bağlıdır və **«Rus səyyahının məktubları»**nda öz əksini tapmışdır. Məsələn, **Karamzin** Frankfurta gəlir və **Kutuzovla** görüşmək arzusunda olur. Lakin görüş baş tutmur. **Kutuzov** Parisə yollanır. **Karamzin Kutuzovun** qarşısına qoyduğu məqsədlərə şərik çıxa bilmirdi. Bu vəziyyət onun üçün Şrenfer adlı «məşhur kələkbaz»ı xatırladırdı. Həmin adam alman rozenkreyserləri ilə əlaqə saxlayırdı. Şrenfer özünün spiritik seansları ilə məşhur idi. **Karamzin** bu seansları olduğu kimi təsvir edir, ona oxşar mason adətlərini yada salır. «Qara pərdələrlə örtülmüş», ağzına qədər dolu olan zalda Şrenfer sinəsini açır və əlinə parlayan qılıncı götürərək dizi üstə çökür və bərkdən qışqıra-qışqıra elə coşğunluqla dua edirdi ki… buraya … gələnləri təşviş və ehtizas bürüyürdü».[60]

Müəllif həm də **Şrenferin** düşgün sonluğu haqqında da qeydlər verir, öz pərəstişkarlarının inamını itirən, borclar içində batan insan başına güllə çaxaraq özünü öldürür.

Sonra «bütün bu nadanlığın qarşısını ala biləcək yeganə yol maarifçilik» təbliğ olunur. Belə bir nadanlığın qurbanlarından birini müəllif

öz dostu **Kutuzovu** hesab edir. Sonralar **Kutuzov** Almaniyada faciəvi surətdə həlak olur.

**«Moskva jurnalı**»nın IV və V hissələrində Karamzinin **«İosif Balzamo və ya qraf Kaliostronun həyatı və işləri**» adlı böyük bir məqaləsi verilmişdir. Əsərin qəhrəmanı - XVIII əsrin məşhur fırıldaqçısı - kələkləri ilə bütün Avropada məşhur idi. Kaliostro əsasən mason fəaliyyəti ilə təsvir olunaraq, yenə də **Şrenfer** hadisəsindəki kimi **Karamzin** masonluğa münasibətini əks edirdi. «Hal-hazırda Avropada müxtəlif növ fanatiklər peyda olmuşlar ki,…» – deyə müəllif fanatik dedikdə, əlbəttə ki, ilk növbədə masonları və onlara inanan insanları nəzərdə tutur. Əsərin özünə gəldikdə isə bütünlüklə burada adı qeyd olunan qraf **Kaliostronun** məhz masonluq fəaliyyəti əks olunub. Bu cəld fırıldaqçı «yeni formada» masonluq təşkil etmək qərarına gəlir və öz həmfikirlərinə öz sistemini təklif edir. «Bu sistemdə tələbələrinə söz verir ki, onları fiziki və mənəvi cəhətdən inkişaf etdirəcək və ilkin materiya və ya dahilər daşını atıb göstərəcək ki, insana yeni «güc-qüvvət gətirərək onu ölümdən xilas etsin…»[61] Qeyd etmək lazımdır ki, **Kaliostronun** plan və sözlərində XVIII əsr mason lojalarının məqsəd və problemlərini həll etməyə yönələn məsələlərin təkrarlanmasından başqa heç nə yox idi. Masonlar qədim misirlilərin inandığı ali zəkaya inanırdılar və **Kaliostro** öz cəmiyyətini «Misir» cəmiyyəti adlandırırdı ki, müəllifin fikrinə görə «heç bir dini inkar etmirdi». **Kaliostronun** tərəfdarlarının hər birinin andında mason qanun vericiliyində qeyd olunmuş «Allaha sevgi», «hökmdara itaət», «kor-koranə inam» demək olar ki, təkrar olunurdu.[63]

**Kaliostronun** sağlam məntiqə sığmayan qabiliyyəti bir çox Avropa mason lojaları tərəfindən qəbul edilirdi. O, bir sıra təmiz insanların inamından bəhrələnərək, pullarından, vəziyyətindən və qonaqpərvərliyindən sui-istifadə edirdi. Bütün bunların səbəbi sirrlilik atmosferi, masonların kütləviləşməsi, loja rəhbərlərinə kor-koranə inam, yoldan keçənləri, təmiz insan başlarını qatmaq bacarığı idi.

Masonlarla mübarizə **«Moskva jurnalı**»nda 1792-ci ilin aprelinə qədər, **II Yekaterinanın** mason təşkilatlarını dağıtması və **Novikovun** həbs olunmasına qədər davam etmişdir. Qeyri-düşünənlərlə belə bir mübarizə **Karamzin** prinsiplərinə qarşı idi. Jurnalın aprel cildində «Əfv üçün» yazdığı məqalədə **Novikovun** müdafiəsinə qalxdı. Təbii idi ki, hökumətin kobud azğınlığından sonra masonların tənqidi **Karamzin** jurnalının səhifələrindən itir.

**Karamzinin** Moskva martinistləri ilə münasibətinin xarici nöqteyi-nəzəri bax belədir. Lakin masonlarla münasibətin pozulması **Karamzinin** mason adətlərinə qarşı olmasından və mason rəhbərlərinin istisnalarından

azad olması arzusundan irəli gəlir, bu həm də masonların ədəbi-bədii yaradıcılığa nüfuz etməsinə qarşı etirazından də irəli gəlirdi. Mason kimi **Karamzinin** maarifçiliyin ideoloji əsası olan sentimental cərəyanın ən parlaq nümayəndələrindən biri olaraq qalması mümkün deyildi.

Masonlarla maarifçi-sentimentallar arasında əsas fərqli məsələlərdən biri insan xüsusiyyətinin təbii əsasının metafizik məsələsidir. İlk günah haqqında ideyaya masonlar sadiq qalaraq insanı qəddar və günahkar hesab edirdilər. Mason nəşrlərinin birində deyilirdi: «insanın günahından irəli gələn cəza Allahın bütün canlılara… olan qəzəbindən yaranıb… və insan doğulduğu andan zalımdır».[64] Sentimentalistlər isə maarifçilərə bənzər, insan xüsusiyyətinin xeyirxah əsasda qurulduğuna inanır. **Karamzin** «inanıram və həmişə inanacağam ki, xeyirxahlıq insana xasdır və o, xeyirxahlıq üçün yaranıb».[65]

İkinci mübahisəli mövzu «hissiyyata»a olan münasibət ayrılığı idi. Bu məsələ bizim elmdə müxtəlif cür açıqlanmışdır. **N.İ.Mordovçenko**, məsələn, mason yaradıcılığının sensualist əsasda olduğunu deyir. O yazır: «Əvvəllər hakim olan zəka ideyasının əvəzinə masonlar hissiyyat ideyasını irəli sürmüş və təbliğ etmişdilər».[66] Bu bəyanat faktlara uyğun deyil və masonların dünyagörüşü haqda düzgün olmayan təəssürat yaradır.

**A.V.Pozdneyev** əks nöqteyi-nəzərdən çıxış edir. O yazır: 1750-70-ci illər rus masonluğu üçün dvoryan liberalizmi xasdır, eyni zamanda idrak və rasionalist əxlaqı mövcud idi».[67] Bu vəziyyət masonların həm ədəbi fəaliyyətini, həm də epistolyar irsi tərəfindən təsdiq edilir.

İnsan idrakının ən ali formasını masonlar vəhydə, yəni Allahın köməyi ilə insanın həqiqətə yaxınlaşmasında görürdülər. Lakin vəhy onların sözünə görə çox az adama – peyğəmbərlərə və əsl din xadimlərinə gələ bilər. İkinci yerdə zəka durur. İdrakın ən aşağı və nakam forması hiss və duyğulardır.

Rus masonları arasında ən çox hörmət olunan **S.Martinin** əsərlərinə – **«Həqiqət və səhvlər haqqında»** kitabına nəzər salaq. Bu əsəri masonların özünəməxsus fəlsəfi, əxlaq və estetik ensiklopediyası hesab etmək olar. Kitab zəkanın yüksəldilməsindən və idrakın alçaldılmasından söhbət edir. Müəllif deyir: «İnsan iki hissədən: hissiyyatdan və zəkadan ibarətdir. Hissiyyat nə qədər qorxunc və nə qədər əngəllidirsə, həqiqətlə də ziddiyyətlidir».[68]

Sensualist fəlsəfənin çıxış vəziyyətinə əks olaraq **S.Martin** hissləri «fikirlərin mənşəyi kimi deyil, onun silahı kimi» görür. «Hissiyyatlı» və «zəkalı» idrak arasında süni maneə qoyur. Həqiqi idrak yalnız zəkaya uyğundur: «Hisslər yalnız əxlaqı çözümləyə bilər, zəka isə hisslərin anlaya bilmədiyi zəkalı fikirləri araşdırır». **S.Martinin** poeziya haqqında söylədikləri də qətidir. «…insanların şəninə söyləmək günahdır, ehtirasa şövq

vermək bütpərəstlikdir… onun məqsədi … insanların mənşəyini göstərməkdir.[69]

Beləliklə, nəinki vətəndaşlıq, eyni zamanda intim lirika da rədd edilir, istisna yalnız dini poeziyaya edilir.

**Karamzinin** dostu **A.A.Petrov** 1789-cu ildə mistik mövzuda olan «**Xrizomander»**[70] adlı kitab tərcümə və nəşr etmişdir. O, burada mason ideologiyasına uyğun aşağıdakı epiqrafı vermişdir: **(zəka – əşyaların hökmdarı, təbiət – anasıdır. Əşyaları o qurur, zəka isə onları idarə edir).** Əlbəttə, söhbət təbiətə harmoniya və nizam gətirən ali ilahi zəkadan gedir.

Zəkanın yüksəldilməsi və duyğuların, hissi idrakın alçaldılması, rus masonlarına da xarakterikdir. «Şüur və ağıl sizin işlərinizi, idrakınızı, hərəkətlərinizi və bütün əməllərinizi idarə edir».[71]

«**Tövbə edən əməkçi**» jurnalında oxuyuruq: «Axşam üfüqü» qətiyyətlə, zəka insanın emosional həyatını əks edən «qəlbə» nəzərən imkanlarını mədh edir. İnsanın həyatı 3 hissədən ibarətdir: 1) bədən, 2) qəlb, 3) ruh. Qəlb və ruh arasında fərq çox böyükdür… qəlb cismanidir, ruh ölməz, görünməzdir… Bizim qəlbimiz ağılla və müdrikcəsinə bir çox həqiqətləri fikirləşir».[72]

Bütün bunlar **İohan Masonun** yazdığı adama çox yaxındır. O bildirir: «İnsan üç müxtəlif hissədən ibarət olub, mürəkkəb bir məxluqdur – bioloji və ya məhv ola bilən cism, heyvani və hissiyyata malik olan qəlbdir, ölməz və fikirlərdən ibarət ali ruhdur».[73] Başqa sözlə, «Hissiyyat», «qəlb» insana yalnız masonların nifrət bəslədikləri fani dünya haqqında təsəvvürlər yaradır. İlahilik isə yaradıcı fikrin məcmusudur və ona görə onu dərk etmək, xoşbəxtliyə çatmaq yalnız bütün maddilikdən azad olan şüura, insan fikrinə mənsubdur. **N.İ.Mordovçenko** masonların dini dünyagörüşünü «qəlbin dini» adlandırırdı. Əlbəttə ki, bu yanlış fikirdir. Bizim qarşımızda özünəməxsus rasionalist teologiya durur. Təsadüfi deyil ki, **Novikovun** dostu **S.İ.Qamaley** beş duyğunu «tor» adlandırır ki, inanın ruhunu dolaşdırıb və «qula çevirib». O deyir: «İnsanın ölməz ruhu duyğu və hisslərlə düyünlənib, yerin təbiətinə bağlanıb. Mason **N.N.Trubetskoy** nifrətlə sensualist fəlsəfə dünyagörüşü haqda yazır və «qəlbin hissiyyatdan yüksəyə qaldıra bilməyən və heyvan cərgəsində qalan insanlar fikirləşirlər ki, hisslərə və onlardan asılı olan hadisələrə arxalanaraq fikirlər yürüdür, filosof olmaq istəyirlər».

Beləliklə, mason ədəbiyyatına aid olan **rassionalizm** onu əsası sensualist fəlsəfə olan sentimentalizmdən ayıran sərhəddə çevrilmişdir. Bəzi tədqiqatçılar mason və sentimentalist ədəbiyyatı yaratmağa çalışmışlar. Bu da insanın daxili aləminə olan ümumi marağından irəli gəlir. Belə ki. masonluq Rusiyada sentimentalizmə nisbətən daha tez yaranmışdır. Buradan da

masonluğun sentimental ədəbiyyata təsiri aydın olur. Lakin masonluq psixologiyası «sentimentalist» psixologiyadan fərqləndiyinə görə bu fikir düzgün deyil. «Ruhun» inkişafını müşahidə etmək masonlar üçün özünəməxsus dini praktik məsələdir ki, sonda «Ruhun» günahlardan təmizlənməsi və axirət həyatına hazırlanması məqsədini güdür. **İohan Masonun** kitabında bu məqsəd xüsusilə vurğulanır. Müəllif bildirir ki, insanın öz-özünü dərk etməsi böyük əxlaqi məsələdir.

Qeyd etmək lazımdır ki, masonların günahlar haqqında fikirləri klassik ədəbiyyatdakı ehtiraslar nəzəriyyəsi ilə açıq-aşkar üst-üstə düşür. Klassiklərə oxşar, mürəkkəb olmayan istirablar, ziddiyyətlər axınını əks etdirir. İnsan iradəsinin hansısa ehtirasdan ibarət olduğunu göstərən masonlar deyir ki, günah insan təbiətinə aid olan bir şeydir. Mason xüsusilə bu fikri təsdiq edir. O yazır: «İndi, daha çox şamani günahlara, natəmizliyə, tənbəlliyə, iradəsizliyə, digərləri isə əksinə, mənəvi günahlara: qürur, qəzəb, paxıllıq, xəyanət, nifrət, intiqam və s. batır».[74] Bu haqda Qamaley də yazır. **Qamaley** şəhvəti özünün ən böyük günahı hesab edir.[75] Belə ki, onun sözlərinə görə qarınquluqdan şikayət edən **İ.P.Turgenev** bu günaha uğurla qalib gəlmişdir.

Günahkar qəhrəmanlara klassik münasibət mason dövrü nəşrlərində tez-tez rast gəlinir. Orada insan bütünlüklə, ona hakim olan ehtirasla müəyyənləşirdi: «…Lakin sən gecə-gündüz tər tökərək var-dövlət yığırsan… Xudpəsənd, sənin ləyaqət üstündə həyatını qurban verməyinin xeyri yoxdur… Şəhvət sevən, ləzzəti yalnız heyvanabənzər rahatlıqda taparaq öz-özünü aldadırsan». [76]

Ehtiras üzə çıxdıqdan sonra onunla mübarizə başlayır. Bu çarpışmada əsas qüvvə insanın iradəsidir ki, masonlar onun haqqında tez-tez danışır və ona mənəvi həyatda böyük rol verirlər: **«Axşam üfüqü**» yazır: «İradə dedikdə biz ruhun qüdrətini nəzərdə tuturuq.[77] Qamaley əmin edir ki, «Hər şey insanın iradəsindən asılıdır»[78]. Beləliklə, insanın əxlaqı onun özü ilə ardıcıl dönməz mübarizədədir. Xaricdən bu bizə bir çox klassik tragediyaları xatırladır. Borc və ehtiras arasındakı mübarizə və fərq ondadır ki, klassiklərdə borc vətəndaşlıq vəzifələri kimi başa düşülür. Masonlarda isə əxlaqın qalib gəlməsi insanı cənnətə hazırlayır.

Öz üzərində fasiləsiz analiz, refleksiya masonları xarici aləmin sonsuz rəngarəngliyinə qarşı etinasız edir. İnsan xarakterlərinin və milli mədəniyyətlərinin, tarixin, incəsənətin, təbiətin müxtəlifliyi belə görünür ki, onların maraq dairəsindən yan keçir. Bu cəhətdən **Radişev** və **Karamzinin** dostu **Kutuzovun** bioqrafı **E.İ. Tarasov** tərəfindən yazılmış portreti çox xarakterikdir.

Müəllifin yazdığına görə **Kutuzov** «Düşünən insandır. O, sözsüz ki, daxili aləmini mistisizmə yönəltmiş filosofdur. O, daim öz fikirləri ilə mübarizə aparır, orada zibili və alaq otları axtarır. Özünü, ruhunu, idrakını təkmilləşdirmək onun əsas məqsədidir».[79] **E.İ.Tarasov** ədalətlə qeyd edir ki, **Kutuzovun** məktublarında faktiki məzmun qıtlığı və mücərrəd fikirlər çoxluğu vardır. Lakin bu cizgi daha çox **Kutuzova** deyil, ümumiyyətlə, bütün masonlara xasdır.

Ömür yolunu əks edən materiyalardan belə bir kasıbçılığa malik ən mehriban və humanist martinistlərdən biri olan **Qamaleyin** məktubları fərqlənir. Onun 3 cildlik əsəri yalnız əxlaqi nəsihətlərdən və müqəddəs kitablardan götürülmüş sitatlardan ibarətdir. Bunlara əsasən müəllifin nə özünü, nə də ünvanlanmış adamları təsəvvür etmək olmur. Epistolyar irsin mənşəyi xarakterləri, əşyaları, açıq-aydın kənarlaşdırılmış, adlar naməlum Ə.D. (əziz dost) ilə əvəz olunmuşdur. Diqqət mərkəzində qeyri-cismani, çəkisiz – ruh, günah və nəsihət durur.

İnsan həyatın maddi dünyasına diqqətsizlik masonların yalnız məktubları ilə deyil, həm də onların jurnalları ilə xarakterizə olunur. **«Səba işığı», «Axşam üfüqü», «Tövbə edən əməkçi»** əsasən fəlsəfi-əxlaqi – məqalələrdən təşkil olunmuşdur (onların çoxu çevrilmələr idi). Bir çox povestlər adətən öz-özünü tərbiyə xarakteri daşıyırdı.

Bədii ədəbiyyat yalnız dini mövzuda olan əsərlərin tərcümələrindən ibarət idi **(Yunqun «Gecə düşüncələri», Hesnerin «Avelin ölümü», Klopştokun «Messiada»sı).**

Beləliklə, masonlar üçün öz-özünü tanımaq, xarici aləmi unutmaq, tərkidünyaya, psixoloji cəhətdən özünü təkmilləşdirməyə çəkilmək idi. **Karamzini** belə daim özünü təkmilləşdirmə çox yorurdu. O, yeni təəssüratlar, yeni faktlar, oxuduğu kitabların müəllifləri ilə görüşlər axtarırdı. Dünyanı tanımaq və özünü tanımaq onun üçün eyni prosesin iki tərəfi idi. «Bizim gözümüz elə yaranmayıb ki, özümüzü güzgüsüz görək. Bizim «Mən»imiz də özünü yalnız digərinin «Sən»ində görə bilər. Həyat hissi, öz «Mən»inin tanınması, qəlb tərəfindən yalnız bizdə olmayan əşyalar və hadisələrin vasitəsilə öyrənilə bilər».[80] **Lafaterin** bu sözləri **Karamzinə** çox böyük təsir etmiş və onları özünün **«Rus səyyahının məktubları**»nda[81] təkrar etmişdir. Onun səyahətini bu sonuncu cümlə əks edir: «Öz məktublarımdan birini oxuyuram: Son on səkkiz ilimdə qəlbimin güzgüsü bax bunlardır».[82]

**Karamzinin** fikrincə insan özünü yalnız digər adamlarla münasibətdə tanıya bilər. O əzab çəkə bilər, əgər yanında bədbəxt görsə, sevinə bilər, xoşbəxtə rast gəlsə, gözəllikdən həzz alar və sənətinə tətbiq edər, onu təbiətdə

hiss etsə, Ruhun simlərini oynatmaq üçün onları hərəkətə gətirmək lazımdır. Onda bu musiqi bizi əhatə edən dünyaya çevrilir. Təəssüratlar nə qədər rəngarəngdirsə, daxili aləm də bir o qədər zəngindir.

**Karamzinin** səyahəti, xüsusilə də **«Moskva jurnalı»**ndakı təəssüratları masonlar tərəfindən məzəmmətlə qarşılanırdı. **Kutuzov** deyir: «Xahiş edirəm inanın ki, dağlar, çaylar, göllər, dənizlər və ən gözəl landşaft belə mənim səyahətimin əsası deyil».[83] Müəllif burada tamamilə səmimi idi, belə ki, onun xaricə səyahəti xaraktercə **Masonun** sözlərinə yaxındır. Mason yazırdı: «Çoxu dağların ucalığına, coşğun dənizin dəli dalğalarına, çayın sürətli axınına, dənizin qucaqladığı sahilə, ulduzların dövr etməsinə heyran olub çox vaxt özlərini unudurlar…»[84].

Beləliklə, **Kutuzov** tərəfindən **Karamzinin** ünvanına söylədiyi ehkamlardan biri aydın olur: «O, xarici xaricdən təsvir etməkdən başqa bir şey yaza bilmir».[85] Xarici aləm dedikdə insanın daxili aləminə aid olmayan, insanı xaricdən əhatə edən və masonların fikrinə görə insanı əsl məqsəddən ayıran hər bir şey başa düşülür. **İ.Mason** yazır: «Mən çoxlu və çoxmənalı jurnallar oxumuşam, amma onların heç biri məni ağıllı etməmişdir». **Karamzin** bu tünd monastr təbiətli fikirlə razılaşa bilmir və öz jurnalında səyahətini tərifləyərək yazır: «Ey mənim dostlarım, bir yurddan başqa yurda getmək, yeni-yeni şeylər öyrənmək, qəlbimizi yeniləşdirmək və insan tərəfindən qiymətləndirilməyən, insanı yer üzünün hökmdarı adlandıra bilən azadlığı hiss etmək necə də gözəldir və xoşbəxtlikdir… səyahət qəlbimiz və ruhumuz üçün qida verir. Hipoxondrik, səyahət et ki, öz hipoxondriyandan müalicə alasan! Mizantrop, səyahət et ki, insanları sevəsən! Kim bacarırsa, səyahət etsin!»[86] **Karamzin** masonlarla gizli mübahisəyə girmişdi. Belə ki, məhz onlar onun səyahətə çıxmasına qarşı idilər və onun bu addımını düşünülməmiş hərəkət adlandırırdılar. Mübahisə tamamilə məlum ünvanlara malikdir: «Dostlar» deyə müraciət edən müəllif **Pleşev, Lapuxin, Trubetskoy** qardaşları, **Boqrianski** və başqa Moskva martinistlərini nəzərdə tuturdu. Maarifçilər və sentimental ədəbiyyatçılar arasında mübahisənin səbəblərindən biri də təbiətə olan şəxsi münasibət idi. Masonlar təbiəti özünün qaməti, məqsədyönlüyü və tələbi ilə mürəkkəb bir mexanizm kimi qəbul edirdilər. Təbiətin harmoniyası ağıla qida verir və ali zəkanın olmasını təsdiq edən ən əminedici dəlildir. «Gözlərimizi hara dikiriksə, hər yerdə, göyə baxırıq dərd-qəm, ətrafa nəzər yetiririk əclafları görürük. Hər yerdə bizə ali ruhun varlığı haqqında fikrin hakimliyi əhəmiyyəti aşkara çıxır»[87] – deyə mason jurnallarının birindəki məqalədə yazılır.

Fundamental əsərlər arasında, xüsusilə masonlar arasında yerləşdirilən XVI əsrin sonu – XVII əsrin əvvəllərində yaşamış **İoan Arndtın çoxcildli «Əsl**

**xristian haqqında»** əsəri tez-tez yada salınır. 1784-cü ildə bu kitab **İ.V.Lapuxinin** mətbəəsində çap olunmuşdur. Əsərin birinci bölməsi təbiətin inkişafından insanın Allaha yaxınlaşması fikri açıqlanır. Əgər qeyd etdiyimiz məqalələrdə söhbət Allahın varlığının sübut olunması haqqında yazılırdısa, Arndt bu məsələni saxlayaraq Allahın sirrini açıqlamağa çalışır. Onun fikirləri sadəlövhcəsinə Allahın təbiətlə eyniləşdirilməsi üzərində qurulub. Bibliyaya əsasən Allah təbiəti yaradarkən ilk növbədə işığı zülmətdən ayırdı. Belə ki, o özü işıqdır. İşığın mənbəyi günəşdir ki, o da yaradır və isidir, beləliklə də o, yaradıcı mənbədir. Səmanın təmizliyi və bakirəliyi də Allahın işıqlı və mənəvi varlığından xəbər verir. Zəmilərdəki məhsul Allahın yer məxluqlarına olan məhəbbəti və qayğısından irəli gəlir. Səma cisimləri olan kometalar, ay və günəş tutmaları onu göstərir ki, nəinki insanları sevir, hətta onları etdikləri hərəkətlərinə görə cəzalandırır.

Demək olmazdı ki, təbiətin dahiyanə əsərləri **Karamzinin** Allah haqqında fikirləri ilə üst-üstə düşmür. Belə əhval-ruhiyyə «**Rus səyyahının məktubları**»nda[88] , həm də onun povestləri var. Lakin **Karamzin** təbiətə olan münasibətini qeyri-mürəkkəb və ağıllı mexanizm kimi görürdü. Gözəlliyi, rəngləri, səsləri və iyləri isə təbiətin hissləri və duyğuları kimi qəbul edirdi ki, bu da mason ədəbiyyatında qəbul olunmurdu. Karamzinin bu səmimi baxışları masonlar tərəfindən düzgün şərh olunmur və o, nə az-nə çox «antivətənpərvər» adlandırılırdı.[89]

**Karamzin** təsvirlərini heç zaman yığcam və duyğusuz əks etdirmirdi. Təbiət və hisslər onun yol qeydlərində ümumi komponenti idi. Belə ki, Elbanın sahillərini günəşin qürubu zamanı əks edərək səyahətçinin ruhi vəziyyətini əks edir: «Mən tamaşa edirdim və zövq alırdım, baxırdım, sevinirdim və göz yaşları axıdırdım».[90] Baxın, o, Alp dağları yüksəkliklərindən birinə qalxıb və onun ürəyində «sevinc yaranıb». Maynsa yaxınlaşaraq «Ulu Reyni görüb, onun sahillərini örtən üzümlüklərə tamaşa edərək əlavə edir: «Əziz dostlar, ürəyim necə də sevinclə döyünür!»[91]

Beləliklə, **Karamzinin** mason cərgələrindən getməsinin bir sıra səbəbləri var idi. Onun üçün mason adətləri və onları əhatə edən sirrlilik yad idi, mason «qardaşlarının» mənəvi qəyyumluğu onu sıxırdı. Lakin ən əsası onda idi ki, masonların fəlsəfi görüşləri və estetik zövqləri sentimentalizmin əsasını təşkil edən maarifçilik prinsipləri ilə ziddiyyət təşkil edirdi. **Karamzin** açıq-aşkar bunu başa düşürdü və 1789-cu ildə qəti və birdəfəlik masonlarla əlaqəni kəsmişdi.

Mason ədəbiyyatının sentimentalizmə düşmən mövqeyi və yadlığı **Karamzin** yaradıcılığında, həm də onun yaşlı müasiri – **M.M.Xeraskovun** da ədəbi fəaliyyətində əks olunur.

**Karamzindən** fərqli olaraq **Xeraskov** əvvəllər (1779-dək) mason deyildi. Buna görə də onu rus sentimentalizminin banilərindən biri olaraq

qəbul edirlər. O, **«Yenilər», «Fəlsəfi odalar», «Venesiya rahibləri», «Bədbəxt dostlar», «Qovulanlar»** kimi əsərlərin müəllifidir. Xeraskovun masonluğa daxil olmasından sonra onun yaradıcılığı və xarakteri dəyişir və faktiki olaraq sentimentalizmindən aralanır. Onun bu illərdə yazdığı ən məşhur əsərləri həcmcə iri olsa da, bədii cəhətdən dəqiqliyinə görə fərqlənirdilər: **«Zühur etmiş Vladimir»** (1785), **«Zəvvarlar və ya xoşbəxtlik axtaranlar»** (1795), **«Baxarmana»** (1803), «**Kadma və harmoniya**» (1787), **«Polidor, Kadma və harmoniyanın oğlu»** (1792).

Masonların maddi və mənəvi dünyanın müxtəlifliyininə laqeydliyi, fikirlərin dini-əxlaqi problemində cəmlənməsi Xeraskovun yaradıcılığına dağıdıcı zərbə vurdu. Onun bu dövr əsərlərində demək olar ki, eyni mason-insan ruhunu məhv edən günah və səhvlərdən qurtulması hadisəsi əsas mövzudur. Poema və romanların süjetləri tamamilə xarici və nisbi ətrafı əhatə edir ki, bununla da yazıçının əsas janrı olan alleqoriya – masonların sevimli bədii üsulu olur.

**Xeraskovun** özü isə «**Vladimir**» poemasının üçüncü nəşrinə yazdığı girişdə yaradıcılığının bu xüsusiyyətinə diqqət yetirməyi tövsiyə edir. O yazırdı ki, bununla da «diqqətli insan həqiqət yolu ilə tamahlarla dolu dünyanı səyahət edərək çoxlu imtahanlarla üzləşir…, irsi ehtirasları ilə mübarizə aparır, … və yenidən dünyaya gəlir»[92] Vladimirin bu fikirlərindən sonra əsərin motivi dini-əxlaqi məna kəsb etməyə başlayır.

Əsərdən əsərə keçdikcə, xarici, demək olar ki, ideyanın yalnız kitab mövzusu dəyişir**. Xeraskovun** yeni şer üslubları axtarışı da onun poemalarını xilas edə bilmir: **«Zəvvarlar», «Rusiya», «Baxariana»** şerlərini göstərmək olar.

Doğrudur, bir çox masonlardan fərqli olaraq **Xeraskov Karamzinin** «**Moskva jurnalı**»na və onun sentimentalist əsərlərinə mülayim yanaşırdı, lakin onun öz ədəbi yaradıcılığı **A.V.Zanadovun** qeydlərinə əsasən «qeyri-adi mətinlik nümayiş idi», «ilham pərisi» isə dünyaya baxışından zövq almırdı».[93]

Masonlarla əlaqəni kəsənə qədər və kəsdikdən sonra **Xeraskovun** yaradıcılığına **Karamzinin** qiymət verməsinin müxtəlifliyi diqqəti cəlb edir. Mason olaraq **Lafaterə**[94] ünvanlanmış məktublarının birində **«Vladimir»** poemasının adını çəkərək rus söz yaradıcılığının ən gözəl əsərlərindən biri kimi qiymətləndirir, hətta «Rusiya»dan da üstün tutur. Sonralar **«Moskva jurnalı»nın** da **Karamzin «Kadma və harmoniya»** əsərinə resenziya çap etdirir. Bu rəy mülayim olsa da, romanın qiymətləndirilməsi heyranedici deyil. O yazır: «Kadmanın müəllifi öz düşüncələrini gözəl mifoloji fonda çatdırmaq istəsə də, belə gözəl əsər ola bilməz. Kadmanı oxuyarkən, çox yerlərdə fikirləşmək olar ki,

burada yenilik çoxdur, bu da həmin dövr üçün təzad təşkil edir».[95] Özünəməxsus uzaqgörənliklə **Karamzin Xeraskovun** romanında mason ideyasının antik süjetə zorla bağlanmasını aşkar etmişdir.

**Xeraskovun** bu əsərinə verdiyi rəy masonlar tərəfindən bağışlanmaz özbaşınalıq kimi qiymətləndirilir. **«Ona elə gəlir ki, artıq o, müəllifdir və böyük yazıçılardan biridir… və hətta Kadmaya resenziya verməyə cəsarət etmişdir**»[96] – deyə əsəbiliklə **Trubetskoy Kutuzova** yazır. **Karamzinə** gəlincə isə, o bu zaman artıq dünənki laqeyd idi və ədəbiyyatda inamla öz xüsusi yolunu qoymağa başlamışdır.

**Rus masonluğuna dair əsas tədqiqat əsərləri:**


1. **Ə.L.Barskov**. Perepiska moskovskix masonov XVIII veka. 1780-1792 qq. Pq., 1915; **Q.V.Vernadskiy.** Russkoe masonstvo v üarstvovanie Ekaterinı II. «Uç. zap. istor.-filol. f-ta SPb. Un-ta», t.CXXXVII. Pq., 1917; **Masonstvo v eqo proşlom i nastoəhem, tt. I-II. M., 1914-1915; A.N.Pıpin.** Russkoe masonstvo (XVIII i pervaə çetvertğ XIX veka). Pq., 1916; **T.O.Sokolovskaə**. Russkoe masonstvo i eqo znaçenie v istorii obhestvennoqo dvijeniə (XVIII i pervaə çetvertğ XIX stoletiə). SPb., 1908; **V.Boqolöbov**. N.İ.Novikov i eqo vremə. M., 1916.

2. Bax: **Q.P.Moqonenko**. Nikolay Novikov i russkoe Prosvehenie XVIII veka. M.-L., QİXL, 1951, str.284-285.

3. Eyni əsər, s. 286.

4. Bax: **Ö.M.Lotman**. Soçusvstvennik Radişeva A.M.Kutuzova i eqo pisğma k İ.P.Turqenevu. «Tr. Po russkoy slavənskoy filoloqii. Uç. Zap. Tartuskoqo un-ta», 1963, vıp. 139, ç.VI, str.286.

5. **Q.V.Plexanov**. Literatura i gstetika, t.2. M., QİXL, 1958, s.112.

6. **N.D.Koçetkova**. İdeyno-literaturnıe poziüii masonov 80 –90-x qodov XVIII veka i N.A.Karamzin. V sb.: «Russkaə literatura XVIII veka. Gpoxa klassiüizma». M.-L., Nauka, 1964, s.177-178.

7. «Russkiy arxiv», 1875, ç.III, str.81.

8. «Plaç Gduarda Önqa», ç.II, SPb., 1875, str.37.

9. Eyni əsər, ç.I, str.283-284.

10. Eyni əsər, str.54.

11. Eyni əsər, str.133.

12. Eyni əsər, str.372.

13. «Moskovskoe ejemesəçnoe izdanie», 1781, ç.II, str.253-254.

14. «Utrenniy svet», 1779, ç.6, avqust, str.297.

15. «Veçernəə zarə», 1782, ç.1, str.61.

16. «Pokoəhiysə trudolöbeü», 1785, ç.IV,str.229.

17. **N.K.Piksanov**. Masonskaə literatura». «İstoriə russkoy literaturı», t.IV, ç.II, M-X., İzd-vo AN SSSR, 1947, str.57.

18. **Ə.L.Barskov**. Perepiska moskovskix masonov XVIII veka, str.200.

19. **P.N.Sakulin**. Russkaə literatura, ç.II. M.,1929, str.337.
20. **Q.P.Moqonenko**. Nikolay Novikov i russkoe Prosvehenie XVIII veka. M., QİXL, 1951, str.290.
21. «Uç. zap. Kaz. qos. un-ta», 1969; t.128, kn.4, str.81.
22. **Hans Rothe.** N.M.Karamzins europäische Reise. «Der Beginn der russischen Romans», Berlin – Zürich, 1968, s.26.
23. **V.V.Sinovskiy**. Karamzin – avtor «Pisem russkoqo puteşestvennika», SPb., 1899, str.116.
24. «Russkaə literatura XVIII veka. Gpoxa klassiüizma». M.-L., İzd-vo AN SSSR, 1964, str.195.
25. **E.Tarasov**. K istorii masonstva v Rossii. Zabıtıy rozenkreyüer A.M.Kutuzov. SPb., 1910, str.30.
26. **T.Sokolovskaə**. Russkoe masonstvo i eqo znaçenie v istorii obhestvennoqo dvijeniə. SPb., (II ç.), str.29.
27. «Plaç Gduarda Önqa», ç.I, str.170.
28. «Perepiska Karamzina s Lafaterom». «Zap. İmperatorskoy Akademii Nauk», t.73, №1. Prilojenie. SPb., 1893, str.6.
29. «O proisxojdenii zla, pogta velikoqo Qallera». M., 1786, str.56-57.
30. Eyni əsər, s.30.
31. «Pisğma N.M.Karamzina k İ.İ.Dmitrievu», SPb., 1866, str.3.
32. Eyni əsər, s.7-8.
33. Utrenniy svet», 1779, ç.7, str.73.
34. «Detskoe çtenie dlə vkusa i razuma», 1789, ç.XVIII, str.163.
35. «Detskoe çtenie», str.161.
36. **V.V.Sinovskiy**. N.M.Karamzin – avtor «Pisem russkoqo puteşestvennika», str.136.
37. Detskoe çtenie», 1789, ç.XVIII, str.177.
38. **Ə.L.Barskov**. Perepiska moskovskix masonov XVIII veka, str.195.
39. «Detskoe çtenie», 1789, ç.XVIII, str.178.
40. Eyni əsər, s.186.
41. «Utrenniy svet», 1779, ç.1, oktəbrğ, str.169.
42. Eyni əsər, s.170.
43. «Veçernaə zarə», 1782, ç.11.
44. «Detskaə çtenie», 1789, ç.XVIII, str.187.
45. Eyni əsər, s.190.
46. **M.P.Poqodin**. Nikolay Mixayloviç Karamzin po eqo soçineniem, pisğmam i otzıvam sovremennivov, ç.1. M., 1899, str.68-69.
47. **Ə.L.Barskov**. Perepiska moskovskix masonov XVIII veka, str.30.
48. **M.P.Poqodin.** Nikolay Mixayloviç Karamzin po eqo soçineniem, pisğmam i otzıvam sovremenniov, ç.1. M., 1899, str.171.
49. **Ə.L.Barskov**. Perepiska moskovskix masonov XVIII veka, str.49.
50. Eyni əsər, s.89.
51. Eyni əsər, s.89.

52. Eyni əsər, s.94.
53. Eyni əsər, s.70-71.
54. Eyni əsər, s.72.
55. Eyni əsər, s.111.
56. «Moskovskiy jurnal», 1791, ç.1, kn.3, str.281.
57. «Pisğma S.İ.Q.», izd.2-e, kn.1. M., M., 1836, str.50.
58. «Moskovskiy jurnal», 1791, ç.1, kn.3, str.338.
59. Eyni əsər, s. 338-339.
60. «Moskovskiy jurnal», 1791, ç.III, kn.1, str.61.
61. «Moskovskiy jurnal», 1791, ç.IV, kn.2, str.205.
62. «Moskovskiy jurnal», 1791, ç.V, kn.2, str.236.
63. «Moskovskiy jurnal», 1791, ç.V, kn.2, str.253.
64. «Veçernaə zarə», 1792, ç.1, str.89.
65. **N.M.Karamzin**. İzbr. soç., t.2. M., «Xudojestvennaə literatura», 1964, ctr.255.
66. **N.İ.Mordovçenko**. Russkaə kritika pervoy çetverti XIX v., str.19.
67. **A.V.Pozdneev**. Rannie masonskie pesni, t.VIII, Scando – Slovico, 1962,str.29.
68. «O zablujdeniəx i istine», M., 1785, str.193-194
69. «O zablujdeniəx i istine», s.491.
70. «Xrizomander», M., 1793.
71. «Pokoəhiysə qrudolöbieü», 1784, ç.1, str.10.
72. «Veçernəə zarə», 1782, ç.1, str.269, 283-284.
73. **«İonna Masona** A.M. Poznanie samoqo sebə», ç.1. M., 1783, str.18.
74. «**İonna Masona** A.M. Poznanie samoqo sebə», ç.1. M., 1783, str.71.
75. «Pisğma S.İ.Q.», izd.2-e, kn.1, str.81.
76. «Veçernəə zarə», 1782, ç.1, str.193.
77. «Veçernəə zarə», 1782, ç.II, str.52.
78. «Pisğma S.İ.Q.», izd.2-e, kn.1, str.
79. **E.İ.Tarasov**. K istorii masonstva A.M.Kutuzov. S.P.B., 1980, str.34.
80. «Perepiska Karamzina s Lafaterom», çtr.22-23.
81. «Moskvoskiy jurnal», 1791, ç.II, kn.3, str.292-293.
82. **N.M.Karamzin**. Pisğma russkoqo puteşestvennika. Ç.VI. M., 1801, str.388.
83. **Ə.L.Barskov.** Perepiska moskovskix masonov XVIII veka, str.57-58.
84. **«İonna Masona** A.M. Poznanie samoqo sebə», ç.II, str.5.
85. **Ə.L.Barskov**. Perepiska moskovskix masonov XVIII veka, str.100.
86. «Moskvoskiy jurnal», 1781, ç.IV. kn.1, str.51-52.
87. «Veçernəə zarə», 1782, ç.III, str.2; eyni zamanda baxın: «Poohrenie iskatğ boqa v proizvedeniəx prirodı», «Utrenniy svet», 1779, ç.7, str.84-87; «Çudesa, tvorimıe qospodom povsednevno», Yenə eyni yerdə, str.62-65; «Çuvstvovaniə posle qroma», «Detskoe çtenie», 1785, ç.II, str.205 və b.
88. «Moskvoskiy jurnal», 1792, ç.V, kn.1, str.43.

89**. Pisğma A.M.Kutuzova**. «Russkiy istoriçeskiy jurnal». Pç., 1917, kn.1-2, str.136.
90. «Moskvoskiy jurnal», 1791, ç.II, kn.2, str.172.
91. «Moskvoskiy jurnal», 1791, ç.III, kn.3, str.313.
92. **M.M.Xeraskov**. Vladimir M., 1809, str.11.
93. **A.V.Zapadov**. Tvorçestvo Xeraskova. Predislovie v kn.: M.M.Xeraskov. İzbr.proizv. L., «Sovetskiy pisatelğ», 1961, str.43.
94. «Perepiska Karamzina s Lafaterom», str. 20.
95. «Moskvoskiy jurnal», 1791, ç.1, kn.1, str. 80, 98-99.
96. **Ə.L.Barskov**. Perepiska moskovskix maosnov XVIII veka, str.95.

## Lev Nikolayeviç Tolstoy
# «HƏRB VƏ SÜLH»[1]

İkinci hissə

**Pyer** arvadı ilə olan söhbətindən sonra Peterburqa yola düşdü. Torjok stansiyasında at yox idi, bəlkə də vardı, stansiya müdiri vermək istəmirdi. **Pyer** gözləməli oldu. O, soyunmadan girdə masa qabağındakı meşin divan üstündə uzandı, uzunboğaz, isti çəkməli ayaqlarını masa üstünə qoyub fikrə getdi.

Stansiya müdiri içəri girdi və özü ilə bir nəfər də müsafir gətirərək dedi:

- Zati-aliləri, bax bu adam üçün azacıq narahat olmamağınızı xahiş etməyə cəsarət edirəm.

At olmadığından o da bu stansiyada qalmışdı. Müsafir gödəkboy, iri sümüklü, sarı, qırışıq üzlü bir qoca idi, parlaq və boz gözləri üstündən ağ qaşları sallanmışdı.

**Pyer** ayaqlarını masanın üstündən götürüb qalxdı və onun üçün hazırlanmış çarpayıda uzandı. O, hərdənbir müsafirə baxırdı; qoca isə Pyerə baxmadan qaşqabağını tökərək yorğun halda nökərin köməyi ilə ağır-ağır soyunurdu. O, əynindən köhnə və üzünə qədək verilmiş kürkünü, arıq, sümüyü çıxıq ayaqlarından isə keçə çəkmələrini çıxarmadan divanda oturdu, qısa, qırxılmış, çox böyük və gicgahlarına doğru enli başını divanın arxasına dayayıb **Bezuxova** baxdı. Bu baxışdakı ciddiyyət, zəka və diqqət **Pyeri** heyrətə saldı. O müsafirlə danışmaq istədi; yoldan söhbət açmaq istədikdə müsafir gözlərini yumdu, qırışmış əllərini bir-birinin üstünə qoydu; onun barmağında Adəmin başının şəkli olan böyük bir çuqun üzük vardı. Qoca hərəkətsiz oturmuşdu: o ya istirahət edirdi, ya da Pyerin zənn etdiyi kimi, nə barədə isə dərindən, sakitcə düşünürdü. **Pyer** ona baxıb gözünü çəkmək istəyirdi ki, birdən qoca gözlərini açdı, sərt və ciddi nəzərlərini düz Pyerin üzünə zillədi.

**Pyer** özünü itirərək üzünü yana çevirmək istədi, lakin qocanın parlaq gözləri onu böyük bir qüvvətlə özünə tərəf çəkdi.

Müsafir tələsmədən ucadan dedi:

---

[1] Əsərləri 14 clddə. 3-cü hissə, Hərb və sülh, 2-ci cild. Tərc. edəni Beydulla Musayev. B., Yazıçı. 1978. – s.76-99.

- Əgər səhv etmirəmsə, qraf Bezuxovla danışmaq şərəfinə nail olmuşam. – **Pyer** dinməzcə sualedici bir nəzərlə çeşməyin arxasından öz müsahibinə baxırdı.

Müsafir sözünə davam etdi:

- Cənab, mən sizin barənizdə və sizə üz verən bədbəxtliyi eşitmişəm. – O, «bədbəxtlik» sözünü xüsusilə qeyd etdi, bununla da sanki deyirdi: «Bəli, bədbəxtlik, siz nə ad qoyursunuz qoyun, mən bilirəm, Moskvada sizin başınıza gələn bədbəxtlikdir». – Çox təəssüf edirəm, cənab.

**Pyer** qızardı, cəld ayaqlarını çarpayıdan aşağı salladı, qeyri-təbii və ürkək-ürkək gülümsəyərək qocaya tərəf əyilərək bir də yeni tanış olduğu adamın əlinə baxdı, barmağındakı üzüyə yaxından diqqət etdi və mason əlaməti olan Adəmin başını gördü.

- İcazə veriniz soruşum: siz masonmusunuz?

- Bəli, mən azad bənnalar cəmiyyətinə mənsubam. – Müsafir **Pyerin** gözlərinə daha diqqətlə baxaraq cavab verdi. – Öz adımdan və onların adından qardaşlıq əlimi sizə uzadıram.

**Pyer** gülümsəyərək və masonlara mənsub bir şəxsin onda oyatdığı etimadla, masonların əqidəsinə qarşı duyduğu istehza arasında tərəddüd edərək dedi:

- Qorxuram, qorxuram ki, mən bu anlayışdan çox uzaq olam, necə deyim, qorxuram ki, mənim kainat haqqındakı fikirlərim sizinkilərə o qədər zidd olsun ki, bir-birinimizi başa düşməyək.

Mason:

- Sizin tərzi-təfəkkürünüz mənə məlumdur, - dedi. – Sizin bəhs etdiyiniz tərzi-təfəkkür, sizin fikri əmək məhsulu olduğunu zənn etdiyiniz tərzi-təfəkkür insanların əksəriyyətinə aiddir, özü də lovğalıq, tənbəllik və nadanlıq məhsuludur. Məni əfv ediniz, cənab, əgər mən sizin tərzi-təfəkkürünüzü yaxşı bilməsəydim sizinlə danışmazdım. Sizin tərzi-təfəkkürünüz başdan-başa səhvdir.

**Pyer** xəfifcə gülümsəyərək dedi:

- Eyni surətlə mən də deyə bilmərəm ki, siz də səhv içindəsiniz.

Mason sözünə davam etdi:

- Mən heç vaxt deyə bilmərəm ki, mən həqiqəti bilirəm. – Onun danışığındakı müəyyənlik və qətilik **Pyeri** get-gedə daha dərindən heyran edirdi. – Heç kəs təkbaşına həqiqətə çata bilməz; ulu atamız Adəmdən indiyə qədər hamının, milyonlarla nəsillərin iştirakilə daşı-daş üstə qoymaqla allah-təalaya layiq bir məbəd qurulmaqdadır. – Mason bu sözləri deyib gözlərini yumdu və bir şey düşünürmüş kimi xeyli susdu.

- Kömək ancaq allahdandır, - dedi, - lakin, cənab bizim cəmiyyət verə bildiyi köməyi sizdən əsirgəməyəcəkdir. Siz Peterburqa gedirsiniz, bunu qraf Villarskiyə verin (o, bumajnikini çıxardı və dörd qatlanmış böyük bir kağız vərəqinə bir neçə söz yazdı). İcazənizlə, sizə bir məsləhət verim. Paytaxta getdikdə bir müddət tək qalınız, özünüzü düşününüz və əvvəlki həyat tərzini qəbul etməyiniz. – Nökərin içəri girdiyini görüb dedi: - Sonra isə sizə yaxşı yol və müvəffəqiyyət arzu edirəm.

**Pyer** stansiya müdirinin dəftərinə baxıb bu müsafirin **Osip Alekseyeviç Bazdeyev** olduğunu bildi. Bazdeyev məşhur bir mason və hələ **Novikov** dövrünün martinistlərindən idi. İndi onun ürəyində keçmiş şübhələrdən əsər belə qalmamışdı. O, insanların bir-birinə kömək edib xeyirxahlıq yolu ilə getmək üçün birləşməsini, qardaş olmasını mümkün hesab edir və buna möhkəm inanırdı; masonluğu o belə təsəvvür edirdi.

## III

**Pyer** Peterburqa gəldikdən sonra, bu barədə heç kəsə xəbər vermədən, heç bir yerə çıxmadan, günlərlə oturub **Foma Kempiyskinin** kitabını oxumaqla məşğul oldu; bu kitabı kimin ona gətirdiyi məlum deyildi. Kitabı oxuyarkən **Pyer** ancaq və ancaq bir şey başa düşürdü: o, başa düşürdü ki, təkamülə varmağın və **Osip Alekseyeviç** dediyi kimi, insanlar arasında qardaşcasına və səmərəli bir məhəbbətin mümkün olacağına inanmaq böyük həzzdir, belə bir həzzi o hələ duymamışdı. **Pyer** Peterburqa gəldikdən bir həftə sonra axşamçağı Polşa qrafı gənc **Villarski** onun yanına gəldi; **Pyer** onu Peterburq məclislərində görmüşdü, üzdən tanıyırdı. Qraf, **Doloxovun** sekundantı kimi rəsmi və təntənəli bir əda ilə içəri girib qapını örtdü, otaqda Pyerdən başqa ayrı adam olmadığını yəqin etdikdən sonra oturmadan dedi:

- Qraf, mən sizin yanınıza tapşırıqla və təkliflə gəlmişəm. Cəmiyyətimizdə ən yüksək mövqedə duran bir şəxs sizin bu cəmiyyətə vaxtından əvvəl qəbul olunmanızı xahiş etmiş və mənə təklif etmişdir ki, sizin üçün zamin olum. O şəxsin arzusunu yerinə yetirməyi mən özümə müqəddəs borc bilirəm. Mənim zəmanətimlə azad bənnalar cəmiyyətinə daxil olmağı arzu edirsinizmi?

**Pyer:**

- Bəli, arzu edirəm, - dedi.

**Villarski** başını əydi.

- Bir sual da, qraf, bu suala gələcək mason kimi yox, bəlkə namuslu bir adam (galant homme) kimi tamamilə səmimi cavab vermənizi xahiş edirəm: əvvəlki əqidənizdən əl çəkmişsinizmi, Allaha inanırsınızmı?

**Pyer** fikrə getdi:

- Bəli… bəli, mən allaha inanıram.

- Elə isə… - **Villarski** nəsə demək istədi, amma **Pyer** onun sözünü kəsib təkrar etdi:

- Bəli, mən allaha inanıram.

- Elə isə biz gedə bilərik. Karetim qulluğunuza müntəzirdir.

**Villarski** yol uzunu dinmədi. **Pyer** soruşanda ki, mən orada nə etməliyəm, nə kimi cavablar verməliyəm, **Villarski** ancaq bunu dedi ki, cəmiyyətdə məndən daha ləyaqətli qardaşlar sizi imtahan edəcəklər və sizə doğru danışmaqdan başqa heç bir şey lazım deyil.

Mason lojası yerləşən böyük bir evin darvazasından içəri girdilər; qaranlıq pilləkənlə getdikdən sonra kiçik, işıqlı bir dəhlizə girdilər və burada xidmətçilərin köməyi olmadan xəz paltolarını çıxarıb o biri otağa keçdilər. Qapı ağzında qəribə geyimli bir adam göründü. **Villarski** onunla qarşılaşdıqda ona nə isə yavaşca fransızca dedi və kiçik şkafa yaxınlaşdı; bu şkafda **Pyer** ömründə görmədiyi paltarlar gördü. Villarski şkafdan bir yaylıq götürüb **Pyerin** gözləri üstünə qoydu, çəkib daldan düyünlədi; bu zaman onun saçı da düyünün arasına düşüb bərk incitdi. Sonra **Pyeri** özünə tərəf əyib öpdü və əlindən tutub hara isə apardı.

On addım getdikdən sonra **Villarski** dayandı.

- Əgər siz bizim cəmiyyətimizə daxil olmağı qəti qərara almışsınızsa, onda hər şeyə mərd-mərdanə dözməlisiniz (**Pyer** başını əyməklə razılıq cavabı verdi). Qapı tappıltısı eşitdikdə gözlərinizi açın. Sizə mərdlik və müvəffəqiyyət arzu edirəm. – **Villarski Pyerin** əlini sıxıb otaqdan çıxdı.

Tək qaldıqdan sonra da **Pyer** gülümsəməkdə davam edirdi. İki dəfə çiyinlərini sıxdı, gözlərini açmaq istəyirmiş kimi əlini yaylığa uzatdı qaldığı beş dəqiqə ona bir saat gəldi. Əlləri sustaldı, ayaqları əsməyə başladı; ona elə gəldi ki, yorulmuşdur.

O, ən mürəkkəb, müxtəlif hisslər keçirirdi. O, başına nələr gələcəyindən, xüsusilə qorxusunu büruzə verməsindən qorxurdu. Başına nələr gələcəyi və nələr öyrənəcəyi onu maraqlandırırdı; hər şeydən çox ona sevinirdi ki, nəhayət, **Osip Alekseyeviçə** rast gəldiyi zamandan bəri arzu etdiyi yeniləşmə yoluna və səmərəli, xeyirxah həyat yoluna düşmək vaxtı çatmışdır. Qapı bərk döyüldü. **Pyer** yaylığı gözündən açıb ətrafına baxdı. Otaq zil qaranlıqdı: ancaq bircə yerdə, ağ bir şeyin içində çıraq yanırdı. **Pyer** irəli gəlib gördü ki, çıraq qara bir masanın üstündədir; masa üstündə açıq bir

kitab da vardır. Bu kitab İncil idi; içində çıraq yanan ağ şey və bir insan kəlləsi idi; kəllənin göz deşikləri və dişləri görünürdü. **Pyer** İncilin ilk sözlərini oxudu: «İbtidada söz vardı, söz də allaha aid idi»; sonra masanın o tərəfinə keçdi, içi dolu bir qutu gördü. Bu sümüklə dolu bir tabut idi. Bu şeylər **Pyeri** heç də təəccübləndirmədi. Tamamilə yeni bir həyata, əvvəlki həyatdan tamamilə fərqli olan bir həyata girmək ümidində olan **Pyer** indi gördüklərindən daha qəribə şeylər görməyə hazırdı. Ona elə gəlirdi ki, o elə bu kəlləni, tabutu, incili görməli idi, hələ bunlardan da artığını gözləyirdi. Qəlbində riqqət hissi oyatmağa çalışaraq ətrafına baxırdı. «Allah, ölüm, məhəbbət, insanlığın qardaşlığı» – **Pyer** öz aləmində bu sözləri dumanlı, lakin sevincli təsəvvürlərlə bağlayırdı. Qapı açıldı, bir adam içəri girdi.

**Pyerin** artıq gözləri alışdığı zəif işıqlı otağa orta boylu bir adam girdi. Görünür ki, o, işıqlı otaqdan qaranlıq otağa girdiyi üçün dayandı; sonra ehtiyatlı addımlarla masaya yanaşıb dəri əlcəkli kiçik əllərini masanın üstünə qoydu.

Orta boylu adam ağ, meşin döşlük bağlamışdı; döşlük onun döşünü və ayaqlarının bir hissəsini örtmüşdü: onun boynunda boyunbağıya oxşar bir şey vardı. Boyunbağının üstündən görünən hündür, ağ yaxalıq aşağıdan işıqlanmış uzunsov üzünü çevrələmişdi.

**Pyerin** çıxardığı xışıltıya tərəf çevrilən bu adam soruşdu:

- Siz buraya nə üçün gəlmişsiniz? Ziyanın həqiqiliyinə inanmayan və ziyanı görməyən adam, siz buraya nə üçün gəlmişsiniz və bizdən nə istəyirsiniz? Hikmətmi, xeyirxahlıqmı, mərifətmi?

Qapı açılıb naməlum şəxs içəri girdiyi anda **Pyer** həm qorxu, həm də ehtiram hiss etdi: uşaqlıqda günahlarını etiraf edirkən o, belə qorxu və ehtiram hiss edərdi: o özünü, həyat şərtlərinə görə tamamilə yad, insanların qardaşlığı nöqteyi-nəzərindən isə yaxın bir adamla üz-üzə hiss etdi.

**Pyer** şiddətli bir ürək döyüntüsü ilə ritora (axtaranı masonlar cəmiyyətinə girməyə hazırlayan adama deyilir) yaxınlaşdı və onun Smolyaninov olduğunu gördü; lakin içəri girən adamın tanış olduğunu düşünmək ona təhqiramiz göründü: içəri girən ancaq bir qardaş və xeyirxah bir mürəbbi idi. **Pyer** xeyli danışa bilmədi, buna görə də ritor sualını təkrar etməli oldu.

Nəhayət **Pyer** güclə dedi:

- Bəli, mən… mən… yeniləşmək istəyirəm.

Smolyaninov tez sözünə davam edərək sakit və cəld dedi:

- Yaxşı, məqsədinizə çatmaq üçün müqəddəs cəmiyyətimizin hansı vasitələrlə sizə kömək edəcəyini bilirsinizmi?

- Mən… ümidvaram ki… yeniləşmək… üçün mənə… rəhbərlik… kömək… - **Pyer** həyəcandan və mücərrəd məfhumlar haqqında rusca danışmağa alışmadığından səsi titrəyərək çətinliklə cavab verdi.

- Siz frank-masonluq haqqında nə bilirsiniz?

- Mənə elə gəlir ki, frank-mason xeyirxahlıq məqsədilə insanların fraternitecu və bərabərliyidir – deyə **Pyer** danışdığı sözlərin bu təntənəli dəqiqəyə uyğun gəlmədiyindən utanaraq cavab verdi. – Mənə elə gəlir ki…

Ritor bu cavabdan tamamilə razı qalmış kimi tez dedi:

- Yaxşı. Siz öz məqsədinizə çatmaq üçün dinə müraciət etmisinizmi?

- Yox mən onu ədalətsiz hesab edir və ona müraciət etmirdim. **Pyer** bu sözləri elə yavaşdan dedi ki, ritor eşitmədi və nə dediyini soruşdu.

**Pyer** cavab verdi:

- Mən allahsız idim. – Ritor bir dəqiqəlik sükutdan sonra soruşdu:

- Siz həqiqəti ona görə axtarırsınız ki, həyatda onun qanunlarına riayət edəsiniz; demək, siz hikmət və xeyirxahlıq axtarırsınız, deyilmi?

**Pyer** onun sözünü təsdiq etdi:

- Bəli, bəli.

Ritor öskürdü, əlcəkli əllərini sinəsinə qoyub danışmağa başladı:

- İndi mən cəmiyyətimizin əsas məqsədini sizə açmalıyam; əgər bu məqsəd sizinki ilə düz gəlsə, o zaman siz bizim cəmiyyətimizə daxil olub xeyir verə bilərsiniz. Bizim cəmiyyətimizin binasını təşkil edən əsas məqsəd və heç bir insani qüvvə ilə sarsılmayan təməl, - mühüm bir əsrarı mühafizə etmək və bunu gələcək nəslə verməkdən ibarətdir… Bu əsrar ən qədim zamanlardan, hətta bəlkə birinci insandan bizə gəlib çatmışdır; bəşər nəslinin taleyi bəlkə də bu əsrardan asılıdır. Lakin bu əsrarda elə bir xassə vardır ki, əgər insan uzun zaman və çox səy ilə öz-özünü təmizləyərək bunu bilməz və ondan istifadə edə bilməz, buna görə də hər adam tez bir zamanda bunu tapmağa da arxayın olmamalıdır. Bunu nəzərə alaraq, bizim ikinci məqsədimiz də vardır; o da öz üzvlərimizi bu əsrarı tapmaq yolunda əziyyət çəkən kimsələrin əldə etdiyi vasitələrlə mümkün qədər öz qəlblərini düzəltməyə, fikirlərini təmizləməyə və maarifləndirməyə hazırlamaqdan ibarətdir, bununla da biz öz üzvlərimizdə bu əsrarı qəbul etmək qabiliyyəti əmələ gətiririk. Öz üzvlərimizi təmizləməklə və maarifləndirməklə biz üçüncü məqsədə can atmağa çalışırıq ki, o da bütün insan nəslini islah etməkdir; bunun üçün də onlara öz üzvlərimiz arasındakı möminliyi və xeyirxahlığı misal göstərməli və beləliklə də var-qüvvəmizlə dünyada hökm sürən şərə qarşı durmalıyıq. Bu barədə düşünün, mən yenə sizin yanınıza gələcəyəm. – Bunu deyib ritor otaqdan çıxdı.

Yarım saatdan sonra ritor **Pyerə** yeddi xeyirxahlığı söyləməyə gəldi; yeddi xeyirxahlıq da Süleyman məbədinin yeddi pilləsinə müvafiq idi, bunları hər bir mason özündə tərbiyə etməli idi. Xeyirxahlıqlar da bunlardı: 1) təvazökarlıq, cəmiyyətin sirrini saxlamaq 2) mason cəmiyyətinin ali məqamlarına itaət etmək 3) xoşrəftar olmaq 4) insanları sevmək 5) mərdlik 6) səxavət 7) ölümü sevmək.

Ritor əlavə etdi:

- Yeddincidə çalışınız ki, tez-tez ölüm barəsində düşünməklə özünüzü o məqama çatdırasınız ki, ölüm sizə qorxulu bir düşmən deyil, dost görünsün... elə dost ki, xeyirxahlıq zəhmətlərində əzilən ruhu bu fəlakətli həyatdan xilas edir, onu təsəlli və mükafat ilə doldurur.

- Ritor bu sözləri deyib **Pyeri** düşünmək üçün tək buraxıb getdikdən sonra o öz özünə: «Bəli, bu belə olmalıdır», - deyə düşündü, - bu belə olmalıdır, amma mən hələ o qədər zəifəm ki, öz həyatımı sevirəm, bu həyatın mənası isə mənim üçün ancaq indi yavaş-yavaş aydınlaşar».

Üçüncü dəfə ritor tez qayıtdı və **Pyerdən** yenədəmi öz fikrində möhkəm olduğunu və tələb ediləcək hər bir şeyi yerinə yetirməyə hazır olub-olmadığını soruşdu.

**Pyer** cavab verdi:

- Mən hər bir şeyə hazıram.

Ritor sözünə əlavə etdi:

- Bir də sizə xəbər verməliyəm ki, bizim cəmiyyətimiz öz təlimini ancaq sözlə vəd etmir, bunun üçün elə başqa vasitələrdən istifadə edir ki, həqiqi hikmət və xeyirxahlıq axtaranlara bu vasitələr bəlkə də sözdən daha qüvvətli təsir bağışlayır. Sizin ürəyiniz təmiz isə, bu məbəd öz bəzəyi ilə sizə sözdən daha çox şey deməli idi; siz belə izahatlara bəlkə yenə də rast gələsiniz. Bizim cəmiyyətimiz öz təlimlərini heroqliflər vasitəsilə izah edən qədim cəmiyyətləri təqlid etməkdədir. Heroqlif, hisslərimiz tərəfindən duyulmayan bir şeyin adıdır, bir şey təsvir edilən şeyin keyfiyyətinə malikdir.

**Pyer** heroqlifin nə olduğunu çox yaxşı bilirdi, ancaq danışmağa cürət etmirdi. O, dinməz-söyləməz ritora qulaq asır və bu saat imtahan başlanacağını hiss edirdi.

Ritor **Pyerə** yaxınlaşıb dedi:

- Əgər siz öz fikrinizdə möhkəmsinizsə, onda mən sizi məsələyə vaqif etməliyəm. Səxavət əlaməti olaraq bütün qiymətli şeylərinizi mənə vermənizi xahiş edirəm.

**Pyer** bütün var-dövlətinin tələb olunduğunu güman edərək:

- Yanımda heç bir şey yoxdur, - dedi.

- Üstünüzdə olan şeyləri: saat, pul, üzük.

**Pyer** cəld pul kisəsini, saatını verdi və ətli barmağından güclə nişan üzüyünü çıxardı. Bunlar qurtarandan sonra ritor dedi:

- İtaətkarlıq əlaməti olaraq soyunmağınızı xahiş edirəm.

**Pyer** ritorun göstərişi ilə frakını, jiletini və sol ayağındakı çəkməsini çıxardı. Mason onun köynəyinin sol döşünü açdı, sonra əyilib tumanının sol balağını dizindən yuxarıya qədər çırmaladı. **Pyer** bu tanımadığı adamı zəhmətdən qurtarmaq üçün tez sol ayağının da çəkməsini çıxarmaq, tumanının balağını çırmalamaq istəyirdi ki, mason: - «bunlar lazım deyil», - dedi və sol ayağına geymək üçün ona başqa bir ayaqqabı verdi. **Pyerin** üzündə uşaqcasına bir utancaqlıq təbəssümü, şübhə və iradəsindən asılı olmayaraq istehza görünürdü. O, əllərini yanına salıb, ayaqlarını bir-birindən aralı qoyaraq ritor qardaşın qabağında yeni əmrlərə müntəzir dayanmışdı.

Ritor dedi:

- Nəhayət, ürək açıqlığı əlaməti olaraq, xahiş edirəm, ən çox nəyə həris olduğunuzu açıb mənə söyləyəsiniz.

- Nəyə həris olduğumu? Mən çox şeyə həris olmuşam.

- O harisliyinizi deyin ki, o sizi xeyirxahlıq yolunda tərəddüd etməyə daha çox məcbur edirdi.

**Pyer** susaraq düşünməyə başladı.

«Şərabmı? Çox yeməkmi? Avaraçılıqmı? Tənbəllikmi? Hirslənməkli? Ədavətmi? Qadınmı?» – Pyer öz nöqsanlarını bir-bir sayır, onları xəyalında yoxlayır, hansına üstünlük verəcəyini bilmirdi.

**Pyer** güclə eşidilən bir səslə dedi:

- Qadın. – Mason bu cavabdan sonra xeyli tərpənmədi və susdu. Nəhayət **Pyerə** tərəf gəldi, masanın üstündəki yaylığı götürüb yenə də onun gözlərini bağladı.

- Axırıncı dəfə sizə deyirəm; bütün diqqətinizi özünüzə verin, öz hisslərinizi buxovlayın, xoşbəxtliyi ehtiraslarda deyil, öz qəlbinizdə axtarın. Xoşbəxtliyin mənbəyi xaricdə deyil, bizim öz daxilimizdədir…

**Pyer** artıq bu xoşbəxtliyin ruh təzələyən, qəlbini sevinc və riqqətlə dolduran mənbəyini özündə hiss edirdi.

## IV

Bir az sonra kiçik məbədə, **Pyerin** yanına, əvvəlki ritor deyil, **Pyerin** zamini **Villarski** gəldi, **Pyer** onu səsindən tanıdı. **Villarski Pyerin** öz fikirlərində möhkəm olub-olmadığını bilmək üçün ona yeni suallar verməyə başladı. **Pyer** də ona:

- Bəli, bəli, razıyam, - deyərək cavab verir, uşaqcasına gülümsəyirdi; onun kök sinəsi açıqdı, bir ayağı yalın, bir ayağında çəkmə vardı; bu vəziyyətdə də o səndirləyə-səndirləyə, qorxa-qorxa yeriməyə başladı, **Villarski** də əlindəki siyrilmiş qılıncı onun açıq sinəsinə sarı uzadıb tutmuşdu. **Pyeri** otaqdan çıxardı, irəli və geri apararaq koridorda gəzdirdi, nəhayət loja adlanan otağın qapısı qabağına gətirdi. **Villarski** öskürdü; öskürək səsinə mason çəkicinin taqqıltısı ilə cavab verdilər. Qapı açıldı. Kim isə yoğun səslə ondan (**Pyerin** gözləri hələ də bağlı idi) kim olduğunu soruşdu; bundan başqa ona ayrı suallar da verdi. Sonra onu gözlərini açmadan yenə hara isə apardılar; onu gəzdirərkən, etdiyi səyahətin zəhmətindən müqəddəs dostluqdan, dünyanı yaradanın əzəli olmasından, zəhmət və təhlükə tələb edən mərdlikdən alleqoriyalar söylədilər. Bu səyahət zamanı **Pyer** başa düşdü ki, ona gah axtaran, gah əzab çəkən, gah da tələb edən adlandırırlar və bunlardan hər birini söylərkən çəkic və qılıncı başqa cür səsləndirirlər. Onu nəyə isə yaxınlaşdırırkən rəhbərlər arasında şaşqınlıq və həyəcan baş verdiyini duydu. Ətrafında olan adamların pıçıldaya-pıçıldaya öz aralarında mübahisə etdiklərini eşitdi: onlardan birisi **Pyerin** bir xalça üzərindən keçirilməsini təkidlə tələb edirdi. Bundan sonra onun sağ əlini qaldırıb nəyinsə üstünə qoydular, sol əli ilə də verilən pərgarı sol döşü üstə qoymağı tələb etdilər və mason cəmiyyəti qanunlarına sədaqətli olacağına and içdirdilər: bunun üçün də o bir başqasının kağızdan oxuduğu sözləri təkrar etdi. Sonra şamları yandırıb spirt yandırdılar. – **Pyer** bunu burnuna gələn iydən bildi, - və ona dedilər ki, indi sən az işıq görəcəksən. Gözlərinə bağlanan sarğını açdılar: **Pyer** sanki yuxuda, zəif spirt işığında bir neçə adam gördü; onlar da ritor kimi döşlük taxmış, **Pyerin** qabağında durub əllərindəki qılıncı onun sinəsinə doğru uzatmışdılar. Aralarında ağ köynəyi qana bulaşmış bir adam durmuşdu. **Pyer** bunu görüb qabağa yeridi ki, qılınclar onun sinəsinə batsın. Lakin qılıncları geri çəkdilər və dərhal yenə onun gözlərini bağladılar.

Kim isə ona dedi:

- İndi sən az işıq gördün.

Sonra yenə şamları yandırdılar, ona dedilər ki, indi sən çox işıq görəcəksən. Yenə də gözündəki sarğını açdılar və ondan artıq adam bir ağızdan bu sözləri söylədi: **sie transit gloria mundi**.[2]

**Pyer** yavaş-yavaş özünə gəlib otağa və orada olan adamlara nəzər salmağa başladı. Üstünə qara örtük salınmış uzun bir masanın ətrafında on iki adam oturmuşdu; bunlar da **Pyerin** əvvəl gördüyü adamlar kimi geyinmişdi.

---

[2] Dünyanın şöhrəti belə keçib gedir.

**Pyer** onlardan bəzisini Peterburqdakı cəmiyyətdən tanıyırdı. Sədrə məxsus olan yerdə, boynuna xüsusi xaç salmış, **Pyerin** tanımadığı cavan bir oğlan, onun da sağ tərəfində, **Pyerin** iki il əvvəl **Anna Pavlovnanın** evində gördüyü italiyalı bir keşiş oturmuşdu. Yenə burada çox mötəbər bir əyan, bir də əvvəllər **Kurakingildə** yaşayan, isveçrəli bir mürəbbi vardı. Hamı susaraq əlində çəkic tutmuş sədrin sözünə qulaq asırdı. Divara, içində şam yandırılmış bir ulduz şəkli həkk olunmuşdu. Masanın bir tərəfində mehraba oxşar bir şey vardı ki, üstünə də incillə insan kəlləsi qoyulmuşdu. Masanın ətrafında, kilsə şamdanlarına bənzər yeddi böyük şamdan qoyulmuşdu. Qardaşlardan ikisi **Pyeri** mehrabın yanına apardı, onun ayaqlarını düzbucaq şəklində bir-birindən aralayıb yerə uzanmağını əmr etdilər və bu zaman ona dedilər ki, sən məbəd qapısına yıxılırsan.

Qardaşlardan birisi pıçıldayaraq dedi:

- Əvvəl ona kürək verilməlidir.

Bir başqası:

- Ah! Rica edirəm, bəsdir, - dedi.

**Pyer** əmri yerinə yetirmədən, yaxından görən şaşqın gözlərilə ətrafına baxdı və birdən düşdüyü bu vəziyyətdən şübhələnməyə başladı. «Mən hardayam? Mən nə edirəm? Bəlkə məni ələ salıblar? Sonra bunları xatırlarkən mən utanmayacağammı?» Lakin onun şübhəsi ancaq bir an davam etdi. Ətrafında olan adamların ciddi üzlərinə baxdı, başına gələnləri xatırladı və başa düşdü ki, yarı yolda dayanmaq olmaz. Öz şübhəsindən özü dəhşətə gəldi, könlündə əvvəlki riqqəti oyatmaq üçün özünü məbədin qapısına yıxdı. Doğrudan da, könlü əvvəlkindən daha artıq riqqətə gəldi. Bir qədər uzandıqdan sonra onun da boynundan başqalarınınkı kimi ağ, meşin döşlük asdılar, əlinə bir kürək, üç cüt də əlcək verdilər. Bu zaman böyük usta ona müraciət edərək sözə başladı: dedi ki, möhkəmlik və təmizlik timsalı olan bu döşlüyün bəyazlığını heç bir şeylə ləkələmə; bu kürəklə öz qəlbini günahlardan təmizləməyə və sənə yaxın olan adamların ürəyini mərhəmətkarlıqla oxşamağa çalış. Sonra əlcəklər haqqında bu sözləri söylədi: bu bir cüt kişi əlcəyinin əhəmiyyətini sən bilməzsən, lakin onları saxlamalısan; o biri kişi əlcəyini iclaslarda əlinə taxmalısan. Nəhayət, üçüncü cüt qadın əlcəyi haqqında belə dedi:

- Əziz qardaş, bu qadın əlcəyi də sizin üçün təxsis edilmişdir. Bunları hamıdan çox hörmət bəslədiyiniz qadına verin. Bu hədiyyə ilə siz özünüzə layiq seçdiyiniz bənna qadına qəlbinizin nöqsansız olduğunu inandıra bilərsiniz. – Bir az susduqdan sonra əlavə etdi: - Ancaq, əziz qardaş, bu söylədiklərimə riayət et, bu əlcəklər çirkin əllərə yaraşmaz. Böyük usta bu son sözləri söylərkən, **Pyerə** elə gəldi ki, sədr özünü itirdi. **Pyer** daha artıq

özünü itirib uşaq kimi qızardı, gözləri yaşla doldu, təlaşla ətrafına baxdı, otağa ağır sükut çökdü.

Bu sükutu qardaşlardan biri pozdu; o, **Pyeri** xalçanın yanına apardı, xalça üzərindəki günəşin, ayın, çəkicin, şaqulun, kürəyin, təbii halında və kub şəklində olan daşların, sütunun, üç pəncərənin və s. şəkillərin izahını dəftərdən oxumağa başladı. Sonra Pyerin yerini təyin etdilər, lojanın işarələrini göstərdilər, lojaya girməyə aid olan sözləri söylədilər və nəhayət oturmağa icazə verdilər. Böyük usta nizamnaməni oxumağa başladı. Nizamnamə çox uzun idi. Pyer həm sevinir, həm həyəcan keçirir, həm də utanırdı, buna görə də oxunan sözləri anlamaq imkanında deyildi. O ancaq nizamnamənin son sözlərini eşidə bildi, eşitdikləri də yadında qaldı.

Böyük usta bu sözləri oxuyurdu: «Biz öz məbədlərimizdə xeyirxahlıqla qəbahət arasındakı dərəcələrdən başqa ayrı heç bir dərəcə tanımırıq. Bərabərliyi poza biləcək hərəkətlər etməkdən çəkin. Kim olursa-olsun, qardaşının köməyinə çat, yolundan azanlara nəsihət elə, yıxılanların qolundan qaldır, heç vaxt qardaşlarına pislik eləmə. Mehriban və nəzakətli ol. İnsanların qəlbində xeyirxahlıq hissini oyat. Sizə yaxın olan adamları da özün kimi xoşbəxt elə, qoy heç vaxt həsəd bundan duyduğun həzzi ləkələməsin.

Düşmənini əfv et, ondan qisas alma, ona ancaq yaxşılıq elə, bununla da sən ali qanunu yerinə yetirib, itirmiş qədim əzəmətin izlərini tapmış olacaqsan». O sözünü qurtarıb yerindən qalxdı. **Pyeri** qucaqlayıb öpdü. Sevincdən **Pyerin** gözləri yaşarmışdı o, ətrafına baxır, onu təbrik edən, yenidən onunla tanış olan bu adamlara nə söyləyəcəyini bilmirdi. Tanışlıq deyilən şeyi o qəbul etmirdi, buradakı adamları ancaq bir qardaş kimi tanıyır, onlarla bir yerdə tez işə başlamağı arzu edirdi.

Böyük usta çəkicini vurdu, hamı öz yerində oturdu və bir nəfər mütiliyin zərurəti haqqında təlimnaməni oxumağa başladı.

Böyük usta axırıncı vəzifəni yerinə yetirməyi təklif etdi, sədəqə toplayan adı verilmiş mötəbər əyan oturanların yanına getdi. **Pyer** yanında olan pulların hamısını sədəqə vərəqəsinə yazdırmaq istədi, lakin bunun bir lovğalıq kimi başa düşüləcəyindən ehtiyat edərək o birilər qədər yazıldı.

İclas qurtardı. Evə qayıtdıqdan sonra Pyerə elə gəlirdi ki, sanki on illərlə davam edən uzaq bir səyahətdən qayıtmışdır; o tamamilə dəyişmiş, həyatın əvvəlki adət və qaydalını tərk etmişdi.

## V

**Pyer** lojaya qəbul edildiyinin ertəsi günü evdə oturub kitab oxuyurdu və bir tərəfi ilə allahı, bir tərəfi ilə əxlaqı, bir tərəfi ilə fiziki əşyanı, bir tərəfi ilə də qarışıq şeyləri təsvir edən kvadrata baxaraq bu şəkillərin mənasını anlamağa çalışırdı. Bəzən o, başını kitabdan və kvadratdan qaldırır, təsəvvüründə yeni həyatın nəqşəsini qururdu. Dünən lojada ona demişdilər ki, padşah duel məsələsini eşitmişdir, bununla əlaqədar olaraq **Pyerin** Peterburqdan uzaqlaşmasını, ağıllı bir tədbir kimi ona məsləhət görmüşdülər. **Pyer** cənubdakı malikanəsinə getməyi və orada öz kəndlilərilə məşğul olmağı nəzərdə tutmuşdu.

**Pyer** bir həftədən sonra yeni mason dostları ilə vidalaşaraq və onlara sədəqə üçün çoxlu pul verərək, öz malikanəsinə getdi. Yeni qardaşları ona Kiyev və Odessada olan masonların üstünə məktub vermişdi, eyni zamanda ona məktub yazacaqlarını, onun yeni fəaliyyətinə rəhbərlik edəcəklərini vəd etmişdilər.

Üçüncü hissə[3]

## VII

**Pyer** iki il əvvəl, 1808-ci ildə öz malikanəsini gəzdikdən sonra Peterburqa qayıdaraq, istər-istəməz Peterburq masonluğunun başında durdu. O, yeməkxana və lojalar düzəldir, yeni üzvlər toplayır, müxtəlif lojaların birləşdirilməsi və əsl aktların əldə edilməsinə çalışırdı. Eyni zamanda məbəd tikilişinin xərcini çəkir və sədəqədən toplanılan pulun azlığını nəzərə alaraq, mümkün qədər bunu da öz pulu ilə tamamlayırdı, çünki üzvlərin çoxu bu məsələdə xəsislik göstərir, həm də sədəqə pulunu vaxtında vermirdilər. O, mason cəmiyyəti tərəfindən Peterburqda tikilmiş füqəra evini az qala öz pulu ilə saxlayırdı.

**İosif Alekseyeviç** Peterburqda yox idi. (O, son vaxtlarda Peterburq lojalarından uzaqlaşıb Moskvada yaşayırdı və buradan da qırağa çıxmırdı). **Pyer** lojanın bütün üzvlərini lap əvvəldən tanıyırdı, bunları da knyaz B., **İvan Vasilyeviç** D. deyil, bənnalıq üzrə qardaş hesab etmək ona çətin gəlirdi: çünki o bunların çoxunun zəif və əhəmiyyətsiz adam olduğunu bilirdi. Masonluq döşlükləri və nişanları altında bu adamların həyatda əlləşərək aldıqları

[3] 3-cü cild, s.198-205.

mundirlərini, döşlüklərindəki xaçı görürdü. Çox vaxt o, yarısı özü kimi dövlətli olan, ona qədər üzvdən gəlir vərəqəsi üzrə 20-30 manat sədəqə yığa bilirdi ki, bunun da yarısından çoxu nəqd verilməzdi: bu vəziyyət ona, hər bir üzvün bütün var-dövlətini yaxın adamlara verəcəyi haqqındakı masonluq andını xatırladar və onun qəlbində şübhə doğardı, lakin o bu şübhələrə əhəmiyyət verməməyə çalışardı.

**Pyer** tanıdığı bütün mason qardaşları dörd dərəcəyə bölmüşdü. Birinci dərəcəyə o həm loja, həm də insani işlərdə fəal surətdə iştirak etməyən, ancaq masonluq elminin sirlərilə, allahın üç adı və ya əşyanın üç əsası: kükürd, civə və duz məsələsilə, ya da Süleyman məbədinin kvadratları və bütün fiqurlarının əhəmiyyətilə məşğul olan mason qardaşlarını daxil edirdi. **Pyer** əsasən köhnə üzvlərdən və İosif **Alekseyeviçin** özündən ibarət olan bu mason qardaşlara hörmət edirdi, lakin onların maraqlandığı məsələlərlə maraqlanmazdı. Masonluğun mistik cəhəti onun könlünə yatmazdı.

İkinci dərəcəyə isə o özünü və özünə oxşar mason qardaşları daxil edərdi; bunlar tərəddüd edən, axtaran, lakin masonluqda hələ müəyyən və aydın bir yol tapmayan, tapacağına isə ümid edən adamlardı.

Üçüncü dərəcəyə o, masonluqda zahiri şəkildən və ayini rəsmiyyətdən başqa bir şey görməyən, bu zahiri şeylərin ciddiyyətlə yerinə yetirilməsinə çalışan, lakin bunların məna və məzmununa əhəmiyyət verməyən mason qardaşlarını (ən çox da bunlar idi) daxil edərdi. **Villarski**, hətta baş lojanın böyük ustası da bu sıradandı.

Dördüncü dərəcəyə o xüsusilə son vaxtlarda masonluq cəmiyyətinə girən qardaşları daxil edərdi: bunlar da çox idi. Pyer öz müşahidəsi nəticəsində bu qərara gəlmişdi ki, masonluğun heç bir cəhəti ilə maraqlanmır, bunlar masonluğa ancaq buradakı cavan, dövlətli, zadəgan və böyük əqidə sahibi olan şəxslərlə yaxın olmaq üçün girmişdilər, belə varlı qardaşlar da burada çox idi.

**Pyeri** masonluqdakı fəaliyyəti təmin etməməyə başladı. Bəzən ona elə gəlirdi ki, masonluq, xüsusilə burada gördüyü masonluq, ancaq zahiri şeylərə əsaslanmışdır. Masonluğa o, heç şübhə etmək fikrində də deyildi, lakin rus masonluğunun yanlış yola düşdüyünü, öz mənbəyindən ayrıldığını hiss edirdi. Buna görə də ilin axırında o özünü mason cəmiyyətinin ali sirlərinə vəqf etmək üçün xaricə getdi.

**Pyer** 1809-cu ilin yayında Peterburqa qayıtdı. Bizim masonlarla xarici masonların məktublaşmasından məlum olmuşdur ki, **Bezuxov** xaricdə masonluğun bir çox yüksək mövqeli şəxslərinin etimadını qazanmış və özü ilə Rusiyadakı masonluq bənnəliyi işinin ümumi xeyri üçün çoxlu şeylər

gətirir. Bütün Peterburq masonları yanına gələrək ona yaltaqlanırdılar, hamıya da elə gəlirdi ki, **Pyer** onlardan nə isə gizləyir və nə isə hazırlayır.

2-ci dərəcəli lojanın təntənəli iclası üçün vaxt təyin edildi; Pyer bu iclasda Peterburq qardaşları üçün mason cəmiyyətinin ali rəhbərliyi haqqında məlumat verəcəyini vəd etdi.

İclas təyin edildiyi vaxtda açıldı. Loja adamla dolu idi. Pyer adi ayini rəsmiyyətdən sonra ayağa qalxdı, yazdığı nitqini əlində tutaraq qızara-qızara və dili dolaşa-dolaşa sözə başladı:

- Əziz qardaşlar, lojaların sakitliyi içərisində sirlərimizə riayət etmək azdır, iş görmək lazımdır… iş görmək. Biz qəflət yuxusundayıq, əslində isə biz iş görməliyik.

Bundan sonra dəftərini açıb oxumağa başladı:

Əsil həqiqətləri yaymaq üçün və xeyirxahlığın təntənəsi üçün biz insanların fikrindən yanlış təsəvvürləri silib təmizləməliyik, cavanların tərbiyəsini öz üzərimizə götürməliyik, ağıllı adamlarla ayrılmaz bir şəkildə birləşməliyik, mövhumatı, imkansızlığı, axmaqlığı cəsarətlə, həm də ağıllı surətdə rədd etməliyik, bizə sədaqətli olan adamlardan bir məqsədə xidmət edən hakimiyyət və nüfuz sahibi olan şəxslər yetişdirməliyik.

Bu məqsədə çatmaq üçün qəbahətə qarşı xeyirxahlığa üstünlük verməliyik, çalışmalıyıq ki, namuslu adam elə bu dünyada etdiyi xeyirxahlıqlara görə əbədi mükafat ala bilsin, lakin bu böyük niyyətləri həyata keçirməkdə indiki siyasi quruluş bizə çox əngəl törədir. Belə bir vəziyyət qarşısında nə etməliyik? İnqilablara kömək etməkmi, hər şeyi yıxmaq, qüvvəti qüvvətləmi qovmaq?.. Yox, biz bundan çox-çox uzağıq. Zorakılıqla edilən hər bir islahat təqdirə layiqdir: nə qədər ki, insanlar indiki kimidir, bu cür islahatlar pisliyi qətiyyən aradan qaldıra bilməz, bir də belə islahatlar ona görə təqdirə layiqdir ki, əql və hikmətin zorakılığa ehtiyacı yoxdur.

Bizim cəmiyyətin bütün planı – möhkəm, xeyirxah və vahid bir əqidə sahibi olan adamlar yetişdirmək məsələsinə əsaslanmalıdır; bu əqidə də belə olmalıdır: hər yerdə var-qüvvə ilə bədxahlığı və yaramazlığı təqib edib istedad və xeyirxahlığı himayə etməli; insanların içərisindən ləyaqətlilərini seçib öz cəmiyyətimizə götürməliyik. Nizam-intizamsızlığı himayə edən şəxslərin əlindən ehtiyatla tutmalı və onları elə idarə etməliyik ki, heç özləri də bunu duymasın, - ancaq o zaman bizim cəmiyyət hakimiyyət kəsb edə bilər. Bir sözlə, ümumi bir hakimiyyət idarəsi qurulmalıdır və bu da vətəndaşlıq əlaqələrini pozmadan, bütün dünyaya yayılmalıdır; eyni zamanda bütün başqa idarələr öz işlərini əvvəlki qayda üzrə davam etdirməli və bizim cəmiyyətin böyük məqsədlərinə əngəl törətmədən hər şey görməlidir, yəni

xeyirxahlığın bədxahlıq üzərində təntənəsinə nail olmalıdır. Xristianlıq özü də bu məqsədi nəzərdə tuturdu. Xristianlıq insanlara ağıllı və xeyirxah olmağı, öz xeyirləri üçün ən ağıllı insanların nəsihətlərinə qulaq asıb onların yolu ilə getməyi öyrədirdi.

O zaman hər şey zülmət içində idi, o zaman əlbəttə ki, bir moizə də kifayətdi, çünki həqiqətin yeniliyi bu moizəyə xüsusi bir qüvvət verirdi; lakin bundan çox-çox qüvvətli vasitələr lazımdır. İndi lazımdır ki, öz hissləri ilə idarə olunan adam xeyirxahlıqda füsunkarlıq hissi duya bilsin. Ehtirasları ləğv etmək olmaz; ancaq çalışıb bunları nəcib məqsədlərə doğru sövq etməlidir; buna görə də hər kəs öz xeyirxahlıq dairəsində öz ehtiraslarını təmin etməlidir və bizim cəmiyyət də buna imkan yaratmalıdır.

Elə ki, hər bir dövlətdə bizim bir neçə ləyaqətli adamlarımız oldu, onlardan da hər biri özü kimi iki adam yetişdirə bildi, bu adamlar da bir-biri ilə sıxı surətdə əlaqədə oldu, onda bəşəriyyətin xeyri üçün gizlində bir çox işlər görməyə müvəffəq olmuş cəmiyyətimiz hər bir şey eləmək imkanına malik olacaqdır».

**Pyerin** nitqi lojaya dərin təsir etdi, hətta həyəcan da əmələ gətirdi. Mason qardaşlardan çoxu bu sözlərdə təhlükəli illüminat fikirlərini gördüyündən, **Pyerin** nitqini soyuqluqla qarşıladı, bu da **Pyerə** çox təəccüblü göründü. Böyük usta **Pyerə** etiraz etməyə başladı. **Pyer** isə get-gedə daha qızğınlıqla öz fikirlərini inkişaf etdirirdi. Çoxdandı ki, belə bir qızğın iclas olmamışdı. Üzvlər iki yerə bölündü. Bunlardan biri **Pyeri** illüminatçılıqda təqsirləndirib məzəmmət edir, o biriləri isə onu müdafiə edirdi. İlk dəfə olaraq bu iclasda insan fikrinin müxtəlifliyi **Pyeri** heyrətə saldı; bu müxtəliflik nəticəsində heç bir həqiqəti iki adam bir cür təsəvvür eləmirdi. Hətta tərəfini saxlayan üzvlər belə onu məhdud və başqa cür başa düşürdülər; buna da o razı ola bilmirdi, çünki **Pyerin** əsas arzusu bu idi ki, öz fikirlərini başqalarına olduğu kimi çatdırsın.

İclas qurtarandan sonra böyük usta narazı halda, həm də istehza ilə **Bezuxovun** mübahisə zamanı qızğınlıq göstərdiyini, həm də mübahisəyə yalnız xeyirxahlıq məhəbbəti ilə deyil, eyni zamanda mübarizə aludəliyi ilə yanaşdığını qeyd etdi. **Pyer** ona cavab vermədi, ancaq təkliflərinin qəbul olunub-olunmayacağını soruşdu. Ona «yox» deyə cavab verdilər. **Pyer** də rəsmiyyəti gözləmədən lojadan çıxıb evinə getdi.

## VIII

Yenə də **Pyeri** çox qorxduğu kədər hissi bürüdü. Lojada söylədiyi nitqindən sonra heç kəsi qəbul etmədi, üç gün evində divan üstə uzanıb qaldı, heç yerə getmədi.

Bu zaman o, arvadından məktub aldı; arvadı yalvararaq onunla görüşməsini xahiş edir, ondan ayrı düşdüyü üçün dərd çəkdiyini və bütün həyatını ona həsr etmək arzusunda olduğunu yazırdı.

Elə bu vaxt qayınanası adam göndərib çox mühüm bir iş üçün bir neçə dəqiqəliyə yanına gəlməsini ondan xahiş edirdi.

O nə arvadına, nə də qayınanasına cavab vermədən, bir gün axşamdan xeyli keçmiş yola hazırlaşdı, **İosif Alekseyeviçlə** görüşmək üçün Moskvaya getdi. Sonra gündəliyində bu sözləri yazdı:

«Moskva, noyabrın 17-si.

İndicə mürşidin yanından gəlirəm və bu görüşdən duyduqlarımı yazmağa tələsirəm. **İosif Alekseyeviç** kasıblıq içində yaşayır və üçüncü ildir ki, sidik kisəsi xəstəliyindən ağır iztirab çəkir. Lakin heç kəs ondan nə bir inilti səsi eşitmiş, nə də onun narazılıq edərək deyindiyini görmüşdür. Yediyi də ən adi yeməklərdir. Səhərdən ta gecədən xeyli keçənə qədər elm ilə məşğul olur. O məni hörmətlə qəbul etdi və yatdığı çarpayı üzərində oturdu. Mən ona Şərq və Qüds şərif cəngavərlərinin işarəsini etdim, o da mənə eyni işarə ilə cavab verib mehribanca gülümsədi, Prussiya və Şotlandiya lojalarında nələr öyrəndiyimi məndən soruşdu. Mən nə varsa hamısını bacardığım kimi ona nağıl etdim. Bizim Peterburq lojası üçün təklif etdiyim əsasları da, məni pis qarşıladıqlarını, qardaşlarla mənim aramda əlaqənin kəsildiyini də dedim. **İosif Alekseyeviç** xeyli susub düşündü və sonra bu barədə o dərhal mənim bütün keçmiş və gələcək həyat yollarımı işıqlandırdı. O məndən soruşdu: mason cəmiyyətinin ki üç əsası var, bunun nədən ibarət olduğu yadındadırmı? Bu sualı ilə o məni təəccübləndirdi. Sonra da bu əsasları söyləməyə başladı: bu əsasın birinci, - sirri mühafizə və dərk etməkdir; ikincisi – bu sirri qəbul etmək üçün özünü mənəvi cəhətdən təmizləmək və islahetməkdir; üçüncüsü də – bu təmizlənmə ilə bütün insan nəslini islah etməkdir. Bu üç əsasdan hansı başdır? Əlbət ki, adamın özünü islah etməsi və təmizləməsi! Ancaq bu məqsədə doğru biz həmişə heç bir vəziyyətdən asılı olmayaraq irəliləyə bilərik. Eyni zamanda bu məqsəd bizdən çox-çox əmək tələb edir; buna görə də biz qürura qapılıb, bu məqsədi yaddan çıxararaq, ya özümüz təmiz olmadığımız üçün qəbul etməyə layiq olmadığımız sirlərə əl atırıq, ya da özümüz rəzalət və əxlaqsızlıq içində olduğumuz halda insan nəslinin islahına girişirik. İllüminatçılıq, ictimai işlərə qarışdığı və qürura qapıldığı üçün həqiqi təlim deyildir. İosif Alekseyeviç bu əsasa görə də mənim nitqimi və bütün fəaliyyətimi düzgün hesab etmədi.

Mən qəlbimin dərinliklərində onunla razılaşdım. Mənim ailə məsələmdən söz düşəndə o belə dedi: «Həqiqi masonun başlıca vəzifəsi, sizə söylədiyim kimi öz-özünü təkmilləşdirməkdən ibarətdir. Lakin çox vaxt biz belə düşünürük: həyatımızda çətinlik törədən bütün şeyləri özümüzdən uzaqlaşdırmaqla biz daha tez bu məqsədə çatarıq; lakin, cənab, məsələ tamamilə əksinədir: ancaq cəmiyyət qalü-qalı biz üç əsas məqsədə çata bilərik: bunun birincisi, öz-özünü dərk etməkdir, zira insan öz-özünü ancaq başqası ilə müqayisədə dərk edə bilər; ikincisi – təkmilləşməkdir, bu da ki ancaq mübarizə ilə əldə edilir; üçüncüsü – baş xeyirxahlığa çatmaqdır ki, bu da ölümü sevməkdir. Ancaq həyatın dönüklüyü bizə onun (həyatın) mənasızlığını göstərə bilər və bizim ölümə olan fitri məhəbbətimizə, ya yeni həyata çıxmağımıza kömək edə bilər». Bu sözlər bir də ona görə əhəmiyyət kəsb edə bilir ki, İosif Alkseyeviç, nə qədər ağır fiziki əziyyət çəksə də, heç vaxt həyatdan bezmir, amma ölümü sevir, daxilən nə qədər təmiz və yüksək olsa da, yenə özünü ölməyə lazımınca hazır hiss etmir. Sonra o mənə kainatın böyük kvadratının əhəmiyyətini tamamilə izah elədi və göstərdi ki, üç və yeddi rəqəmləri hər şeyin əsasını təşkil edir. Eyni zamanda o mənə belə bir məsləhət gördü: Peterburqdakı mason qardaşlarından ayrılma, onlarla ünsiyyət saxla, lojada ancaq 2-ci dərəcəli vəzifəni götür və qardaşları qürura uymağa qoyma, onları öz-özünü dərk etməyin və təkmilləşdirməyin həqiqi yoluna salmağa çalış. Bundan başqa mənim özüm haqqımda söylədi ki, hər şeydən əvvəl özünü gözdən qoyma. Bu məqsəd üçün də mənə bütün hərəkətlərimi seyr etmək üçün bir dəftər verdi; bu saat mən həmin dəftərə yazıram və sonra da bütün hərəkətlərimi də bu dəftərə qeyd edəcəyəm».

Üçüncü hissə[4]

## XI

Pyer **Qraf Rastopçinin** kabinetinə girdi. **Pyer** içəri girəndə **Rastopçin** üz-gözünü qırışdıraraq, əli ilə alnını və gözünü ovuşdururdu. Ortaboylu adam ona nə isə deyirdi, **Pyeri** görən kimi susub otaqdan çıxdı. Bu adam çıxan kimi **Rastopçin** dedi:

---

[4] Əsərləri. 14 clddə. 4-cü hissə. Hərb və sülh, 3-cü cild. Tərc. edəni Beydulla Ağayev. B., Yazıçı, 1978.

- Ba! Xoş gördük, böyük cəngavər. Sizin şanlı qəhrəmanlıqlarınızı eşitdik. Ancaq məsələ bunda deyil. Əzizim, öz aramızda qalsın, siz masonsunuzmu? – **Rastopçin** bunu ciddi bir ifadə ilə soruşdu, sanki mason olmaq pis bir şey imiş, lakin o, **Pyeri** əfv etmək fikrindədir. Pyer susurdu. – Əzizim, mənə hamısı yaxşı məlumdur, amma mən bilirəm ki, masonlar cürbəcür olurlar və əminəm ki, siz insan nəslini xilas etmək pərdəsi altında Rusiyanı məhv etmək istəyən masonlardan deyilsiniz.

- Bəli, mən masonam.

- Bilirsinizmi, əzizim, **Speranski** və **Maqnitski** cənablarının lazımi yerinə göndərildiyi, elə bilirəm, sizə məlum olmamış deyildir; cənab **Klyuçaryov** və başqaları da elə; onlar Süleyman məbədi qurmaq pərdəsi altında öz vətənlərinin məbədini dağıtmağa çalışırmışlar. Siz başa düşə bilərsiniz ki, onları lazımi yerinə göndərməyimizin müəyyən səbəbləri vardır və əgər buradakı poçt müdiri zərərli bir adam olmasaydı, mən onu sürgün edə bilməzdim. Amma mənə məlum olmuşdur ki, siz onun şəhərdən yığışıb getməsi üçün öz ekipajınızı göndəribsiniz, hətta qoruyub saxlamaq üçün ondan kağızlar da qəbul edibsiniz. Mən sizi sevirəm və sizə pislik etmək istəmirəm, siz məndən iki dəfə cavansınız, ona görə mən bir ata kimi sizə məsləhət görürəm ki, elə adamlarla bütün əlaqəni kəsəsiniz, özünüz də mümkün qədər tez buradan gedəsiniz.

**Pyer** soruşdu:

- Qraf, axı Klyuçaryovun təqsiri nədir?

Rastopçin çığırdı:

- Onu bilmək mənim işimdir, bunu məndən soruşmaq isə sizin işiniz deyildir.

**Pyer** Rastopçinə baxmadan dedi:

- Əgər onu Napoleonun proklamasiyalarını yaymaqda ittiham edirlərsə, bu axı isbat olunmamışdır; Vereşşagini də…

Rastopçin birdən qaşqabağını tökərək bayaqkından daha bərk qışqırdı:

- Belədir ki, var. – O, təhqir olunduğunu xatırlayaraq, hiddətlənən adamlar kimi acıqlı-acıqlı dedi: - Vereşşagin xain və satqındır, buna görə də o, edam ediləcəkdir. Ancaq mən sizi mənim işlərimi müzakirə etmək üçün buraya çağırmamışam; mən sizi ona görə çağırmışam, öz məsləhətimi sizə söyləyəm və əgər istəsəniz əmr edəm… Sizdən xahiş edirəm ki, Klyuçaryov kimi adamlarla əlaqəni kəsəsiniz. Kim olur-olsun, sarsaqlasa, mən elə eləyərəm ki, onun ağlı başına gəlsin. – yəqin birdən-birə onun ağlına gəldi ki, deyəsən, hələ heç bir təqsiri olmadığı halda Pyerin qolundan dostcasına tutub, əlavə etdi: - Biz ümumi bir fəlakət ərəfəsindəyik, işim olan adamların hamısı ilə nəzakətli

rəftar etməyə vaxtım yoxdur. Belə, əzizim, şəxsən siz özünüz nə tədbir görürsünüz, şəxsən siz?

**Pyer** hələ də gözlərini yerdən qaldırmadan və üzündəki düşüncəli ifadəni dəyişdirmədən dedi:

- Heç bir şey.

Qraf qaşqabağını turşutdu.

- Dostcasına bir məsləhət. Tezliklə buradan gedin, - mənim sizə deyəcəyim söz budur. Xoşbəxt o adamdır ki, sözə baxmağı bacarır. Əzizim, sağlıqla qalın! Bura baxın, - deyərək o, qapı dalından Pyeri səslədi. Doğrudurmu ki, qrafinya İsa cəmiyyətinin müqəddəs atalarının pəncəsinə düşmüşdür?

**Pyer** cavab vermədən, qaşqabaqlı və acıqlı halda Rastopçinin yanından getdi, - hələ heç kəs indiyədək onu belə acıqlı görməmişdi.

**B.İ.Nikolaevski.**
# RUS MASONLARI VƏ İNQİLAB

Moskva, «Terra» 1990.

**D.Bebutov. «XX əsrin rus masonluğu»**

səh.123-148

1906-cı ilin payızında Rusiyada mason təşkilatını yaratmaq qərarına gəldim. Belə fikirləşirdim ki, əgər masonluq Rusiyada möhkəmlənsə ölkənin qarşısında duran məsələləri həll etmək üçün təşkilatın gücü çatar. Lakin mən qorxurdum ki, masonluq rus adamının təbiətinə uyğun gəlməsin. Yalnız masona çevrilmək azdır, gərək əsl mason olasan. Gərək masonların işini həmin adətlərsiz, nizam-intizamsız, iclas keçirmək qaydası olmadan təsəvvür etmək mümkün deyil.

Masonların özünəməxsus adət-ənənələri, iclas keçirmək qaydaları, nizam-intizamına riayət etmək məcburidir. Yalnız iclasların qərarlarını həyata keçirmək azdır, əsas qarşıya qoyulan məqsəddir.

Ancaq ciddi nəzarət altında güclü qüvvə yaranır ki, məhz Avropa masonları indi həmin qüvvədən istifadə edirlər. Yalnız aşağı dərəcəli masonların yuxarılara sözsüz tabeçiliyi nəticəsində masonlar arzu etdikləri nailiyyətləri əldə edirlər. Bütün məsələ ciddi nizam-intizamdadır. Masonlar Avropada elə bir dərəcəyə gəliblər ki, ölkə hökumətləri masonların dediklərinə biganə qalmırlar. Avropada hökumətin bütün orqanlarında masonlar fəaliyyətdədirlər. Onlar hökumət mexanizmini bütün işləri haqqında məlumatlanır, ölkənin bütün iqtisadi durumunu nəzarətdə saxlayırlar. Masonlar Rusiyada çoxdan fəaliyyətdədirlər, lakin həmişə təqib olunmuşlar, belə ki, hökumət hakimiyyəti əllərindən itirməkdən qorxurdular. **I Aleksandr** özü də mason idi, lakin sonda özü onlardan qorxaraq satqınlıq etdi. Hökumətin masonlardan qorxusu o dərəcədə idi ki, **I Nikolayın** dövründə masonlara aid olmamaq haqqında and içirdilər. Bütün dekabristlər mason idi. Əgər masonların tarixini nəzərdən keçirsək, məlum olur ki, masonlar elə bir qüvvədir ki, hökumət onlarla hesablaşmağa məcbur olur. **Onların qüvvəsi görəsən nədədir?** Yalnız mason qərarlarının ciddi icrasıdır ki, bütün insanları həmrəy olmağa məcbur edir. Masonlar haqqında danışarkən iclaslarda baş verən dəhşətlər – bütün bunlar hamısı yalandı. Lakin iclaslarda olan ciddi intizam və qarşılıqlı həmrəylik məcburiyyəti masonların əsas qüvvəsidir. Bədbəxtlikdən bütün bu şərtlər rus adamının təbiətinə zidd gəlir. Təşkilatı yaradarkən məhz bundan qorxurdum, mənim qorxduqlarımın əsassız olmadığı sonralar aşkarlandı.

I Dumaya seçkilər zamanı **E.İ.Kedrin** ehtiyatla mənə masonlar haqqında söz açdı. Görəndə ki, mən onun söhbətilə maraqlanmıram, özünün də mason olduğunu etiraf etdi və başqa masonların da olduğunu bildirərək təşkilata qəbul olunmaq istəyənlərin çox olduğunu dedi. Eyni zamanda bildirdi ki, digər masonlar da mənə diqqət ediblər və əgər mən mason cərgələrinə qəbul olunmaq istəsəm müəyyən olunmuş imtahanı keçə bilsəm məni öz cərgələrinə qəbul etməyə hazırdır.

Qəbul günü aprelin 23-nə təyin olundu. Bu gün həm də kadetlərin üçüncü qurultayının iclası keçirilirdi. Mənə tapşırılmışdır ki, saat 2-də Nevski küçəsində ev 92-də yerləşən «**Strana**» qəzetinin redaksiyasına gəlim. Əvvəlcə məni Kedrin qarşıladı ki, ondan başqa heç kimi görmədim. O, məni koridorla keçirərək sonuncu otaqlardan birinə apardı. Mən bilirdim ki, masonluğa qəbul gizli surətdə keçir, lakin necə keçmək mənə məlum deyildi. Belə ki, onların da hamısı cəfəngiyatdır. Əksinə: qəbul mərasimi adamda güclü təəssürat yaradır və məntiqi prinsipə əsaslanır. Mərasim gizli baş verir, qəbul olunan, son dəqiqəyə qədər bilmir ki, onu qəbul edənlər və digər masonlar kimlərdir. Bu, xüsusilə vacib məsələdir, belə ki, əgər kimsə qəbul olunmasa digərlərinin adını bilməməlidir. Qəbulun məqsədi insanı tam səmimiyyətə dəvət edərək onun tanınmasına yönəlib. **Kedrin** məni tək qoyaraq getdi, gələndə suallarla yazılmış kağız verdi. Cavablarım hazır olan kimi, onlara diqqət etdilər və məqbul saydılar. Sonra gözlərim bağlandı və iki nəfər məni o biri otağa apardı. Qəbulun bütün ayinləri keçirilənədək iki saat keçdi. Demək lazımdır ki, sual-cavabın aparılması dəhşətli dərəcədə güclü təəssürat yaradır və adama qeyri-adi əhval-ruhiyyə verir. Adamın bütün bu suallara tam səmimi cavab vermək arzusu qalmır. Əhval-ruhiyyə qalxır, yalnız tamamilə pozğun bir insan qəlbini incitmədən suallara qarşı səmimi olmaz. Sözlərlə bunu çatdırmaq mümkün deyil, bunu gərək özün keçirəsən ki, insanda nə baş verdiyini anlayasan. Belə bir fikri mən qəbul olunan digər masonlardan da eşitmişdim.

Qəbul olunmuş qaydaya əsasən mərasimdə iştirak edənlərin hər biri məni təbrik edərək üç dəfə öpürdülər. Həmin vaxt mən səslərindən tanıya bilmədiyim mənə yaxın adamları görərək heyrətləndim. Məni usta-təmsilçi şəklində prof. **M.M.Kovalevski** qəbul etdi, ondan başqa doktor **Bajenov**, **Kedrin**, prof. **Kotlyarevski**, prof. de **Koberti**, **Maklakov** və doktor **Loris-Melikov** da orada iştirak edirdilər.

I Dövlət Dumasının və kadetlər klubunun açılışı ilə əlaqədar olaraq hamı elə məşğul idi ki, heç bir təşkilat haqqında düşünməyə vaxt yox idi. O zaman mən qəti qərara gəlmişdim ki, hər şey öz axarına düşən kimi mason təşkilatının yaranması haqqında ciddi məşğul olacam. Mənə həmişə elə

gəlirdi ki, indi isə tam əminəm ki, yalnız mason təşkilatlarının varlığı və əlbəttə ki, mason nizam-intizamına tabeçilik hansısa real nəticələr verə bilər. Nümunə kimi Türkiyə, Portuqaliyanı göstərmək olar. Ordusuz heç bir inqilab, heç bir çevriliş mümkün deyil, orduda xüsusilə zabitlər arasında təbliğat işini yalnız masonlar vasitəsilə etmək mümkündür. Rus zabitinin ruhuna uyğun gəlməyən gizli ədəbiyyat bunu edə bilməz.

I Dumanın buraxılmasından sonra, mən çoxları ilə bu haqda söhbətlər apardım və hamı mənimlə razılaşdı. İlk növbədə əlimdə adamlarımızın ərizələri ilə bərabər Parisə yollandım ki, yeni üzvlərin qəbul olunmasına və fəaliyyət göstərmək qərarına gəldiyimiz haqqında məlumatlandıraq. 1906-cı ilin dekabrından etibarən yeni üzvlərin qəbulu üçün mənim evimdə tez-tez yığışırdıq. Bu müddət ərzində professor **Qambarov, İvanyukov, Borodin, Pavlov-Silvanski,** doktor **Jixarov,** baron **Maydel, Marquliyes, Şeqolev, Nemiroviç-Dançenko, Tiraspolski, Makarov, Demyanov, Pereverzev, Qelovani, Maslovski, Aniçkov, Kalmanoviç,** İzmaylovsk polkunun leyb-qvardiya polkovniki **Teplov,** qraf **Orlov-Davıdov, Morozov, Kolyubakin, Antonovski, Qolm, Sveçin, Karmin** üzvlüyə qəbul olunmuşdular.

Üzvlərin qeydə alınması və qəbulu çox diqqətlə aparılırdı. Bizim bu simaları yaxşı tanımağımıza baxmayaraq, əvvəlcədən iki nəfər tapşırıq əsasında onlar haqqında məlumat toplayır və bundan sonra həmin məlumatlar ayrı bir adama təqdim olunur, həmin adam isə masonluğa ərizə vermiş şəxsin qəbulu haqqında məsələ qaldırır. Qəbul edilən üzvlərin sayı artdıqdan sonra təşkilatın leqallaşdırılması haqqında məsələ qalxdı. Fransız masonluğuna aid olduğumuz üçün Parisdən leqallaşma haqqında razılıq almaq lazım idi. Bunu həddən artıq gizli etmək lazım idi. Buna görə də Fransanın «Böyük Fransa Şərqi» lojasını yaxından tanıyan masonlardan birinin Parisə getməyini gözləyirdik. 1907-ci ilin yazında **Kedrin** və **Kovalevskiyə** danışıqların aparılması işi tapşırıldı.

Payızda geri qayıdan **Kovalevski** iki razılıq sənədi gətirdi ki, buna əsasən də Peterburq və Moskvada lojaların açılmasına icazə verilirdi. Lakin bu razılıq «**Böyük Fransa Şərqi**» masonluğundan deyil, yeganə şotland lojasından alınmışdı. İki mason tipi var idi: «**Böyük Fransa Şərqi**»nin masonları və şotland masonları. «**Böyük Şərq**» tanınmış 33 dərəcədən ibarət idi və tam dini sərbəstlik verirdi. Şotland masonluğu yalnız 18 dərəcədən ibarət idi və Allaha inamı məcburi hesab edirdi. Bu masonlar böyük rol oynamırdılar və heç bir təsiredici qüvvəyə malik deyildilər. Onlar masonluğa qadınları da qəbul edirdilər. Beləliklə, **Kovalevskinin** səyahəti hamı tərəfindən narazılıqla qarşılandı. Biz arzu edirdik ki, ilk növbədə Böyük Şərqlə birləşək və sonra leqallaşma üçün səlahiyyətli nümayəndəni qəbul edək.

**Kedrin** isə heç nə edə bilmədi, belə ki, **Kovalevski** Parisdə ona bildirdi ki, hər şeyi özü həll edib.

1907-ci ilin qışında Moskva ilə məşğul olmaq haqda qərara gəldik. Lakin Moskvada yalnız bir mason – doktor **Bajenov** olduğundan və lojanın qəbulu üçün üzvlərinin sayının ən azı 7 nəfər nəzərdə tutulduğuna görə qərara alındı ki, Moskvaya 7 nəfər göndərilsin. Mən, **Orlov-Davıdov, Marquliyes, Makarov, baron Maydel, Kedrin** və **Demyanov** təyin olunduq. Lojanın iclası doktor Bajenovun mənzilində keçirildi. Qəbulu **Bajenov** usta-təmsilçi simasında aparırdı, mənə isə bütün ayinlərin bilicisi kimi məclisin rəhbəri və müəllimi vəzifəsi tapşırılmışdır. Qəbul üçün knyaz **Urusov**, **Obolenski** (hər ikisi I Dumanın deputatları idi) dəvət olunmuşdular. Mən knyaz Urusovun məndə yaratdığı təəssüratları unutmayacağam. O, həddən artıq diqqətli idi. Buraya şəxsi maraqdanmı gəldiyi və bütün dünya nemətlərimdən əl çəkə bilərmi sualıma çox təmkinlə və heyranedici səmimi səslə cavab verirdi. Beləcə sakitcəsinə öz üstündəki bütün qiymətli əşyaları çıxartdı və mənə verdi. O, tam səmimiyyətlə bütün həyatını, daxili işlər nazirliyində çalışdığı müddətdə nazirin dostu olaraq keçirdiklərini danışdı. Qəbuldan sonra «Azad olunmuş loja» adı ilə Moskva lojası təsis olundu. Usta-təmsilçi vəzifəsinə **Bajenov**, birinci rəhbər – qardaş – knyaz Urusov, ikinci – **Obolenski**, katib – **Qaldovski**, natiq – **Balavinski** seçildilər. Ertəsi gün yenə hamı yığışdı və moskvalılara fransız masonluğunda olan iki cərəyanın fərqləri izah edirdi. Onlar Peterburq qardaşlığının fikri ilə razılaşaraq «**Böyük Şərq**»ə aid olmağı bildirdilər. Parisə getmək və Rusiyada masonluğun leqallaşması üçün Böyük Şuranın səlahiyyətli nümayəndələrinin gəlməsi haqqında danışıqlar aparmaq mənə və Bajenova tapşırıldı.

Qərara alındı ki, fevralın 2-də mən **Bajenovla** bərabər Parisə yola düşək. Peterburqa qayıdarkən Moskva lojasının açılması haqda məruzə etmək üçün **Kovalevskinin** mənzilində bütün masonların ümumi yığıncağı keçirildi. Hamının razılığı və təsdiqi lazım idi. Bu zaman Rusiyada bütün təşkilatlara məxsus və məlum səhnələr oynanıldı. Hamının acığına olaraq **Kovalevski** yığıncağın sədri vəzifəsinə qraf **Orlov-Davıdovu** təqdim etdi. İri, dumanlı, yöndəmsiz **Orlov-Davıdov** tipik degenerat, öz qeyri-adi axmaqlığı ilə fərqlənirdi. Həddən artıq ağılsız və öz fikirlərini hamının yanında bərkdən demək onun vərdişi idi. Sədrlik etmək vəzifəsində qətiyyən vərdişi olmayan bu şəxs özünü itirdi və nəticədə qarışıqlıq yarandı. Mən Moskvada baş verənlər haqqında məruzəmi qurtaran kimi Kovalevski bildirdi ki, o çıxıb gedir və arzu edən varsa ona bildirsin. Əlbəttə ki, **Kovalevskinin** bu uğursuz bəyanatı, çoxlarına təsir etdi, ilk olaraq **Kedrin Kovalevskiyə** etirazını bildirdi və əsasən ona qoşulmaq istəyənlərin üzərinə düşdü. Aydın olmurdu

ki, nə üçün iclasın əvvəlindən, hələ heç açılmamışdan çoxuna elə gəlirdi ki, burada nə isə var. **Kovalevski Kedrinlə** üzləşən kimi iclasın gurultulu xarakter almasına şərait yarandı. Elə anlar olurdu ki, qışqırıq zamanı yaxına gəlir və bir-birinə əl-qol atırdılar. Hamının keçirdiyi bütün bu dəhşətli və ağır hiss, yəqin ki, səmimi olan ümumi gülüş sədr və **Kedrin** arasında olan səhnədən sonra baş verdi. **Orlov-Davıdov** yerindən qalxaraq **Kedrini** özünə tərəf çəkdi və danışmağa qoymadı: «Yenə də təkrar edin». **Kedrin** dözə bilmədi və elə güldü ki, hamı ixtiyarsız onun gülüşünə səs verdi. Gülüş səslərinə baxmayaraq hamı baş verən parçalanmanı anlayaraq kefsiz idi. Bilmirəm, başqaları necə, lakin mənə tam aydın idi ki, parçalanma elə böyük olmasa da, təşkilatın möhkəmliyi üçün təhlükəli idi. **Kovalevski** ilə yalnız onun ən yaxın dostları **Qambarov, İvanyukov, de Roberti** və **Aniçkov** qaldılar. **Aniçkov Kovalevskiyə** yanaşaraq, sonradan bizim hamımızın ayrı-ayrıca qulağına pıçıldayırdı ki, o, bununla olacaq. Nə istədiyini bilməmək **Aniçkova** xarakter bir hal idi, lakin bu faktın özü göstərir ki, təşkilata ideyanın özünü tam anlaya bilməyən adamlar qəbul olunub. Nə qədər çalışsalar da **Kovalevskini** razı sala bilmədilər, heç nə etmək mümkün deyildi. O öz qərarında israrlı idi. **Kovalevskin**i itirmək, ən əsas isə masonluğun yarandığı gündən əmələ gələn iki cərəyan sonrakı uğurlar üçün mənfi hal idi. Hələ Moskvada qərara alındığı kimi, mən **Bajenovla** birgə fevralın 2-də Parisə yollandıq. Ali Şura bizim ərizəmizi qəbul etdi və qərara alındı ki, Şuranın iki üzvü **Bule** və **Senşol** (**Boulet**, **Sincholl**) ezamiyyətə göndərilsin. Ezamiyyətin xərcləri, hər birimiz min frank ödəmək şərti ilə üzərimizə düşdü. Min frankı qraf **Orlov-Davıdov**, digərini isə Peterburq və Moskva lojaları ödəməli oldu. Biz Ali Şuraya təqdim olunduq. Qrosmeyster vəzifəsində o zaman parlamentdə radikalların lideri olan deputat Lafer tuturdu. Həmin dəqiqə **Bajenov** və mənə 18-ci dərəcə verdilər və bizimlə hesablaşmağa başladılar. Hamı bizi təbrik edirdi və bizim əməllərimizdən uğurlar gözləyirdi. Biz mason toyunda olduq və toyun bütün adətlərini öz gözlərimizlə gördük. Demək olar ki, mərasimin özü və ayinlər həddən artıq maraqlı və təntənəli idi.

Fransızların Rusiyaya gəlişi 1908-ci il mayın 8-ə təyin olunmuşdu. Biz təntənə ilə qayıtdıq: mən Peterburqa, **Bajenov** isə Moskvaya. Mənim qayıdışımdan sonra yenidən yığıncaqlar keçirdik və yeni qardaşların qəbulu başlandı. İlk iclasda **Kovalevskinin** çıxması ilə əlaqədar olaraq, yeni vəzifələrə seçkilər başlandı. Usta-nəzarətçi vəzifəsinə **Orlov-Davıdov** seçildi, belə ki, onun maliyyə imkanları masonların ehtiyaclarına kömək edə bilərdi, lakin qrafın xəsisliyi bu işdə çətinlik törədirdi. O nə isə verəndə özünü elə aparırdı ki, onunla danışmaq adamın ürəyini bulandırırdı. Mənim

üçün ən ağır o idi ki, mütəmadi olaraq onunla danışıqların aparılması mənə tapşırılırdı. Lojaya üzvlük haqqını hamı müəyyən olunmuş tərzdə ödəyirdi. Hər bir iclasdan sonra müəyyən olunmuş dərnək rüsumuna isə o həmişə 1 manat atırdı. Sonra dəvət olunmuş fransızların gəlməsinə 1000 frank, Ali Şuraya seçildikdən sonra isə eyni zamanda 3000 manat ödədi. Katib və xəzinədar yenə də mən, natiq **Marquliyes**, birinci nəzarətçi **Kedrin**, ikinci – baron **Maydel** seçildik. Lojanın iclasları yalnız mənim evimdə keçirilirdi. Bütün işlərin aparılması mənə tapşırılmışdı, qeydlərin aparılması, pulun verilməsi və görüşlərin keçirilməsi işlərini mən etməli idim. Yeni qəbul edilmiş şəxs yalnız məni görməli idi və mən ona ilk təlimatları verməli, qəbula ötürməli idim. Ehtiyatlı olduğumdan evdə heç bir siyahı saxlamırdım. Adların hamısını çalışırdım yaddaşımda saxlayım, üzvlük haqqı haqda qeydləri isə öz köhnə telefon kitabçamda hər bir familiyanın qarşısında deyil, familiyanın baş hərfi üzrə qeydə alırdım. Hər üç aydan bir mən hesabat verirdim ki, hər bir xırdaçılığı yadda saxlamaq asan olsun. Əvvəlcədən hazırlandığı kimi 1908-ci il mayın 8-də iki fransız gəlib çıxdı. Onları qarşılamaq üçün vağzala mən və qraf **Orlov-Davıdov** getdik. Onları İsaak meydanında yerləşən «İngiltərə» mehmanxanasına apardıq. Kofe içdikdən və fransızlara paltarlarını dəyişmək imkanı verdikdən sonra biz **Orlov-Davıdovla** bərabər onları Krestıya qısa bir ayin keçirmək üçün **Marquliyesgilə** apardıq. Bu gəzinti haqqında mən artıq I Dövlət Dumasının həbs olunan üzvlərinin Krestıya göndərilməsini əks etdirdiyim yazıda artıq yazmışdım. Bu haqda mən əvvəllər heç bir masona deməmişdim. Yalnız bu yaxınlarda masonların gəlməsi ilə əlaqədar **Orlov-Davıdova** öz planımı açıqladım. O mənim cəsarətimə heyrətləndi, lakin həmin andaca razılaşdı. **Marquliyesin** özünə bir neçə gün əvvəl bu haqda danışmışdım və o, əvvəlcə razılaşdı və bir neçə gündən sonra isə məktub göndərərək bu ağlasığmaz hərəkəti etməməyi məsləhət gördü. Yalnız bundan sonra mən öz cəsarətimdən qorxmağa başladım. Fikirləşdim ki, əgər uzun müddət düşünsəydim belə bir səyahətə cəsarət etməzdim. Bunu yalnız güclü ehtirasın nəticəsində etmək olardı ki, mən də belə bir vəziyyətdə olmuşdum. 3 saat ərzində elə həmin gün lojanın leqallaşması və təşkili üçün təntənəli iclasın vaxtı təyin olundu. Biz həbsxanadan qayıdan kimi **Bajenov** da mehmanxanaya gəldi. Səhər yeməyini mehmanxanada yedik. Yeməkdən sonra mən qaydaya uyğun olaraq, lazımi hazırlıq görmək üçün onlardan ayrıldım. Mənim o zaman öz mənzilim yox idi, belə ki, köhnə mənzilimi qızlarımın getməsi ilə əlaqədar olaraq kirayəyə vermişdim, yenisi isə təmir olunurdu. **Orlov-Davıdov** da təmir etdirirdi və biz belə qərara gəldik ki, **Maklakovun** mənzilindən istifadə edək. Onun mənzili həm də ona görə rahat

idi ki, bu qədər adamın günün günorta çağı deputatın evində yığışması heç bir şübhə doğurmazdı. Artıq saat 2-də hamı yığışmışdı. Mən stol və stulları düzdüm, bütün mason əşyalarını gətirdim, bir sözlə, otağı lazımi vəziyyətə saldım. Üç saatdan sonra **Orlov-Davıdov** və **Bajenov**la bərabər fransızlar gəlib çıxdılar. Burada **Bajenovun** nəzarətsizliyi ucbatından sonrası pis nəticəyə səbəb ola biləcək bədbəxtlik baş verdi. Bajenov mason kitablarını avtomobildə unutduğuna görə sürücü onları qaraja apardığından onları görə bilərdi. Buna görə də kitabları xilas etmək üçün qaraja yollandılar. Mən fransızları onlar üçün ayrılmış otaqlara apardım. Fransızlar və digərləri öz yerlərini tutdular. Həmin gün dəvət olunanlar arasında **Kovalevski** və onunla bir neçə ayrılmış mason qardaşları da var idi. Onlar üçün xüsusi yerlər hazırlanmışdı. Qonaqlara ayrılan yerlər sədrin arxa hissəsində yerləşirdi. Mən fransızları gətirməli idim, lojanın yanında düz qapının ağzında Orlov-Davıdov onları iki nəzarətçi-qardaşla bərabər qarşıladı. Salamlaşdıqdan sonra **Bule** usta-nəzarətçi, **Senşol** birinci nəzarətçi, Bajenov isə ikinci nəzarətçi, mən isə katib yerini tutdum, natiq isə **Maklakov** idi. Lojanın təşkili mərasimi başladı. Ayin keçirilərkən mən fransızların gətirdiyi Ali Şura tərəfindən göndərilmiş sənədi (qramota) təqdim etdim. Loja «Dan ulduzu» adını aldı. Bundan sonra bütün iştirakçılar iki nüsxədə, biri bizim üçün, digəri Parisə göndərilməklə andlı sözvermə sənədinə imza atdılar. Sonra fransızlar gözəl nitqlər söylədilər. Qəbul olunduğu kimi onlara natiq-qardaş cavab verirdi. Bundan sonra hamı iclası tərk etdi. Yalnız mən, **Orlov-Davıdov, Kedrin, Bajenov, Maklakov** və baron **Maydel** qaldılar. Mən və **Bajenov** Parisdə olduğumuza görə 18-ci dərəcəni aldıq. Adları qeyd olunan şəxsləri də 18-ci dərəcəyə qaldırmaq lazım idi, çünki şuranın yaranması üçün lazımi sayda üzv tələb edilirdi. **Marquliyes** üçün də bu dərəcə söz verilmişdi. Bizə tapşırıldı ki, o, «Krest»dən çıxan kimi mərasimi yerinə yetirək. 18-ci dərəcəli şura elə məsələlərin həllinə baxırdı ki, onlar haqqında lojanın xəbəri olmamalı idi. Hər şey saat 7-də bitdi, 8-də isə hamı **Denonun** evində nahara yığışdı. Nahar çox canlı keçdi, yəni gecə saat 3-ə kimi oturduq. İkinci gün biz fransızları şəhəri göstərməyə apardıq, «Medved» restoranında nahar etdik və saat - 11-də Nikolayevski dəmir yolu vağzalından Bajenovla bərabər Moskvaya lojanın təşkilinə yollandıq. Moskvada mərasim təxirə salınmışdı. Belə ki, üzvlərin sayı az idi, fransızlar bir gün qalaraq, oradan Parisə yollandılar. Beləliklə, demək olar ki, **Stolıpinin** və onun çoxsaylı xəfiyyələri qarşısında, bütün yığıncaqlara qoyulan sərt məhdudiyyətlərə baxmayaraq, bütün qaydalara uyğun olaraq mason ayini keçirildi. Masonlar tez-tez həbsxanaya baş çəkirdilər, iki paytaxt şəhərdə loja təşkil edilmişdi, **Stolıpinin** hökuməti isə heç nədən şübhələnmirdi. Bu azmış kimi təzə mənzilimdə mən əsl loja

qurmuşdum, hətta mebel xüsusi sifarişimlə qurulmuşdu. Dörd otaqdan ibarət mənzilim keçmiş klubun üstündə idi. Belə ki, düşünürdüm ki, evimdə yığıncaq olanda, heç kəs şübhələnməyəcək, çünki aşağıda hər gün kadetlərin duma fraksiyası yığışırdı. Loja üçün otaq dəhlizin sonunda yerləşirdi və pəncərələri küçəyə açılırdı. Bu da **Stolıpin** üçün əbədi olaraq sirrə çevrildi. Biz demək olar ki, sakitcə yığışırdıq və gərgin fəaliyyətlə məşğul idik. **Perqament, Bukeyxanov, Çernosvitov, Nekrasov, Karaulov, Rozanov, Qolovin (II Dumanın keçmiş sədri), Kileveyn, Kuzmin-Karavayev,** knyaz **Maksudov,** general **Subbotin, Simonov**, **Veretennikov, Buslov**, dvoryanların fəallarından olan Dmitriyev, professor **Qordeyenko**, knyaz **Eristo**v, doktor **Svetlovski, İzmayilov**, dörd atıcı-zabit və bir artilleriyaçı avqustda keçirilən iclasda lojaya qəbul edildilər. Sentyabrda Parisdə keçiriləcək masonların illik konventində iştirak edəcək nümayəndələrin seçkisi oldu. Mən, **Orlov-Davıdov və Marquliyes** nümayəndə seçildik. **Orlov-Davıdov** son anda xəstələndi və konventdə iştirak edə bilmədi. Məncə o sadəcə olaraq qorxmuşdu. **Stolıpinin** dayısı oğlu, hər halda ələ keçmək istəməzdi. Konventdə yalnız mən və Marquliyes iştirak edirdik. Konvent əsasən bir həftə keçirilir, sonra iki nahar verilir: biri bütün dərəcələr üçün, digəri 18-ci dərəcə üçün. Konventdə qərarlar çıxarılır, hökumətə sorğular göndərilir ki, bu da konventin qərarları şəklində olur. Yığıncaqlar parlament xarakteri daşıyırdı. Biz bütün yığıncaqlarda iştirak etsək də, mübahisələrə qoşulmurduq. Biz eyni zamanda iki naharda iştirak etmişdik. Əslində biz leqallaşmışdıq, biz qanuni hesab olunurduq, lakin bütün bunlar bəs deyildi. İki lojanın və 1-ci dərəcəli şuranın təşkilindən sonra bütün dünya masonlarına rəsmi surətdə müraciət edilməli, sonra isə ardıcıl olaraq mətbuatda bu haqda bəyanat verilməli idi. Siyasi vəziyyətimizi nəzərə aldığımıza görə bunu edə bilmirdik. Lakin buna baxmayaraq başqa cür hərəkət etdik. Bütün ölkələrin masonları ilə görüşmək və şəxsən onlara özümüz haqda xəbər vermək, eyni zamanda mətbuatın açıqlamasından qaçmaq məqsədilə ölkələrə bir-bir səyahət etmək qərarına gəldik. Noyabr ayında biz öz konventimizi, yəni bütün masonlarımızı yığmaq qərarına gəldik. Birinci gün bizdə yığışdıq. Sədrliyi **Kovalevski** edirdi. İkinci gün – **Orlov-Davıdovgildə** yığışdıq, sədr mən idim, üçüncü gün – yenə də bizdə, sədr **Qolovin** idi. Konvent üç gün davam etdi. Konventdə qərara alındı ki, ilk növbədə Ali Şura seçilsin. Seçkilər gizli keçirilirdi, qeydləri yalnız mən çap etməli idim və yalnız mən qərarı üç şəxsə ən çox səs toplayanlara - çatdırmalı idim. Bu şəxslər əlavə olaraq üç adamı qəbul etmək hüququna malik idilər. Ali Şuraya daxil olan şəxslərin adı mən istisna olmaqla heç kəsə açıqlanmamalı və Şura yalnız mənim vasitəmlə masonlara göstərişlər verməli, habelə masonlar da yalnız

mənim vasitəmlə Şura ilə əlaqələr yaratmalı idi. Qərara alındı ki, 18 dərəcəlilərin Şurasına vəzifəli şəxslərin seçilməsi keçirilsin. Bu seçkilər yalnız o şəxslər arasında keçirilirdi ki, onlar bu dərəcəyə çatmış olsunlar. Nəhayət qərara alındı ki, bütün iri şəhərlərdə mason lojaları açılsın. 18-lərin şurasına sədr mən, birinci nəzarətçi – **Kovalevski**, ikinci – **Kedrin**, katib – baron **Maydel**, natiq **Marquliye**s seçildik. Mən Daimi Əlaqələr üçün seçildiyimə görə Ali Şuraya namizəd ola bilməzdim. Ali Şuraya seçilənlər knyaz **Urusov, Qolovin** və **Marquliye**s oldu. Mən nəticələri görən kimi məndə qeyri-adi hiss yarandı, nə isə böyük xoşagəlməz hadisələrin olacağı ağlıma gəldi. Hisslərim məni aldatmadı. Ümumiliklə mason təşkilatının bütün ideyasına baxmayaraq, bizim belə bir vəziyyətimizdə, masonların bir-birini sevəcəyi haqqında and içdiyinə baxmayaraq, bəzilərimizdə şöh-rətpərəstlik daha güclü oldu və tezliklə pərdəarxası intriqaların başlanmasına səbəb oldu. Bajenov və Qaldovski, xüsusilə birinci, seçilə bilmədiklərinə görə razılaşa bilmirdilər, eyni zamanda əlavə seçkilərdə də uğursuzluq onların narazılığını daha aydın büruzə verdi. Marquliyes burada özünü göstərdi; Şuraya seçilməsi öz həyasızlığına görə və qeyri-adi intriqaçılıq məharətinə görə baş verdi. O, çoxunu inandırdı və özünə səs qazana bildi. Onun Ali Şurada olması və düşük həyasızlığı tezliklə çoxu üçün dözülməz oldu. 18-lərin elə birinci yığıncağında **Qolovin** və **Urusovun** bu dərəcəyə çatdırılması qərara alındı. Ona görə yox ki, onlar Ali Şuraya seçilmişdilər (onların seçilməsi hamı üçün sirr idi). Onların, fəaliyyətləri bunu tələb edirdi. Onlara 18-ci dərəcə verilməsi ayinini mən keçirdim, demək lazımdır ki, onların hər ikisi diz çökərək and içdiyi zaman çox təntənəli oldu. Öz səmimiyyətləri ilə onlar hamıda dərin təəssüratlar yaratdılar. Ali Şura yığıldığı zaman, həmin andaca digər şəhərlərdə lojaların təşkili və digər ölkə masonları ilə münasibətlərin yaradılması məsələlərinə baxıldı. Qərara alındı ki, yerlərdə lazımi şəraitin yaradılması üçün yeni adamların axtarılması tezləşdirilsin. Qarşıya qoyulmuş məsələlərin həlli üçün pul lazım idi, ümumiyyətlə, digər işlərin də ehtiyacını ödəmək üçün fondun yaradılması qərara alındı. Qərara alındı ki, **Orlov-Davıdov** lazımi vəsaitin ödənilməsinə göstərdiyi köməyə görə Ali Şuraya qəbul olunsun. Mən qardaşlara danışdım ki, **Orlov- Davıdov** siyasi məsələlər üçün ayda iki min rubl verməyə imkanı olduğunu mənə bildirib. Səhərisi gün **Orlovu** dəvət etmək və **Urusovun** ona müraciət etməsi planlaşdırıldı. Belə fikirləşirdim ki, **Orlovla** danışmağın yollarını **Urusova** başa salmaq gərək deyil. **Urusov** danışmağa başlayan kimi, Orlovun sifətində uzağı görməyi bacarmayanlara məxsus təbəssüm gördüm. «Deməli, belə, siz məni bura mənim şəxsiyyətimə görə yox, pullarıma görə dəvət etmisiniz». Mənə elə gəlirdi ki, mən bunu **Orlovun**

qəlbindən eşidirdim. Araya bir neçə söz atırdım ki, Urusov məni başa düşsün. Lakin **Urusov** birdən **Orlova** bildirdi ki, onun hər ay iki min manat vermək fikrini mən bildirmişəm. Bu sözləri eşidən **Orlov** başladı ki, indi şəkər zavodu ilə məşğuldur, hətta şəxsi xərclərinə belə pulu çatmır. İndi yalnız 3000 verə bilər, imkanı olan kimi isə özü gətirib pul verəcək. Yığıncaq qurtaran kimi, **Orlov** hamının çıxmağını gözlədi və məni sorğu-suala tutdu. Mən ona Ali Şuranın qardaşları ilə olan söhbətlərimizi açıq-aydın danışdım və onun düzgün hərəkət etmədiyini başa saldım. Nəhayət, mənə elə gəldi ki, o məni anladı, belə ki, Şurada etdiyi səhvləri düzəltməyə söz verdi. Mən gözləyirdim ki, növbəti iclasların birində o özü danışacaq və öz hərəkətini düzəldəcək, lakin mən səhv edirdim. Görünür, anadangəlmə simiclik onu irəli getməyə qoymadı və verdiyi 3000 manatla kifayətləndi. Yaxın iclasların birində mən Kiyevdən olan deputat **Luçitskinin** namizədliyini irəli sürdüm. Şura qərara aldı ki, əgər **Luçitski** masonluğa daxil olmaq istəsə, onun əsas vəzifəsi Kiyevdə mason ideyasını təbliğ etməkdən ibarət olacaq. Mənim təklifim qəbul olundu və iki nəfər Luçitski ilə söhbət aparmaq üçün ayrıldı. Qayda belə idi: əvvəlcə kimsə başqa birisini qəbul üçün təklif edir və müzakirə başlayır. Əgər məsələ müsbət həll olunsa iki nəfər adı çəkilən adam haqqında məlumat toplamaq üçün ayrılır. Növbəti iclasda əldə olunan məlumat müzakirə olunur və əgər onlar kifayət qədər olsa, ilk dəfə təklif edən qardaşa tapşırılır ki, həmin adamın masonluğa qəbul olunmaq arzusunu öyrənsin. Müsbət cavab alındıqdan sonra iki yeni qardaş seçilir ki, adı qeyd olunan şəxsin yanına ayrı-ayrılıqda getsinlər və özlərini təqdim etmədən sual vərəqinə əsasən əvvəlcədən onun müxtəlif məsələlərə münasibətini öyrənsinlər. Bu seçilmiş qardaşlar təqdim edəndən əvvəl həmin şəxsin yanına getməlidirlər ki, heç nədən ehtiyat olunmasın. Təyin olunmuş qardaşların məruzəsini eşitdikdən sonra loja həmin şəxs haqqında müsbət qərar verilirdisə qəbul günü də təyin olunurdu. Beləliklə, loja qəbul olunma qərarını verənə qədər dörd iclas keçirməli idi. Belə ciddi nəzarət elə təəssürat yaradırdı ki, masonluğa hər hansı bir araqarışdıran qəbul olunmamasına təminat verilir. Ola biləcək provokasiyanın qarşısını almaq üçün qərara alındı ki, Parisdə yerləşən Ali Şuradan xahiş olunsun ki, bizim əvvəlcədən hazırladığımız məlumat olmadan heç bir fransız lojası bir nəfər də olsun rus qəbul etməsin. Bizim bu qərarımız böyük səmimiyyətlə qəbul olundu və bizim müraciətimiz müsbət qarşılandı. Ola bilər ki, məhz bu addım bizim üzə çıxmağımızın qarşısını aldı. Sonra bir çox mason simvolları polisə məlum ola bilməsini nəzərə alaraq biz qərara aldıq ki, ümumi mason simvollarından başqa əlavə öz xüsusi simvollarımızı yaradaq. Qərara alındı ki, xarici simvolları gəzdirənlərə etibar olunmasın və yalnız öz rus simvollarımızı

gəzdirənlərlə münasibət yaradaq. Bununla yenə də biz özümüzü ehtiyatlı aparırdıq.

**Luçitski** masonluğa qəbul olunmağına hazır olduğunu bildirirdi və o qəbul olundu. Ona Kiyevdə hazırlıq işlərinin aparılması tapşırıldı. Elə bu zaman o, Kiyevə milad tətilinə gedirdi və bu məsələ ilə tam məşğul ola bilərdi. Ali Şura qərara aldı ki, qərb masonları ilə münasibətlərin yaradılması məsələsini təxirə salmasın. Bu məqsədlə **Urusov, Marquliyes** və mən ezam olunduq. **Marquliyes və Urusov** İsveçrəyə, İtaliyaya və Budapeştə, mən isə Kiyev və Odessaya getməli idim ki, yerlərdə loja yaratmağın mümkünlüyünü yoxlayım. Sonra isə Konstantinopola səfər edərək oradakı mason və Gənc Türklərlə əlaqələr yaradım. Mən Odessa və Kiyevdə loja açılması münasibətilə yenidən ora getmək üçün Konstantinopolda **Urusov** və **Marquliyesi** gözləməli, 1908-ci ilin dekabr ayının son günlərində getməli idik. **Urusov** və **Marquliyes** tapşırıq məktublarını almaq üçün Parisə, mən isə Kiyevə yollandım. Kiyevdə mən **Luçitski** tərəfindən qarşılandım. O da I Dövlət Dumasının deputatı baron **Ştеyn** ilə söhbət apardığını və biz qayıdanadək loja açmaq üçün mümkün qədər mason toplayacağını bildirdi. Mən Odessaya yollandım. Orada mən andlı nümayəndə **Ratnerlə** görüşməli idim. O mənim gəlişim haqda xəbərdar idi. **Ratner** hələ mason olmadığından, mən ona təşkilatımızın işi haqqında açıq-aydın məlumat vermədim, yalnız masonluğa daxil olmaq istəyənləri axtarmaq və hazırlıq görmək işini tapşırıb iki həftədən sonra qayıdıb söhbət edəcəyimi dedim. Ertəsi gün paroxod sahildən aralandı və 1909-cu il yanvarın 3-də axşamçağı Konstinopola çatdı. Səhərisi gün milliyyətcə erməni olan **Naradunqiyanın** yanına getdim. Fransız masonu və Gənc Türklər Partiyasının üzvü olan bu erməni gəlişimin məqsədini bilən kimi sevindi və həmin andaca dostlarına zəng etdi. Türklərin çoxu italyan masonluğuna aid idi. Mason lojalarının çoxu, əsasən, Salonikdə yerləşirdi. Konstantinopola köçürülməmişdən əvvəl Parisdən dönərkən elə oradaca əvvəllər Gənc Türklərin Mərkəsi Komitəsi olan «Birlik və Tərəqqi» komitəsi yerləşirdi. İki gün ərzində məni **Naradunqiyan** Konstantinopolda yerləşən əsas masonlarla, xüsusilə deputat **Karasso** və **Tələt bəylə** tanış etdi. Milliyyətcə yəhudi olan **Karasso** andlı nümayəndə idi və Salonikdən deputat seçilmişdir, Tələt bəy də Salonikdən idi. Gənc mayor **Ənvər** bəy isə Gənc Türklər Partiyasının və ordunun fəxri, bütün hərəkatın başçısı idi. Söhbətindəki ciddilik adamı valeh, nitqindəki məntiq isə heyran edirdi. **Naradunqiyan** həmçinin daşnaksütyunçuların nümayəndəsi ilə də söhbət imkanı yaratdı**. Əhməd Rza** ilə görüşü **Marquliyes** və **Urusov** gəlməyincə etməmək qərarına gəldim. **Əhməd Rzanı** hələ Parisdə keçirilən iclas zamanından tanıyırdım. Gənc türklər

bütün görüşlərini erməni **Tokatlıyanın** restoranında keçirirdilər. Bu yeganə yaxşı restoran idi. **Tokatlıyanın** özü də mason idi. Restoranın üstündə yenidənqurma işləri gedirdi. Burada mehmanxana quraşdırılır və eyni zamanda mason lojası üçün yer hazırlanırdı. Görüşlərimiz ümumi zalda deyil, gizli otaqda keçirilirdi. **Tokatlıyan** müştərilərin nəzərindən uzaq olsun deyə hər birimizi ayrı ayrılıqda bu otağa gətirirdi. Konstitusiyaya baxmayaraq, gənc türklər üçün ehtiyatlı olmaq vacib idi. Elə mən özüm də istəmirdim ki, bizim görüşlərimiz haqqında kimsə xəbər tuta bilsin. Çox ehtiyatlı olmağa çalışırdıq, belə ki, bizim hökumət hətta burada rus qaydalarını qurmaqdan da utanmırdı. Küçələrdə tez-tez rus xəfiyyələrinə rast gəlmək olardı ki, hətta bu yad ölkədə öz stillərini dəyişə bilmirdilər və ənənəvi çətir və qaloşlarından da əl çəkmirdilər. Mehmanxanada mən özümü turist kimi tanıtmışdım, şəhəri gəzmək üçün qəsdən ekskursovod götürürdüm, görüşlərə gedəndə isə tək çıxırdım və ayaqla gedirdim. Mənim bəxtim gətirmişdi, ekskursovodum italyan və qatı inqilabçı idi. Onu **Naradunqiyan** yaxşı tanıyırdı. On gündən sonra **Marquliyes** və **Urusov** gəlib çıxdılar. Onlar İsveçrədə, İtaliyada və Budapeştdə olmuşdular. Hər yerdə xoş qarşılanmış və lazım olan münasibətləri qura bilmişdilər. Konstantinopola Əhməd Riza üçün masonların qrossmeysteri **Lafer** tərəfindən göndərilmiş məktub gətirmişdilər. **Əhməd Rza** mənim gəlişim haqda **Tələt bəy** və **Karasso** tərəfindən məlumatlanmışdı və bilirdi ki, onunla görüşmək üçün **Marquliyes** və **Urusovu** gözləyirəm. Hər üçümüz parlamentə gəlib **Əhməd Rzaya** öz kartlarımızı göndərən kimi həmin an bizi qəbul etmək istədiyini bildirdilər. Parlamentdə qayda belə idi: parlamentin qapıları bağlı idi və gənc türklərin adamları tərəfindən qorunurdu. Gələn adam öz kartını qapının ağzında yerləşən balaca köşkdə əyləşən məmura təqdim edir və küçədə gözləyir, razılıq gələn kimi içəri keçirilir. Biz gələndə və məktubla bərabər kartlarımızı **Əhməd Rzaya** təqdim edən kimi, həmin andaca qəbul olunduq. Pilləkənlərin üstündə bizi **Tələt bəy**, qapının yanında isə **Əhməd Rza** özü qarşıladı. Bu görüş parlament qarovullarına elə təsir bağışlamışdır ki, ikinci dəfə bir də parlamentə gələndə artıq kartoçkalarımızı təqdim etməyimiz lazım olmadı. Qarovulun başçısı – gənc türk, hər birimizin çiyninə toxundu və içəri dəvət etdi. **Əhməd Rza** bizi qeyri-adi ehtiramla qarşıladı. Qəbul olunmuş qaydaya əsasən kofe gətirdilər. Kabinetdə Tələt bəy və hansısa müxalifətçi şahzadə oturmuşdu. Biz, cəmi yarım saat otura bildik, **Əhməd Rzaya** iki kartoçka gətirdilər. **Əhməd Rza** bizə yalnız bu sözləri deməyə vaxt tapdı: «Vaila vous serez en compagnie des amis», otağa **Quçkov** və səfirliyin draqomanı **Mandelştam** girdi. Bu fiquru görçək, biz həmin andaca **Əhməd Rza** ilə vidalaşdıq və **Quçkovla**

görüşməyib çıxmağa tələsdik. Çıxanda mən bəyə mason işarəsi edərək, onunla söhbət etmək istədiyimi bildirdim. Biz dəhlizdə olanda, ona **Quçkovun** necə «dost» və necə liberal olduğunu başa saldım. **Tələt bəy** buna görə mənə təşəkkür etdi və dedi: «Əmin ola bilərsiniz ki, **Quçkova** kofe verməyəcəklər». Ümumiyyətlə, **Quçkovun** qəbulu, hətta səfirliyin draqomanının müşayiəti ilə təntənəli başlansa da, tamamilə başqa cür idi. Parlamentin iclası başlayan kimi bizi lojaya tərəf ötürdülər. Tamaşaçılar üçün yerlər çox orijinal düzülmüşdü. Təmtəraqlı xalçalı lojalarda iri, dümağ kreslolar düzülmüşdü. Yəqin ki, onlara heç böyük ehtiyac da yoxdur. Tamaşaçılar demək olar ki, yox idi, olanlar təsadüfi gəlmiş əcnəbi qonaqlar idi. **Quçkov** da lojaya tərəf ötürüldü. Ona hər dəfə deputatların adlarını deyən və başa salan, bizi diqqətlə izləyən Mandelştam aşağıdan bir çox deputatların bizə baş əyməsini görüb təəccüblənirdi. Əlbəttə, **Quçkovdan** artıq bizim kim olduğumuzu öyrənmişdir. Bunu bir ildən sonra Peterburqda Bryançanikovun evində keçirilən ziyafətdə Mandelştamın özündən öyrənmişdim. O, Gənc Türklər təşkilatı haqqında danışdıqdan sonra mən bir daha əmin oldum ki, bizim cənablar öz qarşılarında duran vəzifənin əsas məsələsi haqqında çox az bilirlər. Gənc Türklər – masonlar, olub, on nəfər üzvdən ibarət Gənc Türk Komitəsini təşkil edir ki, bu on nəfərin hər biri on nəfərdən ibarət təşkilat təşkil edir, onların da hər biri on nəfərdən ibarət yeni təşkilat qurur və i.a. Hər bir qrupun on nəfəri yalnız bu qrupu təşkil edən şəxsi tanıyır. Mason təşkilatından başqa onlarda fədailər də var ki, bu təşkilat da İtaliyada yadellilərə qarşı gizli silahlı dəstə olan karbonariləri xatırladırdı. Fədailər qılınc və Qurana and içirlər. Gətirən şəxsləri heç vaxt bilmirlər. Fədai olmaq istəyən şəxsi andiçmə mərasiminə, üzünə maska tutan adam aparır ki, heç bir fədai onun kim olduğunu bilməsin. Yolda bu adamlar dəyişir və onların kim olduğunu qətiyyən tanımaq mümkün olmur. Sonra onları sınaqdan keçirirdilər, and içdirənlər isə maskada qalırlar. Orduda təbliğatın aparılması isə **Ənvər bəyin** sözlərinə görə bizdən çox fərqlənirdi. Onlarda yalnız gənc zabitlər cəlb olunurdular. Bu onunla aydınlaşdırılırdı ki, gənc zabitə təbliğ etmək çox asan idi. Belə ki, yaşlılar çox zaman evli və imkanlı olduğuna görə riskə getməyə razı olmurdular. Əsgərlər arasınla təbliğat qəti qadağan idi. Zabitlərdən tələb olunurdu ki, onlar kazarmalarda yaşasınlar və əsgərlərlə yaxın münasibətdə olub onların qayğısına qalsınlar ki, əsgərlər zabitlərə görə hər bir riskə getməyə hazır olsun və onları müdafiə etsinlər. Bax, beləcə onlar arasında aparılan təbliğat işini düzgün hesab etmək olardı. Biz **Tokatlıyanın** restoranında mütəmadi görüşlər keçirərək, şəhərdə on gün də qaldıq. Sonra üçümüz Konstantinopoldan Odessaya yola düşdük.

Andlı nümayəndə **Ratner** bildirdi ki, mason olmaq istəyən dörd nəfər tapmışdır. Ertəsi gün qərara alındı ki, onları **Ratnerin** evinə yığaq və qəbuluna başlayaq. Lojanın təşkili üçün beş nəfərin olması kifayət deyildi, yeddi nəfər tələb olunurdu. Buna görə qərara aldıq ki, hələ ki bu adamları qəbul edək, sonra isə arzu olunanlar tapıldıqda yenidən gəlib loja təşkil edərik. Qəbul zamanı kiçik bir hadisə oldu ki, bu da bizi bir qədər təşvişə saldı. Gələnlərdən iki nəfər imtahan olunacaqlarını və ayin yerinə yetirəcəklərini biləndə qəbul olunmaqdan imtina etdilər. Bunu onunla izah etdilər ki, öz üzərlərinə heç bir vəzifə götürmək arzusunda deyillər. **Ratnerdən** başqa kredit cəmiyyətinin direktoru **Subotkin** və **Dumanın** üzvü **Simyakov** seçildilər. Biz Odessaya gələndə Marquliyes bütün yol boyunca bizə başa salmağa çalışırdı ki, onu bu şəhərdə çox yaxşı tanıyırlar və orada olması bizim missiyamıza tam uğur gətirəcək. Lakin Odessada olarkən ilk təşkilatda yəhudinin arzuolunmazlığı haqda bizə bildiriləndə onun yazıq sifətinə baxmaq mümkün deyildi. Odessadan Kiyevə getdik. Burada **Luçitskinin** on bir nəfər adamı var idi. Üzvlərin hər biri çox maraqlı insanlar idi: professorlar, ictimai xadimlər, hətta məhkəmə palatasının prokuror yoldaşı Paxomov da var idi. Qəbul **Luçitskinin** evində aparıldı. Sədrlik işini knyaz Urusov aparırdı, lakin özünü yaxşı hiss etmədiyindən yerini mənə verdi, mən də «Kiyev üfüqü» adını almış lojanı təşkil etdim. Lojanın adınını Ali Şura təyin edirdi. Qəbul olunanların sayı imkan verirdi ki, loja təşkil olunsun. Usta vəzifəsinə **Şteynqel**, birinci nəzarətçi – **Litvinov**, ikinci – **Poltoratski**, katib **- Vyazlov**, natiq isə **Paxomov** seçildilər. Belə təşkilat çox uğurlu hesab olunurdu və artıq altı aydan sonra **Paxomov** qardaşların xahişi ilə Peterburqa ezam olunaraq Ali Şuradan ikinci lojanın açılması üçün razılığın verilməsini istəyəcək. Bu iş yayda oldu. Kiyevə göndərilməyə adam tapılmadı və mən **Paxomova** ikinci lojanın açılması haqqında razılığı ötürərək bildirdim ki, payızda leqallaşma üçün bir nəfər ezam olunacaq. Moskva lojasına isə tapşırıldı ki, Nijni-Novqorodda loja açmağa nail olsun. Saratovda və Kurskda lojanın açılması haqqında danışıqlar aparılırdı. Qafqazdan gələn **Zdanoviçə** isə tapşırıldı ki, orada təşkilat yaratsın. Növbəti ikinci səyahətdə Londona, Berlinə və İsveçə getmək nəzərdə tutulsa da reallaşmadı. 1909-cu ilin fevralında səyahətdən qayıdarkən tez-tez və çox üzvlü iclasların təhlükə törədə biləcəyindən ehtiyatlanaraq qərara alındı ki, əsas loja olan **«Qütb Ulduzu»** tam üzvləri saxlanılmaq şərtilə iclaslar üçün ayrı-ayrı lojalar təşkil olunsun. Yeni qardaşlar məhz bu lojalara qəbul edilsin və yalnız müstəsna hallarda əsas lojaya seçilsin. Lojalardan biri **«Şimal şəfəqi»** adlandırıldı. Usta **- Nekrasov** seçildi, I nəzarətçi **Karaulov**, II – knyaz **Ernstov**, natiq **Çernosvitov** və katib – knyaz **Qolovani** seçildilər.

Növbəti loja – «Peterburq üfüqü» idi. Usta – **Morozov**, I nəzarətçi - **Kuzmin-Karavayev**, II - **Qordeyenko**, katib – **Demyanov**, natiq **Karmin** seçildilər. Ən nəhayət hərbi loja yaratmaq qərara alındı. Usta **Andreyanov**, natiq **Maslovski**, katib isə **Timofeyev** seçildilər. Yığıncaqlar vaxtı-vaxtında keçirilsə də mən onlardan razı deyildim. Tez-tez diqqət edirdim ki, qardaşlar arasında əsl yaxınlıq yoxdur, belə ki, bunsuz masonluq ölümə məhkumdur. Moskvadan tez-tez xəbərlər gəlirdi ki, çoxu **Bajenovla** razı deyillər. Belə ki, o, lazımi qədər ciddi deyil və hədsiz heyvərədir. **Jixaryevin** sosial-inqilabçı olması şübhəsi yaranmışdır. Buna görə məhkəmə qurulmuş, lakin heç bir şübhəli şey tapılmamışdır. Eyni zamanda Dumada sağlar **Maklakovun** masonluğa aid olması haqqında fikir irəli sürəndə qorxu daha da artdı. **«Rus bayrağı»**nda dərc olunan yazıda deyiləndə ki, «Paris lojasında oturan rus knyazının adını çəkə bilərlər», bu qeyd də çoxunu təşvişə saldı. Sözsüz, bu işarə mənə yönəlmişdir. Bununla belə, **Kedrinin** evində aparılan axtarış zamanı mason lenti tapılanda o bildirdi ki, fransız masonluğuna daxildir. Lakin onun bu fikrinə diqqət vermədilər. Bir sözlə elə bir qeyri-müəyyən əhval-ruhiyyə yaranmışdı ki, bəziləri yığıncaqların bir müddət keçirilməməsi fikrini ortaya atırdılar. Yığıncaqların birində **Marquliyes** və **Makarov** balaca bir söz-söhbətə görə gizlənməyə və öz fəaliyyətindən əl çəkməyə razı idilər. Onlar məndən tələb etdilər ki, otağımı adi yaşayış mənzilinə çevirim. Sonra tələb etdilər ki, mən öz diplomumu göstərim və and içim. Məcbur olub diplomu onlara göstərdim. Makarov heç bir qərar gözləmədən, heyvan kimi kağızı elə tezliklə cırdı ki, heç kəs bir söz deməyə vaxt tapmadı. Hamı qışqırmağa başladı, bəziləri etiraz edir, digərləri tərəfini saxlayırdı, heç nə başa düşmək olmurdu. Həmin ay – rus masonluğunun son günü hesab etmək olar. Mən bir daha əmin oldum ki, masonluq ruslar üçün deyil. İnsanlar intizamlı olmalıdır, məgər **Makarov belə bir şeyi etməyi bacarardımı?** Əlbəttə, belə bir sənədi şəxsi mənzildə saxlamaq təhlükəli idi, lakin bu tarixi sənədi cırmaq cinayət kimi qiymətləndirilməlidir. Nəhayət, 1910-cu ilin fevralında on iki qardaşdan ibarət yığıncaq keçirmək qərara alındı ki, bütün şayiələri müzakirə etsin və nə edəcəyimiz haqqında qərar versin. Hər bir loja məsələni müzakirə etməli və mandata malik olan iki qardaş seçməli idi. Yığıncaqda məndən başqa **Qolovin, Kalmanoviç, Morozov, Qordeyenko, Ernstov, Nekrasov** iştirak edirdilər. Moskvadan **Bajenov, Urusov, Kiyevdən Vyazlov, Poltoratski,** Nijni Novqoroddan **Kilveyn və Kiminski,** hərbi lojadan **Maslovski** və **Makarov** gəlmişdilər. Yığıncağın sədri Qolovin seçildi. Əvvəl və birinci bağlanmaq və ya fəaliyyətdə qalmaq məsələsini qoymaq istəyirdilər. Mən danışmaq üçün söz tələb etdikdən sonra Ali Şuranın adından bildirdim ki, bu yığıncağın belə məsələni həll etmək

səlahiyyəti yoxdur, yığıncağın vəziyyəti müzakirə etmək və arzularını bildirmək hüququ var, fəaliyyətdə olmaq və ya müvəqqəti yatmaq (mason ifadəsi) məsələsini isə hər bir lojanın ayrı-ayrılıqda özü həll etməsi burada qərarlaşmalıdır.

Uzunmüddətli və qızğın mübahisələrdən sonra səsvermə başladı. Əksəriyyət fəaliyyəti davam etdirmək istəyirdi. Ancaq deputat **Nekrasovun** israrlı təkidi vəziyyəti dəyişdi. Səslər bölündü və qərara alındı ki, hər bir loja öz taleyini özü həll edəcək. Belə bir iri qeyri-müəyyənlik şəraitində lojalar müvəqqəti yatmaq qərarına gəldilər. Beləliklə, biz bir daha sübut etdik ki, möhkəm təbliğatçılığa malik deyilik. Belə deyirlər ki, çoxu ümumi yorğunluğa görə bir-biri ilə münasibət yarada bilmirlər, lakin mən şəxsən bununla razı deyiləm. Mən bunu bütün ziyalıların az mədəniyyətli olması ilə izah edirəm. Belə fikirləşirəm ki, ideya təşkilatçılığı üçün alim olmaq, savadlı olmaq kifayət deyil, bunun üçün nə isə elə bir şey lazımdır ki, bu da bizdə yoxdur. Bir də, imkanların ideya işində şəxsi simpatiya və antipatiyalarını ortaya atması mədəniyyətsizlikdir. Bizim mədəniyyətsizliyimiz ondadır ki, özümüzü müəyyən çərçivədə saxlaya bilmirik, tələb olunan intizama riayət edə bilmirik, üzərimizə düşən vəzifəni dəqiqliklə yerinə yetirmirik. Özümüzə qarşı tələbkar ola bilmirik, onsuz da işləmək mümkün deyil. Bütün təşkilatlar pul imkanlarına malik olmalıdır. Təşkilata üzv olanlar üzvlük haqqı ödəməlidirlər. Mədəni şəxslər bu vəzifəni hər şeydən üstün tuturlar. **Bəs bizdə nə müşahidə olunur?** Çoxu bu haqda heç fikirləşmir də. Bu pulu ona görə ödəmirlər ki, özlərinə qarşı tələbkar ola bilmirlər. Nə üçün Avropada adi fəhlə özü, heç bir xəbərdarlıq olmadan, müəyyən olunmuş gün və saatda gəlir və üzvlük haqqını ödəyir. Ona görə ki, həmin insanda vəzifə borcu hissi o qədər inkişaf edib ki, o öz işinə şüurlu surətdə yanaşır, onda bu mədəniyyət var. Mənə elə gəlirdi ki, masonluğu yaradaraq bütün mərkəzlərdə elə qruplara malik olacağıq ki, inkişaf edərək dövlət həyatının bütün sahələrinə daxil olaraq hökumətin özü də bilmədən, həyatı durğun bataqlıqdan çıxara bilər. Mən masonluğa müxtəlif düşərgələrin imkanlarını, əlbəttə mütərəqqi insanlarını birləşdirən, nəinki siyasi proqram üzrə, həm mədəni-maarif işində, həm də şəhər idarəsi işində birləşdirən yeganə vasitə kimi baxırdım. Siyasət üçün lojalar fəaliyyət göstərə bilərdi. Avropa masonları müxtəlif cərəyanlarda işlər görürlər. İnsanlar müxtəlif siyasi proqramlara malik olsalar da, ümumi məqsəd üçün birgə işləyirlər. Fəlsəfi, mədəni-maarif, xalis xeyriyyə lojaları və ən nəhayət xüsusi radikal sosialist lojaları var. Masonluğun gücü ondadır ki, buraya müxtəlif təbəqələrin, müxtəlif vəzifələrin nümayəndələri daxil olurlar və beləliklə, masonluq dövlət həyatının bütün sahələrinə təsir etmək imkanına

malik olur. Əgər biz müxtəlif idarələrin nümayəndələri ilə sıx əlaqədə ola bilsəydik, biz çox şeyi əvvəlcədən bilərdik, biz əvvəlcədən bilərdik ki, Stolıpin, Raçkovski və onlara bənzər cənablar nə hazırlayır və ola bilsin ki, çox şeyin əvvəlcədən qarşılıqlı ola və ya yumşalda bilərdik. Qısa müddətdə fəaliyyət göstərən masonluq artıq özünü bu mənada göstərməyə başlamışdır.

**Stolıpin** hərbi-səhra məhkəməsini qvardiya polklarından təşkil etdikdə, hakimləri yüksək rütbəli zabitlərdən və polkovniklərdən seçirdi. İzmaylov polkunda polkovnik **Tenlov** bizim qardaş idi, biz ona nail olduq ki, o, hakim olan vaxtlarda bir dənə də olsun ölüm hökmü verilməmişdi. Senator **Dedyulin** Kiyev quberniyasının müfəttişi olduğu vaxtlarda kargüzar işini bizim qardaş Senat katibi - **Karmin** görürdü. Elə həmin vaxtlar mühəndis akademiyasını bitirmiş, hərbi lojanın üzvü olan qardaşımız **Timofeyev** Kiyevə köçürülmüşdür. **Karminin** müfəttişləri içərisində olduğu zaman **Timofeyev** işarələrlə özünü ona tanıtmışdır. Məgər bütün bunlar mənim fikirlərimi təsdiq etmirmi ki, masonluğun vasitəsilə çox şeyə nail olmaq olar. Kiyevdə prokuror **Paxomovu** öz tərəfimizə çəkə bildik. İnsanlar ideyaya xidmət etmək istəyəndə öz şəxsi hisslərindən əl çəkməlidirlər. Həm ideyaya xidmət etmək, həm də hər sahədə irəli getmək arzusu ilə çalışmaq qeyri-mümkündür. Partiyalı və barışmaz insanları gətirməyimiz bizim ən böyük səhvimiz idi. Lojalarda belə insanların sayı çox idi. Elə adamlar var idi ki, təşkilata təzadlı fikirlərlə daxil olmuşdular. **Kolyubakin** buna misaldır. Masonların işi müvəqqəti də olsa dayanmasına baxmayaraq, bir çoxu mənim yanıma ümumi söhbətlər aparmaq üçün gəlirdilər.

**B.A.Peçnikov**

# KİLSƏ CƏNGAVƏRLƏRİ. KİMDİR ONLAR?

Moskva, 1991, -351 s.

**Masonlar: "Görünməz hakimiyyətin mərkəzi"**

s.215-253

Təxminən 750 il bundan əvvəlki Almaniyaya nəzər salaq. Həmin vaxt, yəni 1248-ci ildə, qotik memarlığının möcüzələrindən biri olan Köln kilsəsinin əsası qoyulmuşdur.

1880-cı il oktyabrın 15-də Kölndəki bu nadir tikilinin 632 illiyinə həsr olunmuş təntənəli bayram keçirilmişdir.

XII-XIII əsrlərdə bütün Avropada, xüsusilə Almaniya ərazisində məbəd və bir sıra kilsə binaları tikilmişdi.

Məbədləri ucaldan memarlar, heykəltəraşlar, rəssam və fəhlələr bir qayda olaraq tikinti sahələrinə yaxın yerdə yaşayırdılar, öz alətlərini isə loja adlanan xüsusi yerlərdə saxlayırdılar. Artıq qeyd etmək lazım deyil ki, tikinti işlərinin sirləri qeyrilərindən gizli saxlanılırdı.

Beləliklə, demək olar ki, kilsə ustalarının təsis olunan və qurulan birlik və ittifaqları – lojaları demək olar ki, bütün Qərbi Avropa ölkələrinə yayılmışdı.

Tarixçilərin əlinə düşən ən qiymətli material, 1278-ci ildə "Vale royyal" abbatlığının tikintisində daş yonanların "loja" adlandırdığı emalatxananın hesab kağızıdır.

Orta əsrlər "loja"larının (azad daşyonanların gildiyaları) özlərinin məhkəmə, nizamnamə və xeyriyyə kassaları da vardır. Sənədlərlə sübut olunmuşdur ki, belə lojalar nəinki Kölndə, Vyanada, Strasburqda və Berndə fəaliyyət göstərirdi, eyni zamanda onların arasında sıx əlaqələr var idi. Londonda 1376-cı ilə aid saxlanılan bir sənəddə "frimeyson" ifadəsi işlənmişdir ki, alman dilinə **"fraymaurer"** – yəni, **"azad bənna"** kimi tərcümə olunur.

Frankmasonlar haqqında yazılmış bütün kitablarda (onların sayı isə bir neçə on minlərdədir) qeyd olunur ki, loja haqqında əfsanəvi hekayənin mənşəyi Bibliyanın insanın yaranması haqqında əfsanəsindən götürülüb və **"azad bənnalar"** ali ilahi kamilliyin daşıyıcıları elan edilib.

Orta əsr emalatxana gildiyaları addım-addım inkişaf edərək konkret gizli sirli formasına – **"mücərrəd masonluğa"** gəlib çıxmışdır.

Cəmiyyətdən təcrid olunmuş və sirli yeni cərəyanlardan birinin yaranma tarixi 1717-ci il iyulun 24-ü sayılır. O vaxt Londonda "**Qaz və Tava**" lojasına (ad frankmasonların adətən yığışdığı qəhvəxananın adından götürülüb) İngiltərənin paytaxtında yerləşən digər 3 – **"Tac", "Alma", "Üzüm tənəyi"** lojalarından da üzv qəbul edilmişlər. Məhz o gün **"Qaz və tava"**da masonların ilk **"Böyük Loja"**sını yaratmaq qərarına gəlmişdilər. **"Böyük usta"** və **"Böyük nəzarətçi"** iyerarxiyasını daha da yüksəltmişdilər. Artıq 15 ildən sonra **"Böyük loja"** bütün İngiltərə masonluğunun mərkəzi (1733-cü ildə İngiltərədə 126 loja qeydə alınmışdır), 30 ildən sonra isə bütün "azad bənnalar"ın mərkəzinə çevrilmişdir. Həm Qərb, həm də rus masonluğunun tarixi, onun cəmiyyətin inkişafına təsiri, dediyimiz kimi minlərlə kitabça, kitab, yüzlərlə qeyd, məqalə və müsahibələrdə geniş təsvir olunmuşdur. Bizim fikrimizcə buradan belə çıxır ki, sovet oxucusu verilmiş mövzu ilə kifayət qədər tanışdır. Sovet İttifaqında son vaxtlar bu mövzu ilə əlaqədar çap olunmuş əsərlərin bir neçəsinin adını çəkək: **"Za kulisami vidimoy vlasti" ("Görünən hakimiyyətin arxasında") toplusu, N.N.Yakovlev "1 avqusta 1914 qoda", V.Ya.Bequn "Rasskazı o "detyax vdovı" (Dul qadının uşaqları haqqında hekayələr"), Q.Ya.Zavesov "Putina lojı "P-2" ("P-2" lojasının hörümçək toru"), akademik N.N.Mints "Metamorfozı masonskoy leqendı" ("Mason əfsanələrinin metamorfozaları) ("İstoriya SSSR", 1980, № 4) və çoxlu-çoxlu digər materiallar, ilk növbədə Y.B. Çernyakın "Nevidimıe imperii (taynıe obşestva staroqo i novoqo vremeni na Zapade)" ("Görünməz imperiyalar" (Qərbin yeni və köhnə dövrünün gizli cəmiyyətləri)** kitabını göstərmək olar. Biz ona görə də oxucuların nəzərlərini adları qeyd olunmuş məqalələrə yönəldirik.

Biz isə məsələyə qısaca toxunaraq ayrı-ayrı ölkələrdəki mason qardaşlarının müasir vəziyyətinə diqqətimizi yönəldəcəyik və bununla əlaqədar Vatikan və katolik kilsəsinin "kilsənin cəngavərləri" ilə münasibətini nəzərə alacağıq.

**Beləliklə, masonluq nədir?** Qısaca bunu belə izah etmək olar: bu XVIII əsrin əvvəlində İngiltərədə burjua-aristokratik mühitdə yaranan və üzvlərinin ən ümdə məqsədi insanları qardaşlıq məhəbbəti, qarşılıqlı kömək və etibar əsasında birləşdirən gizli cəmiyyətlərin (lojaların) yaradılmasını irəli sürən dini-fəlsəfi cərəyandır. İlk əvvəl masonluq rəsmi kilsəyə qarşı müxalifət və azadfikirlilik əsasında inkişaf edirdi. Lakin vaxt keçdikcə burada mistiklik güclənərək materializm və ateizmə qarşı mübarizə silahına çevrildi. Masonluq kilsə tərəfindən mühakimə olunmuşdur. 1738-ci ildə **XII Kliment** kəskin çıxışı ilə frankmasonluq hərəkatını gizli təşkilat kimi ictimai

asayişi və kilsəni parçaladığı üçün tənqid etdi və mason lojalarına daxil olmağı və onlarla əlaqə yaratmağı qadağan etdi. XIX əsrin ortalarından Roma pontifikləri **XIV Benedikt, XII Lev, XIII Piy, XVI Qriqori** və **IX Piy** hakim sinfə qarşı mübarizədə masonların böyük nüfuza malik olmasını görürdülər. Bununla belə Almaniyada masonluq **II Fridrix**, Fransada **I** və **III Napoleonlar** tərəfindən müdafiə olunurdu. Rusiyada ilk mason lojaları 1762-ci ildə Moskvada yaradılmış və 1917-ci ilə qədər fəaliyyət göstərmişdi.

Hal-hazırda masonluq Qərbi Avropa və Amerikanın bir çox ölkələrində yayılıb.

* * *

1721-ci ildə İngiltərədə **"Böyük Loja**"nın "Böyük Ustadı" seçilən hersoq **Monteqyu** (ölkənin ən varlı perlərindən biri) seçildikdən sonra mason lojaları cəmiyyətdə özünə yer tutmağa və demək olar ki, saray üzvlərinə çevrilməyə başladılar. Artıq 1725-ci ildə onların sayı 52, yeddi ildən sonra isə 109-a çatdı. Hətta o dövrlərdə masonların cəmiyyətdə döşlük və simvollardan ibarət əfsanəvi geyimlərdə çıxmasını pis qəbul etmirdilər.

"Azad bənnalar" "kilsənin cəngavərləri" ilə birgə müxtəlif katolik mərasimlərdə, habelə kilsələrin əsası qoyulması və müqəddəsləşdirilməsi, öz qardaşlarının kilsə qaydaları ilə dəfn olunmasında və i.a. iştirak edirdilər.

1737-ci ildə **"Böyük loja"**nın Böyük Ustadı **Jan Teofil Dezaqlis** Uels şahzadəsini masonluğa qəbul etdi, bundan sonra katolik və protestant kilsələrin keşişlərindən ibarət kütlələr lojalara axışmağa başladılar.

Aldığımız məlumata görə İngiltərədəki **"Böyük loja"** hal-hazırda sıralarında 750000 mason olan 8000 lojanı birləşdirir. Onlardan yalnız Böyük Londonda yaşayanların sayı 300 mini ötür. Onun Böyük Ustadı Böyük Britaniya kralının yaxın qohumu və Kent hersoqudur.

Qonşu irlandiyada hökumət tərəfindən bir neçə dəfə masonluq fəaliyyətini qadağan edən qanunlar qəbul olunmuşdur. Lakin 1949-cu ildə İrlandiya Respublikasının elan olunmasında "azad bənnalar" lojaları həm Dublində, həm də ölkənin digər şəhərində heç də kasıb halda fəaliyyət göstərmirdilər. İndi **"İrlandiya Böyük Lojası"**nda 730 loja respublikanın özündə, 100-ə qədəri isə onun hüdudlarından xaricdə fəaliyyət göstərir ki, onların da üzvlərinin sayı 50000-ə çatır. İrlandiyanın "azad bənnalar"ı Avstraliya, Yeni Zellandiya, CAR, Qana, Hindistan, Yamayka, Keniya, Malaziya, Malta, Nigeriya, Zimbabve, Sinqapur, Honkonq, Cəbəllütarixdə böyük aktivlik göstərirlər.

Şotlandiya da köhnə mason ənənələrinə malikdir. **"Meris Çepel Loc"** Bdenburqda, **"Mazel Kilvininq**" və **"Nelrous Sankt-Con"** kimi

"mücərrəd" masonluqdan da əvvəl yaranmış lojalar artıq XVI əsrin sonlarından fəaliyyət göstərirdilər. Əldə olan məlumata görə "Şotland masonluğu"nun lojalarının sayı 1966-cı ildən 1066-ya çatmışdır ki, onlardan 655 Şotlandiyanın özündə, qalanı isə xaricdə idi. "Şotland masonları"nın lojaları hal-hazırda dünyanın 50 ölkəsində, eyni zamanda Avstraliya, Belçika, Birma, Çili, İslandiya, Hindistan, Yaponiya, İordaniya, Yeni Zellandiya, Tailand, Uqanda, Cəbəllütarixdə fəaliyyətdədirlər.

Bütün Amerika Ştatlarında, habelə Kanadada fəaliyyət göstərən mason lojaları Meksikanın "Azad bənna"ları ilə ildə bir dəfə "Şimali Amerika Böyük Ustadların konfransı"nda iştirak edirlər. Bu 60 böyük lojalar arasında ən gənci 1981-ci ildə təsis olunmuş müstəqil "Alyaska Böyük Lojası"dır.

"Şimali Amerika Böyük Ustadların konfransı"nda yerləşən ən mühüm ştatlardan biri bütün Şimali Amerika və Meksika mason lojalarının fəaliyyətini istiqamətləndirən və nizamlayan "Qəbul Üzrə İnformasiya Komissiyası"dır.

Hazırkı ABŞ ərazisindəki masonlar uzun müddət ərzində fəaliyyətdədirlər. Şotland, ingilis və irland "azad bənnalar"ı ilk olaraq buraya mason ideyalarını gətirmişdilər. Əvvəllər lojalar Köhnə Dünyadan gələn gəmilərin yerləşdiyi liman şəhərlərində yaradılırdı. 1704-cü ildə ingilis "Mason Cəmiyyəti"nə bostonlu Conatan Belçer qəbul olunmuşdur ki, o da sonralar qubernator vəzifəsində olarkən Yeni İngiltərənin bir neçə ştatında mühüm siyasi rol oynamışdır. 1730-cu ildə **Benjamin Franklinin** qəzetində Filadelfiya ştatında özünün də seçilmiş olduğu mason lojasının açılması haqqında məlumat dərc olunur. Elə həmin il İngiltərədən Amerika Nyu-York, Nyu-Cersi və Pensilvaniya əyalətlərində Daniel Koks Böyük Ustad təyin olunmuşdur.

Bostondakı bu "Müqəddəs İohan lojası" böyüyərək Yeni İngiltərədə ilk əyalət "Böyük Lojası"na çevrilmişdir. 1734-cü ildə B.Franklin masonların "Konstitusiya kitabı"nı nəşr etdirdi və tezliklə Böyük ştatların Böyük Ustadı seçildi. Bir çox masonlar amerikalıların istiqlaliyyəti uğrunda mübarizədə böyük rol oynamışlar: **Corc Vaşinqton, B.Franklin, Ceyms Otis, Samuel Adams, Aleksandr Hamilton, Con Marşall, Ceyms Medison, Vaşinqton** ordusunun məhşur generallarından **Nataniel Qrin, Li, Sallivan,** lord **Stirlinq,** alman baronu **Ştoyben,** fransız markizi **Lafayet, Montqomeri, Cekson,** sonralar Massaçusetsdə böyük ustad olan **Pol Revers** mason olmuşlar.

Hal-hazırda Amerika lojaları 4 milyon masonu birləşdirirlər. Düzdür, hələ ki, ABŞ-ın vahid "Böyük Loja"sını yaratmaq cəhdi boşa çıxıb.

Amerika prezidentlərindən bir çoxu, məsələn, **Vaşinqton, Medison, Monro, Cekson,** son vaxtlar – **Makkinli, Teodor Ruzvelt, Trumen, Eyzenhauer, Ford, Karter** mason lojalarına daxil idilər.

Eyni zamanda Fransaya da masonluq İngiltərədən "eksport" edilmişdir. Fransanın bir sıra mədəniyyət və siyasət xadimlərindən, məsələn. **Volter, D'Alamber, Didro, Helvetsi, Bomarşe, Laroşfuko, Danton, Taleyran,** generallar **Lafayet** və **Massena** da mason lojalarının üzvləri idilər.

Hal-hazırda **"Fransa Milli Böyük Lojası"** ingilis qardaşları ilə sıx münasibətdədir və Fransada yeganə müştərək fəaliyyət göstərən lojadır.

1733-cü ildə lord **Sekvill**, Middlseks hersoqu **Henri Foks Hollanda** patent verdi. Buna əsasən də İtaliyada Florensiya şəhərinin Macio küçəsində mason lojası açıldı. Bir müddət sonra Pize, Livorno, Siyene və Perucda da lojalar yaradılmağa başladı. 1735-ci ildə "azad bənnalar" müqəddəs şəhərdə məskunlaşmaq istəsələr də artıq 1737-ci ildə Roma papası tərəfindən lojaların qapıları birdəfəlik bağlandı (Pontifiklər bunun daimi olmasını arzulayırdılar). Bundan başqa papa XII Kliment masonların fəaliyyətini araşdırmaq üçün Toskan şəhərinə inkivizator göndərdi, lakin Toskan hersoqu **Frans-Stefansın** "azad bənnalar"a bəslədiyi rəğbət üzündən Romaya əliboş qayıtdı. Lojalar Milanda, Veronda, Turində, Paduyada da yaranmağa başladı. 1739-cu ildə İngiltərə Savoyya və Pyemont üçün Böyük Ustad təyin etdi.

Papanın 1751-ci ildə dərc etdirdiyi **"Providas"** qanunları Neapolda mason lojasının ləğvi ilə nəticələndi. Lakin 1754-1762-ci illərdə, oradaca "Allahın qullarının qulu" sənədinə əks olaraq eyni zamanda bir neçə loja yarandı.

1870-ci ildə İtaliya vahid dövlət olduqdan sonra Siciliya-Neapol, Toskan-Florensiya, Genuya, Lombardiya-Milan, Venesiya, Sizaltin respublikası, Sardiniya-Pyemont-Savoya frankmason qruplaşmaları da birləşdi. İtaliyanın "Böyük Şərq" lojası iqamətgahını Romaya köçürdü və Böyük Usta isə respublikaçı Risorcimento (İtaliyanın birləşdirilməsi uğrunda xarici dövlətlərə qarşı italyan xalqının milli-azadlıq hərəkatı) **Cuzeppe Madzinini** seçdi.

1872-ci ildə **Madzininin** dəfn mərasimində Romada ilk dəfə camaat masonların geydikləri paltarları və götürdükləri bayraqları görmüşdülər.

1901-ci ildə İtaliya masonları Romada Custiniani sarayında indiyədək yerləşdiyi qərargahlarını açmışdılar.

Ölkədə **"İtaliya Böyük Lojası"** və ya **"Böyük Şərq"** fəaliyyət göstərir ki, ona da 15 min nəfər üzvdən ibarət 400 loja daxildir. Balsano və Meranoda (1918-ci illədək Avstriya-Macarıstan İmperiyası ərazisinə daxil

olan, lakin Sen-Jermen müqaviləsinə əsasən İtaliyaya keçən Cənubi Tarol adlanan yerdə Trentino-Alto-Adiç əyaləti) yerləşən 4 loja alman və italyan fillərində fəaliyyət göstərir.

İtaliyada mason ordenləri arasında birliyin olmaması 1981-ci ildə "Təbliğat-2" ("P-2") lojasının saldığı səs-küylə və müharibədən sonra Ornaldo Forloninin başçılığı ilə 40-cı hökumətin istefası ilə bağlıdır. "P-2" İtaliya siyasətini ultrasağ istiqamətə yönəltmək, diktaturanın qurulmasını məqsəd kimi qarşısına qoyan mason-faşist qiyamının qeyri-adi dərəcədə qanadlanmasının mərkəzində idi.

Qərbi alman jurnalı "Qeo"nun yazdığına görə mason təşkilatlarının Almaniyada ləğvinə qədər 80 minə qədər, müharibədən sonra 6000 üzvü olmuşdur. İndi isə AFR-də 15000 Qərbi alman və NATO-nun 5000 əsgər və zabiti 397 mason lojasında birləşərək fəaliyyət göstərməkdədirlər. Bu qardaşlar uzunmüddət ayrılıqda fəaliyyət göstərsələr də, 1958-ci ildən **Almaniyanın Böyük Lojalar Birliyinə** daxil olmuşdular. Buraya **"Almaniyanın Azad Köhnə və Yeni Qəbul Olunmuş Bənnalarının Böyük Lojası"** (hansı ki 1737-ci ildə əsası qoyulmuş "Ümumdünya Qardaşlıq İttifaqı" və «Absalom üç gicitikan qarşısında" mason lojalarının əsasında yaranmış ilk Almaniya filialı idi), "Almaniya Masonlarının Böyük Lojası – Bənnalar Ordeni", "Üç Səma Sahəsinin Milli Böyük Lojası", "Böyük Amerika – Kanada Lojası" və "Britaniya və Almaniyanın Böyük Lojası" daxil idi.

Hər bir loja öz daxili işlərini sərbəst həll etsə də, lojanın yaradılması üçün 5 "Böyük Loja"dan hər birinin razılığı lazım olurdu. **"Qeo"** jurnalının yazdığına görə mason lojalarından çoxu qeydə alınmış lojaların səviyyəsində fəaliyyət göstərir. Onların nizamnaməsi hər birinə aiddir, daxili fəaliyyəti isə 1723-cü ildə qəbul olunmuş "Nizamnamələr Kitabı" və daxili nizam qaydaları əsasında müəyyən olunur.

**"Qeo"**nun yazdığına görə bütün "azad bənnalar"ın ümumi məqsədi hal-hazırkı kilsələrin yerinə **"Ədalət məbədləri"**nin tikilməsidir. Onun daşları insanlar, tikinti məhsulu – səbr və qardaşlıq, layihəsi – İncil, memarı Allahdır ki, onu da masonlar **"Kainatın Böyük Memarı"** adlandırırdılar.

* * *

Presviterian keşişi və fəlsəfə. İlahiyyat doktoru Ceyms Anderson trəfindən 1723-cü ildə tərtib olunmuş "Masonların Konstitusiyası"nın I paraqrafında deyilir: Mason öz nüfuzuna görə əxlaq normalarına tabedir və nə mənasız ateist, nə də əxlaqdan məhrum olan günahkar ola bilər, Allaha və ruhun ölməzliyinə inam – "azad bənnalar"ın sıralarına daxil olan hər bir kəs üçün məcburi şərtdir. Masonların xristian ehkamlarına qarşı çıxması, dillərə qarşı səbirlilik faktorları onların **ateizm, deizm,** hər hansı bir azadfikirliliyə qarşı rəğbətlərinin olması haqda heç nə demirdi. Çoxunun, xüsusilə sovet tədqiqatçılarının mason üzvlərinə psixoloji təsir üçün hazırlanmış bütün imkanları məhz «ilahi təsirin inkişafına və dərinləşməsinə» tabe olunmuşdur.

Qərbi Alman jurnalı **"Qeo"** yazır ki, bir çox əsrlər ərzində katolik kilsəsi masonluğa meyl göstərən hər hansı bir katoliki kilsədən ayırmaqla hədələmişdir. Yalnız 1983-cü ildə bu qayda ləğv edilmişdir.

Qərbi Alman tədqiqatçısı Xoltorf Yurqen 1986-cı ildə Münhendə çıxan "Dinməz qardaşlıq" kitabında qeyd edir ki, Roma katolik kilsəsi arzu etsə də, etməsə də masonları təqib edərək nasistlərin əl-qolunu açmışdır. Artıq 1738-ci ildə papa **XII Kliment "J'n eminenti apostolatus specula"** adlı fərmanı ilə katoliklərə masonluqdan aralanmaq əmrini vermişdir. Roma kilsəsinin açıq-aydın yazılmış sərəncamına baxmayaraq "azad bənnalar" lojasında üzvlərin sayının azalması faktını ilk növbədə onunla aydınlaşdırmaq olar ki, XVIII əsrdə Avropada mütləqiyyət rejimlərinin dövründə Romadan gələn bütün sənədlərin hamısını monarx və knyazlar öz tabeliklərində olanların nəzərinə çatdırmışdılar. "J'n eminenti" fərmanı bir çox Avropa ölkələrində aşkara çıxarılmışdır.

İtaliyada isə vəziyyət başqa cür idi. Katolik kilsəsi tərəfindən papanın fərmanının həyata keçirilməsi ona gətirib çıxarmışdır ki, masonların yığışdığı məbədlər və evlər də məhv olunmuşdur.

Papa fərmanının bu ölkədə açıqlanması üçün bir çox səbəblər var idi. İlk növbədə "azad bənnalar"ın dinlərə qarşı səbirliliyi, gizli adətləri, onların fəaliyyətini əhatə edən sirliliyi dindar knyazları qane etmirdi. Papa İngiltərədə Stüartların katolik kilsəsini müdafiə etməkdə maraqlı idi və protestant sülaləsinə qarşı [Hannover sülaləsi (1714-1901)] çıxış edirdi.

Bundan başqa masonlar Risorçimentoda kütləvi hərəkatın əsas təhrikçiləri idilər və baş keşiş müqəddəs taxt-tacın silkələnməsindən bərk qorxurdu. Bu səbəbdən "İsus təşkilatı"nın üzvü rahib **Reynxold Zebonin** Qərbi alman "Ştimmen der sayt" yezuit jurnalında qeyd edirdi: "1738-ci ildən 1970-ci ilə qədər mən papanın frankmasonlarla əlaqədar 12-dən çox qadağanı olmuşdur». Sonuncu belə ciddi xəbərdarlıq 1917-ci ildə 2335 saylı

"**Codex Juris Canonici**" adlı sənəddə öz əksini tapmışdır. Bu da 1983-cü ilə kimi öz qüvvəsini saxlayır (Zobottun məqaləsi 1981-ci ilin fevral ayında yazılıb – B.P.).

Katolik kilsəsi və masonluq arasında münasibətin ən aşağı səviyyəsi keçən əsrin ortalarında "əsrin mistikalaşdırılması" ilə əlaqədar idi. Bunu müəllif – yazıçı, daha çox **Leo Taksil** ləqəbi ilə məşhurlaşmış **Qabriel Şoqan-Pajes** hər hansı təvazökarlıqdan uzaq olaraq belə adlandırmışdır. Fransız jurnalisti və naşiri, yezuit kollecini bitirdikdən sonra klerikalizmə qarşı satirik yazılar dərc edərək azadfikirlilərin başçısı olmuşdu. 1881-ci ildə o, mason lojasına daxil olur, lakin 3 dəfə təşrif buyurduqdan sonra, "azad bənnalar"dan uzaq durmağı qərara almışdır.

1885-ci ildə o rəsmi surətdə katoliklər sırasına qayıtmağı haqqında bəyanat vermiş və bildirmişdir. Bunu da kilsə **Taksilin** qələmindən düşmənlərinə-masonlara qarşı istifadə etməkdə böyük triumf kimi qiymətləndirmişdir. Roma papasının xeyir-duası ilə **Taksil** sözün bütün qüvvəsi ilə "azad bənnalar"ın üzərinə düşür və əvvəlcə Fransanın tam, sonra Avropanın, sonra isə bütün dünyanın əsarət altına salınması planını onların adına yazırdı. O yazırdı ki, Qerkules bürcündə Cəbəllütariq qayaları XIX əsrin əvvəllərindən başlayaraq İngiltərəyə məxsusdur və onun içərisində xüsusi kitabxanalar yerləşir ki, orada əcaib insanların başında Amerika mason lojasının üzvü **Payk** adlı – "İblis mədəniyyətinin ilk papası, frankmasonların başçısı durur ki, mütəmadi olaraq hər 5-ci gün saat 3-də şəxsən İblisanə iclas keçirir".

**Taksil** əlavə edirdi ki, masonluq iblisçiliyin üzünü örtən pərdədir. ABŞ-da Çarlston şəhərində **Paykın** yaşadığı naməlum bir yerdə İblisə sitayiş edənlərin məbədi yerləşir, orada isə yaşıl mürəkkəblə, İblisin öz dəsti-xətti ilə yazılmış **"Apando"** adlı kitab yerləşir.

Taksilin sərhədsiz fantaziyası müəyyən hallarda real faktlara əsaslanırdı; 1937-ci ildə həqiqətən İblisə sitayiş edən **palladistlərin** ordeninin əsası Parisdə qoyulmuşdur. Onun başçısı isə "Masonların qədim və müasir (şotland) adət-ənənələrinin əxlaq və ehkamları" nəşr edən **Albert Payk** olmuşdur. Makey ordeninin ali üzvlərindən biri bəyan etmişdir ki, o, «**Jak de Mole**» adlı cəngavər ordeninin böyük magistridir. Makeyin və Paykın kabinetlərində, yəni Çarlstonda yerləşən ordenin qərargahında Bafometin şəkli və Molenin kəlləsi durur ki, onlar da hansısa mason tərəfindən Fransadan ABŞ-a gətirilib. Özünün mistik antimason kompaniyasından sonra papaya yaxın kardinallardan biri olan **Taksil XVIII Levin** yanında yaşayıb fəaliyyət göstərmişdir. O da "azad bənnalar"ın əksinə yönələn **«Hamanum genus"** adlı ensiklopediya nəşr etdirmişdir. Yazıçı keşişi əmin etmişdir ki, onun fikri çox

uzağa, yəni tam və qəti olaraq masonların "iblis toxumu"nun məhvinə yönəlmişdir.

Əfsanələr bizi hətta İsus Xristos canişini və **Taksil** arasında baş vermiş belə bir dialoqa gətirib çıxarmışdır:

**- Oğlum, sən nə istəyirsən? – XIII Lev** mehribancasına soruşur.

Yazıçı yaltaqcasına – sizin ayaqlarınız altında ölmək mənim üçün ən böyük xoşbəxtlikdir deyə cavab vermişdir.

1885-ci ildə **Taksil "Üç məntəqənin qardaşları"** adlı kitab nəşr edərək orada qeyd edirdi ki, masonlar İblisə sitayiş edirlər və onların bütün mərasimləri iblisin eşqinə həsr olunub. Sonrakı kitablarında **Taksil** oxucunun marağını qızışdırmaq üçün qadınlar lojasında sodomistik orgiyalar haqqında danışaraq özünün uydurduğu "antixristian nənəsi" – Sofiya Valderi səhnəyə gətirmişdir. Sonra Bitru şeytanından doğulan, 10 yaşından Amerika palladistləri lojasına qəbul edilmiş və cinlər şahı Asmodeyə (əslində onun adı qədim yəhudi allahı Aşmedaydan götürülüb ki, o da qadınları yoldan çıxaran, nikahları pozan zalım ruh idi. Talmudda qeyd olunur ki, bu da yəhudilərin farslardan götürmüş və katolikliyə heç bir aidiyyəti olmayan ideyadır) nişanlanmış gözəl Diana Voqan görünür. Heç vaxt həyatda olmayan bu qadın "Eks palladistin xatirələri" kitabını nəşr edir ki, orada "azad bənnalar"ın mason mərasimlərində baş verən qeyri-əxlaqi "hərəkətləri işlənilir. 1886-cı ildə **Taksilin** təşəbbüsü ilə Şimali İtaliyanın Tranto şəhərində antimason konqresi keçirildi ki, burada 36 yepiskop, habelə Fransanın, Avstriyanın, Almaniya, Belçika, Niderland, ABŞ, Kanada və Meksikanın 50 yepiskopu və 700-dən çox keşiş iştirak edirdi. Onlar bir neçə gün ərzində Diana Voqanı müqəddəslər sırasına daxil etmək haqqında uzun-uzadı mübahisələr etmişdilər.

Beləliklə 1897-ci il aprelin 19-da, günəşli pasxa günündə Parisin bütün əyarları Taksilin palladizm kultu haqqında mülahizəsini dinləmək üçün Coğrafiyaşünaslar Cəmiyyətinin akt salonuna yığışmışdılar. Yazıçı nəhayət, Diana Voqanın və özünün eyni adam olması sirrini bəyan edərək gözlənilməz səs-küy yaratmışdır.

Roma kuriyası yenidən ifşa edildi. Çünki Taksil sübut etməyə çalışdı ki, masonlar hər hansı bir sitayiş təşkilatı deyil, əksinə faktiki olaraq elə katolik kilsəsinin güddüyü məqsədləri özünəməxsus tərzdə həyata keçirən həmin "kilsə cəngavərləridir".

Katolik kilsəsi və masonlar arasındakı münasibət 1958-1965-ci illər İkinci Vatikan məclisindən sonra xeyli dərəcədə mülayimləşmişdir.

**"Vatikan kilsəsi bəyan edir ki, insan şəxsiyyəti dini azadlıq hüququna malikdir. Bu azadlıq ondan ibarətdir ki, bütün insanlar həm**

**ictimai qruplaşmalar, həm də ayrı-ayrı insanlar tərəfindən məcburiyyətə məruz qala bilməzlər. Buna görə də dini işlərdə heç kəsi öz iradəsinin əksinə getməyə məcbur etmək olmaz".**

İkinci Vatikan məclisində katolik kilsəsi bütün insanlarla açıq dialoqa başladı. Masonlara münasibətdə də yaradılmış "uşaqlar üzrə komissiya" tərəfindən mütərəqqi təşəbbüslər irəli sürülmüşdür. Yaradılmış komissiyaya, məsələn, AFR-dən aşağıdakı masonlar daxil idilər: **Teodor Foel, Rolf Appel, Erist Valter və Karl Xyede;** İsveçrənin **"Böyük Alpina Lojası**"ndan **Alfred Lyösli** və **Franko Fumaqalli**, **"Avstriya Böyük Lojası"**ndan **Kurt Bareş, Ferdinant Çap** və **Ryudiqer Fonviller**. Katolik kilsəsi və masonlar arasında başlamış dialoq 1970-ci il iyunun 5-də çap olunmuş **"Lixtanuer bəyannaməsi"** ilə bitdi. Göstərilən bəyannamədən bir neçə misal çəkək:

**"Dünyanın Böyük Arxitektoru qarşısında diz çökərək bəyan edirik. Masonlar Allah haqqında ümumi dünyagörüşə malik deyillər, belə ki, masonluq – din deyil və heç kimə din öyrətmir.**

**Masonlar hər hansı bir ehkamın riayət olunmasından asılı olmayaraq mədəni həyata nail olmaq üçün simvol və ayinlərə tələbkardırlar.**

**Masonlar öz lojalarında yer üzünü qardaşlıq zəncirinə bürünməsinə inanaraq birliyə sadiqdirlər.**

**Masonlar vicdan və azadlıq prinsiplərini əsas tutaraq bu prinsiplərdən üstün heç bir zorakılığı qəbul etmir. Onlar hər hansı bir həqiqi inam və həqiqi ideyanı hörmətlə qarşılayır. Başqa cür fikirləşənlərin sıxışdırılmasına qarşıdırlar. "Qanunlar" Böyük lojaların dini və siyasi məsələlərə qarışmasını qadağan edir.»**

8-ci paraqrafda deyilir:

**"Biz masonlar üçün kilsənin bizi "ayrı qardaşlıq" adlandırmasını başa düşmürük, halbuki Böyük lojaların qanunları hər hansı bir katolikin mason qardaşlığının üzvü olmasına etiraz etmir".**

9-cu paraqraf:

**"Biz belə düşünürük ki, papanın "azad bənnalar"a dair fərmanları yalnız tarixi mahiyyət daşıyaraq hal-hazırda heç bir qüvvəyə malik deyillər…"**

1974-cü ildə dini işlər üzrə prefekt **"Mason təşkilatlarında üzvlük haqqında sənəd"** nəşr etmişdir. Orada qeyd olunur:

**"Bir çox yepiskoplar Müqəddəs konqresə CIC-in 2335 saylı sənədinin hüquqiliyi və həqiqiliyi haqqında sorğu göndərmişdir. Həmin**

**sənəd tələb edir ki, mason və ona bənzər təşkilatların üzvü olan katoliklər kilsədən qovulmaq dərəcəsinə qədər cəzalandırılmalıdırlar.**

**Bu məsələnin araşdırılması əsasında Müqəddəs taxt-tac yepiskopların konfransında həmin təşkilatların xarakteri və müasir vəziyyəti haqqında yaxından tanış olmaq üçün faktlar toplamağa başladı.**

**Göndərilən cavablar arasında fərq ondan ibarətdir ki, ayrı-ayrı ölkələrdə bu məsələyə birmənalı yanaşmırlar. Buna görə də Müqəddəs taxt-tac fəaliyyətdə olan qanunlarını yalnız kilsə qanunvericiliyinin islahatları üzrə Papa komissiyası yeni kilsə qanunu nəşr edəndən sonra ləğv edə bilər".**

Sitat gətirilmiş məktub dini məsələlər üzrə konqresin prefekti kardinal **Zeper** tərəfindən AFR yepiskoplar konfransının sədri kardinal **Dyofnerə** yazılmışdır. İctimaiyyət göndərilən məktubu katolik kilsəsi və masonluq arasında mühüm addım kimi qiymətləndirmişdir. Skandinaviya, Böyük Britaniya və Niderlandın yepiskoplar konfransı həmin vaxtdan həm masonluğa, həm də katolik kilsəsinə aid olmağı rəsmi tanıdı. AFR yepiskoplar konfransının "azad bənnalar"a münasibəti başqa cür olmuşdur. 70-ci illərin ortalarında bu ölkədə katolik kilsəsi və masonlar arasında dialoq olmuşdur ki, bunun da nəticəsində kilsə başçıları qısa olaraq **"Bəyanat"** adlı sənəd qəbul etmişdilər. Orada deyilirdi:

**"Almaniya Böyük lojalarının İttifaqı"** və Almaniya yepikoplarının təşəbbüsü ilə 1974-80-ci illərdə rəsmi danışıqlar başlandı. Bununla belə katolik kilsəsi aydınlaşdırmağa çalışırdı ki, mason ordenlərində katoliklərin iştirak etməsinə icazə verilir, ya yox.

Danışıqlar çox mehriban, səmimi və işgüzar şəraitdə keçirildi.

Masonlar öz fəaliyyətini dəyişmədi, bu təşkilata üzv olmaq xristianlığın mövcudluğuna təhlükə törədirdi.

Mason ənənələrinin və dünyaörüşünün, habelə "azad bənnalar"ın müasir vəziyyətinin öyrənilməsi belə nəticəyə gətirir ki, masonluğa və katolik kilsəsinə eyni zamanda üzv olmaq qeyri-mümkündür.

Qərbi alman masonluğu **"Bəyanat"**la o qədər məyus olmuşlar ki, "Böyük lojalar İttifaqı" açıq məktubla öz qəzəblərini bildirməkdə çəkinmədilər: " II Vatikan məclisindəki katoliklər – öz bəyanatında bütün insanları dialoqa çağırmışdı. Bu cür dialoqa Qərbi alman masonları artıq 1937-1972-ci illərdə artıq hazır idilər və bunu bir neçə dəfə bəyan etmişlər. Bu ilk dialoq hər iki tərəfin imzaladığı sənədlə başa çatdı **("Lixtenauer bəyannaməsi").**

**"Birləşmiş Lojalar İttifaqı"**na daxil olan lojalar təəssüflənirdilər ki, yepiskoplar konfransı ilə keçirilmiş növbəti dialoq belə bir birtərəfli "bəyannat"la bitdi.

**"Şpiqel"** jurnalı masonluq və katolik kilsəsi arasındakı münasibətlərə həsr olunmuş böyük bir məqalədə yazırdı: **«Vatikanın masonlara qarşı qoyduğu qadağanı təsdiq etməsi faktı kilsə iyerarxiyasının xalq kütlələrindən özünü ayırmasını bir daha sübut edir».**

Dini ehkamlar üzrə myunster professoru **Herbert Forqrimler** vaxtilə özü də Vatikan katibliyinin dinsizlərlə iş üzrə məsləhətçisi olmuş, "azad bənnalar"la danışıqlar aparmışdır. O, AFR katolik yepiskoplarının "Bəyannamə"sinin son 150 ildə kilsə sənədləri arasında ən kəskinidir.

**Forqrimler** qeyd etmişdir:

- Kilsə üçün belə "Bəyanat"lardan sonra danışıqlarda tərəf-müqabilinin onu ciddi qəbul etməməsi üçün təəccüblənmək olmur.

Qərbi alman mason jurnalı **"Humanist"** öz müxbiri **Yens Oberxaydenin** şərhlərində qeyd edirdi ki, AFR yepiskoplar konfransının "Bəyannamə"si heç bir hüquqi qüvvəyə malik deyil. Məşhur kilsə xəbərlər agentliyi "Heyder korrespondenç" katoliklərlə masonlar arasında uğursuz alyansı belə şərh edirdi:

"Həqiqətən, başa düşmək olmur, "Bəyannamə" kimə qarşıdır. Kilsənin başçıları, yepiskoplar konfransı katoliklərlə masonların birləşməsinə, ya da 2335 saylı papa sənədinə qarşıdır (məlumdur ki, bu sənəd də katoliklər və masonların münasibətinə qarşıdır)."

Beləliklə, 1983-cü ilin yanvar ayında Vatikan **"Codex Juris Canonici"**nin tamamilə yeni bir variantda nəşr etdi ki, burada masonlar haqqında heç nə yox idi. Başqa sözlərlə mason təşkilatına üzv olmaq bundan sonra avtomatik olaraq kilsədən qovulmaqla cəzalandırılmalıdı.

Masonların tərəfdarı olan **Yurgen Xoltorfun** bizim qeyd etdiyimiz kitabında başa düşmək olur ki, katolik kilsəsi uzun müddət masonluğun mənşəyini və dini əsaslarını analiz etmişdir, indi qəti demək olar ki, düşmənçilik qarşılıqlı razılığa gətirib çıxarmışdır.

Hələ 1976-cı ildə AFR-in **"Böyük Lojalar İttifaqı"**nın fəxri böyük ustası **Teodor Fogel "Quatuor coronati"** adlı **«Bayrot»** elmi-tədqiqat mason lojasında nəşr etdiyi işlərinin birində yazır: "Bizim üçün indiyədək XVIII-XIX əsrlərin ilahiyyatı anlaşılmaz qalır. Yəni, necə oldu ki, masonluq və katolik kilsəsi arasındakı mənasız düşmənçilik yarandı. Bu bizim üçün tapmaca olaraq qalır". Elə XX əsrin ciddi alimləri də aydınlaşdıra bilmirlər ki, necə və hansı dərin səbəblər üzündən Vatikan əvvəlcə "azad bənnalar"ın

üzərinə belə yürüşə başladı, halbuki, bütövlükdə olmasa da, hərbi-monarxiya ordenlərinin üzvü kimi onlar da yarıya qədər "kilsə cəngavərləri" idilər.

Hər şey belə ağılla və ümidverici əsaslarla başlayırdı ki: mason hərəkatı, simvol və "katolik sehri"nə yönələrək bütün insanları sosial vəziyyətinə, dini dünyagörüşünə, dininə fərq qoymadan vahid universal təşkilatda birləşdirərək onlara qardaşlıq ruhu və simvolika qanunlarının özəlliklərini elan etmişdir.

Kardinal və yepiskoplar, abbatlar və keşişlər XVIII əsrin sonu və XIX əsrdə lojalara kütləvi surətdə axışmağa başladılar.

İkinci Dünya müharibəsindən sonra Almaniyada yenidən sual verməyə başladılar: nə üçün masonlar və katoliklər bir-birindən aralı və düşmən olmalıdırlar?

Qərbin xüsusi xidməti və **"Malta ordeni"**nin cəngavərlərinin vasitəçiliyi ilə Almaniya Birləşmiş Böyük Lojalarının Böyük Ustadı **Pinkernayl** və kardinal **Bea** arasında ilk əlaqə yaradılmışdır ki, onu da köhnə Vestval nəslindən olan qraf Kereenbrok təşkil etmişdir. O, çox əmin idi ki, katolik kilsəsi və masonlar bir-birinə qarşı əl uzatmalıdırlar.

Bu yolda qərbi alman mason lojaları, xüsusilə Varbersberq monastırında yerləşən Köln və Dominikanlar xüsusi fəallıq göstərirdilər. "Azad bənnalar" tərəfindən Hans Qemyund, Dominikanlar tərəfindən **Stefan Pfyotner** bu əlaqələrin əsas simaları olaraq birgə iclaslar, gecələr, mühazirələr təşkil edirdilər. Yepiskop və Roma kuriyası masonların Dominikan ordeni ilə yaxınlaşmasına soyuqqanlı yanaşırdılar. Baxmayaraq ki, "azad bənnalar"ın maltalılar və teftonlularla olan sıx əlaqəsi haqqında dəqiq məlumata malik idilər.

Avstriya ictimaiyyəti vaxtilə Avstriya mason lojasının başçısı **Eduard** Ceroldun o vaxtkı Vyana arxiyepiskopu baş kilsənin dinsizlərlə dialoq üzrə nümayəndəsi kardinal **Frans Keninqlə** əlaqələri haqqında geniş məlumata malik idi. "Azad bənnalar"la danışıqlarda Avstriya katolik kilsəsinin nüfuzlu keşişlərindən yezuit Pater de Qallinin vasitəçiliyi xüsusi olaraq diqqəti cəlb edir.

Qərbi alman katolik kilsəsi və mason lojalarının birləşiməsi yolunda Vatikandan AFR-ə xüsusi tapşırıqla gəlmiş doktor İohannes de Tot böyük rol oynamışdır. De Tot milliyyətcə macar olub – macar əsilzadə – mülkədarlarından idi və öz ölkəsində müstəqil təhsil almışdır. Sonra Macarıstanın kardinal – priması İohannes Çernox katolik təhsilini davam etdirmək üçün Romaya "Qermanikum et Xun Qarikum" adlı papanın alman-macar kollecinə göndərilmişdir.

**"İsus Cəmiyyəti"**nin yaradıcısı **İqnati Loyoloy** və ilk macar iyezuiti İştvanom Santo tərəfindən təsis olunmuş bu nüfüzlu təhsil ocağında **de Tot** eyni zamanda qədim papa Qriqoryan Universitetində də səkkiz il oxumuşdur. 1933-cü ildə o dini rütbə almış və vətəninə qayıdaraq müxtəlif vəzifələrdə, o cümlədən Macarıstan kardinalının arxiv müdiri və katibi Müqəddəs taxt-tacın Macarıstan Xarici İşləri üzrə katibi vəzifəsində çalışmışdır. 1945-ci ildə Avstriyaya mühacirət edir. Burada o "azad bənnalar"ın rəhbərləri ilə sıx münasibətlər qurmuş və belə nəticəyə gəlmişdir ki, kilsə və masonlar arasında yaxınlıq uğrunda mübarizə etməlidir.

Romaya qayıdan **de Tot** əvvəlcə Müqəddəs Pyotr kilsəsinin arxiv müdiri vəzifəsinə, sonra papa XXIII İohann onu Lateran bazilikasının başçısı vəzifəsinə təyin etmişdir ki, orada eyni zamanda arxiv işlərinə də cavabdeh olmuşdur. Bu kilsədə **XII Klimentinin** cənazəsi və **"In entimenti"** adlı toplusu saxlanılır.

Monsenyor **de Tot** bu keşişin həyatını öyrənərkən masonluğun lənətlənməsi üzrə detallar aşkar etmişdir. **De Tot** belə qənaətə cəlmişdir ki, XII Kliment bu sənədi saxtalaşdırmışdır, çünki bu sənəddə Roma papasının imzası yoxdur.

Sonralar **de Tot** kardinal **Koninqin** başçılıq etdiyi dinsizlərlə iş üzrə katib vəzifəsində işləmişdir. **De Tot** bu zaman masonlarla dialoqa girmək barədə bir neçə dəfə **Koninqə** müraciət etmişdir.

Bundan sonra ona "azad bənnalar"la əlaqəyə girməkdə kömək etmək haqqında rəsmi razılıq verilmişdir.

**De Totun** bu sahədə fəaliyyəti müvəffəqiyyətlə başa çatmışdır. Roma kuryasının masonlarla ittifaqı nəticə verdi. Məsələ ondadır ki, masonlar arasında nəinki nüfuzlu şəxslər, eyni zamanda nə tarixi, nə də mədəniyyəti onlarsız təsəvvür etmək olmayan şəxslər də var. Onlardan bir neçəsinin adını çəkək: **Mustafa Kamal Paşa Atatürk** (Türkiyə Respublikasının əsasını qoyan şəxs, 1938-ci ilə qədər, yəni ölənə kimi "Makedoniya Resorta et Veritas Loqe" lojasına daxil idi), **Eduard Beneş** (Çexoslavakiyanın keçmiş prezidenti, 1924-cü ildən "Yan Amos Komenski" adlı Praqa lojasına qəbul olunmuşdu), **Kebxad Blyuxer** (Prussiya feldmarşalı, 1802-1806-cı illərdə Münhendə "Zu den drei Balken" adlı lojanın böyük ustadı), Simon Bolivar (Latın Amerikası azadlıq hərəkatının rəhbəri**), Uinston Çörçill** (Böyük Britaniyanın keçmiş baş naziri, 1901-ci ildə Londonun "United Stutholme Lodqe № 1591" lojasına üzv qəbul olunmuşdur), **Artur Konan Doyl** (məşhur ingilis yazıçısı, Portsmutda "Phoenix Lodqe № 257" lojasının magistri idi), **Aleksandr Fleminq** (pensilinin ixtiraçısı, İngiltərə Birləşmiş Lojalarının böyük nəzarətçisi), **Henri Ford** (ABŞ-da avtomobil zavodlarının

sahibi, "Lion Lodge N1" lojasının üzvü), **Bencamin Franklin** (ABŞ alimi, siyasi xadimi, "Les ncuf Soeurs" Paris lojasının üzvü). **Cüzeppe Qaribaldi** (İtaliya milli-azadlıq hərəkatı başçılarından biri, 1844-cü ildə Fransanın "Les Amis de la Patrie" lojasının üzvü, 1864-cü ildə isə İtaliya Birləşmiş Lojalarının Böyük magistri), **İohan Volfqant Höte** (Veymarda "Amalia" lojasının üzvü), **Yozef Hayden** (dahi bəstəkar, Vyanada Motsartın yanında ikən "Zur Wahren Eintracht" lojasına qəbul olunmuşdur), **Frans List** (pianoçu və bəstəkar, Frankfurt-Maynda "Zur Einigkeit" lojasının üzvü idi), **Folfanq Amadey Motsart** ("Zur ncugekronten Hoffnung" və "Zur Wahren Eintracht" lojalarının üzvü), **Yan Sibelius** (məşhur Finlandiya bəstəkarı, "Suonmi N1" lojasının təsisçilərindən biri), **Corc Vaşinqton** (ABŞ-ın ilk prezidenti, Virciniyada "Fiedericks – Surg lodge" mason lojasının üzvü. Maraqlısı o idi ki, prezident andiçmə mərasimində əlində "St.John Lodge N1" lojasına məxsus Fransanın "Pudn" jurnalı var idi). Jurnal 1985-ci ildə qeyd edirdi ki, 1887-ci ildən 1931-ci ilədək Fransanın 5 prezidenti, 1875-ci ildən 1937-ci ilədək isə 22 baş naziri müxtəlif mason lojalarının üzvü olmuşdular. Habelə sosialist olan nazirlərin əksəriyyəti son dövrə qədər mason idi.

Jurnalın yazdığına görə 1986-cı ildə seçkilər ərəfəsində Fransada hakimiyyətin sollardan sağlara keçməsi **"Böyük Şərq"** lojasının rəhbərləri arasında gedən gizli fəaliyyətin nəticəsidir. **"Nuvel observater"** jurnalı çap etdiyi **"Frankmasonların hakimiyyəti"** yazısında qeyd edir ki, 5 nüfuzlu prezidentin dostu sırasına daxil olan masonlar, Böyük Usta **Lers** də daxil olmaqla prezident **F.Mitteranla** müxalifətin qalib gələcəyi tərzdə baş nazir vəzifəsinin kimə tapşırılması məsələsi müzakirə olunmuşdur.

Hətta Fransa masonlarının Milli yığıncağında, partiya mənsubiyyətindən asılı olmayaraq **"Qardaşlar"** – **"Fraternel"** assosiasiyasında birləşdilər.

Fransa parlamentinin keçmiş tərkibinə 120 masson deputat daxil idisə, indiki 1989-cu il üçün 90 deputat daxildir. Fransa mətbuatının məlumatına görə **"Fraternel"**in əvvəlki kimi 250-dən çox aktiv üzvü var. Milli yığıncaqlarda masonlar arasında müzakirələr mövzusu çox vaxt siyasət və iqtisadiyyata aid olur. Məlumdur ki, 1987-ci ilin noyabrında masonlar parlamentdə Fransa Konstitusiyasını müzakirə etdilər. Baxmayaraq ki, mason ordeninin bir saylı maddəsi təşkilatın əsas məqsədi xeyriyyəçilik, ümumi mənəviyyatın öyrənilməsi, elm və incəsənət kimi məsələləridir. Ancaq 318 saylı maddədə yazılmışdır ki, masonlar ciddi surətdə müxtəlif siyasi mübahisələrdən hökumətdən və dini kultlardan kənar qalmalıdırlar. Bu qadağalara baxmayaraq masonlar siyasi məsələlərə siyasi partiyalardan daha

çox qarışırdılar. Biz artıq oxuculara **"Bilderberq"** klubu və onun kilsə cəngavərləri ilə əlaqəsi haqqında Malta ordeni bölgüsündə məlumat vermişik. Burada qeyd etmək yerinə düşərdi ki, bu təşkilatın bir çox üzvləri Qərb dünyasının nüfuzlu və məşhur şəxsləridir, və onların Beynəlxalq masonluqla əlaqələri var.

1979-cu ildə Parisdə MKİ-nin keçmiş agenti **Qonsales Matanın** kitabı nəşr olunmuşdur. Kitab **"Gözə görünməz hakimiyyət"** adlanırdı. Müəllif bu kitabında İkinci Dünya müharibəsindən sonra "azad bənnalar" cərgəsinin idarə olunmasında həlledici rol oynayan bir sıra şəxslərin siyahısını təqdim etmişdir. **Qonsales Mata** yazır:

**"Allen Dalles** – MKİ-nin yaradıcısı, Yozef mərasimli frankmason; **Yozef Estinqer** – Londondakı Polşa mühacirət hökumətinin katibi, İkinci Dünya müharibəsi illərində "Avropa hərəkatı"nın baş katibi və Şotlandiya mərasimli frankmason italiyalı **Manlio Brazio** - NATO-nun Baş katibi, Şotlandiya mərasimli frankmasondur.

**Qonsales Mata** qeyd edir ki, Amerika masonluğu tərkibində Polşa masonlarının xüsusi təşkilatı yerləşir. Onlardan ən nüfuzlusu prezidentin milli təşlükəsizlik üzrə katibi **Zbiqnev Bzejinskidir**. "P-2" lojasının üzvü və keçmiş kəşfiyyatçı və eyni zamanda Vatikan maliyyəçilərinin başçısı **Pol Marpinkus** Polşa masonlarına maliyyə yardımı edirdi.

Bizim qabağımızda "P-2"-nin böyük ustası **Pier Karpinin "Celli işi"** adlı kitabı durur. Karpi yazır: "İtaliya da daxil olmaqla dünya mason təşkilatlarının istiqaməti qəti surətdə ABŞ tərəfindən müəyyənləşir ki, orada da masonluq güclü bir təşkilatdır". **Pier Karpi** oxucuya **"Bilderberq klubu"**ndan başqa dünya masonlarının birləşərək yaratdıqları **"Üçtərəfli komissiya"**nın olduğunu yada salır.

Masonluğun beynəlxalq, eyni zamanda kilsə münasibətlərinə təsiri keçmişdə olduğu kimi bizim günlərdə də açıq-aydın görünür. Katolik mətbuatının bir sıra məqalələrində belə bir sual durur:

**"Masonluq fəaliyyətini davam etdirməlidirmi?**" 1939 –cu ildə "azad bənnalar"ın özləri katolik kilsəsi ilə, hətta kilsənin cəngavərlərinə çevrilmək qədər yaxınlaşma ideyasını ortaya atmışdılar. İndi isə masonlar qəti olaraq bildirirlər ki, **II İohan Pavelin** və Roma Kuryasının tutduğu yolu müdafiə edirlər. Müasir Vatikanın qlobal strategiyası, sözsüz "Xristosun azmış lal qardaşları"nı kilsəyə qaytarmaq planını özündə saxlayır, amma kilsə siyasətində masonluqdan istifadə etməyi də unutmur. Bu yerdə "P-2" lojasının Böyük Magistri **Liço Cellinin** dahiyanə dediyi uzaqgörən sözləri Qərbdə reallığa çevrilməyə başlayır. O, Ümumdünya "azad bənnalar"ın məqsədini xarakterizə edərək deyir: **"Masonluğun görünməz hakimiyyəti**

**böyük təsiredici qüvvəyə çevrilib millətlərin taleyini həll edərək insanları birləşdirmək qabiliyyətinə qadir olmalıdır!".**

**Necdet Sevinc**

# «ORDULAR, MASONLAR VƏ KOMMUNİSTLƏR»

İstanbul, 1976, IV nəşr.

*Bu qoca dünyada Azərbaycanın qismətinə bir çox imperiyaların əsarəti altında yaşamaq düşmüşdür. Axırıncı 200 ildə Azərbaycan zorla əvvəl 90 ilə qədər Çar Rusiyası imperiyasının, sonra isə 70 ilə qdər SSRİ deyilən qırmızı imperiyanın tərkibinə ilhaq edilmişdir. Bu zaman imperiya idarəçiləri SSRİ daxilində, istərsə də xaricdə baş vermiş bir çox mühüm hadisələrin əsas mahiyyətini xalq kütlələrindən gizlətməyə çalışırdılar. Ancaq, Qərbi Avropa ölkələrində, ABŞ-da və Türkiyədə çap olunmuş elə əsərlər var ki, onlar bu hadisələrin əsas mahiyyətləri haqqında müəyyən qədər təsəvvür yaratmağa imkan verir. Belə əsərlərdən biri də Türkiyəli yazar Necdət Sevincin 1976-cı ildə İstanbulda çap etdirdiyi «Ordular, Masonlar və Kommunistlər» kitabıdır. Əsər 1972-1976-cı illərdə dörd dəfə nəşr olunmuşdur. Əsər 10 fəsildən ibarətdir. Əsərdə əsasən Rusiya (sonra SSRİ), Çin, Kuba, İspaniya, ABŞ, İndoneziya, Şərqi və Qərbi Avropa ölkələri və Osmanlı (Türkiyə) dövləti ilə əlaqədar baş vermiş mühüm tarixi hadisələr haqqında indiyə qədər bizim üçün qaranlıq qalmış həqiqətlər öz əksini tapmışdır. -*

**Tərtibçilər**

## YƏHUDİ DÖVLƏTİMİ?

Yəhudi kapitalistləri tərəfindən maliyyələşdirilən rus bolşevik çevrilişini (1917-ci il oktyabrın 25 – yeni stillə noyabrın 7-si) yəhudilər idarə etdiyinə görə qurulan dövlət də əlbəttə yəhudi dövləti olacaqdır.

Rusiyada 1918-ci ildə RSDFP-nin MK-nın Siyasi Bürosunun 12 üzvündən 10-u, Xalq Komissarları Sovetinin 22 üzvündən 18-i, RSDFP-nin MK-nın 554 üzvündən 447-si (2 polyak, 2 çex, 3 litvalı, 3 fin, 13 erməni, 2 gürcü, 1 macar və 12 alman), Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin 61 üzvündən 41-i, Moskva Sovetinin İcraiyyə Komitəsinin 36 üzvündən 23-ü yəhudi olmuşdur.

1917-22-ci illərdə Rusiyada, sonra 20-30-cu illərdə SSRİ-də bir çox yüksək dövlət vəzifələrində işləmiş yəhudilər aşağıdakılardır: **Lenin (Ulyanov), Trotski (Bronşteyn), Zinovyev (Apfelbaum), Kamenev (Rozenfeld), Svredlov (Yankel), Steklov (Nakxamkes), Martov (Zederbaum), Uritski (Padomilski), Martınov (Zıbar), Boqdanov (Zilberşteyn), Riazanov (Qoldenbax), Volodarski, Şlixter, Kaufmann, V.Şmit,**

**İ.Ştenberq, Zaslovski, Anvelt, Feniqşteyn, Qansburq, Feldmann, Robelson (Radek)** və yüzlərlə, minlərlə yəhudi.

Mətbuat və mətbuatla əlaqəli mühüm vəzifələrdə işləyən 556 nəfərin də 448-i yəhudi, 17-si rus, 2-si ukraynalı, 11-i erməni, 35-i latış, 15-i alman, 1-i macar, 10-u gürcü, 3-ü polyak, 3-ü fin və biri də çex olmuşdur.

Menşeviklərə gəlincə onlarda da vəziyyət eyni idi. Menşevik Sosialist Partiyasının MK-nın 11 üzvündən 11-i də, Rus Sağ Qanad Təşkilatının 15 üzvündən 10-u, Rus Sol Qanad Təşkilatının 12 üzvündən 10-u, Moskva Anarxistlər Komitəsinin 5 üzvündən 4-ü yəhudi olmuşdur.

1930-1936-cı illərdə SSRİ-nin İngiltərə, Almaniya, ABŞ, Yaponiya, Belçika, Norveç, İsveç, Rumıniya, Latviya, Finlandiya, İsveçrə və Uruqvay kimi ölkələrdəki səfirləri də yəhudi olmuşdur.

1960-cı illərin axırı 70-ci illərin əvvəllərində də SSRİ-də Sov. İKP-nin MK-nın Siyasi Bürosunun 11 üzvündən 9-u yəhudi olmuşdur. Bu 9 yəhudi rus dövləti siyasətinə istiqamət verməsə də Kremlin hərəkət əqrəbini çox zaman yəhudi mənafeləri istiqamətinə döndərməyə məcbur etmişdilər.

## ÜÇ GİZLİ RAPORT

Rusiyada baş vermiş 1917-ci il fevral inqilabının və bolşevik çevrilişinin (1917-ci ilin oktyabr ayı) dünya yəhudiliyi tərəfindən tərtibləndiyini göstərən üç sənədi də diqqətinizə çatdırmaq istəyirəm.

Birinci raport son rus çarı II Nikolaya Rusiyanın o zamankı xarici işlər naziri olan **Lamsdkof** tərəfindən «məxfi» qriflə verilmişdir:

**«1917-ci ildə Rusiyada cərəyan edən hadisələr Moskvada silahlı çevrilişlərlə nəticələnmişdir. Buna bənzər hadisələr imperiyanın müxtəlif yerlərində də baş vermişdir. Bu da bir bolşevik rus çevrilişi hərəkatının mövcud olduğunu qəti olaraq isbat etməkdədir. Bu hərəkat eyni zamanda və qətiyyətlə beynəlxalq rəng daşımaqdadır. Biz bu çevriliş hərəkatını müdafiə edən bəzi xarici kapitalist təşkilatının mövcud olduğu nəticəsinə gəldik. Biz şübhəsiz və qətiyyətlə bəyan edə bilərik ki, bu hərəkətlərdə əsas rol oynayanların başında yəhudilər durmaqdadırlar. Onlar çevrilişin ən güclü ünsürləri və təşkilat rəhbərləri olaraq çox fəaldırlar. Yuxarıda bəhs etdiyimiz çevriliş hərəkətinə edilən xarici kömək və yardım yəhudi kapitalist dairələrindən gəlməkdədir».**

İkinci raport **ABŞ**-ın kəşfiyyat orqanları tərəfindən tərtib olunmuş və Birinci Dünya müharibəsində ABŞ hökuməti tərəfindən bütün müttəfiqlərə göndərilmişdir:

**«1916-cı ilin fevral ayında Rusiyada bir inqilab hərəkatının inkişaf etməkdə olduğu təsdiq edilmişdir. Bu yıxıcı hadisələrlə yəhudi olan aşağıdakı şəxslər və bankların əlaqədar olduğu milli təhlükəsizlik orqanları tərəfindən aydınlaşdırılmışdır. Onlar aşağıdakılardır: Jacop Schift (bankir), S.H.Hanaouer (bankir), Felix Worbur, Cuggehheim, Maks Breifung, Kuhn, Loeb və başqaları.»**

Heç bir şübhə yoxdur ki, yuxarıdakı tarixdən bir il sonra baş verən rus inqilabı yəhudilərin təsiri ilə həyata keçirilmişdir. Bu haqda 1917-ci ilin aprelində **Jacop Schift** rəsmən etdiyi bir bəyanatında bildirmişdir ki, rus inqilabının müvəffəqiyyətlə başa çatması bilavasitə onun maddi yardımı ilə olmuşdur.

1917-ci ilin aprel ayında **Jacop Schift** və **Maks Worburg** Rusiya inqilabının liderlərindən olan yəhudi **Trotskiyə (Bronşteyn)** və dostlarına iri məbləğdə pul yardımı etmişdilər. Bu formada yəhudi milyonerləri ilə yəhudi proletariatının arasında sıx əlaqələr yaranmışdır. Bəyan edə bilərik ki, kommunist hərəkatı ümumi yəhudi hərəkatının bir hissəsidir. Bəzi yəhudi bankları bu hərəkatın təşkilatlanması ilə daima maraqlanmışlar.

1919-cu ildə Britaniya Hərbi Nazirliyi tərəfindən **«Bolşevizm haqqındakı raportlar kolleksiyası»** adı ilə nəşr olunmuş kitabda İngiltərənin Rusiyadakı səfirinin mühüm bir raportu da çap olunmuşdur: **«Təhlükə o qədər böyükdür ki, istər Britaniya və istərsə də digər hökumətlərin nəzər-diqqətlərini bu mövzuya çəkməyi özümə vəzifə sayıram. Bolşevizmin qarşısını almaq üçün dərhal hərəkətə keçilməsə bütün dünya mədəniyyəti təhlükə altına düşəcəkdir. Yuxarıda bəyan etdiyim kimi hələ rüşeym halında olan bolşeviklik dərhal boğulmazsa bir çox formalara girərək Avropaya və bütün dünyaya yayılacaqdır. Çünki, bu hərəkat şovinist mənfəətləri üçün bütün quruluşları yıxmaqdan çəkinməyəcək. Gələcəkdə baş verə biləcək hadisələr, yəhudilər tərəfindən təşkilatlandırılmış və tətbiq olunmaq vəziyyətinə gətirilmişdir».**

Sonralar yəhudi **Trotski** belə bir etiraf etmişdir: «Türkiyədəki 1908-ci il hərəkatı bizim gözümüzü açdı. Uzun nəzəriyyə ilə məşğul olmağı buraxaraq praktik işə girişdik və qarşımıza qoyduğumuz məqsədə bir saray hücumu ilə nail ola bildik». **Trotski** 1908-ci il hərəkatını dedikdə nəyi nəzərdə tutmuşdur: Gənc Türklər Osmanlı İmperiyasının xarici və daxili düşmənlərinin yardımı ilə 1908-ci il iyulun 3-də Makedoniyanın Rəsnə

şəhərinin qarnizonunu üsyana qaldırmağa müvəffəq oldular. Gənc Türklər hərəkatına rəhbərlik edən «İttihat və Tərəqqi Partiyası» isə yəhudilərin Selanikdə fəaliyyət göstərən mason lojasının təsiri altında olmuşdur. Bu partiya sultanın ləğv etdiyi 1876-cı il konstitusiyasının bərpa olunduğunu elan etdi. Ölkədə qanlı qarşıdurma yaranmaması üçün **Sultan II Əbdülhəmid xan** iyulun 24-də konstitusiyanın bərpa olunması və məclis çağırılması haqqında fərman verdi. 1908-ci il noyabrın 2-də öz işinə başlayan məclisdə çoxluq təşkil etmiş gənc türklər inqilab ərəfəsində verdikləri vədlərinə əməl etmədiklərindən onların sosial bazası zəiflədi. 1909-cu il aprelin 13-də **Sultan II Əbdülhəmid xanın** tərəfdarları hərbi çevriliş edib hakimiyyəti yenidən ələ keçirdilər. Makedoniyaya qaçmış Gənc Türklər əsas dayaqları olan Üçüncü ordunu (**«Hərəkat ordusu»**) İstanbul üzərinə yeritdilər. Sultan bu dəfə də qardaş qarşıdurmasına getməmək üçün hakimiyyətdən könüllü əl çəkərək taxt-tacı qardaşı **V Mehmet Rəşada** verməyə razı oldu. Əslində hakimiyyət Gənc Türklərin əlinə keçmiş oldu. İmperiyanın daxili və xarici düşmənlərinin yeritdikləri antitürk siyasətinin həyata keçirilməsinə istər xaricdə istərsə də Osmanlı imperiyasının yaşayan yəhudi milyonerləri və ideoloqları həm maddi, həm də mənəvi kömək etmişdilər. Onlardan bu yardımları almış «Gənc Türklər» məlumdur ki, ödlkənin, türk xalqının mənafeyinə uyğun fəaliyyət göstərə bilməzdilər. Onların səhv siyasətləri nəticəsində Osmanlı dövləti 1918-ci ildə Birinci Dünya müharibəsində məğlubiyyətə uğradı. Bu məğlubiyyətin sonu da faciələrlə bitdi. Onları mason lojalarına cəlb etmiş yəhudi-erməni-rum siyasətçiləri bu faciələrin də əsas səbəbkarları oldular.

Rus orduları 1915-ci ildə Tanneberqdə uğradığı məğlubiyyətdən sonra Rusiyanın mərkəzi şəhəri ola Petroqradın alman qoşunları tərəfindən işğal olunması təhlükəsi yaranmışdır. Bunu hiss edən çar **II Nikolay** çox qiymətli muzey əşyalarını və Romanov xanədanının xüsusi xəzinəsi ilə dövlət xəzinəsini paytaxtdan uzaqlaşdırıb tarixən bir türk şəhəri olan Kazana göndərmişdir. Bu sərvət on min sandıq qızıl pul, minlərlə kisəyə doldurulmuş banknot halında xarici valyuta, veksel, yüzlərlə platin külçə, on sandıq dolusu Sibir almazı, yaqut və zümrütlərdən ibarət olmuşdur.

Bu sərvətə nə yəhudi **Kerenski**, nə də bolşevik liderləri olan yəhudilər – **Lenin** və **Trotski** sahib ola bilməmişdilər. Bu sərvətə xristianlaşmış tatar olan admiral **Kolçak** sahib ola bilmişdi. Xəzinənin çox hissəsini **Kolçak** ordu üçün xərcləmiş (silah və sairə materialların əvəzində 1919-cu ildə İngiltərəyə – 2883, Yaponiyaya – 2672, ABŞ – 2118, Fransaya – 1225 pud – ümumiyyətlə 148 ton qızıl verilmişdir. – **Tərtibçilər**) və az bir hissə 1920-ci

il fevralın 7-də bolşeviklər tərəfindən **Kolçakın** tutulub güllələnməsindən sonra sovet hökumətinin əlinə keçmişdir.

## ONUNCU FƏSİL

# TÜRKİYƏDƏ

Türkiyədə sinif bölgüsü əsasına dayanan ilk təşkilat **«Əmələlər Cəmiyyəti»**dir. 1871-ci ildə qurulan bu təşkilat 1872-ci ilin yanvarında «tərsanə tətili»ni idarə etmişdisə də, onun üzvlərinin sosialist və kommunist olduğuna dair hər-hansı bir qeyd yoxdur. Bu cəmiyyətdən sonra **«Osmanlı Əmələ Cəmiyyəti»** qurulmuşdur. Qurulmasından bir il sonra 1896-cı ildə bu cəmiyyət bağlanmış və qurucuları 8-10 il həbs cəzasına məhkum olunmuşdular. Hələ bu dövrlərdə sultana qarşı xalqı yoldan çıxara biləcək bir təşkilat yox idi. Çünki o dövrdə Türkiyədə işçini də, ziyalını da, müsəlmanı da **Əbdülhəmid xana** qarşı istifadə etmək istəyən çoxlu böyük dövlətlərin başında Osmanlı İmperiyasının parçalanmasında marağı olan İngiltərə, Fransa və Rusiya gəlməkdə idi. İlk dövrlərdə imperiyanın baş naziri olmuş məşhur sərəsgər **Hüseyn Avni** paşa ilə baş nazir, məşhur konstitutsiyaçı olmuş **Midhət paşa** Avropanın təsiri ilə **Əbdüləzizə**, sonra **Əbdülhəmidə** qarşı fəaliyyət göstərmişdilər. Həmçinin qurulub bağlanan ilk fəhlə cəmiyyətindən sonra, digər bəzi təşkilatlar təşkil edilmişdisə də, bunların heç biri klassik anlamda sosialist olmamışdılar.

Digər bütün ölkələrdə olduğu kimi kommunsit ideyaları Türkiyədə qeyri-türklər və qeyri-müsəlmanlar tərəfindən təbliğ olunduğu halda, türk fəhlə və ziyalısının gücü, qüvvəsi başqa millətlərin lehinə, türk millətinin isə əleyhinə istifadə olunurdu. İmperialist dövlətlərin Osmanlı İmperiyasını içindən yıxmağı düşünmədiklərini söyləmək sadəlövhlük və axmaqlıq olar. Çünki acıqlanan, yəni məxfiliyi götürülmüş ingilis, fransız, rus və türk sənədləri Peterbürq, Paris və Londonun tənzimat dövründən bəri Osmanlı İmperiyasında yaşayan milli azlıqları Osmanlı dövlətinə qarşı istifadə etmək istədiklərini sübut etmişdir.

Rusiya bir çox müqavilələrdə Osmanlı İmperiyasında yaşayan pravoslavların hamısı olduğunun qəbul edilməsi üçün israr etmiş və dolayısı ilə nail olmuşdur. **«Türk dövlətini yıxdıqdan sonra sizə də bir Ermənistan verəcəyik»** vədi ermənilərin ağlını başından almışdı. Eynilə belə vəd ermənilərə İngiltərə və Fransa tərəfindən də verilmişdir.

Ümumiyyətlə, ermənıyə, yunana, yəhudiyə, ərəbə, bolqara və Osmanlı dövlətinin tərkibində nə qədər türk olmayan xalq varsa, bunların hamısına belə vədlər verilmişdir.

Fransa, İngiltərə, Rusiya və başqa böyük ölkələr Osmanlı dövlətinin ərazisində heç bir fransızın, ingilisin, rusun və başqa böyük dövlətlərin vətəndaşlarının yaşamadıqları şəhərlərdə, qəsəbələrdə öz məktəblərini və konsulluqlarını açırdılar. Həm Avropada yaşayan, həm də Osmanlı İmperiyasının təbəəsi olan yəhudilər də bu sultanlığın parçalanmasında fəal iştirak etmişdilər. Xüsusilə Osmanlı imperiyasının Avropa qitəsində olan torpaqlarında göbələk kimi çoxalan mason lojaları bu dağıdıcı qüvvələrin birləşdirilməsində əsas yer tuturdular. Bu dövrdə sultana qarşı istifadə etmək üçün bəzi türk ziyalılarını da bu lojalara cəlb etmişdilər.

Dünyanın ən güclü ölkələri və bu ölkələrin ən varlı sənayeçiləri, miliyəçiləri və xüsusi xidmət idarələri bu hərəkatı dəstəkləyirdilər.

Bu hərəkat o dövrlərdə beynəlxalq aləmdə təzə-təzə mövqeyini möhkəmləndirməyə çalışan sosialist-kommunist cərəyanının gücündən, qüvvəsindən də istifadə etməyə çalışdı.

Qafqaz Ermənistanından olan **Avetis Nazarbek** ilə sonradan bu **Nazarbekin** arvadı olan fahişə **Maro** «Hınçak Komitəsi» adlı bir şovinist erməni təşkilatı yerləşmiş, Osmanlı İmperiyası torpaqlarının xaricində, əvvəl Cenevredə yerləşmiş, sonra da İngiltərədən küllü miqdarda sərmayə qopararaq, təşkilatın mərkəzinin Londona köçürmüşdür. Bu təşkilat bir tərəfdən fəhlələrin haqqlarını müdafiə edərək, türk fəhləsini özünə arxa etmək, digər tərəfdən də Anadoludan qoparılacaq torpaqlar üzərində Milli Ermənistan dövlətinin xəritəsini cızırdı.

Ermənicə birlik, ittifaq mənasına verən **«Daşnaksutyun»** adlı, əməlləri cinayətkar xarakterli olan bir cəmiyyət də qurmuşdular. Tiflisdə qurulmuş və **«Troşak» («Bayraq»)** adlı bir qəzet də buraxan **«Daşnaksutyun»** Partiyası Türkiyə xəritəsi üzərində bir Ermənistan quraraq türk fəhlələrinə məşrutiyyətçiliyi təbliğ edirdilər. Erməni şovinistlərin birləşdiyi **«Hınçak»** və **«Daşnaksutyun»** partiyalaranın planları əsasında Bitlis və Sasunda erməni üsyanları, Osmanlı Bankına edilən sabotaj və **Sultan II Əbdülhəmid xana** qarşı sui-qəsd kimi hadisələr baş vermişdir. Belə olduğu halda qarşıya bir sual çıxır. **Bu üsyanlar, sui-qəsdlər və başqa qarışıqlıqlar nə üçün lazım idi?** Bunlar onun üçün lazım idi ki, hələ 1839-cu ildə Avstriya-Macarıstan, Rusiya və İngiltərə ilə Osmanlı dövləti arasında aşağıdakı məzmunda saziş imzalanmışdır, əgər Osmanlı dövlətində hər hansı bir milli azlığın və etnik qrupun hüquqları pozularsa, bu dövlətlər Osmanlı İmperiyasının paytaxtına müdaxilə edə bilərlər.

O dövrdə Osmanlı dövlətində az-çox tanınmış olan ziyalılırın bir çoxu da imperiyanın əleyhinə olan hərəkətlərin təsirinə düşdülər. Şair **Tofiq**

**Fikrət** və islamçı şair, istiqlal marşının müəllifi **Mehmət Akif Ərsoy** da onların arasında idi.

Təəssüf ki, **M.A.Ərsoy** ingilisin, yunanın, ermənininin və yəhudinin əleyhinə yazmadığı şeri türk dövlətinin sultanı və üstəlik də islam xəlifəsi olan **Əbdülhəmid xanın** əleyhinə yazacaqdır. Nümunəvi türk gənci olsun deyə, böyütdüyü oğlunu keşiş edən **Tofik Fikrət Sultan II Əbdülhəmid xanı** öldürmək istəyən marksist maskalı erməni millətçisi üçün

**«Ey şanlı ovçu tələni bihudə**
**qurmadın,**
**Atdın, fəqət yazıq ki, yazıqlar ki,**
**vurmadın»**

misralaranı yazmışdır. **Mehmət Akif** isə şerlərində **Sultan II Əbdülhəmid xanı «hərif, zalım, qorxaq, xanım»** adlandırmışdır.

İndi də bir az sosialist maskalı bolqar, yunan, yəhudi təşkilatları haqqında məlumat verək. Osmanlı vətəndaşı olan bolqar millətçiləri tərəfindən qurulan bu təşkilatlar xüsusi yer tutur: **«Sosialist Makedoniya-Ədirnə İnqilab Komitəsi», «Rum Fəhlə Komitəsi», «Bolqar Fəhlə Komitəsi»** və **«Türk Fəhlə Komitəsi»**. Sonuncu üç təşkilat 1904-cü ildə qurulmuşdur. 1904-cü ilin ən mühüm sosialist təşkilatı Selanikdə açılan **«Fəhlə klubu»**dur. Üzvləri bolqar, yunan, yəhudi, yəhudi dönməsi və bir az da türk olan təşkilat dörd dildə nəşr olunan bir qəzet də çıxarır: **«Fəhlə»** (türk dilində), **«Efimerutu Erqatu»** (yunanca), **«Rabotniçeski Vestnik»** (bolqarca), «Jurnaldel Labrador» (yəhudi dilinin ispan şivəsində). Elə bu dövrdə Osmanlı dövlətinin 4 dildə qəzet çıxara bilməyə gücü çatmadığı halda, Selanikdə fəaliyyət göstərən **«Fəhlə klubu»**na hansı gizli əlin uzandığını dəqiqləşdirmək asanlaşacaqdır. Məlum olur ki, təşkilat **Abrahazm Benaroyanın** Selanikdə qurduğu **«Yəhudi İntellektual Araşdırma Qrupu»**nun bolqar sosialistləri ilə birləşməsi nəticəsin də yaranmışdır. Burada bir şeyə diqqətlə yanaşmaq lazımdır ki, fəhləliklə, muzdurluqla, kəndçiliklə və əliqabarlılıqla heç bir əlaqəsi olmayan və Fələstində qurulacaq yəhudi dövlətinin planını verən **«Yəhudi İntellektual Araşdırma Qrupu»** Balkan ölkələrində türk soyuna qan qusduran bolqar sosialistləri ilə birləşmişdir. **Abraham Benaroyanın** rəhbərlik etdiyi bu təşkilat az sayda olan türk fəhlələrindən Osmanlı dövlətinə qarşı istifadə etdiyini bir xarici müəllifin yazdığı əsərdən də aydın görürük. **Georgi S.Harris «Türkiyədə kommunist mənbələri»** adlı əsərində Selanikdəki sosialist **«Fəhlə klubu»** haqqında bunları yazır:

«Yəhudi dostlarının yanında bolqarlar özlərini çox narahat hiss edirdilər. Yunanlar və türklər bu kluba çox könülsüz daxil olurdular. Yalnız yəhudilər bu axına həvəslə qoşulurdular. **A.Benaroya** əvvəlki cəmiyyətlərin və təşkilatların qeydiyyatsız olmalarına baxmayaraq, 1909-cu ilin mart ayının ortasında **«Selanik Sosialist Fəhlələr Federasiyası»**nın qurulduğunu rəsmən elan etdilər. Bundan sonra Selanik sosialistləri ilk addım olaraq «Bütün Türkiyə fəhlələri 1 May nümayişinə» adlı bəyənnamə nəşr etdilər. Burada siyasi və sosial sahədə islahatların keçirilməsinə dair proqramın həyata keçirilməsi tələb olunurdu. 1909-cu il iyunun 6-da da Selanik bölgəsindən müxtəlif millətlərdən sözdə 5000 fəhlənin daxil olduğu bir mitinq keçirildi. Bu toplantıda erməni və bolqar nümayəndələri hökumətin irəli sürdüyü «iş qanununu» layihəsinə etiraz etdilər. Onların bu hərəkətləri müqabilində hökumət həmkarlar təşkilatının qurulması və tətil etmək hüquqlarını məhdudlaşdırdı. Federasiyanın 1908-ci il inqilabın ildönümündə Selanikdə anma mərasimləri zamanı keçirdikləri nümayişlər ictimaiyyət arasında təbliğat kompaniyasına cəsarət verdi.

**Benayora** camaat arasında təbliğat kompaniyası apararkən yəhudilərin xeyrinə qeyri-yəhudilərdən də istifadə edirdi. O, daha sonra türk, yunan və bolqarlar arasında ixtilaf baş verdiyi üçün dörd dildə nəşr olunan mətbuat orqanını buraxmağı dayandırdı və **«La Solidaridad Onvradera»** qəzetini yəhudi dilinin ispan şivəsində çıxarmağa başladı.

Bu arada **Vasili Qlavinovun** liderliyi ilə **Bolqar Soail-Demokrat Fəhlə Partiyası Beynəlxalq Sosialsit Bürosunun** Kopenhagendə keçirilən konqresinə gedir və İkinci İnternasionala daxil olur. Marksist və şovinist erməni **«Daşnaksutyun»** partiyası isə İkinci İnternasionala 1917-ci ildə girmişdi. Hətta İnternasionalın Sosialist Bürosunun erməni şöbəsinin qurulduğu iclasda **Lenin** də iştirak etmişdir. Yunan sosialisti **Q.Konstantinidis «Fəhlələr»** adlı qəzeti türk dilində nəşr etdirir. **«Hıncak»** erməni terror təşkilatının liderlərindən olan **Kozikyan «Norxosanq»** adlı ermənicə qəzet çıxarmağa başlayır.

Bunlardan əlavə II Məşrutiyyət Məclisinin sosialist deputatlarına da bir nəzər salmağa ehtiyac vardır. Selanikdən bolqar **Laxov** əfəndi, Ərzurumdan **Vartkez,** Kozandan **Hambarsum Muradyan,** Sivasdan **Dağavaryan,** İstanbuldan erməni **Zöhrab** seçilmişdir. Bu deputatlar şovinist olmaqla yanaşı həm də kommunist idilər. Onlar fəhlələrin və kəndlilərin problemlərini daima Məbusan Məclisində müzakirə olunmasına çalışaraq türkləri erməni probleminin alətinə çevirmək istəyirdilər. Tədqiqatçı alim **Fəthi Təvətoğlu** yazdığı məqalələrinin birində (Türk Kültürü, sayı 5, s.8) sosialist deputatların fəaliyyətlərini aşağıdakı kimi təsvir edir: «Ərzurum

deputatı **Vartkez,** Sivas deputatı **Dr.N.Dağavaryan**, İstanbul deputatı **Zöhrab** və Kozandan olan **H.Muradyan** kimi əfəndilər parlamentdəki erməni deputatlarının bir hissəsi olmaqla **«Hınçak»** və ya **«Daşnaksütyun»** kimi azğın, inqilabçı xarakterli partiyaların üzvü və fəal kommunist idilər. Bunların yeganə və müştərək məqsədləri proqramlarının gerçəkləşməsinə nail olmaq idi.

İstər **«Hınçak»**, istərsə də **«Daşnaksütyun»** partiyaları Anadolu torpaqlarının hesabına bir Ermənistan dövləti qurmaq üçün qurulmuşdur. Bu təşkilatların iç üzünü açan bir çox sənədlər hamıya bəllidir.

**Vartkez əfəndi** parlamentdə konstitusiyanın 35-ci maddəsinə aid çıxış etmiş və **«Daşnaksütyun»** komitəsinin nə olduğunu açıqlamışdır. Onun çıxışını əks etdirən protokolda bunlar yazılmışdır: «Avropa tipli parlament bizdə yoxdur. Avropada bir adam deputat seçildiyi zaman öz seçicilərinin qarşısında hansı proqramla hərəkət edəcəyini, millətin parlamentdə hüquqlarını necə və nə formada müdafiə edəcəyini söyləyir. Bu kampaniyadan sonra da millət onu deputat seçir. Mən Ərzurummdan seçildiyim zaman **«İttihat və Tərəqqi Partiyası»**nın proqramını seçki kampaniyası zamanı seçicilərə təbliğ etməyə başladılar. Onda mən də Daşnaksütyun partiyasının proqramını ortaya qoydum və bu proqramla məni seçərsinizsə, seçin dedim».

Parlamentdə fəal kommunist fəaliyyəti göstərən şəxslərdən biri də Selanikdən seçilmiş deputat bolqar **Dmitri Vlaxov** idi. Ondan başqa parlamentdə **Panitsa** və **Sandanski Dimau** adlı bolqarlar da vardır. Vlaxov bunlardan çox fəal idi. O, Türkiyədə **Parvüs** adlanan yəhudi **Aleksandr İsrael Hellplandın** yetişdirməsi olmuşdur. O, Rusiya Dəniz Fəhlələri Həmkarlar İttifaqı ilə yaxın əlaqə qurmaqla yanaşı Kominternin fəaliyyətində də fəal rol oynamışdır. 1935-ci ildə Moskvada olmuş və İkinci Dünya müharibəsi illərində isə **Tito** ilə birgə çalışmışdır. **Vlaxov** Yuqoslaviya KP-nin Rəyasət Heyətinə Makedoniyanın nümayəndəsi kimi seçilmiş və nəhayət 1954-cü ildə ölmüşdür. Qarşıya belə bir sual çıxır. Qatı bir kommunist olan bu adam türk düşmənçiliyi etmək üçünmü Osmanlı Məbusan Məclisinə deputat seçilmişdir?

**Acian Sayılqan** onun fəaliyyəti haqqında aşağıdakıları qeyd etmişdir: «Vlaxovun əsas gizli planı müstəqil bir **«Makedoniya Balkan Federasiyası»** olduğu anlaşılır. Əsasən **Titonu** müdafiə etməsi, beynəlxalq kommunist hərəkatların işində yaxından iştirak etməsi onun həqiqi bir kommunist olmaqdan daha çox qatı bir Makedon millətçisi olduğunu göstərir. Məclisdə bitib-tükənmədən davam edən bu bolqarlıq, ermənilik, qısası sosialist maskalı azlıq millətçiliyinin türk millətinə də xeyri dəymişdir. Yəni bir zamanlar Osmanlı imperiyasında yaşayan bütün xalqları

birləşdirmək üçün və bütün xalqların dəstəyi ilə 1908-ci il hərəkatını gerçəkləşdirən «**İttihat və Tərəqqi Partiyası**» dünya mübarizəsinin təməlində irq və millət qovğasının yatmaqda olduğunu anlamış və tezliklə türkçülüyə dönmüşdür.

Ümumiyyətlə, Türkiyədə qeyri-türkləri kommunizm və sosializm məsələləri çox maraqlandırmışdır. **Serofim Maksimov, Roland Könenzberq, Nikola Asmakopulo, Sarafim Vasilkopulo, Ustavrit İvan, Patros, İlya Zaxarya, Karapet, Akop, Vahan, Vasfi və A.İ.Helpland** kimi adamların bir təşkilatda birləşərək Türkiyəni kommunistləşdirmək üçün çalışmalarını heç kəs inkar edə bilməz. Bunlardan **A.İ.Helpland** Rusiya yəhudilərindəndir. Rusiyada yəhudi Trotski ilə münasibətləri pozulduqdan sonra Almaniyaya getmiş və «**Spartak**» üsyanından sonra da Türkiyəyə qaçmışdır. O, Türkiyədə **Parvüs əfəndi** adını götürmüş, yəhudi **Xeyim Eidus Parvüs əfəndinin** Rumıniya Kommunist Partiyasının lideri **Xristo Patovski** ilə birlikdə İstanbuldakı 1 May nümayişində iştirak etdiyini yazır. Türkçüləri kommunizmin alətinə çevirmək istəyənlərdən biri də bu yəhudi kommunisti olmuşdur. Onun fəaliyyətini çərkəz **Əthəm Nəşət**, mason **Nüzhət Sabit** və digərləri davam etdirmişdilər. Kommunistlər daha sonra marksizmlə islamiyyəti birləşdirməyə çalışmışdılar, lakin şeyxülislam buna mane olmuşdur. Bu fəaliyyətlər indiki dövrə qədər gəlib çatmışdır. Bütün bu işləri edənlər də qeyri-türklər olmuşdur.

Qeyri-türklərin Türkiyədəki kommunist hərəkatlardakı yerini kommunist partiyalarının fəaliyyətini araşdırmaqla müəyyən etmək olar.

## OSMANLI SOSİALİST FİRQƏSİ

Osmanlı Sosialist Firqəsi İkinci Məşrutiyyənin elanından sonra 1910-cu ildə qurulmuşdur. Partiyanın lideri isə **İştirakçı Hilmi** olaraq tanınan **Hüseyn Hilmidir**. **Süleyman Çobanoğlu** qeyd edir ki, **H.Hilmi** Parisə gedərək, Fransa Sosialist Partiyasının lideri **Jan Jeres** ilə görüşərək ona sosialist olmaq istəyini bildirmişdir. O da Fransa Sosialist partiyasının proqramını ona vermiş və bu proqram sonralar türk dilinə tərcümə olunaraq Osmanlı Sosialist Partiyasının proqramı olmuşdur. Artıq **H.Hilmi** üçün mənəvi dayaq **J.Jores** idi. O, hətta qəzetdə də **J.Joresi** tərifləmiş və onun Parisdən göndərdiyi məktubları türk dilində çap etdirmişdir. «**İştirak**» qəzetində çap olunan bu məktublardan birində fransız sosialist lideri Osmanlı sosialistlərinə bu tövsiyələrini etməkdədir: «**Azad İzmir**» **və**

**«İştirakçı» qəzetlərinin sahibi Hüseyn Hilmi bəyə. Sizi ən səmimi qəlbdən təbrik edərək işinizdə müvəffəqiyyətlər arzu edirəm. Hər növ müavinətə və hamiliyə hazır olduğuma əmin olun. İstədiyiniz məlumatların verilməsini və lazım gələn kitab və kitabçaların göndərilməsi üçün cavabınızı gözləyirəm. Arzunuza uyğun olaraq partiyamızın proqramını poçt ilə göndərdik, inşallah bu yaxınlarda alacaqsınız. Mətinli, qeyrətli olun, çünki bu məslək daima mətanət və ciddilik tələb edir».**

Göründüyü kimi, Osmanlı Sosialist Partiyasının lideri Parisdən daima əmr və təlimat alır, üstəlik də aldığı təlimatları tipik bir uşaq psixologiyası ilə qəzetində verərək bütün dünyaya elan edir.

Hökumət Osmanlı Sosialist Partiyasının nəşr orqanı olan **«İştirakçı»** qəzetini bağlatdırsa da, **H.Hilmi** yeni bir qəzet çıxarmağa başladı. Osmanlı Sosialist Partiyası özü Fransa Sosialist Partiyasını necə təqlid edirdisə, partiyanın qəzeti də eyni cür davranırdı. O, Parisdə nəşr olunan **«Humanite»** qəzetinin adını türkcəyə çevirib **«İnsaniyyət»** adlı qəzet çıxarmağa başladı.

**H.Hilmi** hətta parlamentdə fəaliyyət göstərən qeyri-müsəlman sosialist deputatlarının Osmanlı Sosialist Partiyasına bağlı bir qrupunu yaratmaq istəyirdi. Ancaq o, buna nail ola bilmədi. Onun uğursuzluğunun səbəbini **George S.Harris** belə izah edir: **«Osmanlı Sosialist Partiyası bir nəfər parlament üzvünü də öz tərəfinə çəkib partiyaya bağlaya bilmədi. Əslində erməni və bolqar sosialist deputatları türk sosialist liderinin bütün israrlarına baxmayaraq öz qatı şovinist ideyalarından əl çəkmək istəmirdilər».**

Osmanlı Sosialist Partiyasının qurulduğu günlərdəki sosialist hərəkatların hədəfini **Acian Sayılqan** belə açıqlayır: **«Osmanlı İmperiyasının ilk Fəhlə Həmkarlar İttifaqı Selanikdə qurulmuşdur. Üzvlərinin çoxunu erməni, yəhudi, bolqar və yunanlar təşkil edirdi. Sosialist kimi parlamentə girən deputatlar da bu sosialist təşkilatları tərəfindən müdafiə olunmuş bolqar və ermənilər idi. Daha doğrusu, sosializm bolqar və erməni qatı millətçilərinin əlində qurtuluş bayrağı idi. Yəhudilər üçün isə əsas məqsəd Fələstində bir vətən əldə etmək idi. Sosializm ideyasının əsas prinsiplərindən olan materializm və ateizm osmanlı ziyalısına hərarətli görünmürdü. İslamiyyətin təsiri ilə XIII əsrdən bəri yad olan hər bir fikri Osmanlı İmperiyasında yaşayan müsəlmanlar, xüsusilə də türklər qəbul etmirdi».**

Bir az əvvəl kimliyini açıqladığımız yəhudi **Abraham Benaroya** Osmanlı Sosialist Partiyası ilə yaxından maraqlanırdı. O, 1919-cu ildə

**Sultan Rəşada** sui-qəsd etmək ittihamı ilə həbs edildi. Bu zaman Sosialist Mərkəzinin lideri **N.Qianiss** də ölkədən qaçmağa məcbur oldu.

Osmanlı Sosialist Partiyasının Paris şöbəsinin sədri. **Dr.Refik Nevzatı J.Jores** yetişdirmişdi. O, **Emil Vendervelde** ilə də yaxından tanış idi. O, İnternasionalın Sosialist Bürosunun yığıncaqlarında Osmanlı Sosialist Partiyasını təmsil edirdi». İttihat və Tərəqqi Partiyası 1912-ci ildə hakimiyyətdən müvəqqəti olaraq uzaqlaşdırıldıqdan sonra **H.Hilmi** Türkiyəyə qayıtmış və «**İştirak**» qəzetini yenidən çıxarmağa başlamışdır.

Yunanlar da qəzetin redaksiya heyətindən faydalanmağa çalışmışdılar. **Abraham Benaroya** və **Parvüs** əfəndi bu dövrdə yenidən meydana çıxaraq Birinci Balkan müharibəsində Üsküp, Selanik, Qərbi Trakiya və ətrafını itirən Türkiyəni imperialist olaraq günahlandırırdılar. Bazeldə sosialistlərin fövqəladə konqresində qəbul edilən bəyanata görə, torpaq itirən Türkiyə şovinist, dini fanatizmin yuvası və imperilist olmaqda ittiham edilmişdir.

Birinci Balkan müharibəsində Türkiyə Ədirnəyə qədər olan bütün torpaqlarını itirmişdir. Osmanlı Sosialist Partiyasının Paris şöbəsinin sədri **Refik Nevzet** əfəndinin, yəni tarixi bir türk şəhərinin də düşmənə verilməməsinə çox təəssüfləndi. O, **Albert Fua** ilə birgə «**Əhaliyə dəvət**» adlı bir kitabça çap etdirərək, Ədirnənin Bolqarıstana verilməsini istədi. Bu cəhdlər Birinci Dünya müharibəsinin sonuna qədər davam etdi.

Kommunist fəaliyyətlər Türkiyədə Birinci Dünya müharibəsindən sonra da qeyri-türklər tərəfindən davam etdirilmişdir. Selanikli bir yəhudi dönməsi olan **Dr.Şefik Hüsnü Dağmer** 1919-cu il senyabrın 20-də **Serafim Maksimos, Roland Kenenzberq, İlya Zaxaryev, Nikola Asmakopulonun** köməyi və iştirakı ilə Türkiyə Fəhlə və Kəndli Sosialist Partiyasını qurdu. Həbs olunan zaman ələ keçən və şəxsən **Şefik Hüsnü Değmer** tərəfindən yazılan bir sənəddə isə bu sətirləri oxuyuruq: Türkiyə Kommunsit Partiyası fəhlələrin ən şüurlu fərdlərindən ibarət inqilabçı və şüurlu bir təşkilatdır. Ziyalı qrupun ətrafındakı inqilabçı fəhlə həmkarlar İttifaqının ən şüurlu fərdləri yunanlardan ibarətdir. «**Fəhlə qrupu**» və **Hınçak Partiyasının** sol qrupu birləşərək Türkiyə Kommunist Partiyasını yaratmışdılar.

Yunan ermənilərinin qurduğu və bir yəhudi dönməsinin də lider olduğu bu partiya «**Parti Sosialist**» ilə sıx əlaqə qurmuşdur. **H.Hilminin** fikir atası olan **Jan Jores** sonra uzun müddət də **Şefik Hüsnü Değmerlə** məşğul olmuşdur. Təşkilat belçikalılarla fransızların sahib olduqları Tramvay şirkətində və xarici kapitalın köməyi ilə işləyən iş yerlərinin qeyri-türk fəhlələri arasında özünə tərəfdar toplaya bilmişdi. Sonra bu təşkilat **Roland Kenenzberq, İlya Zaxarya, Serafim Maksimos, Nikola Asmakopulo** kimi liderlərin fəaliyyəti nəticəsində Beynəlxalq Fəhlə

Federasiyası, Beynəlxalq Dənizçilər Federasiyası və başqa beynəlxalq qurumların Türkiyədə yeni şöbələrini açmışdır ki, onların da əsas üzvləri xristianlar olmuşdur. Bu təşkilatın beyni bax belə yaranmışdır.

**Roland Kenenzberq** Halkalı Kənd Təsərrüfatı Məktəbində işə düzəlmişdir. Burada **İvan** adlı bir bolşevik rus da işləyirdi. O, çar Rusiyasından qaçıb Türkiyəyə gəlmişdir. Serafim Maksimos da «Union İnternationale du Trafille» də işləyirdi. O, gələcəkdə, yəni İkinci Dünya müharibəsindən sonra **İlya Zaxarya** ilə birlikdə Yunanıstan Kommunist Partiyasının lideri olacaqdır. İstavrit Yunanıstan vətəndaşıdır. O, Rusiyadan göndərilən 3000-ə qədər bəyənnaməni Xarratlar Cəmiyyətinə verərkən tutulmuşdur. Rusiya vətəndaşı olan **Petros** da divara «Yaşasın kommunizm» adlı vərəqəni yapışdırarkən yaxalanmışdır. Türklər kommunistləri və onların apardıqları təbliğatı sevmədiklərindən vərəqə yunanca yazılmışdı. Polisin apardığı təhqiqatdan sonra **Serafim Vasilkopulonun**, konduktor **Karapetin**, **Akop** və başqalarının adları da məlum oldu. Bunlar sonralar Qızıl Orduda marşal rütbəsi alan və Rusiya Xüsusi Xidmət İdarəsinin zabitlərindən olan mayor **Budyonnı** ilə əlaqə saxladıqlarını boyunlarına aldılar. Əslində **Budyonnı** Türkiyədə fəaliyyət göstərən bu kommunist təşkilatının yüksək rütbəli bir rus zabiti olan **Sxalvo Eliavaya** ilə sıx münasibətdə idi. Bütün əmrlər ancaq bu şəxs tərəfindən verilirdi.

Bir az da **Şefik Hüsnü Değmerlə Ədhəm Nəjatın** fəaliyyəti haqqında bir neçə söz demək lazımdır. Türkiyəli kommunistlər arasında onların çox böyük nüfuzları vardı. Yəhudi dönməsi olan **Ş.H.Değmer** 1887-ci ildə Selanikdə doğulmuş və hər bir yəhudi dönməsi kimi o da varlı bir ailənin övladı olmuşdur. Türkiyədə təhsilini tamamladıqdan sonra, o ali tibb təhsili almaq üçün Parisə getmiş və Osmanlı İmperiyasında hər bir azsaylı xalq kimi məşrutiyyətçilliyi müdafiə etməyə başlamışdır. Fransa Sosialist Partiyasının lideri Jores onun da mənəvi atası olmuşdur. O, məhkəməyə verdiyi ifadəyə görə, 1907-ci ildə **L.Hormenin** təşkil etdiyi toplantıda tələbələri təmsil edən nümayəndə olmuşdur. Toplantıda bir gürcü kölənin oğlu olduğu halda knyazlıq silkinə mənsub olduğunu saxta sənəddə daşıyan Səbahəddin adlı bir şəxs də var idi. **Ş.H.Değmer** Türk Fəhlə və Kəndli Sosialist Partiyasını Almaniyada qurmuş və sonra Türkiyəyə köçürmüşdür. Değmer Moskva ilə çox sıx əlaqədə olmuşdur. O, **«Qutuluş»** dərgisində nəşr etdirdiyi «Sosializm və fərdiyyətçilik» başlığı məqaləsində demokratik rejimi belə təsvir etmişdir: **«Demokratiya proletariatı hələ bir müddət aldatmaq üçün uydurulmuş bir yalan, köhnə bir yalan, quyruqlu və xain bir yalandır».**

O, yenə **«Qurtuluş»** dərgisində çap etdirmiş olduğu «Sosializm və militarizm» başlıqlı məqaləsində bunları qeyd etmişdir: **«Biz bu gün məhv olan, dünən nə olduğunu qəti surətdə heç kim tərəfindən bilinməyən və yalnız xəyaldan başqa bir şey olmayan tarixi vətən yerinə gələcəkdə uzunömürlü və vətəndaşlarının rifahı təmin olunan vətəni vücuda gətirməliyik. Bu arzunu həyata keçirmək üçün lazım olan ordu iki kütlədə təşkil olunur: biri həyatı pul ilə satın alınmış və körpəliyindən bəri vətənsevərlik, istila, işğal və şöhrət hərisliyi təlqiniilə böyüdülmüş zabit heyəti və məcbur ölümə göndərilən zavallı və bixəbər bir fərd… Dünyaya hakim olmaq istəyən, intiqam, intiqam, intiqam deyə hayqıran vəhşi kütləni istəmirik».**

Türkiyə Kommunist Partiyasının proqramının bəzi maddələri də bu yəhudi dönməsinin yuxarıdakı yazısından ilham alaraq hazırlanmışdır: Maddə: 10 – Türkiyə Kommunist Partiyası fəhlə və kəndlilərin silahlandırılmasını və burjuaziyanın müdafiəçisi olan orduların ləğv edilərək yerinə fəhlə və kəndli milislərinin qurulmasının və əsgərlərə öz aralarından zabitlərini seçmək haqqının verilməsini tələb edir:

Maddə 14 – Türk Kommunist Partiyası imperializmin yerli dayaqlarının, burjuaziya sinfinin, mülkədarların və tacirlərin, bütün dinlərin və din xadimlərinin, qulluq etməkdə və ya təqaüddə olan, ancaq kommunist olmayan bütün zabitlərin, məmur və polislərin barışmaz düşmənidir.

Maddə 19 – Türkiyə Kommunist Partiyası dünya proletariatının Qızıl Orduları ilə bərabər və burjua quruluşunun ordularına qarşı savaşmasının zəruriliyini türk millətinə anladır və bu zərurəti anlamayanlara qarşı var qüvvəsi ilə mübarizə aparır.

Maddə 41 – Türkiyə Kommunist Partiyası ordu və donanmada sistemli bir kommunist təbliğatı apararaq Gənc Kommunistlər Birliyinin əsgərlər və gənclər arasındakı fəaliyyətini idarə edir.

Bu gün əsil millətçi bizik fikri ilə ortalığa düşənlərə kommunizmin bir əməlini də xatırlatmaq istərdik:

«1918-ci il yanvarın 23-də türkiyə Sosial-Demokrat Partiyası rəhmətlik **Rəfi Cavad Ulunayın** çıxardığı **«Aləmdar»** qəzetinə göndərdiyi bir təkzibində millətçi olmadığını belə ifadə edir: «Sosial-Demokrat Partiyası sosialist bir partiya olmasına və demokratiyaya əməl etdiyinə görə millətçi prinsiplərlə silahlanmış bir partiya ilə əlaqə yaratmaqdan heç bir fayda ummamaqdadır».

**Mustafa Sübhi** Türkiyə kommunistlərinin ən mühüm nümayəndələrindəndir. O, əslən albandır və həm də masondur. Sinopa sürgün olunmuş **M.Sübhi** oradan qaçaraq Rusiyaya getmiş və Rusiyada olan türk

hərbi əsirləri arasında kommunist təbliğatı aparmaqla məşğul olmuşdur. 1915-ci ildə Rusiyada Sosial-Demokrat (bolşevik) Partiyasına daxil olan **M.Sübhi** Parisdə çalışmışdır. O, kommunist şeflərinin əmri ilə Rusiya müsəlmanlarının konqresini keçirmiş və **«Yeni Dünya»** qəzetini Azərbaycanda uzun müddət çıxarmışdır. **M.Sübhi** yenə Moskvanın köməyi ilə Rusiyada olan türk hərbi əsirlərini Rusiyanın paytaxtı olan Moskvanın üzərinə irəliləyən Ağ Çex ordularına qarşı çıxarmış və Bakıda Türkiyə Kommunist Partiyasını qurmuşdur. Partiya Moskvanın dəstəyi ilə İstanbul, Trabzon, Zonquldağ və digər bəzi şəhərlərdə şöbələrini açaraq Anadoluda **«İqbal»**, **«Fəhlə»**, **«Albayraq»** qəzetlərini maliyyələşdirmişdir. **A.Sayılqanın** bildirdiyinə görə **«Yeni Dünya»** qəzetinin hər sayından 2000 nüsxə Anadoluya göndərilmişdir. Moskva yəhudi **Şefik Hüsnü Değmer** və çərkəz **Ədhəm Nejatdan** daha çox ümid bəslədiyi bu albanı bir gün Ankara hökumətini rusların xeyrinə təslim etmək üçün Anadoluya göndərir. **Mustafa Sübhi** Ərzurumda kommunist təbliğatı apararkən xalqın qəzəbinə tuş gəlir və canını güclə qurtararaq dəniz yolu ilə hərəkət edərkən, Trabzon yaxınlığındakı 4 kommunist yoldaşı ilə birlikdə mindikləri qayıq dənizdə batırılır.

1921-ci il yanvarın 27-də **M.Sübhi** və kommunist yoldaşlarının dənizdə batırılması ilə Türkiyə Kommunist Partiyasının Xarici Bürosunun katibi kritli **Əhməd Cavad Əmrə** rus hökumətinə bir məktub göndərərək Ankaradan bu hadisə ilə bağlı haqq-hesab tələb edilməsini istəmişdir. Məktubda aşağıdakılar qeyd edilmişdir:

**«Əziz yoldaşım Pavloviç!**

**1921-ci il yanvarın 28-də Trabzon ətrafında vəhşicəsinə öldürülərək dənizə atılmış Mustafa Sübhi ilə TKP-nin MK üzvlərindən 4 və digər 2 kommunist yoldaşlar haqqında sizə müəyyən məlumatlar vermək istəyirəm. Faciəli surətdə həlak olan yoldaşlarımız haqqında dəqiq məlumat ala bilmədik. Ancaq, sonra onların Trabzon burjuasiyasının ələ aldığı cəlladlar tərəfindən öldürüldüyü məlum oldu. Hələ Ərzurum və başqa bölgələrdə bizim yoldaşlarımız əleyhinə nümayişlər da təşkil edilmişdir. Bu nümayişləri təşkil edənlər xalqa deyirlərmiş ki, bunlar Rusiyadan gəlmiş kommunist bolşeviklərdir. Bu sözlərdən sonra xalq bizim yoldaşları məhv etmək istəyirmiş. Yolda heç kəs bizim yoldaşlara çörək və atları üçün yem satmırmış. Hökumət isə özünü elə göstərirdi ki, guya bizimkiləri xalqın qəzəbindən qurtarmağa çalışır. Sovet Rusiyasının rəsmi nümayəndəsi isə bizim yoldaşları xalqın əlindən almaq istəmişdisə də vali ona belə bir vəziyyətdə evdən kənara çıxmamağı əmr etmişdir. Yoxsa xalq onu da kommunistlərə qata**

**bilərdilər. Rus konsulunun bu hadisəni radio ilə dərhal Moskvaya və Ankaraya bildirməli və bizim yoldaşların cəlladlar əlindən alınmasını cəhd etməli idi. Ancaq, təəssüf ki, o zaman Trabzondakı rus konsulu cəsur adam deyildi. Trabzonda bu hadisəni bilmiyən yoxdur. Bu hadisəni bələdiyyə rəisi ilə Milli Müdafiə Cəmiyyətinin Rəyasət Heyəti tərəfindən törədildiyi söylənilir. Rusiyada bu məsələyə dair hələ bir qərar çıxarılmamışdır. Ancaq, artıq susmaq imkan xaricindədir. Ən yaxşı və cəsur dostlarımızdan 16-17-ni itirdik. Bizimlə həmkar olub o cəlladların cəzalandırımasını tələb etməlisiniz. Anadolu burjuasiyası barbarca etdiyi cinayətlərinin cəzasız qaldığını gördüyündən kommunistləri şiddətlə təqib etməkdə davam etməkdədir. Biz bu dəyərli yoldaşlarımızın qatillərinin cəzalandırılmasına çalışacağıq.**

**Hörmətlə, Kommunist salamları ilə Əhməd Cavad».**

Çərkəz olan kommunist **Ədhəm Nejat** da alban əsilli **M.Sübhi** ilə birlikdə öldürülmüşdür. Ölümündən sonra Moskvada «Qızıl Şərq» mətbəəsində çap olunmuş bir kitabda **Ə.Nejat** belə təsvir olunur:

**«Ə.Nejat yoldaş bu qrup daxilində M.Sübhidən sonra ən münəvvər, ən dəyərli və o birilərə nisbətən daha əski inqilabçı bir yoldaş idi. Əvvəl Ə.Nejat o qədər də əski bi sosialist deyildi. Onun sosialistliyi ancaq 1918-ci ildən başlayırdı. Ə.Nejat o günkü türk sosialist və kommunistlərin əksəriyyəti kimi çox dərin və alimanə deyildi. O, tam bir marksist də hesab olunmurdu, ancaq Ə.Nejatın müxtəlif ölkələrdə etdiyi səyahətlər zamanı əldə etdiyi zəngin məlumat və təcrübələri onun bir sosialist kimi formalaşmasında böyük rol oynamışdır».**

Yəhudi **Abraham Benaroya, Aleksandr İsrael Helplandın**, erməni, bolqar və yunan komitələrinin başladıqları kommunist təbliğatı yəhudi dönməsi **Ş.Hüsnü Değmer**, çərkəz **Ə.Nejat**, kiritli yunan olduğu iddia edilən **Əhməd Cavad Əmrə**, alban əsilli **Mustafa Sübhi**, **R.Kenenzberq, İ.Zaxarya, N.Asmakopulo, S.Vasilkopulo, S.Maksimos**, **Petros, Karapet** və **İvan** vasitəsi ilə davam etdirilmişdir.

Yunan, erməni, bolqar, rus və yəhudi millətçiliyinə arxalanaraq başlayan kommunist cərəyanını daha sonra da bütün qeyri-türklər təmsil etmişdilər. Türkiyədə məşhur kommunist olan **Sabiha Sartel** və **Zəkəriyyə Sartel Selanikli** yəhudidirlər. **Səbahəddin Əli** isə yunandır. **Nazim Hikmət** isə slavyan irqindəndir. Onun Polşa yəhudilərindən olduğu da iddia edilir. Bir zamanlar Türkiyə Kommunist Partiyasının fəal üzvlərindən olan **Mehmet Əli Ayber Nazim Hikmətin** qohumu və soyundandır. Yəhudi dönməsi olan **Əhməd Emin Yelman** isə kommunizmə çox xidmət edənlərdəndir. Bu gün də kommunist hərəkatları yenə də Selanik yəhudi dönmələri,

italyan yəhudi dönmələri, kritli yunanlar və erməni komitəçiləri istiqamətləndirməkdədir. Sabotajları təşkil edənin gizli təşkilat kimi fəaliyyət göstərən Türk Xalq Qurtuluş Ordusunun liderinin də **Karlos** olduğu açıqlanmışdır.

Bir rus casusundan ələ keçirilmiş məktubdan Türkiyədəki rus nümayəndəsinin kommunist hərəkatları istiqamətləndirdiyi anlaşılmışdır. Suriyada diplomatik pasportla fəaliyyət göstərən **Vadim Şaşrov** ilə **Nikolay Çernenkovun** Türkiyədəki kommunist hərəkatların planlaşdırıcıları olduğu məlum olmuşdur.

50 ildən çox bir müddətdən bəri davam etdirilən bu fəaliyyətlər xoşbəxt bir Türkiyədə yaşamaq istəyən türk gənclərinin ağlını başından çıxarmış və türk dövlətini yenə də türklərin əli ilə yıxmaq istəmişdilər. Mason lojalarından da hər cür dəstək alan kommunistlər 12 mart 1971-ci il hadisəsinin də əsas səbəbkarı olmuşdular. Ancaq, Türkiyənin Silahlı Qüvvələri vəziyyətə müdaxilə etmək məcburiyyətində qalaraq, Türkiyəni gözləyəcək faciədən xilas etmişdir.

## TÜRKİYƏDƏ MASON-KOMMUNİST İTTİFAQI

Dünyanın bir çox ölkələrində gerçəkləşdirilən mason-kommunist ittifaqı Türkiyədə də özünü göstərmişdir. 1971-ci il martın 12-dən əvvəl kommunist terror təşkilatları ardıcıl olaraq sabotajlarını davam etdirirkən, Türkiyə Mason Dərnəyinin mətbuat orqanları kommunistlərə köməyin vacibliyindən yazmışdır. **Hüsnü Aydınər** imzası ilə çap olunan məqalənin bir hissəsində belə deyildir: «Rusiyada hakim olan prinsipləri mənimsəyərək azadlıq, bərabərlik, heysiyyətli və xoşbəxt insanlıq istəyən və məmnuniyyətlə çoxluqda olduğunu gördüyümüz gənclərlə bərabərik. Onlar bizim önlüksüz masonlarımızdır. Adətən gənclik bizim qollarımızdır. Hər zaman, hər yerdə onlara kömək etməliyik. Belə bir ittifaq yalnız bu gün deyil, hələ Osmanlı İmperiyasının son dövlətində yaranmışdır. Bu ittifaq Respublika dövrü tarixində isə böyük daxili mübarizələrə və ixtilaflara nəzarət etmişdir. Bu ixtilafların içüzünü müxtəlif yazı və əsərlərimizdə açıqlamağımıza baxmayaraq, yenidən təkrarlamağı məqsədəuyğun hesab edirik.

1947-ci il sentyabrın 5-də Yunanıstan Kommunist Partiyasının Qramosda təşkil etdiyi 3-cü konfransında yüksək dərəcəli masonlardan **Nikolas Zaxaryadis, yəni Yuvanidos, Markos Vafyadis, Vasili Borçatos, S.Aryanos, Aristoteles Hoturas, Əkrəm Cula** və Balkan ölkələrindən bir çox mason kommunist iştirak etmişdir. Bu konfransda türkiyəli masonlardan

prof. **Mustafa Haqqı Nalçaçı** ilə birlikdə iki mason-kommunist də iştirak etmiş və varilən əmrləri Türkiyədə tətbiq etmişdilər. Eynilə İspaniyada olduğu kimi, Yunanıstanda da beynəlxalq masonluğun dəstəyi ilə Sovet Rusiyası adından bir vətəndaş müharibəsi çıxaran Yunanıstan Kommunist Partiyası lideri mason **Apostolos Qrozosun Qramos** konfransındakı çıxışının Türkiyəyə aid hissələrini qısa şəkildə veririk: «Yoldaşlar hər halda hamınız hədəf etdiyiniz nöqtənin nələrdən ibarət olduğunu bilirsiniz. Məfkurəmizin əsas ümidləri bütün millətləri bir idarə və fikir altında birləşdirməkdir. Şanlı məfkurəmizin rəqiblərini robotlaşdırıb hər növ insani istəklərdən məhrum edəcəyik (sürəkli alqışlar). Millətləri elm və sənətdə çaş-baş, iflic bir şəklə salmaq üçün bu xüsuslar hər yerdə böyük bir inadla müdafiə edilərək tətbiq olunacaqdır:

- Fəhlələri silahsız ordu birliklərinə qarşı inqilab etdirmək üçün müxtəlif fəhlə dəstələri təşkil etmək. Bundan sonra həmkarlar İttifaqını meydana gətirib dövlətə təsir edərək istənilən dövlətdəki sənaye potensialını və ictimai quruluşu avtomatik olaraq yıxa bilmək.
- Kommunist quruluşlu dövlətlər müstəsna olaraq hər dövlətdə təkmil müəssisələrin tətil haqqı tanınmalıdır. Gələcəkdəki cahan inqilabına müsbət zəmin hazırlayacaq olan fədai ünsürləri və onların tətil haqqlarının dövlətlər tərfindən qəbul edilməsinə nail olunacaqdır.
- Dövlətlərdəki milli birliyi kökündən yıxa bilmək üçün demokratik demaqogiyanı hər növ imkanlarla dəstəkləyərək 20 milyonluq bir dövlətin vətəndaşlarının 30 hissəyə bölərək milli birliyi zəiflətmək və partiya görüşlərini dini görüş şəklinə çevrirərək, millətləri yetkin hisslərindən tədric edərək xalqçılığa calışdırılmalıdır.

Demokratik quruluşlara daxil olan dövlətlərdə sarsılmayan əzmimizə masonlar enerji verməkdədirlər. Beşinci qolumuzun fədailərini harada görsək sevinclə sinəmizə basmalıyıq. Son illərdə qonşu dövlət olan Türkiyədə masonların sistemli fəaliyyəti kommunizmin yayılmasını və ziyalılar tərəfindən mənimsənilməsini təmin etmişdir. Mason yoldaşlar **Nazim Hikmətin** əfv olunmasını gerçəkləşdirmək üçün çalışırlar. Xüsusilə, **«Vətən»** qəzetinin baş redaktoru **Əhməd Emin Yelman** bəy hər növ təhlükələrə sinə gərərək **N.Hikmətin** haqqını müdafiə etməkdən çəkinmir.

Masonların nə cür kommunist proletariatının fədaisi olduqlarını öyrənmək istəyənlərə Türkiyədən misallar çəkərək, başda **Əhməd Emin Yelman** bəyi göstərə bilərəm (alqışlar). Mürtəce türk hökuməti hələ Mason Cəmiyyətinin təşkilinə icazə verməmişdisə də, bu yaxınlarda razılıq verəcəyi xəbəri alınmışdır. Hələ bir təşkilata malik olmayan cəmiyyətin üzvləri Türk dövləti üzərində nüfuzlarını hiss etdirirlər. Əgər bu cəmiyyətin təşəkkülü

təmin edilərsə, Türkiyədəki masonlar hər növ istəklərimizi gerçəkləşdirəcəklər. Əsasən mətbuat bu mason qardaşlarımızın əlindədir.

Biz Moskvaya çatan kimi böyük və şahanə bir yerdə toplantı keçirildi. Mən **Lavrenti Bariya** ilə yan otaqda səsyazma cihazı ilə içəridə cərəyan edən müzakirələri dinləyirdim. **Nalçaçının** Türkiyənin siyasi və hərbi potensialına dair ətraflı məlumatı əks etdirən dosyesindən Kremldə çox razı qalmışdılar».

İndi də **Menemen** və başqa hadisələr haqqında məlumat verməyə çalışaq. Bu məlumatları yəhudi **Abraham Benaroya Yunanıstan Kommunist Partiyasının** orqanı olan **«Rizospastis»** qəzetinin 1948-ci il avqustun 1-də çıxmış olan 685-ci sayında çap etdirdiyi məqaləsində ətraflı vermişdir: *«Türkiyədəki yoldaşlar illərlə Tevfik Fikrətdən faydalandılar. Ancaq* ***T.Fikrətin*** *fikirləri türk gənclərinin beyinlərində yaranmış boşluğu doldura bilmədi. Bu boşluğu* ***Nazim Hikmət*** *doldurmağa nail oldu.*

*«****Aypara****» məcmuəsini illərlə Kremlin masonları himayə etdi. Məqalənin ilk yayılması zamanı istanbullu bir qardaş Marsilyada mənə müraciət edərək Kremlin onlara da maddi yardım etməsini xahiş etdi. Bu haqda Kremlə xəbər vermək uzun çəkəcəyindən çox fikirləşmədən dərhal mehmanxanaya gedib nyu-yorklu qardaşımız* ***Yakob Şitin*** *mənə göndərmiş olduğu çeklərdən 30 min dollarlığını bu işgüzar yoldaşa verdim. Mən sonralar öyrəndim ki, bu yardımdan sonra «****Aypara****» məcmuəsi nəşrini müvəffəqiyyətlə davam etdirir və yoldaş* ***N.Hikmət*** *fikirlərini bu məcmuədə fədakarcasına müdafiə edirdi. İllər keçsə də Türkiyədə bizi təmin edici inkişaf yox idi. Mühafizəkar Anadolu kəndlisini kommunist fəlsəfəyə alışdırmanın nə qədər çətin olduğunu mən də anlayırdım. Ancaq, nə olursa olsun bir nəticə əldə etmək lazım idi.* ***Zaza*** *kürdləri liderlərindən bəziləri sistemli təkidlərimiz sayəsində mason cəmiyyətinə cəlb olunmuşdular. Bu dağlı liderlər uzun sürən təbliğatdan sonra türk hökumətinə qarşı üsyan qaldırmağa razı oldular. Üsyanın başlıca səbəbi guya dövlət dini dərsləri və dini kitabların nəşrini məhdudlaşdıraraq dinsizliyi gerçəkləşdirir. Bunun qarşısını almaq üçün ancaq silahlı üsyan kifayət edər. Təbiidir ki, hədəfə vurmaq üçün müxtəlif şeytani hiylələrə baş vurmaq ana prinsiplərimizdəndir. Dinə əsaslanaraq üsyan qaldırmaqda iki məqsəd güdülmüşdür:*

*1. Türk dövlətini dinsizlikdə ittiham edərək İslam Aləmində hal-hazırda yüksək mövqeyə malik olan türklərin nüfuzuna zərbə vuraraq sarsıltmaq lazımdır. Çünki, əsrlərdən bəri islamiyyətin yeganə müdafiəçisi türklər olmuşdur. Panislamizm ancaq türk dövlətinin himayəsi ilə gerçəkləşə*

*bilir. Bu keyfiyyətləri və amilləri təmamilə öldürmək üçün də üsyanda dini məqsədlərin güdülməsi lazımdır.*

*2. Üsyanda müvəffəqiyyət əldə edilmədiyi təqdirdə – əslində biz üsyanın uğur qazanmasına o qədər də inanmırdıq. Biz Türk milli təhlükəsizlik orqanlarının diqqətini bütövlükdə müqəddəsatcılarla mühafizəkarlar üzərinə yönəldərək bu hadisələrdə masonlarla «Aypara»çıların əli olduğunu ört-basdır etməyə məcbur olduq.*

*1925-ci il fevralın 19-da bazar günü Tiranada da baş verən üsyan qısa bir vaxtda bir çox Şərqi Anadolu vilayətlərinə yayıldığı zaman, masonların və **«Aypara»**çıların bu üsyan hadisəsində passiv iştirak etmələri üsyanın istiqamətini başqa tərəflərə çevirmişdi. Üsyanın yatırılması türk ordusunun işə qarışması ilə baş tutmuşdur.*

*Üsyanın səbəbkarlarından bir çoxu həbs edilmiş və məhkəmədə öz cəzalarına çatmışdılar. **Əhməd Emin** və **Hüseyn Cahid** də həbs edilmişdilər. Bir müddət sonra hər ikisi Mason Cəmiyyətinin köməyi ilə azad edildilər.*

*«**Kürd Təali Cəmiyyəti**» fəaliyyətini masonlar kimi mistik əsaslara dayanaraq davam etdirərkən bir növ orta əsrlərdə Orta Şərqdə Təşəkkül edən «İhvan-i Səfa Cəmiyyəti»nə bənzəyirdi. Kreml daima Ankara və Moskva arasındakı səmimi əlaqəni pozmamaq üçün London masonları vasitəsilə öz planlarını həyata keçirməyə çalışmışdır. 1918-ci il barışığında Britaniya xarici işlər naziri, kommunist və mason bir yəhudi olan **Artur Tames Belfur** vasitəsilə Anadoluda bir çox üsyanların planlarını tərtib etdirmişdir.*

***Boulu Sədi** adı ilə tanınan bir kürd masonu özünü qəsdən ingilis cəsusu adlandıraraq **Nizaməddin** adında türk polisi ilə əlaqə yaradaraq: «**Kürd Təali Cəmiyyəti**» adından üsyandan əvvəl beş maddəlik şər məzmunlu bəyanatı ona vermişdir. Bütün bunlar Ankaranın nəbzini yoxlamaq üçün edilən taktikadır.*

*Anadoludakı üsyanların keçirilməsi rəsmən Kremlə bir şey qazandırmamışdısa da, mühafizəkarlarla müqəddəsatçıların cəbhəsini zəiflətdi. Bizim Türkiyədə ən etibarlı dayağımız farmason lojalarıdır. Biz planlarımızı daima masonlar vasitəsi ilə tətbiq edirik.*

**Son olaraq bunu söyləyə bilərik ki, yəhudisi də, yunanı dı, rusu da, bolqarı da, ermənisi də öz millətçiliyinin önündə dayanır. Kommunizm, masonlq, kapitalizm, insanpərvərlik və ya dünya vətəndaşlığı milliyətçilik hərəkatlarının sadəcə olaraq maskasıdır. Dövlətlər bu maskalarda kommunizmə, masonluğa və ya dünya vətəndaşlığı düşüncəsinə inanan zavallılardan bir vasitə kimi istifadə**

**etməkdədirlər. Türkiyə üçün bir çıxış yolu vardır. O da nəzəri türkçülüyə dönmək; düşüncədə, sənətdə, ədəbiyyatda türkçü olmaq; hərəkat və davranışda türkçü olmaq; iqtisadiyyatda və siyasətdə türkçü olmaq, türkçü olmaq, yenə də türkçü olmaq.**

# TÜRKİYƏ MASONLARI TARİXİNDƏN*

## I. MASONLUĞUN MEYDANA GƏLMƏSİ VƏ İNKİŞAFI

Əfsanəyə görə kral **Davud** Qüdsdə «Allahın evi»ni inşa etdirmək üçün ölkənin hər yerindən 40 min işçi toplayır. Bu toplanan işçilərə «mason» deyilirdi. Bu sözün hərfi tərcüməsi «bənna» deməkdir. Bu fəhlələrdən 3 mini usta olaraq digərilərinə nəzarət etmək üçün ayrılmışdır. Hələ inşaat işləri başa çatmadığı bir dövrdə kral **Davud** ölür və işi oğlu **Süleyman** davam etdirir. Sonradan «Süleyman məbədi» adını almış bu tikintidə işləyən ustalardan birinin adı **Adon Hiram Abif** olmuşdur. O, dul bir qadının oğlu idi. Hiram tabeçiliyindəki işçiləri çıraq, kalfa və ustaya bölərək hamısına memarlıq sənətinin bir hissəsini öyrətmişdir. Bunların hər birinin özünə aid sirləri olur və onlar bir-birilərinin sirlərini bilə bilməzmişlər.

Sonralar **Hiram** üç kalfa tərəfindən öldürülür və gizlincə dağda basdırılır. **Hiramın** öldürülməsi və basdırılması sonrakı dövrlərdə masonların keçirdikləri gizli mərasimlərdə də icra olunur. **Hiram** əfsanəsi müxtəlif dərəcələrin ünvanlarını və işləmə tərzini də geniş şəkildə təsir altına almışdır.

Masonluğun gizli və imtiyazlı bir cəmiyyət halına gəlməsi Orta əsrlərdə olmuşdur. Bu dövr masonluğun fəlsəfi və ticari istiqamətdə inkişaf etdiyi dövrü idi. Ancaq günümüzə doğru fəlsəfi xüsusiyyətlər, dini və metafizik anlayışlar büsbütün yox olaraq siyasi və iqtisadi mənada bir imtiyazlılar və mənfəət ortaqlarının zümrəsi formasını almışdır. Mason sözü orta əsrlərdə də bənna (fəhlə) mənasını ifadə edirdi. Hər yerdə məbədlər, kilsələr inşa edilir və burada yüz minlərlə mason işləyirdi.Bunların əksəriyyəti Suriya, Misir və Fələstindən gəlmişdilər. Onlar bu tikintilərə gəldikdə **Hiram** əfsanəsinin və Tövratın öyrətdiklərini və təlqin etdiyini də özləri ilə gətirirdilər. Aylarla, hətta illərlə eyni inşaatda işləmək onları istər-istəməz təşkilatlanmağa, bərabər olmağa və həm məsləki, həm də iqtisadi mənfəətləri ilə sirlərini qoruyub saxlamağa məcbur edirdi. Masonlar əvvəl tikintisində işlədikləri məbədin, daha sonra gəldikləri ölkənin işçiləri olaraq təşkilatlandılar. Orta əsrin verdiyi mistik mühit və ölkələrinin keçmişindəki

* Bu material həm Türkiyə masonları tarixindən (Tərtibçi: Mirzə Ənsərli, Bakı, Qanun, 1999, 38 s.) adı ilə, həm də Türkiyədə masonların və sionistlərin fəaliyyətləri (Tərtibçi: Mirzə Ənsərli, Bakı, Ocaq, 2007. – 123) kitabında çap olunmuşdur.

sirlər və əfsanələr onları bir din tərəfdarları kimi bir-birinə bağladı. Onlar hətta aralarında müəyyən kooperasiyalar da qurdular.

Beləliklə, inşaatçı masonlar müəyyən dərəcələrlə, simvollarla bir-birilərinə bağlandılar. Onlara əməli masonlar deyilirdi. Artıq onlar Allahın evini tikdikləri üçün ətrafdakılar tərəfindən müqəddəs hesab edilməyə başladılar. Əməli masonlar məsləklərini icra edərkən bir neçə yeni inşaat texnikası və sirlər də yarandı. Sonralar bu masonlar krallar tərəfindən vergidən də azad olundular. Onlar imtiyazlarından istifadə edərək nüfuzlu bir sinif halına gəlmək üçün aralarına daxil edəcəkləri yeni-yeni şəxslərə də həssaslıqla yanaşmağa başladılar. Artıq bu tarixdən etibarən masonluq bir mənfəət topluluğu xarakterini almağa başlayır. Masonların öz aralarındakı münasibətlərini ilk dəfə olaraq yazılı halda nizamlamaq və o ölkənin kralına qəbul etdirmək imkanları da bu illərə təsadüf edilir. Masonluq tarixi baxımdan çox mühüm yazılı sənədlər olan **Hallison Manskipisi** və **Cark** konstitusiyası masonluğun 924-cü ildə İngiltərəyə daxil olduğunu və xüsusilə XIII və XIV əsrlərdə gücləndiyini göstərməkdədir.

Orta əsrdə masonluqdan başqa, sonra ona köməkçi olacaq və inkişaf etdirəcək bir neçə gizli cəmiyyətlərin qurulmasında Xaç yürüşlərinin (Səlib yürüşlərinin) böyük rolu olmuşdur. 1096-1270-ci illərdə Qərbi Avropa feodallarının Şərqdə - Fələstindəki müqəddəs yerləri müsəlmanların hakimiyyətindən azad etmək şüarı altında və katolik kilsəsinin təşəbbüsü ilə apardıqları işğalçılıq müharibələri **Xaç yürüşləri** adlanır. **Xaç yürüşünün** iştirakçıları paltarlarına xaç nişanı taxdıqlarından bu yürüşün adı Xaçlı yürüşü adlandırılmışdır. Təqribən 200 il ərzində Avropadan Şərqə 8 böyük və çoxlu xırda işğalçı yürüşlər təşkil olunmuşdur. Bu zaman 2, 3, 5, 7 və 8-ci yürüşlər avropalıların məğlubiyyəti ilə nəticələnmişdir.

**Xaç yürüşləri** milyonlarla insanın mənasız qırğınına, Avropa və xüsusilə də Şərq üçün ağır itkilərə səbəb oldu. Bu yürüşün beşində məğlub olmalarına baxmayaraq, avropalılar Şərqin texniki, təsərrüfat, mənəvi və məişət nailiyyətləri ilə tanış oldular və bunlardan səmərəli istifadə etməyə başladılar.

Bu **Xaç yürüşlərinin** təşkil olunmasında yəhudi diasporunun mühüm rolu olmuşdur. Onların bu yürüşlərdə yaxından iştirak etmələrinin məqsədi tarixi vətənləri olmuş Fələstinə yenidən qovuşmaq idi. Bu səfərlər zamanı xaçlılar getdikləri Qüdsdə də digər dinlərin təsirindən xilas olmaq və qorunmaq üçün müxtəlif təşkilatlar və cəmiyyətlər qurmuşdular. Onlar bu zaman bir sıra işarələr, rəmzlər və özlərini tanıtmaq üçün simvollardan istifadə edirdilər.

**«Baptist cəngavərləri»**, **«Yevangelist»** və başqa təşkilatlar bütövlükdə Qüdsdə bu məqsədlərlə qurulub və daha sonra Avropaya keçərək yayılmışdılar. Halbuki, o dövrlərdə Avropada da buna bənzər çoxlu gizli cəmiyyətlər vardı. Kilsənin təzyiqi, kralların mərkəzləşdirilmiş möhkəm hakimiyyəti və despot idarə üsulu hər yerdə gizli təşəkküllərin yaranmasına yol açmışdır. Qüdsdən gələnlərin onlara qoşulmalarından sonra Avropada bu gizli təşkilatların və cəmiyyətlərin fəaliyyətləri daha da genişlənməyə başladı. Bunların içərisində ən təsirli və mənfəətlisi mason lojaları idi. Çünki onlar həm krallıq və kilsə tərəfindən qorunur, həm də siyasi bir qüvvə olaraq görünmədikləri və hələlik belə bir niyyət daşımadıqları üçün gözə gəlmirdilər. Ancaq, digər gizli təşkilatların vəziyyətləri o qədər də normal deyildi. Onlara qarşı həm kilsə, həm də krallıq mübarizə aparırdı. Sonralar bu gizli təşkilatların bəzisi əks mübarizəyə tab gətirə bilməyib dağıldılar və bu təqiblərdən salamat qurtaranlar mason lojalarına girməyə başladılar. Beləliklə, onlar həm öz təhlükəsizliklərini qorumağa, həm də fəaliyyətlərini daha sağlam bir təşkilatda davam etdirməyə nail oldular. İllərlə davam edən bu daxil olmalar mason lojalarının sonrakı mənzərəsini də dəyişdirəcəkdir. Bundan əvvəl **Hiram** əfsanəsindən gələn masonluğun tamamilə əməli masonluq olduğunu görmüşdük. Bu cəmiyyətin üzvləri sadəcə inşaat işçiləri və ustalar olaraq bir sənətkar (əsnaf) təşkilatı halında fəaliyyət göstərirdilər. Ancaq xüsusilə XVII əsrdə masonluq üçün birləşmiş və əməli mason termini ilə bərabər «qəbul edilmiş» mason termini də yaranmışdır. Sonradan qəbul edilmişlər işçi deyildilər. Siyasi və hərbi qüvvələri, mədəniyyətləri və zənginlikləri ilə mason lojalarına hakim olan bu «sonradan qəbul edilmiş masonlar» bir müddətdən sonra təşkilatda hakimiyyəti ələ keçirdilər. Məsələ, 1670-ci ildə Şotlandiya «Aberden» lojasında üzvlərin dörddə üçü **«qəbul edilmiş»** mason idi. Bu dövrdə İngiltərədə mason nüfuzunun artmasında 1849-cu il mayın 19-da kral **Karlı** asdıran **Oliver Kromvelin** [(25.4. 1599, Hantiqdon- 3.9. 1698, London) -İngiltərə burjua inqilabi xadimi, indepentlərin rəhbəri, İngiltərənin 1653-cü ildən lord-protektoru)] də böyük rolu olmuşdur. Çünki o da bir mason idi.

Masonların ilk böyük təşkilatlanması İngiltərədə olmuşdur. 1717-ci ildə Londonda dörd böyük loja birləşib İngiltərə Böyük Lojası adını aldı. İngiltərənin xaricində olan mason dərnəklərinin əksəriyyəti İngiltərə Böyük Lojasının səlahiyyətlərini və rəhbərliyini qəbul etdi. Mona şəhərində qurulan yeni bir mason dərnəyinə patenti İngiltərə Böyük Lojası verdi və beləliklə 1721-ci il masonluğun rəsmi fəaliyyət ili oldu. Ancaq bu zaman Şotlandiyadakı Kilvininq Böyük Lojası İngiltərə Böyük Lojasının bu rəsmi fəaliyyətinə etiraz edərək onu masonluğun əski qiymətini və xarakterini or-

tadan qaldırmaqda günahlandırdı. Bundan sonra İngiltərə xaricindəki bir çox dərnəklər Şotlandiya Böyük Lojasına tabe oldular. Bütün bunlarla yanaşı nə İngiltərə, nə də Şotlandiya Böyük Lojalarına tabe olmayan müxtəlif mason lojaları da qurulurdu. Bu qarışıqlıq XVIII əsrin sonuna qədər davam etmişdir. Hər təşkilatın özünəməxsus heyətləri və səlahiyyətləri olmasına baxmayaraq hamısı da birləşərək bir birlik yaratmaq istəyirdilər. Bu dövrlərdə Fransada, Almaniyada və Amerikada da yeni lojalar qurulurdu.

Şotlandiya Böyük Lojasının beynəlxalq miqyasda fəaliyyət göstərməsi Prussiya kralı **II Fridrixin** Böyük Ustad seçilməsindən sonra başlamışdır. Bu eyni zamanda masonluq tarixində həm də bir dönüş nöqtəsi idi. Onun mason olması həm Amerika, həm də Avropa masonları tərəfindən tanındı. Masonlar arasındakı dərəcələri 33-ə çatdıran da **II Fridrix** olmuşdur.

London Böyük Lojasının Böyük Ustadı tərəfindən bütün mason qanunlarını tərtib etmək və konstitusiyasını hazırlamaq **Andersen** adlı bir nəfərə tapşırılır. Onun hazırladığı «**Masonluq qanunu**» 1723-cü ildə Böyük Loja tərəfindən qəbul olunur. Bu qanunda masonluğun tarixi açıqlanır və masonlar üçün məcburi sayılan vəzifələr maddə-maddə göstərilir. Bu qanunun ən böyük xüsusiyyəti kilsənin və İngiltərə hökumətinin nəzarətində olan masonluğun beynəlxalq xarakteri olmasıdır.

1723-cü il konstitusiyasının prinsiplərindən biri də masonluqda dini, irqi və sinfi fərqləri aradan qaldırmaq idi. Bu prinsip o günə qədər masonluqda həm istədikləri imtiyazları, həm də beynəlxalq mənafeləri üçün istədikləri kimi istifadə edə bilməyən yəhudiləri çox sevindirmişdi. Artıq masonluğun qarşısını ala bilən elə bir maneə qalmamışdır. London Böyük Lojasının 1723-cü ildə masonluğa qəbul səlahiyyəti digər lojalar tərəfindən də tanındı.

1736-cı ildən etibarən masonluq Fransada və Amerikada sürətlə inkişaf etməyə başladı. Masonluq dərəcələrinin qurulmasında və inkişaf etdirilməsində fransızların böyük rolu olmuşdur.

Masonluğun Amerikanın bir dövlət kimi təşəkkülündə və formalaşmasında böyük payı vardır. **Amerika İstiqlal Bəyannaməsini** hazırlayanların masonlar olduğu şübhəsizdir. Bu bəyannamə tamamilə masonluq prinsiplərinə uyğun qələmə alınmışdır. Bu illərdə Avropa masonları **Böyük Fransa inqilabını** həm nəzəri, həm də tətbiqi cəhətdən hazırlamışdılar. Onlar inqilabın şüarı kimi «**Azadlıq, Bərabərlik, Qardaşlıq**» prinsiplərini irəli sürmüşdülər. Fransa inqilabının müvəffəqiyyəti masonluğun bütün Avropaya yayılmasına və nəticədə masonların siyasi hakimiyyətləri əllərinə almasına vasitə olmuşdur.

Özü də bir mason olan **Napoleon Bonapart** bu təşkilatın prinsiplərinin İspaniya, Portuqaliya və İtaliyaya da yayılmasına hər cəhətdən çalışmışdır. Hərbi uğurlardan başı qicəllənən Napoleonu vəzifəsindən kənarlaşdırıb sürgünə göndərənlər də yenə masonlar olmuşdur.

Bu dövrdən başlayan İtaliya Birliyi hərəkatını idarə edənlər də yenə masonlar olmuşdur. Masonlar Avropanın siyasi mənzərəsini alt-üst edir və hər yenidən bölüşdürmədə imkanlı mövqeləri yəhudilər tuturdular.

Artıq Avropanın yeni respublikalarında və monarxiyalarında yəhudi prezidentlər və nazirlər ortaya çıxırdı. İtaliya Birliyinin liderlərindən olan **Qaribaldi** Böyük Ustad olaraq İtaliya masonluğunu vahid bir lojada birləşdirmişdi. İtaliya masonları bu tarixdən sonra Avropa və Şərq ölkələrində fəaliyyət göstərən hüquqlara təsir edən böyük hüquq və qanunlar sistemini yaratmağa nail olmuşdur. İtaliya masonluğu Mussolininin iqtidara gəlişinin birinci ilində qadağan edildi. İtaliya masonluğu qadağan edilənə qədər bu ölkə Avropanın ən təsirli və geniş təşkilatına sahib idi. Mussolininin devrilməsindən sonra İtaliyada mason lojaları təkrar açılmış və onlar 1961-ci ildə qurulmalarının 100 illiyini qeyd etmişdilər.

Almanların təbiətcə hələ qədimdən bəri dində olan fanatizmi və katolikliyin sərt prinsiplərini rədd etmələri masonluq üçün bu ölkədə münbit şəraitin yaranmasına səbəb olmuşdur. Almaniyada protestantlığın qurucusu **Martin Lüterin** də gizli bir ingilis mason lojasını mənsub olduğu söylənilməkdədir. Almaniyada ilk mason lojası «**Absalam**» adı ilə 1737-ci ildə qurulmuşdur. **Hohenştaufenlər sülaləsi** də masonluğu qorumuş və bu ölkədə yayılmasını təmin etmişdir. Alman milli birliyinə və bütövlüyünə zidd olduğu və xüsüsilə yəhudi təsiri hiss olunduğu üçün **Hitler** iqtidara gələr-gəlməz 1933-cü ildə Almaniyada masonluğu qadağan etdi. Bu zaman Almaniyada 70 min mason var idi. Frankfurt Mayndakı Böyük Lojaya 147 mason lojası bağlı idi. **Hitler** qısa bir zamanda Almaniyanı bütün mason lojalarından təmizləmiş və təşkilatın liderləri ilə bütün lojalardakı yəhudilər Almaniyadan qaçmışdılar.

Ruslar istər çar Rusiyası (müəyyən illər istisna olmaqla) istərsə də Sovet dövründə masonluğu qanundankənar elan etmişdilər. Rusiyaya XVIII əsrin sonlarına doğru girən bu məzhəb çarizm əleyhinə terror hərəkətlərini dəstəklədiyini və anarxistlərə himayədarlıq etdiyi üçün və xüsusilə çar I Nikolaya edilən sui-qəsddən sonra, yəni 1825-ci ildə qadağan edilmişdir. İstər çar Rusiyasında, istərsə də Sovetlər dövründə mason təşkilatı mənsubları aparıcı vəzifələrdə fəaliyyət göstərmişdir.

Skandinaviya ölkələrində masonluq sərbəst fəaliyyət göstərmişdir. Məsələn, İsveçdə kral, İsveç masonluğunun təbii rəisi sayılmaqdadır.

İspaniya və Portuqaliyada masonluq qanuni olaraq qadağandır və onların fəaliyyəti günah sayılmaqdadır. İspaniyada dövlət masonluğu kommunizm ilə bərabər tutmuş və ikisini də eyni qanun maddəsində qadağan etmişdir.

Bəzi ölkələrdə masonluq dövlət xadimləri və iqtidara sahib olmaq üçün əsas şərtlərdən biri sayılmışdır. Bu anlayışın reallaşmasında dövlət idarəsində hakim olan mason lojalarının rolu böyükdür. Xüsusilə Fransada bir zamanlar dövlət xadimi olmaq üçün mason lojalarına girmək əsas şərtlərdən biri olmuşdur. Adları hamı tərəfindən tanınan məşhur şəxsiyyətlərdən mason olanlar bunlardır: **kral Viktor Emannuel, kral VII Edvard, VI Georgi, VI Qustav, XVI Lui, Napoleon Bonapart, Prussiya kralı II Fridrix, Simon Bolivar, Qaribaldi, Madzini, Robespyer, Höte, Haydn, Meyerbeer, İrvinq Berlin, Kunliq, Danunzio, Paqanini, Vaqner, Volter Skott, Sibelius, Musorqski, Puşkin, Mille, Eddi, Kantor, Harold, Lloyd, Freminq, Didro, Fixte, Kant, Dante, Danton, Marat, Benyamin Franklin, Byrd, Lindverq, Lemintzer, Bradley, Henri Ford və ABŞ prezidentlərindən Corc Vaşinqton, Ceyms Monro, Andryu Conson, Ceyms Polk, Ceyms Bukhanan, Abraham Qarfild, Vilyam Mk. Kenleyi, Teodor Ruzvelt, Hovart Taft, Hardinq, Franklin Ruzvelt, Harri Trumen, Lindon Conson**. Əslində ABŞ-da siyasi sahədə şöhrət qazanmaq üçün masonluq eynən Fransada olduğu kimi əsas şərtlərdən biri sayılmaqdadır. Bu siyahının diqqəti cəlb edən maraqlı nöqtəsi adların yarısından çoxunun təmizqanlı yəhudi və ya yəhudi əsilli olmasıdır.

Artıq masonluğun bu şəkildə təşkilatlanması ilə ibtidai masonluq tarixə qarışmış oldu və masonluq bənnaların bir lojası hesab edilmirdi. Xüsusilə o dövrlərin dini və monarxist təzyiqlərinə qarşı çıxan bəzi ziyalılar və daha çox yəhudilər mason təşkilatı daxilində birləşməyə başlayırlar. Artıq heç bir mason lojasına aşağı xalq kütlələrindən heç kəs daxil edilmirdi.

## II. OSMANLI İMPERIYASINDA MASONLUQ

Ümumiyyətlə, istər Osmanlı İmperiyası, istərsə də Türkiyə Respublikası dövründə masonluğun fəaliyyəti haqqında aparılmış tədqiqatlara və araşdırmalara istinad edərək Türkiyədəki mkasonların fəaliyyət tarixini 5 dövrə bölmək olar: 1. XVIII əsrin əvvəlləri – 1909-cu il; 2. 1909-1923-cü illər; 1923-1935-ci illər; 4. 1935-1948-ci illər; 5. 1948-ci ildən bu günə kimi.

Türkiyəli masonların özləri öz tarixlərini araşdırarkən qeyd edirlər ki, Türkiyədə masonluğun meydana gəlib inkişaf etməsi və fəaliyyəti əsilidə, əsnaf cəmiyyətlərinə, fütüvvətnamələrə, hətta bektaşilik kimi Anadoludan qaynaqlanan təriqətlərə bağlıdır. Ancaq bu fikirlər o qədər də əsaslı deyildir. Çünki masonluğun əvvəl Osmanlı imperiyasına, bu imperiyanın dağılmasından sonra yerində dünyəvi prinsiplərə uyğun qurulmuş Türkiyə Respublikasına Qərbdən **«idxal malı»** olaraq gəldiyi və təməllərinin **«yadellilər»** daha sonralar da **«azlıqlar»** əlilə atıldığını aydın görmək olar. Onu da qeyd etmək lazımdır ki, Türkiyəyə xas mason və yaxud bir Türkiyə masonu anlayışı da yoxdur. Xarici vətəndaş olan hər hansı bir mason da Türkiyədəki mason lojaların birində **«qardaş»** kimi fəaliyyət göstərə bilər. Elə buna əsasən də biz Türkiyə mason tarixi, ya da Türkiyə masonluğu demək əvəzinə daha doğru və həqiqi olaraq Türkiyədəki masonluq və tarixi demək olar.

**1. XVIII əsrin əvvəllərindən – 1909-cu ilə qədər osmanlı imperiyasında masonların fəaliyyəti**

Türkiyədə masonluq tədqiqatçılardan sayılan və bu mövzuda bir neçə əsərin müəllifi olan Kəmaləddin Apak (33 dərəcəli mason) bu məlumatları verməkdədir: "İstanbulda ilk mason lojası XVIII əsrin əvvəllərində, 1723-cü ildə **Sultan III Əhməd** dövründə açılmışdır. Türkiyədəki ilk mason dərnəyi olan bu loja Fransa Böyük Lojasına bağlı olub Qalatada Cüməaxşamı bazarında Ərəb Came ətrafında imiş. Qalata ilə Azapqapı arasındakı bölgədə o zamanlar fransızlar, xüsusilə venesiyalı və genuyalı levantenlər (Şərqdə anadan olmuş avropalılar – **Tərtibçilər**) yaşadıqlarından bu lojanın bunlar tərəfindən idarə edildiyi zənn edilməkdədir. Təəssüf ki, adını müəyyən edə bilmədiyimiz bu loja **Sultan III Səlim** (1789-1807) dövrünə qədər fəaliyyət göstərmiş və sonralar bağlanmışdır. Bu lojanın bağlanmasına əsas səbəb 1789-cu ildə baş vermiş Böyük Fransa inqilabı olmuşdur.

Bu inqilabda yəhudi diasporunun çoxluq təşkil etdiyi mason lojaları da fəal iştirak etmiş və əslində Böyük Fransa inqilabının əsas səbəbkarı olmuşlar. Bunu bilən **Sultan III Səlim** gələcəkdə Osmanlı imperiyası üçün təhlükə ola biləcəyini ehtimal etdiyindən ehtiyatlı olmağı üstün tutmuş və bu lojanı bağlatdırmışdır.

Qarşıya belə bir sual çıxır. **Türkiyədə ilk türk mason kim olmuşdur?** 1720-ci illərdə, yəni **Sultan III Əhməd** dövründə Fransaya səfir olaraq göndərilən - **İyirmi Səkkiz Mehmet Çələbi** öz oğlu **Səid Çələbi** ilə birlikdə bir qədər Parisdə qalmışdır. Ata-oğul burada o zaman Avropa masonluğunun inkişafının və yayılmasının şahidi olmuşdular. Onlar mənimsədikləri yeni ideyalarla İstanbula döndükdən sonra **Səid Çələbi**

**İbrahim Mütəfərikə** ilə Türkiyədə ilk mətbəə açmaqla bərabər İstanbulda Fransa Böyük Lojasına bağlı bir mason lojasının qurulmasında da fəal iştirak etmişdir. Onu da qeyd etmək lazımdır ki, **İbrahim Mütəfərikə** əslən macar olmuşdur. Yuxarıdakı məlumatlardan belə nəticəyə gəlmək olur ki, Türkiyədə türk olaraq ilk mason **İyirmi Səkkiz Mehmet Çələbizadənin** oğlu **Səid Çələbidir**.

**Səid Çələbi** sonralar **Sutan I Mahmud** dövründə (1732) İsveçə, 1741-ci ildə isə Fransaya səfir olaraq göndərilmiş və nəhayət **Sutan III Osman** dövründə (1755) beş ay yarıma qədər sədri-əzəm vəzifəsini də tutmuşdur. O, 1761-ci ildə Maraşda vəfat etmişdir.

İlk Türkiyə masonlarından biri də mərmi ustası **Əhməd paşa** (1675-1742) olmuşdur. Əslən fransız olan bu şəxs Fransada kral **XIV Lüdovik** (1638-1715; 1643-1715-ci illərdə Fransa kralı) dövründə işlətdiyi bir günah üzündən əvvəl Avstriyaya getmiş, 1729-cu ildə isə Osmanlı dövlətinin xidmətinə girmişdir. O, **Sultan III Əhməd** dövründə paşa adına layiq görülmüş və ilk Mühəndisxanə Bərri Hümayunu (Hərbi Mühəndis və Topçuluq Məktəbi) qurmuşdur.

XIX əsrin əvvəllərinə qədər davam edən bu ilk 100 illik dövründə İstanbulda Fransa, İtaliya və Polşa Böyük Lojalarına tabe olan bir neçə mason dərnəyi də qurulmuşdur. Bunların qurucuları həmişə xarici vətəndaş və Şərqdə anadan olmuş avropalılar olmuşdur.

Osmanlı İmperiyasını hərbi yolla dağıda bilməyən Avropa ölkələri onu daxildən parçalamaq və sarsıtmaq məqsədilə iqtisadiyyatını pozmaq istəyirdilər. Onlar bu planlarını reallaşdırmaq üçün imperiya ərazisində yaşayan qeyri-müsəlmanlardan və qeyri-türklərdən ibarət mason lojaları qurmağa çalışırdılar. Əslində bu mason lojaları Qərb dövlətlərinin bir casusluq qərargahı rolunu oynamışdılar. Bu lojalar cəlb etdikləri əsl türklərdən öz məqsədlərində istifadə etmək üçün onlara dövlətin yuxarı pillələrində vəzifələr tutmağına kömək edirdilər.

Türkiyədəki masonluğun fəaliyyətinin genişlənməsi daha çox XIX əsrin 50-ci illərindən sonrakı dövrlərə aiddir. 1853-1856-cı illərdə baş vermiş Krım müharibəsində Rusiyaya qarşı Türkiyə Avropa ölkələri ilə müttəfiq olmuşdur. Bu yaxınlaşma nəticəsində Qərbi Avropa ölkələrinin çoxunun Osmanlı İmperiyasının paytaxtı olan İstanbulda səfirlikləri açılmışdır. Bu dövrdə İstanbulda açılan bütün mason lojalarının qurucuları yuxarıda qeyd etdiyimiz xarici ölkələrin səfirlikləri olmuşdur. İstanbulda İngiltərənin səfiri olmuş **lord Radinq** özü də mason olmuşdur. Onun mason olması türk dövlətinin məşhur şəxslərindən bəzilərinin də bu lojalara cəlb olunmasına səbəb olmuşdur. O, Qalata ətrafında Şotlandiya Böyük Lojasına

bağlı bir mason dərnəyi qurmuşdur. Lord **Radinq** buraya o dövrdə Osmanlı dövlətinin sədri-əzəmi olmuş **Mustafa Rəşid paşanı** da cəlb etməyə nail olmuşdur.

Bu dövrlərdə ingilislərdən cəsarət alan fransızlar da dərhal fəaliyyətə keçdilər və nəticədə Bəyoğlunda bir mason lojası qurdular. **Radinqdən** sonra ingilislərin İstanbulda səfiri olan ser **Heny Bulver** də Böyükdərədə öz adı ilə bir mason lojası qurmuşdur. Almanlar da bu illərdə İstanbulda iki mason lojası açmışlar. Ermənilər və yunanlar da tovladıqları bəzi türkləri aralarına alaraq öz siyasi məqsədlərinə çatmaqda bir vasitə olacağını düşünərək mason lojaları qurmuşdular. Xüsusilə ermənilərin qurduqları **«Ser»** lojasının türk siyasi tarixində çox mühüm bir yeri vardır. Osmanlı İmperiyasını daxildən və xaricdən yıxmaq üçün işbirliyi qurmuş qeyri-müsəlmanlar və bunların toruna düşmüş Osmanlı dövlətinin vətəndaşı olan bəzi müsəlmanlar (buraya imperiyanın əsas milləti sayılan bəzi vətən xaini olan türklər də daxildir) ya bu lojaların üzvü olmuşdurlar, ya da bu lojaların təlimatlarına uyğun fəaliyyət göstərmişdilər. Yarıdəli olan vəliəhd **Murad əfəndi** də bu lojada mason olmuşdur. Masonlar və xüsusilə də ingilis masonları onun masonluğundan öz hesablarına böyük mənfəətlər gözləyirdilər. Hələ 1867-ci ildə **Sultan I Əbdüləziz** Avropaya etdiyi səyahət zamanı vəliəhd **Murad əfəndi** də onunla bərabər Avropada olmuşdur. Bu zaman **Murad əfəndi** Londonda o zaman İngiltərə vəliəhdi şahzadə **Edvardla** görüşüb tanış olmuşdur. Edvard bu zamanlar Şotlandiya Böyük Lojasının ustadı idi.

Bu şəxs **Murad əfəndiyə** masonluqla bağlı ilk təkliflərini o zaman etmişdir. Hələ **Murad əfəndiyə** Avropaya getməmişdən əvvəl **Namiq Kamal, Ziya Paşa** və **Kapilyon** adlı bir erməni tərəfindən də masonluğa qoşulmaq təklif olunmuşdur. Türkiyəyə qayıdan **Murad** əfəndi bir müddətdən sonra **Edvarddan** bir məktub alır. İngilis şahzadəsi məktubunda aşağıdakıları yazmışdır: “Buradakı görüşümüz zamanı sizə gizli bir cəmiyyətdən bəhs etmişdim. Mən bu cəmiyyət haqqında bəzi məlumatları vermiş və hətta sizdən də bu cəmiyyətə daxil olmağınızı xahiş etmişdim. O zaman yalnız bir tövsiyədən ibarət olan bu təklifimi indi sizə yenə də edirəm. Bu barədə sizə müraciət ediləcəklər. Rədd etməməyinizi xahiş edirəm”. Bu məktubdan bir müddət sonra **Murad əfəndinin** yanına loja ustadı gələrək Böyük Lojadan aldığı məktubu göstərir və ona xüsusi bir mərasimlə 18-ci dərəcənin veriləcəyini söyləyir. Vəliəhd **Murad əfəndi** bu təklifi məmnuniyyətlə qəbul etdiyini bildirir. Ona verilən dəvətdən bir neçə gün sonra **Murad əfəndi** Beşikdaş Sarayının tənha bir otağında ətrafı qeyri-müsəlman dörd masonla dövrələnmiş olduğu halda masonluğa rəsmən qəbul

edilmiş oldu. **Kim olmuşdur bu qeyri-müsəlman masonlar?** Bunlar - loja ustadı **Kleanti İskaliyeri** və masonlardan kiritli d-r. mason **Volonaki**, d-r. **Yakis** və **Eyamonda Eşamelos** qardaşları. Məhz bu qeyri-müsəlmanlar Böyük türk-islam dövlətinin vəliəhdinin döşünə haşiyə və önlük taxdılar (masonluq simvolları və rəmzləri). Bu barədə bir iddia da var ki, vəliəhdin masonluğa qəbul edilməsi mərasimi şair **Ziya paşa** tərəfindən hazırlanmışdır. Bu iddianı mason şair **Ziya paşanın** nəvəsi ustad masonlardan olan d-r. **Fəxrəddin İşıq** irəli sürmüşdür.

Torpaqları dünyanın üç qitəsinə yayılmış Osmanlı İmperiyası sarayının o günlərdə necə xəyanətlərlə əhatə olduğunu başqa heç bir misal bu qədər gözəl anlada bilməz. Padşahlığa hazırlanan bir türk vəliəhdi daxili və xarici düşmənlərin işbirliyi ilə o dövrdə tam bir xəyanət şəbəkəsi halında çalışan masonluğa daxil edilir və ilk başlanğıcda 18-ci dərəcə verilir. Ancaq nəinki türk dünyasının, həm də islam aləminin ən böyük şəxsiyyətlərindən sayılan **Sultan II Əbdülhəmid xanın** hakimiyyətə gəlişi müəyyən bir dövr bu xəyanətlərin qarşısının alınmasına imkan yaradır.

O dövrlərdə qeyri-müsəlmanlar tərəfindən yaradılmış bu mason lojaları türk dünyasının o zamankı məşhur şəxslərindən olan **Böyük Rəşid paşanı** (o, əvvəl Londonda səfir, sonra sədri - əzəm olmuşdur. İngiltərənin İstanbuldakı səfiri olan lord **Radinqin** Qalata ətrafında qurduğu mason lojasının üzvü idi), **Fuad paşanı** (fransızların İstanbulun Bəyoğlu deyilən yerində qurduqları mason lojasının üzvü), **Midhət paşanı** (ingilislər **Midhət paşaya** daha çox diqqət yetirmiş və ondan böyük faydalar ummuşdular). Bu paşa öz hərəkətləri ilə dövlətə çox böyük ziyan vurmuşdur. Ancaq **Sultan II Əbdülhəmidin** sayıqlığı nəticəsində onun bu zərərli fəaliyyətinin qarşısı alınmış və sürgünə göndərilmişdir), **Əhməd Vefik paşanı, Namiq Kamalı,** şairlərdən **Ziya paşa** və **Şinasini** də cəlb edə bilmişdilər.

İstanbulda çoxlu mason lojalarının açılmasına baxmayaraq İngiltərə, Fransa, İtaliya və Yunanıstan masonları daha çox Selanikdə fəaliyyət göstərməyə üstünlük verirdilər. O dövrlərdə Osmanlı dövlətinə qarşı qeyri-müsəlmanların xain əməllərinin planları Selanikdə cızılırdı. Bunu hiss edən **Sultan II Əbdülhəmid xan** Selanikdəki masonlara qarşı müəyyən tədbirlər həyata keçirərkən onlar İstanbula sığınmışdılar. Sarayın təzyiqi və gördüyü tədbirlər nəticəsində İstanbulda da masonluq fəaliyyətləri ifliç vəziyyətinə salınmışdır. Ancaq, Rumeli və Makedoniyada, xüsusilə Selanik və ətrafında mason lojaları qızğın fəaliyyətdə idilər. Sarayın İstanbuldakına nisbətən nəzarəti Selanik, Kosova və Manastır vilayətlərində o qədərdə güclü deyildi, çünkii burada güclü əcnəbi nüfuzu var idi.

Avropa dövlətləri və Rusiya tərəfindən həmişə (XIX əsrin axırı-XX əsrin əvvəlləri) hərbi, siyasi və iqtisadi təzyiqlərə, təcavüzlərə məruz qalan Osmanlı dövləti özünü qorumağa çalışdığı bir vaxtda bu mason əfəndilər xarici düşmənlərlə işbirliyi yaradaraq birgə fəaliyyət göstərmişdilər. Bu bölgədə açılan lojalardan **"Makedoniya**", **"Makedoniya Rizorta"** və **"Veritas"** Türkiyə əleyhinə o qədər qatı fəaliyyət göstərirdi ki, türk olan bəzi masonlar onların bu işlərindən bağlı olduqları Böyük lojalara şikayət etmək məcburiyyətində qalmışdılar. Bütün bu lojalar yunan komitəçilərinin nəzarəti və əmrləri ilə fəaliyyət göstərirdi. Bunlardan Afina Böyük Lojasına bağlı "Makedoniya" lojasının ustadı bir yunan idi. Bu Lojaya Osmanlı dövlətinin o zamankı maliyyə naziri **Rəşid Ərər** də daxil olmuşdur. Bu zaman qarşıya belə bir sual çıxır: **Ustadı yunan, özü isə Afina Böyük Lojasına bağlı olan bir loja mənsubu nazir Rəşid Ərər hansı fəaliyyəti ilə dövlətin hər zaman məruz qaldığı maliyyə böhranlarını aradan qaldırmağa çalışar?** Bildiyimiz kimi Yunanıstan bütün tarix boyu həmişə Osmanlı dövlətini həm hərbi, həm də iqtisadi qüdrətini sarsıtmağa çalışmışdır. Hamıya aydındır ki, maliyyə iqtisadiyyatın şah damarıdır. Buradan bizə hər şey aydın olur, yəni mənsub olduğu lojanın ustadı yunan olan və daima onun əmri ilə işləyən maliyyə nazirindən Osmanlı dövləti üçün bir əməli iş gözləmək sadəlövhlük olar.

Masonların əleyhinə ilk və ciddi təqib, təzyiq **Sultan II Əbdülhəmid xan** dövründə edilmişdir. Bu zaman İstanbuldakı mason dərnəklərinin hamısı və Makedoniyadakıların bir hissəsi bağlanmış və dağıdılmışdır. Çünkii, **Sultan II Əbdülhəmid xan** türk masonları ilə ingilis, fransız, erməni və yunan masonlarının dövlət əleyhinə birgə fəaliyyət göstərdikləri haqda kifayət qədər isbat edilmiş məlumatlara malik idi. Bu dövrlərdə artıq mason lojaları **«İttihad və Tərəqqi» Cəmiyyətinin** qurulmasını reallaşdırdılar. Beynəlxalq masonluq türk dövləti əleyhinə apardıqları bütün fəaliyyətlərini **«Hürriyyət», «Tərəqqi»** və ya **"Mədəniyyət"** sözləri altında gizlədərək **"İttihad və tərəqqi"**çilərin əli ilə gerçəkləşdirməyə çalışırdılar. **"İttihad və Tərəqqi"**nin demək olar ki, liderlərinin hamısı mason olmaqla **"Makedoniya", "Makedoniya Rizorta"** və **"Veritas"** lojalarının ustadları idilər. Bu ustadlar arasında sonralar Osmanlı Məclisi Məbusanına Selanikdən deputat seçilmiş **Emannuel Karasso** ən nüfuzlu türk və müsəlman düşmənlərindən olmuşdur. Onun ustad olduğu **"Veritas"** lojasında o dövrün dənizçilik naziri **Camal paşa**, sədri-əzəm və daxili işlər naziri olan **Tələt paşa** da var idi. Bu lojadan **"İttihad və Tərəqqi Cəmiyyəti»** də idarə olunurdu. Hökuməti devirmək, müxtəlif bölgələrdə etnik zəmində dövlət əleyhinə ixtişaşlar törətmək planları da bu lojalarda, xüsusilə

də **“Veritas“** lojasında hazırlanırdı. Hal-hazırda onların bütün bu hərəkətləri sənədlər vasitəsi ilə isbat olunmuşdur.

Yuxarıda barələrində söz açdığımız masonlar öz məqsədlərini və istəklərini **Sultan II Əbdülhəmid** xana çatdırmaq üçün təşkil olunmuş nümayəndə heyətinin başında qatı Türk və Müsəlman düşməni olan mason ustadı **Emannuel Karasso** dururdu. O, bütün həyatı boyu bu fürsəti gözləmiş və sultanın qarşısına intiqam hissi ilə alışıb-yanan qalib kimi çıxmışdır. **Sultan II Əbdülhəmid xan** qarşılamağa məcbur olduğu heyətin içindəkiləri və xüsusilə **Emannuel Karassoya** heyrətlə baxaraq və bu tarixi anın cavabını qavramayan heyətdəki türklərdən birinə alçaq səslə: «**Aranıza bu adamları nə üçün qatdınız? Sizdən belə bir qərarı dinləmək məni incitməzdi, amma bu adamların məndən intiqam almasına necə alət oldunuz?**» demişdir. Nümayəndə heyəti Saraydan qayıdarkən **Tələt paşa** yanındakılara: **“Böyük günah işlətdik”** deyə söyləmişdir. **Emanuel Karasso** bu görüşdən iki gün sonra Selanikə gələrək konstitusiyanın və parlamentin bərpa olması ilə əlaqədar keçirilən böyük mason yığıncaqlarına da rəhbərlik etmişdir. Ayrıca olaraq Selanikdə masonlarla **“İttihad və Tərəqqi**“ Cəmiyyətinin müştərək hazırladığı böyük bir rəsmi keçid keçirilmişdir. Masonlar bu rəsmi keçidə haşiyə və önlüklərini taxmış vəziyyətdə bayraqları ilə və ən öndə **“Veritas“** lojasının ustadı **Emannuel Karasso** olmaqla gəlmişdilər. Bununla da kifayətlənməyən **Karasso** mason bayrağı altında orada toplanan minlərlə adama nitq söyləmişdir.

Bütün bunlar masonluğun tam mənası ilə siyasətlə məşğul olduğunu və əsasən Osmanlı dövlətini sarsıtmağa çalışan xarici qüvvələrin casusu kimi fəaliyyət göstərmələrinə bir işarədir. Lənətlərə layiq işlərini gizli-gizli görməyə çalışan masonlar **“İttihad və Tərəqqi”**nin güclü yardımları ilə artıq Türkiyədə istədikləri kimi fəaliyyət göstərirdilər. Bu hal Osmanlı dövlətinin yıxılmasına qədər davam etmiş və onlar beləliklə qarşılarına qoyduqları vəzifələrinin bir hissəsinə nail olmuşdular.

İstanbul və Makedoniyadakı mason fəaliyyətləri Anadolu daxilində o qədər də rəğbət qazana bilmədiyindən burada lojalar yarana bilməmişdir. Yalnız onlar İzmirdə bir neçə mason lojası qurmağa nail ola bilmişdilər. Bu lojalar xaricdəki Böyük Lojalara bağlı olduqlarından İzmirin Yunanıstana verilməsinə çalışmışdılar.

**Sultan II Əbdülhəmid xanın** hakimiyyətinin məhdudlaşdırılması və konstitusiyanın elanı Osmanlı İmperiyasında masonluğun genişlənib böyüməsinə və rəsmi bir mahiyyət almasına geniş bir şərait yaratmışdır. Masonlar konstitusiyanın elanından bir ay sonra (avqust 1908) Osmanlı Mason Lojalarının Ali Şurasını qurmaq üçün ilk yığıncaqlarını keçirməyə

başladılar. Osmanlı dövlətinin məşhur masonları birinci yığıncaqlarını Osmanlı təbəəsi olan **Mkırtıç Tokatlıyanın** mehmanxanasında keçirdilər. Onlar öz fikirlərini dərhal Avropa ölkəərindəki Mason Lojaları Ali Şuralarına çatdırmış və hamısından icazə almışdırlar. Yalnız İngiltərə və Skandinaviya Ali Şuraları müstəqil Osmanlı Ali Şurasının qurulmasına tərəfdar olmadıqlarını bildirmişlər. Aparılan hazırlıqlar başa çatdıqdan sonra 1909-cu il martın 3-də Osmanlı İmperiyasında fəaliyyət göstərən Mason Lojalarının Ali Şurasının rəsmi şəkildə qurmaq üçün bir iclas keçirildi. Bu iclasda rəsmi şəkildə təsdiq olunan Ali Şurada vəzifələr aşağıdakı kimi bölünmüşdür:

- Süvren Qrankomandor: Əziz Həsən paşa (əslən misirli olan şahzadə);
- Müavin: **Mehmet Cavid** bəy (sonralar maliyyə naziri olmuşdur)
- Ümumi Böyük müfəttiş: **Mehmet Tələt** (sədri-əzəm Tələt paşa)
- Ümumi Böyük Xətib: **Midhət Şükrü Bleda**
- Ümumi Böyük Xətib: **Davud J.Kohen**.

Osmanlı İmperiyasında fəaliyyət göstərən masonların Osmanlı Ali Şurası qurulan zaman Türkiyədə 33 dərəcəli 21 nəfər mason olmuşdur: 1. **Tələt paşa** (sədri-əzəm); 2. **Midhət Şükrü Bleda** (deputat); 3. **Mehmet Cavid bəy** (maliyyə naziri); 4. **D-r. Rza Tevfik** (deputat); 5. **Mehmet Akif** (deputat); 6. **Nəsim Nazelyah** (deputat); 7. **Mişel Noradunyan** (tacir); 8. **Davud Koğen** (sığortaçı); 9. **Mehmet Qalib**; 10. **Osman Adil** (vəkil); 11. **Fuad Xulusi Dəmirəlli** (hakim); 12. **Asim** (Məclisi Məbusanın Baş katibi); 13. **Rəhimi** (İzmir valisi): 14. **Hüseyn Cavid Yalçın** (qəzetçi); 15. **Osman Tələt** (vəkil): 16. **Qalib paşa** (Jandarma Ümumi Komandanı); 17. **Sarim Kibar** (tacir). 18. **Katibzadə Səbri** (tacir). 19. **Emannuel Karasso** (deputat). 20. **Mehmet Əli Baba** (D-r. polkovnik). 21. **Faiq Süleyman paşa** (dəstə komandanı).

Osmanlı İmperiyasında respublika qurulana qədər ( 1923) 33 dərəcəli masonların sayı daha da artmışdır. 1908-1923-cü illərdə 33 dərəcə almış şəxslər aşağıdakılardır:

1. **D-r. İbrahim Müslim** (1920); 2. **D-r. Cak Suhami** (1921); 3. **Viktor Alqiranti** (tacir); 4. **Moiz Fresko** (tacir); 5. **Saim Hüsnü Opat** (şəhər əmanət şirkətləri komissarı); 6. **Tevfik Hamdi** (divan maliyyəçisi); 7. **Arsen Arseyan** (gömrük işçisi); 8. **İsmayıl Faiq Başar** (kənd təsərrüfatı mühəndisi); 9. **D-r. İlyas Modyano** (polkovnik); 10. **D-r. İsmayıl Xurşid;** 11. **Sərvət Yesari** (kassasiya məhkəməsi üzvü); 12. **Deqat** (vəkil); 13. **D-r. Besim Ədhəm**; 14. **Xalid Həbbab** (şəhər əmanət məmuru); 15. **Zəki Dərviş** (polis məktəbi müdiri); 16.**Moris Mayer** (tacir).

Osmanlı Ali Şurası qurulduqdan dörd ay sonra (9 iyul 1909) Türkiyədəki bütün lojalara və masonlara xitabən fransız dilində bir direktiv göndərilir. Burada Böyük Şərqin qurulması üçün əməli fəaliyyətə keçildiyi bildirilir. Bu mövzuda 1909-cu il iyulun 13-də Qalatadakı **Norondunyan** karvansarayında keçirilən yığıncaqda İspaniya, Fransa və İtaliya Böyük Lojalarına bağlı 14 mason ustadı iştirak etmişdir. Bu 14 nəfərdən yalnız biri türk-müsəlman, 6 nəfəri isə yəhudi olmuşdur. Bu yığıncaqda Osmanlı İmperiyasının Böyük Şərqinin qurulması üçün son toplantının 1909-cu il avqustun 1-də bazar günü keçirilməsi qərara alındı. Bəyoğlunda **Haçapulos** karvansarayının üstündəki bir evdə keçirilən toplantıda Osmanlı dövlətində rəsmən yaradılmış 7 lojadan 14 nəfər iştirak etmişdir. Burada hər lojadan 2 nəfərin iştirakı prinsipinə riayət olunmuşdur. Bu Lojalar aşağıdakılardır: 1. "Vətən", 2. "Mühibbani Hürriyyət", 3. "Vəfa", 4. "Şəfəq", 5. "Rəsnə", 6. "Tərəqqi və İttihad Həqiqi Muhipləri", 7. " Uhuvvəti Osmaniyyə".

Bu toplantıda gizli səsvermə ilə keçirilən seçkidə ilk Böyük Şərqin rəhbərliyinə aşağıda adları çəkilən masonlar seçildi:

1. Ustadı Əzəm (Böyük Ustad): **Tələt paşa**;
2. Böyük Ustad müavini: **Qalib paşa** (jandarma ümumi komandanı);
3. Brinci Böyük Nazir: **Mehmet Əli paşa** (d-r. polkovnik);
4. Birinci Böyük Nazir müavini: **Edvard De Nari**;
5. Böyük nazir: **Osman Fəhmi** (əczaçı, rəsnəli Niyazi bəyin qardaşı);
6. İkinci Böyük Nazir müavini: **Nadra Muiran**;
7. Böyük Xətib: **D-r. Rza Tevfik**;
8. Böyük Xətib müavini: **Mişel Norodunyan**;
9. Böyük Katib: **Osman Tələt** (vəkil);
10. Böyük Katib müavinləri: **Solon Kazanova, Errera Dairo, Feyzi Menahem;**
11. Böyük xəzinədar: **Sarim Kibar**;
12. Böyük xəzinədar müavini: **D-r. İlyas Modyano**;
13. Böyük İdarə məmuru: **D-r. Cak Suhami**.

Bu kadrlar diqqətlə tədqiq edilərsə aydın olacaq ki, bütün müavinliklər adətən türk və müsəlmanlara nəzarət etmək üçün yunan, erməni və yəhudilərə verilmişdir. Çünki bu heyəti seçənlərin əksəriyyəti qeyri-müsəlmanlardı. Böyük Şərq qurulduqdan sonra onun Osmanlı Mason Ali Şurası ilə münasibətlərini təsbit edən bir müqavilə imzalamış və beləliklə Osmanlı dövlətindəki masonluq rəsmən tanınmışdır. Bu tarix **Sultan II Əbdülhəmid xanın** taxtdan salındığı, konstitusiyanın elan edildiyi və 10 ildən sonra imperiyanın yıxılması naminə görüləcək çirkin işlərin bünövrəsinin qoyulduğu ildir.

## 2. 1909-1923-cü illərdə osmanlı imperiyasında masonların fəaliyyəti

Ümumiyyətlə 1909-cu ildən respublika elan edilən bir dövrə qədər əskidən qurulmuş olanlarla bərabər Osmanlı imperiyasında 42 mason lojası fəaliyyət göstərmişdir. Bunların 30-u 1909-1912-ci illərdə,12-si də 1912-1923-cü illərdə qurularaq Osmanlı Böyük Şərqinə daxil olmuşdular.

Konstitusiya elanından respublika qurulana qədər keçən dövrdə masonlar tamamilə türk dövləti və millətinin əleyhinə çalışmışdılar. Özlərini azadlıqsevər və ziyalı hesab edən bəzi qafil türklər də bilərəkdən və ya bilməyərəkdən masonluğun bu xəyanətinə alət olmuşdular.

Selanikdə qurulmuş olan və Yunan Baş Lojasına bağlı olan bir lojanın **Corc Flutas** adlı ustadı İzmirin yunanlar tərəfindən işğal edilməsindən sonra oraya hərbi prokuror olaraq göndərilmişdir. Onun türk və müsəlmanlara qarşı dəhşətli fəaliyyəti yerli əhali tərəfindən nifrətlə xatırlanmaqdadır. Bu dövrdə İzmirin işğalını hazırlayan və fəaliyyət göstərən **"Zoroaster"** və **"İoni"** adlı mason lojalarının üzvləri İzmirin qurtuluşundan sonra Yunanıstana qaçmışdılar.

Masonlar və **"İttihad və Tərəqqi" Partiyası Sultan II Əbdülhəmid xanın** əlindən aldıqları dövləti 6 -7 ildə darmadağın etdilər. Birinci Dünya müharibəsinin sonunda türk masonlarının və "ittihad"çıların hamısı xalqın qəzəbindən qorxaraq ölkədən qaçmışdılar.

O dövrdə torpaqları Bəsrədən Bosniya hersoqluğuna qədər uzanan bir imperiyanın silahlı qüvvələrinin baş komandanı olan **Ənvər paşa** bu əzəmətli dövlətin yıxılmasından sonra İstanbuldan qaçarkən söylədiyi bu sözlər bütün türk və müsəlmanlar üçün ibrət dərsi olmalıdır: **«Biz Sultan II Əbdülhəmidi anlamadıq. Biz sionistlərə alət olduq. Bizi beynəlxalq masonluq istismar etdi. Biz ancaq, sionizm üçün çalışmışıq. Acıdır»**.

Qeyri-müsəlmanlara qoşulmuş türk masonlarının aqibəti də faciəli olmuşdur. Onlardan **Tələt paşa** Berlində erməni gülləsinin, **Ənvər paşa** isə uzaq Türküstanda rus-erməni sui-qəsdinin qurbanı oldular.

# III. TÜRKIYƏ RESPUBLIKASINDA MASONLUQ

## 1. 1923-1935- ci illərdə Türkiyə Respublikasında

**masonların fəaliyyəti**

1923-cü ildən masonluğun qadağan olunması ilinə, yəni 1935-ci ilə qədər Türkiyədə bəzi mason lojaları çox fəal rol oynamışdılar. Bunlardan birincisi 9 saylı **“Ziyayi Şərq”** lojasıdır. Bu loja 1910-cu il yanvarın 18-də Kadıköydə qurulmuşdur. Lojanın ilk ustadı **Faiq paşa** olmuşdur. Misirli şahzadə **Əziz Həsən paşa** bu lojanın qurulması üçün maddi yardım etmişdir. Bu lojanın liderləri arasında **Fuad Xulusi, Fuad Surəyya**, ordu komandanlarından **İzzət paşa**, **Mahmud Muxtar paşa**, **D-r. Abdullah Cövdət, Mühiddin Osman Omay, İbnürrefik Əhməd Nuri, Hıfzı Tevfik, Tevfik Kamal, Nəcməddin Sagir Sılan** və **Gəlal Hifzi Arsevən** də vardır. **Sultan II Əbdülhəmid** xan tərəfindən bu lojanın fəaliyyətlərinin qarşısını almaq məqsədilə göndərilən ordu komandanı **Şəmsi paşanı** poçtxanadan çıxıb avtomobilinə minərkən onu öldürən məşhur **Biqali Atır** da bu lojaya mənsub olmuşdur.

Bağlanana qədər keçən illər ərzində fəaliyyət göstərən mason lojalarından biri də **“Nicat”** dərnəyidir. 1916-cı il mayın 15-də qurulmuş bu lojanın ilk ustadı **D-r. İsmayıl Xurşiddir**. Hələ əvvəlləri tam olaraq masonik bir təşəkkül halında çalışan **“Himayei Əftal”** Cəmiyyəti də bu mason lojaları tərəfindən qurulmuşdur. Masonlar bu növ dərnəklər və təşkilatların arxasında gizlənib diqqəti cəlb etmədən fəaliyyət göstərməyə daha çox əhəmiyyət verirdilər. Onların əksəriyyəti xarici qüvvələrin maliyyə yardımları ilə fəaliyyət göstərir və Türkiyədə xeyriyyə müəssisələri kimi nüfuz qazanmağa çalışırdılar. Bu lojanın üzvləri arasında **Əhməd Emin Yalman, Sərvət Yesari, Adnan Adıvar** və **D-r. Rasim Fərid** kimi məşhur şəxslərin adlarına rast gəlmək olar.

Fəaliyyət sahəsi daha çox İzmirdə olan **“Günəş”** lojasında xüsusilə yunanlar və yəhudiilər çoxluq təşkil etmişdir. Bu **“Günəş”** lojasına daha sonra vali, vali müavini, bələdiyyə rəisi, polis rəisi və bir çox məşhur şəxslər daxil olmuşdular.

Bu dövrdə Ankarada da ilk və ən əhəmiyyətli mason dərnəklərindən birisi qurulmuş və fəaliyyət göstərməyə başlamışdır. Bu 1925-ci ildə qurulan **“Cümhuriyyət”** dərnəyidir. Bildiyimiz kimi Türkiyədə respublika qurulduqdan sonra paytaxt Ankaraya köçürülmüşdür. Bu da istər xarici, istərsə də daxili masonların diqqətini cəlb etmişdir. Türkiyə Böyük Şərqi xaricdən də aldıqları təlimatla yeni paytaxt olan Ankarada mason lojası qurdular. Lojanın ustadı Cevdət Hamdi Balım idi. Lojanın qurucuları arasında 1960-cı ildən sonra **İ.İnönü koalisiyalarında** dövlət naziri olaraq

vəzifə tutan əski valilərdən **Akif İyidoğan, Midhət Akdora və Əhməd Rza Baba** da vardır. 1935-ci ildə lojanın 300 nəfər üzvü olmuşdur.

Bu illərdə Aydında, Manisada, Diyarbəkrdə, Adanada və Malatyada da mason lojaları qurulmuşdur. Onların bəziləri fəaliyyətlərini masonluğun qadağan edildiyi tarixə qədər davam etdirmişdilər.

1935-ci ildə Türkiyədə fəaliyyət göstərən 31 mason lojası var idi. Bunlardan 24-ü türk, 6-sı fransız və biri də alman dilində çalışırdı. Fransız dilində çalışanlar İstanbuldakı **"Akasya", "Etual Doryan", "Vedad", "Revey" və "Renesans"** lojaları ilə İzmirdəki "Ğomer" lojası idi. İstanbuldakı "İstanbul" lojası isə alman dilində fəaliyyət göstərirdi. Yeddi müxtəlif şəhərdəki 24 lojada işlər türk dilində aparılırdı. Bunlar İstanbulda **"Mühibbani", "Hürriyyət", "Vəfa", "Rəsnə", "Ziyayi Şərq", "Sebat", "Necat", "Selamat**", **"Murad", "Aydın", "Gənclik", "Cümhuriyyət Yıldızı", "İnqilab" və "Özqardaş"**; İzmirdə **"Günəş", "Ehram", "Mərih", "Zühal"** və **"Ege"**; Bursada **"Bilüfər" və "Nar",** Ankarada **"Cümhuriyyət";** Manisada **"Ülkər";** Samsunda **"İşıq"** və Qaziantəpədə isə **"Cənub Yıldızı"** lojaları idi. Bu 31 lojadan yalnız İstanbulda **"Renesans"** lojası Fransa Böyük Lojasına bağlı olaraq çalışırdı. Digər 30 lojanın hamısı Şotlandiya Böyük Lojasının qayda-qanunları əsasında fəaliyyət göstərirdi.

Türkiyədə fəaliyyət göstərən masonlar elan olunmalarından qapanışlarına qədər olan dövrdə özlərini bir neçə dəyişik ad altında qeyd etdirmişdilər. «Cəmiyyətlər qanunu»na görə ilk rəsmi qeydiyyat İzmirdə olmuşdur. Onlar özlərini İzmir vilayətində **"Yetimlərə Yardım Cəmiyyəti"** adı altında qeyd etdirmişdilər. Daha sonra İstanbuldakı Böyük Məşriq Türkiyədə fəaliyyət göstərən bütün mason lojalarına bir ad altında qeydiyyatdan keçmələrini tövsiyə etmişdir. Bu təklifi qəbul edən Türkiyə masonları 1927-ci il iyunun 30-da **"Təkamül-ü Fikri Cəmiyyət"** adı altında İstanbul vilayətində qeyd olunmuşdular. İki il sonra bu dəfə yenə İstanbul vilayətində **"Türk Tərəqqi Cəmiyyəti"** adı ilə qeyd müqaviləsi bağlayan masonlar hələ mason sözünü işlətməyə cəsarət etmirdilər. Nəhayət 1933-cü il yanvarın 11-də nizamnamələrində bəzi dəyişikliklər etməsi bəhanəsi ilə təkrar qeyd olunmaq istəyən masonlar cəmiyyətin bu gündən **"Türk Tərəqqi Cəmiyyəti"** əvəzinə **"Türkiyə Böyük Şərqi"** adını aldığını bildirmişdilər. Onlar artıq nizamnamələrində cəmiyyətin üzvlərinə "mason" deyildiyini yazmaqdan çəkinməmişdilər. Mason Ali Şurası isə 1932-ci il mayın 9-da İstanbulda etdirdiyi bir qeydiyyatla **"Türkiyə Ali Masonluq Cəmiyyəti"** adını almışdır. Türkiyə masonları bu illərdə **"Böyük Şərq"** adlı bir məcmuə də buraxmışdılar.

Türkiyənin o dövrdəki prezidenti olan **Qazi Mustafa Kamal Atatürkün** hələ 1919-cu ildə Milli Mübarizəyə başlamaq üçün Anadolu torpaqlarına gələnə qədər bütün gənclik və yetkinlik çağı masonların ən qatı fəaliyyət göstərdikləri yerdə keçmişdir. O, bu masonların ən ağıllılarını tanımış və fəaliyyətlərini yaxından izləmək imkanına malik olmuşdur. Onun anadan olduğu Selanik və çox yaxşı tanıdığı Makedoniya, təhsilinin bir hissəsini aldığı Manastır şəhəri masonların əsas fəaliyyət göstərdikləri bölgələr olmuşdur. Gənc **Mustafa Kamal İttihad və Tərəqqi Partiyasının** üzvlərinin və masonların məmləkətin əleyhinə göstərdikləri fəaliyyətlərini müşahidə edə bilmişdir. Onların arasında hətta Atatürkün özünün yaxın dostları da olmuşdur. Daha sonralar **Mustafa Kamal** Balkan müharibəsində və Trablis cəbhəsində İtaliyadakı mason lojalarının və Türkiyədəki üzvlərinin hərəkətlərini anlamış və əsl məqsədlərini öyrənmişdir.

Xaricdəki bəzi dövlətlər tərəfindən təhrik edilən qeyri-müsəlman təbəələrin Osmanlı dövləti əleyhinə apardıqları fəaliyyətləri, buna bilərək və ya bilməyərək yardım edən bəzi türk ziyalılarının mason lojaları və **"İttihad və Tərəqqi"** ilə işbirliyində olmaları bir müddət davam edən siyasi, anarxist, cinayətkar və xainanə fəaliyyətlərin reallaşmasına təkan vermişdir. **Mustafa Kamal** bu qarışıq illərdə gördüyü və hiss etdiyi hər şeyi gələcək günlər üçün saxlayırdı. Respublika elan olunmasından sonra Türkiyə Mason Dərnəyi hələ daha da inkişaf edib mövqeyini möhkəmləndirə biləcəyini zənn edir və gələcəkdəki planlarını reallaşdırmağa tələsmirdilər və yeni dövlətlə mülayim davranırdılar. Ancaq illər keçdikcə ölkədə gedən milli, ictimai, siyasi, iqtisadi və mədəni quruculuğu ön plana çəkərək gerçəkləşdirən bu dövlət xadimləri artıq **Sultan II Əbdülhəmidi xanı** hakimiyyətdən kənarlaşdırıb dövlətin idarəsini əlinə keçirən **İttihad və Tərəqqi Partiyasının** üzvlərindən müsbət mənada qat-qat fərqlənirdilər. Bu fərqi o zamankı Türkiyə masonları çox yaxşı görürdülər. Maraqlı orası idi ki, **Mustafa Kamal Atatürkün** özünün ətrafında olan bir çox yüksək vəzifəli şəxslərin də əksəriyyəti mason idi. Ancaq Atatürk bunların çoxunu tanıyır və onları ifşa etmək üçün müəyyən şərait gözləyirdi.

Türkiyə masonları həmişə **Mustafa Kamal Atatürkü** özlərinə bir maneə hesab etmişdilər. Elə bu səbəbdən də ona dəfələrlə mason olmaq təklif olunmuş və rədd cavabı aldıqdan sonra yenidən yeni cəlb etmə yolları axtarmışdılar.

Türkiyə masonlarının **Mustafa Kamal Atatürkü** öz sıralarına cəlb etmək üçün birinci təşəbbüs onun 1908-ci ildə Baş Ştab kapitanı olan vaxtı olmuşdur. Onu iki zabitlə Selanikdə məşhur mason ustadı olan **Karassonun** evinə gətirib təqdim edirlər:

- Ordumuzun gənc və müstəsna zəka və istedadlarından Baş Ştab kapitanı **Mustafa Kamal bəy.....**

Bu sionist, mason ustadı qarşısında gözləri qaynayan gənc zabiti görüncə ona müxtəlif formalarda masonluğun ideyalarını yeritməyə başladı: «Beynəlxalq aləmdə etibar qazanmaq və sonra dövlətimizə qüvvə, millətimizə azadlıq gətirmək üçün beynəlxalq mason təşkilatına girmək daha məqsədəuyğundur». Ancaq onun bu sözlərini axıra kimi dinləyə bilməyən **Mustafa Kamal** bəy **«gəlin bu yəhudiliyi bir tərəfə buraxaraq. Padşahın əlindən azadlığı necə alacağıq ondan danışaq».** Bundan sonra **Karasso** sözü başqa səmtlərə yönəltmək istədisə də, bu gənc türk zabitini öz toruna sala bilmədi.

Onun ikinci dəfə masonlarla qarşılaşması 1925-ci ildə olmuşdur. Artıq 1908-1925-ci illərdə **Sultan II Əbdülhəmid xan** hakimiyyətdən uzaqlaşdırılmış və dövlətin idarəsi **«İttihad və Tərəqqi»**nin əlinə keçmiş, Birinci Dünya müharibəsi başa çatmış, Osmanlı imperiyası dağılmış və Milli Mübarizə illəri qələbə ilə başa çatdıqdan sonra dağılmış imperiyanın yerində ərazisi yalnız Anadolunu əhatə edən yeni Türkiyə Respublikası qurulmuşdur.

1925-ci ildə masonlar artıq bu gənc respublikanın prezidenti **Qazi Mustafa Kamal Atatürklə** qarşılaşmalı oldular. 1925-ci ildə Türkiyə Masonları Ali Şurası keçirdikləri fövqəladə bir iclasında **Qazi Mustafa Kamal Atatürkə** mənsub olduqları Şotlandiya Böyük Lojasının təklifi ilə 33-cü dərəcənin verilməsi və onun Türkiyə masonlarının fəxri rəisi seçilməsi qərara alınır. Bu yeni xəbəri **Qazi Mustafa Kamal Atatürkə** çatdırmaq üçün mason doktor **Fikrət bəy** saraya göndərilir. O burada **Qazi Mustafa Kamal Atatürklə** görüşərək Türkiyə Masonları Ali Şurasının qərarını ona çatdırır. **Atatürk** bu təklifi Türkiyə masonlarının deyil, beynəlxalq masonların təklifi kimi başa düşür və belə cavab verir: **«Belə bir təklifi duymamış olum. Hələlik qalsın. Hələlik özünüzün nə olduğunuzu göstərin və millətə özünüzü sevdirməyə çalışın. Gərəyini sonra düşünün».** Bu cavab verildiyi zaman Atatürkün hüzurunda təklifi gətirən **doktor Fikrət bəydən** başqa **Mehmet Camal Uybadın** adlı bir mason da var imiş.

Türkiyədə masonluq haqqında araşdırmalar aparan tədqiqatçılar bəziləri bu cavabın **Qazi Mustafa Kamal Atatürklə** masonlar arasındakı amansız mübarizənin başlanğıcı olduğunu və hər iki tərəfin də bir-birini vurmaq üçün hazırlığa başladıqlarını söyləmişdilər.

Masonluq haqqında hələ gəncliyindən etibarən çox qəti və təsirli qərarlara gələn **Qazi Mustafa Kamal Atatürk** onu Türkiyə torpaqları üzərindən süpürüb atmağa daima şərait və yollar axtarırdı.

Masonlarla **Qazi Mustafa Kamal Atatürkün** növbəti rəsmi təması 1932-ci il sentyabrın 5-13-də İstanbulda toplanan Beynəlxalq Mason Konvanı ilə olmuşdur. 23 ölkəyə mənsub 100-ə yaxın yüksək rötbəli masonun iştirak etdiyi bu yığıncaqda Türkiyə masonlarının Böyük Ustadı **Mustafa Haqqı Nalçaçı, Raşir Ərər, İsmayıl Ratip, Mehmet Əli Haşmat** və **Firudin Dukak** iştirak edirdilər. Bu konfransa sədrlik edən **Mustafa Haqqı Nalçaçı** iştirakçılar adından prezident **Qazi Mustafa Kamal Atatürkə** bir ehtiram teleqramı vurur. Bu tarixi teleqramın mətni aşağıdakı kimi idi:

*Rəisi* Cümhur *Ulu Qazi Mustafa Kamal*
*həzrətlərinə.*
*Dolmabaxça Sarayı.*

*Beynəlxalq Mason Birliyi Konvanının İstanbulda toplanması münasibəti ilə azad və layiq Türkiyəmizin Böyük Xilaskarına yurdumuzun rifahının yüksəlməsi, maddi və mənəvi tərəqqi yolunda yorulmaz insana cansağlığı və işlərində müvəffəqiyyətlər arzu edirik.*

*Konvan rəisi Mustafa Haqqı.*

Bu teleqrama saraydan prezidentin ümumi katibi Hikmət (Hikmət Bayur) bu iki cümləlik teleqramla cavab verir: **"Mustafa Haqqı Bəyəfəndiyə. Bizə göndərdiyiniz teleqramdan Respublika Prezidentinin çox məmnun qaldığını bildirirəm".**

**Ümumi Katib: Hikmət.**

Masonlar 1934-cü ildə **Qazi Mustafa Kamal Atatürklə** yenidən görüşdülər. Trablisli doktor **Rasim Fərid bəy** 1908 və 1925-ci illərdəki təşəbbüsləri yenidən təzələyir. O, **«Bizanso Rizorta»** lojasının bir şəhadətnaməsini **Qazi Mustafa Kamal Atatürkə** vermək istəyirsə də yenə rədd cavabı alır.

1935-ci ilin əvvəllərində **Qazi Mustafa Kamal Atatürkün** axşam yeməyində **Prof. Əhməd bəy Ağaoğlu, Prof. Fuad Köprülü, İsmayıl Haqqı**, maarif naziri **Hikmət bəy** və 33-cü dərəcəli masonlardan doktor **Mim Kamal Öke** də iştirak edir.

Bu zaman **Qazi Mustafa Kamal Atatürk** ortaya belə bir sual atır: **«Əfkarı ümumiyyə (ictimaiyyət) fikri dəyişdirilə bilərmi?».**

**F.Köprülü, Ə.Ağaoğlu, İ.Haqqı** növbə ilə danışıb öz fikirlərini söyləyirlər. Cavablar **Qazi Mustafa Kamal Atatürkü** təmin etmir. Bu arada **Hikmət bəy** masonluqdan da bəhs edir. Bu zaman **Qazi Mustafa Kamal Atatürk Mim Kamal Ökeyə** tərəf dönüb *"Kamal bəy, növbə Sizə gəldi"* deyir.

**Min Kamal Öke Atatürkün** bu mövzudakı fikirlərini təxmin etmiş olduğundan danışmamağı üstün tutur. Ancaq Qazi Mustafa Kamal Atatürkün *«Kamal bəy, masonluğun məqsədləri nələrdir?»* deyə təkrar müraciət etdikdən sonra bir neçə söz deməyə məcbur olur. Bundan sonra *Qazi Mustafa Kamal Atatürk "Əgər masonluq millətçi, xalqçı, respublikaçıdırsa, onda Xalq Partiyasının məqsədləri ilə üst-üstə düşür və beləliklə onun bundan sonra fəaliyyət göstərməsi artıqlıq təşkil edir"* deyir.

**Mim Kamal Öke** isə cavabında *"Xalq Partiyasının məqsədi məmləkət daxilində caridir. Halbuki masonluq bu ideyaları yurd xaricində də yaymaq istəyir. Diktatura hökm sürən dövlətlərdə mason lojaları yoxdur, çünki orada masonlar məşhər ayağına çəkilir"* fikrini söyləyir.

Qazi Mustafa Kamal Atatürk: *«Yaxşı, Kamal bəy, deyin görək hansı məmləkət masonları bəxtiyardır?»*

- **Mim Kamal Öke:** *"Xaricdə masonlar sürgün və məhv edilirkən Türkiyə masonları Ulu Öndərinin və hökumətinin yumşaq davranışları nəticəsində ürəyi istəyən kimi fəaliyyət göstərmişdilər. Dünyada ən bəxtiyar və məsud masonların Türkiyədəki masonlar olduğuna şübhə yoxdur".*

- **Qazi Mustafa Kamal Atatürk**: *«Rəisiniz kimdir?»*

- **Mim Kamal Öke**: *"Məmləkət daxilində sülh və dinclik tövsiyə edən və bütün dünyaya müraciət edərək bu idealın həqiqi olmasının meydana çıxarılmasını arzu edən şəxsdir".*

- **Qazi Mustafa Kamal Atatürk**: *"Mən bu cəmiyyətə girmərəm. Mən başqalarının ortaya atdığı prinsiplərlə deyil, öz prinsiplərimlə hərəkət etməyə üstünlük verirəm",*

- **Mim Kamal Öke**: *"Masonluq hər məmləkətdə insanlıq idealının qəbul edilməsinə çalışan ziyalıların bir araya gəlməsinə, yaxınlaşmasına xidmət etməsi baxımından faydalı ola bilər."*

- **Qazi Mustafa Kamal Atatürk**: *"Xeyr Kamal bəy, sən bunu söyləyə bilməzsən və bunu söyləməyə sərbəst deyilsən".*

Bu görüş 33 dərəcəli bir mason tərəfindən masonluğun beynəlxalq olduğunu etiraf etməsinə və **Qazi Mustafa Kamal Atatürkü** masonların təbii rəisi kimi göstərmək istəməsinə **Atatürkün** verdiyi cavablar çox əhəmiyyətlidir. **Qazi Mustafa Kamal Atatürk** bu təbii rəislik iddiasını rədd etdiyi kimi masonluğa girməyəcəyini də açıq olaraq bəyan etmiş və masonluğun faydasından bəhs edən **Mim Kamala Ökeyə** Türkiyədəki masonluğun xaricilərin, xüsusilə də qeyri-müsəlmanların və qeyri-türklərin qoyduqları prinsiplərə görə çalışan bir cəmiyyət olduğunu anlatmışdır. Qazi **Mustafa Kamal Atatürk** 1935-ci ildə mason lojalarının bağlanmasını qərara alır. O, ancaq bunun İtaliya və Almaniyada olduğu kimi dövlət

başçısının qəti əmri ilə deyil, şəxsən masonların özləri tərəfindən həyata keçirilməsini istəyirdi. Ancaq, təəssüf ki, o dövrdə başda daxili işlər naziri **Şükrü Qaya** və TBMM-nin sədri **Kazım Özalp paşa** olmaqla dövlətin çox hörmətli şəxsləri mason idi. Əlbəttə onlar bu lojaların bağlanmasını istəməyəcəkdilər. **Qazi Mustafa Kamal Atatürkün** qərarının qəti olduğunu görən bu şəxslər müqavimət göstərməyin artıq olduğunu hiss etmişdilər. Elə bu səbəbdən də 1935-ci ilin oktyabr ayında daxili işlər naziri **Şükrü Qaya** İstanbulda yerləşən Türkiyə Masonları Ali Şurasının mənsəb sahiblərini Ankaraya dəvət edir. 1935-ci il oktyabrın 9-da İstanbuldan gələn Baş Ustad doktor **İsmayıl Xurşid, Mühüddin Osman**, doktor **Fuad Sürəyya paşa** (Ali Şura üzvü) və **Muğib Niğat Kuran** (Ali Şura Üzvü) Ankaraya gəldilər və Ankara masonlarından o zamankı Dövlət Şurası rəisi **Mustafa Rəşad Mimaroğlu**, Ankara valisi **Nevzat Tandoğan** və deputat, doktor **Rasim Fəridi** də özləri ilə götürərək **Şükrü Qayanın** yanına getdilər.

**Şükrü Qaya** bu mason qardaşlarını **Qazi Mustafa Kamal Atatürkün** tgklifi ilə tanış etdikdən sonra onlar bu qəfildən verilən qərarla razılaşmadıqlarını bildirdilər. Onlar çox təkidlə ümumi yıcıncağın keçirilməsinin vacibliyini qəti şəkildə bildirdilər. Ancaq **Şükrü Qayanın** ciddi tələbi nəticəsində bu mason rəisləri başqa çarələri qalmadığını görüb orada bir bəyannamə hazırlayaraq tək-tək imzaladılar və **Şükrü Qayaya** verdilər. Bu bəyannamə aşağıdakı məzmunda yazılmışdır: *"Türkiyə masonları Türkiyə Cümhuriyyətində hakim olan demokratik və ciddi prinsiplərin tətbiq olunmasından doğan yaxınlıqları müşahidə edərək fəaliyyətlərinə bu xüsusda heç bir qanun olmadan son verməyi və bütün əmlakını məmləkətin sosial və mədəni inkişafına çalışan Xalq Evlərinə verməyi lazım bilmişlər."*

Şübhəsiz masonlar bu zərbəni heç bir zaman unutmamışdılar və fürsət döşən kimi əvəzini çıxmağa and içmişdilər. Sonralar mətbuat orqanlarında **Şükrü Qaya** bu məsələ ilə bağlı belə demişdir: *"Türk masonları öz prinsiplərinin hökumətin əsas proqramında əks olunduğundan təşkilatlarını buraxmışdılar. Hökumətin bu işlə heç bir əlaqəsi yoxdur".*

## 2. 1935-1948-ci illərdə Türkiyədə masonların fəaliyyəti

Masonların Türkiyədə 1935-1948-ci illərdə heç bir fəaliyyət göstərməmələrini qəbul etmək sadəlövhlük olardı. Bu illərdə onlar gizli olaraq müəyyən günlərdə restoran və kazinolarda bir yerə toplaşaraq

fəaliyyət göstərmişdilər. Masonlar üçün ən mühüm maraqlı nöqtələrindən biri Türkiyədə masonluğu önləyə biləcək hər növ cərəyanlar, müəssisə və şəxslərlə mübarizə aparmağı özlərinə ən vacib prinsip qəbul etmişdilər. Masonlar əvvəl **Sultan II Əbdülhəmid xan**, sonra da **Qazi Mustafa Kamal Atatürk** tərəfindən onlara endirilən zərbələrdən özləri üçün nəticə çıxartmağı qərara almışdılar. Türkiyə masonları bəzi siyasi qrupları və şəxsləri bir-birinə vuruşduraraq həm özlərinə yer açmağa, həm də millətin diqqətini öz üzərilərindən yayındırmağa daima əhəmiyyət vermişdilər. Onlar bu iki məqsədə nail olmaq üçün uzunmüddətli qərarlar qəbul etmişdilər.

İkinci Dünya müharibəsində ABŞ və müttəfiqlərinin qələbə qazanması masonluğun gələcək inkişafına müsbət təsir etmişdir. Çünki masonluğun fəaliyyətini qanundankənar elan etmiş (SSRİ-dən başqa. Artıq bu adda imperiya mövcud deyildir) Almaniya və İtaliya məğlub olmuşdular. Bildiyimiz kimi dünyanın yeni böyük dövləti olan ABŞ-da masonluq fəaliyyətləri çox güclü idi. Bu qadağan illərində Türkiyə Masonları Ali Şurası gizli olaraq öz fəaliyyətini müntəzəm olaraq davam etdirmişdir. Bu günlərdə xüsusi olaraq Ali Şura rəisi (Kaymakam) olan doktor **Mim Kamal Ökenin** çox böyük fəaliyyəti olmuşdur. O, masonluğun yenidən təşkilatlanması və açılma hazırlıqlarının aparılması işini davam etdirmişdir.

**Mim Kamal Öke** masonların yenidən fəaliyyət göstərməsi və bu günədək ən əhəmiyyətli, mühüm şəxslərin saxlanılması tərəfdarı olmuşdur. O, Atatürkün xəstələnməsindən vəfat etməsinə qədər onun həkimi olmuşdur. **Mim Kamal Ökenin** və yüksək dərəcəli masonların qadağan olunduqdan sonrakı fəaliyyətlərinin **Qazi Mustafa Kamal Atatürklə** bağlı hissəsi tədqiqatçı, mərhum **Cavad Rüfət Atilxanın** 1964-cü ildə 3-cü dəfə çap olunmuş **“Öz vəsiqələrinə görə masonluq nədir?**“ əsərində belə təsvir edilmişdir: “**Mustafa Kamal paşa** ölüm yatağında ikən ətrafını başda mason ustadı və mason təşkilatının təmsilçiləri olan həkimlər əhatə etmişdilər. İstər Türkiyədə, istərsə də Yaxın Avropa dövlətlərində serroz üzrə mütəxəssislər olduğu halda onlar farmason olmadıqlarından xəstəyə yaxın buraxılmamışdılar. Fransadan mütəxəssis olaraq gətirilən həkim də 33 dərəcəli mason olmuşdur. Bununla masonlar içdikləri anda sadiq qalaraq onların fəaliyyətlərini önləməyə çalışan **Qazi Mustafa Kamal Atatürkü** də yuxarıda göstərilən üsulla aradan götürdülər.

Artıq İkinci Dünya müharibəsi başa çatmış və Türkiyə də bu qovğalardan salamat çıxa bilmişdir. Masonlar açıq fəaliyyət göstərmək üçün əlverişli şəraitin yarandığını hiss edərək 1948-ci il fevralın 5-də bir bəyannamə ilə İstanbul valisinə müraciət edərək **“Türkiyə Mason Dərnəyi”**nin qeyd olunmasını istədilər. Bəyannaməni aşağıdakı şəxslər imzalamışdılar: İstanbul Ticarət Odası

Sicil müdiri **Məcdi Əli Akasya, Cövdət Hamdi Balım, Cəmil Hamdi Balım,** polis müfəttişi **Muhip Nihat Kuran,** professor **Kazım Atif Kuyucak,** professor **Mustafa Haqqı Nalçaçı** və doktor **Orxan Təhsin.**

Bir müddət sonra İzmir və Ankara şöbələri də fəaliyyətə başlayırlar. Onlar fəaliyyətə başlamaqla bərabər vaxtilə Xalq Evlərinə verilmiş binalarının və əmlaklarının da geri qaytarılmasına nail oldular. Masonların yenidən fəaliyyət göstərməsinə icazə verən və onların daha da inkişaf etməsinə şərait yaradan prezident **İsmət İnönü Qazi Mustafa Kamal Atatürkün** Türkiyə üçün daima təhlükə olan bir fəaliyyətin qadağan edilməsi məsələsində irəli sürdüyü prinsipi pozur. Sonralar masonlar onlara göstərilən qayğıya görə prezident **İsmət İnönüyə** bir təşəkkür məktubu da yazmışdılar. Bu məktubun mətni və fotosurəti "Millət" məcmuəsində nəşr olunmuşdur.

1948-1949-cu illərdə 10 mason lojası birdən qurulmuşdur. Bunlardan 7-si İstanbulda, 2-si Ankarada və biri isə İzmirdə fəaliyyət göstərmişdir.

## ISTIFADƏ EDILMIŞ ƏDƏBIYYAT


***Türk dilində***

1. **Atilhan C.R**. Gizli Devlet ve Fasat Programı.- İstanbul: May, 1968
2. **Atilhan C.R**. Türk İşte Duşmanın.- Istanbul : Aykurt, 1968
3. **Atilhan C.R.** Kendi Vesikalarına Göre Masonluk Nedir?, Istanául, 1984
4. **Gün I.N, Geliker Y.** Masonluk ve Masonlar. - Istanbul, 1968
5. **Mim Kemal Öke**. Kutsal Topraklarda Siyonistler ve Masonlar: İhanetler... Komplolar... Aldanmalar... - İstanbul: Çağ Yayınları., 1991. -556 s.
6. **Sakarya M.** Masonluk Hakkinda Mücmel Fikirler.- Izmir: Bilgi,- 1952
7. **Sevinc N.** Ordular, Masonlar ve Komunistler. - İstanbul: Dede Korkut, -1971
8. **Soysal İ.** Türkiye ve Dünyada Masonluk ve Masonlar. - İstanbul, - 1978
9. **Yılanlıoğlu I**. N. Üc Büyük Tehlike: Siyonizm, Komunizm ve Masonluk. - Istanbul: Güven Basımevi, -1968

***Rus dilində***

1. **Zamoyskiy L.P.** Za fasadom masonskoqo xrama: Vzqləd na problemu. - M.: Politizdat, - 1990. - 288 s.: il.
2. Masonstvo: v eqo proşlom i nastoəhem /Pod red. S.P. Melğqunova i N.P. Sidorova.- M.: SP «NKPA» 1991.- t.1.- 255 s.
3. Masonstvo: v eqo proşlomc i nastoəhemc /Pod red. SP «NKPA» 1991.- t.2.- 265 s.
4. **Nikolaevskiy B.N.** Russkie masonı i revolöüiə /Red. sost. Ö.Felğştinskiy.- Riqa: Terra. 1990. - 199 s.

5. **Peçnikov B.A.** «Rıüari üerkvi». Kto oni?: Oçerki ob istorii i sovremen. deətelğnosti katoliç. ordenov.- M.: Politizdat, 1991.- 350. [1] s.: il.; 20 sm.
6. **Şusterc Q**. Taynıe obhestva, soözı i ordena /Per. nemü. O.A. Volğkenşteync; Pod red. prof. A.L. Poqodina.- S- Peterburq, 1905.- t. 1.- 311 s.
7. **Şusterc Q.** Taynıe obhestva, soözı i ordena /Per. nemü. O.A. Volğkenşteync; Pod red. prof. A.L. Poqodina.- S- Peterburq, -1907.- t. 2.- 303 s.

**Cavad Rüfət Atilxan**

# ÖZ VƏSİQƏLƏRİNƏ GÖRƏ MASONLUQ NƏDİR?

İstanbul, «Günəş», 1964

FARMASONLUQ: Yəhudi şəriətinin başqa bir maskası. Yəni bir adıdır.

FARMASONLARIN DİNLƏRİ: Kabbale yəhudi dini, adətləri, ənənələri, ibadətləri, simvolları və hər şeyləri İbranidir.

Allahları Adonay, sitayişin predmetləri qızıl buzov, etiqadları puç və hər hərəkətləri tam mənası ilə mürtəcedir.

Farmasonluq bir millətə xas olaraq qalmamalıdır. Həqiqətən bəşəri masonluğu gerçəkləşdirmək üçün əbədi düşmənimiz olan dinlər və din xadimləri kökündən yox edilməlidir (**«Böyük Şərq Konventi»,** 1923).

Mason nizamnamələrinə görə masonluq insaniyyəti sevən, tərəqqipərvər və fəlsəfi bir müəssisədir. Masonluğun məqsədi həqiqəti aramaq, dünyəvi əxlaqı tədqiq etmək və həmrəylik prinsiplərini tətbiq etməkdir. Farmasonluq maddi və mənəvi tərəqqi əsası ilə insanlığın ictimai və zehni təkamülü üçün çalışmaqdadır.

MASONLUĞUN PRİNSİPLƏRİ: Qarşılıqlı mərhəmət, öz mənliyinə hörmət etmək və vicdanın tam hürriyyəti.

MASONLUĞUN DÜSTURU: Hürriyyət, Müsavat və Qardaşlıq (maddə 1).

Farmasonluq öz üzvünün dini və siyasi etiqadlarına hörmət edirsə də, öz cəmiyyətlərində hər növ dini tənqid və rejimlərə aid müqayisələri qətiyyətlə rədd edir, farmason öz arxasından gələnlərə daima bir mason və bir vətəndaş sifəti ilə hörmət etməsini ilk vəzifə olaraq xəbərdar edir (maddə 2).

MASONLUĞUN QAYƏSİ: Yer kürəsində olan bütün masonlar aralarındakı qardaşlıq bağlarını bəşəriyyətə yaymaqla bərabər istər söz, istər iş və istərsə də nəşriyyat vasitələri ilə mason təbliğatı aparmalıdırlar (maddə 40).

Hər nə vəziyyətdə olursa-olsun, hər mason qardaşlarına yardım etməli, onu maarifləndirməli, hətta həyatı bahasına olsa belə müdafiə etməlidir (maddə 5) **(1984-cü il tarixli fransız mason nizamnaməsi).**

Eyni prinsiplər təlimatnamələrdə də mövcuddur. Oradakı ifadə belədir: Masonluq həmrəyliyi müdafiə edən dünyəvi bir idtifaqdır. Məqsədi bəşəriyyətin əxlaqının aliliyi və saflığıdır. Düsturu: **Hürriyyət, Müsavat və Qardaşlıqdır**. Masonluğa görə irqi, dini, ictimai ayrılıqlara baxmayaraq öz arxasında onların haqları müsəvidir.

Masonluq hər vəziyyətdə və hər bir millət tərəfindən qəbul ediləcək ümumi bir əxlaq və əqidə tanıyır. Həqiqəti aramaq üçün heç bir hədd qoymamışdır. Bundan başqa, masonluq məzhəblərin təsisinə və dinlərə bağlanmağın əsla tərəfdarı deyildir. Hər bir mason azaddır və yalnız öz vicdanının ilhamına görə hərəkət edir. Bundan başqa, masonluq fəlsəfi, dini, siyasi və ictimai sahələrdə də geniş sərbəstliyə malikdir və mərhəmət tərəfdarıdır.

«Masonluq mübarizə təşkilatıdır. Bu sifətlə mübarizəyə lazım olan intizam üçün üzvlərini məcbur edər» **(Fransa Böyük Şərq Lojası direktivləri. 1894).**

«Mərhəmət insanın anadangəlmə sifəti deyildir, o, tərbiyə ilə mənimsənilir. Biz hər səmimi fikrə qarşı mərhəmətli olduğumuz üçün insanların yekdilliklə münasibətlərində də qəti bir intizam əmr etməliyik» **(**«AKASYA», **1911, s.83).**

«Beynəlxalq bir təşkilata malik olan masonluğun ən böyük qayəsi həqiqətin axtarışıdır» (Böyük Şərq məcmuəsi, aprel-may, 1935, s.77).

«Bir zaman masonluğun nə dinlə, nə də siyasətlə məşğul olmadığı söylənilirdi. Görən bu saxtakarlıqdırmı? Bunu zənn etmirik. Biz polis və qanun təzyiqindən dolayı əsl məqsədimizi gizlətməyə məcburuq. Bəli, biz siyasətlə məşğul oluruq və hətta yüksək siyasətlə» **(Fransa Böyük Şərq bülleteni, 1886, s.545).**

«Dindar şəxslər lojalara daxil ola bilməzlər. Lojaya girən hər yeni insan hər şeydən əvvəl azad fikirli bir adam olmalıdır. Həqiqi farmason dindar ola bilməz» **(Fransa Böyük Mason Məclisinin protokolları, 1897, s.54).**

«Böyük Şərq farmason sirrini mühafizə etməyi qardaşlığın ən əsaslı və vacib vəzifələrindən biri sayır» **(Fransa Böyük Şərq direktivləri, 1893)**

«Farmasonluğun və qardaşların iş və hərəkətlərinə dair hər növ nəşriyyat qadağandır. Mətbuatda çalışan qardaşlarımızdan buna diqqət edilməsini və lojalarda söylənən nitqlər və görülən işlərə dair qətiyyən heç bir məlumat verməmələrini tələb edirik» **(Fransa Böyük Şərq direktivi, 1897).**

«Mason qardaşlarımızın bütün söyləyəcəkləri və yazacaqları şeylər bunu etməzdən əvvəl qardaşlığın nəzarətinə verilməsi məcburidir» **(Böyük Şərq protokolları, 1922, s.389).**

## Farmasonların vəzifəsi

«Masonluğun ən böyük halı gizli olmasıdır. Bu da doğrudan doğruya intizama riayətdən doğmalıdır. Masonluğa daxil olmayanlarla masonluq işlərindən bəhs edildiyi vaxt bu sirri mühafizə etməliyik.

Əski zaman insanlarından misal olaraq sirrə qısqanclıqla riayət etməliyik. Bu əski adamların qərarlarından nə üçün indiyə qədər yazılı bir iz qalmamışdır? Xainləri, boşboğazları və mürtədləri nə üçün məhv edirdilər? Çünki onlar bilirdilər ki, ən yüksək və ən vacib fikirləri yalnız bu cəmiyyətlərə daxil olanlar vasitəsilə nəşr edilə bilir. Yenə onlar bilirdilər ki, hər kəsin xəbərdar olmadığı şey xalq nəzarətində daha mühüm bir təsir yaradır. Çünki kimsə tərəfindən bilinməyən bir cəmiyyətin qərarları heç bir təsir tərəfindən nə dəyişdirilə bilər, nə də pozula bilər. Beləcə bu qərarların tətbiqinə heç bir maneə təsəvvür edilə bilməz» **(Bordo şəhərində nəşr edilən Böyük Şərq direktivləri, 27 sentyabr, 1927).**

«Mason vətəndaş ola bilər, ancaq hər şeydən əvvəl, mason olmaq şərtilə… Ondan sonra məmur, deputat, əyan və prezident ola bilər.

Masonluq daima onun ictimai vəziyyəti nə qədər yüksək olursa-olsun, ilhamını özü gördüyü işdən deyil, sadəcə olaraq mason cəmiyyətindən almalıdır» **(Masonluq bülleteni, 1889, s.267).**

«İqtidarda olan qardaşlar daima və mümkün olduğu qədər yüksək vəzifələrə masonların gətirilməsinə və mümkün olduğu qədər masonların sayını artırmağa çalışmalıdırlar» **(Lojalar Konqresi, 1894).**

## Mason lojalarının fəaliyyətləri

«Hər hansı bir mason lojalarına mümkün olduğu qədər çox sayda əsilzadələr və zəngin adamlar daxil etməyə çalışılmalıdır. Səltənət xanədanına mənsub olanların taxta çıxması ümidi zəifdirsə olanlar ancaq bir inqilab sayəsində bu əməllərinə müvəffəq olacaqlarını zənn edirlər. Bu kimi adamlara xalq tərəfindən sevildiklərini söyləyərək onları masonluğa daxil etməyə çalışmaq lazımdır. Bunların bizim işimizə və müvəffəqiyyətimizə necə və harada yarayacaqları sonradan bəlli olur. Taxt-taca haqqı olmayan

bir prins bizim üçün bir qazancdır. Belələri lap çoxdur. Bunların hamısını mason etməyə çalışın. Bu zavallılar özləri üçün bir şey etmək xülyasıyla bizim üçün çalışacaqlar» **(Pikkolo Tiqrin 1952-ci il yanvarın 18-i tarixli məktubu).**

«Cümhuriyyətin mənfəəti üçün lojalarımızın gündəlik həyata nüfuz etmələrinə çalışmaq lazımdır. Masonlar dindən başqa layiqli qayə və sosial yad qruplarla da birləşə bilərlər. Masonlar xalq universitetlərində, siyasi məktəblər kimi müəssisələrdə də öz səviyyələrinə uyğun olaraq mühit yaradaraq çalışmalıdırlar» **(Fransa Böyük Şərq Lojası bülleteni, 1923, s.300).**

«Qardaşların müxtəlif dini və sair cəmiyyətlərə soxulmaları və hətta bu növ təşəkkülləri şəxsən yaradaraq orada olmaları lazımdır. Bu şərtlə ki, qardaşların icad edəcəkləri cəmiyyətlər qətiyyən din qoxusu daşımamalıdır. Sürünüzü hər harada olursa-olsun toplayın, hətta ibadətxanalarda da iş görün. Bunların başına insanpərvər, saf imanlı və asanca aldadılması mümkün olan din xadimlərini keçirin. Bunlar arasında olan böyük qəlbli və təmiz ürəkli insanların ruhlarına qətrə-qətrə zəhər aşılayın. Məqsəd fərdi ailədən uzaqlaşdırmaq və əxlaqın əsaslarını yox etdirməkdir.

Şəhərdə yaşayanların və burjuaziyanın farmasonluğa girmə arzuları o qədər ümumi və adidir ki, mən insanların abdallığına heyrət edirəm» **(Məşhur farmason Pikkolo Tiqrin məruzəsi, 1924).**

«Mason lojalarından ilham alan qardaşlar mason olmayan dostlarla birlikdə bir cəmiyyət qurduğu təqdirdə bu cəmiyyəti heç bir zaman masonluğa daxil olmayanların əlində buraxmamalıdır. Belə cəmiyyətlərin idarəetmə mərkəzlərində əksəriyyət masonların əlində olmalı və mason qayəsi üzərində addımlamalıdır» **(Nansi Lojalar Konqresi, 1882).**

«Hər növ mübarizə cəmiyyətləri, musiqi və əyləncə qruplarının təşəkkülləri masonluq təbliğatı üçün ən əlverişli bir məsələdir. Bura böyükləri də cəlb edən kitabxanalar, kurslar və sairə kimi vasitələri də əlavə edin» **(Fransa Böyük Şərq Konventi, 1923, s.301).**

## Masonluğun son qayəsi

Farmasonların 1744-cü il bəyannamələrində deyilir ki, idtifaqın gizli fikirləri görünməyən demokratik bir cahan cəmiyyəti meydana gətirməkdir. 1899-cu ildə Parisdə toplanan birinci beynəlmiləl mason konqresində ustad Amiable belə demişdir: «Masonluğun qayəsi bundan yarım əsr əvvəl

söylədiyim kimi demokrat bir dünya cümhuriyyəti təsisidir. Buna görə mason ittifaqına kosmopolitlik əsasdır».

Fransa böyük inqilabının sənaye dövriyyəsinə həsr edilən bu konqresdə Böyük Şərqin möhtəşəm xətibi Francolin demişdir ki, gün gələr, XVIII əsr və 1789-cu il tarixini bilməyən millətlər din bağlarını qoparacaqlar. Bu gün uzaqda deyildir, biz o günü gözləyirik O günü millətlərə ümummason qardaşlığı bağışlar. Bu istiqbalın idealıdır. Məqsədimiz ümumdünya qardaşlığı şərəfini yaxşılaşdırmaqdır. Eyni konqresdə farmasonların hədəfi Allahsız və dinsiz bir hökumət meydana gətirmək olduğu söylənilmişdir.

Parisdə 1890-cı ildə toplanan ikinci beynəlmiləl mason konqresi «dinsiz və Allahsız» bir dünya cəmiyyəti fikri ətrafında toplaşdılar.

## Masonların yaxın hədəfləri

«Masonluq öz fikirlərini kollektiv şəkildə yayaraq məmləkətləri fikirlərlə istila edən və zahiri dünyaya qarşı dinsiz bir cəmiyyətdir. Məqsədimiz fikirlərimizi xalqın geniş kütlələrinə aşılamaqdır. Fikirlərimizin mənimsənildiyini gördükdə böyük sevinc duyardıq» **(Böyük Şərq Konventi, 1992, s.349).**

«Masonluq siyasi partiyaların xidmətçisi deyil, əfəndisidir» **(La respublika masonikue, 30 aprel 1882).**

«On il sonra masonluq hər şeyi özünə tabe edəcək və onun ordusu xilafına heç kimsə bir təşəbbüsdə olmayacaqdır» **(Fransa Böyük Şərq bülleteni, 1890, s.500).**

«Masonluğun mövcudiyyətindən məqsəd keçmişin müstəbid cəmiyyətlərinə qarşı mübarizədir. Bu məqsəd üçün masonlar ön cərgədə çarpışırlar. Çünki masonluq din və ənənə əleyhinə olan yeganə təşkilatdır» **(«Akasya» məcmuəsi, 1902, s.8).**

«Masonların siyasi rollarının başlıcası dinlə mübarizə və layiq bilinən dövlətdə demokratiyanı müdafiə etməkdən ibarətdir. Bu məqsədlə vicdanı və əxlaqı bir tərəfə buraxaraq terror qəbul edilir… vəziyyətə və mühitə uyğun praktiki iş görülməlidir» **(«Akasya» məcmuəsi, 1904, s.256).**

## Məzhəblər

Bütövlükdə XIX əsrdə masonluğun yayılmasına kömək edən ən böyük amil hər kəs tərəfindən insaniyyətin ən ali fikir məhsulu sayılan və hər kəs

tərəfindən mənimsənən «liberalizm»dir. Liberalizmin müvəffəqiyyəti və geniş bir surətdə yayılması masonluğun sonradan atacağı addımlara köməyi olmuşdur. Çünki liberalizmdən sonra ortaya atılan müsbət, elmçilik, insaniyyətçilik, rasionalizm, maddəçilik, təbiətçilik, determinizm, skiptizm (yəni heç bir şeyə inanmamaq), pesimizm və sosializm kimi məzhəblər hər tərəfdən ilahi fikirlər kimi həyəcanla qarşılanırdı.

Qiymətsiz liberalizm hər şeydən əvvəl hürriyyətə qovuşmaq üçün elmi özünə vasitə etmişdir. Elmə korkoranə xidmət nəticədə batil etiqad şəklini almışdır. Elm hər şeyə qadirdir deyə, ona hüdudsuz qiymət verilmişdir. Bütün dünyanın sirləri və möcüzə açarları elmin əlində təsəvvür edilirdi. Elm farmason nəzəriyyələrinin təlqini ilə ziyalı zümrələrdə yeni bir din şəklini almışdır. Mədəniyyət dindən nə qədər uzaq olursa, o qədər qiyməti yüksəkdir. İstiqlal elmindir **(A.le Febre. De Reliqion, s.573).**

Böyük Şərq lojası 1904-cü il tarixli bəyannaməsində göstərir ki, masonluq yalnız elmi tədqiqat və ağıl sayəsində vücuda gələn həqiqətə inanır. Hər müstəqil fikir masonların nəzəriyyəsinə uymadığı və masonlara xidmət etmədiyi təqdirdə dəhşətli bir tənqid, dedi-qodu və düşmənçilik peyda olurdu. Bu xüsusda böyük rus ədibləri **Qoqol** və **Dostoyevski** yazıları ilə tamamilə masonluqdan ayrı fikirləri irəli sürdüklərindən şiddətli hücuma məruz qalmış və hətta bunlara dəli də deyilmişdir.

Kommunizm və beynəlmiləlçilik əsasən masonluqdan doğmuşdur. Çünki bunların yaradıcıları **K.Marks** və **F.Engels** İngiltərə Lojasının 31-ci dərəcəli masonu olmaqla bərabər eynilə də gizli mason cəmiyyətlərinin başçıları idilər. Əsasən bu gizli cəmiyyətin təbliğatı və qayələrinin nəticəsi olaraq onların məşhur **«Kommunist bəyannaməsi»** kitabı vücuda gəlmişdir. Alman mason jurnalı «**La Tokia**» 1894-cü il 12 iyul tarixli sayında sosializmin əhəmiyyətini belə açıqlayırdı: «Bəşəriyyətin rifah və yüksəlişi yolunda masonluq sosializmi çox yaxşı bir yardımçı olaraq tapmışdır. Sosializmə hər növ yardım etməliyik» **(Böyük Şərq bəyannaməsi, 1904, s.237).**

## Masonluq və din

«Heç bir ziyalı insan və təbiət elmini azacıq anlayan bir kimsə nə möcüzə, nə də qüdrətli ilahiyyəyə inana bilir. Hürriyyət, ağıl, tərəqqi və həqiqi insanlığa yeganə yol inamsızlıqdır» **(Büxnerin «Derqat Beqrif» əsərindən).**

«Allahsızlıq dünya qəhrəmanlarının və bəşəriyyətin ən şanlı ünvanlarından biridir. Heç bir fəlsəfə və heç bir din bəşəriyyətə Allah

haqqında müqayisə edəcək bir həqiqəti bağışlamamalıdır. …Var olsunlar bu ön cərgələrdə çarpışan tərəqqipərvər mübarizlər və yer üzünü islah etmək məqsədilə səmaları unudanlarla insanı düşünərək Allahı unudanlar» **(Anni Bezantin The Gespel of Atheism, London, 1882, s.7).**

«Hər insanda vicdan azadlığını enerji tərzdə qüvvətləndirəcəyik. Bəşəriyyətin həqiqi düşməni olan bütün dinlərə tərəddüdsüz müharibə edəcəyik. Bütün əsrlər boyunca bu dinlər millətlər və xalq kütlələrinin aralarındakı münasibətləri pozmuşdular.

İşgüzarlıqla günün birində dinlərin kəfənləri olacaq qumaşı tezliklə hazırlayacağıq. Beləcə dinlər sayəsində batil etiqadlar və din xadimlərinin bütün dünyada yox edilməsinə müvəffəq olacağıq» **(Böyük Mason Lojası, 1923, s.198).**

«Unutmayaq ki, biz masonlar din düşməniyik. Biz lojalarımızda bütün qeyrətlərimizi göstərərək dinin hər növ təzahür şəklini məhv edəcəyik» **(Belfort mason konqresi protokolları, 1911).**

## Farmasonluğun insaniyyət məzhəbi

«Biz artıq Allahı həyat qayəsi olaraq tanımayacağıq. Biz bir qayə yaratdıq, o qayə Allah deyil, Bəşəriyyətdir» (Böyük Şərq protokolları, 1913).

«Masonluq insanı ağıllı, şərəfli, müdrik, insanlığısevər olaraq yetişdirməlidir. Daha doğrusu, insan özünün Allahı, hökmdarı və rəisi olmalıdır» **(Revista della massoneria İtalyana, c.19, s.78).**

«Hər həqiqət insanın özündən doğur. Bax bu həqiqəti mühafizə etməyimiz lazımdır. Belə ki, əgər həqiqətən Allah gözlə görüləcək bir şəkil alaraq yerə enmiş olsa idi, insanın birinci vəzifəsi ona itaət etməmək, onu hər kəs kimi özünə bərabər saymaq deyil, onunla müstəbid bir təbəsi kimi danışmaq lazımdır. Dinsizlik məzhəbimizin gözəlliyi, böyüklüyü və əsası da bundadır» (Jean Joures, 1895, s.345).

«İnsan təbiətin və əxlaqın qanunlarını Allahın köməyilə möhtac olmadan ödəyir» **(Farmason yüksək məclisi protokolları, № 31, s.79).**

«Din əxlaqı ilə rəqabət edəcək bir əxlaq yaratmaq lazımdır» **(Böyük Şərq direktivləri, 1913).**

«Dindarlara və məbədlərə qələbə çalmaq kafi deyildir. Əsl məqsədimiz dinləri yox etməkdir» (Beynəlmiləl mason konqresi protokolları, 1900, s.102).

«Farmason məsələsi dinin yerini, lojalar da məbədlərin yerini tutacaqdır» **(Sinbolisme, yanvar, 1922, s.23).**

## Farmasonluq və dövlət

«Dövlətə xidmət edən məmurlar masonluğun düşmənidir. Çünki dövlət hakimiyyəti dindən daha müstəbiddir» **(«Akasya», 1903, s.861).**

«Hökumət təşkil edən şəxsiyyətlər ya mason qardaşlardan olacaq, yaxud da bu vəzifədən məhrum olacaqdırlar» **(Lammi).**

«Biz daima deputat seçkisinə çox əhəmiyyət veririk. Deputatlar tam qüvvəyə malik olmasalar da, bunların arxasında əsasən mason olan məmurlar durur» **(Böyük Şərq direktivləri, 1893, s.347).**

«Bütün siyasi münasibətlər bu gün təbiətilə masonların əlindədir» **(Böyük Şərq Lojasının Baş Şurası, 1888).**

## Masonluq və demokratiya

Böyük Şərq Lojasının nizamnaməsində deyilir ki, varlı və var-dövlət sahibi olmayan kimsəyə masonluqda böyük vəzifə verilməz. Masonluğa üzvlük haqqı verməyə iqtidarı olmayanlar cəmiyyətə daxil ola bilməzlər (maddə 128).

«İstər onu təşkil edən mühit etibarilə, istərsə də onun məsrəfini təmin edən ünsürləri etibarilə masonluq varlıların cəmiyyətidir» **(Revde masoniküde, 1897, s.207).**

«Masonluq demokratiya mahiyyətində görünməlidir» **(Revista della masonika, 1892, s.221).**

«1789-cu il inqilabını hazırlayan farmasonluq indi də sosializm inqilabını (yəni kommunizmi) hazırlamalıdır. Masonlarla ziyalı qüvvəsi və köməkçi qabiliyyət vasitələri vardır ki, bunların bir araya gəlməsi ictimai inqilabı vücuda gətirir» **(«Akasya», 1903, s.164).**

«Farmasonların və işçilərin birləşməsi gerçəkləşdikdən sonra biz məğlubedilməz bir ordu təşkil edəcəyik» **(Brüksel beynəlmiləl mason konqresi, 110, s.15).**

«Farmasonlar öz mühitinə üzvü xalqdan seçərlər. Ancaq masonluğa girən artıq xalqdan deyildir» **(«Akasya», 1904, s.194).**

«Heç bir siyasi, dini və mədəni qanun yoxdur ki, mason konventi tərəfindən tənzim edilmiş olmasın» **(Nansi universiteti bülleteni, 1903).**

«Böyük Şərqin 140 lojası Fransada yayılan nurun məbədləridir. Minlərlə vətəndaş bu lojalara gəlib öz həyati məsələlərini müzakirə edərlər

və orada hazırlanan fikirləri qəzetlərdə və siyasi komitələrdə müdafiə edərlər. Beləliklə, ümumi fikirlər hazırlanır və seçkilərə təsir edilir. Nəticədə özümüzünkü olan parlament, – bizim arzumuzla işləyir. Bu, masonluğun oyunudur və demokratik rejimlərdə daima belə olmalıdır.

Ataların daima uşaqlarına qarşı olan haqlarından bəhs edilməkdədir, ancaq zənn edirik ki, atanın ailəyə qarşı sahib olduğu haqq ancaq cəmiyyət tərəfindən müəyyən edilmiş bir vəkalət ola bilir (tam mənasıyla kommunizm)». **(Böyük Şərq Konventi, 1802, s.221).**

## Farmasonluq və ordu

«İnsanlıq naminə əsgər ruhunu məhv edin, intizam yerində də insan heysiyyatını göstərin. Masonluğun idealına görə orduda intizamı məhv etmək və daimi ordu yerinə milis göstərilməlidir» **(Farmason. Qabr Saulakroiks).**

«Daimi ordu azadlıq və demokratiya üçün əbədi təhlükədir. İndi hökumət çevrilişlərinin mümkünsüzlüyündən bəhs edirlər, ancaq bunu nə ilə isbat edəcəksiniz?» **(«Akasya», 1904, s.374).**

«Hökumət çevrilişləri yalnız yaşlı əsgərlərin köməyi ilə ola bilir… Onların əmrlərinə alət ola biləcək ordu bizə lazım deyildir» **(Konvent, 1903, s.142).**

1903-cü ildə farmasonlar tərəfindən N.X. imzası ilə bir kitab nəşr edilərək bütün farmason lojalarına göndərilmişdir. Bu kitab masonların tədricən orduya necə hakim olacaqlarını göstərir. Bu planın başlıca nöqtələri bunlardır:

1. Müdafiə naziri vəzifəsinə mütləq mülki bir şəxs gətirilməlidir.
2. Ordunun hərəkəti mülki bir vəzifəyə tabe olmalıdır.
3. Kiçik rütbəli zabitlər də daxil olmaqla, bir növ yerdəyişmə və təyinat milli müdafiə naziri tərəfindən həyata keçirilməlidir.
4. Zabitlər mühitində silah qardaşlığı ruhunu öldürməli və zabit ünvanının imtiyazını aradan qaldıraraq sadə vətəndaş səviyyəsinə endirməli.
5. Zabitlərin evlənmək üçün icazə almaları və dini mərasimdə əksəriyyət təşkil etmələri, hərbi bayraqlarla ənənəvi bayram keçirmələri yasaq edilməlidir.

## Farmasonluq və beynəlmiləlçilik

«Dünya üzərindəki bütün ibadətçilər tərəfindən hər il keçirilən «Məslək Bayramı» vasitəsilə masonların bir yerə toplanması onların arasındakı birliyin təzələnməsinə yarayır. Bu bayram bunu da ifadə edir ki, keçmişdə olduğu kimi, gələcəkdə də məsləkimizin bütün müsbət təmayülləri birdir» **(Böyük Şərq, 1934, № 16, s.31).**

«Bəşəriyyətin təkmil ehtiyaclarını ödəyəcək və təmin edəcək yeganə təşkilat masonluqdur. Masonluq beynəlmiləl bir hərəkat olaraq millətlər arasında daimi bir sülh təsis edəcəkdir» **(Böyük Şərq Konventi, 1923, s.410).**

## Farmasonluq və iqtisadi siyasət

«Həyat davam etdikcə kapitalistlər və fəhlələr arasındakı münasibətlər mübarizə şəklini almaqdadır. Farmasonluq bu mübarizədə iki tərəfdən birini əzmkaranə bir şəkildə seçməlidir» **(Böyük Şərq Konventi, 1923, s.285).**

«Sənayenin milliləşdirilməsinə hər vasitə ilə baş vuraraq çalışmaq lazımdır» **(Böyük Şərq Konventi, 1923, s.99)**

«Böyük Şərq lojası ilk addım olaraq mövcud bütün müəssisələrin dərhal milliləşdirilməsini təklif edir.

Bu birinci mərhələnin hökmən tətbiqi bir təcrübə mahiyyətində olaraq demokratiyanın qayəsi olan ümumi milliləşdirmənin (yəni kommunizmin) şərtlərini hazırlayacaqdır» **(Böyük Şərq Lojasının direktivləri, 1923, s.233).**

«Farmasonlar miras və hədiyyələrin aradan qaldırılmasını təklif edirlər» **(Böyük Loja, 1923, s.83).**

«Lojalar məcburi işləmə üsulunun mümkün olduğu qədər gerçəkləşməsini müdafiə edəcəkdirlər. Unutmamalıyıq ki, məcburi işləmə ilə mirasın ləğvi arasında sıx bağlar mövcuddur» **(Böyük Loja protokolları, 1923, s.83).**

## Farmasonluq və yəhudilər

«Azad masonlar yəhudilərin dünya hakimiyyəti planını əsas tutaraq çalışırlar» **(Azad masonluq tarixi, s.8).**

«Farmasonluq yəhudi düşmənliyindən uzaqdır. Yəhudilər bərabər haqqlarla lojalara girməkdə sərbəstdirlər» **(«Akasya», 1908, s.98).**

«Yəhudisiz heç bir mason lojası yoxdur. Yəhudi sinaqoqlarında heç bir məzhəb mövcud deyildir. Orada farmasonlarda olduğu kimi, yalnız simvollar vardır. Buna görə, İsrail məbədi bizim təbii müttəfiqlərimizdir və bu səbəblərdir ki, masonlar arasında geniş miqdarda yəhudilər vardır» **(«Akasya», 1908, № 62).**

Çox yaxşı başa düşürlər ki, dini məhv etmək üçün ən yaxşı vasitə farmasonluqdur.

Mason tarixi də tamamilə yəhudilərinki kimi dünyanın quruluşuna dayanan beş min ilə yaxın mövcudiyyətə bağlıdır. Bunların simvolu beşguşəli **Davidin** ulduzu olduğu kimi özlərinin də **Solomon məbədinin** vücuda gətirmələrinin mənəvi övladları sayırlar.

Digər din və millətlərin etiqadını saxtalaşdıran və təhqir edən masonluq yəhudiliyin üstünlük və müvəffəqiyyətinə yol açmaqdadır.

«Yəhudilər digər millətlərin saflıqlarından istifadə edərək bütün dünyada geniş miqyasda yer tutan farmasonluğa girib orada imtiyazlı vəzifələri ələ keçirmişdir. Farmasonluq yəhudilər üçün siyasi, ictimai və mədəni həyatın müxtəlif sahələrinin inkişafında iştirak etməsində böyük bir vasitə olmuşdur. İlk masonlarda yəhudi yox idisə də, XVIII əsrdən sonra yəhudilər masonluğa girməyə və orada müstəsna vəzifələri ələ keçirməyə müvəffəq olmuşdular. Bu gün bütün dünyada yəhudilərin enerjili və çalışan hissəsi mason qardaşlar sifəti ilə lojalara yəhudi ruhu təlqin edib masonluğu öz qayələri üçün alət etmişdilər» **(Arkhive İsraelite, 12 mart, 1904).**

Masonluğa dair aparılan tədqiqatlardan anlaşılır ki, hər mason lojasında eyni zamanda gizli yəhudi təşkilatına mənsub mütləq bir neçə fəal və nüfuzlu yəhudi vardır. Bunların vəzifəsi müxtəlif lojaların çalışmalarını mərkəzləşdirmək və bunların istiqamətlərini yəhudilərin ümumi qayələrinə görə tənzim etməkdir. 1844-cü ildə Bünyaen İsrail adlı məşhur ingilis dövlət xadimi **«Dünyanı idarə edənlər görünüşdə iqtidar vəzifələrdə hökm sürənlər deyil, pərdələrin arxasında olanlardır»** demişdir. 1850-ci ildə Fransa kralı **III Napoleon «özümüzü aldatmayaq. Dünya gizli təşkilatlar tərəfindən idarə edilməkdədir»** demişdir.

Müxtəlif adlar altında olmalarına baxmayaraq, yəhudilər arasında çox əski zamanlardan bəri daima gizli qardaşlıq cəmiyyəti mövcuddur. Bunlar daima partiya birliyində çalışırlar.

Onların olduqları məmləkətin ictimai həyatına, əxlaqına təsirləri çox böyükdür. Əslində dünyanın bütün yəhudilərini süni bağlarla bağlayıb qüvvətli və məğlubedilməz bir şəklə gətirən bu təşkilatdır. Zəmanəmizin bütün siyasətinə ən qüvvətli təsir edən bu təşkilatın mərkəzi Parisdə olan

Alyans Universal İsraelt (yəni Ümumdünya Yəhudi İttifaqı) və mərkəzi Nyu-Yorkda olan Bneberit Cəmiyyətidir.

Alyans İsraelitin başçısı olan məşhur fransız siyasi xadimi və məşhur, nüfuzlu farmason qardaş **Adolf İsak Bremme** 1860-cı ildə Alyansın açılış mərasimində söylədiyi nitqində:

*«Bizim yaratmaq istədiyimiz ittifaq nə Fransa, nə İngiltərə, nə isveçrə və nə də Almaniyadır... yəhudidir və bütün cahana şamildir. Yəhudi məfkurəsi dünyanı doldurmalıdır. İşimiz böyükdür, müqəddəsdir və onun müvəffəqiyyəti şübhəsizdir.*

*İsrail oğulları ətrafından dünyaya uzanan bağ gündən-günə inkişaf etməkdədir. Müqəddəs kitablarımızın müjdələri gerçəkləşəcəkdir. Hər fürsətdən istifadə etməyimiz lazımdır. Heç bir şeydən qorxumuz yoxdur. Bütün dünyanın sərvəti İsrail oğullarına mülk olacağı gün uzaq deyildir»* demişdir.

Yəhudi təşkilatı içində müstəqil Bneberit təşkilatı əsas yer tutur. Bu cəmiyyət 1843-cü ildə Nyu-Yorkda qurulmuş və Avropa ilə Şərqdə lap çoxlu lojalarla təmsil edilən və bu gün də Amerikanın ən qüvvətli yəhudi təşkilatıdır. Eynşteyn tərəfindən təmsil edilən London lojası son zamanlarda çox böyük fəaliyyətlər göstərmişdir **(Tribunade Jdif, 1921, № 61).**

Dünyada heç bir şeydən qorxmayan və məğlub olmasına imkan olmayan bir imperializm varsa, o da bizim səltənətimizdir.

## Stefan Nayt
# «QARDAŞLIQ» MASONLUĞUN GİZLİ DÜNYASI
İstanbul, 1990

*Dünya mətbuat orqanlarında 1950-ci ildən bəri XVIII əsrdə İngiltərədə meydana gəlmiş gizli dini-fəlsəfi təşkilat - cərəyan olan masonluq (farmasonluq) haqqında müxtəlif dillərdə on minlərlə kitablar, qəzet və jurnal məqalələri çap olunmuşdur. Bütün bu çap olunmuş materiallar əsasında belə bir qənaətə gəlmək olur ki, yarandığı gündən bu günədək masonluq Amerikada vətəndaş müharibəsinin, İngiltərədə, Fransada, Rusiyada və başqa ölkələrdəki burjua inqilablarının, dövlət çevrilişlərinin, Birinci və İkinci Dünya müharibələrinin başlanmasında və nəticələrin necə olmasından asılı olmayaraq, başa çatmasında fəal, aparıcı rol oynamışdır.*

*Biz bu beynəlxalq gizli təşkilat haqqında 1983-cü ildə ingilis dilində Londonda çap olunmuş kitabın 1990-cı ildə İstanbulda Kamal Çiftçi tərəfindən türk dilinə tərcümə edilmiş (**Stefan Nayt. «Qardaşlıq», Masonların Gizli Dünyası**) nəşrindən müəyyən hadisələri oxuculara təqdim edirik. 300 səhifəlik kitab 6 ölmədən (I – İşçi lojasından gizli cəmiyyətə; 2 – Polis; 3 – Bağlı qapılar arxasında; 4 – Adlı sistem; 5 – Dünyəvi və mənəvi güclər; 6 – DTK* ilə əlaqə) ibarətdir. «DTK ilə əlaqə» bölməsi xüsusilə maraqlıdır. Burada DTK-nın Avropa qitəsindəki agenturasının buradakı masonlarla qurduğu iş birliyindən bəhs edilir.*

***Stefan Nayt** bu kitabı yazmaq üçün materiallar toplayanda da, onu çap etdirəndə də masonların ciddi təzyiqlərinə məruz qalmışdır. Ancaq o bütün bu təzyiq və müqavimətlərə baxmayaraq, qarşısında qoyduğu işi başa çatdıra bilmişdir.*

**Tərtibçilər**

* DTK-Dövlət Təhlükəsizlik Komitəsi

# BİRİNCİ BÖLMƏ

## İŞÇİ LOJASINDAN GİZLİ CƏMİYYƏTƏ

### III. Tarixçəsi

Bəzi masonlar masonluğun çox əski bir keçmişə malik olduğunu iddia edirlər. Masonik təqvimlər masonluğun meydana gəlməsini miladdan əvvəl 4004-cü ili göstərməklə XVII əsr yepiskoplarının hesablarını əsas tutmuşdular. Beləcə masonluğun meydana gəlməsini miladdan 4000 il əvvələ çəkmək adət halını almışdır. Masonların üzvlük sənədlərində, məsələn, 1983-cü il. A.S.5983 olaraq göstərilir. Bundan məqsəd masonluğun **Hz. Adəmlə** yaşıd olduğunu bildirməkdir.

XVIII və XIX əsr mason yazarları kitablarda masonluq hərəkatının yüzlərlə, hətta minlərlə il öncə başladığını təkidlə bildirməyə çalışırlar. Bəziləri mason atalarının Kelt rahibləri və ya Kelt sehrbazları olduğunu, bəziləri də yalnız yəhudi ola biləcəyini iddia edirlər. Masonların orijinalını qədim misirlilərin dini olan təkallahlı **İkhnaton ilə İsis – Osiris** kultlarına bağlayanlar da var.

Müasir mason tarixçiləri bu xüsusda daha diqqətlidirlər. Onlara görə bugünkü təşkilatın keçmişini üç əsrdən bir az daha əskiyə götürə bilərik. Həqiqi olan bir şey varsa, o da masonluğun təcrübəyə əsaslanmayan ünsürlərini təşkil edən fəlsəfi, dini və ritual uydurmaların dəyişik mənbələrdən alındığını, İsis-Osiris kimi miflərin alınışında tarixin başlanğıcına qədər enilməsidir. Rosicrucianizm, Gnoktisiya, Kabbala, Hinduizm və bir çox dini, fəlsəfi kultlardan qalma adətlərin və ənənələrin az da olsa masonluqda yeri vardır. 1950-ci ildən bu yana hansısa bir kitabda göstərildiyi kimi, masonluq haqqında çap olunmuş 50.000 kitabın olmasına baxmayaraq, masonluğun harada, nə formada və nə zaman meydana gəldiyini təsbit etmək mümkün deyildir. Bu səbəblə də masonların nəyə inandıqları haqqında təsirli açıqlamaya heç bir yerdə rast gələ bilməzsiniz. Hətta masonluq iddialarını daha çox aydınlaşdırmaq imkanı olan 33-cü dərəcəli mason da masonluq məktubunu və masonluqla bağlı simvolizmin anlamını açıq anlada bilməz. Onun da bütün anladıqları şəxsi görüşlərindən ibarət subyektiv olaraq qalır.

Əldəki hüdudsuz və kifayət qədər olan məlumatlara baxmayaraq, masonluğun quruluş səhifəsi yenə də qeyri-adi bir hadisədir. Bu, əslində, bir neçə inşaat işçisindən ibarət katolik işçi lojalarının istehsalatla əlaqəsi

olmayan, nisbətən soylu məslək sahibləri və aristokratlar tərəfindən necə əldə edildiyinin, kommunist dünyasının xaricində milyonlarla tərəfdarları ilə qol-budaq salmış «**Qardaşlıq**» cəmiyyətləri halında necə xristianlıqdan xaric gizli bir təşkilata çevrilməsinin hekayəsidir.

Bütün dövrlərdə və bir çox cəmiyyətlərdə insanlar daima gizli və sirli hadisələrə maraq göstərmişdilər. Onlarda həmişə belə bir təsəvvür olmuşdur ki, təbiətə və sosial varlıqlara dair həqiqətlər hansısa gizli əllərdədir və bu sirlər ancaq xüsusi metodlarla nəsildən-nəslə ötürülür. Yüksək dərəcəli bir masonun mənə söylədiyi kimi **«Həqiqət hər kəsə deyil, sədaqətlikləri qəbul olunmuşlara söylənilir. İncilər donuzun qabağına atılmamalıdır».** İnsanlar yüksəlmək üçün tarix boyunca daima gizli qruplar halında birləşmişdilər. Qorxulu and mərasimi və bu anda sədaqət yuxarıda göstərdiyimiz gizli qrupları bağlayan bir ünsürdür. Sirlərin gizli qalması üçün daima müəyyən bir mətanətliliyə ehtiyac vardır. Əsasən praktik nəticələr əldə etmək üçün qurulmuş gizli cəmiyyətlər müştərək dini və əxlaqi ünsürləri diqqət mərkəzində saxlayır. Dini ünsürlər sirri saxlamaq üçün içilən anda sədaqətə qorxu ilə qarışıq bir hörmət saxlayar. Əxlaqi ünsür isə gizli cəmiyyət mənsubları arasındakı əlaqəni möhkəmləndirir.

Masonluq fəlsəfi, hətta dini və mistik bir sistem olduğu qədər, bir-birilərinə maddi mənfəət baxımından yardım üçün təşkilatlanmış bir cəmiyyətdir. Bəzi masonlar masonluğu bir din olaraq qəbul edir, bəziləri də maddi mənfəət mənbəyi olaraq görür. Onların əksəriyyəti bu iki düşüncəni birləşdirərək mənimsəyir.

Orta əsrdəki xristian bənna lojalarının yarı dini, yarı dünyəvi bir təşkilata çevrilə biləcəyi fikrini ilk olaraq kimlər tərəfindən ortaya atıldığını mason tarixçilər də bilməməkdədirlər. Görünür, bu inkişaf yavaş-yavaş və bir təsadüflə başlamış, daha sonralar isə işçi lojalarının gizli, qeyri-leqal mərkəz olaraq potensial bir qüvvə olduğu sezilmişdir. Bu lojaların gizli və qeyri-leqal olması xüsusiyyəti aristokratların da marağına səbəb olmuş və bu cəmiyyətlərə girməyə başlamışlar.

Aristokratların və kübar məslək sahiblərinin bu işçi lojaları ilə maraqlanmaları üçün bir neçə səbəb vardır: Birincisi, fəal olan işçi lojaları ilə asanlıqla dil tapılmışdı, çünki XIII əsrdə ən parlaq dövrünü yaşayan Qotik memarlığı XVI əsrin sonlarına doğru məslək olaraq zəifləyirdi. Kembricdəki **Kinqs Kolleqe** saatı ingilis Qotik memarlığının 1512-ci ildə tamamlanan ən son nümunəsi idi. İkincisi, Qotik dövrünün ən yaxşı yetişmiş usta bənnaları gah burada, gah orada çalışan, bu kilsə mənim, o kilsə sənin harada iş tapırlarsa, oraya gedən səyyar işçilərdir. O biri lojalar kimi müəyyən bir qərargahları olmayıb və bu səbəbdən də bir-birilərini tanımaları çətinləşirdi.

Həm bir-birilərini tanımaq, həm də yüksək məslək sirlərini keçirdikləri çətin və yorucu çıraqlıq dövrünü açıq gözlərdən qorumaq üçün sadəcə olaraq öz aralarında müvəqqəti olan bir neçə işarələrlə bir-birilərinin tanıma üsullarına və qapalı bir çalışma mühitinə girmişdilər. Qotik memarlığı yerini Barok memarlıq üslubuna verincə, bənna lojalarının bu gizli və qeyri-leqal çalışma və tanınma metodları oxumuş ziyalıları da özünə cəlb edirdi.

Müasir masonluğun Şotlandiyadan qaynaqlandığı ehtimal olunur. Masonluğa aid olan ədəbiyyatlarla bənna olmayaraq işçi lojalarına girən ilk mason 1666?-cı ildə Edinburq lojasında yazılı üzv olan Ouşinleş lordu **Con Bosneld** olduğu göstərilir. Bundan başqa ədəbiyyatlarda göstərilir ki, ingilis lojasına girən ilk ingilis də Oksford Aşmodan muzeyinin yaradıcısı **Elias Aşmols** adında bir masondur. Antik əşyalara marağı olan və hədsiz Rosicrucianist olan Aşmolsın bir lojaya giriş tarixi 1670-ci ilə təsadüf edilir. XVII əsrin sonlarına doğru bu lojalarda bənna olmayan oxumuş masonlar artıq çoxluğu əldə etmişdilər. 1670-ci ildə Aberdesi lojasında bənna olmayanların sayı 39-a çatdığı halda bənnaların sayı 10 nəfər olmuşdur. Beləliklə çox keçmədən çoxluğu ələ keçirən cənablar azlıqda qalan əski ustaları da bir tərəfə buraxaraq sadəcə olaraq özlərinə məxsus lojalar quraraq, azad masonluğun (farmasonluğun) təməllərini qoyurlar.

## Masonluğun xarici ölkələrə yayılması

İrlandiya Böyük Lojası 1725-ci ildə, Şotlandiya Böyük Lojası isə bir il sonra quruldu. Məlum olduğu kimi, bu hərəkat XVIII əsrin ilk 30 ilində Avropa qitəsində yüksək təbəqəli insanlar arasında sürətlə yayılmışdı. Prussiya kralı **Böyük Fridrixin** 1738-ci ildə masonlaşdırıldığı iddia edilir. Məşhur şəxsiyyətlərin üzv olduğuna dair mason iddialarını ehtiyatla qarşılamaq lazımdır. Məsələn, qardaş olduğu iddia edilən **Xristofer Brenin** üzv olmasına dair heç bir tutarlı dəlil əldə edilməmişdir. Dinsiz bir tanrı anlayışını (deizm) mənimsəyən masonluq, inqilabdan əvvəl Fransada azad fikirli ziyalılar arasında sürətlə yayılan bir cərəyandır.

Masonluğun nüfuzu bu gün də Fransada və Almaniyada güclüdür. Bugünkü fransız Böyük Ustadı indiki respublika prezidentinin qardaşı olan aviasiya generalı **Jakkües Mitterandır**. Ümumiyyətlə, masonluğun Fransada qüvvətli bir nüfuzu vardır. Prezident **Mitteran** 1981-ci il seçkilərindəki müvəffəqiyyətində masonlara çox şey borcludur. Masonlar son 70 il ərzində sosialistlərlə dəfələrlə birgə fəaliyyət göstərmişdilər. 1971-1973-cü illərdə Fransa Böyük Şərq Lojasının Böyük Ustadı olan **Fred Zel-**

**lerə** görə sosialistlər prezidentlik seçkilərini udmaq üçün mason olmayan, ancaq masonlarla gizli əməkdaşlıq edən **Valeri Jiskar d'Esterini** müdafiə etmənin fransız masonlarının xeyrinə olacağını irəli sürərək qardaşları əmin etmişdilər. Həmçinin eyni illərdə seçkilərdən sonra **Jiskar d'Esterin** Parisdəki Franklin Ruzvelt Lojasında masonluğa qəbul edilmişdir.

İtaliyada masonluq 1735-ci ildə sürgündə olan Yakubilər tərəfindən qurulmuş və 1750-ci illərdə nüfuzlu bir hala gəlmişdir. Masonluğun katolik rahiblər arasında yayılması papalığın masonluğu yenidən ittiham etməsinə səbəb olmuşdur.

Artıq Avropa qitəsində masonluğun nüfuz dairəsindən xaricdə heç bir yer qalmamışdır. XVIII əsrdə Hollandiyada, İsveçrə və İsveçdə nüfuzlu lojalar qurulmuşdur. Artıq masonluq Rusiyada da yayılmağa başlamışdır. **L.Tolstoy «Hərb və Sülh»** romanında **Napoleonun** apardığı müharibələr boyunca yuxarı dairələrdəki masonların oynadığı müxtəlif rolları aydın təsvir edir.

**Corc Vaşinqtonun** 1752-ci ildə masonlaşdırılması ilə birlikdə masonluq erkən bir tarixdə Atlantik okeanını da aşaraq əski imperiyanın müstəmləkələrinə də yayılmış oldu. Bugünkü dollar banknotu yalnız **C.Vaşinqtonun** rəsmini deyil, masonluğun simvolu olan **«hər şeyi görən göz»**ü də üstündə daşıyır. **C.Vaşinqton** yeni qurulmuş Birləşmiş Ştatlarda masonluğun ümumi baş qərargahı və mərkəzi olmasını rədd etdi. Bu səbəbdən də Amerika masonluğu əyalətlər daxilində təşkil edilmiş oldu. Bu gün hər bir əyalət özü müstəqil Böyük Lojaya sahibdir. Royal Arch birləşmələri də o əyalətlərdəki Böyük Sapitreyə bağlıdır. İlk Royal Arch Sapimrinin 1753-cü ildə Virginyada qurulduğu sənədlərdən anlaşılır. Əyalətdəki lojaların çox az bir hissəsi Londondakı lojalara bağlı qalmışlar. İki-üç əyaləti çıxmaqla həmin bütün lojalar London lojalarının idarəsindən xilas olmuşdular. Bununla bərabər, Londona bağlı olan lojalar da masonluğu xarici ölkələrə keçirməklə məşğul olmuşdular. Məsələn, İkinci Dünya müharibəsindən əvvəl Massaçusetsin Baş Lojasına bağlı Çində bir loja qurulmuşdur. 1749-cu ildə Kanada lojasının quruluş sxemi də bu Baş loja tərəfindən verilmişdir.

Masonluğun Amerika Birləşmiş Ştatlarında daha çox yayılmasına çalışılırdı. Müstəqillik Bəyannaməsini imzalayan, 8 səlahiyyətli şəxs: **Benjamin Frtnklin, Cohn Hancock, Jozeph Hewes, Villiam Heoper, Robert Treat Payne, Riçhard Stockton, George Walton** və **William Whipple** sadiq masonlardan idilər. Digər 24 nəfərin mason olduqları isə yalnız iddia edilir. Amerika prezidentlərindən 17-nin də mason olduğu qətidir: **Vaşinqton, Medison, Monroy, Cekson, Polk, Bukhanan, Andreu,**

**Conson, Qerorayld, Kinley, hər iki Ruzvelt, Taft, Hardinq, Trumen, Lyidon Conson, Cerald Ford və Ronald Reyqan.** Həmçinin bu 17 prezidentin müavininin də mason olması həqiqi faktdır. Bunlar arasında **Hubert Humphrey** və **Adlai Stevenson** da var.

Masonluğun qurucuları olan britaniyalılar XIX və XX əsrlərdə boyunca yenə bu hərəkatın ən güclü təbliğatçıları olaraq qaldılar. 1860-cı ildən sonra əvvəl iranlılardan, sonra hindlilərdən bir qrup Qardaşlıq cəmiyyətinə qəbul edildilər. İngilis Qərbi Afrikasında və Antil dənizindəki adalarda ağ lojalar olduğu qədər zənci lojaları (tamamilə Amerikada olduğu kimi), hətta qarışıq, yəni zənci – ağ lojalar da qurulmuşdur.

Orta və yüksək təbəqənin qarşılıqlı maraqlarını ön planda tutan gizli bir cəmiyyətdə, yerlilərin ağ liderlərlə birləşmələri bəzi tarixçilərin qənaətinə görə imperialist güclərə qarşı duyulan kinləri bir xeyli yumşaltmışdır. Hər hansı bir zənci dərisinin rənginə baxmayaraq, masonluğa qəbul edilincə, bir quruluşa bağlı olduğunu hiss edir və rahatlanır.

Masonluq bəsit anlamı ilə cəmiyyət içində sirli bir cəmiyyət yaradan təşkilatdır. Bu baxımdan onların siyasi və sosial sahədəki təsir və nüfuzları ayrı məkan və zamanda bir-birindən çox fərqli ola bilər.

XVIII əsrdə Britaniya masonluğu öz varlıqlarını davam etdirəcək olan qanunu krallığın inkişafını möhkəmləndirmək üçün onu kifayət qədər müdafiə etmişdir.

Masonluq orta siniflər arasında çox yayılmamışdır. Onlar məhəlli çevrələrdə çox rol oynamırdılar. Xalq bu hərəkatı istehza ilə qarşılayırdı. Üstəlik də mason əleyhinə olan nəşrlər də bu ideyaların yayılmasının qarşısını tam olmasa da, müəyyən nisbətdə alırdı.

Ancaq masonluğun əsl cəlbediciliyi bir çox insanın maraq göstərdiyi sıx qardaşlıq anlayışı və üzvlərinə vəd etdiyi dünyəvi mənfəətlərdir. 1813-cü ildəki birləşmədən sonra masonluq hərəkatının yayılması sürətlə artmağa başladı. Hər hansı bir bölgədə və ya hər hansı bir məslək sahəsində masonlar çoxaldıqca, mason olmaq da əhəmiyyətli bir iş halına gəlirdi. Heç kim artıq işində və məslək həyatında qardaşların xaricində qalmaq istəmirdi. Bunlardan başqa bir mühüm faktor da var idi: sənaye dövrünün inkişafı ilə sosial hərəkatlar da artmağa başlamışdır. Masonluq da aşağı, orta təbəqədən kral ailəsinə qədər bir pilləkən kimi dururdu. Dırmaşmağı bilənlər üçün bu hal böyük bir fürsət idi. Nəhayət, bir ingilis cənabının uşağının kübarlığı da ancaq lojanın səmimi pərdəsi altında davam edə bilərdi.

XVIII əsrin sonlarına doğru sadəcə 320 ingilis lojası qurulmuşdur. XIX əsrin ilk yarısında isə lojaların sayı 3 dəfə artaraq 1864-cü ildə 1000 saylı loja qeydə alınmışdır. Oldham millət vəkili **Uinston Leonard Spencer**

**Çörçillin** 60 il sürəcək olan masonluq məsləkinə girişi də eyni tarixə aiddir. XIX əsrdəki bu çoxalmalar orta və sərbəst məslək sahiblərindən qaynaqlanırdılar.

Birinci Dünya müharibəsi dövründə daha yaxşı həyat şərtləri içində yaşayan orta şəraitli insanların masonluğa kütləvi şəkildə qoşulması lojaların sayının birdən-birə artmasına səbəb oldu. Artıq 1919-cu ildə 4000, yeddi ildən sonra – 1926-cı ildə 5000 saylı loja qeydə alınmışdır. Hər lojanı orta hesabla 60 nəfərdən götürsək, İngiltərədə və Qallerdə (Fransada) 600 000 mason ortaya çıxır.

Həqiqətən də istehsalçı olmayan, orta və sərbəst məsləkli təbəqədən seçilən masonların çoxunun Britaniya cəmiyyətində vəkil, memar və bankir işlədiklərini nəzərə alsaq, masonluğun gücünün nəyə qadir olduğunu görərik.

# IV BÖLMƏ

## IV. DTK İLƏ ƏLAQƏ
## İtaliya böhranı

1981-ci ildə masonlar İtaliyada elə bir hökumət böhranı yaratdılar ki, nəticədə Arnoldo Forlaninin baş nazirliyi ilə olan koalision hökumət buraxıldı. «**P 2**»-nin yaratdığı bu böhran nəticəsində bir çox yüksək rütbəli şəxslər də öz vəzifələrindən əl çəkməyə məcbur oldular. «**P 2**» İtaliya Respublikaçılar Partiyasının liderinin «**Milli həyatımızda kök salmış dağıdıcı və yıxıcı bir gizli yuva**» adlandırdığı «**Propaqanda Due**» adlı gizli mason lojasının qısaldılmış formasıdır. Bu «skandallar skandalı» qəzet səhifələrinə çıxdıqdan sonra Birləşmiş Böyük Lojanın üzvləri ingilis farmasonluğunun İtaliyadakı farmasonlardan çox fərqli olmasını açıqlamaq üçün işə başladılar. Bu işə girişmənin də əsas səbəbi İngiltərədəki bəzi hadisələrə gələcəkdə «**P 2**»-nin təsiretmə ehtimalı olmuşdur. Londonun Qreyt Kvin küçəsindəki lojadan çıxan səmimi rədd etmələrə baxmayaraq, sirli «**P 2**» hadisəsinin İngiltərədəki bəzi hadisələr üzərindəki təsiri həqiqətən də bu gün hələ də gözlənilməkdədir.

**İngiltərə Gizli Kəşfiyyatı (Mİ 6)** və **Təhlükəsizlik (Mİ 5) Servisləri** də daxil, bir mənbədən əldə edilən məlumatlara görə, ingilis hökuməti fərqinə varmadığı bir böhranla qarşı-qarşıyadır. İlk dəfə bu kitabda nəşr edilən məlumatlar göstərməkdədir ki, ingilis farmasonluğu özü belə fərqində

olmadan hər an partlamağa hazır olan bir mexanizmli bomba halına gəlmişdir.

Əvvəl «P 2»-yə baxaq: **necə meydana gəlmiş və fəaliyyət göstərmişdir?**

Farmasonluğu İtaliyada lord **Sekville** adlı bir ingilis yaymışdır. 1733-cü ildə qurulan İtaliya masonluğu din və siyasətə olan açıq marağına görə İngilis Birləşmiş Böyük Lojası tərəfindən 1973-cü ilə qədər qəbul və təsdiq edilmədi. İtaliyanın «Böyük Şərq Lojası»na bağlı olaraq, bir əsr əvvəl Torinoda bir «Propaqando Lojası» qurulmuşdu. Üzvləri arasında şəxsən kralın da olduğu bu elit loja bəzi istiqamətləri ilə İngiltərədəki 2076 saylı lojaya (Quatour Koronati Lojası) bənzəyirdi. Əksini söyləyən bir-iki raport olsa da, kralın da daxil olduğu bu loja ilə bugünkü mason qrupu arasında ad bənzərliyindən başqa heç bir bağlılığı yoxdur. Əslində **«Propaqanda Due»** lojası («P 2») gerçək anlamda bir loja belə deyildir. O, heç bir rəsmiyyət belə qazanmamışdır və üzvləri ilə ardıcıl toplantılar keçirməmiş gizli bir mason qruplaşmasından başqa bir şey deyildir.

**«P 2»** 1966-cı ildə İtaliya Böyük Şərq Lojasının o zamankı Böyük **Ustadı Qiordino Qambererininin** əmri ilə qurulmuşdur. Böyük Ustadın əsas məqsədi masonluğa qarşı rəğbət bəsləyən və faydalı ola biləcək məşhur və vəzifəli şəxslərdən ibarət mütəşəkkil bir qrup təşkil etməkdir. Bu elit qrupun qurulmasında əsas rol oynayan şəxs Tuscany bölgəsindəki Arezzo qəsəbəsindəki toxuculuq fabrikinin varlı bir sahibi idi.

Masonluğa iki il əvvəl girmiş və «Ustad» ünvanı almış bu şəxs **Licio Qelli** idi.

«İtaliya – Argentina» cüt vətəndaşlıq haqqını əldə edə bilmiş ilk italyan olan **Qelli** İspaniyada olmuş vətəndaş müharibəsində faşistlər tərəfindən iştirak etmiş və sonralar da İtaliyada **Mussolinin** tərəfdarı olmuşdur. İkinci Dünya müharibəsindən sonra İtaliya partizanlarına edilən işgəncələrdə iştirak etdiyinə görə günahlandırıldıqdan sonra Argentinaya qaçmağa məcbur oldu. Qelli orada da respublika prezidenti **Şuan Perronla** əlaqə yaradaraq uzun müddət onunla dostluq etdi. Bu dostluq nəticəsində prezident Perron **Qellini** «İtaliya üzrə iqtisadi işlər müşaviri» olaraq təyin etdi. Aradan illər keçdikdən sonra **Qelli** yenidən İtaliyaya qayıdaraq Arezzoda yerləşdi və mason oldu.

**Qellinin** Böyük Ustad **Qamberinin** əmri ilə gizlincə bir yerə topladığı qrupa **«Raqqruppamento Qelli Propaqanda Due** (qısa P 2) adı verildi. Bu qrupun üzvlərinə isə **«Piduisti»** və ya qısaca **«P 2 ist»**lər deyilirdi.

1969-cu ildə **«P 2»**-dən artıq bir loja, **Qellidən** isə **«P 2»**-nin «Hörmətli Ustadı» olaraq bəhs edilirdi. **Qellinin** böyük bir inam qabiliyyəti var idi. Hər

kəs cəmiyyətdə onun nüfuz sahibi olmasına inanmışdı. Bir çox şəxslər gələcəklərini düşündükləri üçün **«P 2»**-yə girmişdilər. **Qelli «P 2»** lojasının üzvlərindən masonluğa lazım olan pul almaqla bərabər, son dərəcə gizli olan dövlət sirrlərini də istəyir və alırdı. O, bu sirlər sayəsində öz qüdrətini möhkəmləndirir və ayrıca olaraq buradan çıxmaq istəyən hər bir üzvü şantaj yolu ilə lojada saxlayırdı. Bu, həssas və gizli məlumatlar hökumət dairələrindəki sadiq və itaətkar üzvlər vasitəsilə **Qelliyə** çatdırılırdı.

1975-ci ildə **Françosko Siniskalçi** adlı bir mason Roma prokurorluğuna gələrək **Qellinin** müxtəlif qeyri-qanuni işlər görməsi haqqında məlumat verdi. Ancaq onun bu məlumatlarına prokurorluqda o qədər də əhəmiyyət vermədilər.

Bu hadisədən bir az sonra **Qellinin** yaxın dostu və **«P 2»** nin üzvü, eyni zamanda da İtaliyanın ən nüfuzlu bankirlərindən biri olan **Mişel Sindona** böyük miqdarda pulu mənimsəyərək ABŞ-a qaçdı. Artıq bu hadisədən sonra polis **Qelli** ilə də maraqlanmağa başladı. İtaliyada iri miqyaslı fırıldaqçılıq etmiş **Sindona** Nyu-Yorkda həbs edildi. Sindona həbs olunan kimi təyyarə ilə Amerikaya gələn **Qelli Sindonanın** günahsız olması və bir kommunist intriqasının qurbanı olduğuna dair şahidlik etdi. ABŞ Respublikaçılar Partiyasının Milli Komitə direktoru və eyni zamanda da **Ronald Reyqanın** 1980-ci ildə prezident seçkiləri kampaniyasının rəhbəri olan **Filip Quarino** ilə **Qellini Vaşinqtonda** tanış edən də, mafiya ilə yaxından əlaqəsi olduğu qəbul edilən **Mişel Sindonadır**. **Filip Quarino** sayəsində **Qelli** hələ **«P 2»**-nin ifşa olunmasından iki ay əvvəl 1981-ci ilin yanvarında ABŞ prezidentinin andiçmə mərasimində iştirak etmişdir.

1980-ci ildə sahibi olduğu Franklin Milli Bank bağlandıqda (Amerikada görünməmiş ən böyük bank iflası) və maliyyə fırıldaqlıqlarında ittiham olunaraq istintaqa cəlb olunan **Mişel Sindona** kömək üçün «Hörmətli Ustad»ına müraciət etdi. Bu dövrdə İtaliyada da maliyyə müfəttişləri və prokurorluq onun apardığı bank əməliyyatlarını və maliyyə fırıldaqlarını araşdırırdılar. Onun köməyinə yetişən **Qellinin** fəaliyyəti nəticəsində bir müddət sonra **Sindona** hazırlanmış plana uyğun olaraq Nyu-Yorkda qaçırılaraq aradan çıxarıldı. Bu əməliyyatın **Qelli** tərəfindən həyata keçirilməsi artıq məlum olduqdan sonra 1981-ci il martın 18-də Milanolu iki hakim **Qellinin** Arezzo ətrafındakı villasında axtarış aparılması əmrini imzaladılar.

Ancaq həmişə olduğu kimi, **Qelli** hər kəsdən bir addım irəlidə idi. Polislər Vanda villasına gəldikdə **Qelli** və arvadı artıq çoxdan buranı tərk etmişdilər. Dərhal **Qelli** haqqında siyasi, hərbi və sənaye sabotajı və dövlət təhlükəsizliyini pozmaq ittihamı ilə axtarılması və tutulması əmri çıxarıldı.

**Qellinin** tərk etdiyi villada ələ keçirilən sənədlər arasında «**P 2**» üzvlərinin siyahısı da var idi. **Qellinin** öz dəsti-xətti ilə yazdığı bu siyahı İtaliyanın ən qüdrətli və nüfuzlu şəxsiyyətlərini əhatə edirdi. Bu sənədləri incələyən bir müfəttiş daha sonraları belə yazacaqdır: «Propaqanda Due Lojası dövlətin əsas qanuni quruluşunu yıxmaq məqsədi ilə işgüzar və siyasi dairələrdən istifadə edilməklə təşkil olunmuş gizli bir cəmiyyətdir».

«**P 2**»-nin üzvləri arasında kimlər yox idi: Nazirlər Kabinetindən ədliyyə naziri **Adolfo Sartinin** də olduğu üç nazir; 1972-1973 və 1976-1979-cu illər arasında baş nazir olmuş **Qiulio Andreotti**, parlamentin 43 üzvü; yuxarı dövlət vəzifələrində olan 54 məmur; baş qərargah rəisi admiral **Covanni Torrisinin** də olduğu 30 general və 8 admiralın da daxil olduğu quru, dəniz və hava qüvvələrindən 183 zabit; 19 hakim; vəkillər, prokurorlar, polis rəisləri, qabaqcıl bankirlər, qəzet sahibləri, naşirlər və içərisində ölkənin ən böyük qəzeti olan «**II Koppucpe Della Sera**»nın naşiri və baş redaktorunun da olduğu qəzetçilər, universitetlərdən 58 professor; bir çox siyasi partiyaların liderləri və hətta ölkənin üç böyük informasiya servisinin rəhbərləri.

Liderliyi başqasına vermək istəməyən baş nazir «**P 2 istlər**»i (Piduistlər) vəzifələrindən kənarlaşdırıldıqdan sonra sənədlərin nəşr olunması təklifini qəbul etdi. Ancaq İtaliyada ikinci böyük qüvvə olan kommunistlər bütün İtaliyadakı siyasi partiyalar arasında «**P 2**» ilə əlaqəsi olmayan partiya kimi, **Forlaninin** kabinetinin buraxılmasında daha təsirli rol oynadılar. Sosialist Partiyasının lideri **Bettino Kraksi** isə öz partiyasının daxilində 35 nəfər «**P 2**» üzvü olduğunun ortaya çıxmasına baxmayaraq, yeni hökumətin təşkil edilməsini ona tapşırmağı tələb etdi və əks halda onlar heç bir vaxt Xristian-Demokrat Partiyasının liderliyi ilə yaradılacaq koalision kabinetdə iştirak etməyəcəklərini bildirdi. Koalisiya üzvləri ilə 17 gün davam edən ümidsiz müzakirələrdən sonra **Forlani** və koalision kabinet istefa verdi.

Bundan sonra **Kraksi** də bu işdə müvəffəqiyyət qazana bilmədikdə, 85 yaşlı respublika prezidenti **Aleksandro Pertini** Respublikaçılar Partiyasının lideri Covanni Spadolinini yeni kabinet qurmağa dəvət etdi. **Spadolini** bu işin öhdəsindən müvəffəqiyyətlə gəldi. Beləliklə, İtaliyanın İkinci Dünya müharibəsindən bu yana həmişə Xristian-Demokrat Partiyasından olan hökumət başçısı vəzifəsinə indi beş ayrı-ayrı partiyadan təşkil olunmuş koalision kabinetin başına Respublikaçılar Partiyası keçdi.

Ələ keçirilən sənədlər bir-bir tədqiq edildikcə ortaya bu həqiqətlər çıxmağa başladı:

**Qelli** sadəcə olaraq İtaliya siyasi dairələrinin bütün qərarverici instansiyalarına özünə bağlı olan masonları yerləşdirməklə kifayətlənməmiş, eyni zamanda bu instansiyalarda qəbul olunmuş qərarlar üzərində də öz gücünü hiss etdirmişdir. Koalisiya liderləri arasında son dərəcə gizli keçirilən yığıncaqlarında müzakirə edilən msələlər burada iştirak edən Sosial-Demokrat Partiyasının lideri və 2233 saylı **«P 2»** üzvü olan **Pietro Lonqo** vasitəsilə **Qelliyə** çatdırılırdı. **«P 2»** Plazzo Çiqidəki hökumət iqamətgahının qəlbinə qədər sıza bilmişdir. Baş nazirin ən yaxın köməkçisi və Nazirlər Şurasının sədri **Mario Semprini** də dörd ildən çoxdur ki, 1627 saylı **«P 2»** üzvü idi və müntəzəm olaraq hörmətli Ustadına gizli məlumatları əks etdirən sənədləri çatdırırdı.

Xristian-Demokrat, əski bir nazir və mason, ədliyyə naziri **Sartinin** ən yaxın dostlarından biri olan **Massimiliano Cercöll** də **«P 2»**-nin casusları arasındadır. O, 2180 nömrəli **«P 2»** üzvü kimi ifşa olunan zaman Gizli Xidmət İdarələrinin Koordinasiya Bürosunda çalışmaqda idi.

Bir çox **«P 2»** üzvləri arasında baş nazirin özünün də dostları var idi. Bunlardan Xristian-Demokrat Kooperativlərinin lideri **Enzo Badioli** və Ancona bölgəsindən olan millət vəkili **Qianni Çerioni** kimi tanınmış şəxsləri göstərə bilərik.

Digər **«P 2»** üzvləri isə **Qellinin Arozzo** qəsəbəsindən həmyerlisi olan, Senatın sədri **Emintore Fanfaniyə** yaxın olan şəxslər idi.

Biz bu qüdrətli və nüfuzlu şəxslərin siyahısına diqqətlə nəzər yetirsək görərik ki, **Qellinin** dövlətin yüksək vəzifələrində işləyən **«P 2»** üzvləri üzərində çox böyük nüfuzu vardır. O bu şəxslər üzərindəki nüfuzundan istifadə edərək hər hansı bir **«P 2»** üzvünü istədiyi vəzifəyə yerləşdirə bilirdi. Məsələn, 1978-ci ildə **«P 2»** üzvü olmuş **Mario Pedini** elə həmin il də çox sürətlə nazir vəzifəsinə yüksəlmişdir.

Əldə olan sənədlərin araşdırılmasından ortaya çıxan həqiqət budur ki, son illərdə İtaliyada **Qellinin** daha əvvəldən xəbəri olmadığı heç bir mühüm hadisə yoxdur. Həmçinin bir çox mühüm dövlət əhəmiyyətli işlər də **Qellinin** istiqamətləndirdiyi gizli əməliyyatlar nəticəsində həyata keçmişdir.

Vanda villasında ələ keçirilən sənədlər tədqiq edildikdə son dərəcə gizli yüzlərlə kəşfiyyat xarakterli sənədlərin **Qellinin** əlinə keçməsi aydın oldu. Kəşfiyyat Servisləri Birliyinin əski rəhbərlərindən polkovnik **Antonio Viezzerin** bu sənədlərin kənara çıxarılmasında əli olduğu anlaşıldı və o, həbs edildi. **Viezzerin** istintaqı nəticəsində Tuscanlı məşhur bir vəkilin dəftərxanasında axtarış aparan polis burada şübhəli sənədlər olan iki çanta ələ keçirdi. Romadakı «P 2» istintaqının rəhbəri olan **Dr. Domenico Si**ca ələ keçən bu sənədlərin şübhəsiz olaraq bu formada **Qelliyə** aid olduğunu gördü.

Üzvlərin «**P 2**»-yə ödədikləri üzvlüq haqları və loja üzvlərinə etdikləri xidmətlər müqabilində ödənən rüşvətlərin fakturalarını əhatə edən bu sənədlər Vanda villasında ələ keçirilən dəlillərin tamamlayıcı hissəsini təşkil edirdi.

«**P 2**»-nin İtaliyanı necə bir fəlakətə düçar etməsinə aid bir misal İtaliya Respublikasının prezidenti **Pertini** bu rüsvayçılıqdan xəbərdar olduqdan sonra gördüyü tədbirlərdir. «**P 2**» lojasının üzvləri arasında ən yaxın inandığı iki şəxs də var idi. Bu iki şəxsdən biri Romada prezident sarayının (Quirinale) protokol sədri **Serçio Piscitello** və o birisi isə uzun illərdən bəri prezidentin sədaqətli katibi **Françesko Qreqorio** idi. Prezident bir an belə tərəddüd etmədən bu iki şəxsi tutduqları vəzifədən dərhal uzaqlaşdırdı.

«**P 2**»-nin üzvləri arasında olan İtaliya Silahlı Qüvvələrinin general və admiralları öz canlarını qurtarmaq üçün mühüm tədbir tökmək məqsədi ilə bir yerə toplaşmışdılar. Onlar özlərinin bir intriqa qurbanı olduqlarını ictimaiyyətin rəyinə verməyi və istintaq müfəttişlərinin əleyhinə qəti bir dəlil əldə edəcəklərinə qədər gözləməyi qərara aldılar. Bu istintaq nəticəsində **Qellinin** qorxulu dağıdıcı gücünün yalnız İtaliya üçün deyil, həm də Cənubi Avropa və Orta Şərqdəki demokratik qüvvələrin kökünə qədər sızdığı anlaşılırdı. Brüssel və Vaşinqtondakı vəzifəlilər NATO-nu İtaliya Silahlı Qüvvələrindəki farmasonların hərəkətlərini müdafiə etməyə məcbur edilirdilər. Onlar bir ağızla İtaliyanın quru və dəniz qüvvələrində, kəşfiyyat servizlərində bir boşluğu yaratmağın uyğun olmadığını bildirirdilər. Brüsseldə və Vaşinqtonda yerləşən yüksək dairələr NATO İtaliya Baş Qərargahının müdafiə rəisi (1825 saylı «P 2» üzvü), İtaliya Ordusunun Əks-kəşfiyyat İdarəsinin rəisi (1603 saylı «P 2» üzvü) və Milli Təhlükəsizlik rəisinin (1620 saylı «P 2» üzvü) dəyişdirilməsini, xüsusilə Livan böhranı ərəfəsində NATO-nun cənub qanadına böyük zərbə vuracağını bildirirdilər.

## Çinlinin raportu

1981-ci il iyunun əvvəllərində ağlasığmaz bir hadisə baş verdi. **Qellinin** qızı **Mariya** tanınacağını bilə-bilə öz adına aldığı bir təyyarə bileti ilə İtaliyaya gəldi. Romada Fiumiçino təyyarə limanında həbs edildi və ona məxsus baqajdakı yüklər gömrük məmurları tərəfindən dəqiq yoxlandıqda çamadanlarının birinin gizli yerində «**P 2**»-yə aid beş paket dolusu sənəd tapıldı. Bu sənədlər arasında İsveçrə banklarında bir çox İtaliya siyasətçilərinin və partiyalarının adına olan pulların sənədləri, Qərbi Avropanı və xüsusilə İtaliyanı alt-üst etmək məqsədi ilə hazırlanmış saxta bir MKİ «gizli

raportu» ələ keçirildi. **Xanım Qelli çoxdan bəri İtaliyadan xaricə aparılmış «P 2»-yə aid gizli sənədlərlə nə üçün İtaliyaya qayıtmışdır? Casusluq ittihamı ilə həbsə alınacağını bilə-bilə bu addımı atmasında hansı təzyiq və məqsədlər əsas rol oynamışdır?** Bu suallara cavab vermək və xanım **Qellinin** həqiqi məqsədinin nə olduğunu anlaya bilmək üçün nə Vanda villasında ələ keçirilən sənədlərə, nə **Mariya Qellin**in çamadanlarında olan sənədlərə, nə də digər «P 2» ilə əlaqədar materiallara baxmalıyıq. Əsas incələnməsi lazım olan məqam ələ keçən sənədlərin arasında daha nələrin olmamasıdır.

Jurnalist **Peter Hebblethvaite** mənim daha sonraları əldə edə bildiyim kimi **«P 2»** içindən məlumat əldə edə bilmə imkanından da istifadə etməmiş olmasına baxmayaraq, «Qellinin kuklaları» başlıqlı **«The Spestator»** da nəşr edilən 6 iyul 1981-ci il tarixli məqaləsində həqiqətə olduqca yaxınlaşmışdır:

**«Qellinin «Dəmir pərdə» arxası Avropa ölkələri ilə iş gördüyünü bilirik… Hələ daha əvvəl bildirdiyimiz kimi Qelli Çauşevski ilə olan dostluğundan həmişə iftixarla danışmışdır. Buna baxmayaraq ələ keçən sənədlərdə nə bir italyan kommunistinin, nə də Şərqi Avropa ölkələrinə məxsus bir nəfərin adına rast gəlinməmişdir. Fəqət bilirik ki, heç bir kimsə arada bu cür vasitəçilər olmadan hər hansı bir kommunist ölkə ilə ticarət edə bilməz. Bu onu göstərməkdədir ki, bu vasitəçilərin adları məxsusi olaraq ört-basdır edilmişdir. Amma kimlər tərəfindən? Əgər həqiqət budursa, Qellinin bu sənədləri qaçırılma əməliyyatının tənzimlədiyi və indi də öz əlləri ilə gerçəkləşdirdiyi bir planın nəticələrini Qara dəniz sahillərində yerləşən rahat bir villadan gözləməkdə olduğu nədən düşünülməsin».**

İkinci Dünya müharibəsi zamanı partizanlara zülm və işgəncə verən, mərhəmətsiz faşist **Peronun** yaxın dostu, məsləhətçisi olan və İtaliya dövlətçiliyini dağıtmaq əməliyyatını tərtib edən **Licio Qelli** bir DTK casusu idi. Sadəcə olaraq bu həqiqət bu məşum şəxsiyyət haqqındakı cavabsız sualları açıqlamağa kafidir.

**Qellinin** DTK casusu olduğunu göstərən bir çox mütəxəssis **«P 2»** lojasının İtaliyada etdiyi rüsvayçılığının üstünün açılması ilə 1981-ci il mayın 13-də papaya qarşı edilən sui-qəsd ilə eyni vaxtda olmasını nəzərə alaraq bu iki hadisənin bir-biri ilə əlaqəsi olduğunu ehtimal edirlər.

**Licio Qelli** ehtiraslarını gerçəkləşdirə bilmək uğrunda mümkün olan hər yolu sınaqdan çıxartmışdır. İtaliyanı 40 ildən artıq idarə edən Xristian-Demokratları yıxmaq **Qellinin** ən böyük məqsədi olmuşdur. Ölkəsinə qarşı bu qədər nifrəti olan şəxs Qərb dünyasını yıxmaq və sarsıtmaq uğrunda hər növ nifaq toxumu səpməyi məqsəd hesab edən SSRİ kəşfiyyat oraqnları əlində

həssas bir silah ola bildi. İngilis kəşfiyyatından çox mötəbər bir mənbəyə görə, **Qelli «Raqruppamento Qelli Propaqanda Due»** lojasını qurmağa başladıqdan dərhal sonra DTK tərəfindən alınmışdır. İngilis Gizli Kəşfiyyat İdarəsi (Mİ6) «P 2»-ni yaranıb fəaliyyət göstərdiyi vaxtdan bu yana izləməkdə davam etmişdir. DTK-nın **«P 2»** ilə olan əlaqəsi «Mİ6»-ya hələ ilk vaxtlardan bəlli olmuşdur.

**«P 2»** lojası başlanğıcından bəri İtaliyanı fəlakətə sürükləmək, NATO-nun cənub qanadının gücünü sarsıtmaq, DTK-nın müdafiə etdiyi kommunistləri İtaliyada iqtidara gətirmək və dolayısı ilə Qərb dünyasını təşvişə salmaq məqsədlərini güdən böyük bir proqramdır. Bu proqramın birinci mərhələsi gerçəkləşdirildi, ikinci isə böyük ölçüdə saxlandı, üçüncü mərhələnin gerçəkləşməsində harada isə müvəffəqiyyət qazanıldı, amma bütün bunlara baxmayaraq, dördüncü mərhələnin gerçəkləşməsinə nail olunmadı.

1965-ci ildən bəri («P 2» 1966-cı ildə qurulmuşdu) Mİ6 və digər Qərb kəşfiyyat orqanları hökumətlərini DTK-nın böyük miqyasda artan qüdrətinə və yayılmasına qarşı xəbərdarlıq etməyə çalışırdılar. Çox səlahiyyətli bir mənbəyə görə ingilis kəşfiyyatının yüksək vəzifəli əməkdaşları DTK-nı dünyanın ən böyük casusluq təşkilatı olaraq tanıyırıdılar. Ancaq bu günə qədər bütün bu xəbərdarlıqlar hökumət rəhbərləri tərəfindən diqqəti cəlb etməmişdir. **Reyqan** və **Tetçer** kimi siyasi liderlər belə qarşı-qarşıya olduqları təhlükənin Mİ 6 və MKİ-nin bildirdiyi dərəcədə vahiməli olduğunu qəbul etmədilər.

**«Soyuq müharibə»** dövrlərində Cənub-Şərqi Asiyada Mİ 6 xidmətində 20 ilə yaxın çalışmış olan bir ingilis diplomatının hazırladığı raport əlimə keçdi. Bu raportun müəllifi diplomatik servisdə birinci dərəcədən katibliyə qədər yüksəlmiş, gizli servis kadrı olaraq təlim keçmiş, Birləşmiş Kəşfiyyat Komitəsinin (BKK) bir çox aşağı komissiyalarına rəhbərlik etmiş və Mİ 6-nın əfsanəvi şefi olan ser **Mauriçe Oldfieldin** yanında işləmişdir. O, gizli təşkilatların metodları və xüsusilə hər guşəsini gəzmiş olduğu Çin üzrə mütəxəssis idi.

Bu raport normal yazı kağızında makina ilə yazılmış 14 səhifədən ibarət idi. Mİ 6, MKİ və İsrailin Kəşfiyyat İdarəsi «Mossad»ın **«P 2»** haqqında dərindən araşdırma apardıqları tarixlərdə – 4 iyun 1981-ci ildə yazılmışdır. Raportun müəllifi hal-hazırda vəzifədə olduğu üçün bu andan etibarən «Çinli» kodu ilə verəcəyik.

Raportun hadisələrin tarixi inkişafını açıqlayan bölməsində Çinli belə yazmaqdadır: **«Qərb dünyasının xüsusilə Vyetnamdakı məğlubiyyəti və neftin qiymətinin artması ilə şiddətlənən iqtisadi problemlər qarşısında SSRİ getdikcə dərinləşən və böyüyən daxili iqtisadi problemlərini nəzərə**

**almayaraq Qərb dünyasının bu vəziyyətindən öz xeyrinə istifadə etməyə çalışdı».**

Raportunu, ancaq 4 iyun 1981-ci il tarixinə qədər topladığı məlumatlara əsaslanaraq hazırladığı üçün, Çinli DTK-nın **«P 2»**-nin arxasında durduğunu qəti ifadələrlə açıqlaya bilməmişdir. Yenə də bu əlaqənin olmasına eyham olunmaqdadır.

Mən raportu oxuduqdan sonra Çinli ilə bir neçə dəfə görüşdüm. O, 4 iyun 1981-ci ildən bu yana baş vermiş hadisələr nəticəsində DTK-nın **«P 2»** ilə əlaqəsinin artıq danılmaz olduğunu görüşlərimizin birində dolayı da olsa bildirdi.

SSRİ-nin qurulmasından əvvəl, farmasonluq rus siyasi həyatında təsirli bir faktor olmuşdu.

1917-ci il inqilabı farmasonların bir provokasiyası (təhriki) nəticəsində gerçəkləşmişdir. Bu tarixi hadisə çarın gizli polisi tərəfindən illər boyu davam edən təzyiq və zülmlərinə baxmayaraq, fəaliyyətlərini davam etdirə bilən bir-iki mason lojası tərəfindən istiqamətləndirilmişdir. Knyaz **K.Y.Lvovun** müvəqqəti kabinetində ədliyyə naziri postunu tutan **Aleksandr Kerenski** özü bir mason idi. Knyaz **Lvovun** istefasına səbəb olan Petroqrad üsyanı nəticəsində **A.Kerenski** yeni kabinet təşkil etdi və özü baş nazir olmaqla hökumətin bütün mühüm vəzifələrinə masonları yerləşdirdi. Sonralar Rusiyanın daxili və xarici problemlərini həll etməkdə aciz olan Kerenski hökuməti bolşeviklərin çevrilişi nəticəsində devrildi. Bolşevik çevrilişindən sonra başda **Kerenski** olmaqla Rusiya masonları Fransaya qaçmağa məcbur oldular. Onlar Fransada Fransa Böyük Şərq Lojasının himayəsində bir neçə loja quraraq fəaliyyət göstərməyə başladılar.

Bolşevik dövləti Rusiyada bərqərar olar-olmaz masonluğun bir gizli təşkilat kimi fəaliyyətinə son qoyuldu. Bu antimason hal Kommunist İnternasionalının IV konqresində də qəbul edilərək qərarlarının birində öz əksini tapmışdır.

**«Mason təşkilatının öndə gələn bütün üzvlərinin orta sinfə uzanan bütün əlaqələri qəti olaraq qapadılmalıdır. Farmasonluq orta sinfin radikal meylli hissəsinin proletariata qarşı istifadə etdiyi ən rəzil və namussuz fırıldağıdır. Farmasonluğa qarşı olmağı bir vəzifə hesab edirik».**

İlk sovet kəşfiyyat idarəsi olan FK (Fövqəladə Komissiya) farmasonluğu xüsusilə araşdırmağı və dərindən incələməyi özünün əsas vəzifəsindən biri hesab etmişdir.

Bu istintaqlar nəticəsində Qardaşlıq 1922-ci ildə Rusiyada qeyri-qanuni elan edildi. Məlum bir həqiqətdir ki, FK-dan sonra qurularaq fəaliyyət

göstərmiş DSİ, XDİK, DTN, DTK və digər bütün sovet kəşfiyyat orqanlarının ən mühüm vəzifələrindən biri dünyanın digər ölkələrindəki hər növ təşkilatlara, partiyalara öz adamlarını yeritməsi olmuşdur. Sovet kəşfiyyatının bu fəaliyyətində hər hansı bir xarici ölkədə fəaliyyət göstərən mason təşkilatlarına öz casuslarını yeritmək xüsusi bir yer tutmuşdur. Çinlinin raportunda da bildirildiyi kimi, **«siyasi, iqtisadi, sosial və dini təşkilatlar, xüsusilə də gizli təşkilatlar DTK-nın müşahidə sahəsinə girməkdədir».**

Çinlinin bu müşahidəsini, sadəcə olaraq, Sovet dövlətinin quruluşundan bu yana gerçəkləşdirildiyi fəaliyyətlərlə deyil, eyni zamanda rus hökumətinin xarici təşkilatlara sızmaları və onları ələ keçirmələri üçün DTK-nın büdcəsinin daimi olaraq yeni mənbələr tərəfindən artırılmasına dair təkzibedilməz dəlillər vardır. SSRİ-nin özündə DTK-nın fəaliyyətinə qarşı olan akademik **Vladimir Saxarov** DTK casuslarının sovet cəmiyyətinin «qaymaq təbəqəsinin qaymağı» arasından seçildiyini və onların fəaliyyət göstərdikləri ölkənin dili, ənənələri, dini və həyat tərzi haqqında son dərəcə məlumatlı olduqlarını bildirməkdədir.[1]

DTK-nın masonluğu nəzarət altına alması, sadəcə olaraq İtaliyaya məxsus bir hadisə deyildir. İngilis kəşfiyyatının məsul əməkdaşlarının DTK-nın öz casuslarını dövlət daxilində müxtəlif yüksək vəzifələrə təyin etdirməsi üçün ingilis farmasonluğundan çox məharətlə istifadə etməsinə dair şübhələri olduğunu söyləyə bilərəm. Rusiyanın Qərbin gizli müdafiə mexanizmlərinə necə sızmış olduğunu, **Charman Pincher «İşləri gücləri xainlik»** adlı kitabında DTK-nın ələ keçirməyi ən çox arzuladığı sahələri belə açıqlamaqdadır: **«...Sovet kəşfiyyat orqanları ilə əməkdaşlıq etməyə razı salınmış şəxsə birinci təlimat kimi Mİ 5, Gizli Servis, Radio Verilişlərinə Nəzarət Edən Hökumət Rabitə Sistemi, «Tayms» qəzeti, BBC, xarici və daxili işlər nazirliklərində mühüm vəzifələr tutmaq tövsiyə edilirdi».**[2]

Yeni ələ keçirilən dəlillər göstərməkdədir ki, DTK **«Qardaşlar»**ın İngiltərədə yaxşı vəzifələri ələ keçirə bilmələrini nəzərə alaraq, ölkə

---

[1] «Kreme deli kreme», «qaymaq təbəqəsinin qaymağı» mənasında işlədilmişdir.

[2] DTK-nın Qərbə və üçüncü dünya ölkələrinə göndərəcəyi casuslarını ən yaxşı formada təlimləndirmək üçün dini mərkəzlər belə qurduğu bu yaxınlarda ortaya çıxmışdır. Bu mərkəzlər Krımdakı Feodesiyada, Lvovda və Kontsanzadadır. Litvada isə Ingiltərə və ingilisdilli ölkələrə göndəriləcək casuslar üçün qurulmuş xüsusi bir təlim mərkəzi vardır. O da məlumdur ki, ingilis farmasonluğunun içərisinə daxil olmaq və onu ələ keçirmək üçün tələb olunan təlim Litvadakı bu təlim mərkəzində verilməkdədir. Bolqarıstandan qaçıb Qərbə sığınan **Mixail Kloeçkov** bu təlim mərkəzlərinin 1933-cü ildə **Stalin** tərəfindən qurulduğunu etiraf etmişdir.

nüfuzunun ən həssas nöqtələrini ələ keçirmək üçün onlardan məharətlə istifadə etmişdir. DTK-nın bu məqsədinə nə qədər müvəffəq olmaları 1945-ci ildən bu yana Mİ 5 və Mİ 6-nın ən yüksək vəzifələrinə casuslar yerləşdirməklə məskunlaşmaları qəti bir şəkildə isbat edilmişdir. Bu gün belə təhlükəsizlik orqanlarının əməkdaşları sızmanın hansı ölçülərə çatdığının bilinmədiyini xüsusi olaraq da olsa etiraf etməkdədirlər.

Çinlinin raportunun Londonda Mİ6-nın yüksək rütbəli əməkdaşının əlinə keçəndən bu yana farmasonluğun İngiltərədəki faəliyyətləri araşdırılırsa da, İngiltərənin milli daxili təhlükəsizliyinə aid olan mövzularda araşdırmalar aparmağa borclu olan Mİ 5 tərəfindən bu günə qədər hər hansı bir istintaq başlanmamışdır. Bildiyimiz kimi, Mİ 6 müntəzəm olaraq xarici ölkələrdə fəaliyyət göstərən bir quruluşdur.

Qərbə sığınan keçmiş DTK zabitləri bu təşkilatın ingilis sosial həyatı haqqındakı ən kiçik məlumatları necə böyük bir səbirlə topladıqlarını anlatmışdılar. Ələ keçirilən ən kiçik detallar belə DTK-nın Moskvada **F.Dzerjinski meydanı 2-də** yerləşən mərkəzi qərargahında Qərbi sarsıtmaq məqsədi güdən geniş əməliyyatlarda istifadə edilmək üçün böyük bir tələbkarlıqla arxivləşdirilməkdədir.

Bunların hamısı məlum həqiqətlərdir, ancaq Çinlinin raportunun da bildirdiyi və Mİ 6-nın bu günə qədər anlaya bilmədiyi ən mühüm həqiqət DTK-nın xüsusilə gizli fəaliyyət göstərən təşkilat və cəmiyyətlərdən istifadə etməsidir. İngiltərədəki ən böyük və ən mühüm gizli cəmiyyət olan masonluğun DTK-nın maraq dairəsinə girəcəyi həqiqət gün kimi aydın olduğu halda, təəssüf ki, heç bir zaman nəzər-diqqəti cəlb etməmişdir.

Konstitusiya tərəfindən qadağan edilməsinə baxmayaraq, bu kitabda da göstərildiyi kimi, geniş miqyasda yayılmış olan masonluğun yaranıb fəaliyyət göstərdiyi ölkələrin ictimai-siyasi, iqtisadi və mədəni həyatında böyük nüfuzu olduğu halda, mənsub ölkənin əleyhinə casusluq etməsi ingilislər üçün də fövqəladə əhəmiyyət kəsb edirdi.

Mİ 6-nın indi də əməkdaşları olan beş nəfər təcrübəli şəxslə görüşmək imkanı əldə etdim. Onlara belə bir sualla müraciət etdim: **«Əgər siz bir DTK casusu olsaydınız, masonluğun İngiltərədəki nüfuzunu da göz önünə gətirərək nələr edərdiniz?». Bu suala cavab olaraq dördü «masonluğa girmənin mübahisəsiz bir ölçüdə ilk hədəfləri olardıq», - deyə söylədi. Beşinci isə öz fikrini belə bildirdi: «Mən masonluğun bu qədər nüfuzlu olması haqqında o qədər də məlumata malik deyiləm, ancaq indiyə qədər bu mövzuda hər hansı bir araşdırma aparılmayıbsa da, tezliklə bu haqda addım atılmalıdır. Mən bildiyimə görə Mİ 6-da iki**

**mason vardır. Təbii olaraq kimin mason olub-olmaması haqqında Mİ 6-da ümumiyyətlə söhbət gedə bilməz».**

Beşinci əməkdaşın verdiyi cavabda keçmişdə daxili işlər üzrə müşavir olmuş bir şəxsin də hər iki gizli servisin (Mİ 5 və Mİ 6) əməkdaşlarının mason olmaları qadağan edilmişdir, deməsi üst-üstə düşür.

1980-ci ildə Qərbə qaçaraq orada yaşayan əski DTK casusu **İlya Qriqoryeviç Dzxirkvelovdan** bir vasitəçi vasitəsilə farmasonluq məsələsini soruşdum. Sovet liderlərinin masonluğun Qərbdəki yayılışından və nüfuzundan çox yaxşı bir şəkildə xəbərdar olduqları bir həqiqətdir. 30 illik DTK casusluğunun çoxunu Cenevrədə keçirdiyi üçün **İ.Q.Dzxirkvelov** DTK-nın İngiltərədəki casusluq fəaliyyəti ilə əlaqəsi olmadığını bildirmişdi. İsveçrənin Böyük Lojası «**Alpina**» Lozannadadır və ümumiyyətlə, bütövlükdə ölkədə 52 mason lojası fəaliyyət göstərir. Sadəcə olaraq, Londonda 1.677 loja olduğunu düşünsək, DTK-nın İngiltərədəki casusluq fəaliyyətlərinin çox böyük ölçüdə olduğunu bildirən Dzxirkvelov sonra belə əlavə etmişdir: «Əgər farmasonluq mənim bildiyim qədər mövcud rejimin mühüm bir parçasıdırsa, DTK-nın ingilis casuslarını mason olmaları üçün məcbur edəcək qədər masonluğa sızmış olmalarına heç bir şübhəm yoxdur».

Hər iki kəşfiyyat servisindən də (Mİ 5 və Mİ 6) görüşdüyüm köhnə və yeni əməkdaşlar arasında ən ehtiyatlı danışanı vəzifəsindən təzəcə istefa vermiş və məsləkdaşları arasında hörmətli olan bir şəxs idi. Mən onunla 1982-ci ilin əvvəllərində Strandda «**Kayti ənd KO**» şirkətinin binasının birinci mərtəbəsindəki akvariumun önündə görüşdüm. O mənimlə görüşməyə ancaq «**Rəsmi Məxfilik Andı**»na daxil olmayan mövzularda danışacağımızdan əmin olduqdan sonra razı olmuşdu. O, əvvəl özünün farmason olmadığını və öz karyerasında yüksələ bilmək üçün də mason olmaq ehtiyacını heç bir zaman hiss etməmiş olduğunu bildirdikdən sonra: «**Ancaq bu bəlkə də mənim bu mövzunu heç bir zaman düşünmədiyimdən irəli gəlməkdədir**» dedi. O, DTK-nın İngiltərədə farmasonlardan istifadə etdiyinə dair heç bir dosye ilə qarşılaşmadığını bildirdikdən sonra, «**təbii ki, bu vəziyyət belə bir şeyin gerçəkdə olmadığını da göstərə bilməz**» dedi. Onun bu açıq-aşkar ehtimalı heç bir zaman nəzərə almaması məni təəccübləndirmədi. Görünür, Çinlidən əvvəl heç bir kimsə bu həqiqəti ayırd etməmişdir. Mİ6-nın əski şefi ser **Georgi Younq** mənə farmasonluq haqqındakı bütün məlumatının «**Krallıq ailəsi dairəsinin içində olduğu**» sərhədini aşmadığını bildirdi.

Əlaqə yaratdığım bir əski Mİ 6 əməkdaşı isə masonluqla DTK-nın əlaqəsi haqqında verdiyim suala cavab vermək üçün bir müddət fikirləşdi, beynində bu problemi yaxşıca formalaşdıraraq belə cavab verdi: «**Çarlıq**

**Rusiyasındakı farmasonların fəaliyyətləri haqqında olan gizli polisin sənədlərinin də 1917-ci il bolşevik çevrilişindən sonra DTK-nın sələfi olan ÇK-nın əlinə keçməsindən sonra sovet kəşfiyyat orqanlarının farmasonluğu o dövrlərdə araşdırmağa başlaması şübhəsizdir».**

**Əgər DTK-nın İngiltərədəki hədəfi bir masondursa, heç şübhə yoxdur ki, DTK dərhal bir casusuna bir mason lojasına girməsi üçün əmr verəcəkdir. DTK-nın bu üsuldan istifadə etməsi aşkardır. DTK tərəfindən aralarına ən çox sızılan cəmiyyət üzvləri bildiyimiz kimi, homoseksualistlərdi ki, biz bu sızmalara əskidən zarafatla «homintern» deyirik».**

Görüşümüzün sonunda o mənə «**Tanınmış şəxslər**» arasında haqqında mason olduğuna dair dəlillər mövcud olan kimsə varmı? deyə sual verdi.

«**Şəxslər**» ya DTK casusu olmadan əvvəl gizli məlumatları əldə etmə səlahiyyətlərinə malik mühüm vəzifələrdə olan, ya da DTK-nın casusu olduqdan sonra bu vəzifələrə gətirilən əski ingilis DTK casuslarıydı.

Bu gün Mİ 5-dəki vəzifəlilər də 1956-1965-ci illər arasında çox böhranlı bir dövrdə Mİ 5-in şefi olan ser **Roqer Hollisin** 30 ilə yaxın bir dövr ərzində ruslara casusluq etdiyindən şübhələnməkdədirlər. Bu həqiqəti casuslar haqqındakı yazılarında mütəxəssis, tədqiqatçı, peşəkar jurnalist **Chapman Pincher** son dərəcə əminedici bir şəkildə göstərmişdir. **Marqaret Tetçer** hökuməti bu gerçəyi inkar etmiş və dərhal **Hollisin** bəzi köhnə dostları onu müdafiə etməyə başladılar, ancaq göstərdikləri dəlillər həm çox zəif, həm də ziddiyyətli olmuşdur.

**Hollisin** hadisəsini burada uzun-uzadı müzakirə etməyə o qədər də ehtiyac yoxdur. **Pincher** çap etdirdiyi kitabının birinci nəşrində olduğu kimi, ikinci nəşrində də bu gerçəyi heç bir məntiqli şübhəyə məhəl qoymadan isbat etmişdir.

Vəzifəli bir Mİ 5 əməkdaşının da mənə etiraf etdiyi kimi, **Hollisin** həqiqi simasından olduqca xəbərdarıq. Pincherinsə gizli servis daxilində çox yaxşı mənbələrlə əlaqəsi olduğundan o, həqiqətə də çox yaxınlaşmışdır.

**Hollis «Homintern»ə** daxil deyildir. Eynilə Mİ5-in mənbələrindən mənə çox əmin olaraq bildirildiyi kimi, «**Hollis mütləq bir masondur**».

Ser **Roqer Hollisi**n ətrafında toplanan bir çox müəmmanın arasında ən təəccüblü olanı onun Mİ5-ə necə düşməyidir. Onun keyfiyyətləri Mİ5-ə daxil olmaq istəyənlərdən tələb olunan keyfiyyətlərdən qat-qat aşağı idi. Ölkə xaricində kəşfiyyat işləri ilə məşğul olan Mİ6-ya nisbətən ölkə daxilində fəaliyyət göstərən Mİ5-ə işə qəbul olunan zaman İngiltərə xaricində uzun müddət olmuş şəxslərin namizədliklərinə çox üstünlük

verilmir. Ayrıca olaraq Hollisin işə başladığı 1930-cu illərdə bu şərtə riayət edə bilmək günümüzə nəzərən daha da asandır. Bu və buna bənzər səbəblərdən **Hollis** işə götürülə biləcək son kadrdır. Universitetdə çox da yaxşı oxumayan Hollis iki il oxuduqdan sonra, təhsilini yarımçıq qoyaraq bir müddət Londonda bankda işləyir. O burada bir az işlədikdən sonra Çinə gedir. Cibində sadəcə olaraq 10 ingilis sterlinqi olan **Hollis** əvvəl Malayyaya gəlmiş, sonra isə Penanqdakı beynəlxalq miqyasda fəaliyyət göstərən bir tütün şirkətində işə başlamışdır. O burada bir müddət işlədikdən sonra bu şirkətin Şanxaydakı ofisinə təyin edilmişdir. O, sonrakı doqquz il ərzində Pekin, Dairen və b. şəhərlərdə işləyərək Çini də yaxşıca gəzmişdir. **Hollis** bütün bu fəaliyyətlərindən sonra vərəm xəstəliyinə tutulmuş və müalicə olunmaq üçün əvvəl Rusiyada bir müddət qalmış, sonra Vladivostokdan Transsibir ekspresi ilə tam müalicə olunmaq məqsədi ilə İsveçdəki bir sanatoriyaya yola düşmüşdür. Bütün bunlar, xüsusilə də Rusiyada keçirdiyi günlər **Hollisin** Mİ5-ə girmək üçün bir maneə olmalıydı.

**Pincher** 1936-cı ildə müalicə olunmasına baxmayaraq, əldən düşmüş bir vəziyyətdə İngiltərəyə dönən Hollisin haqqında belə yazır: **«O, nümayişkaranə bir formada atletik bir bədən quruluşuna malik olmasına baxmayaraq, haradasa bir qozbeli andırırdı… Heç bir akademik ünvanı yoxdur, səhhəti çox pis idi və Çində əldə etdiyi təcrübəsi də İngiltərədə bir post əldə edə bilməsinə kömək edəcək mühüm bir təcrübə deyildir. Onun görə biləcəyi yeganə iş ancaq makinada yazı yazmaq olardı».**

Bütün bu keyfiyyətlərinə baxmayaraq, o, bir tanış mayorun vasitəsilə Mİ 5-də müəyyən adamlarla görüşə bildi. Ancaq bu görüşmə nəticəsində xaricdə uzun müddət olmasını nəzərə alaraq ona Mİ 6-ya müraciət etməsini tövsiyə etdilər. **Hollis** Mİ 6-ya da müraciət etdi və buradan da səhhəti səbəb göstərilərək rədd cavabı aldı.

**Hollis** sonra ikinci dəfə yenidən Mİ 5-ə müraciət etdi. Artıq bu dəfə onu əliboş qaytarmayıb işə götürməyə razı oldular.

Sonralar məlum oldu ki, Mİ 5-in o zamankı şefi ser **Vemson Kell** mason olmuşdur.

**A.İ.Serkov**

# İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏN SONRA RUS MASONLUĞU TARİXİNDƏN

Sankt-Peterburq, 1999.

**Müqəddimə**

s.5-13

Təqdim olunan kitab XIX əsrin ortalarına aid rus masonluğuna aid tədqiqatın ikinci hissəsini təşkil edir. Birinci hissə əvvəllər nəşr olunmuş və 1845-1945-ci illəri əhatə edir. İkinci hissə İkinci Dünya müharibəsindən sonra rus masonlarının Paris lojalarında yenidən işə başlamalarından son əlli ildəki fəaliyyətlərindən danışılır. Eyni tədqiqat işinin belə hissələrə bölünməsi onunla əlaqədardır ki, material haqqında məlumatların toplanması və hazırlanması problemli olmuşdur.

Lakin monoqrafiyanın ilk hissəsi toplu şəklinə salınanda mən işin əsas hissəsini təşkil edən 4 mason yığıncaqlarının materiallarını: ilk növbədə Fransa Milli kitabxanasında yerləşən **«Şimal Ulduzu»** lojasının arxivini, ikinci **Franklinin** Böyük Şərq arxiv-kitabxanasında yerləşən **«Astreya-Şimal Ulduzu»** birləşmiş lojasının arxiv və sənədləri, üçüncüsü **Aleksandr Sergeyeviç Puşkinin («Şimal Şəfəqi»**nin materialları) arxivində olan yeni sənədləri və dördüncü Fransa Ali Şurasının kitabxanasında olan rus arxiv materiallarını (bu sənədlərin çox hissəsi **S.P.Tikston** və **M.R.Qarden** tərəfindən götürülmüş və itirilmişdir) öyrənmişəm. Bütün bu sənədlərin adları birinci hissədə çəkilmişdir. **«Şimal Ulduzu»** lojasının tarixi arxivi və necə deyərlər, **«Rus masonlarının Paris arxivi» N.N.Berberovanın** yazılarında həqiqətə uyğun gəlmir. Artıq qeyd etdiyim kimi, **N.N.Berberovanın «İnsanlar və lojalar»** kitabını tənqid etmək mənasızdır. O, tamamilə əfsanələrdən ibarətdir. Bu əfsanələr jurnalistin öz şəxsi fikirlərinə əsaslanmış, burada heç bir sənədə istinad edilməmişdir.

Rus mason sənədləri Milli Kitabxanaya **T.A.Osorkina** (qızlıq soyadı Bakuninadır) tərəfindən verilmişdir (İkinci Dünya müharibəsi ərəfəsində, yəni 1940-cı il iyulun 3-də). Verilmiş sənədlərin üzərində «Tam məxfidir» sözləri yazılmışdır. **«Şimal Ulduzu»** lojasının əsas sənədləri 1940-1964-cü illərdə **A.A.Ostrovskinin** emalatxanasında mühafizə olunmuşdur: 1940-cı illərin ikinci yarısında **P.A.Burışkin** bu sənədlərlə tanış olmuşdur. Fransız lojalarının növbəti süqutu və rus lojalarının gələcəyi təhlükə altında olduğu müddətdə, yəni 1965-ci il oktyabrın 28-də **«Şimal Ulduzu»**nun hörmətli ustası

**A.O.Marşak T.A.Osorkinanın** məsləhəti ilə bütün rus lojalarının sənədlərini Milli Kitabxananın əlyazmalar şöbəsinin mühafizi **Marsel Toma** vermişdir (Voprosı literaturı, 1990, № 1, s.144).

**T.A.Osorkina** nəinki bu sənədlərlə tanış olmuş, hətta 1970-ci ildə **«Şimal Ulduzu»**nun arxiv fonduna yeni əlavə sənədlər vermişdir. 1980-ci ilin əvvəllərində rus mason arxivini Milli Kitabxanaya verən şəxslərin iradəsinin ziddinə olaraq, onların icazəsi olmadan sənədlərin ilkin işlənməsi üçün Priston Universitetinin (ABŞ, Nyu-Cersi) professoru **N.N.Berberovanı** və Vaşinqton (ABŞ, Corctaun, Merilend ştatı) kollecinin professoru **N.Smidi** dəvət etmişdilər. Ancaq peşəkarlıq baxımından onlar vəzifələrinin öhdəsindən çox pis gəlmişlər. Yəni sənədlərin düzülüşü mövzu baxımından pozulmuş (məsələn, 1930-cu il protokollarından sonra 1924, 1932-ci ildən sonra 1930-cu illərdəkilər yerləşdirilib) və s. Amma əsas bədbəxtçilik «seçimin qarışmasında» deyildir, **N.N. Berberovanın** kitabının nəşrindədir. O, fondun «bağlı» qalmasından və oraya heç kimin daxil ola bilməməsindən istifadə etmişdir.

**«Şimal Ulduzu»** lojasının və ya **«Rus masonlarının Paris arxivi»**nin tarixi qeyri-xronoloji tərtib olunmuşdur. Lakin əsas problem **N.N.Berberovanın** kitabının «araşdırılmasında» deyil, onun nəşr olunmasındadır. Belə ki, fond bağlı olduğundan onun fikirlərini heç bir halda təkzib etmək mümkün deyil.

**L.A.Ostrovski** və **T.A. Osorqina** Milli Kitabxana müdiriyyətinə etiraz məktubu yazaraq arxiv işçilərinin və **N.N.Berberovanın** hərəkətini pisləmişdilər. Lakin əks reaksiya gözlənildiyindən də pis oldu. **«İnsanlar və Lojalar»** kitabına qarşı heç bir təkzib olmadan və Milli Kitabxananın əlyazmalar şöbəsinin əməkdaşları bildirdilər ki, fondda rus masonları haqqında heç bir məlumat, sənəd yoxdur. **«Şimal Ulduzu»** lojasının sənədləri ilə yaxından tanış olmaq üçün xeyli tər tökməli olduq (maraqlı sənədlərin surətlərinin çıxarılmasna icazə verilmədi. Ancaq fotosurətlər **N.N.Berberova** tərəfindən təqdim edildi).

Hazırda arxiv sənədləri 17 iri və müxtəlif həcmli qutularda (kartonlarda) yerləşdirilib.

K 1 - **«Şimal Ulduzu»** lojasının 1924-1938-ci illərdə keçirilmiş iclas protokolları

K 2 - həmin lojanın 1945-1964-cü illərdə keçirilmiş iclas protokolları

K 3 - lojanın digər mason ustaları ilə məktublaşması

K 4 - **«Şimal Ulduzu»** lojasının tarixinə dair materiallar (üzvlərin siyahısı, məktublaşma və **P.A.Burışkinin «Hörmətli «Şimal Ulduzu» lojasının tarixi»** əsərindən seçmə yazılar)

K 5 - fotoşəkillər

K 6-7 - çap olunmuş sənədlər

K 8 – **«Şimal Ulduzu»**nun işləri, loja üzvlərinin mühazirə mətnləri

K 9 - **«Şimal Ulduzu»**nun ayinləri

K 10-17 – loja üzvlərinin şəxsi işləri (Burada əlifba sırası pozulmuşdur)

Mən burada **N.N.Berberovanın** bilərəkdən etdiyi səhvləri yazmaq fikrində deyiləm. Ancaq onun adlarını çəkdiyi masonları vermək istəyirəm. Belə ki, onların **«Rus masonlarının Paris arxivi»**ndə adları yoxdur: **L.Abramoviç, D.A.Aitov, V.A.Bobrinski, A.Burşteyn, Qidoni, K.N.Qulkeviç, E.P.Demidov, A.Y.Dobrıy, P.D.Dolqorukov** və b.

**Q.P.Zbelle, Zelinskiy, B.A.Znosko-Borovskiy, L.V.Pelavin, N.T.Kiselyov, İ.H.Korostovets, N.A.Kudaşev, N.İ.Lazarevskiy, P.N.Malyantoviç, V.F.Minorskiy, Novosiltsev, K.M.Oku, A.A.Orlov, N.A.Otsup, Pançenko, Y.V.Polisenskiy, Pyanov, Y.Rappoport, İ.P.Reynqarden, S.Q.Svatikov, P.S.Stavrov, P.A.Tikston, S.Şerbatov, Baryatinski, Qavronski, Barta** və b.-nın adlarının dəyişilməsi kimi «xırda səhvləri» xatırlamağa ehtiyac yoxdur (Baxın: «Mifiçeskiy» masonskiy spisok **N.N.Berberovoy**: **Voprosı literaturı, 1990, № 4, s.160-234)**.

Bunlardan başqa **N.N.Berberovanın M.Qorkinin** şəxsi söhbətlərinə əsaslanan Amerika arxivləri də çox şübhəlidir. Adamı heyrətə gətirən odur ki, bütün rus ensiklopedik nəşrlər **N.N.Berberovanın** əsərlərinə əsaslanır. Bu da vətən tarixşünaslığında «elm mafiyası»nın vəziyyəti haqda düşünməyə vadar edir. Belə ki, həmin şəxslər hazırda bütün akademik institutları, «elmi» adları və nəşriyyatları idarə edir.

**«Şimal Ulduzu»** lojasının arxivini öyrənmək, çox heyf ki, hələ mason tarixçiləri qarşısında qoyulan məsələləri həll etmir. Çox güman ki, sənədlərin böyük bir hissəsi hələ əllərdədir. Hazırda ABŞ arxivində yerləşən sənədlərlə tanış olmaq imkanı əldə edə bilməmişik. İndiyədək Fransa Milli Kitabxanasının arxivində **«Şimal Qardaşları»** lojasının sənədlərini «aşkar etməmişik», **«Şimal Ulduzu»** lojasının «tarixi»nin **(P.A.Burışkin)** tam mətninin harada yerləşməsi məlum deyil və i.a.

Eyni zamanda yeni sənədlər rus mason tarixinin öyrənilməsində bir sıra aydınlıq gətirmişdir. Göstərilən vəziyyətdə mən qərara gəldim ki, ikinci hissənin əsas hissəsini rus masonluğunun müharibədən sonrakı illərinə həsr edim. Buna əlavə kimi 20-30-cu illərdə rus lojalarını həyata qaytaran bir neçə oçerk də əlavə etmişəm. Onlardan ən böyüyü, əlbəttə ki, Fransanın **«Böyük Şərq»** lojalar ittifaqının tarixinə aiddir. Bu sənədlər **«Rus lojalarının Paris arxivi»**ndə yatıb qalmışdır.

Bütün bunlarla yanaşı, rus masonluğunun müharibəyə qədərki mövqeyi də yaddan çıxmamışdır. Bir neçə misal gətirək. Birinci hissədə **L.D.Kandaurovun A.A.Lobanov-Rostovski** ilə məktublaşmasının böyük bir hissəsi nəşr olunmuşdur. **M.A.Osorqinin** şəxsi işində **L.D.Kandaurovun** İngiltərədə yaşayan digər rus masonu **B.V.İvanovla** məktublaşması saxlanılır. Paris masonları tərəfindən **«İngiltərədə rus masonları dərnəyi. Masonluq haqqında qeydlər» (London, 1928)** kitabçasına aid tənqidi məqalələr çap edilir və həmin kitabın ayrı-ayrı fəsillərinin müəlliflərinin adları aydın olur. Kitaba giriş **V.S.Şatelen**, məqalələr isə **B.V.Teletnev və B.V.İvanov** tərəfindən yazılmışdır.

İkinci məsələ **«Astreya»** lojasına aiddir. Birinci hissədə deyilir ki, «Müharibənin başlanmasına bir neçə ay qalmış lojanın işində heç bir yenilik olmamışdır. Yalnız **S.O. de Vittanın** radiasiyasından başqa…»

Həqiqətdə isə almanların Fransa ərazisinə təcavüzü ərəfəsində, 1940-cı il yanvarın 7-də **«Astreya»**nın tərkibində ciddi dəyişikliklər baş verdi, **S.O. de Vitta** ilə bərabər lojanın bir çox üzvləri, **M.İ.Reytborj, Q.S.Tixanoviç, Q.A.Karpov, N.M.Neklyudov, S.N.Tretyakov** da təzyiqə məruz qaldılar.

Mənə əvvəllər məlum olmayan sənədlərin çoxu Fransanın **«Böyük Şərq»** lojasının kitabxanasının arxivində tapılmışdır. Burada 1985-ci ildə Ayinlərin Böyük Kollegiyasına verilmiş **Al.O. Marşak** və **A.M.Yuliusun** materialları da var idi. Hazırda yalnız bir karta, sənəd aşkar edilmişdir ki, onlar da şərti olaraq birləşmiş **«Astreya-Şimal Ulduzu»** lojasının arxivi adlanır. Bu sənədlər 1966-1970-ci illərə aiddir və təqdim olunan işin başa çatması üçün mühüm sənədlər toplusu kimi qiymətləndirilə bilər.

Nəhayət, Ali Şuranın arxivində Fransa üçün də lazım olan bir neçə sənəd tapılmışdır.

Birinci hissənin nəşrindən sonra yeni sənədlərdən başqa mən masonluq tarixini öyrənən tarixçilərin yeni əsərlərini də tapmışam. Bunların arasında **L.B.Xassın** monoqrafiyasını, **V.İ.Startsevin «XX əsrin əvvəllərində rus siyasi masonluğu»** kitabını (SPb. 1996), **S.P.Karpaçevin «XIX əsrin sonu-XX əsrin əvvəllərində rus mason ziyalılığı»** (M., 1998) və Kiyev tədqiqatçısı **O.O.Krijanovskayanın** əsərləri də vardır.

**L.B.Xassın** rus masonluğunun tədqiqində başlıca nailiyyəti tədqiqatın birinci hissəsində verdiyi ədəbiyyat siyahısı olmuşdur. Özünün yeni işində **L.B.Xass** 1822-1921-ci illərə aid rus masonları haqqında ona məlum olan bütün məlumatları toplamışdır. Çox heyif ki, **L.B.Xass** nə Moskva, nə də Parisin arxiv fondlarında işləməmiş və öz faktlarını yalnız **N.N.Berberovanın** «şahidliyilə» əsaslandırır. Lakin **L.B.Xassın** verdiyi ən mühüm faktlardan biri,

məşhur filosof, tərcüməçi və naşir **D.E.Jukovskinin** 1909-cu ildə Parisin **«Əmək və Əsl Sadiq Dostlar»** lojasına qəbuludur. Qeyd etmək lazımdır ki, həmin lojaya 1905-ci ildə **M.A.Voloşin** qəbul edilmişdir, çox güman ki, **D.E.Jukovskini** də masonluğa o cəlb etmişdir.

**V.İ.Startsevin** kitabı mənbələrin araşdırılmasına və ara-sıra rus masonların qısa bioqrafiyalarına həsr olunub. **V.İ.Startsev** özünün köhnə səhvlərini düzəltsə də, yeni səhvlərə yol vermişdir. Startsev əsaslandırmadan inqilabaqədərki lojaların siyahısına **Q.Y.Aronson, P.A.Burışkin, A.P.Velmin, F.F.Makşev, N.P.Oqaryov, D.V. Filosofov, M.Z.Şaqal, E.Q.Şolpun** adlarını salmışdır. Çernov isə Saratov masonları haqqında məlumatlar toplamağa cəhd edərkən, V.İ.Startsev tərəfindən «şəksiz» mənbə kimi qiymətləndirilmişdir. Səhv adlar və familiyaların salınması kimi «xırdalıqlar» yəqin ki, nəzərdən qaçmalıdır. Amma bunları nəzərə almasaq görərik ki, əslində **V.İ.Startsev** öz işində praktik olaraq heç nə tədqiq etməmişdir.

**S.P.Karpaçovun** kitabı, əsasən, 2 mason lojasının «İntibah» və **«Dan Ulduzu»** üzvlərinin tərcümeyi-halına həsr olunub. Onun əsərində ən maraqlı hissələr masonların Dövlət Dumasında təmsil olunması, habelə masonların peşəkar fəaliyyəti ilə bağlıdır. Lakin müəllifin gəldiyi əsas nəticə «XIX-XX əsrlər ərəfəsində masonların rus tarixində praktik olaraq heç bir rol oynamadığı olmuşdur». Bu nəticə təəccüb doğurmaya bilməz, belə ki, əsərdə nəinki Rusiyada fəaliyyət göstərən **«Böyük Şərq»** lojası haqda, hətta rus masonlarının yarısı haqda heç bir məlumat verilmir.

Ukraynada mason tarixinə dair əsas yeri **O.O.Krijanovskaya** tutur. **D.E.Belinq, A.V.Nikovski, S.A. Yefremov** və b.-nın xatirələri və məlumatları ilə tanış olandan sonra mən əsərimin birinci hissəsinin 3-cü və 4-cü fəsillərinə ciddi əlavələr etdim.

Nəhayət, demək lazımdır ki, **N.V.Nekrasovun** XX əsr rus masonlarının həyatında iştirakı haqqında yeni nəşr kimi meydana atılmışdır.

**O.O.Krijanovskayanın** işi və **N.V Nekrasovun** haqqında məlumatlar və «təhlükəsizlik» xidməti arxivlərində yatan sənədlər onu sübut edir ki, mason tarixçilərini yeni-yeni tapıntılar gözləyir.

## Yeddinci fəsil
## Masonluğun Rusiyaya qayıtması
## (1989-1999)

s.331-343

1981-ci ildə aydın oldu ki, Parisdə yerləşən rus masonluğu artıq tarixin bir hissəsinə çevrilərək keçmişdə qalmışdır. Digər tərəfdən isə Rusiyada dəyişikliklər tələb olunurdu. Masonluğun Rusiyada təbliği üçün yeni gizli planlar tərtib olunur və qardaşlığın yeni inkişaf yolları hazırlanırdı. Bu məqsədlə 1981-ci ilin dekabrın 3-də Parisdə **«Böyük Fransa Lojası» (V.V.Bellin, İ.Q.Tinol, Q.Y.Smirnov) və «Böyük Fransa Milli Lojası»nın (S.S.Peltser, İ.A.Krivoşin, M.M.Mazor, A.A.Rimski-Korsakov)** üzvləri birgə görüş keçirmiş, lakin heç bir nəticə əldə edə bilməmişlər.

1988-ci ildə Parisdə **A.S.Puşkin** cəmiyyəti təşkil olundu ki, bu da Rusiya Birliyində 45 masonu (qardaş və bacılarını) – xüsusən rus mənşəli masonları birləşdirdi. Birliyin vitse-sədri S.S.Peltser oldu, üzvlərinin arasında **A.A.Tixomirov** da var idi. (Baxın: **Lipski A.B. Vozrojdenie masonstva v Rossii//Masonstva i masonı. Sbornik statey. Vıp. 1. M., 1994, s.64)**

Lakin SSRİ ərazisində ilk masonlar, çox güman ki, Ukraynada yaranmışdı, bunu 1989-cu il aprelin 20-də **«Astreya»** lojasının bu respublika ərazisində lojanın yaranması haqda çıxardığı qərara əsasən demək olar (Baxın: L.A.). Güman etmək olar ki, bütün bunlar ona gətirib çıxardı ki, sonda mason qərargahı Ukraynada özünü göstərə bilmədi və bir neçə şəxsin qəbul olunması ilə işini məhdudlaşdırdı. Məlumdur ki, Ukraynada da **«Tri Podporı»** («3 Sütun») lojası mövcuddur, lakin onun işi haqqında isə heç nə məlum deyil.

Rus masonlarının Parisdəki **«Rusiya Birliyi»** formal olaraq indiyədək mövcuddur, lakin Rusiya vətəndaşlarının mason işinə cəlb olunması məsələsi qalxdıqda qəbul olunma zamanı yenidən hərə öz ideyalarını təbliğ etməyə başladı.

1989-cu ilin əvvəlində Rusiya vətəndaşı, təhsilinə görə filosof olan Q.B.Derqaçev masonluq haqqında məlumatlandığı öz fransız tanışına müraciət edərək azad daşyonanların cərgəsinə qoşulmaq istədiyini bildirdi.

Məsələ **«Fransa Böyük Şərq Lojası»**nın rəhbərliyi tərəfindən müzakirə olundu və 1989-cu il martın 31-də Parisdə **«L'Oeuvre Fraternel lojası»**na rus təbəələrinin masonluğa qəbul olunması işi tapşırıldı. 1989-cu ilin 10 aprelində **Q.B.Derqaçevin** namizədliyi lojada müzakirə olundu, lakin üstündən yalnız bir il keçdikdən sonra 9 mart 1990-cı ildə **«L'Oeuvre Fraternel lojası»**nın birdən üç dərəcə yuxarı masonluğuna qəbul edildi. 1990-cı il dekabrın 4-də **Q.B.Derqaçev** rəsmi olaraq yeni bir rus namizədini, peşəsi rəssam olan şəxsi təqdim etdi. Yenə həmin Paris lojasında 1990-cı il dekabrın 13-də sonuncunun yenə birdən-birə 3 dərəcə yuxarı mason dərəcəsinə qəbulu baş verdi.

Uğurlu başlanğıc Rusiyada lojanın əsasının qoyulması məsələsini ortaya atdı. 1992-ci il aprelin 4-də **«Fransa Böyük Şərq Lojası»**nın rəhbər nümayəndələri, tərkibində «**L'Oeuvre Fraternel lojası**»nın hörmətli üzvü, tarixçi **A.Komb**, tərxis olunmuş polkovnik **A.B.Lipski** və başqaları olmaqla heyət Moskvaya gəldi. Ertəsi gün Moskva ətrafında yeni 5 rusiyalının masonluğa qəbulu mərasimi və uzun illərdən sonra ilk dəfə olaraq rus torpağında ənənəvi **«Severnaya Zvezda» («Şimal Ulduzu»)** adını daşıyan lojanın əsası qoyuldu. 1991-ci ilin noyabrında bu lojanın işi başlandı, eyni zamanda başda Q.B.Derqaçov olmaqla lojanın zabit heyəti müəyyənləşdi. Rus masonlar iclasların bütün protokol və sənədləşməsini rus dilində aparırdı. 1992-ci ildə «Fransa Böyük Şərqi»ndə rus masonları ilə işi Jak Orefis aparmağa başladı ki, o da həmin ilin aprelində Moskvada ikinci lojanı açaraq adını **«Svobodnaya Rossiya» («Azad Rusiya»)** qoydu (Hazırda **J.Orefis** maliyyə avantüralarında günahlandırıldığı üçün **«Böyük Şərq»**dən qovulub). Qeyd etmək lazımdır ki, «Böyük Şərq»in Böyük Ustası **Jan Rober Raqaşın** Moskvaya səfəri zamanı 1992-ci ilin iyulun 6-da Ostankino telekanalında həmin illərdə buraxılan **«İtoqi»** verilişində müsahibə vermişdir.

1993-cü il iyulun 11-də Moskvada **«Böyük Şərq»** lojası yeni 2 loja: **«Severnıe bratya» («Şimal qardaşları»)** və **«Devyat muz» («Doqquz ilahə»)** təşkil etdi ki, onların da üzvləri **«Şimal Ulduzu»** və **«Azad Rusiya»**nın üzvləri idilər. 1994-cü il iyulun 12-də Arxangelskdə **«Polyarnaya Zvezda» («Qütb Ulduzu») («Şimal Ulduzu»** tərəfindən) lojası təşkil olundu.

1992-ci il dekabrın 12-də Rusiya ilə işlərə başçılıq etmək üçün Parisdə «inzibati» loja seçildi ki, onun da adı **«Qriqori Vırubov»** oldu. Lojaya **A.V.Lipski** başçılıq edirdi. Oraya rus mühacirlərinin nəticələri – **«Fransa Böyük Şərqi»**nin üzvləri daxil olmuşdular ki, onlar da bəzi fransızlara nisbətən demək olar ki, heç bir fəallıq göstərmirdilər.

**«Qriqori Vırubov»** lojasının fəaliyyəti əsasən Rusiyadakı vəziyyət haqqında informasiyaya əsaslanmışdır. Loja üzvü **A.A.Tixomirovun** rəhbərliyi ilə **«Concorde et liberte»** adlı assosiasiya yarandı ki, onun da əsas məqsədi Fransa və MDB ölkələri arasında mədəni və fəlsəfi əlaqələr yaratmaq idi. Məsələn, assosiasiyanın təşəbbüsü ilə 1994-cü il yanvarın 28-də **«Qriqori Vırubov»** lojasının açıq iclasında məşhur yazıçı **A.A.Zinovyev** çıxış etmişdi. (Baxın: **Humanisme. Revic des Franc-Masons du Grand Orient de France. Juin 1994, № 276, p.84-85)**

Üzvlərin vahid mason işini yaratmaq əvvəl adını çəkdiyimiz **«A.S.Puşkin»** lojasının əsasını qoymuş **K.V.Milski** də cəhd göstərmişdir.

Onun məqsədi Parisdə yeni rus lojasını açmaq idi. Bu loja da **A.S.Puşkin** adlandırılaraq 1991-ci ilin yanvarında **«Böyük Fransa Lojası»** ilə ittifaqda yarandı (№ 1101), lakin heç bir ümumi siyasətə nail ola bilmədi.

**«A.S.Puşkin»** lojasının başçıları **«Azadlıq»** radiostansiyası ilə veriliş verə bildilər. Rusiyadan onlara cavablar gəldi və bir neçə rusiyalını Parisdə masonluğa cəlb etmək üçün dəvət etdilər. 1991-ci ilin məlum mart hadisələrindən dərhal sonra həmin ayın 30-da **«Fransa Böyük Lojası»** ilə ittifaqda olan Moskva **«Nikolay Novikov»** lojası təşkil olundu. Sonralar həmin fransız masonları tərəfindən 1992-ci ildə Peterburqda **«Sfinks»**, Xarkovda **«Qeometriya»**, 1993-cü il noyabrın 30-da Moskvada **«Lütesiya»** lojaları açıldı. **«Böyük Fransa»** və **«Böyük Şərq»** lojaları tərəfindən SSRİ ərazisində əsası qoyulmuş lojalar 1993-cü il iyulun 5-də Strasburqda Avropa mason müqaviləsi bağlandı ki, bu da müasir masonluğun ideologiyasının aydınlaşmasına yardım etdi **(Baxın: Avropa mason müqaviləsinin mətn layihəsi dəyişdirilmədən təsdiq olundu: Masonstvo i masonı. Sbornik statey. Vıp. 1. M., 1994, s.118-122).** Bütün dünyada mövcud olan masonluq bu sənədi kəskin tənqid atəşinə tutdu. Məsələn, «masonluğun başlıca məqsədi Avropada siyasi və sosial siyasətin təşkilini başlıca məqsəd kimi qarşısına qoyur» (elə orada, s.120) cümləsi masonluğun prinsiplərinə, yəni siyasətə baş qoşmamaq prinsipinə ziddir.

**«Liberal»** və **«Ardıcıl»** masonlar arasında münasibətlərin kəskinləşməsi seçdikləri yolun, cərəyanın ideya əsaslarına yenidən nəzər salınmasına səbəb oldu. Məsələn, 1994-cü il mayın 25-də **«A.S.Puşkin»** lojası 12 qeyri-fransız Paris lojalarının və **«Böyük Livan Lojası»** – Kedr üzvlərinin iştirakı ilə iclas keçirdi ki, orada «Böyük Fransız Lojası»nın Böyük Ustası **Anri Tor-Nuqyu** masonluğun universallığı haqqında məruzə ilə çıxış etdi. Məruzəçi sübut etməyə çalışırdı ki, Fransa mason ittifaqının axtarışları düzgün istiqamətdədir və «**Böyük Fransa Lojası»**nın ABŞ, Almaniya, Böyük Britaniya və başqa ölkələrdə tanınmaması düzgün deyil.

Masonların ardıcıllar qolu Rusiyada təbliğata bir qədər gec başladı. Əsas diqqət Fransaya gələn jurnalistlərə yetirilirdi. Ardıcıl masonların Rusiyada praktiki işin hörmətini usta **Q.B.Derqaçevin «Böyük Fransa Milli Lojası»**na keçməsi ilə başladı. 1992-ci il yanvarın 14-də Moskvada rus **«Astreya»** lojasının üzvlərinin köməyi ilə **«Harmoniya»** lojasının əsası qoyuldu ki, onun da rəhbərləri formal olaraq hörmətli usta – **Q.B.Derqaçev**, 1-ci mühafiz – **A.A.Rimski-Korsakov**, 2-ci mühafiz – **V.S.Şedlovski** təyin olundu. Elə həmin gün loja Moskva ədliyyəsinin şöbəsi tərəfindən qeydə alındı. 1992-ci ilin sentyabrında Moskvaya 7 yüksək dərəcəli fransız masonlarının nümayəndə heyəti gəldi (Onların arasında **M.V.Qarder** də var

idi). Bu heyət 12 rus vətəndaşını masonluğa cəlb etdi. 1992-ci il sentyabrın 7-də Moskvada «**Harmoniya**» lojasını rəsmi tanıdı və onu «**Böyük Fransa Milli Lojası**»nın siyahısına (№ 698) **(Actualites. Orient de Neuilly: Journal d'information de la G.L.N.F. Septembere-Octobre, 1992, № 49, p.9)** qatdı. Sətirlərin müəllifi **M.V.Qarderlə** tanış olmasa da, eşitdiyinə görə həmin şəxs Rusiyada ardıcıl masonluğun yaradılmasında əsas ilhamçı şəxs olmuşdur.

Rusiyada təsir dairəsi uğrunda 3 fransız lojasının mübarizəsi demək olar ki, 3 rus lojasının rəqabətinə çevrildi, məsələ hətta şəxsi nifrətə qədər ciddiləşmişdir. Bu lojalar **A.V.Lipskinin («Böyük Şərq» lojası), K.V.Milskinin («Böyük Fransa» lojası)** və **M.V.Qarderin «Böyük Fransa Milli Lojası»)** yaratdığı lojalar idi.

**A.V.Lipski** valideynlərinin miqrasiyasından sonra 1927-ci ilə qədər vətəni Simbirskdə nənəsi tərəfindən tərbiyə olunmuşdur. Valideynləri onu 1927-ci ildə Qırmızı Xaç vasitəsilə Sovet hökumətindən zorla Fransaya təhvil almışdılar. Təhsilini dini kollecdə almış, 1936-1974-cü ilə qədər onun həyatı Fransa ordusu ilə bağlanmışdır. Alman əsirliyindən – keçmiş ölüm düşərgəsindən – qaçmış, sonra isə **Şarl de Qollun** ordusunda Əlcəzairdə və Tunisdə vuruşmuş, müttəfiq qoşunların tərkibində Tulona ilk daxil olmuş, oradaca yaralanaraq 3 il qospitalda müalicə olunmuşdur. Sonra Baş Qərargah Akademiyasında təhsilini davam etdirmiş, Hind-Çin və Əlcəzairdə hərbi əməliyyatlarda iştirak etmiş, Fransa hərbi nazirinin tərcüməçisi vəzifəsində işləmişdir. 1974-cü ildə **A.V.Lipski** polkovnik rütbəsində istefaya çıxır. O, şərəfli «**Legion**» ordeni ilə təltif olunaraq Qanya şəhərində rus qocalar evində direktor işləmişdir. 1989-cu ildə vəzifəsini ataraq rus masonları ilə məşğul olmağa başlamışdır (**Liptski** hələ 1949-cu ildən mason olmuşdur). Lakin qeyd etmək lazımdır ki, **A.V.Lipski** heç vaxt Parisdə rus lojalarının iclaslarında iştirak etməmişdir. Masonların Rusiyada peyda olması ilə əlaqədar **A.V.Lipski «Böyük Şərq»** lojasında inzibati vəzifə tutmağa can atdı, belə ki, daha çox kağızda mövcud olan, əvvəlcə qeyd etdiyimiz «**Qriqori Vırubov**» lojasının əsasını qoydu.

**K.V.Milskinin** taleyi bambaşqa idi. Odessada anadan olmuş, 6 yaşında ikən anası ilə bərabər Serbiyada yaşayıb, 14 yaşından Çinə köçmüşdür. Artıq gənc illərində Xarbin şəhərində apardığı «şəxsiyyət azadlığı» haqqında söhbətlərinə görə birinci rus gimnaziyasından qovulmuşdur. **K.V.Milskinin** seçim və fikir azadlığına meyllənməsi baş verdi. Artıq özəl gimnaziyanı bitirdikdən sonra isə Pekin kommersiya və maliyyə kollecinə daxil oldu və oranı bitirdikdən sonra **K.V.Milski** 1930-cu illərdə Tyantszində orta əsr Çin hüququnu tədqiq etməyə başlayır. Eyni zamanda Çin

Kommunist Partiyasının kadrlarını hazırlamaq üçün açılmış xüsusi məktəbdə oxuyur. Lakin o, Çan Kay Şi tərəfindən maliyyələşən gizli faşist təşkilatı tərəfindən oğurlanır və 7 il həbsxanada yatır. Həbsdən azad olunduqdan sonra Pekin Universitetində klassik Çin ədəbiyyatını tədqiq etməyə başlayır. Sonra yenidən həbs olunur və ömrünün 11 ilini həbsxanalarda keçirir.

1966-cı ildə **K.V.Milskiyə** Fransaya getmək nəsib olur. Əvvəlcə o, yezuitlərlə Medon şəhərində yaşayır və Prinston Universitetinin maliyyə yardımı ilə Çin linqvistika layihəsində iştirak edərək, fəal tərcüməçilik və elmi işini davam etdirir. 1974-cü ildə Parisdə dissertasiya müdafiə etdikdən sonra **K.V.Milski** Fransanın cənubuna, Eks-en Provansa gedərək müəllimlik fəaliyyətini davam etdirir. O zaman onun masonlarla əlaqəsi müvəqqəti olaraq kəsilir. Qayıdarkən artıq o, «**Böyük Fransa Milli Lojası**»nda rus bölməsini görmür və ona görə də işini fransızlarla aparır.

**K.V.Milski** tərəfindən «**A.S.Puşkin**» lojasının təşkili «**Böyük Fransa**» lojasının rəhbərliyi tərəfindən heç də yaxşı qarşılanmır. **K.V.Milskinin** rus həmfikirləri elə də çox olmur, buna görə də «**A.S.Puşkin**» lojasının fəaliyyətini davam etdirmək məqsədilə lojaya serb və fransızları qəbul edirlər. Vəziyyət o qədər gərginləşdi ki, lojanın təşkilatçılarından biri ardıcıl masonluğa keçdi.

**K.V.Milski**, yoldaşlarının sözlərinə görə, bəzi masonların yüksək dərəcə və vəzifə tutmasının tərəfdarı deyildi. Məsələn, Fransa Ali Şurasının rəhbərliyi ilə ideya toqquşmalarına məruz qaldığına üçün ona ən yüksək 33-cü dərəcə verildikdə, o bütün dərəcələrdən imtina etmişdir. Bütün bu hadisələr rus masonluğunun «**Böyük Fransa**» lojasında onsuz da rahat keçməyən inkişafına mane olurdu.

**M.V.Qarder** Saratovda anadan olmuş, lakin 1922-ci ildən Fransada yaşamışdır. 1934-cü ildə bələdiyyə kollecini qurtardıqdan sonra könüllü olaraq Fransa ordusuna daxil olur, Somyure şəhərində kavaleriya məktəbini bitirdikdən sonra eskadron komandiri olur. Almaniya ilə müharibənin əvvəlində **M.V.Qarder** Belçika cəbhəsində özünü göstərə bilir və 1940-cı ilin iyulunda Fransa kəşfiyyatının əməkdaşı olur. Həmin ilin sentyabrında o, işğal olunmuş zonaya gizli iş aparmaq üçün göndərilir, 3 ildən sonra faşistlər tərəfindən həbs edilir. Osvensim, Buhenvald, Flossenburq və Flyo kimi ölüm düşərgələrini keçərək çox çətinliklə sağ qala bilir. İki dəfə sovet əsirləri ilə bərabər qaçmağa səy göstərmiş, az qala güllələnmə hökmü almış və faşist ölüm düşərgələrinin ən ciddi cəza dəstələrində saxlanılmışdır. Müharibənin sonuna yaxın Amerika işğal zonasına qaça bilmişdir. **M.V.Qarder** fransız kəşfiyyatında işini davam etdirmiş, Əlcəzair və Hind-Çində xüsusi kəşfiyyat tapşırıqlarında yaxından iştirak etmişdir. Sonra informasiya şöbəsində işə

başlamış, ali hərbi məktəblərdə dərs demişdir. **M.V.Qarder** 1964-cü ildə **«Şərəf nişanı»** ordeni ilə təltif olunmuş və polkovnik rütbəsi ilə ordudan tərxis edilmişdir. O, Münhendə Qərb-Şərq münasibətlərini öyrənən Mərkəzin vitse-sədri vəzifəsini tutur, Strateji Məsələlər İnstitutunun məsləhətçisi olur, bir neçə ictimai təşkilatların üzvü seçilir, aktiv tarixi-publisist işə başlayır, kommunist cəmiyyəti və kəşfiyyat fəaliyyəti haqqında bir sıra kitablar nəşr edir, **«Russkaya mısl»** qəzetinin səhifələrində mütəmadi olaraq SSRİ-də və Rusiyada baş verən hadisələrin analizi haqqında məqalələr çap etdirir.

**M.V.Qarderin** 1964-cü ildən bəri həyatının ən mühüm işi masonluq olmuşdur. O, artıq ordunu tərk etdikdən sonra vaxtını bu işə sərf edə bilirdi. 1964-1965-ci illərdə **«Böyük Fransa Milli Lojası»**nın təşkilində yaxından iştirak edir, mason lojasının çoxsaylı bölmələrində işləyir, 1980-ci illərin ikinci yarısında «böyük komandorun ən böyük leytenantı» (fransız ardıcıl masonluğunun ali dərəcəli rəhbərinin I müavini) vəzifəsini daşıyır. **M.V.Qarder** öz dövründə fransız və Amerika masonları arasında münasibətlərin yaxşılaşmasında böyük rol oynamışdır.

**M.V.Qarder** inanırdı ki, Rusiyada masonluq yenidən bərpa olunacaq və ilk dəfə olaraq **M.Qorbaçov** «perestroyka»sının olacağını əvvəlcədən demişdir. Belə məlumatlar var ki, 1990-cı illərin əvvəllərində **M.V.Qarder** bizim ölkə rəhbərlərinə məktub göndərərək masonluğun leqallaşmasının zəruriliyini bildirmişdir. Lakin kitab müəllifinin bu haqda heç bir sənədli sübutu yoxdur.

**M.V.Qarder** masonluqda avtoritetə və hüquqa malik idi (Milskidə bu yox idi). Bu da ona gətirib çıxartdı ki, Rusiyada ardıcıl masonluğun fəaliyyəti **«Liberal»** masonluğa nisbətən daha güclü idi. Lakin **M.V.Qarderin** özü yaratmaq istədiyi azad rus masonLuğunu görə bilmədi. 3 may 1993-cü ildə Klişi qospitalında vəfat etdi.

1992-1993-cü illərdə **«Böyük Fransa Milli Lojası»** ilə ittifaqda yeni lojalar: Moskvada – **«Lotos» («Şanagüllə»)** (12.10.93), Peterburqda – «**Novaya Astreya» («Yeni Astreya») (1995-ci ildən «Astreya»)**, Voronejdə – **«Qamayun»** lojaları açıldı. Yeni «ardıcıl» mason lojalarının sayının artması Rusiyada yeni üzvlərin qəbulunun artması və **«Fransa Böyük Şərqi»**nin və **«Fransa Böyük Lojası»**nın masonlarının nizamlanması sayəsində olmuşdur. Məsələn, 1994-cü ildə Xarkovda **«Qeometriya» («Həndəsə»)** lojasının və Peterburq «Sfinks» lojasının, 1996-cı ildə Moskvada **«Severnoy Zvezdı» («Şimal Ulduzu»)**, 1997-ci ildə Arxangelskdə **«Polyarnoy Zvezdı» («Qütb Ulduzu»)** lojasının üzvlərinin ardıcıllara qoşulması baş vermişdir. Rusiyada eyni zamanda ustaların ali

dərəcə strukturları da müəyyənləşdi, Sokrat (4-14 dərəcə) (№ 902), rozenkreyserin suveren kapitulu Rusiya Rozasında (18 dərəcə) (№ 903), areopaq Müqəddəs Georgi (30 dərəcə) (№ 904), tribunat Oziris (31 dərəcə) (№ 910), komsistoriya Mixail Qarder (32 dərəcə) (№ 911).

Rusiya mason tarixinin ən zirvə nöqtəsi 1995-ci il iyulun 25-də Moskvada **«Böyük Fransa Milli Lojası»**nın köməyi ilə təşkil olunan «ardıcıl» **«Böyük Rusiya Lojası»** oldu.

Hazırda bu loja ilə ittifaqda 11 bölmə işləyir:

№ 1 – **«Harmoniya»** (Moskva)

№ 2 – **«Lotos»** (Moskva)

№ 3 – **«Astreya»** (Sankt-Peterburq)

№ 4 – **«Qamayun»** (Voronej)

№ 5 – **«Avrora»** (Moskva) (Bu ingilisdilli loja 1996-cı il iyunun 23-də yaranıb) (Baxın: Moskovskiy komsomolets, 1996, 9.VII. c.4)

№ 6 – **«Qütb Ulduzu»** (Arxangelski)

№ 7 – **«Yuniter»** (regionlararası loja, yığıncaqlar Moskvada keçirilir. Açılışı 1998-ci ilin yazında olub.)

№ 8 – **«Dörd tac qoyulmuş şəxs»** (Dörd tac) (Moskva, tədqiqat lojası, 12.06.98)

№ 9 – **«Şimal Üfüqü»** (Moskva) Bu erməni lojası, 1998-ci il noyabrın 28-də açılıb.

№ 10 – **«Qardaş Məhəbbəti»** (Moskva, 6.03.99). Xarici vətəndaşlar, xüsusən də türkiyəlilər üçün nəzərdə tutulmuşdu.

№ 11 – **«A.S.Puşkin»** (Moskva, 12.06.99). 6.06.96-cı ildə hələ Qarder tərəfindən Qədim və Qəbul edilmiş Şotland Nizamnaməsinin 33-cü dərəcəsinə qəbul edilmiş 10 rus masonu Rusiya Ali Şurasını təşkil etdilər ki, bu da nizami masonluğun Rusiyada tam azad olduğunu sübut edirdi.

**Böyük Loja** və **Rusiya Ali Şurasının** nüfuzunun artması faktı onunla sübut olunur ki, hazırda onlar Dünya mason lojalarının böyük əksəriyyəti, eyni zamanda ingiltərənin **«Böyük Ana»** lojası və əsası ilk illərdə qoyulan **Ali Şura** tərəfindən tanınır.

**«Böyük Loja»** və **Rusiya Ali Şurasının** əsasının qoyulması **«Fransa Böyük Şərq Lojası»**nda tənəzzülün dərinləşməsinə təsir etdi. Keçmiş «liberal» masonların nizami olması onu göstərdi ki, Rusiyada **«Böyük Şərq»** lojasını yaratmaq planları hazırda mümkün deyil **[Baxın: Proekt konstitutsii Velikoqo Vostoka Rossii: Suçkov İ.V. Sovremennıe ustavı volnıx kamenşikov Rossii (seredina 90-x qq. XX veke)//Masonstva i masonı. Sbornik statey. Vıpusk II. M., 1997, s.101-126].** 1996-cı ilin noyabrında baş verən vəziyyəti müzakirə edən **«Fransa Böyük Şərq Lojası»**

qərara aldı ki, Rusiyada olan bütün lojalarını bağlasın, lakin 1997-ci ilin ortalarında yenidən həmin lojalar açıldı və **«Moskva»** adını daşımağa başladı, 1998-ci ilin yayında isə ənənəvi **«Şimal Ulduzu»** adı altında işləməyə icazə verdi. Formal olaraq **«Fransa Böyük Şərqi»** ilə ittifaqda Sankt-Peterburq – **«Voskresenie»** («Dirilmə») lojası da fəaliyyətdədir.

**«Fransa Böyük Lojası»** da tənəzzül keçirir. Belə ki, 1997-ci ilin yayında faktiki olaraq Moskvanın **«Lütesiya»** lojası işini dayandırdı və onun nəzdində olan yeganə **«Novikov»** (Moskva) lojası qaldı.

Fransız, alman, italyan və fin masonluğu aktiv olaraq SSRİ-nin keçmiş respublikalarına soxulur. Məsələn, 1991-1998-ci illərdə Vilnüs, Tallin, Riqa, Lvov, Kiyev, Kişinyov və Odessada mason lojaları açıldı, lakin onların hamısı rus masonlarından asılı deyil, hətta heç bir əlaqələrə də malik deyillər. Qeyd edək ki, rus mənşəli masonlar – rus mühacirlərinin nəticələri ABŞ, Argentina, İsveçrə, Kanada lojalarında fəaliyyətdədirlər.

170 ildən çox dövr ərzində qərib ölkələrdə gizlicə fəaliyyət göstərən rus masonluğu tarixin bir hissəsidir. Bu hərəkatın yeni dövrü başlayır. Bu dövrün necə olacağını artıq zaman göstərəcək. Qeyd edək ki, quruculuq prosesi çox çətin olacaq, belə ki, mühacirətdə olan «ilk dalğa»nın masonları demək olar ki, vəfat etmişlər və rus masonluğunun ən yaxşı ənənəsi davam edəcəkmi? Bu məlum deyil.

**Rəhim Rəisniya**

# İRAN VƏ OSMANLI XIX ƏSRİN ASTANASINDA

Tehran, 1374-h.t (fars dilində)

**Mahmud Mahmud** belə hesab edir ki, İran millətinin bədbəxtçiliyi və qara günləri İranda farmason adı peyda olandan və onların gizli təşkilatçıları Londonun işarəsi ilə İran torpağında təşkil ediən gündən başladı.

O, xüsusi ürək yanğısı ilə İranda farmasonluğun yayılmasından söhbət açır: «XIX əsrin əvvəllərindən başlayaraq Avropaya, xüsusən Londona gedən hər bir şəxsi gizli dərnəklərə dəvət edir, onlardan imza alır, onları qardaş elan edir və beləliklə, onların ağızlarını möhürləyirdilər. Bu adamlar **«azadlıqsevənlərin»** vurğunu olur və onların quluna çevrilirdilər. İranda işləyən ingilis məmurlarının İranın hər yerində bu cür qardaşları var idi. Məmurlar onları axtarıb tapır və onlarla gizli işlər görürdülər. İngilislərin belə dərnəkləri təkcə İranda deyil, Asiya və Afrikanın bütün ölkələrində var idi. İngilis dövlətinin rəsmi məmurları bu ölkələrdə qərib sayılmırdılar. Bu məmurların azadlığa vurğun çoxlu qardaşları var idi və onlar ingilisləri çox sevdiklərindən onları qərib saymırdılar. Onlar rastlaşdıqları zaman bir-birini tanıyır və bir-birinə yaxınlaşırdılar».

O, İranda satqın dövlət adamları arasında faramasonluğun yayılmasının psixologiyasına və dərinliyinə nəzər yetirmişdir:

«İnsan **Fətəli şahın, Məhəmməd şahın** və **Nəsrəddin şahın** sarayında olan dövlət adamlarının əməllərini və bioqrafiyasını öyrənən zaman görür ki, onlar hamısı çürük, haqsız, laqeyd, qayğılı və işsiz adamlardırlar. Sanki onların müqəddəratı onların öz əllərində deyildir. Onların öz iradələri yoxdur. Bunlar İran məmləkətinə sahib olan şəxslər deyillərmi? İranın şahdan və baş nazirdən qeyri digər sahibi vardır. **Mirzə Əbuqasım Qaimməqamı** bir il belə baş nazir olmağa qoymayanda, **Hacı Mirzə Ağasını** 14 il baş nazirlikdə saxlayanda aydındır ki, bu şahın işi deyil. Həmçinin **Mirzə Tağı xan Əmir Kəbiri** qüdrəti və bacarığı ola-ola məhv edirlər, əvəzində **Mirzə Ağa xan Nurini** baş nazir vəzifəsinə əyləşdirirlər. Hamı başa düşür ki, bu şahın işi deyil. Bu başqasının əlidir ki, **Mirzə Tağı** xanı öldürür və **Mirzə Ağa xanı** yerində əyləşdirirlər. Farmasonlar dərnəyinə daxil olmaq üçün tərtib olunan mərasimləri yeni daxil olan üzvlər müşahidə etdikdə mat qalırlar və ixtiyarları əllərindən gedir. Müşahidə etdiyi şeylərin müqabilində özlərini itirirlər. Bu zaman onlardan imza alır və onlar

ömürlərinin axırına qədər onlara bağlı olurlar. Geriyə qayıtmağa artıq yol qalmır və bu şəxs dünyanın bütün əhalisinin tam xoşbəxt olduğu vəd olunan cənnətə çata bilər. Bu o zamandır ki, bütün yer üzünü **azadlıq, qardaşlıq** və **bərabərlik** bürüyəcəkdir.

Amma bəziləri çalışırlar ki, farmasonluğun siyasi əhəmiyyətini və rolunu azaltsınlar. İranlıların zehnində belə bir etiqad yaranmışdır ki, farmasonluq gizli və şeytani bir silahdır, ingilislərin diplomatik zərradxanasında (arsenalında) mövcuddur və bütün bunlar təxəyyül və əfsanədən başqa bir şey deyildir. Bu elə bir əfsanədir ki, onun təlqin edilməsinə bir sıra İran yazıçıları, o cümlədən, **Mahmud Mahmud** və **İsmayıl Rainzadə** cəlb olunmuşlar. İngilis diplomatı **Denis Rayt** 1911-ci ildə Temza çayının sahilində dünyaya gəlmişdir. O, 1953-cü ildə doktor **Müsəddiq** dövləti süqut etdikdən sonra ingilis səfirliyini yenidən açmaq üçün Tehrana gəlmiş və 1971-1993-cü illərdə İngiltərənin İranda səfiri olmuşdur. O, müəllifi olduğu **«Farmasonluq – ingilislərin gizli silahıdır»** adlı kitabında belə bir nəticəyə gəlmişdir: **«İranlılar arasında ingilislərin farmasonluqdan şeytani məqsədlər üçün istifadə etmələri barəsində yayılmış etiqadlarını təsdiq edən heç bir sənəd tapmamışıq. İngilislər fransızlardan fərqli olaraq farmasonluqdan öz mədəniyyətlərinin yayılması üçün istifadə etməmişlər (guya ki, farmasonluq mədəniyyətin yayılması üçün bir vasitədir). İngilislər farmason təşkilatlarına üzvlərin cəlb edilməsi və İranda fəaliyyət göstərən lojaların öz farmAson təşkilatlarına birləşdirilməsi yolunda heç bir iş görməmişlər. Bütün hallarda təşəbbüs, adətən, iranlıların öz əlində olmuşdur. Hərçənd ki, iranlıların farmason olmalarının əsl səbəblərini araşdırıb öyrənmək qeyri-mümkündür. Belə bir ehtimal vardır ki, onların çoxu bu yolla güclü Avropa dövlətlərindən birində sığınacaq tapacağına ümid bəsləyir, yaxud nüfuzlarının artacağına inanırdılar». Cavad Şeyxülislami** bu fikri «həqiqətdən uzaq olmayan» hesab etmiş və yuxarıda adı çəkilmiş kitabı araşdırarkən onun qeyd edilməsini düzgün saymışdır. Özlərinin göstərdiyi kimi, «onların məqsədi, əlbəttə, o deyildir ki, Şərqdə farmason cəmiyyətlərinin rolunu azaltsınlar». Və onların təsəvvürü budur ki, Avropa müstəmləkəçiləri şərqlilərin malik olduqları əxlaq və adətlərindəki psixoloji həssaslıqdan istifadə edərək belə bir nəticəyə gəlmişlər ki, Şərq ölkələrinin məhsuldar və zəngin torpaqlarını işğal etmək üçün bu ölkələrə əsgər, dənizçi və tacir göndərməkdən əlavə, bu ölkələrin xalqlarının şüurlarına hakim olmaq lazımdır. Bu vəzifənin öhdəsindən farmason təşkilatları çox yaxşı gələ bilərlər. O zaman **Nəsirəlmülk** və **Vosuqəddövlə** kimi məşhur farmasonların adını çəkməklə bildirirlər ki, bunlar malik olduqları

ictimai, siyasi və ailə təcrübələri əsasında hər farmason cəmiyyətinin üzvü olub-olmalarından asılı olmayaraq tutduqları hər bir vəzifədə Britaniya siyasətinin himayəçisi və təbliğatçısı kimi meydana çıxırdılar.

Sonra da qeyd edirlər ki, bir sıra İran farmasonlarını tanıyırıq ki, ömürləri boyu İrana zərər yetirmədən İran siyasəti və mədəniyyətinə mühüm xidmətlər etmişlər. Baxmayaraq ki, farmason cəmiyyətlərinin üzvü olmayan bir çox xainləri də tanıyırıq. Yazdıqlarımızla onu bildirmək istəyirik ki, onlar farmason təşkilatlarına üzv olmaqla istismarçılara xidmət etməkdə və milli mənafelərə xəyanət etməkdə idilər. Amma belə nəzərə çarpır ki, açıq gözlə farmason qardaşlığının halqasını qulaqlarından asanlar anlaya-anlaya Vətənə xəyanət yolunu seçmişlər. Bunların arasında elə şəxslər olmuşdur ki, maraq, sadəlövhlük, hiylə, zirəklik və ya bilməməzlik səbəbindən farmasonluq toruna düşmüşlər. Bütün hallarda onlarla Allah yanında haqq-hesab çəkiləcəkdir. Onların təqsirkar olub-olmamaları müxtəlif sənədlərdə əks olunmuşdur və indiyə kimi bu sənədlərin çox cüzi hissəsi çap olunmuşdur. Eyni zamanda farmason lojalarına daxil olma yolları İran kimi asılı ölkələrdə müstəsna olaraq xəyanət olmayan bir nöqtədə qurtarır və istisnaları qayda kimi qəbul etmək lazım deyildir. Kitabın tərcüməçisi **Kərim İmami** kitabın müqəddiməsində göstərmişdir ki, yuxarıda adı qeyd olunan kitabın müəllifi İngiltərənin təcrübəli bir diplomatıdır. O, Britaniya taxt-tacına uzun müddət xidmət etdikdən sonra təqaüdə çıxmış və tarix yazmağa başlamışdır. Bu səbəbdən təəccüblü deyildir ki, müəllif hadisələrə tərəfkeşlik nöqteyi-nəzərindən baxır və belə mövqe bitərəf tarixçinin mövqeyi deyildir. Belə ki, kitabda İngiltərənin və İranın farmason əlaqələrinə zahirən az yer ayrılmışdır. Hərçənd ki, kitabın tam bir fəsli (13-cü fəsil) bu əlaqələrə aid edilmişdir. Müəllif fəslin sonunda belə bir nəticəyə gəlir ki, ingilislər farmasonluqdan sirli və məkrli bir silah kimi istifadə etməmişlər. **Lakin həqiqətən axırıncı cümlə budurmu? Müəllif bütün həqiqəti demişdirmi? Yaxud bütün diplomatların xəstəliyi kimi həqiqətin bir hissəsini bəyan etmiş, digər hissəsini isə gizlətmişdirmi?** Axırda iki məsələni nəzərə çatdırır. Birincisi budur ki, 12-ci fəsil kitabın ən qısa fəslidir. Müəllif istəsəydi İran və Britaniya farmason əlaqələri barədə də daha çox məlumat verərdi; İranın ən azı on farmason lojası Şotlandiyanın böyük ustadlarının təsiri altında idi. İkinci məsələ odur ki, müəllifin adlarını çəkdiyi qədim farmasonların bir neçəsi açıq-aydın bütün hallarda dövlətin (Britaniya dövləti) yaxşı dostları hesab edilirdilər. Və belə dostların hazırlanmasına kömək edən dərnəklər yəqin ki, həmin dövlətin siyasi məqsədlərinin həyata keçməsinə müəyyən təsir göstərmişlər. Digər tərəfdən **Denis Rayt**

İngiltərənin rolunu azaltmaqla fransızların iranlıları mason lojalarına cəlb etmələrinin əhəmiyyətini qabartmaq istəyir.

**«Heç bir şübhə yoxdur ki, İran farmasonluğunun tarixi ingilislərlə deyil, fransızlarla bağlıdır və birincilik onlara aiddir. İlk iranlı farmasonu Əsgər xan Əfşar olmuşdur. O özünün Parisdə diplomatik fəaliyyəti zamanı 1808-ci ildə farmason sıralarına daxil olmuşdur. Ondan yarım əsr sonra İran farmAsonluğunun atası sayılan Mülküm xan yenə də Parisdə farmAsonluğa qoşulmuşdur».**

Amma biz bilirik ki, Fransada ilk farmason lojalarının baniləri ingilislər olduğundan Fransada təşkil olunan lojalar Şotlandiyanın, İrlandiyanın və İngiltərənin farmason şöbələrinin filialları olmuşdur. Sonrakı dövrlərdə ingilislərin Fransanın farmason lojalarına təsiri o qədər güclü olmuşdur ki, müxtəlif şəraitlərdə bu lojaların üzvlərindən həm Fransada, həm də başqa dövlətlərdə siyasi məqsədlər üçün istifadə etmişlər. Belə ki, Fransanın «**Qrandoriyan**» farmason lojasının üzvləri İranda iradələrindən asılı olmayaraq və açıq şəkildə ingilis lojalarının hətta İngiltərənin Xarici İşlər və Müstəmləkələr Nazirliyinin gizli siyasi planlarının yerinə yetirilməsi istiqamətində işlər görürdülər. İranda farmasonluğun yayılması və iranlıların bu inkişaf edən cərəyan ilə tanışlığı 4 istiqamətdə həyata keçirilmişdir.

**1. Siyasət məmurları (diplomatlar).** İngiltərənin siyasətini planlaşdıranlar İranda öz siyasətlərini həyata keçirmək üçün İranda farmason təşkilatlarının yaradılmasını və iranlıların farmAson olmAlarını lazım bildikləri gündən başlayaraq İrana gələn ingilis səfirlərinin əksəriyyəti İrana farmason olaraq göndərilirdilər. Səfirlər İranda çoxlu sayda farmason qardaşlığı halqalarını İranın siyasət və saray adamlarının boyunlarına keçirir və onları mason dərnəklərinin toruna salırdılar. **Mirzə Əbilhəsən xan Elçini** farmAson lojasına qəbul etmiş **ser Qrezei** onunla birlikdə İngiltərənin dövlət naziri kimi İrana yola düşmüşdü. Bu zaman cibində onu İranda böyük ustad elan edən fərman gizlədilmişdi. O**, Mirzə Əbülhəsən xan Elçini Fətəli şah Qacara** səfir kimi təqdim etmişdir. Bir müddət sonra şah **Mirzə Əbülhəsən xanı** onu hökumət başına gətirmişdi.

2. **İran səfirləri, diplomatları və təhsil üçün Avropaya gedən tələbələr. Əsgər xan Əfşar Urumi və Mirzə Əbülhəsən xan Elçi**. Bu iki şəxs farmason toruna düşmüş ilk iranlılar idilər. Birincisi 1808-ci ildə Fransada **Napoleonun** sarayında səfir olarkən Şotlandiyanın **«Böyük farmason»** lojasına tabe olan Fransanın **«Fəlsəfə»** lojasına daxil oldu. İkincisi 1810-cu ilin iyun ayında Londonda xüsusi bir ziyafət zamanı farmason qardaşlarının sırasına daxil oldu və çox qısa bir zamanda farmason dərəcələrini bir-bir keçərək çox qiymətli farmason dərəcəsinə yetişdi və ali cənab ləqəbinə layiq görüldü. Sonralar

Avropaya gedən çoxlu sayda İran məmurları farmason torlarına düşdülər. Belə ki, 1857-ci ildə **Fərrux xan Əminəddövlənin** başçılıq etdiyi diplomatik heyətin 7 nəfəri Parisdə qrup halında Fransanın **«Qrandoriyan»** lojasına bağlı olan **«Səmimi dost»** lojasına daxil oldular və üç il sonra İranın Fransadakı səfiri və onun üç nəfər işçisi Parisdə həmin lojaya üzv qəbul edildilər. **Mirzə Saleh Şirazi və Mirzə Cəfər Fərahani** də İngiltərədə təhsil aldıqları 1817-1818-ci illərdə bir-birindən ayrı olaraq farmason lojalarına daxil olmuşlar. İngiltərənin siyasi quruluşuna valeh olmuş bu iki cavan həmin ölkəni azadlıq ölkəsi adlandırmışlar. Ölkələrinə qayıdandan sonra onlar ingilislər üçün informasiya mənbəyinə çevrildilər. Sənədlərdən aydın olur ki, onlar vətənə hiss olunacaq dərəcədə xəyanət etməmişlər. **Mirzə Saleh** sadəlövhcəsinə özünün fəramuşxanaya daxil olması barədə söhbət açır: «Dekabr – 1817-ci il. Uzun müddət idi ki, fəramuşxanaya daxil olmaq istədiyimi bildirmişdim. Lakin imkan olMURdu. Fəramuşxananın böyük ustadı **Mister Parsini** gördükdən sonra o, fəramuşxanaya gəlməyim üçün gün təyin etdi. May – 1818-ci il. **Mister Parsi** və **Pornel Darsi** ilə birlikdə fəramuşxanaya daxil olduq. Şam yeməyi yedik. Saat 11-də qayıtdım. Bundan artıq yazmaq caiz deyildir».

3. **Hindistana alış-veriş üçün gedən tacirlər**. Hindistanda XVIII əsrin birinci yarısından etibarən fəaliyyət göstərən tacirlər müxtəlif lojalara cəlb edilirdilər və qayıdan zaman bu yeni yaranmış əmtəəni də özləri ilə gətirirdilər.

4. **İranlıların başqa bir qrupu.** İranlı tacirlərin əksəriyyətini təşkil edən Azərbaycan türkləri ticarət məqsədi ilə Osmanlı İmperiyasına və Misirə gedir və orada Fransada tərbiyə almış farmasonlarla tanış olurdular. Qahirədə və İstanbulda onlardan təlimat alır və İrana qayıtdıqdan sonra onların fikirlərini yayırdılar.

**Səid Nəfisi** farmasonların toruna düşmüş şəxsləri belə xarakterizə etmişdir: «**İnsafla demək lazımdır ki, bir qrup Adamların arasında çox az da olsa elə adamlar meydana çıxırdı ki, onların niyyətləri pak idi. Bu mənada ki o dövrün saray zülmündən, saray adamlarının əməllərindən bir qrup adam cana gəlirdi. Bu adamların malı, canı, namusu sarayın və saray adamlarının tamahına və talançılığına məruz qalırdı. Yaxud tayfalararası keşməkəşlərdən, ruhanilərin riyakarlıq, hətta tamahından təngə gəlirdilər. Azadlığı sevən və mübariz ruhlu belə adamlar vəziyyətdən çıxış yolu axtarsalar da, tapa bilmirdilər. Yeganə çıxış yolu ya farmasonlarla yaxınlıq etmək, ya da sufilərə, hətta babi və bəhayilərə qoşulmaq idi. Lakin belə adamlar adətən azlıq təşkil edirdilər. Farmason bazarlarının ən çox xiridarları və dəllalları vəzifəpərst,**

**tamahkar adamlar idilər. Onlar həvəslərinin və şəhvətlərinin odunu söndürmək üçün farmason ideyalarına üz tuturdular».**

Maraqlı budur ki, **Tağı Şahin** farmason ideyalarının İrana nüfuz etməsinin ilk dövrünü qiymətləndirmiş və bu barədə belə yazmışdır: **«İngiltərədə farmason cərəyanı XVIII əsrin əvvəllərində feodalizm əleyhinə liberal-burjuaziya islahatlarının həyata keçirilməsində müsbət rol oynadığı kimi, İranda da XIX əsrin ikinci yarısında liberal-burjuaziya islahatlarının həyata keçirilməsində İran ziyalılarının qoşulduqları farmason cəmiyyətlərinin mütərəqqi fəaliyyəti nəzərə çarpır».**

Farmasonluğun İranda yayılmasının ilk illərindən başlayaraq **Mülküm xanın** birinci fəramuşxanasının təşkil olunması dövrünə qədər (1859) az miqdarda iranlının xaricdə farmasonluğa qoşulduqlarına baxmayaraq İranda mütəşəkkil farmason təşkilatı yox idi. Sonra da görəcəyimiz kimi **Mülkümün** fəramuşxanası da uzunömürlü deyildi: «**Cameyi Adəmiyyət**» («İnsanlıq cəmiyyəti») və «**Əncüməni uxuvvət**» («Qardaşlıq əncüməni») təşkilatları məşrutə inqilabına qədər fəaliyyət göstərmələrinə baxmayaraq həqiqətdə farmasona bənzər qeyri-rəsmi lojalar idilər. Deyə bilərik ki, məşrutə inqilabı zamanı İranda yaradılmış **«Oyanış»** lojasının təşkilinə qədər İngiltərənin və Fransanın əzəmətli lojaları tərəfindən rəsmi olaraq tanınan heç bir loja İranda təşkil edilməmişdir.

**Hamid İlqar** İranda etibarlı və icazəli farmason lojalarının gec təsis olunmasının səbəbini xristian iranlıların sayının İranın xaricdə fəaliyyət göstərən dövlət qurumlarında çox və ölkə daxilində isə az sayda olmalarında görür. **Mülkümün** və atasının fəramuşxanaya başçılıq etmələri, **Nəriman xan Ərməni, Nəzər ağa Asuri** kimi şəxslərin İran farmasonları arasında məqamlarının yüksək olması, İranda yaşayan xristianların İranın **«Oyanış»** lojasının təşkilində xüsusi rol oynamaları, belə bir həqiqəti bəyan edir ki, ilk dövrlərdə mason lojalarında xristian iranlılar üstünlüyə malik olmuşlar. Lakin sonralar Misir və müsəlman türklərinin farmason cəmiyyətlərində iştiraklarından sonra dünyanın farmason təşkilatları tədriclə İran müsəlmanlarının farmason lojalarına qəbul edilmələrinə rəğbətlə yanaşmışlar. Belə ki, sonrakı səfihələrdə görəcəyik ki, Osmanlıda da əvvəllər imperiyanın xristianları türklərə və müsəlmanlara nisbətən farmason təşkilatlarında çoxluq təşkil etmişlər.

## MİRZƏ MÜLKÜM XAN

**Mirzə Mülküm** xan elə bir şəxsiyyətlərdəndir ki, onun haqqında bir-birindən fərqli və təzadlı rəylər söylənilmişdir. **Firudin Adəmiyyət** onu **«ictimai və siyasi xadim, çox zirək və savadlı, uzaqgörən və tənqidçi»** bir şəxs kimi tanıyır. İranda ictimai fikrin oyanması və azadlıq ideyalarının yayılması tarixində onun rolu danılmazdır. Öz zamanında və ondan xeyli sonra İranda yeni siyasi əqidələrin üsullarını və hökumətin fəlsəfəsini öyrənmiş ən mübariz şəxsiyyət olmuşdur.

Eyni zamanda onun qələm dostu **Hüma Natiq** onun (Mülkümün) başqa bir üzünü canlandırır. **«Ötən əsrin ictimai fikir tarixində Mülküm xan kimi ikiüzlü şəxsiyyət olmamışdır. Onun sözü ilə əməli heç vaxt uyğun gəlməmişdir. Onun həyatı böyük bir yalan haqqında iki pərdəli drama bənzəyir. Mülküm dövlətin xidmətində və Mülküm millətin xidmətində. Mülkümün İran dövləti və ondan xəbərsiz milləti üçün tərəqqi üsulu və çıxış yolu kimi göstərdiyi səylər o zamanın müstəmləkəçi ideyalarının tərkib hissəsi sayılırdı. Onun İranda müstəmləkəçilərin və müstəmləkəçiliyin yayılmasında əhəmiyyətli rolunun olması ilə yanaşı, o həyatının bəzi mərhələlərində hətta onların nümayəndəsi olmuşdur».** Bir ingilis tarixçinin dediklərinə görə, o, uzun illər ölkəsinin mənafeyini ingilis dövlətinin mənafeyi ilə birlikdə görürdü. Və İranın qarşısında duran problemlərin həllini İngiltərənin Mühafizəkar Partiyasının lideri, İngiltərənin xarici işlər naziri və baş naziri **Salisborinin** ideyalarında görürdü. O, İngiltərənin xarici işlər naziri lord **Derbi** barəsində **«İranın xeyirxahı və insaflı adamdır»** deyirdi; **«Şərqdə Qərb imperializminin və müstəmləkəçiliyinin parlaq nümayəndəsi Derumondulofu «yaxşı adam» və öz sadiq dostu kimi təqdim edirdi».**

**Mülküm** İranın hakim dairələrini inandırmağa çalışırdı ki, ingilislərin bizim barəmizdə heç bir qərəzçiliyi yoxdur və İran barəsində öz təkliflərini İran xalqına ürəkləri yandığına görə və bəzi təhlükələrin aradan qaldırılması üçün bildirirlər. O, İranın hakim dairələrinə təklif edirdi ki, «İran dövləti xarici şirkətlərə bacardığı qədər imtiyazlar verməlidir». «İran dövləti bilməlidir ki, borc dövlətin qüdrətini göstərən amildir. Borcu olmayan dövlət məhv olar!». «İran Fransadan heç olmasa 100 korur (1 korur = 500 milyon) borc almalıdır. Bu borcun alınması çox düzgündür, vacibdir və xeyli asandır».

Eyni halda 1225-ci il rəbiossani ayının 5-də məşrutə inqilabından sonra Romadan İranın Xarici İşlər Nazirliyinə yazdığı və özünün xahişi ilə **«Sure İsrafil»** qəzetində çap edilmiş məktubunda dövləti kreditlər almamağa çağırır. O bu məktubda İran xəzinəsinin boş olmasını və İranın vəziyyətinin pis olmasını göstərdikdən sonra «zəmanənin bütün

hakimlərinin, nazirlərinin və alimlərinin nəzərini buna cəlb edir və qeyd edir ki, belə fəlakət və pulsuzluqla İran səltənətini və İranın istiqaliyyətini məhv olmaqdan qoruya biləcəyiniz ağla batan deyildir. Davam edərək göstərir ki, heç bir məmləkətdə nağd sərmayə olmadan hər hansı bir islahat həyata keçirmək mümkün deyildir. Bədbəxtlikdən İran elə bir vəziyyətə düşmüşdür ki, hər hansı bir cüzi islahat həyata keçirmək üçün heç bir nağd sərmayə qalmamışdır. Bundan sonra o, kredit məsələsini ortaya gətirir və qeyd edir ki, «Tehran rəhbərlərinin yeni kreditlər almaq istəmələrindən çox narahatam». Və zahirən bu işə etirazını bildirir. «Bu təhlükəli səhvi təkrar etməkdən çəkinin. Böyüklərimiz bu dəfə də İranı borclar bəlasına, Fransa hakimlərinin dünya şövkətinin və abadlığının səbəbi və dövlətlərin mövcudluğunun sərti adlandırdıqları kreditlər məngənəsinə salsalar milli matəm olacaqdır. Buna görə də mən hər hansı bir dildə olursa olsun rəhbərlərimizə bildirməliyəm ki, nə İngiltərə, nə Rusiya, nə Belçika, nə Bolqar hökumətinin heç bir dövlətə bir dinar belə borcu yoxdur. Və burada məsləhət verir ki, dövlətlərdən deyil, adamların pullarını topladıqlarına görə pul xəzinələri adlandırılan şirkətlərdən borc alsınlar. Hazırda bu xəzinələrin başçıları hazırdırlar ki, İran dövləti hər nə qədər istəsə ondan on dəfə artığını hər hansı bir xarici dövlətin müdaxiləsi olmadan və İranın hər hansı bir hüququnu girov götürmədən İran nazirlərinə təhvil versinlər. Ancaq iki şərtlə: birinci – İran dövlətinin başçıları mənə, cənab-aliyə və ya hər hansı bir müfəttişə (ekspertə) sübut etməlidirlər ki, pul yalnız İranın abadlığına xərclənəcəkdir. İkincisi – bizi düzgün hali etsinlər ki, İranın da Fransa dövlətinin yaramaz başçıları kimi imzası vardır və dövlətin imzası həqiqi imzadır». Bütün hallarda inqilabi ruhda yazılmış bu məktubda xarici kreditlərin alınmasına etiraz etməklə dövlət qarşısında əsarətli xarici borcların alınması zərurətindən başqa heç bir yol qoymur.

## *Atası*

**Fereşte Nurayi Mülküm** xanın dolaşıq şəxsiyyətini müxtəlif amillərin – xristian erməni ailəsində dünyaya gəlməsi, müsəlmanlar arasında böyüməsi, Avropada təhsil almasının məhsulu hesab edir. **Mülkümun** atasının ona böyük təsiri olduğunu, atasının siyasi fəaliyyətinin oğlunun fəaliyyəti ilə sıx bağlı olduğunu nəzərə alaraq atasının siyasi həyatına nəzər salınmasını zəruri hesab etdik.

İsfahan Culfasında erməni ailəsində anadan olmuş **Mirzə Yaqub (Akop)** yeniyetmə dövründə Hindistana getmişdir. Orada erməni icmasında

təhsil almış və Cave şəhərinə gedərək fransız dilini öyrənmiş və İrana qayıtmışdır. İrana qayıtdıqdan sonra Tehranda Rusiya səfirliyində tərcüməçi işləməyə başlamışdır. Əldə etdiyi mövqedən istifadə edərək bir çox dövlət və saray adamları ilə, o cümlədən **Hacı Mirzə Ağası, Əmir Kəbir və Mirzə Ağaxan Nuri** ilə tanış olmuş və onlarla əlaqə yaratmışdır. Hətta **Əmir Kəbirin** qətlində əli olduğuna görə ittiham olunmuşdur.

Məsələ belə olmuşdur ki, **Əmir Kəbir** vəzifədən çıxarıldıqdan və Kaşan şəhərinə sürgün edildikdən sonra Rusiyanın Tehrandakı səfiri **Dolqoruki** rus çarından xahiş etmişdi ki, onun yerində oturmuş anqlofil **Mirzə Ağaxanın** qəsdindən **Əmir Kəbiri** qorumaq üçün **Nəsrəddin şahdan** onun əfv olunmasını xahiş etsin. Və deyildiyinə görə bütün ömrü boyu ingilislərə casusluq etmiş **Mirzə Yaqub** məsələni **Mirzə Ağaxana** çatdırır, o da öz növbəsində çarın məktubu çatmamış **Əmiri** öldürtdürür.

Amma bundan əvvəl gördüyümüz kimi **Mirzə Yaqub xan** iddia edir ki, **Əmir Kəbir** özünün pərişan günlərində ona yaxın olmuş və hətta o qədər etibar etmişdir ki, ona konstitusiya xəyalında olduğunu bildirmişdir. Bütün bunlarla yanaşı onun haqqında bildirilir ki, bu hadisədən sonra o məmləkətin birinci şəxsinin xüsusi müşavirlərindən birinə çevrildi və səltənət kitabxanasının yazışmaları məcmuəsində tez-tez onun adına rast gəlinməyə başladı. Başqa sözlə, o, baş nazirin aparatında təşkilat rəisi vəzifəsinə çatdı və onun Avropanın siyasət xadimləri ilə əlaqələri var idi.

**Mirzə Yaqub** xanın və oğlunun xristian və ya müsəlman olmaları barədə də çoxlu təzadlı məlumatlar vardır. Bütün bunlardan belə bir nəticə alınır ki, onun islam dinini qəbul etməsi də qərəzli xarakter daşımışdır. **Mülküm xanın** özü də müsəlman olmasını iddia etsə də, xristian qaydaları ilə bir erməni xanımı ilə evləndi və vəsiyyətinə görə ölümündən sonra cənazəsi yandırıldı.

**Hamid İlqar** ehtimal edir ki, **Mirzə Yaqub xanın** masonlarla əlaqəsi olmuş və Hindistanda yaşayan farmason cəmiyyətlərində onların ideyalarını mənimsəmişdir. Hətta xanım **Lemten** bu əqidədədir ki, İranda farmasonluğun banisi, yəni ilk fəramuşxana açan şəxs **Mirzə Yaqub** olmuşdur. Hərçənd bəziləri deyirlər ki, o, 1857-1858-ci illərdə **Mülküm xanın** təşkil etdiyi fəramuşxanada oğlunun köməkçisi və müşaviri olmuşdur. Farmason təşkilatına bənzər bu qurumun ləğv edilməsindən sonra İrandan qaçmış, bir müddət Peterburqda yaşamış, sonra İstanbula gəlmiş və ömrünün qalan hissəsini orada başa vurmuşdur. Oğlunun baş komandan, sonra isə baş nazirin müşaviri təyin edilməsindən sonra İstanbul səfirliyində müşavir işləməyə başlamış və açıq şəkildə İngiltərə dövləti üçün casusluq etməyə başlamışdır. Ömrünün axırlarında iflic olmuş və 1881-ci ildə vəfat etmişdir.

**Mirzə Yaqub xandan** iki əsər qalmışdır. Onlardan birinin adı «**Sərvətin çoxaldılması**» adlanır, ikincisinin adı isə «**Mübarək ayaqların torpağına (şaha) təqdim olunacaq ərizə layihəsi**» adlanır. İyirmi beş səhifədən ibarət olan ikinci əsər 1285 (1869)-ci ildən sonra yazılmışdır. Çünki məqalədə fransalı **Şarl Mismerin** Osmanlıda islahatlar haqqında məqaləsinə istinad edir. Məqalə 1285 (1869)-ci ildə yazılmışdır.

**Şarl Mismer (Müsyö Mismir)** fransalı jurnalistdir və bir müddət İstanbulda yaşamışdır. Özünün **«İstanbulun gecələri»** və «**Müsəlman dünyasından xatirələr**» adlı iki əsərində (1870 və 1892-ci illərdə yazılaraq Parisdə çap olunmuşdur) ata və oğulun həyatı və fikirləri barədə qeydlər etmişdir. Yuxarıda adı çəkilmiş **«Osmanlıda islahatlar»** adlı əsər **«Şərqdə hərəkətsizliyin səbəbləri»** adı altında baş nazir **Əli paşaya** təqdim olunmuşdu. **Hamid İlqar** belə bir fikirdədir ki, **Mismer** bu məqaləni **Mirzə Yaqubun** fikirlərinin təsiri altında yazmışdır. Bu məqalədə müsəlmanların Avropaya nisbətən geri qalmasının və zəifliyinin ən birinci səbəbini ərəb əlifbasının çətinliyində görür. Bu məqalə o zaman fars dilinə tərcümə edilmiş və hazırda onun bir nüsxəsi də İran Milli Kitabxanasında saxlanılır.

**Mirzə Yaqub xanın** qeyd olunan əsəri **Əmir Kəbirin** konstitusiya xəyalında olmasını xatırlatmaqla yanaşı, həmçinin onu da göstərir ki, **onun** özü İranda konstitusiya məsələsini və məşrutə mövzusunu qaldıran ilk şəxsiyyətlərdən biri olmuşdur. Bununla bağlı o yazır ki, konstitusiyası olmayan dövlət həyata keçirdiyi hər hansı bir tədbirdən düzgün fayda və səmərə əldə etməyəcəkdir. Şahənşahın konstitusiyadan əldə edəcəyi fayda millətin əldə edəcəyi faydadan daha çoxdur. Konstitusiyasız millətin və dövlətin lazım olan ittifaqı mümkün deyildir və tərəflərin bütün səyləri hədər olacaqdır. Dövlət və millət o zaman bir-birindən ləzzət alacaqlar ki, aralarında konstitusiya vasitəçilik etmiş olsun. Əks halda qiyamət gününə qədər bu karvan gecikəcəkdir.

Parlament quruluşu haqqında da belə fikir söyləyir: **«Hər hansı bir qanunun qəbul edilməsi və təsdiqi hər bir kəsin rəyinə və istəyinə uyğun olmalıdır. Əlbəttə ki, ayrı-ayrılıqda hər bir fərdin rəyinin nəzərə alınması mümkün deyildir. Buna görə də hər bir şəhər və məntəqə əhalisinin sayına və razılığına uyğun olaraq mötəbər və istinad olunan şəxslərin arasından vəkillər seçilməlidir. Bu vəkillər vasitəsilə hər bir qanunun qəbul edilməsində hər bir şəxsin iştirakı və razılığı təmin olunmalıdır».**

Bu əsərdən həmçinin məlum olur ki, **Mirzə Yaqub** xanın fransız dilində kitabı olmuşdur. Bu kitabda **Hacı Seyyid Məhəmməd Bağır Səfti** ilə İngiltərənin dövlət naziri m**ister Makmil** arasında onun Herat şəhərinə səfəri barəsində sual-cavabları çap olunmuşdur. Eyni zamanda **Hacı Mirzə Səfa**

ilə də tanış olmuş və onunla müctəhidlər barəsində mübahisə etmişdir **Hacı Mirzə Səfanın** 1874-cü ilin oktyabr ayında, **Mirzə Yaqubun** isə 1881-ci ildə vəfat etdiklərini nəzərə alaraq əsərin yazılma tarixini təxminən də olsa, demək olar.

**Mirzə Yaqub xan** 1876-cı ilin fevralında İranın Osmanlı İmperiyasında səfiri olan **Moinəlmülk** vasitəsilə Məkkədən qayıdan və İstanbulda olan **Fərhad Mirzə Motəmedəddovləyə** məktub yazaraq və ona bəzi təkliflər etmişdir. **Fərhad Mirzə** də bir neçə gün sonra 1876-cı ilin martında İrana gəmi ilə qayıdan zaman cavab yazmış və məktubu **Mirzə Yaquba** çatdırmaq üçün Tiflisdən **Moinəlmülkə** göndərmişdir. Bu məktublarında ciddi və maraqlı məsələlərə toxunduğuna görə bəzi hissələri nəzərə çatdırırıq.

**Mirzə Yaqub xan** şahzadənin hüzuruna gələ bilmədiyinə görə üzr istədikdən sonra təklif edir ki, «istərdim ki, zati-aliləri bir dəfə də Fransaya səfər etsin və xəyallar dünyasından vətənə bir sovqat aparsın». Sonra **Fərhad Mirzənin** vasitəçilərindən (agentlərindən) biri olduğu **baron Röyter** ilə ixtilafına işarə edir və bildirir ki, «fikrimcə İranda bir şey qalmamışdı ki, İngiltərə və qeyrilərinə versin. Əgər **Röyterə** bir şey verməli olsaydılar onu başqalarından almaq lazım gələcəkdi. Sanki hamam suyundan özlərinə dost tutmaq istəyirdilər».

Sonra əhalinin İran hökumətindən narazılığına görə Azərbaycanın Rusiyada, imperiyanın kölgəsində rahat yaşayan və hər zaman İran əhalisinin həsədinə səbəb olan «öz millətinin və tayfasının» ikinci yarısına birləşməsi təhlükəsindən söhbət açır və yazır ki, İran xalqı əminamanlıq, xeyirxah ticarət hüququ, əkinçilik və sənətkarlıqla məşğul olmaq imkanları istəyir. **Nəsrəddin şah** onların istəklərini yerinə yetirmir. Ona görə rus imperiyasının Qafqaz canişinini şahənşahdan üstün tuturlar.

Sonra insanların aclığına və işsizliyinə işarə edərək tövsiyə edir ki, **«gərək imkan daxilində tezliklə, hər necə olursa olsun, xaricdən əhalinin ehtiyaclarını ödəmək üçün köməklər alınsın. Əks halda kənd təsərrüfatını, ticarəti, sənayeni inkişaf etdirmədən şahənşahlıq etmək, ailələrinin onlara baxıb iftixar etməsi üçün heç bir millət qalmayacaqdır.**

Sonra qeyd edir ki, **«bu gün məmləkəti və rəiyyəti idarə etmək üçün ən yaxşı təcrübə və məşq yeri Misir ölkəsidir. Bu ölkədə islam əsasları Qərb elmi ilə qarışmışdır. İnşallah Misir bütün islam ölkələri üçün örnək olacaqdır».**

Axırda İstanbul səfirliyini yaxşılaşdırmaq və işinə rövnəq vermək üçün təkliflər edir. **«Hər cür daxili yerli və yersiz xərcləri azaltsınlar və vəsaiti**

**səfirliyin qaydaya salınmasına xərcləsinlər. Çünki «İranın İstanbuldakı səfirliyinin etibarı yerləşdiyi ölkənin etibarına münasib olmalıdır. Əks halda belə etibarın saxlanması mümkün olmayacaqdır. Səfirlik İranın güzgüsüdür».**

**Fərhad Mirzə Mirzə Yaqub xanın** məktubunun ancaq bir neçə məsələsinə cavab verir və bu cavablar ardıcıl deyildir. Birincisi, onun Misir haqqındakı fikrini tənqid edir və yazır ki, «əvvələn həmin o mübarək Nil çayı və həmin ərazi haradadır ki, ildə zəhmətsiz olaraq üç dəfə əkib məhsul götürsünlər? İkincisi, Misirdə rəiyyətin qayğısına qalmırlar. Misirdə rəiyyətin bəndəliyi vardır. Rəiyyət əldə etdiyi hər şeyi divana verməlidir. Misir rəiyyəti tikan yeyən və yükdaşıyan bir dəstə köləyə bənzəyir… Və Misirdə islam əsasları haradadır? Qadınlar hicabsız və niqabsız gəzirlər, küçə və bazarlarında açıq şəkildə spirtli içkilər satılır və içilir. Həqiqətdə hardasa islam qalıbdırsa, o da İrandadır». Sonra özünün Röyter ilə bağlanmış müqaviləyə qarşı ixtilafını şərh edir və öz mövqeyini müdafiə edir və yazır: «Heç kəs dəmir yolunun əleyhinə deyil. Əleyhinə olanın ağlı yoxdur. Lakin o şəkildə yox ki, dövlətini qüdrətsiz edəsən». Onun ardınca l**ord Palmerstondan** misal gətirir və nəql edir ki, «Bir gün onun yanında rus səfiri Osmanlı dövlətində mövcud olan narazılıqdan və səbatsızlıqdan söhbət açaraq deyirdi ki, naşı nazirlərin tədbir görmədiklərinə görə ölkə dağılacaqdır. Cavabında l**ord Palmerston** dedi: İki-üç nəfər dost bir yerdə yol gedirdilər. Dostların birinin cibindəki dəsmal çölə çıxmış və sallanırdı. Dostlardan biri dedi: Bax, dəsmal düşəcəkdir. Digəri dedi əgər bir kəs bizim papağımızı götürməsə, **Hacı Mirzə Ağasının** əyri papağı kimi illərlə belə yol gedəcək və papağı da başından düşməyəcəkdir». Bunların ardınca Fransaya gedə bilməyəcəyinin səbəblərini şərh etməyə başlayır. «Əvvələn **Etişamdövlənin anası** (həyat yoldaşı) onunla idi. Onunla bir yerdə olmaq və ya madam (xanım) ilə bir yerdə gəzişmək rəva deyildir. Onu tək qoyub və tək getmək isə ondan da çox rəva deyil. İkincisi, əlahəzrət şahın icazəsi yox idi və icazəsiz getmək söz-söhbətə səbəb ola bilərdi. Üçüncüsü oraya gələnlər nə fayda gördülər ki, mən də görüm. Adamlar mənim haqqımda deyə bilərlər ki, filankəs müqəddəs Məkkədən bal məclislərinə tamaşa etməyə getmişdir. Necə deyərlər, şəhər darvazalarını bağlamaq olar, müxalif adamların ağzını bağlamaq olmaz. **Cənab Nazimülmülk Mirzə Mülküm xan** da o dəfə mənə məktub yazıb, məni Avropaya dəvət etmişdi. Şahənşah o zaman da icazə verməmişdi.

**Mirzə Yaqub xanın** məktubu onun geniş məlumatlı, siyasi baxışlı, incəlikləri görən və eyni zamanda işini bilən bir şəxs olduğunu göstərir. Təkəbbürlü, mühafizəkar və vüqarlı şahzadə **Mötəmedəddövlənin** kinayəli

sözləri onu sübut edir ki, **Mirzə Yaqub xanın** İran şahının sarayında elə bir etibarı olmuşdur ki, sözlərinə diqqət yetirilmiş və sözləri cavabsız qalmamışdır. **Mirzə Yaqub xanın İbrahim xan** adlı qardaşı olmuşdur və o, Kəlküttədə təhsil aldıqdan sonra bir müddət İranda Rusiya səfirliyində işləmiş, sonra İran dövlətinə xidmət etmişdir. **Mirzə Yaqub xanın** iki digər oğlu **Mikayıl xan** və **İsgəndər xan** tərcüməçi sifətilə İranın Xarici İşlər Nazirliyində xidmət etmişlər.

## *Ermənilərin siyasətdə və iqtisadiyyatda rolu*

Orta Şərqin müsəlman ölkələrinin Qərb ölkələri ilə iqtisadi və siyasi münasibətlər qurmağa başladığı zamandan ermənilər fəal olmuşlar**. Səid Nəfisi** ermənilərin daha çox belə işlərə cəlb olunmalarını bunda görür ki, o zamanlar Avropa dillərini bilən və Qərb adətləri ilə tanış olan adamların sayı İranda çox az idi və müsəlmanlar avropalılarla gediş-gəlişi və onlarla əlaqələr yaratmağı bəyənmədiklərinə görə birinci növbədə ermənilər, sonra isə yəhudilər qərblilər ilə iranlılar, xüsusən İran dövlət adamları arasında əlaqələndirici rolunu oynayırdılar. Belə ki, uzun müddət İranın xarici ölkələrdəki səfirləri və siyasi nümayəndələri daha çox **ermənilər, assurilər və keldanilər** olmuşdur.

O müraciət olunmuş kitabdan üç il sonra yazdığı başqa bir əsərində yenidən bu mövzuya qayıtmış və qeyd etmişdir ki, o zamanlar İran tərəfindən Avropaya göndərilən diplomatların əksəriyyəti ermənilər olmuşlar. Çünki müsəlman məmurlar Avropaya getməkdən çəkinirdilər və İran dövləti də belə təsəvvür edirdi ki, ermənilər avropalılar kimi xristian olduqları üçün Avropaya daha çox nüfuz edə bilərlər və avropalılar onların sözünü daha yaxşı eşidərlər. Birinci cilddən 9 il sonra çap olunmuş kitabının ikinci cildində 1816-cı ildə **Abbas Mirzə** tərəfindən Avropa saraylarına səfir göndərilmiş və ən azı on il bu vəzifələrdə işləmiş bir ermənini təqdim edir. Onun adı **Məlik Şahnəzərzadə Nur Davud Şapuryan** olmuşdur. O, **məktublarını Davud Məlik şah Nəzər Şapuryan** adı ilə imzalayırdı. O, üç dildə – fars, fransız və erməni dillərində «**İranın hazırkı vəziyyəti**» adlı kitab yazmış və 1817-ci ildə Parisdə çap etdirmişdir.

Kitabda deyilir ki, **Mirzə Tağı xan Əmir Nizam** Romada keçirilən konfrans zamanı **Yan Davud** adlı bir ermənini tərcüməçi və təsərrüfat işləri üzrə icraçı şəxs kimi yanında saxlamışdır. O, **Əmirin** göstərişi ilə fransız dilində kitablar toplayır və tərcümə edirdi. Sonralar **Əmir** baş nazir olan zaman universitet mədrəsəsi üçün müəllimlər seçirdi. Hicri tarixlə 1273-cü

ildə **Fərrux xan Əminülmülkün (Əminəldövlə**) başçılığı ilə Parisə ezam olunmuş heyətin tərkibində iki nəfər erməni də olmuşdur**. Fərrux xan** Herat müharibəsi zamanı Osmanlıdakı ingilis səfirliyi ilə əlaqələr yaratmaq üçün 1885-ci ildə İstanbula göndərilmiş və orada bir müddət qaldıqdan sonra Parisə yola düşmüşdür. Hicri tarixlə 1273-cü ilin cəmadiyələvvəl ayında Parisə daxil olan **Fərrux xan** İngiltərənin Fransadakı səfiri ilə müzakirələrdən sonra **III Napoleonun** vasitəçiliyi ilə hicri tarixlə 1273-cü ilin rəcəb ayında Paris müahidəsinin imzalanmasında iştirak etmişdir. İran nümayəndə heyətinin üzvləri bundan sonra rüşvət almaqda və ölkənin mA-raqlarına xəyanət etməkdə ittiham olundular. Çünki onlar bu müahidəni imzalamaqla Heratın və Əfqanıstanın İrandan ayrılmAsına bais oldular. Bununla da onlar guya Britaniya dövlətinə etdikləri xidmətə görə həmin dövlət tərəfindən mükafatlandırılıblar.

Nümayəndə heyətinin tərkibində iki nəfər erməni - **Mirzə Mülküm xan və Mirzə Nəriman xan** da olmuşdur. Qrandaverian təriqətinin 1860-cı ildə nəşr olunmuş bülletenində hər ikisi də nümayəndə heyətinin daha 4 nəfər üzvü ilə bərabər 1857-ci ilin dekabr ayının 10-da «**Səmimi dostlar**» lojasına daxil olmaları haqqında məlumat verilmişdir. Bülletində göstərilmişdir ki, «heç bir şübhə yoxdur ki, İran nümayəndə heyətinin 1858-ci ildə mason lojasına üzv olmaları Fransanın İranda siyasi və mədəni nüfuzunun artmasına səbəb olmuşdur. İranlıların üzvlüyə qəbul olunmAları mərasimində etdikləri çıxışlar sübut edir ki, **qrandaverian** təriqəti xarici qardaşların üzvlüyə qəbul edilmələrini başqa ölkələrdə fransız mədəniyyətinin yayılması üçün ən ideal vasitə hesab edir. **Fərrux xan** Paris və Londonda uzun müddət yaşadıqdan sonra hicri tarixlə 1274-cü ildə İranın Osmanlı imperiyasında səfiri təyin olundu. Bir ildən sonra İrana qayıtdı və saray vəziri oldu. Sonralar **Qəvvamüs-səltənə** ləqəbi almış erməni **Nəriman xan** Xarici İşlər Nazirliyində tərcüməçi idi və səfirin müavini kimi **Fərrux xan** da nümayəndə heyətinin tərkibinə daxil edlmişdi. Hicri tarixlə 1275-ci ildə **Mirzə Hüseyn xan Qəzvini (Sepehsalar)** Osmanlı İmperiyasında vəzir muxtar (fövqəladə vəzir) təyin edilməklə eyni vaxtda **Nəriman xan** Osmanlı İmperiyasında müşavir təyin edildi və onunla birlikdə İstanbula getdi və 20 ildən çox bu vəzifədə qaldı. O hicri tarixlə 1294-cü ildə İranın Avstriyadakı fövqəladə səfiri təyin edildi və uzun illər bu vəzifədə işlədi. **Nəriman xan** bu illərdə İranın Parisdəki səfiri **Nəzər ağa Yəminöddövlə** ilə birlikdə Culfa-Tehran şose yolunun çəkilməsində İran dövlətinin imtiyazını əlindən alıb onu Rusiyaya bağlı olan bir Belçika şirkətinə verilməsinə nail oldu.

**Nəzər ağa** Urmiyada yaşayan assurilərdən idi. O, cavanlıqda İstanbula getmiş, orada lazarist keşişlərinin məktəbində təhsil almışdır. Təhsilini başa

vurduqdan sonra İrana qayıtmış, darülfünunda bir müddət təhsil almış və tərcüməçi kimi Xarici İşlər Nazirliyinə işə qəbul edilmişdi. O, Tiflis kitabxanasında və Peterburq səfirliyində işləmiş və hicri tarixlə 1275-ci ildə İranın Avropadakı fövqəladə səfiri **Goruslu Əmir Nizam** ilə birlikdə tərcüməçi kimi Parisə getmiş, burada fövqəladə səfir vəzifəsinə qədər yüksəlmiş və **Yəminüssəltənə** ləqəbi almışdır. O, müxtəlif vəzifələrdə İranın Parisdəki səfirliyində 40 il işləmişdir. **Nəzər ağa** da **Əmir Nizamın** başçılıq etdiyi nümayəndə heyətinin digər üzvləri kimi **«Qrandaverian»** lojasına daxil olmuşdu.

**Sadiq Hidayətin** Parisdə aldığı və doktor **Məhdəviyə** verdiyi bülletendə **Nəzər ağanın** adı çəkilən lojada nitqi çap edilmişdir.

Çox da məşhur olmayan bir çox digər ermənilər də İranın xarici ölkələrdəki səfirlik və konsulxanalarında işləmişlər. Onların arasında **Ovanes xanın** adını çəkmək olar. XIX əsrin 80-90-cı illərində İranın İstanbulda və İzmirdə baş konsulu işləmişdir. O, İzmir ermənilərindən idi. Anası İrana sürgün edilmişdi. Atası ondan əvvəl İzmirdə İranın konsulu olmuşdur. 1887-ci ildə daha iki erməni konsulluqda tərcüməçi işləmişlər.

Misirdə və Osmanlı İmperiyasında da ermənilər xarici ticarət, siyasət və mədəniyyət sahələrində fəal iştirak etmişlər və bu sahələrdə mühüm vəzifələrdə çalışmışlar. Bu səbəbdən Osmanlı İmperiyasının bank işi, diplomatik və xarici əlaqələr, sonralar bu ölkənin əleyhinə casusluq kimi bir çox mühüm və həssas işlər Osmanlı İmperiyasında yaşayan xristianların və yəhudilərin əlində olmuşdur. **Bernard Levisin** sözləri ilə desək, **«Ümumiyyətlə, İstanbulda xarici ölkələrin nümayəndələri ilə danışıqlar qeyri-müsəlman dövlət məmurları tərəfindən aparılırdı. Diplomatik və ticarət işləri üçün xarici ölkələrə səfərlər də adətən qeyri-müsəlmanlara həvalə edilirdi. Çox nadir hallarda bir nəfər yüksək rütbəli müsəlman Osmanlı İmperiyasını xarici ölkələrdə təmsil edir və bu zaman özü ilə də bir nəfər qeyri-müsəlman tərcüməçi aparırdı».**

### *Doğulduğu gündən sürgünə qədər*

**Mülküm xan** göstərildiyi kimi İstanbulda doğulmuşdur. 10 yaşı tamam olanda atası onu təhsilini davam etdirmək üçün Parisə, uzaq qohumlarının yanına göndərdi. Mülküm orada əvvəlcə bir erməni məktəbində, sonra isə politexnik məktəbdə təbiət və mühəndislik ixtisası üzrə təhsil aldı. Və guya adı göstərilən məktəbi bitirməmişdən əvvəl siyasi elmlərə yiyələnmiş, bəzilərinin dediyinə görə hətta fransız dilini də

öyrənərək 1850-ci ilin əvvəlində, yəni 7-8 il təhsil aldıqdan sonra İrana qayıtdı.

**Mülküm xan** İrana qayıtdıqdan sonra (bu qayıdış **Əmir Kəbirin** sədrliyinin sonlarına təsadüf edir) Xarici İşlər Nazirliyinə tərcüməçi vəzifəsinə işə götürülür. Darülfünun təsis edildikdən sonra xarici müəllimlərin tərcüməçisi, sonralar isə riyaziyyat və təbiət elmlərini tədris etməyə başladı və bir müddətdən sonra bu təhsil ocağının bəzi tələbələrini öz təsiri altına aldı. O, sonralar fəramuşxanaları təşkil edən zaman bu tələbələrdən istifadə etmişdi. **Əbdülhüseyn Nəvayi Mülküm xanın** darülfünunun işinə mənfi təsir etdiyini bildirmiş və bununla bağlı yazmışdır: **«Saf ürəkli iranlı bu adamı heç cür bağışlaya bilməz. Çünki bu şəxs şagirdləri siyasi oyunlara, farmasonluğa, fəramuşxanalar təşkil etməyə cəlb etməklə Nəsrəddin şahı bu darülfünundan küsdürdü, incitdi, hətta dəhşətə saldırdı. Darülfünuna xüsusi diqqət yetirən Nəsrəddin şah darülfünun tələbələrinin fəramuşxanalar təşkil etmələrini və mason ideyalarını təbliğ etdiklərini müşahidə etdikdən sonra darülfünuna diqqətini azaltdı. Yaponiyanın Tokio darülfünunundan 20 il qabaq təsis olunmuş bu təhsil ocağı əvvəlki əhəmiyyətini itirdi və indiki vəziyyətə düşdü. Amma biz bilirik ki, darülfünunun işinin əngələ düşməsinin daha mühüm səbəbləri var idi. Bunların kökü o zamankı İranın iqtisadi-ictimai quruluşundan gəlirdi. Təhsil almış gənclərin siyasi məsələlərlə maraqlanmaları həmin dövrdə qaçılmaz bir iş idi və Mülküm xan ilə heç bir əlaqəsi yox idi».**

**Mülküm xan** 1856-cı ildə İranın İstanbuldakı səfirliyində işləmək üçün həmin şəhərə göndərildi. Orada bir neçə ay qalandan sonra əvvəlcə göstərildiyi kimi **Fərrux xan** ilə birlikdə Parisə getdi və İrana qayıtdıqdan sonra fəramuşxananı yaratdı.

## *Fəramuşxana*

**Fəramuşxana** kəlməsini general-adyutant **Mirzə Saleh Şirazi** fəramuşxananın təsis olunmasından xeyli əvvəl, təxminən 1857-ci ildə öz səfərnamələrində farmasonluq və ya farmason lojası mənasında işlətmişdir. Bu kəlmənin işlədilməsində məqsəd «Tree Mason» və «Tree Masoni» sözlərinə oxşatmaq və onun üzvlərini məxfi saxlamaq olmuşdur. Yəni lojaların hər bir üzvü eşitdiklərini unutmalı və onları başqalarının yanında danışmAmAlıdır. **Mirzə Saleh** özü fəramuşxanaya daxil olmasından və oraya necə getməsindən söhbət açır. Amma daxil olma mərasimindən və fəramuşxananın özü barəsində heç nə demir. Belə bir ifadə ilə kifayətlənir ki,

bu barədə çox yazmaq caiz deyil. General-adyutant belə eşitmişdir ki, fəramuşxanaya gedən şəxslərə deyirlər ki, əgər buranın üsullarından və vəziyyətindən bayırda söhbət açsan, şübhəsiz, dünyada və axirətdə xəsarətə uğrayacaqsan və sənin həlak olmağına səbəb olacaqdır. Bu zaman bu adamlara 400-500 ədəd insan şəkli göstərirlər və deyirlər: «**bu şəkillər filan tarixdə buraya gələn və bu nəsihətləri eşidən şəxslərin şəkilləridir. Onlar buradan çıxandan sonra burada gördüklərini başqalarına söyləmək fikrinə düşmüşlər. Lakin söz ağızlarından çıxmamış onlar ölmüşlər. Başqalarına ibrət olsun deyə onların şəkillərini saxlamışıq. Bu sözləri elə mehribanlıq və ürək yanğısı ilə deyirlər ki, eşidənlərin ürəyinə təsir edir, onların həqiqiliyinə inandırırlar**».

Tədqiqatçılardan bir qrupu **Mülkümün** fəramuşxanasını İranda ilk farmason lojası, başqa bir qrupu isə ilk siyasi təşkilat, yaxud cəmiyyət hesab edirlər. **Mehdi Məlikzadə, İ.İlyin, K.Çaykin, M.Mahmud, M.Bahar** fəramuşxanaları farmason dərnəkləri hesab edən tədqiqatçılardandırlar. Bunların arasında adları əvvəldə verilmiş iki nəfəin fikrini nümunə kimi vermək istəyirik: **«O, (Mülküm) İranda farmason partiyası yaratdı və o zamanın qanunları icazə verdiyi qədər iranlılar arasında yeni fikirlər yaymağa başladı».**

**«XIX əsrin 60-cı illərində bütün Avropanı farmason şəbəkələri bürümüşdü. Farmasonluq Avropada təhsil almış iranlı gənclərin də ruhunu və fikirlərini öz təsiri altına almışdı. Avropada təhsil almış gənclərin əksəriyyətinin İranın varlı və zadəgan ailələrindən çıxdıqlarına görə onlar farmason əqidələrinə sadiq qaldılar. İştirak və birlik, ümumi idrak və anlayışlar, əqidə və məramları onları xüsusi cəmiyyətlərdə bir yerə toplamışdı. Bu cəmiyyətlər ilk İran farmason lojasının əsasını qoydular. Üzvlərinin sayına görə az, amma inam nöqteyi-nəzərindən möhkəm olan İranın ilk farmason lojasını Mirzə Mülküm xan təşkil etmişdir»**.

**Mühit Təbatəbai** də bu fikirdədir ki, **Mülküm** fəramuşxananı Fransa farmasonluğunu təqlid etmək məqsədi ilə qurmuşdur. **Nazimüssəlam Kirmani, Firudin Adəmiyyət və T.Şahin** kimi bəzi tədqiqatçılar bu fikirdədirlər ki, fəramuşxana siyasi təşkilat olmuşdur. Farmason lojası ilə (loja bidari) guya əlaqəsi olmuş **Nazimüssəlam Kirmaninin** fikirləri bununla əlaqədar olaraq aşağıdakı kimidir:

**Nəsrəddin şahın** şahlığının ilk illərində **Mülküm xan** Tehranda bir məclis təşkil etdi və adını fəramuşxana qoydu. Bu məclisin vasitəsilə ağalar arasında mükəmməl bir ittifaq yaratmaq və milli, dövlət və saray adamları arasında olan nifaqı daha da dərinləşdirmək və bəlkə bu bəhanə ilə ölkədə islahatlar aparmağı başlamaq istədi. Bəzi işlərinin şübhəli və qaranlıq

olmasına baxmayaraq deyirlər ki, **Mirzə Mülküm xan** ilk farmason cəmiyyətini yaratmaq istədi. Lakin alimlər və tükü tükdən seçənlər yaxşı bilirlər ki, **Mülkümün** məqsədi fəramuşxana adlı bir məclis açmaq idi, farmason cəmiyyəti yox! Çünki bir şəhərdə və ya məmləkətdə farmason cəmiyyətinin açılması kifayət qədər üzvün və mərkəzi lojanın ali məclisinin yüksək rütbəli sahiblərinin mövcudluğu ilə bağlıdır. Lakin o zaman nə Tehranda, nə də bütün İranda müəyyən olunmuş miqdarda şəxslər mövcud deyildi və şərait də yox idi. **Mülkümün** fəramuşxana təşkil etməkdə məqsədi, ancaq iranlıların, bəlkə də İranın saray adamlarının ittifaqını yaratmaqdan ibarət idi. Məlumdur ki, farmasonluğun üzvlərinin məqsədi bütün bəşəriyyətin ittifaqı və insanlıq cəmiyyətinin yaradılmasından ibarətdir. **Firudin Adəmiyyət** də bu fikirdədir ki, fəramuşxana nə farmason təşkilatının bir şöbəsi idi, nə onun banisi farmason lojasının təşkilatçısı olduğunu iddia etmişdir, nə də ümumiyyətlə **Mülkümün** loja təsis etməyə icazəsi olmuşdur. Başqa bir yerdə fikrini daha aydın bəyan edir: Fəramuşxana ilk siyasi cəmiyyətdir. Fəramuşxana XVIII–XIX əsrlərdə geniş yayılmış, Avropanın sirli cəmiyyətlərinin təsiri altında yaranmışdır. Amma farmasonluqla onun heç bir əlaqəsi olmamışdır. Həqiqətdə o zaman Osmanlı İmperiyasında və Misirdə yaranan siyasi cəmiyyətlərin çoxu Qərbin həmin gizli təşkilatların işindən ilham alırdılar. Siyasi partiyaların Şərqdə mövcud olmadığı o zamanlar yaranan gizli təşkilatlar yeni ictimai fikrin yeganə nümayəndələri idilər. Onların gizli olması bir tərəfdən təhlükəsizliklə, digər tərəfdən isə onların daxili birliyi ilə bağlı idi. Fəramuşxana təsis edildikdən yeddi il sonra Osmanlı İmperiyasında ilk gizli cəmiyyət **«Şərəf ittifaqı»** («İttifaqi həmiyyət») adı altında təşkil olundu. Bu cəmiyyət öz quruluşunu birbaşa Fransanın gizli **«Karabinyer»** təşkilatından götürmüşdü.

**T.Şahin** də mövcud məlumatlara arxalanaraq belə nəticəyə gəlmişdir ki, **Mülkümün** fəramuşxana təşkil etməkdə məqsədi farmason cəmiyyəti yaratmaq deyildi. O, İranda ilk yeni tipli siyasi təşkilat yaratmışdı. O bu fikirdədir ki, Avropa farmasonları ilə əlaqələri olan **Mülküm** farmasonların təşkilat üsullarından istifadə etmişdir və həqiqətdə onları İran şəraitinə tətbiq etmişdir. Farmason lojalarının nizamnamələrindən iqtibas etdiyi **«Adəmiyyət üsulu»** əsərini fəramuşxananın əsasnaməsi saymışdır. Bu səbəbdəndir ki, **Bertels** və **İvanov Mülkümun** fəramuşxanasını farmAsona bənzər təşkilat adlandırmışlar.

**Mülküm** dəlillər göstərməklə **Nəsrəddin şahın** razılığını fəramuşxananın təşkil edilməsi üçün aldı və atasının köməyi ilə onu yaratmağa başladı. Bir qrup dövlət işçiləri və təhsil almış adamlar, o cümlədən darülfünunun tələbələri fəramuşxananın üzvlüyünə qəbul edildilər.

Fəramuşxananın iclasları «**Tarixnameyi xosrovan**» əsərinin müəllifi və **Mirzə Fətəli Axundzadə** ilə məktublaşan ziyalı şahzadə **Cəlaləddin Mirzənin** evində təşkil edilirdi. Bu təşkilatın rəmzi sədri də **Cəlaləddin Mirzə** idi, lakin faktiki lider **Mülküm** idi.

Fəramuşxananın üzvlərinin və havadarlarının sayı düzgün məlum deyildir. **Mülküm xan** sonralar ingilis **Blent** ilə söhbətində miqdarı şişirdərək 30 min nəfər üzvün olduğunu demişdir. Lakin fəramuşxana haqqındakı əsərində 2 min nəfər üzvün olduğunu söyləyir. Başqa bir yerdə isə 500 nəfər **«adil müsəlmanın»** şahidliyindən söz açır. Fəramuşxananın iki dərəcəsini başa vurmuş bir şəxs fəramuşxanadan imtina etdikdən sonra onun vasitəsilə saraya yazdığı hesabatda (bu hesabat dövlət binaları idarəsinin kitablarında olmuş və **Mahmud Kətirani** onu nəşr etmişdir) fəramuşxananın üzvlərinin sayının 10 min nəfər olduğunu bildirmişdir. Əlbəttə, cəmiyyəti təşkil edənlər guya fəramuşxananın xəzinəsinin (kassasının) təşkil edilməsi haqqında müzakirələr aparmış və demişlər ki, əgər 10 min nəfərin hər biri xəzinəyə 12 tümən pul köçürsə, görün nə qədər pul edər və bu məbləğ ilə necə işlər görmək olar. Göstərilən hesabata görə, bəzən üzvlərin sayı 80-90 nəfərə çatırdı və onlar otaqda və həyətdə toplaşırdılar. **Firudin Adəmiyyətin** ehtimalına görə fəramuşxananın üzvlərinin sayı qeyd olunan rəqəmdən 2-3 dəfə artıq olmamışdır. **Fereşte Nurayi** isə fəramuşxananın üzvlərinin sayının bir neçə yüz nəfərdən çox olmadığını bildirmişdir.

Əldə olan məlumatlar fəramuşxananın fəaliyyətinin təsir dairəsinin məhdud olduğunu göstərir. Ehtimal olunur ki, fəramuşxananın heç bir yerdə şöbəsi olmamışdır. Təkcə **Mirzə Kazım bəyin** 1866-cı ildə **Mirzə Yusif Müstəşarüddövləyə** yazdığı məktubda fəramuşxanaların Tehranda və Təbrizdə təşkil olunmasından söz açılmışdır.

Göstərdik ki, **T.Şahinin** fikrincə "**Adəmiyyət üsulu**" əsəri fəramuşxananın əsasnaməsi kimi qəbul edilmişdi. Həmçinin onun fikrincə, "**Qeyd kitabçası**" da cəmiyyətin məramnaməsi idi. Bu kitab **Mirzə Cəfər xan Müsiriddövlə** tərəfindən **Nəsrəddin şaha** təqdim olunmuşdu. Əgər bu kitab cəmiyyətin məramnaməsi olmamışdırsa da, heç şübhə yoxdur ki, o iclaslarda müzakirə olunmuşdur. Bu əsər iki hissədən ibarətdir. Birinci hissədə Avropa ölkələrinin inkişaf etmələri və Asiya dövlətlərinin geridə qalması səbəbləri açıqlanır, dərdin dərmanını idarəetmə aparatının Avropa qaydaları əsasında islah edilməsində görürdülər. "Teleqrafı Avropadan zəhmətsiz gətirib Tehranda qurulduğu kimi, onların idarə üsulunu da yubanmadan İranda bərqərar edilməsi lazımdır. Lakin əgər idarə üsulunu özümüz ixtira etmək istəsək, bu ona bənzəyir ki, teleqraf elmini də özümüz yaratmışıq. "Bizim firəng dərslərinə ehtiyacımız yoxdur, bura Firəngistan deyil, üləma və müctəhidlər

bizim dərimizi soyarlar” deyən adamlara cavab olaraq deyirlər: **“Biçarə müctəhidləri yersiz olaraq ittiham etməyin. Yenə də İranda Avropa quruluşundan baş çıxaran adamlar müctəhidlərdir. Əks halda firəng quruluşunun şəriətə xilaf olduğunu necə başa düşdünüz. Mən indi əgər qərar çıxartsam ki, müstövfilər dövlət pulunu az yesinlər, müctəhidlər buna nə deyə bilərlər?”**

**Sonra mütləq monarxiya, konstitusiyalı monarxiya və respublika rejimində hökumətin və onun növlərinin tərifinə başlayırlar və qeyri-münəzzəm yox, qanunun qəbul edilməsi ilə onun icrası bir-birinə qarışmış münəzzəm mütləq monarxiyanı İran reallıqlarına münasib hesab edəcəklər.**

**Kitabın ikinci hissəsi yuxu kitabı kimi tərtib edilmişdir. Müəllif yuxuda görür ki, şah onu on dörd nəfər alim ilə birlikdə yanına çağırır və onlara dövləti qaydaya salmağı tapşırır. Onlar qayda-qanun divanında toplaşıb müxtəlif qanunlar yazmağa başlayırlar. Bu qanunlara əsasən İran dövləti mütləq monarxiya olaraq qalır. İki ixtiyar – qanun qəbul edilməsi və onun icrası ixtiyarları şahın hüququ hesab edilir. Şah bu ixtiyarlardan hər birini ayrı-ayrı məclislərə – biri nazirlər məclisi, digəri isə tənzimləmə məclislərinə həvalə edir. Qəbul edilmiş qanunlara əsasən dövlətin bütün vətəndaşları qanun qarşısında bərabər elan edilirlər. Heç kəsdən bir şey ala bilməzsən və heç kəsi həbs edə bilməzsən. Heç kəsin evinə qanunun hökmü olmadan girə bilməzsən. Bütün İran əhli əqidələrinə görə azaddırlar. Tənzimləmə məclisinin quruluşu, icra səlahiyyətlərinin quruluşu, icra səlahiyyətlərinin bölgüsü, Nazirlər Şurasının quruluşu və nazirliklər haqqında və sairə də qanunlar hazırlanır. Ölkə hazırlanmış 180 qanun əsasında qaydaya düşür. Bu qanunlar əsasında sanki bütün İran millətini bir sehrli dövlətin hökmü ilə bir gülüstana çevirirlər».**

Bu hadisələrin zühur etməsindən müəllif elə fərəhlənir ki, sevincindən yuxudan oyanır.

Maraqlıdır ki, **Mirzə Kazım bəyin Müstəşarüddövləyə** yazdığı məktubda **«Yuxu kitabı»**nın İranda nəşr edilməsindən söhbət açılmış və məktubda İranın vəziyyəti təsvir edilmiş və faydalı islahatların keçirilməsi fikirləri irəli sürülmüşdür.

Şaha təqdim olunduğu üçün **Mülkümun «Qeyd kitabçası»**, yaxud tənzimləmə dəftərçəsi elə tərtib edilmişdir ki, təklif olunan islahatların icrası zamanı mütləq monarxiya iqtidarına hər hansı bir zərərin toxunacağı ehtimalı yox idi. Bununla belə qeyd olunan islahatların ölkədə həyata keçirilməsinin təsəvvür edilməsi, təklif olunan qanunların ölkədə hakim

olması, mürtəce və müstəbid dövlət adamlarının nigarançılığına və müxalifətinə səbəb oldu. Onlar mövcud vəziyyətin dəyişdirilməsini və islahatın keçirilməsini öz mənafelərinin zərərinə olduğunu başa düşdülər. Buna görə də onlar əvvəllər bu islahatlara maraq göstərmiş **Nəsrəddin şahı** müxtəlif vasitələrlə kitabçada təklif olunan üsulların həyata keçirilməsindən çəkindirirdilər. **T.Şahinin** fikrinə görə, bu üsullar o dövrdə həyata keçirilsəydi İranın bütün hərc-mərcliklərindən azad olunmasına və istibdadın nisbətən məhdudlaşmasına səbəb ola bilərdi. Belə bir şəraitdə iqtisadiyyat sahəsində burjua ünsürlərinin inkişafı üçün nisbətən münasib şərait yarana bilərdi.

**«Qeyd kitabçası»**nda təklif olunan üsulların zərərli olmasını qələmə verməklə eyni bir zamanda fəramuşxana da müxtəlif cəhətlərdən tənqid olunmağa başlamışdı. İclaslarında **«cümhuriyyət»**, **«qanun»**, **«millət hüququ»**… kimi siyasi mübahisələrin keçirilməsi barəsində hesabatlardan əlavə, hətta deyilirdi ki, rus imperatoru **II Aleksandr** öz xətti ilə **Nəsrəddin şaha** yazdığı məktubda göstərMişdir ki, bu gizli cəmiyyət sənin və mənim əleyhimədir və hər iki məmləkətdə quruluşu dağıtmaq məqsədi güdür. Bu səbəblərə görə də «**Vəqaye-e ettefaqiyyə**» qəzetinin hicri tarixlə 1278-ci il 12 rəbbiussani tarixli 501-ci sayında aşağıdakı dövlət bəyannaməsi çap olundu.

### *Dövlət bəyannaməsi*

Bu günlər şəhərin yaramaz adamları Avropa tipli fəramuşxana yaradılmasından söhbət açırlar və onu yaratmaq istəyirlər. Buna görə də şahın düzgün fərmanı elan olundu və bildirildi ki, əgər bundan sonra fəramuşxana sözü bir kəsin ağzından çıxsa (o ki qaldı onun təşkil edilməsinə) dövlətin qəzəbinə düçar olacaq. Əlbəttə, bu kəlməni unutsunlar, boş sözlərin arxasınca getməsinlər, yoxsa cəzalanacaqlar.

**Etimadüssəltənə** də hakimiyyətin bu cəmiyyət barəsində mövqeyini bir neçə il keçdikdən sonra «**farmasonluq büsatının sonu**» adı altında belə ifadə etmişdir:

**«Bu təşkilat İran xalqının fitnələrə qurşanmasına səbəb olmuş və şər işləri, pozğunluğu yaymışdı. Buna görə də onun özülü və əsası dağıdılandan sonra qadağan edildi və həmişəlik bağlandı ki, bundan sonra bir adam belə bu təşkilatın adını çəkməsin».**

Fəramuşxananın ləğvi ilə birlikdə xeyli adam zərər çəkdi. **Cəlaləddin Mirzə** və başqaları qeyri-leqal vəziyyətə keçib ev dustağı oldular. Bəziləri sürgün edildi, bir qrup adam həbs edildi, fəramuşxanaya bağlı olub-

olmamalarından asılı olmayaraq ziyalıların böyük dəstəsi fərari oldu. Osmanlı İmperiyasına qaçmış **Mirzə Həbib İsfahani** də belə fərarilərdən idi. Əsas məsul şəxslərdən sayılan **Mirzə Yaqub Erməni** İstanbula sürgün edildi. İllər keçdikdən sonra **Etimadüssəltənə şah** və **Əminossoltan** tərəfindən «**Qanun**» qəzetinə cavab yazmaq vəzifəsi alan zaman atası **Mirzə Yaqub xan Erməni** haqqında, onun fəramuşxananın yaradılmasında rolu və sürgün edilməsi haqqında belə yazmışdı:

«Atası eşitdiyiniz kimi, dəvəquşu kimi idi. İran dövlətindən faydalanmaq tamahına düşəndə özünü bu dövlətin fədaisi kimi qələmə verirdi. Qorxusuz və çirkin bir adam idi. Belə ki, 30 il bundan əvvəl bu Culfa ermənisi gizli olaraq iğtişaş hazırlığı görmüş, adamları dövlət əleyhinə təbliğat aparmağa təhrik etmiş, Avropa ölkələrindəki farmason təşkilatlarına heç bir oxşarlığı olmayan framuşxana təşkil etmişdir. Bunların üstü açıldıqda isə Tehrandan sürgün edildi».

**Etimadüssəltənə** 1884-cü ilin mart ayında İstanbula qaçmış başqa bir fərari **Mirzə Nəsrulla xan** haqqında belə yazır:

**«Axşam «Dəbirülmülk» ləqəbli xarici işlər nazirinin müavini Nəsrulla xan görüşə gəlmişdi. 20 il bundan qabaq Mirzə Mülküm xan Tehranda fəramuşxana təşkil etdiyi zaman o, tabeçiliyində olan adamları ilə birlikdə Bağdada qaçmışdı. Həmin Nəsrulla xan idi ki, bir müddət İstanbulda dilənçilik etmişdi. Azərbaycanı idarə edən Nəsirəddövləyə yaxınlığına görə İrana qayıtmış və İranda böyük ləqəblərdən sayılan Dəbirülmülk ləqəbini qazanmışdır. Ləqəbin əhəmiyyətli (prestijli) olması onu göstərir ki, əvvəllər mərhum Mirzə Məhəmməd Hüseyn xan Dəbirülmülkə mən təzim edərdim və bu Dəbirülmülk mənə təzim edir».**

**Mülkümun** özü iki ildən bir qədər az İranda qaldı, məxfi şəkildə özünün siyasi və mədəni fəaliyyətini davam etdirirdi. Lakin hicri tarixlə 1280-ci ilin sonunda Osmanlı İmperiyasına sürgün edildi. Nəticə olaraq, bəziləri belə fikirdədirlər ki, **Mülkümun** fəramuşxana təşkil etməkdə məqsədi «İslahatların və dəyişikliklərin keçirilməsini qəbul edə bilən adamların tərbiyə edilməsindən ibarət idi. Başqa bir qrup isə bu fikirdədir ki, **Mülkümun** siyasi təşkilat yaratmaqda məqsədi aləmi qarışdırmaq, bundan öz mənafeyi üçün istifadə etmək və cibini doldurmaqdan ibarət olmuşdur. Bir neçə ildən sonra **Nəsrəddin şaha** yazdığı məktubdakı cümləsləri onun məhz belə bir iddiada olduğunu sübut edir: **«Mən əgər hoqqabazlıq etsəm, ildə 7-8 min tümən qazanaram. Əgər fəramuşxana təşkil etsəm ildə 30 min tümən mədaxilim olar və əgər qəzetçilik (redaktorluq) etsəm, hər kimi istəsəm diz çökdürərəm».**

Göstərilənlərə əsaslanaraq demək olar ki, bu farmasonluğa oxşayan burjua siyasi təşkilatının fəaliyyətləri bütün qeyd olunan məhdudiyyətlərinə baxmayaraq İranın siyasi həyatına təsir etməmiş deyil. Bu mənada ki, «**onun fəaliyyəti və ideyaları ölkədə yayılmış, köhnə quruluşa və istibdad rejiminə qarşı nifrətin və narazılıqların artmasına təsir etmişdir, yəni fəaliyyət mərkəzinin özəyi yerində qaldı, lakin onun yaydığı ideyalar iki nəsil sonralara çatdı**».

## *İstanbulda*

**Mülküm** İrandan qovulandan sonra İstanbulda peyda oldu və təxminən 8 il (1864-1872) bu şəhərdə yaşadı. Onun həyatının və fəaliyyətinin bu dövrü birbaşa mövzu ilə əlaqədar olduğuna görə bu dövr barəsində imkan daxilində təfsilatı ilə söhbət açılacaqdır.

**Mülküm** İstanbula daxil olduqdan bir qədər sonra **Müsiriddövlə Mirzə Hüseyn xan Qəzvininin** – İranın İstanbuldakı səfirinin himayəsinə keçdi. Belə deyilirdi ki, o **Mülkümün** təsis etdiyi fəramuşxananın üzvü idi. **Nəsrəddin şahın** razılığı alındıqdan sonra **Mülküm** İranın İstanbuldakı səfirliyində işə başladı.

O, İstanbulun erməni dairələri ilə sıx əlaqə saxlayırdı. **Mülküm** 1864-cü ilin oktyabr ayında **Arakel Topçubaşı** adlı bir dövlətli İstanbul ermənisinin qızı ilə erməni **Hayastafanus** kilsəsində evləndi.

**Mülküm** bir müddət İranın Qahirədə baş konsulu işlədi və bəzi məlumatlara görə Qahirədə ingilis casusları ilə tanış oldu. Orada Misir hakimi **İsmayıl paşadan** 10 min tümən məbləğində pul aldığına görə İstanbula çağırıldı və işsiz qaldı. Həmin 1868-ci ildə **Əli paşanın** özünün «azadlıqsevər şərab dostunun» köməyi ilə ayda 40 lirə maaşla Osmanlı dövlətinin Xarici İşlər Nazirliyində işə düzəlir və Osmanlı dövlətinin qırmızı rəngli fəsini başına qoyaraq İrana və iranlılar əleyhinə ürəyi istədiyi söyüşləri söyləyirdi.

Bir qədər sonra **Mirzə Hüseyn xanın** köməkliyi ilə yenidən İran dövlətinə xidmət etməyə başlayır və İstanbulda İran səfirliyinin müşaviri vəzifəsinə işə götürülür. Amma Osmanlı dövlətinin təbəəliyini 1871-ci ilə qədər, İrana qayıdana qədər saxlayır. Belə ki, **Mirzə Fətəli Axundzadə** ona İstanbuldan Tehrana yola düşəcəyi ərəfədə Tiflisdən yazdığı 8 mart 1872-ci il tarixli məktubunda göstərir ki, «**İrana getməli olsanız, bir neçə mülahizəyə görə Osmanlı dövlətinin təbəəliyini üzərinizdə saxlayın və görün vəziyyət necə olacaqdır**».

**Mirzə Mülküm xan** da **Mirzə Hüseyn xan Sepəhsalar** kimi özünün İstanbulda uzun müddətli ezamiyyəti dövründə İstanbulun ziyalıları və dövlət adamları ilə tanışlığına görə və həmin dövlətə xidmət etdiyinə görə ölkədə keçirilən islahatların yaxından şahidi olmuş və öz müşahidələrini müstəqim və qeyri-müstəqim olaraq rəsmi və qeyri-rəsmi yazılarında əks etdirmişdir. O da **Sepəhsalar** kimi Osmanlı dövlətində baş verənləri İran üçün əhəmiyyətli hesab etmiş və İran dövlət adamlarını İstanbuldakı hadisələri təqib etməyə və qonşu ölkədəki dəyişikliklərlə tanış olmağa dəvət etmişdi. Yazılarında İstanbuldakı siyasi kəlmələr və terminlərdən istifadə etməsi onun islahatlar əsrinin siyasi mədəniyyətinin təsiri altında olduğunu göstərir. Maraqlıdır ki, o, hətta Osmanlıda uzun müddət qaldıqdan sonra özünün tanınmış ilk əsərinin adını «**Qeyd kitabçası**», yaxud «**Tənzimləmə dəftəri**» adlandırmışdır. **Hamid İlqarın** fikrincə, **«tənzimləmə» (islahatlar) adının Mülküm tərəfindən məqaləyə qoyulması o cəhətdən əhəmiyyətlidir ki, bu kəlmə birinci dəfə olaraq fars dilində dövlət quruluşunun islahat edilməsi və yenidən qurulması mənasında işlənmişdir. Bu söz Osmanlı türkcəsindən götürülmüşdü və bütün XIX əsr boyu bu dildən həmişə yeni terminlər üçün istifadə edilmişdir. Həqiqətdə o zamanın fars dilinin siyasi terminlər lüğəti demək olar ki, tamamilə Osmanlı türkcəsindən götürülmüşdü. Bu onu göstərir ki, Osmanlı dövlətində baş verən hadisələr İranda da inikas tapırdı və Osmanlıda olan bütün irəliləyişlər İrana da keçirdi. Uzun müddət İstanbulda yaşamış Mülküm Osmanlı dövlətində baş verən dəyişikliklərin İrana keçməsi üçün yol açdı».**

**Mülküm** məlum əsərlərindən təxminən üçünü Osmanlı dövlətində olarkən yazmışdır. Əlifbanın dəyişdirilməsi haqqında **«Şeyx və vəzir»** əsəri, **«Tərəqqinin mənbəyi»** və **«Divan (dövlət) quruluşu»**. Axırıncı əsər haqqında **Hamid İlqar** yazmışdır ki, Osmanlı dövlətindəki islahatların **Mülkümə** təsir etməsindən başqa bu məqalənin yazılmasından əsas məqsəd onun İran işlərinə həmişəlik bağlılığı və islahatlar proqramının hazırlanmasında iştirak etmək istəyi olmuşdur.

**Mülküm** özünün axırıncı əsərinin sonunda İranın dövlət adamlarına müraciət edərək belə yazmışdır: **«Dövlət aparatını qaydaya salmayınca hər hansı bir tədbiri həyata keçirsəniz və hər nə qədər də çalışsanız bilin ki, xaricilərin işğalı Sizi və İranı məhv edəcəkdir. Əgər bu sözləri etinasız qəbul edirsinizsə, heç olmasa Osmanlı dövlətinin halından ibrət götürün. Bu 30 ildə Osmanlı dövlətini sevənlər təhlükələr haqqında nə qədər fəryad etsələr də, o dövlətin nazirləri hər şeyi qulaq ardına vurdular. Buyurun, bizim halımız Osmanlı dövlətinin halından yaxşımı**

**olacaq. İran dövlətinin Avropa dövlətlərinin hücumu və istilası müqabilində Osmanlı dövlətindən heç bir fərqi yoxdur. Bundan sonra yer üzünün bütün dövlətləri Avropa dövlətləri kimi qurulmalıdır, əks halda onlar tərəfindən məğlub ediləcəklər.**

**O, «İran politikası nədir?» adlı əsərində də iddia edir ki, İranın və Osmanlının işləri dəniz dalğaları kimi min cür üsulla bir-birinə bağlıdır və təəssüf edir ki, bunu dərk etməklə mənfəət əldə edə biləcək adamlar bundan xəbərsiz qalırlar».**

*Mülküm. Birinci məşrutiyyət və Midhət paşa*

Bundan əvvəl gördük ki, **Mülküm xan** məktublarının birində ilk dəfə **Midhət paşanın** 1872-ci ildə Türkiyənin baş naziri təyin edilməsindən söhbət açır. 1876-cı ildə birinci məşrutiyyət dövründə yazdığı məktublarda bir neçə dəfə islahatçı baş naziri xatırlamış və xudpəsənd bir tərzdə onun barəsində elə danışır ki, guya ondan daha yüksək məqamda durmuşdur.

Xudpəsəndlik və eqoizm **Mülküm xanın** ən bariz xüsusiyyətlərindən idi. **Midhət Paşa** və Osmanlının birinci məşrutiyyəti ilə əlaqədar məktublarından bəzi sətirlər bunu əyani şəkildə göstərir.

**«Bir ay olardı hamı bilirdi ki, sultanı taxtdan salacaqlar. Lakin mən altı ay bundan qabaq, hələ bu barədə heç bir söz-söhbət olmayanda bu çirkin işə qoşulmuş bir nazirdən eşitmişdim ki, üç nəfər qərara gəlib ki, sultanı taxtdan yıxsınlar. Mən mətləbi dərhal lord Derbiyə xəbər verdim ki, bəlkə iş görə bilsin… Yazıq Sultan».**

Bu sözlər 1293-cü il cəmadiyəssani ayının 15-də, **Sultan Əbdüləzizin Hüseyn Uni, Midhət paşa və Rəşid paşa** tərəfindən taxtdan salındıqdan 40 gün sonra (29 may 1876-cı il) **Mülkümün** Londonda İranın səfiri olduğu vaxtda yazılmışdır. O, sultanın taxtdan salınması ilə nəticələnən şəraitin məsuliyyətini Osmanlı dövlət adamlarında görür və həqiqətən də İranda mövcud olan istibdad rejimini tənqid atəşinə tutur:

**«Bütün bu pisliklər vəzirlərin (nazirlərin) təqsiri üzündən idi. Sultanın əməlləri və niyyətləri əvvəldə xeyirxahlığa yönəlmişdi. Amma onun ətrafındakı xain vəzirlər və dinsiz saray adamları o qədər məddahlıq etmişlər ki, onun bəşəri təbiətinə o qədər pərəstiş etdilər ki, o biçarə əgər mələk olsaydı belə o qədər rəhmsiz fırıldaqların içərisində öz sözlərində və əməllərində cəhd etməməsi mümkün deyildi. Ağzından çıxan hər bir sözü istər vəzir, istərsə də saray adamı olsun, ətrafındakılar təəccüblə qarşılayır və fəryad edirdilər ki, sultanın sözləri kəramətdir. Digər tərəfdən sultanı hakimiyyət üçün kim tərbiyə etmişdi.**

**Adamların nə haqqı var idi ki, ondan Napoleon qəhrəmanlıqları tələb etsinlər. 40 il onu müəllimsiz, dost-tanışsız, savad vermədən və tərbiyələndirmədən saxladılar. Sonra gətirib hər bir guşəsində təhlükədə olan əzəmətli bir dövlətin başında oturtdular ki, bu ölkəni qaydaya sal! Və o biçarəni gücləndirmək üçün tapdıqları tədbir o idi ki, hər saat onun yanına gedir, qarşısında baş əyib deyirdilər ki, «sizin dedikləriniz düzdür. Sizin yadınıza düşən şey ilahi ilhamdır. Siz Allahın kölgəsisiniz. Siz başdan ayağa ağıl və mütləq alimsiniz. Belə sözləri, əlbəttə ki, üç gün bir nəfərin qulağına təkrar etsən, həqiqətən başdan-ayağa ağıl və xariqüladə vücuda malik olduğuna inanar və özünü itirər. Əgər biçarə sultanın bütün həqiqətləri ona deyə biləcək bir nəfər adamı olsaydı iş başqa cür bitməzdi. Amma belə çirkin işə qurşanmış vəzirlərə nə deyim. Onların çoxu ilə tanış olduğuma görə bir neçə gündə onları lənətləmişəm. Əgər bu işi bir qəzəbə düçar olmuş vəzir (nazir) və ya xarici nökər etsəydi başa düşmək olardı. Amma ən şərəfsizi və ən böyük namərdlik odur ki, öz padşahından vəzifə alasan, sonra bu vəzifədən sənə nemətlər bəxş etmiş bir şəxsə qarşı xəyanətdə istifadə edəsən. Hüseynquluya (Üni paşa) lənət olsun, Rəşidin saqqalına tüpürüm».**

1877-ci il fevralın 16-da yazdığı məktubda, yəni **Midhət paşanın** sürgün olunmasından 11 gün sonra **Midhət paşanın** şəxsiyyəti və konstitusiyası haqqında öz fikirlərini bildirmişdir. «**Midhət paşa özünün bir neçə günlük sədrliyi zamanı böyük işlər gördü. Mənim fikrimcə, onun konstitusiyası çox eyibli və qərəzli olsa da, Avropa dövlətlərinin müdaxiləsinin qarşısını almaqda böyük tədbir idi. Avropanın müdaxiləsinin qarşısını almaq və Rusiyanı məğlub etmək üçün bir Rusiya tipli konstitusiyadan yaxşısı olmazdı. Bütün Avropa əhalisi belə nəticəyə gəlmişdir ki, indi daha Osmanlı dövlətindən 2 əmanət və xüsusi girov almaq lazım deyildir. Bu dövləti bir qədər asudə və müstəqil qoymaq lazımdır ki, görsünlər Osmanlı dövləti bu tənzimləmə imtahanından necə çıxacaqdır. Bu dövləti ən çox heyrətə salan odur ki, Osmanlı dövləti bu konstitusiya ilə yeniləşmə və azadlıq aləmində rusun özünü də geridə qoydu. Avropanın bütün monarxları və bütün Avropa xalqı Midhət paşaya bütün Osmanlı sultanlarından daha çox hörmət bəsləyirlər. Sultanın devrildiyi günlərdə bütün böyük şəxsiyyətlər və nazirlər, xüsusən Bismark məclislərdə elan edirlər ki, Midhət paşa Şərqin ən böyük şəxsiyyətidir»**.

Həmin tarixdə adlı-sanlı din xadimlərinin dilindən özünü Osmanlının islahatçı rəhbərlərindən biri kimi qələmə verir:

**«Birinci görüşümüz zamanı mənə dedi: Siz gərək çox xoşbəxt olmalısınız ki, 5-6 il əvvəl İstanbulda zati-alilərinə təklif etdiyimiz həmin dəyişikliklər indi Sizin planınız əsasında icra olunur. Düzünü deyirdi, lakin heyf ki, yerlərdə mənim planlarımı ya başa düşməyərək rədd edirlər, ya da elə nöqsanlı şəkildə icra edirlər ki, gözənilən nəticəni vermir».**

Bir neçə ay sonra **Midhət paşa** Avropada sürgün həyatı keçirəndə özünün onunla daimi əlaqədə olduğunu, problemlərini həll etməkdə ona köməklik göstərdiyini və məsləhətlər verdiyini iddia edir:

**«Midhət paşa gəldikdən sonra məni görmək istədi. Onu qabaqladım və dəvət etdim. O, səfirliyə gəldi və xeyli söhbət etdik.**

**Avropada olduğu müddətdə çox vaxt bir yerdə olurduq. Söhbətlərimiz təbii ki, Osmanlı dövlətinin vəziyyəti, keçmiş səhvlər və gələcək işlərin müzakirəsi barəsində idi… Mümkün olduğu qədər insanlıq və dostluq şəraitində ona köməklik göstərdim. Çünki bütün əldə etdiklərinin dövlət tərəfindən rədd edildiyini güman edirdi».**

## *Fuad və Əli paşaların «vəsiyyətnamələri»nin saxtalaşdırılması*

**Mülkümün** islahatlar əsrinin dövlət adamları ilə əlaqələri onu iki nəfər farmason dövlət adamının «vəsiyyətnamələri»nin saxtalaşdırılması məsələsi ilə gündəmdə olmuşdur. **Mülküm** özü **Fuad paşanın** vəfatından çox illər keçdikdən, yəni 1869-cu ildə, onun vəsiyyətnaməsinin yayılmasından, fransız, ingilis və fars dillərinə tərcümə edilməsindən, Gənc türklərin orqanı olan **«Məşvərət»** qəzetinin isə bu «vəsiyyətnamə»nin türkcə mətnini nəşr etdikdən sonra qəzetin baş redaktoruna məktub göndərərək iddia etmişdir ki, vəsiyyətnamənin əsas mətnini əvvəlcə fransız dilində hazırlamışdır və ilk dəfə türk dilinə **Arif paşa** onu tərcümə etmişdir. Amma **Fuad paşanın** nəvələrindən biri olan **Mustafa Hikmət** bir qədər əvvəl vəsiyyətnamənin fransız mətnini «**Riodo Paris**» nəşriyyatına təhvil vermiş və **Mülkümün** iddiasını təkzib edərək elan etmişdir ki, **Fuad paşanın** öz xətti ilə və türk dilində yazılmış əsl mətni onun özündədir, lakin onu nəşriyyata verməmişdir. **Fuad paşanın** nəvələrindən bir başqası isə **Mustafa Hikmətin** dediyi «vəsiyyətnamə»nin olmamasını göstərmişdir. Bununla bağlı olaraq vəsiyyətnamənin əsl müəllifinin kim olması məsələsi açıq qalır.

**Mühit Təbatəbai** Osmanlı dövlətinin baş naziri olmuş **Fuad paşanın** vəsiyyətnaməsinin tərcüməsini **Mülkümün** çap olunmAyan əsərlərindən biri

hesab edir. Amma **Hamid İlqar** bu tərcümənin hər hansı bir nüsxəsini **Mülkümün** çap olunmuş əsərlərinin məcmuələrində olmadığına görə onu görməmişdir. Çünki onun əqidəsinə görə həqiqətdə İranda türklərin giriftar olduqları həmin ictimai məsələlərlə başı qarışmışdı. Osmanlı dövlətinin tabeçiliyində olan xristian millətlərin taleyi kimi. O nazirin dedikləri alimin dediklərinə bənzəyir, xüsusən idarəçilik üsullarının dəyişdirilməsi, insanların maarifləndirilib dövlətin təsis edilməsi barəsində. Təkcə İran və Osmanlı dövlətinin əlaqələrinin siyasi cəhətlərini açıqlamaqla insafı əldən vermişdir. Digər hallarda, yəni dövlətin etibarsızlığı və hörmətsizliyindən söhbət açanda, despotizmi qamçılayanda həqiqəti söyləyir.

«Vəsiyyətnamə»nin məzmunu Osmanlı dövlətinin daxili və xarici vəziyyətinin qısa şəkildə qiymətləndirilməsindən və gələcək siyasi addımlar üçün təkliflərdən ibarətdir. Vəsiyyət edən ehtimal ki, qaranlıqlarla əhatə olunmuş, lakin onun təcrübəsinin nəticəsi olan son fikirlərini kağız üzərinə gətirmişdir ki, bu dünyadan köçəndən sonra **Sultan Əbdüləzizə** təqdim edilsin. O, əvvəlcə xəbərdarlıq edir ki, **«Osmanlı səltənəti təhlükədədir. Qonşularımızın tərəqqisi və əcdadlarımızın səhvləri bizi dalana gətirib çıxarmışdır. Sultan qorxulu hadisələrin qarşısını almaq istəyirsə keçmiş qayda-qanunlardan birdəfəlik əl çəkməlidir».** Bizim nadan həmvətənlərimizin bəziləri belə fikirləşirlər ki, guya öz əvvəlki əzəmətimizi həmin qədim üsullarla yeniləşdirə və qaytara bilərik. Bu boş xəyallardan və özünü aldatmaqdan başqa bir şey deyildir. Əgər Sizin qonşularınız bu gün əcdadlarımızın yaşadıqları əsrlərdə yaşasaydılar ola bilsin ki, qədim üsullardan istifadə etməklə bütün Avropaya hakim olmaq olardı. Lakin qonşularımız xeyli inkişaf edərək və bizi geridə qoymuşlar. Buna görə də yubanmadan Avropanın həyata keçirdiyi dəyişiklikləri icra etmək lazımdır. Çünki bu dəyişiklikləri həyata keçirmədən dünyadakı dövlətlərdən heç biri yer üzündə qala bilməz.

Bu zaman Qərb dövlətləri içərisində İngiltərəni «birinci və axırıncı köməkçi», dinsiz Rusiyanı isə Osmanlı dövlətinin təbii düşməni adlandırmışdır. Və təklif edir ki, rus təcavüzündən qorunmaq üçün güc lazımdır. Bu güc keçmişdə bizim tərəqqimizə xidmət etmişdirsə də artıq köhnəlmişdir. İran dövləti də «Şiə məzhəbinin təəssübkeşi» olduğuna görə həmişə Osmanlı dövlətinin düşmənləri sırasında olmuş və Rusiya tərəfindən işğal olunmaq təhlükəsi altındadır. Əlbəttə, Osmanlı dövləti də «Barbar xislətli bu despotizmə giriftar olan dövlətin öhdəsindən və onu işğal etmək iddiasında olan saysız dövlətlərin öhdəsindən gələ bilər».

Və dərhal hökumət qaydalarını dəyişdirmək üçün təkliflər edir və dövlətin nicatını onda görür ki, səltənət başqa şəklə salınmalıdır. Dövlət

möhkəm və geniş mənalı qanunlarla idarə olunmalı və ölkənin bütün vətəndaşları arasında bərabərlik bərqərar olunmalıdır. Müasir dünya tələb etdiyi kimi insanların maarifləndirmə və tərbiyələndirmə üsulları yaradılmalıdır**. Məhəmməd Qalib** 1911-ci ildə nəşr etdirdiyi məqalədə **Mülkümü** adı çəkilən sənədin saxtakarı adlandırmışdır. Onun belə saxtapkarlığa qurşanmasının məqsədini **Əli paşanın** razılığını əldə etməkdən ibarət olduğunu bildirir. Çünki **Fuad paşanın** ölümü ilə bir vaxtda **Mülküm İrana** xidmət etməkdən üz döndərmişdi və **Əli paşanın** sarayına yol axtarırdı. Bu versiya (fərziyyə) **Əli paşanın** baş nazir kimi tərif olunduğu «vəsiyyətnamə»nin təkcə türk mətnində rast gəlindiyini nəzərə almaqla sənədin tərtibçisinin başqa yerdə adı çəkilmədiyini və **Mülkümün Əli paşanın** ölümündən illər keçdikdən sonra iddiasını bəyan etdiyini nəzərə almaqla zəif nəzərə çarpır.

**Hamid İlqar** adı çəkilən sənədi araşdırarkən bu suala cavab verməyə çalışmışdır ki, sənəd doğrudanmı **Mülküm** tərəfindən saxtalaşdırılmışdır, yaxud onun iddiasının heç bir əsası yoxdur. Onun fikrinə görə, göstərilən sənədin məzmunu **Fuad paşanın** və **Mülküm** xanın məlum əqidəsinə yaxındır və **Fuad paşanın** etimad göstərdiyi dostlarından biri olan **Mülküm** elə bir vəziyyətdə qərar tutmuşdu ki, onun fikir və nəzəriyyəsini konspekt və yaxud vəsiyyətnamə şəklində tərtib edə bilərdi. Eyni zamanda **Fuad paşanın** vəfat etdiyi il (1869) **Mülkümün** İran səfirliyindən yoxa çıxdığı il ilə üst-üstə düşdüyündən **Mülkümün Fuad paşanın** adından istifadə etməklə İranı tənqid etməyi başa düşüləndir. Zahirən bu işləri o ona görə həyata keçirmişdir ki, bir xaricinin tanınmamış qala bilməsini və eyni zamanda Osmanlı dövlətinə yol göstərə bilməsini bacardığını sübut etsin və həmçinin **Fuad paşanın** xatirəsinə ehtiramını bildirsin, onun əqidələrini qısa və aydın şəkildə bəyan etsin.

**Hamid İlqar Fuad Köprülü** və **Devison** kimi öz dəlillərini təqdim etdikdən sonra belə nəticəyə gəlir ki, «bu dəlillərdən heç bir vəsiyyətnamənin **Mülküm** tərəfindən yazıldığını sübut edə bilməz və eyni zamanda bu dəlillər onun **Fuad paşa** ilə müştərək əqidələrə malik olduqlarını göstərməkdən başqa bir şey deyildir. Yeganə mümkün olan nəticə odur ki, bəlkə də **Mülküm** «vəsiyyətnamə»ni yazmış olsun».

Həmçinin maraqlı olan budur ki, ölümündən bir qədər sonra 1871-ci ildə farmason **Əli paşanın** nəşr olunmuş vəsiyyətnaməsi də **Məhəmməd Qalibin** dediyinə görə guya **Mülküm** tərəfindən yazılmışdır. Bu vəsiyyətnamə **Əli paşanın** ölümündən əvvəl Osmanlı tarixinin son on ilini araşdıran **Fuad paşanın** vəsiyyətnaməsinə nisbətən adı çəkilən dövlət adamının Osmanlı dövlətinin daxili və xarici siyasəti haqqında nəzəriyyələrini əhatə edir. **Məhəmməd Qalibin** bu barədə rəyi ciddi qəbul

edilməmiş və onun barəsində qəti fikir deyilməmişdir. **Hamid İlqar** belə hesab edir ki, «Vəsiyyətnamə»nin **Mülküm** tərəfindən hazırlanması qeyri-mümkün olduğu halda qeyri-ehtimal olunan nəzərə çarpır. «Vəsiyyətnamə»nin həqiqi olmadığına inanan **Devison** güman edir ki, «vəsiyyətnamə»nin saxtalaşdırılması **Mülküm** və onun fransız dostu **müsyo Şarl Mesmer** tərəfindən həyata keçirilmişdir.

### *Tərəqqi dövrü və səfirlik*

Bu dövrdə Baş Nazirliyin müşaviri kimi İstanbuldan Tehrana gəlir və Tehranda 6-7 ay qaldıqdan və **Nazimülmülk** ləqəbini, birinci dərəcəli Şah medalını aldıqdan sonra **Nəsrəddin şahın** Avropaya səfərini hazırlamaq üçün 1872-ci ilin noyabr ayında (vəzir-muxtar) portfelsiz nazir vəzifəsində Londona yola düşür. Sonralar fövqəladə səfir dərəcəsinə yüksəlir. O, həyatının bu dövründə bir tərəfdən özünün islahatçı fikirlərini rəsmi hesabatlarda və məqalələrində əks etdirir, digər tərəfdən saraydakılara, şəxsən **Nəsrəddin şaha** yaltaqlanmaqla, vasitəçilik və dələduzluq etməklə böyük məbləğdə pul mənimsəyir, **«Prins»** ləqəbini seçməklə özünə şahanə bir həyat təşkil edir. 1887-ci ildə Londonda ona qonaq olmuş **Hacı Pirzadə** şerlə onun sarayını tərifləmişdir (onun sarayı behişt kimidir, Qapı-pəncərələri də qızıldan və aynadan düzəldilmişdir).

**Mülküm** həyatının bu dövründə ikinci dəfə İrana səfər etmişdir. Londona qayıdarkən yolüstü İstanbulda dayanmışdır. Onun İstanbulda iki dəfə qalması barədə məlumat **«Əxtər» («Ulduz»)** qəzetində çap olunmuşdur. Onun birinci dayanacağı haqqında qəzetdə oxuyuruq: **«Ali-cənab, İranın Londondakı fövqəladə səfiri Prins Nazimüddövlə Mülküm xan cümə axşamı günü Poti yolu ilə Səadət qapılarından şəhərə daxil olmuşdur və Əstəmiyyədə yerləşən səfirliyin evində sakin olmuşdur. Ötən şənbə günü Ali-cənab Mounəlmülk, İranın səfiri sultan sarayına gəlmiş və cənab baş nazir Müstətab Əthəm ilə və xarici işlər naziri ilə görüşmüşdür».**

Bir həftə sonra həmin qəzetin növbəti nömrəsində belə bir xəbər verilmişdir: «Ötən nömrəmizdə ali-cənab **Mülküm xanın** gəlişi barədə xəbər vermişdik. **Prins Mülküm xan** şənbə günü cənab **Mounəlmülk** ilə birlikdə şah sarayına getmiş və əlahəzrət sultanla görüşmüşdür. Əldə olan məlumata görə görüş zamanı o, İran şahının məktubunu sultana təqdim etmişdir». «**Əxtər**» qəzeti iki nömrədən sonra, yəni iki həftə sonra yenidən xəbər verir ki, «Ötən şənbə günü cənab **Mounəlmülk** tərəfindən «Göy su»da **Prins Mülküm xanın** şərəfinə təmtəraqlı ziyafət verilmişdir. Səadət sarayında akkreditə olunmuş xarici dövlətlərin səfirləri öz xanımları ilə birlikdə, səfirliyin yüksək rütbəli məmurları və Osmanlı dövlətinin bəzi üzvləri ziyafətdə olmuşlar. Qonaqlar

axşamüstü ziyafət salonuna gəlmiş, gecə yarısınadək şənlənmiş, gecə isə atəşfəşanlıq etmişlər. Sonra qonaqlar yüksək əhval-ruhiyyə ilə evlərinə dağılmışlar. **Cənab Nazimüddövlə (Mülküm nəzərdə tutulur**) bu gün İstanbulun Səadət qapılarından yola düşmüş, Varna-Vyana-Berlin yolu ilə Londona hərəkət etMişdir». Sonra qəzetin növbəti nömrəsində oxuyuruq: «Ötən həftə yola düşməli olan cənab **Mülküm xanın** bir çox səbəblərə görə səfəri bu günə kimi təxirə düşmüşdü. Lakin bu gün Varna-Vyana-Berlin yolu ilə Londona yola düşəcəkdir».

Beləliklə deyə bilərik ki, **Mülküm** İstanbulda bir ay və 3-4 gün qalmışdır. **Mülkümün** İrana ikinci səfəri hicri tarixlə 1303-cü hicri ilinin axırında olmuşdur. Onun Tehrana gəlməsi xəbəri **«Əxtər»** qəzetinin hicri tarixlə 1304-cü il məhərrəm ayının 21-ci sayında dərc olunmuşdur. O zaman onun Tehrana gəlməsi münasibətilə bioqrafiyası «**Şərəf**» qəzetində çap olunmuşdur. Və «**Əxtər**» qəzeti də onu təkrar etmişdi.

O, Londona qayıdarkən birinci səfərində olduğu kimi İstanbulda dayanmış, bu zaman iki dəfə **Sultan II Əbdülhəmid xan** ilə və dəfələrlə Avropa dövlətlərinin və Osmanlı dövlətinin diplomatları və ehtimal olunur ki, həmçinin bəzi farmason lojaları ilə də görüşmüşdür. **Sultan II Əbdülhəmid xan** ilə birinci görüşü zamanı **Moinəlmülk** onunla birlikdə olmuş və ikinci görüşündə isə **Moinəlmülk** və **Şeyxülrəis Qacarın** iştirakı ilə **Nəsrəddin şahın** xüsusi məktubunu **sultana** təqdim etmişdir. Bu zaman ona birinci dərəcəli ali medal verilmiş və sultanın əli ilə yazılmış siqaret qutusu bağışlanmışdır. Onunla birlikdə olan Londondakı səfirliyin müşaviri **Mirzə Mikayıl**, səfirliyin birinci katibi **Mirzə İsgəndər** və səfirliyin ikinci katibi **Mirzə Məhəmmədəli xan** müvafiq olaraq ikinci və üçüncü dərəcəli medallar almışlar. Qeyd etmək lazımdır ki, **Mikayıl** və **İsgəndər Mülkümün** qardaşları idi. **Mülküm** bu dəfə də İstanbulda bir aydan çox qaldı və hicri tarixlə 1304-cü ilin cəmadiyələvvəl ayının 5-də İstanbulu tərk etdi.

**Mülküm** 1889-cu ildə lotereya imtiyazları ilə qarşıya çıxan məsələlərlə əlaqədar vəzifəsindən çıxarılır və bütün imtiyazlarından məhrum edilir.

### *Vəzifədən çıxarılma və qəzetçilik dövrü*

Vəzifədən çıxarılması ilə əlaqədar olaraq **Mülküm** tüğyan edir. Şah və baş nazirin əleyhinə fars və ingilis dillərində məqalələr yazmağa və bir qədər sonra «**Qanun**» adlı qəzet buraxmağa başlayır. Qəzetin ilk nömrəsi 1890-cı il fevral ayının 20-də və sonuncu sayı (41-ci sayı) 1898-ci ilin payızında Londonda çap olunmuşdur. **Mülkümün** Romada səfir təyin

olunması əmri ilə qəzetin redaksiyası 1899-cu ilin fevralında bağlanır. Bu səbəbdən bir çoxları bu fikirdədirlər ki, **Mülkümü** vəzifədən çıxartmasaydılar, heç «**Qanun**» qəzeti də nəşr etməzdi. Özü 1901-ci ildə yazdığı məktubda işsizlik dövrünü xidmət etməyin ən yaxşı vasitəsi adlandırmışdır. **Hüma Natiq «Qanun»un** nəşr edilməsini bir tövbənamə kimi qiymətləndirmişdir. **Mülküm xan** onun nəşri ilə özünün siyasi həyat dəftərindən ləkələri silmiş və xeyirxah iş görmüşdür. **Hamid İlqar** da **«Qanun»u** əldə etdiyi bütün əhəmiyyətə və istiqbala baxmayaraq onu **Mülkümün** həyatının iki səhifəsinin orta pərdəsi adlandırmışdır. Həqiqətdə demək olar ki, **Mülkümün** həyatının 10 illik tənəzzül dövrü onun vəzifədən çıxarılmasından əvvəlki dövrünün davamı hesab edilməlidir.

Lotereya imtiyazları alınmamışdan əvvəl **Əminüssultanı** tərifləyib və onu ideal nazir adlandırdığı **Mülkümün** gəlirlərinin qarşısı **Əminüssultan** tərəfindən alındıqda qərara gəlir ki, **Əminüssultan** onun ömrünün sonunu qara etdiyi kimi, o da onun günlərini qara etsin. Nəticədə öz məqalələrində onu ən pis sözlərlə yad edir. Onun bu hərəkəti hətta **Mirzə Ağa xan Kirmani** kimi şəxslərin də etirazına səbəb olur. Amma vəzifəyə qaytarılandan və baş nazir olarkən farmasonluğa daxil olmuş **Atabəylə** görüşdükdən sonra «Adəmiyyət» cəmiyyətinə üzünü tutaraq yazır: «Mən inanıram ki, həzrət **Atabəyin** hazırda idrakda və qüdrətdə tayı-bərabəri yoxdur» və onlardan xahiş edir ki, onunla (Atabəylə) əməkdaşlıq etsinlər. **Mülkümün** bir konstitusiyalı rejim üçün ən düzgün istəyi və ona təkid etdiyi şey iki məclisdən ibarət bir parlamentin yaradılmasından ibarət idi və bu təklif «**Qanun**» qəzetində çap olunmuşdu. Baxmayaraq ki, bir az ondan qabaq qanun əsasında fəaliyyət göstərən bir mütləq monarxiyalı hökumətdən danışırdı. Dövlət xidmətinə qayıtdıqdan sonra yenə də separatçılıqla məşğul olmağa başlayır və güclü monarxiyanın mövcudluğuna təkid edir və **Nəsrəddin şahın** qətlindən sonra çap editlən «**Qanun**» qəzetinin axırıncı nömrələrini **Nəsrəddin şahdan** sonra taxta əyləşmiş **Müzəffərəddin şaha** yaltaqlanmaq vasitəsinə çevirir. **Müzəffərəddin şahın** taxta çıxması münasibətilə **«Adəmiyyət rəhbərlərinə məktub»** məqaləsində tərəfdarlarına müraciət etmiş **Nəsrəddin şahı** «rəhmətlik şah» və «şəhid olmuş şah» adlandırmış, onun heç bir təqsiri olmadığını bildirmiş, **Müzəffərəddin şahı** keçmiş pisliklərdə heç bir iştirakı olmayan xeyirxah və mehriban padşah adlandırmışdır. Bununla da o vəzifəyə çatmaq və imtiyazlar əldə etmək üçün yollar axtarır.

«**Qanun**» qəzetinin 38-ci sayında (1896-cı ilin noyabr ayında) elan edir ki, İrana qayıtmaq istəmir. Çünki qorxur ki, İrana qayıtdıqdan sonra çiyninə bir dənə xələt salacaq və ağzına qızıl tıxac vurub onu da hərc-

mərcliklərdə iştirak etmələrinə görə hamı tərəfindən istər-istəməz tənqid edilən həmin müftəxor bədbəxtlərə çevirəcəklər. Amma biz bilirik ki, həmin qızıl tıxac onun İrana getməsinə ehtiyac olmadan onu Romada səfir təyin etməklə ağzına vuruldu və o da susdu.

### *«Adəmiyyət cəmiyyəti»*

«**Adəmiyyət cəmiyyəti**» adlanan farmasonluğa bənzər başqa bir təşkilat **«Adəmiyyət birliyi»** dağıdılandan çox illər sonra **Abbasqulu xan Qəzvininin** (Adəmiyyət) təşəbbüsü ilə yaradılmışdı. **Mülküm** bu cəmiyyətin mənəvi rəhbəri idi və uzaqdan, Romadan onun işlərinə nəzarət edirdi. Bu cəmiyyət xüsusən **Məhəmmədəli şahın** şahlığı dövründə daha fəal idi və saray adamlarından və mürtəce dövlət adamlarından bir neçəsi, o cümlədən **Atabəy**, hətta **Məhəmmədəli Mirzənin** özü bu cəmiyyətə üzv olmuşdular. **Hətta Məhəmmədəli Mirzə** İran məclisi topa tutulandan sonra cəmiyyətdə öz fəaliyyətini dayandırdı. **Mühit Təbatəbai** bu fikirdədir ki, «**Adəmiyyət cəmiyyəti**» şah bağındakı çevrilişdən sonra bütünlüklə istibdada xidmət edirdi. **Mülkümə** bağlı olan cəmiyyətin üzvləri **Məhəmmədəli şahın** gizli və açıq casuslarına çevrildilər. Onlar məşrutə tələb edənlərin heysiyyətini alçaltmaqla məşğul idilər. **«Adəmiyyət»** qəzetinin redaktoru **Mirzə Əbdülmətləb Yəzdi**, «**Adəmiyyət cəmiyyəti**»nin təsisçisi **Abbasqulu xan Qəzvini** İran məşrutəçilərinin bədxahları kimi tanınmışlar.

**Dehxoda** zilhiccə ayının 11-də (1325-ci ildə) «**Sur e İsrafil**» qəzetinin 20-ci sayında çap etdirdiyi «Çərən-pərən» məqaləsində adı çəkilən cəmiyyətin üzvlərindən birini belə təsvir edirdi: «Çox dolu adamdır… Bir dərya elmlə doludur. Ağıllanan, bir şey qanan, hər şeyi görən hər bir kəs onun yanında dərs oxumuşdur. İranda və Hindistanda olan hər bir alim və ya mürşid onun yanında olmuş və ona xidmət etmişlər. İndi bir il, il yarım və ya iki il olar ki, «**Adəmiyyət cəmiyyəti**»ndə gecə-gündüz xidmət edir. Və «**Adəmiyyət cəmiyyəti**»nin rəisini, on iki nəfər idarə heyətinin üzvünü gördüyü gecə və ondan min misqal qızıl alındıqdan sonra onu da «adam» etdilər. Adəmiyyət vərəqəsini imzaladılar. Ay sən öləsən, əgər onun altında imza olmasaydı, bu kağız bir quruşa dəyməzdi. Adəmiyyət rəisinin üzvlərdən yığdığı və onları adam elədiyi on tümən pulun onda biri onun cibinə gedir. Mavi rəngli kağızın üzərində **Mülküm xana** yazdığı ərizənin altındakı imza həmin adama məxsusdur. Adəmiyyət rəisi kağızı çatdırmaq üçün Avropaya hərəkət etdikdən sonra onun rəftarı elə bir dərəcəyə çatır ki, bu şəhərin bütün əhalisinə, istər müsəlman, istər atəşpərəst, istər erməni, istər yəhudi, istər babi, istər müstəbid və istərsə də məşrutəçi olsun yol tapa

bilir və fələyin də evdən bayıra çıxmağa cürət etmədiyi gecələr Topxana meydanında qurulmuş çadırlarda **Hacı Məcumun, Həzrət Səninin, Müqtədir Nizamın** xidmətində dururdu. Şam vaxtı isə Topxana və Ərk saraylarının balkonlarında **Ağa Şeyx Fəzlullah, Seyid Əli ağa və Seyid Məhəmməd Yəzdi** ilə birlikdə döşəmə plov və cücə kababı yeyirdi. Gündüzlər isə özün gördüyün kimi Baharıstanda nahar edirdi».

Bu məqalə bir ay davam edən Topxana hadisələrindən sonra yazılmışdı. Bu zaman məşrutənin müxalifətçiləri Topxana meydanında və məşrutənin tərəfdarları Baharıstanda toplaşmışdılar. Ondan qabaq hicri tarixlə 1325-ci ilin rəcəb ayının ortalarında **Atabəy** «**Adəmiyyət cəmiyyəti**»nə üzv olmuşdu və 6 gün sonra terror baş verdi. **Məhəmməd Əli Mirzə** hicri tarixlə 1327-ci ilin şəvval ayında bu cəmiyyətə qoşuldu və **Mülkümə** dostluq məktubu yazdı. Cəmiyyətin başçısı **Abbasqulu xan Adəmiyyət** həmin ilin zilqədə ayının ikinci yarısında məktubu **Mülkümə** çatdırmaq üçün İtaliyaya yola düşdü. Qeyd olunan bütün hadisələr haqqında hər yerdə söz-söhbət gedirdi və onlardan bəziləri bu məqalədə əks olunmuşdur.

Cəmiyyətin üzvlərindən bir çoxu Birinci məclisə yol tapdı, bəziləri isə İranın birinci rəsmi farmason lojası olan **«Oyanış»** lojasına üzv oldular. Bəziləri isə inqilabın xalqçı cərəyanının təsiri altına düşdülər və cəmiyyətin separatçı liberal qanadından uzaqlaşdılar. Onlar xalqa sarı addım atdılar və özlərini müsbət və xalqa yaxın adam kimi göstərdilər. **Süleyman Mirzə, Yəhya Mirzə İsgəndəri, Məhəmməd Musəddiqussəltənə** və b. belələrindən idilər.

### *«Qanun» qəzetinin mühakiməsi*

Həbslərə əlavə olaraq daxili və xarici qəzetlərdə **Mülkümün** və «**Qanun**» qəzetinin əleyhinə sifarişli məqalələr çap olunurdu. Nəşriyyat naziri olan **Etimadüssəltənə Nəsrəddin şahın** əmrinə və nazirlərin məsləhətinə uyğun olaraq iki məqalə yazdı. Birincisi rəsmi dövlət qəzeti olan «**İran**» qəzetinin 740-cı sayında, ikincisi isə bir neçə gün sonra «**Ettela**» qəzetinin 278-ci sayında «Həmvətənlərdən biri» imzası ilə çap olundu. **Etimadüssəltənənin** yazdığına görə həmin günlərdə **«Qanun»** qəzetinin 7-ci sayı çapdan çıxmış (1890-cı ilin avqust ayı) və qəzet İranın İstanbuldakı səfiri **Ovanes xan** vasitəsilə Tehrana gətirilmişdi. **Etimadüssəltənə** onu oxuyandan sonra qəzeti **Nəsrəddin şaha** vermişdi. **Nəsrəddin şah** qəzeti oxuyandan sonra nazirlərin fövqəladə iclasını keçirmişdi. Həmin iclasda **Moinəlmülkün** İstanbulda səfir vəzifəsindən çıxardılması və qeyd olunan

məqalələrin yazılması haqqında qərar qəbul edilmişdir. İki gün sonra yazılmış məqalələr **Etimadüssəltənə** tərəfindən nazirlərə oxundu. Məqalədə düzəlişlər ediləndən sonra **«Ettela»** və **«İran»** qəzetlərində çap olundu. **«İran»** qəzetində çap edilmiş məqalədə belə yazılmışdı: **«Dövlət adamları ona (Mülkümə) dəfələrlə xəbərdarlıq edərək demişlər ki, müxalifətdən əl çəksin. Bir gün gələcək sənin cinayətlərinin üstü açılacaq. Lakin o eşitmədi. Yaramaz işlərini davam etdirməkdə daha da cəsarətləndi. Nəticədə ötən il böyük xəyanətinə görə onu İran dövlətinin İngiltərədəki səfiri vəzifəsindən kənar etdilər. Lakin yenə nəticə çıxartmadı. Əksinə, müxtəlif yollarla cinayətlərinin və xəyanətlərinin sayını artırdı».**

«**Ettela**» qəzetində çap olunmuş məqalədə isə **Mülkümün** şahənşahın duz-çörəyi ilə inkişaf etdiyi, alçaq dərəcədən yüksəklərə qalxdığı, atasının **«Dəvəquşu»** ləqəbinə malik olduğu, fəramuşxana yaratdığını, lotereya avantürasına girişdiyi qeyd olunur. Sonra «**Qanun**» qəzetindən söhbət açılır və göstərilir ki, qəzet başdan-ayağa şeytanlıq, xəyanət, fəsad və yaramazlıqdan ibarətdir. O özünü bu qəzetdə İran əhalisinin dili kimi qələmə verir və deyir ki, qanun istəyirik. Hamı bilir ki, dininin mayası və əsli məlum olmayan, bəlkə öz şəxsi mənfəəti üçün bütün dinlərlə mübarizə etməyə hazır olan bir **erməni** necə ola bilər ki, islam dövləti olan İran kimi məmləkət üçün özü müsəlman olmaya-olmaya qanun və xeyirxahlıq tələb etsin. Peyğəmbər səlləllah əleyh və Alinin qoyduğu **«Quran»**dakı qanundan yaxşı qanun varmı?! Bu qanunlardan hazırda dövlətimiz istifadə edir. Bu qəzeti oxuyan hər bir şəxs bu adamın alçaq fitrətli və savadsız olduğunu görə bilər. Bu adam ona 50 il müddətində verilən nemətləri unutdu. Axırda «**İran**» qəzetində çap olunmuş məqaləyə istinad edərək yazır: **«Mən təəccüb edirəm ki, dövlətin məsul şəxsləri əllərindəki səlahiyyətlərindən istifadə edərək indiyə qədər bu xain şəxsi tənbeh etməmişlər. Bu rəsmi qəzetdə öyrəndiyimiz kimi bu şəxsin xəyanətləri dövlətin başçılarına aşkar olmuşdur və o öz çirkin əməllərinin cəzasını almışdır. Lazım bilirəm ki, bu münasibətlə həqiqətən dostlarımızı və qeyrətli müsəlmanlarımızı təbrik edim».**

«**İran**» qəzetində çap olunmuş məqalə tərcümə olunaraq «**Tayms**» qəzetinə də göndərildi və məqalə qəzetin 16 mart 1891-ci il tarixli sayında çıxdı.

İranın Parisdəki fövqəladə səfiri **Nəzər ağa Asuri** də guya **Mülkümün** və **Seyid Cəmaləddinin** əleyhinə Avropa qəzetlərində məqalələr çap etdirmişdir. O, saraya yarınmaq üçün «Papadan artıq katolik olaraq» İran dövlətinə Tehranın və ya İsfahanın müctəhidi tərəfindən «**Əxtər**» qəzetinə bu iki nəfərin (**Mülkümun və Seyidin**) mürtəd olmaları haqqında təfsilat yazmasını təklif etdi. Ehtimal etmək olar ki, **«Əxtər»** qəzetində çap olunmuş

**«İnsan libasında şeytan»** adlı resenziya belə təkliflər nəzərə alınmaqla yazılmışdır. Bununla əlaqədar olaraq **Əbdülhüseyn Nəvai** də yazır ki, «**Əminüssultan** pul gücünə Tehranın və İstanbulun qəzetlərini aldı və onları vadar etdi ki, şahı və baş naziri mədh edən məqalələr çap etsinlər. Lakin bəzi İstanbul qəzetlərinin adını göstərmir.

## *Nəticə*

«**Qanun»** qəzeti siyasi rəqiblərindən intiqam almaq məqsədi ilə çap olunmağına baxmayaraq, eyni zamanda həmçinin onun şəxsi separatçılığının qurbanı oldu. Bununla belə onun istibdada qarşı mübarizədə, əqidə, söz və qadın azadlıqlarının müdafiəsində, orta əsrlər Şərq rejimi müqabilində qanunun təbliğ edilməsində inkar edilməz əhəmiyyəti vardır. Bir neçə on illər bundan əvvəl **Əbdülhüseyn Nəvai «Qanun»** qəzeti barəsində belə bir fikir söyləmişdir: «Ola bilsin ki, bu gün **«Qanun»** kəlməsi, yəni bu qəzetin adı o qədər də yenilik kəsb etməsin. Lakin nəzərə almaq lzımdır ki, bu qəzet **Nəsrəddin şah** zamanında, elə bir zamanda ki, hətta «qanun» Sözünün deyilişi böyük cinayət sayılırdı və məşhur **Seyid Cəmaləddin Əsədabadini** bu cinayətə görə İrandan qovmuşdular».

Həmçinin həqiqəti də söyləmək lazımdır ki, «**Qanun**» qəzetində dərc edilən mövzular insanların zehinlərinə güclü təsir etmiş və **Nəsrəddin şahın** taxt-tacını silkələmişdi. Qəzetin rəvan və sadə dili ilə istibdad rejimini şah sarayının etdiyi faciələri sərt cümlələrlə tənqid edirdi. Belə sadəlik o vaxta qədər mövcud deyildi. Adamlar qəzeti oxumağa rəğbət bəsləyirdilər. Çünki gördülər ki, şah, saray və dövlət adamları əleyhinə yazılmış məqalələr «şahın Allahın kölgəsi olduğu və əmrlərinin yerinə yetirilməsinin vacibliyi» əfsanədən başqa bir şey deyildir. Bu məşrutə hərəkatı və istibdad rejiminin devrilməsi üçün bir başlanğıc idi.

Sadə dillə yazmaqda, fars nəsrinə yenilik gətirməkdə, müasir jurnalistikanın yaradılmasında da **Mülkümün** rolu inkarolunmazdır.

## MASON HALQASI

*Moinəlmülk*

**Hacı Şeyx Möhsün Moinəlmülk (Müsirəddövlə)** 1819-cu ildə Təbrizdə dünyaya gəlmişdir. Atası **Məhəmməd şahın** şahlığı dövründə İstanbulda ticarətlə məşğul olduğuna görə o bu şəhərdə təhsil almışdır. Təhsilini bitirdikdən sonra Xarici işlər Nazirliyinə işə girmiş və Peterburqdakı səfirlikdə işləmişdir. Deyilənə görə Tehranda **Mülküm xanın** fəramuşxanasına daxil olmuşdur. 1858-1859-cu illərdə **Goruslu Həsənəli xan** ilə birlikdə Avropaya getmişdir. 1860-cı ilin fevralında diplomatik heyətin bir qrup üzvü ilə birlikdə özünün, o cümlədən **Goruslu Həsənəli xan və Nəzər ağa Asurinin** rəhbərliyi ilə Parisdə «**Səmimi Dostluq**» lojasına daxil olmuşdur. Bir müddət İranın Londondakı fövqəladə və səlahiyyətli səfiri vəzifəsində də çalışmışdır. Lakin **Röyterdən** rüşvət aldığına görə və bir neçə avropalı imtiyaz istəyənlə sazişə getdiyinə görə İranda mühakimə olunmuşdur.

**Moinəlmülk** 1873-cü ildə İranın Osmanlı dövlətində fövqəladə və səlahiyyətli səfiri seçildi və 18 il bu vəzifədə qaldı. O, Osmanlı dövlətində bir çərkəz qızı ilə evlənmişdir. Uzun illər Osmanlı sarayında səfirlər korpusunun duageni **Əbdülün** və **Sultan II Əbdülhəmid xanın** sevdiyi şəxslərdən olmuşdur. 1887-1888-ci illərdə İstanbulda olmuş **Hacı Pirzadənin** fikrincə, bütün səfirlərdən hörmətli idi və sultanın cənab **Moinəlmülkə** böyük etimadı və lütfü vardır. **Mülküm xanın** yazdığına görə, «onun **Sultan II Əbdülhəmid xanla** yaxınlığı o dərəcədə idi ki, hər həftə bir neçə axşam saraya gedib sultanla birlikdə şam edirdi».

«**Əxtər**» qəzeti 8 iyul 1882-ci il tarixli sayında **Moinəlmülkə** Osmanlı dövlətinin ali mükafatının verilməsi mərasimindən xəbər vermişdir. Bu mərasimdə **Sultan II Əbdülhəmid xan** ona müraciət edərək bu sözləri demişdir: **«Bizim sarayımızda digər dövlətlərin səfirlərinə nisbətən uzun müddət olduğunuza görə, başqa səfirlərə nisbətən malik olduğunuz imtiyazlara görə, şəxsən sənə olan münasibətimə görə və mənim İran şahına olan xüsusi ehtiramımın əlaməti olaraq sənə Osmanlı dövlətinin ən ali mükafatını verirəm».**

Həmçinin qeyd edilməlidir ki, o ürəyiaçıq bir adam olmaqla yanaşı, həm də gizli sirr saxlayan idi. «**Əxtər**» qəzetinin səhifələri onun iqamətgahında verdiyi ziyafətlər barəsində xəbərlərlə doludur. Bu ziyafətlərə dəvət olunanlar və iştirakçılar İstanbulda olan diplomatlardan, Osmanlı dövlət adamları və xanımlarından ibarət idi. Çoxlu sayda iranlı və qeyri-iranlı şairlər müxtəlif səbəblərlə bağlı onu mədh edən fars, türk və ərəb dillərində şerlər yazıb «**Əxtər**» qəzetində çap etdirirdilər.

O, Osmanlı İmperiyasında baş vermiş Birinci məşrutiyyəni əvvəldən axıra kimi müşahidə edə bilmişdir.

Fransanın **«Böyük Şərq»** mason lojasının üzvü və ustadı olan **Moinəlmülk** eyni zamanda İstanbulda ermənilər tərəfindən təşkil edilmiş mason lojasının üzvü və ustadı idi. Elə bu səbəbdən də lojanın üzvü olan bir çox Osmanlı dövlət adamları ilə yaxından tanış idi. **Hamid İlqarın** iddiasına görə onun İstanbulda təşkil olunmuş bir çox digər lojalarla da yaxın əlaqələri olmuşdur. Xüsusən Yunanıstanın **Qrandavarianlarla** bağlı olan və bir çox türk və iranlıların ora gedib-gəldiyi «**Prodos**» lojasının işində iştirak edirdi. Səfirliyin məsul işçilərindən olan **Xoylu Hacı Mirzə Nəcəfəli xan** da 1873-cü ilin avqust ayında onun təqdimatında həmin lojann üzvlüyünə qəbul edilmişdir.

Həmin ilin dekabr ayında **Mülküm** Londona gedərkən İstanbulda İranın Antakiyadakı konsulu **Musa Antipanın** həmin lojaya daxil olduğu mərasimdə iştirak etmişdir. Mövcud məlumata əsasən **Musa Antipanın** lojaya daxil olmasının zəmanətçisi olan **Moinəlmülk**, **Nəcəfəli xan**, **erməni Nəriman xan**, **Mülkümün** qardaşı **Mikayıl xan** da burada olmuşdular. Onların hər biri farmason olmağın əhəmiyyəti haqqında yığıncaqda qısa nitq söyləmişlər.

1873-cü ildə Parisdə nəşr olunmuş «**Le mond masonik**» jurnalının on beşinci sayında qeyd edilir ki, lojanın yunanıstanlı ustadı **Eskalari** bu yığıncaqda çıxış edərək özünü iranlılara təqdim etmiş və onları İranda farmason fəaliyyətlərini davam etdirməyə çağırmışdır. **«Bəli, hörmətli qardaşlarımız, bizim ideologiyamızın məşəlini İranda, ideologiyamızın ilham aldığı Zərdüştün vətənində yandırmaq sizin öhdənizə düşmüşdür»**.

**Eskaliri** sözünü bitirəndən sonra **Mülküm** çıxış etmiş, özünün masonluğa dərin sədaqəti olduğunu bəyan etmiş və söz vermişdir ki, bu ideologiyanın İranda daha çox təbliği və təşviqi üçün əlindən gələni edəcəkdir. O, çıxışının sonunda bildirmişdir ki, İstanbulda qısa dayanmağı ona «**Prodos**» lojasının işində iştirak etməyə imkan vermir. Ancaq ümidvar olduğunu bildirmişdir ki, **Mirzə Möhsün xan Moinəlmülk** lojanın iclaslarında müntəzəm iştirak edəcəkdir.

**Eskalari** yenidən söz almış və **Mülkümün** farmason ideyalarının həyata keçməsində rolunu qeyd etmişdir: **«Biz bir qədər əvvəl onun Tehranda loja yaratdığını və bu şərəfli əməlinə görə başına nələr gəldiyini də unutmamışıq».**

**Eskalarinin Mülküm** tərəfindən yaradılmış lojanı qeyd etməkdə məqsədi farmason dairələri tərəfindən rəsmi şəkildə tanınmış fəramuşxana idi.

**İsmayıl Rain** bu fikirdədir ki, «Tehranda «**İranın oyanışı**» lojası yaradılana qədər İstanbulun farmason lojası İran farmasonlarının mərkəzi idi və İranın İstanbuldakı səfiri olmuş **Mirzə Möhsün xan Müsirəddövlə (Moinəlmülk**)12 il bu lojanın Böyük Ustadı olmuşdur».

**Moinəlmülkün** ardıcıllarından biri olmuş **Qulamhüseyn Əfzələlmülk** yazmışdır ki, «O, İstanbulda mason lojasına daxil olaraq bütün dərəcələri keçmişdir».

**Mirzə Möhsün xan** hicri tarixilə 1308-ci ildə Tehrana geri çağırıldı. Fransanın İrandakı səfiri özünün aprel 1891-ci il tarixli hesabatında onun geri çağırılmasının iki səbəbini göstərmişdir:

1) İstanbulda çıxan «**Əxtər**» qəzetində şah hökumətinə qarşı məqalənin çap olunmasına icazə verməsi;

2) 1890-cı ilin fevralından başlayaraq «**Qanun**» qəzetini çap etməyə başlamış və bütün vəzifələrdən çıxarılmış, **Mülkümlə** yaxın olması.

Məlum səbəblərə görə **Moinəlmülkün** səfirliyi ilə müxalifət bir neçə müddət əvvəldən başlamışdı. Onun hicri tarixlə 1306-cı il ramazan ayının 9-da yazdığı məktubdan belə aydın olur ki, o, səfirliyin təmiri, xalça və mebel alınması üçün smeta xərcləri göstərilməklə saraya qəbz (çek) göndərmişdi, lakin saray tərəfindən

qəbul edilməmişdi. Buna görə də o, **Əminəssultana** müraciət edərək belə yazmışdı: **«Mən dövlət adamları yanında bu dərəcədə alçaq təbiətli və rəzil adam göstərilmişəm ki, guya səfirliyin mebellərinin yeniləşdirilməsi və səfirliyin təmiri üçün ayrılmış vəsaitə göz dikmişəm, başqa sözlə, oğurluq edirəm. Belə çıxır ki, dövlətin mənə etdiyi və milyonlara dəyən müqəddəs hüququnu əlimdən alırsınız. On altı ildir ki, burada fədakarlıqla və düzgünlüklə səfirliyin və dövlətin şan və şövkətini lazım olan dərəcəyə qaldırmışam. Səfirlər arasında ad və heysiyyət qazanmışam. Hər şey bütünlüklə bərbad olur. Mənim bundan sonra İstanbulda qalmağım pis görünəcəkdir».**

**Etimadüssəltənə** «**İclas**» kitabında **Moinəlmülkün** devrilməsindən daha müfəssəl bəhs edir və **Əminəssultanın** dilindən bu barədə belə yazır: ***«Qanun»*** *qəzeti ilə bağlı qalmaqal bitəndən sonra mən Moinəlmülkün devrilməsi işinə başladım və dedim ki, bu adam hər il böyük məbləğdə pul xərcləyir. Adı Əlahəzrətin səfiri olsa da, işi Sultan II Əbdülhəmid xan üçün tar çalmaq, təsnif oxumaq və təlxəklikdən ibarətdir. Bu vaxta kimi susan Müxbirüddövlə dedi ki, Möhsün xan Moinəlmülkün böyük miqdarda pullar xərclədiyini təsdiq etmək üçün İranın Vyanadakı səfiri Nəriman xanın şahidliyindən yaxşı dəlil ola bilməz. O mənə dedi ki, müalicə üçün hər il Marinbada gələn Moinəlmülk təkcə İstanbulda qalan əyalı (arvadı) üçün 8 min lirəlik büllur (xrustal) sovqat alır.*

*Buradan başa düşmək olur ki, onun ildə çoxlu gəliri vardır və 30-40 min tümənlik büllur alır. Elmlər Nazirliyinin bu sözləri o qədər təsirli oldu ki, həmin iclasda Moinəlmülkün geri çağırılması haqqında qərar verildi. Mən elə bir şərait yaratmaq istəyirdim ki, Hacı Möhsün xan Moinəlmülk vəzifədən çıxarılmaqdan əlavə qazandığı bütün hörməti əldən versin və İranı birdəfəlik tərk etsin, ömrünün axırına qədər eyb ləkəsi onun və dostlarının alnında qalsın. Xülasə, öz tərəfimdən Moinəlmülkə teleqram vurdun ki, siz vəzifədən çıxarılmışsınız və Tehrana qayıtmalısınız.*

*İstanbula göndərilən teleqramların bir nüsxə surəti sultana çatdırılırdı. Sultan bu teleqramı gördükdə təəccüb etmişdir ki, səfirin bu şəkildə geri çağırılması nə deməkdir? Hacı Möhsün xan nə*

*etmişdir ki, onu bu şəkildə vəzifədən çıxarırlar. Eyni zamanda Osmanlı dövlətinin İrandakı səfiri Xalid bəyə başa saldım ki, Moinəlmülkün işdən çıxarılması və geri çağırılmasının səbəbi onun Sulltan II Əbdülhəmid xan ilə olan xüsusi yaxınlığıdır. Xalid bəy də bunu birbaşa teleqramla sultana bildirdi. Sultan II Əbdülhəmid xan Hacı Möhsün Moinəlmülkün geri çağırılmasından çox narahat olmuşdu və Xalid bəyin vasitəsilə şaha teleqram vurdu. Mən Sulltan II Əbdülhəmid xanın vasitəçilik etməsindən silah kimi istifadə etdim və şaha bildirdim ki, bu vasitəçilik Moinəlmülk tərəfindən şahın sultan üçün təqlid edilməsi barədə Əminəssəltənənin sözlərini bir daha sübut edir. Şah mənim sözlərimə inandı və məndən nə etmək lazım olduğunu soruşdu. Mən Volf ilə məsləhətləşdim. Volf dedi: «Mən İngiltərənin İstanbuldakı səfiri vasitəsilə İngiltərə dövləti tərəfindən sultana başa salaram ki, sizin hər hansı bir dövlətin səfiri barəsində vasitəçilik etmək hüququnuz yoxdur».*

**Mirzə Ağa xan Kirmani** o zaman İstanbuldan Londona **«Qanun»** qəztini nəşr edən **Mülküm xana** məktub yazaraq ona belə məlumat verirdi: *«Bir neçə gün bundan əvvəl cənab Moinəlmülkün İstanbulda səfir vəzifəsindən azad edilməsi haqqında teleqram gəldi. Hələlik yeni səfirin kim olacağı məlum deyil. Bir neçə nəfəri çağırıblar və onlar arasından seçirlər. Daha çox maymaq və daha çox qabiliyyətsiz olan, lakin daha çox rüşvət verən təyin olunacaq».*

Bir neçə gün sonra verdiyi məlumata aşağıdakıları əlavə edir: *«Bu günlər İstanbulda cənab Moinəlmülkün səfirlikdən kənar edilməsindən mühüm xəbər yoxdur. Sultan tərəfindən onun barəsində vasitəçilik məqsədi ilə İrana teleqram getdi. İrandan bilmirəm hansı cavab gəlmişdir. O qədər bilirəm ki, Əlahəzrət sultan Moinəlmülkə izhar və ishar etmişdir ki, vəzifədən çıxarıldıqdan sonra İrana getməsin və İstanbulda qalsın. Onun barəsində bütün yaxşılıqlar olunacaqdır. Sultan tərəfindən onun ailəsinə ev veriləcəkdir. Səfirin gedəcəyi, yaxud qalacağı haqqında dəqiq məlumatım yoxdur, lakin işlərin təhvili üçün bir neçə ay burada qalacaqdır. Hələlik yeni səfir məlum deyil. Deyirlər Əsədulla xan Vəliləlmülk İstanbulda səfir olmaq üçün Tehranda yüz min tümən rüşvət vermişdir».*

**Moinəlmülk** səfir vəzifəsindən çıxarıldıqdan və İsveçrədən qayıtdıqdan və qudası (kürəkəninin atası) **Əminəddövlə** vasitəsilə şahdan canının toxunulmazlığı təminatını aldıqdan sonra Tehrana yola düşməyə hazırlaşdı. «**Əxtər**» qəzetinin yazdığına görə, **Sultan II Əbdülhəmid xandan** icazə aldıqdan sonra nəhayət 1891-ci il noyabrın 16-da o, İstanbulu tərk etdi. Amma yola düşməmişdən üç gün əvvəl Bəyoğlunda yerləşən Rəbayan klubunda öz adından böyük bir qonaqlıq verdi. Bir çox xarici diplomatlar və səfirlər həmin qonaqlıqda iştirak etmişdilər.

**Mirzə Möhsün xan** İrana qayıtdıqdan sonra əlaqələrindən istifadə edərək itirdiyi nüfuz və etibarı tezliklə özünə qaytardı və nazir təyin edildi. Belə ki, onun İstanbulu tərk etdiyindən üç ay sonra **«Əxtər»** qəzeti yazırdı ki, **Yəhya xan Müsirəddövlə** vəfat etdikdən sonra Ədliyyə və Ticarət Nazirliyi nəcib **Müsirəddövlə** ləqəbi ilə birlikdə cənab **Moinəlmülkə** həvalə edildi. Fransalı həkim **doktor Furyenin** yazılarından belə aydın olur ki, «O, 1309-cu ilin cəmadiəl-əvvəl ayının 10-19 arasında Tehrana daxil olmuşdur. Deyilənə görə qızının **Əminəddövlənin** oğlu ilə toy mərasiminin təşkili üçün gəlmişdir və başqa bir şey yoxdur». Tehrana daxil olmasının iki ayı tamam olmamış yeni və daha üstün ləqəb və məqamlara layiq görüldü. **Doktor Furyenin** 30 yanvar 1890-cı il tarixli yazısı bu baxımdan maraqlıdır.

*«Bu gün ən xoşbəxt adam Moinəlmülkdür. O, Avropaya səfərdə bizimlə birlikdə olan gürcü kənizini şaha bağışladı. Bunun müqabilində şah Ticarət və Ədliyyə Nazirliyini ona verdi və Müsirəddövlə ləqəbinə layiq görüldü. Bu yeni nazirin qızının nişanlısı olan Əminəddövlənin 15 yaşlı oğlu qayınatasının keçmiş ləqəbini, yəni Moinəlmülk ləqəbini aldı».*

**Müsirəddövləyə** çevrilmiş **Moinəlmülk** çox qısa zamanda şahın diqqət və lütfünü özünə elə cəlb etdi ki, onun ən yaxın müsahibinə çevrildi. **Məirəlməmalek** bu barədə belə yazır: «Dəfələrlə şahın saatlarla onunla türkcə danışdığının və bundan böyük həzz aldığının şahidi olmuşam». **Etimadüssəltənə** də 1310-cu il rəbiəssani ayının 15-də *«Sarayda eşitmişdir ki, şah onu ikinci dəfə İstanbula səfir göndərmək və İran dövlətini oraya yeni təyin olunmuş səfirin*

*xəcalətindən xilas etmək istəyir. Lakin baş nazir bunu istəmir və bu işin baş tutmasına yol verməyəcəkdir».*

O, (**Moinəlmülk)** Tehranda yerbəyer olduqdan bir qədər sonra şəhərdə bir farmason lojası təşkil etdi. İngiltərənin Tehrandakı fövqəladə səfiri **Hardinq** Britaniya Xarici İşlər Nazirliyinə göndərdiyi 6 sentyabr 1901-ci il tarixli teleqramında belə bir lojanın mövcudluğunu təsdiq etmişdir. Onun yazdığına görə, bu lojanın üzvləri o zaman ruslara tərəfdarlıq edən **Atabəyə** düşmən münasibətdə olan şəxslər idi. Onlar **Atabəyin** fəaliyyətini tənqid edən vərəqələr çap etdirib yayırdılar. **Hardinq** lojanın üzvlərinin vəzifələrinin adını göstərir və qeyd edir ki, **Möhsün xan Müsirəddövlənin** ölümündən sonra loja fəaliyyətini dayandırdı. Amma qalmış üzvlər arasında elə şəxslər vardır ki, hələ də özünün lojanın üzvü olduğunu elan edir və bu yolla sui-istifadələrə yol verirlər.

**Moinəlmülk** ədəbiyyatı və incəsənəti sevən şəxs olmuşdur. 1651-1715-ci illərdə yaşamış Avropa yazıçısı **Fenlonun** «**TelmAkın sərgüzəştləri**» əsərini ilk dəfə fars dilinə o çevirmiş və hissə-hissə 1879-1880-ci illərdə «**Əxtər**» qəzetində çap etdirmişdir.

Gördüyümüz kimi, **Etimadüssəltənə Əminəssultanın** dili ilə **Moinəlmülkü Sultan II Əbdülhəmid xanın** tarzəni və təsnif oxuyanı adlandırmışdı. Hicri tarixlə 1312-ci il rəbiəssani ayının 24-də qəzetdə xatirələrini belə təqdim edir: *«Bir gün şahın xidmətində olduğum zaman Əmin daxil oldu. Şah ondan soruşdu ki, dünən Əminəddövlənin qonağı idin? Dedi bəli. Baş nazir və bir çoxları ora dəvət olunmuşdular. Soruşdu çalıb-oxuyan da var idimi? Cavab verdi ki, Mirzə Abdulla tarçı idi. Mən ərz etdim ki, məclisin hörmətli üzvlərindən biri çalğıçı idi və başqa mütrübün dəvət olunmasına ehtiyac yox idi. Bu eyhamdan məqsədim ədliyyə naziri Müsirəd-dövlənin gözəl tarzən olmasını şahın diqqətinə çatdırmaq idi. Şah bu sözümdən xoşlandı».*

**Atabəyin** axşam məclislərinin birində iştirak edən **Məirəlmülk Moinəlmülkün** tar çalmasının şahidi olmuşdur. O yazır: *«Şam yeməyindən sonra atamın icazəsi ilə baş nazir öz əli ilə tarı Moinəlmülkə verdi və dedi ki, bizi feyziyab et! O tarı sinəsinə basdı və Şur muğamına başladı. Muğamı başlamamışdan qabaq Osmanlının*

*qəşəng marşlarından birini çaldı və bu iranlıların çox xoşuna gəldi. Sonra Şura başladı və Şur məclisə vəlvələ saldı. Moinəlmülk tanınmamış musiqi ustadlarından idi. Onun şirin və ürəkaçan bəstələri indi az adamın xatirində qalmışdır».*

**Məirəlmülk** yazır ki, onun nəfis ev əşyaları var idi. Ondan sonra bu şeylər hərraca verildi. O cümlədən onun İtaliya rəssamlarının əsəri olan gözəl rəsm tablosu var idi. Bunu ona Osmanlı sultanı hədiyyə vermişdi. Bu əsər də hərraca verildi və sonralar **Rza şahın** sarayında peyda oldu.

O, hicri tarixlə 1316-cı ilin axırlarında müalicə üçün Avropaya getdi və hicri tarixlə 1317-ci ilin rəbiüssan ayında astma xəstəliyindən Parisdə vəfat etdi. Vəsiyyətinə görə Kərbəlada dəfn olundu. Xarici İşlər Nazirliyi onun **Müsirəddövlə** ləqəbini **Mirzə Nəsrulla xan Müsirəlmülkə** verdi.

## Təriqətlər və təriqətçilər

İndi görəcəyimiz kimi, İranın dərvişləri və təriqətçilərinin farmason dərnəkləri ilə əlaqələri olmuşdur. **İsmayıl Rain** XIX əsrdə farmasonların azadfikirlilik və azadlıq təzahürlərini Şərqin dərviş firqələrinin Qərb farmasonluğuna yaxınlaşmasının səbəblərindən biri hesab etmişdir. **Hamid İlqar** isə bu fikirdədir ki, İranda sufi təriqətinin davamçıları öz dini fəaliyyət üsullarını farmasonların iddia etdikləri dini üsullarla müqayisə etmişlər. Bu adamların fikrinə görə farmason lojaları ola bilsin ki, ideal struktur quruluşlarına malik olmuşlar və islamın və insanlıq məzhəbinin zahiri qovuşmaları imkanlarını nəzərə çarpdırırdılar.

Farmasonluq Osmanlıda da dərviş təriqətləri arasında, xüsusən **Bektaşilər** və **Məlamətilər** arasında nüfuza malik olmuşdur. İddia olunur ki, **Volter** ilə tanışlığı olan **Bektaşi** həmin təriqətin quruluşunda və ideyalarında dəyişiklik etmiş, təriqət ilə farmAsonluq arasında əlaqələr yaratmışdır. **Con Braun** 1867-ci ildə **Bektaşi** dərvişlərinin özlərini farmasonların qardaşları olmalarını bəyan etmələrinə çox təəccüblənmişdir. **Gənc Türklərin** vəzifəliləri, o

cümlədən **Şeyxülislam Musa Kazım əfəndi**, filosof **Rza Tofik** və **Tələt paşa Bektaşi** farmason olmuşlar. **Məlamətilər** haqqında deyilir ki, guya onlar köhnəlik və yenilik arasında əlaqə yaratmaq məqsədi ilə farmason təşkilatına daxil olmuşlar.

**K.N.Smirnov**

# NAXÇIVAN ÖLKƏSİNİN TARİX VƏ ETNOQRAFİYASINA DAİR MATERİALLAR

Bakı, Ozan, 1999 (rus dilində).

## II hissə

## 1. NAXÇIVAN ÖLKƏSİNİN DİNİ CƏMİYYƏTLƏRİ VƏ ONLARIN İZLƏRİ

İran hakimiyyəti dövründə mövcud olmuş dini cərəyanlar liberalizmin bu və ya digər forması ilə rus hakimiyyəti illərində də fəaliyyətdə idi. Hökümət bu cərəyanları çar hakimiyyətinin xafiyyələri kimi nəzərə almayaraq əslində Naxçıvanda inqilabı fikrə şərait yaratmışdılar. Artıq indii məlum olur ki, bir çox din xadimləri İran inqilabında fəal iştirak etmiş və rus konsulları ilə yaxın münasibətdə olmuşlar.

Hələ **Şah Abbasın** dövründə Naxçıvanda təriqətçilik geniş yayılmağa başlamışdır. Onlardan biri **Pir Xamuş** adlı şəxsin əsasını qoyduğu nöqtəvilik idi. XIX əsrədək onun tərəfdarları fəaliyyətlərini gizli aparsalar da, çar hakimiyyəti zamanı üzə çıxdılar. Nöqtəvi təriqətinin ardıcılları öz liberallıqları ilə seçilirdilər.

**«Nöqtəvilik»** təlimləri İrəvanda, Ordubadda və Şərurda da yayılmışdır. Son zamanlar Naxçıvan «**nöqtəvi**»**ləri** Avropa mədə-niyyətini qəbul etmək qərarına gələrək öz təlimlərini **frankmason** və yaxud Naxçıvanda olduğu kimi **«farmason»**[1] adlandırırlar. Bu mason lojasının üzvləri öz mərasimlərini Xan evinə yaxın olan müqəddəs **Yaqub pirindəki** məzar ətrafında keçirməklə diqqəti cəlb edirdilər. Nə üçünsə bu ziyarətgah hər zaman Naxçıvan sərxoşlarını və nəşəxorlarını özünə cəlb edirdi. Onlar elə hesab edirdilər ki, burada onların müqəddəs rəhbərləri dəfn olunub (İndiyə qədər Naxçıvanda puser-frankmason repertuarından olan bəzi duaları eşitmək olar).*

## NAXÇIVAN TARİXİNİN SƏHİFƏLƏRİ

---

[1] Ismayıl xan Naxçıvanskinin oğlu Bəhmən xan, Allahverdi bəy Qədimov, Kərbəlayı Abbas Farmasoni,C amalbəyov mason idilər.

* Tərtibçilərdən: Müəllifin göstərdiyi bu dövr 1930-cu illərə aiddir.

**Bakı, 1996, 222 s.**

**HÜSEYN HƏŞİMLİ**
**Naxçıvan Dövlət Universiteti**

## Naxçıvanda farmasonluq: tarixdə və ədəbiyyatda (s. 122-125)

XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Naxçıvanda **farmasonluq** təriqəti inkişaf tapmış, əhalinin müxtəlif təbəqələrindən olan şəxslər bu təriqətin təmsilçilərinə çevrilmişdilər. Bu vaxtadək Naxçıvandakı farmasonluq haqqında **R.Nəcəfov, Ə.Şərif**, xüsusən **Ə.Mirəhmədov** söz açmış, həmin təriqətin ideya-fəlsəfi əsası, təkamülü və əhatə dairəsindən bəhs etmişlər. Bununla belə, Naxçıvandakı farmasonluq barədə hələ bir çox mətləblər aydınlaşdırılmamışdır.

Bir fikir cərəyanı olmaq etibarilə farmasonluq daha çox Şərq zəminində təşəkkül tapmış, kökü XVI əsrə gedib çıxan **nöqtəvilik** təriqəti ilə bağlı olmuşdur. Farmasonların ideya-fəlsəfi qaynaqları sırasında **məzdəkilik** və **xürrəmiliyin** də bəzi izləri müşahidə olunmaqdadır. XIX əsrin sonları XX əsrin əvvəllərində Naxçıvanda yayılan farmasonluq təriqətinin nümayəndələri məişət və davranışda müasirlərindən seçilirdilər. Onlar islam şəriətinin bir sıra ehkamlarına qarşı çıxır, şəxsiyyət azadlığını, sərbəst düşüncəni hər şeydən üstün tuturdular. Yeniliyin alovlu təbliğatçısı olub, köhnəliyə, cəhalətə qarşı mübarizə aparan farmasonlar avropasayaq geyinir, dünyəvi mədəniyyətin qabaqcıl nəaliyyətlərindən faydalanmağa can atırdılar. Bir çox mətləbləri zarafat, gülüş tonunda əks etdirmələri də qeyd olunmalıdır.

Bəhs olunan dövrün Naxçıvan farmasonları içərisində əsnaf təbəqəsinə və az təhsilli ziyalılar qrupuna mənsub olanlar daha çox idilər. Orta əsr nöqtəviliyinin, müəyyən qədər də **sufi-hürufi** ideologiyasının ənənələrindən qidalanan Naxçıvan farmasonları **C.Rumi, S.Ə.Nəbati** kimi klassiklərin əsərlərini mütaliə və təbliğ edirdilər.

XIX əsrin sonları - XX əsrin əvvəllərində Naxçıvandakı farmasonlar arasında aşağıdakı şəxslərin adları müvafiq mənbələrdə qeyd olunur: **Abbas Vəzirov, Kəblə Tağı Abbasov, Kəblə Yaqub, Adıgözəl bəy Camalbəyov, Bəhmən xan, Mirzəli bəy Bektaşov** və başqaları.

Bu farmasonlar bəzi məqamlarda ifrat ateizmə qapılsalar da, dünyagörüşlərinin məhdudluğu ucbatından müəyyən səhv hərəkətlərə yol versələr də, mahiyyət etibarilə onlar yeniləşmənin, sosial mədəni tərəqqinin tərəfdarı kimi çox işlər görmüşlər.

Onu da qeyd edək ki, Naxçıvan farmasonları sırasına qoşulan, yaxud farmasonlara rəğbət bəsləyənlər sırasında **F.Şeyxov, P.Sultanov, A.Qədimov** və başqa ziyalılar da vardır ki, onlar Qərb mədəniyyətinin təbliğində müəyyən rol oynamış, Qərb sivilizasiyasını Şərqə nümunə göstərmişlər. Bu kimi detallar isə bir çox farmasonların el arasında Qərb məsləkli adamlar kimi qiymətləndirilməsinə gətirib çıxarmışdır. Yeri gəlmişkən deyək ki, farmasonlar İranda 1860-cı ildə yaradılmış «**Fəramuşxana**» cəmiyyətindən, onun ideyalarından da müəyyən qədər faydalanmışdılar. Fəqət bu bəhrələnmə müəyyən qədər zahiri xarakter daşımışdır. Belə ki, «**Fəramuşxana**»nın Fransadakı «**Frank mason**» (Framason) cəmiyyətinə az-çox bağlılığı olsa da, Naxçıvan farmasonları müəyyən qədər masonçuluğa da meyl edən «**Fəramuşxana**»dan fərqli olaraq daha çox Şərq zəmini üzərində köklənmişdilər. Onların daşıdıqları «**farmason**» adının «**Frank mason**» (Firəng masonu) sözü ilə bağlılığı inkarolunmazdır. Fəqət, bu, hər şeydən əvvəl, mühitə, cəmiyyətə münasibətdəki paralellikdən irəli gəlir. Bir neçə kəlmə də farmasonluq təliminin bədii ədəbiyyatda əks-sədası haqqında. Tədqiqatlar göstərir ki, Naxçıvan mühitində böyüyüb boya-başa çatmış **E.Sultanov, C.Məmmədquluzadə, Ə.Qərib, Ə.Səbri, M.C.Şürbi** kimi sənətkarların yaradıcılığında farmason ideyalarının təcəssümü çox qabarıq olmuşdur.

**E.Sultanovun «Çalma»** hekayəsi Naxçıvan farmasonlarının həmfikirlərindən olan (bəzi araşdırıcıların isə farmason saydığı) ali təhsilli hüquqşünas **Cümşüd Paşa Sultanovun** cəhalətə, Fanatizmə qarşı mübarizəsindən bəhs edir. Qeyd edək ki, **C.P.Sultanov C.Məmmədquluzadənin «Ölülər»** əsərindəki **İsgəndər** surətinin də əsas prototiplərindən biridir. Diqqət edildikdə **İsgəndərin** hərəkət və

danışığında farmasonluq ruhu duyulur. **Mirzə Cəlilin «Dəli yığıncağı»** əsərində zəmanəyə və cəmiyyətə müxalifət ruhunun ifadəsində farmasonluqla bağlılıq görən ədəbiyyatşünas **Ə.Mirəhmədov** haqlıdır. Əsərdə **Molla Abbas**, habelə farmason **Rüstəm** surətləri bu baxımdan maraq doğurur.

Naxçıvanda farmasonluq sentimental ədəbiyyatda da geniş yer tutub. Hisslərin hökmü ilə hərəkət edib, qəlbin, təbii düşüncənin qəbul etmədiyi məsələləri inandırıcı saymayan farmasonların bu baxışı sentimental ədəbiyyatın əsas leytmotivi ilə səsləşirdi.

**M.S.Ordubadinin** 1914-cü ildə çap etdirdiyi «**Bədbəxt milyonçu, yaxud Rzaqulu Firəngiməab**» romanı da mühüm yer tutur. Avropa həyat tərzini, maarifi, şəxsiyyət azadlığı təbliğ edən bu romanın baş qəhrəmanının təqdimində «**Frank mason**» və «**Fəramuşxana**» ənənələri ilə yanaşı, Naxçıvan farmasonluğunun izləri də vardır.

Naxçıvanda doğulub boya-başa çatan **Əli Səbrinin** və **Ələkbər Qəribin** sentimental əsərlərində də farmason dünyagörüşünün izləri vardır. Qeyd edək ki, **Ə.Qəribin** atası **Kəblə Tağı Abbasov** Naxçıvanın XIX əsrin sonlarındakı tanınmış farmasonlarından idi. Belə mühitdə böyüyən **Ə.Qəribin «Könlümün sultanı»** povestində, **Ə.Səbrinin «Solğun çiçək»** romanında qəlbinin hökmü ilə hərəkət edən, heç nədən çəkinməyib hissi-mənəvi azadlıq naminə çarpışan surətlərin bədii təqdimi sentimentalizmin ən ümumi əlaməti olmaqla yanaşı, qaynaq etibarı ilə farmasonluqla da bağlıdır. Onu da xatırladaq ki, ümumən dünya ədəbiyyatı kontekstində sentimentalizmin ideya-fəlsəfi baxımından masonçuluqla bağlılığı haqqında fikirlər vardır (söhbət masonçuluğun ilkin çağındakı mütərəqqi xarakterindən gedir).

Rus ədəbiyyatşünası **P.Orlovun** sentimentalizmə dair tədqiqatında «**Sentimentalizm və masonçuluq**» bölməsinin varlığı bu baxımdan maraqlıdır.

Azərbaycan sentimentalistləri, o cümlədən **Ə.Səbri, Ə.Qəribin** yaradıcılığı üçün də Şərq masonçuluğunun, konkret desək, Naxçıvan farmasonluğunun bədii-ideoloji təzahürü səciyyəvidir.

Göründüyü kimi, Naxçıvanda farmasonluq özünəməxsus bir yol keçmiş, bu torpağın yetirmələri olan tənqidi realist və sentimental sənətkarların əsərlərində bədii təcəssümünü tapmışdır. İndi də

Naxçıvanda ciddi mətləbləri zarafatla deyən baməzə adamlara «**farmazon**», «**farmason**» deyilməsi farmason təriqətinin günümüzə çatmış izlərindəndir.

**Bəxtiyar Tuncay**

# MASONLUQ VƏ AZƏRBAYCAN*

**Masonluq**, üzvləri arasında qarşılıqlı iqtisadi-siyasi yardım prinsipi əsasında qurulmuş, xaricə qapalı (yəni kənar adam və təşkilatlardan gizli), bu səbəbdən də mürəkkəb struktura malik olan beynəlmiləl bir təşkilatdır. Bu təşkilata mənsub olanlara «**mason**» və ya «**farmason**» deyilir. «Mason» kəlməsinin mənası divar ustası (bənna), «farmason»unku isə azad mason (azad divar ustası) deməkdir. Əslində, bu təşkilatın bənnalıq və ustalıqla heç bir əlaqəsi yoxdur. Bu adlar rəmzi xarakter daşıyır və təşkilatın tarixi kökləri ilə bağlıdır.

Masonluğun tarixi çox qədimdir. Simvolları üzvlərinin təlimi zamanı istifadə etdikləri, inandıqları, təkrarladıqları əfsanə və rəvayətlərdən, böyük əksəriyyəti isə yəhudiliyin (musəviliyin) əfsanəvi tarixindən alınmışdır. Yəhudiliyin məşhur **Solomon (Süleyman)** məbədinin inşasında çalışan usta **Adon Heram Abif** masonluğun ən canlı və təsirli obrazlarından biridir. Masonluq dərəcəsinə görə (ən yaxşı masonlar 33-cü dərəcəyə aid edilir) ilk 15 dərəcənin simvolik əsası bu **Heram** usta əfsanəsidir. İşçilərini «çıraq, qalfa, usta» deyə üç qrupa bölən və hər qrupa ayrı-ayrı maaş verən **Heram** bir dul qadının oğludur və rəvayətə görə Şərqdə doğulmuşdur. Böyük usta olan **Adon Heram Abif** özünün üç işçisi tərəfindən öldürülmüşdür. Bu rəvayətdə təsvir edilən hadisə ətrafındakı hər bir şey (şərq, dul qadın, usta, çıraqlıq, qalfalıq, qatil, Heramın sirri, məbəd və s.) masonlar üçün müəyyən bir simvolik məna daşıyır. Masonluq orta əsrlərdə usta və qalfaların təşkil etdikləri lojalar (əsnaf təşkilatları) əsasında formalaşıb inkişaf etmiş, dövrümüzə bütün dünya ölkələrini əhatə edən, çoxsaylı özək və dayaq dəstələri ilə hörümçək torunu xatırladan bir super təşkilat şəklində gəlib çıxmışdır. Bunlar leqal və qeyri-leqal fəaliyyət göstərməsindən asılı olmayaraq, həmişə və hər yerdə bənnalıq və memarlıq atributlarını öz təşkilatlarına rəmz (emblem) seçmişlər.

* Bu məqalə 1990-cı illərdə «Müsavat» qəzetində çap olunmuşdur.

Həmin rəmzlər içərisində bənna önlüyü, xətkeş, pərgar, mala, sütun və bəzən də quru insan kəlləsi ən çox rast gəlinən emblemlərdəndir.

Təşkilata daxil olanlar qapalı və qaranlıq otaqlarda gözləri bağlı şəkildə mərasim ənənələrinin icrasından keçir. Daha sonra «**loja**» adlanan özək və ya dayaq dəstəsinə təhkim edilirlər. Çıraqlıqdan başlayan bir mason lazım olan təlimi keçdikdən sonra dərəcəsi yüksəlir. Dərəcələr yüksəldikcə üzvlərin lojalara mənsubluğu da dəyişir. Kamilləşmə ustalığa qədər davam edir. Mason lojadan lojaya keçdikcə, cəmiyyətdə də təşkilat üzvlərinin köməkliyi ilə yüksəlir, dövlət idarələrində yüksək vəzifələrə itələnir.

Mason təşkilatının üst təbəqəsini təşkil edən «böyük ustadların» hamısı bilavasitə yəhudilərdir. Onlar beynəlxalq sionizmin aparıcı simalarıdırlar. Sionist təşkilatının üst qurumu olan mason lojalar sisteminin başında duran şəxsə (onun şəxsiyyəti çox zaman məlum olmur) Məşriki-Əzəm deyilir. Bu şəxsin İsrailin «Mossad» kəşfiyyat servisi və ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsi ilə sıx işbirliyi içində olması haqda fikirlər mövcuddur.

Masonluğun bugünkü formada təşkilata çevrilməsi 1717-ci ildə London Böyük Lojasının qurulması ilə başlanmışdır. Modern masonluğun tarixi 1717-ci ilin 20 sentyabrından hesablanır. Bu quruluş çoxdan tacir və ustalar təşkilatı deyil, böyük informasiya kralları, sahibkarlar, mafiozlar, siyasi xadimlər, ziyalılar, dövlət adamlarını və başqalarını varlanmaq, qazanc əldə etmək ideyası ətrafında birləşdirən nəhəng bir mexanizmdir. Heç şübhəsiz ki, qazanc və varlanmaq ideyası, üzdə olan sıravi üzvlər üçün (yəhudi olmayanlar) nəzərdə tutulmuş və sionistlərin dünya ağalığına yönəlik hərəkatını gizlətmək məqsədi daşıyır.

Təşkilat yəhudi keşişi (papaz) olan **Anderson** tərəfindən hazırlanan, 1723-cü ildə Böyük Loja tərəfindən qəbul edilərək çap etdirilən və zaman-zaman təkmilləşən «**Mason qanunlar toplusu**» əsasında fəaliyyət göstərir. Bu təşkilatın üzvləri Amerika istiqlalı, Fransa inqilabı kimi böyük tarixi və siyasi hadisələrdə və dövlətlərin idarəsində mühüm rol oynamışlar. Amerikanın «İstiqlal Bəyannaməsi» və fransız inqilabının «İnsan hüquqları və vətəndaş

haqları bəyannaməsi» masonluq prinsipləri əsasında hazırlanmış və bütün dünyaya təsir etmişdir.

Masonlar öz inanc və düşüncə sistemlərini həqiqəti araşdıran və bu səbəbdən də mistizmi inkar edərək elmi metodu mənimsəyən, ağıla və insana dəyər verən bir sistem kimi qələmə verirlər. Onlara görə din insan azadlığını öldürən ən mühüm faktordur. Bu faktor elmin də düşmənidir. Masonlar bütün dinlərə qarşı düşmən olsalar da, bu düşmənçilik musəviliyə aid edilmir. İslama qarşı isə bütün qəddarlıqları ilə mübarizə aparırlar. Masonlar dünyanın ən iri banklarına, qəzet və jurnallarına, radio və televiziya kanallarına, informasiya şirkətlərinə sahibdirlər. Dünyanın bir çox birjaları da onların əlində cəmləşmişdir. Bir sözlə, beynəlxalq maliyyə əməliyyatları bilavasitə masonların nəzarəti altındadır. İnformasiya monopoliyasına sahib olmaları masonlara dünya ictimaiyyətinin rəyini idarə etməyə və bu yolla da qlobal siyasətə müdaxilə etməyə imkan verir. Onlar uzun müddət dünya siyasətinə sosial-demokrat və marksist partiyalar vasitəsilə də müdaxilə etmişlər. Doğrudur, IV İnternasional masonluğu rədd edən bir qərar qəbul etmişdi. Fransa Kommunist Partiyası da masonluqdan ayrılmayan üzvlərini xaric edəcəyini bildirmişdi, lakin bu, ümumi vəziyyətə heç cür təsir edə bilməmişdir.

Bu gün masonluq Azərbaycana da sirayət etməkdə, vətənimizi öz hörümçək toru ilə sarımaqdadır. Masonluğun Azərbaycana bir neçə sızma kanalı mövcuddur. Bu kanallardan birincisi Azərbaycanda yaşayan yəhudilərdir ki, onların vasitəsilə artıq Quba, Bakı və Göyçayda gizli mason lojaları təşkil edilmişdir. Bu lojalar özündə Şirvan mafiyasının üzvlərini və bir sıra ziyalıları birləşdirir.

Masonluğun Azərbaycana ikinci sızma kanalı Türkiyədir. Masonluq hələ Türkiyədə 1723-cü ildən sistemli şəkildə kök salmağa başlamış və 1738-ci ildə, o zaman Osmanlı imperiyasının tərkibində olan Hələb şəhərində (Suriya) ilk lojasını qurmuşdu.

1856-61-ci illərdə Türkiyədəki mason lojalar İngiltərə Böyük Lojasına bağlandı. **Sultan II Əbdülhəmid xan** dövründə masonluq Türkiyədə qadağan edildi və bu səbəblə də sultan əleyhinə ölkədə və dünyada geniş təbliğat aparılmağa başlandı. Yeri gəlmişkən qeyd edək ki, məhz bu səbəbdən də **Sultan II Əbdülhəmid xan** indiyə qədər də

bir çox ziyalıların təfəkküründə mənfi obraz kimi həkk olunmuşdur. **Sultan II Əbdülhəmid xanın** devrilməsində də masonlar bilavasitə rol oynamışlar. Bundan sonra onların fəaliyyəti üçün yeni bir dövr açılmış və 1909-cu ildə «Türkiyə Böyük Lojası» qurulmuşdur. 1935-ci ilə qədər fəaliyyət göstərən bu loja Atatürk tərəfindən ləğv edilmiş və mason olan daxili işlər naziri **Şükrü Qayanın** əli ilə masonluq dağıdılmışdır.

1946-cı ildə masonluq «Türkiyə Yüksək Şurası» adı altında yenidən fəaliyyətə başladı. «Türk Yüksəltmə Cəmiyyəti» adı ilə yad edilən «Türkiyə Böyük Lojası» 1964-cü ildə Şotlandiya, 1970-ci ildə isə İngiltərə Böyük Lojasına bağlandı.

Türkiyə masonları ilə Azərbaycanın bir sıra hakim dairələri arasında sıx əlaqə yaranmaqda və inkişaf etməkdədir. Azərbaycana masonluğun üçüncü sızma kanalı, heç şübhəsiz ki, **psevdodemokratlar** və onların təşkilatlarıdır. Ümumiyyətlə, Azərbaycan müxalifətinin tədricən beynəlxalq mason təşkilatının bir qoluna çevrilməsi üçün güclü iş gedir. Masonların bütün dünyada olduğu kimi ilk hədəfi millətçilərdir. Millətçilərə qarşı mübarizə hər yerdə «demokratiya» pərdəsi altında aparılır. Bu baxımdan qərbpərəst «ziyalılar» (rus təhsili görmüşlər və metislər başda olmaqla) mAsonların əlində asanlıqla silaha çevrilirlər. Mason təbliğatı ilə beyni zəhərlənmiş və **kosmopolitizmi** özlərinə bayraq edən ziyalıların millətçilərə qarşı aqressiv mövqe tutmaları təbii hal alır. Artıq demokratik mətbuatda bu aqressivliyin əlamətləri hiss olunmaqdadır.

Masonluğun Azərbaycanda hədəf götürdüyü ikinci faktor İslamdır ki, masonlar türkçülüyü ona qarşı qoymaqla diqqəti özlərindən yayındırmağa çalışırlar. Belə bir şəraitdə millətçi siyasətçilərin sayıq olmaları, təbliğatlarında türk-islam sintezi ideyalarına üstünlük vermələri əsas şərtlərdəndir.

**MÜNDƏRİCAT**

ÖN SÖZ 3

*Lodliy Petroviç Zamoyski*
«MASON MƏBƏDİ ARXASINDA» 7

*T.e.d. V.Startsev*
«GÖRÜNƏN HAKİMİYYƏTİN PƏRDƏARXASI» 55

*P.A.Orlov*
RUS SENTİMENTALİZMİ 98
*Sentimentalizm və Masonluq.*

*Lev Nikolayeviç Tolstoy*
«HƏRB VƏ SÜLH» 127

*B.İ.Nikolaevski.*
RUS MASONLARI VƏ İNQİLAB 149
*D.Bebutov. «XX əsrin rus masonluğu»*

*B.A.Peçnikov*
KİLSƏ CƏNGAVƏRLƏRİ. KİMDİR ONLAR? 170

*Masonlar:*
*"Görünməz hakimiyyətin mərkəzi"*

*Necdet Sevinc*
«ORDULAR, MASONLAR
VƏ KOMMUNİSTLƏR» 189
- *Yəhudi dövlətimi*
- *Üç gizli raport*
- *Onuncu fəsil. Türkiyədə*
TÜRKİYƏ MASONLARI
TARİXİNDƏN 213

*Cavad Rüfət Atilxan*
ÖZ VƏSİQƏLƏRİNƏ GÖRƏ
MASONLUQ NƏDİR? 242

*Stefan Nayt*
«QARDAŞLIQ» MASONLUĞUN
GİZLİ DÜNYASI 256
- *İşçi lojasından gizli cəmiyyətə*
- *DTK ilə əlaqə. İtaliya böhranı*

*A.İ.Serkov*
İKİNCİ DÜNYA
MÜHARİBƏSİNDƏN SONRA
RUS MASONLUĞU TARİXİNDƏN 280

- *Müqəddimə*
- *Masonluğun Rusiyaya qayıtması*

*Rəhim Rəisniya*
İRAN VƏ OSMANLI
XIX ƏSRİN ASTANASINDA
295
- *Mirzə Mülküm xan*
- *Mason halqası. Moinəlmülk*

*K.N.Smirnov*
NAXÇIVAN ÖLKƏSİNİN TARİX
VƏ ETNOQRAFİYASINA DAİR
MATERİALLAR 346

*Hüseyn Həşimli*
NAXÇIVANDA FARMASONLUQ:
TARİXDƏ VƏ ƏDƏBİYYATDA
347

*Bəxtiyar Tuncay*
MASONLUQ VƏ AZƏRBAYCAN
350

# MASONLAR

*Kompyuter tərtibatı:*
**Sahib Qəniyev**

*Operatorlar:*
**Elmira Məmmədova,**
**Samirə Ağamirzəyeva,**
**Aygün Hüseynova**

Çapa imzalanmışdır: 11.03.2010
Formatı 60x84 1/16. Fiziki ç/v 23,0.
Tirajı 500.

QANUN NƏŞRİYYATI
***Bakı, AZ 1102,***
***Tbilisi pros., II Alatava 9.***
***Tel:*** *431-16-62;*
*493-84-30; 431-38-18*
***E-mail:*** *xuduoglu@gmail.com*
***Web:*** *qanun.az*